PREZİDENT İLHAM ƏLİYEV

İKİNCİ CİLD

İNKİŞAFIN AZƏRBAYCAN YOLU

(«NARINCI» FƏLAKƏTDƏN QURTULUŞ)

Buraxılışa məsul **Ramiz Mehdiyev**
Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü

Elmi redaktor **Əli Həsənov**
Tarix elmləri doktoru, professor

Məsləhətçi **Sədi Nuriyev**
Filologiya elmləri doktoru

ABUTALIB SƏMƏDOV.
Prezident İlham Əliyev. İnkişafın Azərbaycan yolu. («Narıncı» fəlakətdən qurtuluş) . -Bakı, 2007. – 574 səh.

«Prezident İlham Əliyev» çoxcildliyinin « İnkişafın Azərbaycan yolu. («Narıncı» fəlakətdən qurtuluş)» adlanan ikinci cildi qaragüruhçu müxalifətin 2003-2005-ci illərdə hakimiyyəti zorakı vasitələrlə ələ keçirmək planlarının təhlil-şərhinə və Azərbaycan prezidentinin bu cəhdlərin qarşısını almaq üçün həyata keçirdiyi müdrik sistem tədbirlərə, böyük bir regionu narıncı fəlakətdən xilas etməsinə həsr olunub.

SSRİ-nin dağılması prosesində şərqi Avropada geniş vüsət alan məxməri inqilablar dalğasından və postsovet məkanında baş verən zahirən oxşar proseslərdən ruhlanan «demokratik qüvvələr» güman edirdilər ki, xalqın dəstəyinin olmamasını xarici qüvvələrin yardımları ilə kompensasiya etmək mümkün olacaq və ekstremistlər zorakılıq üçün hazırlanmış xüsusi dəstələrin vasitəsilə hakimiyyəti ələ keçirəcəklər.

Lakin xalqın böyük dəstəyinə arxalanan Azərbaycan prezidentinin qətiyyətli addımları bu planları puça çıxardı və bununla təkcə ölkəmizi deyil, bütün postsovet məkanını narıncı bəladan qurtardı. Bir daha təsdiq olundu ki, xalqın inam və məhəbbətindən böyük qüvvə yoxdur. Bu möhtəşəm qüvvədən məhrum olanlar heç bir xarici dəstəyin köməyi ilə uğur qazana bilməzlər.

«Bir hadisənin qarşısını almaq o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır».
H.Əliyev

« Siyasətçinin ən mühüm məziyyəti gələcək hadisələri düzgün qiymətləndirib vaxtında tədbir görməsidir».
U.Çörçill

«Cəsur insan möcüzəyə qadirdir».
A.Avqustin

«Cəsarətli və müdrik insanlar dünyanın yaraşığıdırlar».
İtalyan atalar sözü



ÖN SÖZ

«Azərbaycan Prezidenti İlham Əliyev təkcə öz dövlətini deyil bütün postsovet məkanını narıncı fəlakətdən xilas etdi. Əgər o, həlledici məqamda bəzi qonşu dövlətlərin rəhbərləri kimi qorxsaydı, ekstremistlər qarşısında tərəddüd etsəydi, böyük bir regionu əhatə edəcək sonrakı dəhşətli faciələrin qarşısını almaq mümkün olmayacaqdı» .

Bu sözləri dəfələrlə keçmiş Sovetlər İttifaqının müxtəlif respublikalarının müxtəlif vəzifəli şəxslərindən eşitmişəm. Onların içərisində rus da var, qazax da, özbək də, tacik də. Çox müxtəlif peşələri təmsil etsələr də onları bir şey birləşdirir: vətən sevgisi, xalqını, millətini siyasi avantüristlərin törətməyə çalışdıqları faciələrdən, fəlakətlərdən qorumaq istəyi. Azərbaycan Prezidenti İlham Əliyevə çox böyük dəyər vermələri, ehtiram göstərmələri bu amillə də bağlıdır.

Azərbaycandan kənarda olarkən bu cür münasibəti görmək, dövlətimiz və onun dəyərli Prezidenti haqqında xoş sözlər eşitmək insana qol-qanad verir, onun ruhunu təzələyir. Bir tərəfdən, qürur hissi duyursan, digər tərəfdən, təəssüflənirsən ki, öz doğma torpağında bu həqiqətləri hələ də dərk etməyən insanlar var və onlar təkcə anlamamaqla kifayətlənmir, üstəlik, şər-böhtan söyləyərək öz dövlətini və Prezidentini gözdən salmağa çalışırlar. Ancaq yezuitlərin məşhur «böhtan at-izi qalsın» kimi təlimlərini rəhbər tutan bu zavallılar anlamırlar ki, göstərdikləri cəhdlər əbəsdir – Günəş ləkə götürmür! Narıncı inqilablar və onların bəzi respublikalarda törətdikləri faciələr haqqında həqiqətləri xalqımız yaxşı bilir. «İnqilablar o yerdə olur ki, orada xalqla iqtidar arasında uçurum var, inamsızlıq var, ümumiyyətlə, iqtidar

dəstəklənmir. Azərbaycanda isə vəziyyət tamamilə başqadır. Prezidentin reytinqinə baxın. Ən yüksək həddədir. Bunu demək, bəlkə də, mənim üçün yaxşı deyil, amma bu, həqiqətdir. Bizim gördüyümüz bütün işlərin bir məqsədi var ki, ölkəmiz daha da güclü olsun, Azərbaycanın nüfuzu qalxsın, sosial məsələləri həll edək. Belə olan şəraitdə, adətən, inqilablar baş vermir. İnqilablar o yerdə baş verir ki, iqtisadi vəziyyət pisləşir, sosial vəziyyət pisləşir, yaxud da iqtidar hansısa addımlar atır və bunlar xalq tərəfindən mənfi qarşılanır. Azərbaycanda bunların heç biri yoxdur və olmayacaq da. Mən də çalışacağam bundan sonra da elə işləyim ki, xalq həmişə məni dəstəkləsin». Bu fikirləri Prezident İlham Əliyev 2005-ci ilin martında bəyan etmişdi (1).

Bu, Azərbaycanın gələcək inkişafımız üçün müstəsna əhəmiyyətli siyasi hadisəyə – parlament seçkilərinə – hazırlaşdığı və buna müvafiq olaraq ölkədə ictimai-siyasi aktivliyin yüksəldiyi bir dövr idi. Üstəlik, bu aktivlik cəmiyyətdə geniş rezonans yaratmış kriminal olayların (tanınmış jurnalistin qətlə yetirilməsi, insan oğurluğu ilə məşğul olan mütəşəkkil dəstənin ifşası və uzun illər bağlı qalan bir sıra ağır cinayətlərin üstünün açılması və s.) fonunda cərəyan edirdi və bundan yararlanmaq istəyən müxalif qüvvələr siyasi ehtirasları körükləmək üçün bütün imkanlarını işə salmışdılar. Nəhayət, bu həm də postsovet məkanında seçkilərin ard-arda hakimiyyət dəyişikliklərinə döndüyü, Gürcüstan, Ukrayna və Qırğızıstandakı bəlli olaylardan sonra «məxməri inqilab»ların sanki qaçılmaz geosiyasi axın halına gəldiyi bir dövr idi.

2003-cü ilin prezident seçkilərindəki ağır məğlubiyyətdən sonra özünə gəlməyə çalışan radikal müxalifət yaranmış vəziyyəti «X saatı» sayaraq ictimai rəyə Azərbaycanda «inqilab»ın labüdlüyünü təlqin etmək üçün məhz bu dövrdə total səfərbərlik elan etmişdi. Qəzetlərin səhifələri «inqilab» tematikası ilə dolub-daşır, müxalifət partiyalarının bütün toplantıları «məxməri hava»

üstündə köklənir, yerli və xarici politoloqların bu mövzuda nəzəri təhlilləri, proqnozları üst-üstə qalanırdı. Bir sözlə, zahiri əlamətlərinə görə, ölkədə bir «inqilab» bumu yaşanırdı.

Baxmayaraq ki, bütün bunlar reallıqdan uzaq, daha çox müxalifət dairələrinin cızdığı illüzor müstəvidə cərəyan edirdi. İctimai rəyin hər gün ona təqdim olunan siyasi intibahnamə porsiyalarına tam laqeyd qaldığını da demək olmazdı. Cəmiyyətdə bu mövzuya daha çox həvəskar maraq hakim idi. Əksər müxalifət dairələrinin canfəşanlıqla gündəmə gətirməyə çalışdığı «inqilab» iddialarının Azərbaycanın mövcud reallıqları fonunda qeyri-mümkün, daha dəqiqi, avantürist mülahizələr olduğunun fərqində idi. Çünki müxalifət ideoloqları və müxalifət mətbuatı digər postsovet ölkələrində baş vermiş olayları Azərbaycanın ictimai-siyasi müstəvisinə inikas etdirməyə nə qədər səy göstərsələr də, cəmiyyət bütövlükdə, ölkə prezidentinin də vurğuladığı kimi, Azərbaycandakı vəziyyətin tamamilə başqa olduğunu görürdü. Xalqla hakimiyyət arasında gerçək inam və etimad atmosferinin möhkəm olduğu bir ölkədə inqilabi sarsıntının qeyri-reallığını dərk etmək üçün xüsusi politoloji savada gərək yoxdur.

Bu baxımdan 2005-ci ilin əvvəlindən Azərbaycanda (və ondan kənarda) bir para qüvvələrin qızışdırıb şişirtməyə cəhd etdiyi «inqilab» ideyası əvvəlcədən iflasa məhkum idi. Digər yandan, cəmiyyət əksəriyyət etibarilə yaxşı başa düşürdü ki, bu, Azərbaycanda, demək olar ki, hər seçki yarışını müşayiət edən və əslində müxalifətin öz mövcudluğunu bildirmək cəhdindən savayı bir şey olmayan növbəti siyasi kampaniyadır. 1992-ci ildə faktiki hakimiyyətsizlik şəraitində iqtidara gələn və bircə ilin içində siyasi güvəsini büsbütün itirib Azərbaycan dövlətini iflas həddinə gətirən qüvvələr xalqın tələbi ilə siyasi səhnədən düşürüldükdən sonra dəfələrlə bu cür iddialara baş vurmuşdular. 1993-cü ildən sonrakı seçkilərə ötəri nəzər salsaq, görərik ki, həmin qüvvələr hər dəfə

inqilabi dəyişikliklər vədi və «biz gəlirik!» ədası ilə gündəmi zəbt etməyə çalışsalar da nəticədə uğursuzluğa düçar olmuşdular.

Əslində, 2003-cü ilin oktyabrındakı prezident seçkilərində aldıqları məğlubiyyət bu qüvvələr üçün siyasətdə «sonuncu payız» sayıla bilərdi. Normal siyasi davranış və mübarizə prinsipləri ilə fəaliyyət göstərən partiya liderləri hər hansı başqa ölkədə bu qədər dalbadal məğlubiyyətdən sonra ya birdəfəlik, ya da - heç olmasa, uğursuzluqlarını saf-çürük etmək üçün - müvəqqəti olaraq siyasət səhnəsini tərk edərdilər. Azərbaycanda isə hədsiz siyasi ambisiyaları ilə real imkan və bacarıqlarını heç cür uzlaşdıra bilməyən müxalifət liderləri 2005-ci ilin parlament seçkilərində «bəxtlərini bir daha sınamaq» qərarına gəlmişdilər.

Qeyd etdiyimiz kimi, onlara bu yöndə siyasi iştaha verən mühüm faktorlardan biri 2003-cü ilin noyabrından 2005-ci ilin martınadək postsovet məkanının üç ölkəsində hakimiyyətin «məxməri inqilab» yolu ilə dəyişməsi idi. Odur ki, həmin olaylardan eyforiyaya düşən bizdəki müxalifət rəhbərləri də, məşhur bir kinofilmdəki məsəldə deyildiyi kimi, «əgər bu inqilablar xaricdə olursa, niyə bizdə də olmasın», - deyə siyasi fantaziyalara qapılmışdılar.

«Prezident İlham Əliyev» çoxcildliyinin «İnkişafın Azərbaycan yolu. («Narıncı» fəlakətdən qurtuluş)» adlanan ikinci cildi siyasi qaragüruhun 2003-2005-ci illərdə «məxməri inqilab» pərdəsi altında zorakı vasitələrlə hakimiyyətə gəlmək cəhdinə və dövlət başçımızın bu zorakılığın qarşısını almaq üçün, Azərbaycanda nail olunan yüksək inkişafın davamlılığının təminatı üçün atdığı addımlara həsr edilmişdir.

BİRİNCİ FƏSİL

ŞƏRQİ AVROPADA MƏXMƏRİ İNQİLABLAR

«Ümid bəslədiklərin səni məhv edə,
saymadıqların isə xilas edə bilər».
Ezop

«Böyük vədlər etibarı azaldır».
K.Horatsi

«Məxməri inqilab»ların anatomiyasını və onların ayrı-ayrı ölkələrdəki nümunələrini gözdən keçirəndə, bunların heç də spontan xalq çıxışları olmadığı, həm daxili siyasi, həm də beynəlxalq (geosiyasi) faktorların məcmu nəticəsi kimi meydana gələn proseslər olduğu üzə çıxır. Ola bilsin ki, hansısa konkret halda daxili və ya xarici amillər üstünlük təşkil edib, amma nəticə (inqilab) məhz onların zaman və şərait baxımdan üst-üstə düşməsi sayəsində mümkün olub. Məsələn, ötən əsrin 80-ci illərinin sonunda Şərqi Avropadakı sosialist ölkələrində baş verən və prinsip etibarilə elə «məxməri inqilab» anlayışını da siyasi tarixə və politologiya elminə gətirən rejim dəyişikliklərində məhz xarici (geosiyasi) faktorların həlledici rol oynadığını qeyd edə bilərik.

Əslində, «məxməri inqilab»lar mahiyyət etibarilə elə beynəlxalq müstəvidəki qlobal geosiyasi mübarizənin, ABŞ başda olmaqla Qərb dünyasının SSRİ və sosialist düşərgəsi ilə apardığı «soyuq savaş»ın nəticəsi olaraq meydana gəlib və onların Şərqi Avropada qələbə çalması da bu mübarizədən hansı tərəfin qalib çıxdığını göstərirdi. Həmin dövrdə Şərqi Avropa ölkələrində, demək olar ki, sinxron şəkildə meydana gələn inqilablar labüd bir proses idi. Çünki 80-ci illərin sonuna doğru kommunizm ideologiyası, sosialist sistemi artıq tükənmişdi və bu

ölkələrdə köklü rejim dəyişikliyi, liberal siyasi və iqtisadi sistemə keçid qaçılmaz idi.

Odur ki, bu rejim dəyişiklikləri, bir tərəfdən, sosialist düşərgəsinin dağılması ilə müşayiət olunurdusa, digər tərəfdən, Amerika Birləşmiş Ştatlarının (Qərbin) beynəlxalq nüfuz dairəsinin genişlənməsinə yol açırdı. Şərqi Avropada kommunizmin süqutu bütövlükdə dünya düzəninin dəyişməsinə gətirib çıxardı. Nəticə etibarilə bu inqilabi proseslər SSRİ-nin özündə (Baltikyanı respublikalardan başlayaraq) ciddi siyasi kataklizmlərə və onun süqutuna təkan verdi. Tanınmış fransız politoloqu və beynəlxalq icmalçısı Pyer Qalua bununla bağlı haqlı olaraq qeyd edir ki, Şərqi Avropadakı «məxməri inqilab»lar geosiyasi, sosial-iqtisadi, ideoloji və s. nəticələrinə görə, beynəlxalq vəziyyətə 2-ci Dünya müharibəsində faşizmin məğlubiyyətinə də sarsıntılı təsir göstərdi, «çünki bu olaylar dünyadakı qüvvələr nisbətini kökündən dəyişdi» (2).

Bütün digər inqilablar kimi, «məxməri inqilab»ların da son məqsədi onu sifariş edənlərin strateji niyyət və maraqlarının təmin olunmasından ibarətdir. Bu baxımdan 1989-cu ildə Şərqi Avropada zəfər yürüşü edən «məxməri inqilab»lar, sözsüz ki, hər şeydən öncə Amerika Birləşmiş Ştatlarının layihəsi idi, onun qlobal geosiyasi maraqlarına xidmət edirdi və həmin mahiyyətini daha sonrakı proseslərdə (o cümlədən ən son postsovet məkanındakı inqilablarda) bir daha göstərmiş oldu. «Məxməri inqilab»ların digərlərindən üstün cəhəti isə ondadır ki, bu prosesin yayılması, məsələn, kommunist ideologiyalı «inqilab eskportu»ndan fərqli olaraq, qanlı toqquşmalara, vətəndaş müharibələrinə, sosial və siyasi böhrana yol açmadan, daha sakit məcrada gerçəkləşir. Hərçənd, bu özəlliklər də konkret şəraitdə nisbi xarakter daşıyır. Buna misal olaraq 1989-cu ildə, digər

Şərqi Avropa ölkələrindən fərqli olaraq, Rumıniyadakı inqilabın hansı qırğınlarla müşayiət olunduğunu xatırlamaq kifayətdir.

«Məxməri inqilab»lar ötən əsrin 80-ci illərinin sonunda Şərqi Avropadakı olaylarla tarixə düşsə də, siyasi çevriliş modeli olaraq ondan öncə konkret şəraitlərdə sınaqdan keçirilmişdi. Bu xüsusda 1956-cı ildə Macarıstanda baş verən olayları, ələlxüsus da 1968-ci ildə Çexoslovakiyada («Praqa baharı») yaşanan prosesləri qeyd etmək lazımdır. Lakin həmin olaylarda ABŞ və müttəfiqlərinin Şərqi Avropanı SSRİ-nin diqtə dairəsindən qoparmaq uğrunda «məxməri» cəhdləri uğursuz olmuşdu. Çünki Sovet İttifaqının mövqe və resursları hələ kifayət qədər möhkəm idi. Bununla belə, həmin olaylar, xüsusilə Çexoslovakiya təcrübəsi bu istiqamətdə növbəti addımların siyasi texnologiyasının hazırlanması üçün müəyyən əsas oldu və «məxməri inqilab» (çex dilində «sametova revoluce») terminin siyasi leksikona düşməsi ilə yadda qaldı.

Üstündən 12 il keçəndən sonra, 1980-ci ildə növbəti «məxməri» layihə sosialist düşərgəsinin SSRİ-dən sonra ikinci böyük ölkəsi olan və Qərbin geosiyasi planlarında xüsusi yer tutan Polşada sınaqdan çıxarıldı. Düzdür, «Solidarnost» («Həmrəylik») həmkarlar ittifaqının başçılıq etdiyi hərəkat ilk cəhddə məğlub oldu, Moskvanın təlimatlarını nəzərə alan Polşanın kommunist lideri, marşal Voytsex Yaruzelski fövqəladə vəziyyət elan edərək müxalifət liderlərini sürgün etdi. Amma elə bu proseslər nəticə etibarilə Polşada kommunist rejiminin süqutunu sürətləndirmiş oldu. Qərbin iqtisadi blokadaya aldığı Polşanın iqtisadiyyatı tədricən çökməyə və ölkədə sosial narazılıq dalğasına yol açmağa başladı. Qərblə iqtisadi tərəzidə ayaqlaşa bilməyən SSRİ-nin Polşa kimi böyük ölkəni dotasiyada saxlamaq imkanı məhdud idi. 1985-1986-cı illərdə SSRİ-nin

özünün iqtisadi resursları «su üzünə çıxandan» sonra isə bu, ümumiyyətlə, mümkün deyildi.

Bu arada ABŞ «məxməri çevriliş» ssenarisini Avropadan uzaqda, Filippində ilk dəfə uğurla həyata keçirdi. 1986-cı ildə artıq dördüncü dəfə ölkə başçısı seçilmək istəyən prezident Markos kütləvi tələbə iğtişaşları və bunun ardınca ordu rəhbərliyinin iğtişaşlara dəstək verməsi ilə devrildi. Bu olayların ən diqqətçəkən cəhəti isə bu idi ki, devrilən prezident Markos məhz Amerika Birləşmiş Ştatlarının adamı idi və vaxtilə onun dəstəyi ilə hakimiyyətə gəlmişdi. Bununla belə, 1986-cı il seçkilərində Markosun əhali arasında nüfuzunun qalmadığını görən Vaşinqton onu dəyişmək qərarına gəldi. Çünki əks təqdirdə proseslərin inkişafı arzuolunmaz istiqamətdə gedər və hakimiyyətə Amerikaya dost olmayan başqa qüvvə gələ bilərdi. Bu baxımdan Filippin inqilabı Amerika üçün strateji deyil, taktiki əhəmiyyət kəsb edirdi.

Eyni zamanda, bu hadisə göstərdi ki, Amerika Birləşmiş Ştatlarının geniş siyasi və maliyyə resursları sərf etdiyi «məxməri inqilablar» yalnız qlobal geosiyasi nüfuz savaşının nəticəsi olaraq ortaya çıxan rejim dəyişikliyi deyil. Bu inqilablar həm də o ölkələrdə həyata keçirilir ki, orada hakimiyyət başında Amerikaya loyal qüvvə dayansa da, Amerikanın maraqları potensial təhlükə altına düşmüş olur. Bu situasiya 2003-cü ildə Gürcüstandakı proseslərdə daha bariz şəkildə özünü göstərdi. Eduard Şevardnadze Qərbin adamı kimi tanınırdı, «lakin o, son dövrlərdə artıq əvvəlki siyasi mövqelərində dayana bilmirdi və Rusiyanın təzyiqləri qarşısında geri çəkilməyə başlamışdı» və «qızılgül inqilabı» qələbə çalmasaydı, Gürcüstanda hakimiyyət Rusiyayönlü qüvvələrə, məsələn, Aslan Abaşidzeyə qismət ola bilərdi (3).

Qeyd etdiyimiz kimi, 1989-cu il Şərqi Avropada «məxməri inqilab»ların yürüş ili oldu. Çexoslovakiyada, Polşada, Macarıstanda, Bolqarıstanda kommunist rejimləri bir güllə belə atılmadan devrildi. Üstəlik Çexoslovakiyada 1968-ci ilin, Polşada isə 1980-ci ilin antikommunist hərəkatlarının liderləri olmuş dissidentlər hakimiyyətə gəldilər. Bu inqilabi dəyişikliklərin əsas güc və istiqamətverici mərkəzi isə ilk baxışdan aktiv antikommunist çıxışlarından və siyasi küləklərdən bir qədər kənarda qalmış kimi görünən Şərqi Almaniya – ADR idi. Əslində 80-ci illərin sonunda Avropada baş verən qlobal dəyişikliklərin kilid ölkəsi məhz ADR olmuşdu, «soyuq müharibə»nin ön xətti də buradakı «Berlin divarı»ndan keçirdi. Eyni zamanda, Şərqi Almaniya sosialist sistemi ilə azad bazar və liberal siyasi dəyərlərin hakim olduğu Qərb dünyası arasında qlobal yarışın ön xətti idi və birincinin ikinciyə tədricən uduzması da burada daha bariz nəzərə çarpırdı.

Təsadüfi deyil ki, Sovet İttifaqının Şərqi Avropadan praktik olaraq sıxışdırılıb çıxarılması da Almaniyanın birləşməsi ilə başlandı. 1989-cu ilin iyununda SSRİ prezidenti Mixail Qorbaçovun Qərbi Almaniyaya (AFR) səfəri zamanı imzalanan siyasi bəyannamədə əlamətdar bir müddəa yer almışdı. Sənəddə hər bir dövlətin öz siyasi və iqtisadi sistemini seçməkdə azad olduğu vurğulanırdı. Bununla Moskva ADR-in sosialist düşərgəsini tərk edərək Qərbi Almaniya ilə birləşməsinə siyasi «dobro» vermiş oldu. Daha doğrusu, Moskva buna məcbur idi, çünki Qərb həmin «dobro»nun müqabilində iqtisadi böhranın (bunun ardınca isə siyasi böhran qaçılmaz idi) astanasında olan SSRİ-yə maliyyə yardımı, kreditlər vəd etmişdi.

Bu arada (iyun 1989) Polşada ilk dəfə olaraq müxalifətin iştirakı ilə parlament seçkiləri keçirildi. «Solidarnost»un ətrafında birləşmiş qüvvələr («Dəyirmi masa») Seymdə 460

yerdən üçdə ikisini əldə etdi və müxalifət nümayəndəsi Tadeuş Mazoveski Polşanın baş naziri seçildi. Sentyabrda dəyişikliklər küləyi Macarıstana çatdı. Burada hakim Sosialist Partiyası müxalifətin seçkilərdə iştirakına və çoxpartiyalı siyasi sistemin yaradılmasına razılıq verdi. Avstriya Macarıstandakı dəyişikliklərə dəstək nümayişi olaraq bu ölkə ilə sərhəddini açdı.

Bununla belə, Şərqi Almaniyanın özündə proseslər heç də rəvan getmirdi. ADR-in kommunist lideri Erix Honekker Moskvanın Qərblə bazarlaşmasını təftiş edərək ölkənin kapitalizmin ağuşuna atılmasına qarşı çıxdı. Lakin artıq, Qorbaçovun sözləri ilə desək, proses başlanmışdı və onun dayandırılması mümkünsüz idi. Oktyabrın əvvəlində Berlinə səfər edən Qorbaçov bunu ADR rəhbərliyinin nəzərinə çatdırdı. Nəticədə Honekker istefa verməyə məcbur oldu, onu «yumşaq kommunist» Eqon Krens əvəzlədi, lakin ayyarımdan sonra o da vəzifədən getdi və ADR-in hakim Vahid Sosialist Partiyası sosial-demokrat təmayüllü Demokratik Sosializm Partiyasına çevrilərək tədricən siyasi səhnənin küncünə çəkilməli oldu. Noyabrda «Berlin divarı» sökülməyə başlandı və Almaniyanın birləşməsi üçün ABŞ və SSRİ-nin də iştirakı ilə danışıqlar start götürdü. Artıq geosiyasi müstəvidə həll olunmuş məsələnin «texniki» detallarını razılaşdırmaq lazım idi və bu proses 1990-cı ilin oktyabrında başa çatdı: Şərqi Almaniya heç də, Moskvaya söz verildiyi kimi, AFR-lə bərabər əsasda birləşmədi, sadəcə, onun tərkibinə daxil oldu. Birləşmiş Almaniyanın NATO-da yer almaması və neytral dövlətə çevrilməsi barədə Moskvaya verilən vəd isə kağız üzərində unudulmuşdu.

Bu müddətdə Çexoslovakiyada əvvəlcə tələbə-gənclərin, ardınca yaradıcı ziyalıların, sonra isə hətta Çexiya kardinalının da qoşulduğu dinc antikommunist çıxışlar Qustav Qusakın rəhbərlik etdiyi kommunist rejimini geri çəkilməyə vadar etmiş

və nəticədə Kompartiyanın Siyasi Bürosunun əksər üzvləri istefaya getmişdi. Dekabrda prezident Qusak da istefa verdi və müxalifətçi «Vətəndaş forumu»nun liderləri Vatslav Havel prezident, Aleksandr Dubçek isə parlamentin sədri seçildi. Eynilə də Polşada səlahiyyət müddəti başa çatan prezident Yaruzelski növbəti seçkilərdə iştirak etməyərək yerini «Solidarnost»un lideri Lex Valensaya verdi. Kommunist rejimlərin yeni hakimiyyətlərlə əvəzlənməsi Macarıstan və Bolqarıstanda da sakit şəkildə həyata keçdi. Özü də Bolqarıstanda bu proses bir növ sovet «perestroykası» üslubunda baş verdi. Əvvəlcə Bolqarıstana 30 ildən artıq rəhbərlik etmiş kommunist lider Todor Jivkov istefa verdi (noyabr 1989) və Bolqarıstan Kommunist Partiyasının (BKP) yeni rəhbərliyi (Petr Mladenov) yeniləşmə kursu elan etdi. 1990-cı ilin əvvəlində BKP adını dəyişərək Sosialist Partiyasına çevrildi, hətta parlament seçkilərində yerlərin yarıdan çoxunu əldə etdi. Lakin tezliklə bu partiya da parçalanaraq parlamentdə və bütövlükdə ölkədə hakim mövqeləri müxalifətçi Demokratik Qüvvələr İttifaqına verdi.

Yuxarıda qeyd etdiyimiz kimi, 1989-cu ildə Şərqi Avropada sosializm düşərgəsinin süqutu ilə nəticələnən «məxməri inqilab»lar seriyası hər şeydən öncə qlobal geosiyasi proseslərin, konkret olaraq bu düşərgənin başlıca qarantı olan Sovet İttifaqının Qərblə sistem mübarizəsində (ilk növbədə iqtisadi müstəvidə) məğlubiyyətinin nəticəsi idi. Məhz buna görə SSRİ-nin Şərqi Avropadakı satellitlərinin arxasından çəkilməsi oradakı kommunist rejimlərinin «domino effekti» ilə çöküşünü labüd etdi. «Çünki Şərqi Avropadakı sosialist ölkələri iqtisadi orqanizm baxımından SSRİ-yə bağlı idi və bu ölkələr üçün Sovet İttifaqının geosiyasi cazibə gücünü itirməsi avtomatik olaraq

onların yeni geosiyasi mərkəzin təsiri altına düşməsi ilə nəticələndi» (4).

Belə olan halda Şərqi Avropa ölkələrindəki hakim kommunist rejimlərin bu qlobal dəyişikliklərə müqavimət göstərməsi əbəs idi. Çünki məsələ, necə deyərlər, yuxarıda həll olunmuşdu və onlar bunu dərk edərək yerlərini yeni siyasi elitalara verməli oldular. Bu zəruri kompromisdən imtina edərək baş verən qlobal prosesə lokal miqyasda müqavimət göstərmək cəhdi isə, təbii ki, ağır fəsadlar doğura bilərdi və 1989-cu ilin dekabrında Rumıniyada yaşanan qanlı proseslər buna bariz misaldır.

Rumıniya inqilabı «məxməri» ssenaridən kənara çıxmaqla bərabər, həmçinin müəyyən mənada bu ölkənin kommunist rəhbərliyinin sosialist düşərgəsindəki digər həmkarları ilə müqayisədə yeritdiyi «dikbaş» və nəticə etibarilə ağılsız siyasətin nəticəsi idi. Rumıniya Kommunist partiyasının rəhbəri Nikolae Çauşesku hələ 1960-cı illərin sonundan başlayaraq Moskvadan məsafədə dayanmağa və müstəqil siyasət yeritməyə çalışırdı. O hesab edirdi ki, onun qurduğu kommunist rejimi Kremlin təlimatları olmadan da keçinə bilər. Bu baxımdan Çauşeskunun 1968-ci ildə Moskvanın Çexoslovakiyaya qoşun yeritmək təklifinə məhəl qoymaması, həmçinin 1979-cu ildə sovet qoşunlarının Əfqanıstana yeridilməsini dəstəkləməməsi diqqət çəkirdi. Digər yandan, Rumıniya «Varşava bloku»nda olsa da, bloklara qoşulmayan ölkələrlə («üçüncü dünya») sıx əlaqələrə malik idi.

Təbii ki, Buxarestin Moskvadan bu sərbəstliyi Qərbi qane edirdi və 1970-ci illərdən etibarən ABŞ və Qərbi Avropa ölkələri Rumıniya ilə iqtisadi əlaqələri genişləndirməyə, ona iri güzəştli kreditlər ayırmağa başlamışdılar. 1975-1985-ci illərdə Rumıniya Qərbdən 22 mlrd. (o cümlədən ABŞ-dan 10 mlrd.) dollar kredit

almışdı, borcların qaytarılması isə 1990-cı ildən başlanmalı idi. Bu arada 1985-ci ildə SSRİ-də başlanan «perestroyka» Rumıniyanın kommunist rəhbərliyi tərəfindən mənfi qarşılanmış, Çauşesku Qorbaçovun başladığı siyasətin «sosializm işinə zərər vurduğunu» elan etmişdi. Çauşeskunun Moskva ilə münasibətlərinin sərinləşdiyini nəzərə alan Qərb öz növbəsində Rumıniyanın borclarını silmək müqabilində ona «alternativ yol» - sosialist düşərgəsindən, o cümlədən «Varşava bloku»ndan çıxmağı təklif etdi. Lakin Rumıniya bu geosiyasi bazarlaşmanı da rədd etdi. Buna cavab olaraq Qərb ölkələri Rumıniya ilə güzəştli ticarəti dayandıraraq ona qarşı iqtisadi təzyiqlərə başladılar.

Nəticədə hər iki tərəflə münasibətlərini pisləşdirərək çətin iqtisadi vəziyyətə düşən Rumıniya, bir yandan, Moskvanın acığına digər kommunist ölkələri (Çin, Şimali Koreya, Albaniya, Kuba) ilə, o biri yandan, Qərbin acığına İran, İraq, Liviya kimi dövlətlərlə əlaqələrini sürətlə inkişaf etdirməyə başladı. Artıq 1988-ci ildə ABŞ və Britaniya qəzetlərində Çauşeskunun həm Moskva, həm də Qərb üçün problem olduğu və onunla «haqq-hesabı çürütmək» vaxtının gəldiyi vurğulanırdı. 1989-cu ilin «məxməri inqilab»lar dalğasını Rumıniya belə bir vəziyyətdə qarşıladı. Qonşu sosialist ölkələrin hakim elitasından fərqli olaraq, həmin dalğaya sərt qarşı çıxan Çauşesku noyabrda macar azlığının yaşadığı Timişoara şəhərində antikommunist aksiyaları silah gücünə yatırmağa çalışdı. Bu addım ölkənin digər bölgələrində etiraz dalğasına təkan verdi. Ən maraqlısı isə budur ki, dekabrın 18-də, iğtişaşların artıq paytaxta yaxınlaşdığı bir vaxtda Çauşesku İrana səfərə getmişdi. Tehranda iki ölkənin iqtisadi və hərbi əməkdaşlığına dair sazişlər imzalayan Çauşesku iki gün sonra səfərini yarımçıq kəsərək etiraz dalğasının bürüdüyü Buxarestə qayıtmalı oldu. Lakin artıq proseslərin

qarşısını almaq mümkünsüz idi, tezliklə hərbi elitanın da bir hissəsi üsyançıların tərəfinə keçdi və dekabrın 22-də Çauşesku Buxarestdən qaçmalı oldu. Dekabrın 25-də isə o və həyat yoldaşı tutularaq inqilab tribunalının qərarı ilə edam edildi. Beləcə özünü «Papadan artıq katolik», sovet rəhbərliyindən artıq kommunist göstərmək istəyən Çauşeskunun həm özü, həm də rejimi məhv oldu, ölkədə hakimiyyət «perestroyka» tərəfdarı kommunist İon İliyeskunun rəhbərlik etdiyi Milli Qurtuluş Cəbhəsinin əlinə keçdi. Artıq «məxməri» adlandırılması çətin olan Rumıniya inqilabı mindən çox insanın ölümü bahasına başa gəldi.

Bu hadisələrdən 15 il sonra, 2004-cü ildə alman rejissor S.Brandşetterin çəkdiyi «Sifarişlə inqilab. Çauşesku ailəsinə şah və mat» adlı sənədli film Avropada böyük rezonans doğurdu. Filmdə 1989-cu il hadisələrində kadr arxasında qalmış ABŞ, Almaniya və digər Qərb ölkələrinin xüsusi xidmət orqanlarının əməkdaşları Şərqi Avropadakı «məxməri inqilab»ların təşkili və texnologiyasından açıq söhbət açır və bu texnologiyanın yeni dövr üçün heç də köhnəlmədiyini vurğulayırdılar. Qeyd edək ki, bu vaxt artıq MDB məkanında bir inqilab (Gürcüstan) gerçəkləşmiş, ikincisinə isə (Ukrayna) hazırlıq gedirdi.

Həmin filmdə bir məqam nəzərə çatdırılırdı ki, «məxməri inqilab» üçün xarici amillər nə qədər mühüm olsa da, hər bir ölkənin daxilindəki vəziyyət, onun inqilab üçün nə dərəcədə əlverişli olması da çox vacibdir. Çünki bu inqilabların əsas faktorlarından biri ölkədəki hakim elitada, yəni «yuxarıda» baş verən konfliktdir ki, bu da «aşağıların» inqilabi fəallığına təkan verir. Bu baxımdan 1989-cu ildə Şərqi Avropadakı «məxməri inqilab»ların nəticəsində hakimiyyətə vaxtilə siyasi elitadan uzaqlaşdırılmış, yaxud hakimiyyətə yaxın buraxılmamış və

dissident həyatı yaşamağa məcbur edilmiş qüvvələrin gəlməsi təəccüblü deyildi.

Eyni zamanda, bu inqilablarda cəmiyyətin özünün yeniləşməyə, islahatlara tələbatı da vacib rol oynayır. Yuxarıda qeyd etdiyimiz kimi, Şərqi Almaniya cəmiyyəti «Berlin divarı»nın o tayındakı dünyadan xəbərsiz deyildi və bu, ümumilikdə digər sosialist ölkələrinə də aid idi. Odur ki, 80-ci illərin sonuna doğru başlanan proseslər bu ölkələrin cəmiyyətlərində Qərbə təmayülü daha da artırmışdı. Özü də onları buna meylləndirən təkcə Qərbdəki yüksək sosial rifah deyil, həm də geniş siyasi azadlıqlar, liberal dəyərlər, nəhayət, Sovet İttifaqının diqtəsindən qurtulmaq istəyi idi. Məsələn, Çexoslovakiya sosial rifah səviyyəsinə görə, sosialist düşərgəsinin ən öncül ölkəsi sayılırdı və 80-ci illərin sonuna doğru iqtisadi inkişafı kifayət qədər yüksək idi. Odur ki, həm 1968-ci ildə, eləcə də 1989-cu ildə bu ölkədə yaşanan proseslər iqtisadi faktordan daha çox siyasi azadlıqlar və demokratiya, Avropa ilə bütünləşmək istəyi ilə bağlı idi.

Bu yerdə Azərbaycan prezidenti İlham Əliyevin çıxışlarında mütəmadi olaraq səsləndirdiyi bir fikri qeyd etmək yerinə düşər. İlham Əliyev istər prezidentlikdən öncə, istərsə də dövlət başçısı seçiləndən sonra dəfələrlə nəzərə çatdırıb ki, hər bir ölkənin, o cümlədən Azərbaycanın gələcəyi eyni zamanda həm iqtisadi, həm də siyasi islahatların aparılması ilə şərtlənir, əks təqdirdə ölkənin normal, ardıcıl inkişafından danışmaq olmaz: «Biz bilirik, bəzi ölkələrdə belə fikir var ki, öncə gərək iqtisadiyyat möhkəmlənsin, güclü iqtisadi baza formalaşsın, ondan sonra demokratikləşmə proseslərinə daha da böyük təkan verilə bilər, yaxud bu istiqamətdə hansısa daha da cəsarətli addımlar atıla bilər. Mən bu fikrə şərik deyiləm. Mən düşünürəm ki, bu iki proses paralel şəkildə getməlidir. Əgər Azərbaycanda

demokratiya tam şəkildə bərqərar olmasa, azad cəmiyyət yaranmasa, bizim iqtisadi uğurumuzun heç bir əhəmiyyəti olmayacaqdır. Əgər ictimai nəzarət yoxdursa, əgər azadlıq yoxdursa və ölkə demokratik deyilsə, uğurlarımız nə qədər olursa-olsun. bizim təbii sərvətlərimiz olsun, yaxud neft kəmərlərimiz olsun, büdcəmiz artsın - bunun heç bir əhəmiyyəti olmayacaqdır» (5).

Bu inkişafa nail olmaq üçün isə mütləq inqilab olması, ölkənin siyasi çevriliş və kataklizmlərdən keçməsi vacib deyil. Əksinə, bunun daha məqbul, ahəngdar və nəticə etibarilə effektiv yolu var ki, bu da təkamül yolu ilə inkişafdır. Bir şərtlə ki, həmin yolun aydın düşünülmüş strategiyası və təbii ki, ölkə rəhbərliyində onu həyata keçirmək üçün zəruri siyasi iradə və bacarıq olsun. Azərbaycanın müasir inkişafı məhz bu deyilənlərə əyani sübutdur və irəlidə biz bu məqam üzərində geniş dayanacağıq.

Qeyd etmək lazımdır ki, bu mövzuda fikir söyləyən əksər mütəxəssis və ekspertlərin qənaətinə görə, kommunist rejimi və bu idarəçilik müstəvisində azad bazar, liberal dəyərlər və demokratiyaya keçid köklü sistem dəyişikliyi olmadan mümkün deyil və burada mütləq hansısa inqilabi proseslər zəruridir. Bu qənaəti müəyyən mənada əsaslı saymaq olar və istər Şərqi Avropada, istərsə də sonradan SSRİ məkanında yaşanan proseslər bunu təsdiqləyir. Lakin, bununla yanaşı, həmin yanaşmanı təftiş edən faktlar da var ki, ona misal olaraq Çin Xalq Respublikasının təcrübəsini göstərmək olar. Bəzən «Çin möcüzəsi» adlandırılan bu təcrübə kommunist ideologiyasının əsasları və təkpartiyalılıq sistemi saxlanılmaqla nəhəng bir ölkənin təkamül yolu ilə azad bazar və tədrici demokratik inkişaf müstəvisinə keçməsinin, mühüm iqtisadi yüksəlişə nail olmasının müsbət nümunəsidir.

Halbuki 80-ci illərin sonunda «məxməri inqilab» ssenarisi kommunist rejimli Çin üçün də hazırlanmışdı və 1989-cu ilin aprel-mayında Pekinin Tyananmen meydanında cərəyan edən hadisələr buna bir hazırlıq idi. SSRİ-dən fərqli olaraq, Çin 80-ci illərin sonunda möhkəm iqtisadi baza və yetərli inkişaf tempinə malik ölkə idi, təxminən 10 il ərzində aparılan yüksək sənayeləşmə və iqtisadi islahatlar müsbət nəticəsini vermişdi. Lakin bu prosesin siyasi islahatlarla tamamlanması müəyyən problemlər doğururdu. 1989-cu ilin aprelində Tyananmen meydanında fasiləsiz aksiyalara başlayan Çin gəncləri siyasi islahatların radikallaşdırılması, o cümlədən ölkənin konstitusiyasının dəyişdirilməsi və ÇKP-nin mütləq hakimiyyətinə son qoyularaq çoxpartiyalı sistemin bərqərar edilməsini tələb edirdilər.

Bu proseslərdə kənar amillər, o cümlədən ABŞ-ın və amerikapərəst Tayvanın (Çinin faktiki separatçı bölgəsi) xüsusi xidmət orqanlarının təşviqedici fəaliyyəti az deyildi. İlk mərhələdə bu fəaliyyət sayı artmaqda olan mitinq iştirakçılarına maliyyə yardımı göstərilməsindən ibarət idisə, mayın sonunda artıq bir milyona yaxın insanın toplaşdığı meydanda Amerika simvolu – Nyu-Yorkdakı «Azadlıq» heykəlinin şüşə-plastikdən düzəldilmiş 10 metrlik surəti ucaldılmışdı. Lakin o vaxtkı Çin rəhbərliyi Amerika planının tam şəkildə işə düşməsinə imkan vermədi və iyunun 4-də Tyananmen meydanı tankların köməyi ilə mitinqçilərdən təmizləndi. Qeyri-rəsmi məlumatlara görə, bu zaman bir neçə yüz aksiya iştirakçısı ölmüş və yaralanmışdı. Bu hadisədən sonra Pekində tətbiq edilən fövqəladə vəziyyət yeddi ay davam etdi. Sözsüz ki, bu, zorakı bir tədbir idi. Lakin, eyni zamanda, bu hadisə «məxməri inqilab» ssenarisinin əks üzünü göstərirdi. Müvafiq şəraitin yetişmədiyi bir ölkədə inqilab etmək cəhdi sonda belə ağır nəticələrə də gətirir.

Bir daha Avropadakı proseslərə qayıdaraq qeyd etmək istərdik ki, ABŞ və müttəfiqlərinin əvvəlcə SSRİ-ni, onun süqutundan sonra isə Rusiyanı «köhnə qitə»dən sıxışdırıb çıxarmaq planları 1989-1991-ci illərdə böyük ölçüdə (o cümlədən Baltikyanı ölkələrin Qərbin nüfuz dairəsinə keçməsi ilə) gerçəkləşsə də, tam uğura gətirməmişdi. O cümlədən cənub-şərqi Avropanın ən böyük ölkəsi olan Yuqoslaviya hələ nəzarətə götürülməmişdi, özəlliklə Serbiya Moskvanın geosiyasi çevrəsində qalmaqda idi. Halbuki, Vaşinqtonun Yuqoslaviyaya dair planları digər sosialist ölkələri ilə bağlı ssenarilərdən daha əvvəl hazırlanmağa başlanmışdı.

Federativ Yuqoslaviya (YSFR) hələ 50-ci illərdən (Stalinin Yuqoslaviya lideri İosif Broz Tito ilə münasibətlərinin pisləşməsindən sonra) sosialist düşərgəsində «dissident» vəziyyətində idi və Qərb bu müddətdə onunla kifayət qədər ilıq münasibətlər qurmuşdu. Diktator Titonun ölümündən sonra, 80-ci illərin ortalarına doğru ABŞ dairələrində Yuqoslaviyada «sakit inqilab» barədə çeşidli planlar gündəmə gəldi. Eyni zamanda, Yuqoslaviyanın Qərb donorları, BVF və Dünya Bankı qarşısında götürdüyü iri kredit öhdəlikləri bu planların həyata keçməsinə şərait yarada bilərdi. Lakin 1989-cu ildə Yuqoslaviyanın ifrat kommunist rəhbəri Slobodan Miloşeviç (rumıniyalı həmkarı Çauşesku kimi) Qərbin «kökə» təklifini rədd etdi və nəticədə «qamçı» ilə üzləşdi. Qərbin güzəştli iqtisadi əlaqələri kəsməsi Yuqoslaviyanı dərin böhrana saldı. Düzdür, Yuqoslaviyada «məxməri» inqilabın Rumıniya modeli işləmədi, əvəzində 6 federativ subyekti olan və 20-dən çox etnik azlığın yaşadığı ölkə qanlı vətəndaş müharibəsinə qərq oldu. Özü də bu müharibənin başlıca səbəbkarı 1991-ci ildə əvvəlcə Xorvatiya və Sloveniyanın, ardınca isə Bosniya və Makedoniyanın ayrılmasını həzm etməyən serb lideri Miloşeviç oldu. 1995-ci ilədək sürən

dəhşətli müharibə (ələlxüsüs Bosniyada) on minlərlə insanın həyatına son qoydu. Nəticədə Serbiya-Çernoqoriya cütlüyü (keçmiş Yuqoslaviya) istisna olmaqla federasiyanın qalan dörd subyekti müstəqil ölkələr kimi Qərbin nüfuz dairəsinə keçdi. Miloşeviçin devrilməsi isə kifayət qədər uzun zaman apardı.

Şərqi Avropadakı «məxməri inqilab»lar dalğasının artıq arxada qalması və kommunist ideologiyasından millətçi-şovinist mövqeyə keçmiş Miloşeviçin Serbiya xalqı arasında dayaqlarının yetərincə güclü olması Vaşinqtonu bu ölkə ilə bağlı ayrıca, məxsusi ssenari hazırlamağa vadar etdi. Əslində, yeni dövrün (2000-ci ildən sonra) «məxməri inqilab»lar layihəsinə hazırlıq da elə keçmiş Yuqoslaviyadan (Serbiyadan) başlandı. 1998-ci ildə ABŞ və müttəfiqlərinin yaxından dəstəyi ilə (əsasən ABŞ Milli Demokratiya İnstitutu və «Soros Fondu» vasitəsilə) serb tələbə-gənclərinin «Otpor» («Müqavimət») təşkilatı yaradıldı və sürətlə təşəkkül tapmağa başladı. Avropa paytaxtlarında müntəzəm seminarlara dəvət olunan təşkilat üzvlərinə «inqilabın əsasları», siyasi texnologiyalar öyrədilirdi.

Bu siyasi kursun əsas istiqamətləri bir neçə il sonra (artıq Yuqoslaviyada «məxməri inqilab» gerçəkləşəndən sonra) internetdə «işıq üzü görən» ABŞ xüsusi xidmət orqanları əməkdaşları üçün «xidməti kitabça»da təfərrüatlı şəkildə şərh olunurdu. «Çevrilişi necə təşkil etməli?» ("How to make a coup. Handbook for CIA officers. Washington, 1996") adlı bu təlimat kitabında «məxməri inqilab»ların Amerika maraqları baxımından siyasi fəlsəfəsi belə izah edilirdi: «Birləşmiş Ştatlar dünyada yeganə superdövlət olaraq ən səmərəli iqtisadiyyata və ən güclü hərbi arsenala malikdir. Bu baxımdan dövlətimiz amerikapərəst iqtisadi və siyasi quruluşa malik satellit-ölkələrin şəbəkəsinin genişlənməsində maraqlıdır. Əgər biz özümüz üçün strateji önəm kəsb edən ölkədə hakimiyyət başına amerikapərəst

bir lideri gətirmək istəyiriksə, bunu həmin ölkə sabit iqtisadi inkişaf yoluna qədəm qoymamışdan əvvəl etməliyik. Çünki sabit iqtisadiyyatı və sosial rifahı olan ölkələrdə belə bir çevriliş etmək mümkün deyil. Bu çevrilişlər üçün iki yol var: birbaşa hərbi müdaxilə və «məxməri inqilab». Hərbi müdaxilə heç bir daxili müxalifəti olmayan, qapalı ölkələrdə zəruridir. Belə müdaxiləni- həmin ölkədə insan haqlarının kütləvi şəkildə pozulması, yaxud ABŞ-ın yaxın müttəfiqləri olan ölkələrə qarşı hərbi təhlükə yaranması ilə əsaslandırmaq olar. «Məxməri inqilab»lar isə daha incə metoddur və demokratiyanın kifayət qədər inkişaf etdiyi, müxalifətin fəaliyyət göstərdiyi ölkələr üçün nəzərdə tutulur. Bu ölkələrdə yeni liderin və yeni ideologiyanın hazırlığı çevrilişdən xeyli əvvəl başlanmalıdır».

Qeyd etmək lazımdır ki, ABŞ həmin vaxtadək hərbi müdaxilə ilə hakimiyyət çevrilişlərini bilavasitə öz yaxınlığındakı ölkələrdə (Haiti, Panama) həyata keçirmişdi. Əslində Miloşeviç rejiminin də bu üsulla devrilməsinə əsaslar vardı. 1999-cu ilin əvvəlində Miloşeviçin Serbiyanın muxtar bölgəsi olan Kosovoda müsəlman alban əhalisinə qarşı etnik təmizləməyə başlaması ABŞ başda olmaqla NATO-nu hərbi müdaxiləyə məcbur etdi. Lakin iki aydan artıq (mart-may 1999) sürən əməliyyat Kosovodakı humanitar fəlakəti dayandırsa da, Miloşeviçi devirmək mümkün olmadı. Əksinə, NATO-nun hərbi müdaxiləsi onun ölkə daxilində mövqeyini möhkəmlətdi.

Bundan sonra ABŞ və əksər Avropa ölkələri Belqrada qarşı geniş iqtisadi sanksiyalar tətbiq edərək Miloşeviçin sosial dayaqlarını sarsıtmağa başladılar. Müxalifətə, o cümlədən «Otpor» təşkilatına əlavə maliyyə yardımları ayrıldı. Əgər 2000-ci ilədək «Otpor» ancaq Belqrad və bir neçə şəhərin universitetində fəaliyyət göstərirdisə, 2000-ci ilin yazında artıq ölkə üzrə 150-dən çox bölməsi qurulmuşdu. Serb müxalifəti

liderlərini Vaşinqtona dəvət edən ABŞ dövlət katibi Madlen Olbrayt sentyabrın 24-də keçiriləcək prezident seçkiləri ilə bağlı onlara şəxsən təlimatlar vermişdi. ABŞ mütəxəssislərinin keçirdiyi sorğu (ilkin seçki) nəticəsində Voislav Koştunitsa müxalifətin vahid lideri seçildi. Seçkilərin birinci turunda Koştunitsa Miloşeviçi üstələsə də, rəsmi nəticə (48 faiz) qələbə üçün yetərli olmadı. İkinci tur oktyabrın 8-nə təyin olundu, lakin müxalifət seçkinin saxtalaşdırıldığını bildirərək ikinci tura getməkdən imtina etdi və kütləvi aksiyalara başladı. Artıq oktyabrın 5-də MSK birinci turun nəticələrini «dəqiqləşdirərək» Koştunitsanın qələbəsini elan etdi, səhərisi isə Miloşeviç məğlubiyyətlə barışdığını bildirdi. Bundan dərhal sonra Qərb sanksiyaları dayandırdı və Serbiyanı «Avropa ailəsinə qayıtması münasibətilə» təbrik etdi.

2000-ci ilin oktyabrında Serbiyada «məxməri inqilab»ın qələbəsi həm də Moskvanın Avropadan sıxışdırılıb çıxarılmasında son akkord oldu. Bundan sonra Qərblə Moskvanın geosiyasi nüfuz mübarizəsi artıq postsovet məkanında gedəcəkdi. Lakin bu mövzuya nöqtə qoymazdan öncə bir əlamətdar məqamı da qeyd etmək istərdik.

«Məxməri inqilab»dan sonra Qərbin (ilk növbədə Amerikanın) yanında yer alan Serbiya rəhbərliyi ölkənin Avropa ailəsinə inteqrasiyası ilə yanaşı, daha mühüm məsələdə, Kosovo probleminin Serbiyanın ərazi bütövlüyü çərçivəsində həllində dəstək gözləyirdi. Hətta Miloşeviçin tələsik tutularaq Haaqa Beynəlxalq Tribunalına təhvil verilməsi də daha çox bu motivdən irəli gəlirdi. Lakin Belqradın gözləntiləri özünü doğrultmadı, əksinə, Qərb demokratik Serbiyaya Kosovonun müstəqilliyi ilə barışmağı tövsiyə etməyə başladı. Bu məsələdə hazırda Serbiyanı açıq müdafiə edən yeganə ölkə isə (BMT TŞ-nin daimi üzvü olaraq) Rusiyadır. Nəticədə Serbiyanın Amerika

dəstəyi ilə hakimiyyətə gəlmiş rəhbərliyi (Koştunitsa indi ölkənin baş naziridir) bu gün Moskva ilə daha yaxındır, nəinki Vaşinqtonla. Necə deyərlər, bu da «məxməri» inqilabın bir yekunudur. Eyni zamanda, bu fakt «Azərbaycanda azad seçki keçirilməyincə (oxu: «biz hakimiyyətə gəlməyincə») Qarabağ problemi ədalətli həll olunmayacaq» deyə siyasi səfsəfələrə varan - bizim müxalifət liderləri üçün də bir ibrət olmalıdır.

İKİNCİ FƏSİL
AZƏRBAYCAN MÜXALİFƏTİNİN «İNQİLAB» XƏYALLARI

«Çığırma, yat, ay ac toyuq, yuxunda çoxca darı gör».
M.Ə.Sabir

«İnsanı özü qədər heç kəs aldada bilməz».
T.Qravlund

«Boş yerə xəyala qapılmaq önırü hədər verməkdən
başqa bir şey deyil».
A.Kapus

Serbiyadakı «məxməri inqilab»dan bir ay sonra, 2000-ci ilin noyabrında Azərbaycanda növbəti parlament seçkiləri keçirildi. Öncəki seçki kampaniyalarında olduğu kimi, bu yarışda da müxalifətin uğursuzluğa düçar olacağı şübhəsiz idi. Artıq kampaniyanın ilk mərhələsində ümumi seçki taktikası və vahid namizəd məsələsində ortaq məxrəcə gələ bilməyən, əksinə, qarşılıqlı ittiham və ixtilaflarla daha da dağınıq vəziyyətə düşən müxalif düşərgənin hakimiyyətlə ciddi rəqabət aparması real deyildi və seçkilərin nəticəsi də bunu təsdiqlədi. Hakim Yeni Azərbaycan Partiyası (YAP) həm proporsional, həm də majoritar sistem üzrə deputat yerlərinin əksəriyyətini qazanaraq cəmiyyətdəki üstün mövqelərini, Heydər Əliyev siyasətinin yenilməzliyini bir daha nümayiş etdirdi.

Bu seçkilərdə hakim partiyanın proporsional siyahısına və partiyanın faktiki seçki kampaniyasına YAP sədrinin müavini İlham Əliyev rəhbərlik edirdi. Faktiki olaraq 2000-ci ilin 5 noyabr parlament seçkiləri kampaniyası İlham Əliyevin daxili siyasət müstəvisində aktiv və praktik fəaliyyətinin başlanğıcı oldu. Bu baxımdan həmin seçkilərdə ambisiyalı siyasətçilər bolluğundan xroniki əziyyət çəkən müxalifət düşərgəsi, sadəcə,

Heydər Əliyevə və onun hakimiyyətinə deyil, eyni zamanda, fərdi liderlik yarışında İlham Əliyevə məğlub oldular.

Seçki kampaniyası boyunca İlham Əliyevin Azərbaycanın regionlarında seçicilərlə görüşləri, böyük izdihamlar önündə etdiyi çıxışlar onun populyar siyasətçi olduğunu sübut etməklə yanaşı, cəmiyyətin müxtəlif təbəqələrində Heydər Əliyevin layiqli siyasi varisinin yetişməsi qənaətini möhkəmlətdi. Bu seçki kampaniyası göstərdi ki, İlham Əliyev nəinki Azərbaycanın gənc nəsil siyasətçilərinin ən perspektivli nümayəndəsidir, həmçinin cəmiyyətin geniş təbəqələri tərəfindən rəğbətlə qarşılanan yeni siyasi liderdir. Öz növbəsində İlham Əliyev «Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram» bəyanatı ilə başladığı aktiv siyasi fəaliyyətin ilk mərhələsindəcə müxalifət liderlərindən üstünlüyünü təsdiqləməklə bu düşərgənin potensial elektoratını perspektiv baxımından bədgüman etmişdi.

Belə bir şəraitdə radikal müxalifət liderlərinin sivil siyasi mübarizə müstəvisində normal rəqabəti deyil, «inciliklərinə» daha yaxşı bələd olduqları siyasi ekstremizmi, zorakılıq üzərində köklənən «daş-kəsək demokratiyası»nı üstün tutduqları bir daha aşkara çıxdı. Hələ avqust ayında Müsavat Partiyasının Mehdi Hüseynli adlı üzvünün seçki qanunvericiliyinə dəyişiklik edilməsi tələbi ilə Naxçıvan-Bakı sərnişin təyyarəsini qaçırmağa cəhd etməsi müxalif düşərgədə hansı acınacaqlı əhvalın hökm sürdüyünü göstərmişdi. Gənc bir insanı dəmir barmaqlıqlar arxasına aparan bu hadisə boş yerdə deyil, radikal müxalifət liderlərinin sıravi partiya üzvlərinə nümayiş etdirikləri siyasi tərbiyə və davranışın konkret təzahürü kimi meydana gəlmişdi. Siyasi makiavellizmin ən əcaib prinsiplərini əldə rəhbər tutan müxalifət düşərgəsi ideoloqlarına görə, məqsədə çatmaq, yəni hakimiyyətə gəlmək üçün bütün vasitələr, hətta terror da məqbul yol idi.

Bu arada Serbiyada qələbə çalan «məxməri inqilab» Azərbaycan müxalifətinin siyasi illüziyalarına yeni boy vermiş

oldu. Təsadüfi deyil ki, Belqraddakı inqilab səhnələrini televiziya ekranlarından izləyərək cuşa gələn müxalifət yazarları dərhal «Azərbaycanda Yuqoslaviya variantı» mövzusunda diskussiyalara meydan açmışdılar. O vaxt hələ «məxməri inqilab» ifadəsi geniş yayılmamışdı və siyasi diskussiyalarda «Yuqoslaviya variantı»ndan söz edilirdi. Hərçənd, bu mövzuda təhlil aparan müxalifət ideoloqları bu «variant»ın 2000-ci il noyabr seçkilərində (kampaniya sona çatmaq üzrə idi) tətbiqinin artıq gec olduğunu etiraf edərək daha çox perspektivə (növbəti seçkilərə) yönəlik çıxışlar edirdilər.

Lakin son anda müxalifət başbilənləri «inqilab» variantını, heç olmasa, lokal miqyasda sınamağa qərar verdilər. Noyabrın 5-i axşam, seçkilər başa çatandan sonra ANS televiziyasının canlı efirində çıxış edən Müsavat başqanı İsa Qəmbər partiyasının guya proporsional sistem üzrə 60 faizdən çox (gerçəkdə isə partiya proporsional sistem üzrə heç 6 faizlik baryeri aşa bilməmişdi) səs topladığını bildirərək müxalifət fəallarını yerlərdə «qələbə»ni əldən verməmək üçün aksiyalara çağırdı. Müsavat liderinin bu iddiası o qədər yekəxana olmuşdu ki, hətta digər müxalifət partiyalarının da kəskin narazılığını doğurmuşdu. Çünki Müsavat 60 faizi «özünə götürəndən» sonra seçkilərdə «möhtəşəm nəticə» göstərdiklərini iddia edən digər müxalifət liderlərinə və onların partiyalarına bir şey qalmırdı.

Təbii ki, bu iddialar tamamilə illüziya idi və seçkinin gerçək nəticələri hər şeyi yerbəyer etdi. Bundan sonra seçki baryerini aşa bilməyən Müsavat, eləcə də AMİP və Demokrat Partiyasının yerli fəalları Şəkidə kütləvi iğtişaşlar təşkil etməyə, o cümlədən İcra Hakimiyyətinin binasına basqın etməyə çalışsalar da, hüquq-mühafizə orqanları qısa müddətdə qanunazidd əməllərin qarşısını aldılar. Bu, radikal müxalifətin ayrıca götürülmüş bölgədə seçkisonrası «inqilab» tamaşası düzənləmək cəhdi idi. Siyasi məğlubiyyətini həzm edə bilməyən qüvvələr üç il sonra, 2003-cü ilin oktyabrındakı prezident seçkiləri zamanı eyni

əməlləri - bu dəfə daha geniş miqyasda - paytaxt Bakıda təkrarladılar. Lakin lokal «premyera»sı bir dəfə iflasa uğramış «tamaşa» bu dəfə də alınmadı: çünki onu hazırlayanlar səbatsız siyasi autsayderlər idi və ən əsası, hakimiyyətdən fərqli olaraq, bu qüvvələrin xalqın içərisində heç bir dəstəyi yox idi.

Daha öncəki seçkilərdə olduğu kimi, 2000-ci ilin parlament seçkilərindəki məğlubiyyətdən sonra da müxalifət düşərgəsi yanlış addımlarını, taktiki səhvlərini saf-çürük etmək əvəzinə köhnə ambisioz və dağıdıcı siyasi xislətini davam etdirməyə başladı. Bu baxımdan 2001-ci il müxalifətin elə bir siyasi aktivliyi ilə yadda qalmasa da hakimiyyətin opponentləri onsuz da məhdud olan elektoratını itirməmək üçün mətbuat səhifələrində «biz əvvəl-axır hakimiyyətə gələcəyik» tipli çıxışlara ara vermirdi. Hərçənd, bütövlükdə cəmiyyət bu iddiaları artıq xeyli dərəcədə siyasi parodiya kimi qəbul edirdi.

Müxalifət liderlərinin bu cür özündən müştəbehliyi barədə hələ 1999-cu ilin martında Azərbaycan gənclərinin forumundakı çıxışında İlham Əliyev demişdi: "Əminliklə təsdiq edə bilərəm ki, bu adamlar (müxalifətin liderləri) özləri üçün uydurduqları cırtdan siyasət dünyasında yaşayırlar. Respublikanın real həyatı başqa miqyasda cərəyan edir və istedadlı adamlar, xüsusən Azərbaycanın gənc nəslinin nümayəndələri inamla irəli çıxaraq elm, istehsalat, incəsənət, biznes və digər sahələrdə nəyə qadir olduqlarını göstərirlər, cəmiyyətdə öz yerlərini tuturlar. Onların hamısı Azərbaycanın dövlətçiliyini və müstəqilliyini cəsarətlə müdafiə edir. Yeri gəlmişkən, mən özümü də bu nəslə aid edirəm" (6).

2001-ci ilin yanvarında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ölkəmizin həyatında əlamətdar hadisə idi. Bu mötəbər təşkilatda Azərbaycan parlamentinin nümayəndə heyətinə rəhbərlik edən İlham Əliyev ölkəmizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin, Qarabağ münaqişəsi, Ermənistanın işğalçılıq

siyasəti barədə gerçəklərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün olduqca səmərəli fəaliyyət göstərirdi. İlham Əliyevin AŞPA-nın hər sessiyasında səlis ingilis dilində etdiyi arqumentli çıxışları Avropa parlamentarları arasında da onun yüksək vətənpərvərliyinə, liderlik keyfiyyətlərinə geniş rəğbət yaratmışdı.

Azərbaycan müxalifətinin aparıcı simaları isə həmin vaxt, bir tərəfdən ölkəmizin Avropa Şurasında mövqelərini sarsıtmaq üçün bu təşkilata siyasi «donos»lar yazaraq «demokratiya və insan haqlarının boğulduğu» Azərbaycana qarşı sanksiyalar tətbiq olunmasını tələb edir, digər tərəfdən isə, öz aralarında kimin Qərbə (Amerikaya) «bir köynək yaxın olduğunu» sübut etmək üçün yarışırdılar. Hərdəmxəyal müxalifət ideoloqlarına görə, məhz bu daxili yarışın qalibi nəticə etibarilə növbəti prezident seçkilərində demokratik Qərbin «stavka» edəcəyi lider olacaqdı. Müxalifət partiyaları nəzarət etdikləri qəzetlər vasitəsilə elə qızğın yarışa girişmişdilər ki, xüsusilə ABŞ-ın yanında «yerlərini isti etmək üçün» bir-birilərinə qarşı çeşidli ittihamlar irəli sürürdülər.

Bu xüsusda 2002-ci ilin ilk aylarında Müsavat və AXCP («islahatçılar») arasında «soyuq savaş» daha çox diqqət çəkirdi. Maraqlıdır ki, həmin qızğın mükalimədə Müsavat funksionerləri bir ara Əli Kərimlini və onun partiyadaşlarını «Amerikanın uşaqları» deyə lağa qoyaraq özlərinin siyasi fəaliyyətdə heç bir xarici dəstəyə arxalanmadıqlarını vurğulayırdılar. Öz növbəsində AXCP təmsilçiləri də borclu qalmayaraq Müsavat dairələrinin İranla gizli əlaqələrinə diqqət çəkərək müxalif həmkarlarını «Tehranın uşaqları» adlandırırdılar.

Gerçəkdə isə elə hər iki tərəfin mübarizəsi, əslində, «Amerikanın adamı» adını təsdiqləmək uğrunda gedirdi, sadəcə, müsavatçılar öncə bu sırada potensial rəqiblərini ictimai rəydə diskreditə edib kənarlaşdırmaq istəyirdilər. O, yarışma artıq başqa məsələdir ki, reallıqla əlaqəsi olmayan bir siyasi yarışma idi və müxaliflərin «Amerika uğrunda» mübarizəsi də daha çox

illüziyalardan ibarət idi. Özü də bu kampaniya müxalifət düşərgəsində birinci dəfə aparılmırdı. Nəticə isə hər dəfə eyni olur, seçkinin sonunda «Amerika arzuları» puça çıxan müxaliflər uğradıqları məğlubiyyətə görə, özlərindən başqa hər kəsi, o cümlədən «Azərbaycanın demokratik qüvvələrinə dəstək verməyən» Qərbi ittiham edirdilər. Onlar heç cür başa düşmək istəmirdilər ki, Amerika (yaxud bütövlükdə Qərb) güclü iqtidarı ilə faktiki səmərəli tərəfdaşlıq etdiyi bir ölkədə hakimiyyəti devirməyə qalxmaz və üstəlik bu zaman real siyasi perpektivi olmayan müxalifətə də «stavka» etməz.

Lakin bu gerçəklər, seçki kampaniyası başlayar-başlamaz, Azərbaycan müxalifətinin liderləri üçün nəzəri məsələyə çevrilir və onlar növbəti dəfə neobolşevik siyasi təfəkkürlə silahlanaraq «Qərbin dəstəyi ilə» hakimiyyətə gəlməyə hazırlaşırdılar. Müxalifətin 2003-cü ilin prezident seçkilərinə hazırlığı bu baxımdan istisna təşkil etmirdi. Üstəlik hakimiyyətin opponentləri həmin kampaniyaya xeyli öncədən, hələ 2002-ci ilin yazından start vermişdilər. Məhz bu dövrdə, qeyd etdiyimiz kimi, müxalifət qəzetlərində «panamerkanizm» vüsət almışdı.

«Amerika bizə "stavka" edir, sadəcə, mövqeyini açıqlamağa tələsmir" kimi iddialarla siyasi mövhumatçılığa boy verən müxalifət ideoloqları cəmiyyəti inandırmağa çalışırdılar ki, onların siyasi radikalizm xətti nəinki Qərbdə dəstəklənir, hətta ABŞ siyasi dairələrində Azərbaycan müxalifətinin hakimiyyətə gəlməsi üçün planlar da hazırlanır. 2002-ci ilin aprelində müxaliflərin siyasi fantastika janrlı ssenarilərinə Amerikadan «cavab» gəldi. Amma bu, müxalifətin eşitmək istədiyi cavab deyildi. Birləşmiş Ştatların səfiri Ross Uilson jurnalistlərin Azərbaycandakı siyasi proseslərlə bağlı Amerikanın mövqeyinə dair israrlı suallarına qısa və konkret cavab verdi: «Bizim bu məsələdə mövqeyimiz belədir ki, ölkənin siyasi gələcəyi Konstitusiyaya uyğun həll edilməlidir». Və ardınca: «Biz

prezident Heydər Əliyev və onun hökumətinə çox güclü dəstək veririk və bu, çoxdan məlumdur" (7).

Əslində, bu məsələyə burada nöqtə qoymaq olardı. Lakin müxalifətin başbilənləri bunu etsəydilər, özlərinin siyasi üslub və xislətlərinə xəyanət etmiş olardılar. Üstəlik bu arada Azərbaycanda Konstitusiyaya dəyişikliklər və əlavələrlə bağlı ümumxalq referendumu (24 avqust 2002-ci il) elan edilmişdi və hakimiyyətin opponentləri bu kampaniyanı özləri üçün faktiki erkən seçki yarışına çevirdilər. Referendum layihəsindəki Milli Məclisə proporsional seçki sisteminin ləğv edilməsi barədə müddəa müxalifətin əsas narazılıq predmetlərindən idi. Hərçənd gerçəkdə 125 deputatdan yalnız 25-nin seçildiyi proporsional sistemin ləğvi parlament seçkilərinə elə də köklü dəyişiklik gətirmirdi. Digər tərəfdən, bu sistemin aradan qaldırılması və deputat korpusunun bütünlüklə majoritar qaydada (birmandatlı dairələr üzrə) seçilməsi əslində müxalifət düşərgəsini ağır siyasi yükdən xilas etmiş olurdu. Çünki 1995 və 2000-ci illərin parlament seçkilərində müxalifət düşərgəsinin vahid qüvvə kimi çıxış etməməsinin əsas səbəblərindən biri məhz partiyaların proporsional namizədlər siyahısında razılığa gələ bilməməsi olmuşdu.

Buna rəğmən müxaliflər ABŞ Dövlət Departamentindən Avropa Şurasınadək bütün Qərb dairələrinə car çəkməyə başladılar ki, bəs, Azərbaycanda konstitusion çevriliş həyata keçirilir. Bu kampaniyada onlara AŞPA-nın isveçrəli Andreas Qross kimi deputatları da dəstək verirdilər. Halbuki, Əsas Qanuna dəyişikliklər üzrə referenduma çıxarılan müddəaların əksəriyyəti elə Azərbaycanın Avropa Şurası qarşısında öhdəliklərindən, o cümlədən hakimiyyət bölgüsünün dəqiqləşdirilməsi, «İnsan hüquq və azadlıqları haqqında» Avropa konvensiyasının tələbləri və s. məsələlərdən irəli gəlirdi.

Bu məsələdə siyasi və hüquqi arqumentlərinin yetərsizliyini görən müxalifət liderləri seçiciləri referendumu boykot etməyə

çağırdılar. Lakin boykot kampaniyası iflasa uğradı, 24 avqust referendumunda seçicilərin mütləq əksəriyyəti (88 faiz) iştirak etdi və Konstitusiyanın 24 maddəsinə ümumilikdə 39 dəyişiklik və əlavə (8 qrup üzrə) 95-96 faiz səslə qəbul olundu. Öz növbəsində beynəlxalq dairələr, o cümlədən müxalifətin mədəd umduğu ABŞ-ın Dövlət Departamenti referendumun nəticələrini tanıdıqlarını, Azərbaycanda hüquqi islahatlar, seçki praktikasının təkmilləşdirilməsi prosesini dəstəkləməkdə davam edəcəklərini nəzərə çatdırdılar. Beləliklə, 2002-ci siyasi ili də müxalifət düşərgəsi üçün nəticəsiz başa çatdı.

2003-cü il də hakimiyyətin opponentləri üçün uğursuz başladı. Yanvarın 27-də Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri İlham Əliyevin bu mötəbər təşkilatın rəhbərliyinə – AŞPA-nın vitse-prezidenti və Büro üzvü seçilməsi müxalifət düşərgəsində «soyuq duş» effekti doğurdu. Düşərgə ideoloqlarının AŞPA-dakı nümayəndə heyətinin uğurlu fəaliyyətini görməzdən gəldiyi və Azərbaycanın «bugün-sabah» bu qurumdan çıxarılacağına dair təbliğat apardığı bir vaxtda Avropa parlamentarları İlham Əliyevə və ümumilikdə Azərbaycan dövlətinə müstəsna etimad göstərmişdilər. Bu vəziyyətdə gerçəkliyi etiraf hissinə çoxdan əlvida demiş radikal müxalifətin bir yolu qalırdı: İlham Əliyevə və AŞPA-dakı deputat qrupumuza qarşı qaralama kampaniyasına vüsət vermək.

Ümumiyyətlə, müxalifət ondan öncə də Azərbaycanın AŞPA-dakı deputat qrupunun fəaliyyətinə qatı qərəzlə yanaşırdı. Səbəb isə bir idi: həmin qrupa İlham Əliyev rəhbərlik edirdi. İlham Əliyevin AŞPA-nın vitse-prezidenti seçilməsi nə demək idi? Azərbaycan bu təşkilatın rəhbərliyində təmsil olunmaqla öz sözünü daha ucadan demək imkanı qazanmışdı. Avropa Şurasının ilk gündən Azərbaycan üçün həm də Ermənistanla siyasi rəqabət müsətəvisi olduğunu nəzərə alsaq, bu üstünlük daha da əhəmiyyətli idi. "İlham Əliyevin AŞPA-nın vitse-

prezidenti seçilməsi Azərbaycanın Avropa Şurası ilə münasibətlərinin səviyyəsini göstərir. Azərbaycan parlamentarı bu postda təmsil olunmasını ilk növbədə Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın maraqlarını daha fəal müdafiə etmək, Ermənistanın siyasətini ifşa etmək üçün mühüm imkan hesab edir", - bu, Ermənistanın "Ranarmenian" xəbər saytının İlham Əliyevin AŞPA rəhbərliyinə seçilməsi barədə şərhi idi (8).

İlham Əliyevin AŞPA rəhbərliyinə seçilməsini ermənilərin necə qarşıladığı məlum idi. Amma, nə yazıqlar ki, bu fakt Azərbaycan müxalifətində də məyusluq doğurmuşdu. Mənsubu olduğun dövlətin adına yazılan uğurları bilərəkdən şübhə altına alıb siyasi nihilizmə yuvarlanmaq normal qafaya sığan düşüncə deyildi. Amma bu, bizim müxalifət liderlərinin qafasına sığışırdı. Çünki onlar üçün bir korazehin ştamp var: bu iqtidarın Azərbaycan dövləti, onun milli maraqları naminə atdığı heç bir addım, gördüyü heç bir iş təqdir edilə bilməz. İlham Əliyevin AŞPA rəhbərliyində təmsil olunması da onların siyasi ambisiyaları ilə uzlaşmırdı. Çünki başa düşürdülər ki, İlham Əliyevin uğurları ilə onların siyasi gələcəyi tamamilə tərs mütənasibdir.

Məhz bu anormal siyasi təkəbbürlə radikal müxalifət liderləri artıq 2003-cü ilin əvvəlinədək hər şeyi – cəmiyyəti, müxalifət düşərgəsinin özünü, mətbuatı, jurnalistləri, hətta polisləri də öz kriteriyalarına uyğun bölüb qurtarmışdılar: "bizimlə olanlar" və "bizimlə olmayanlar". Onlara görə, Azərbaycanın milli maraqları da «bizim» və «onlarınkı» deyə təsnifatlandırılmalı idi. "Kim bizimlə deyilsə, deməli, bizə qarşıdır". Stalindən qalma bu tezis neobolşevizm idealları ilə silahlanan Azərbaycan «milli-demokratları» üçün aparıcı şüara çevrilmişdi və həmin dövrün (ümumiyyətlə, 2003-cü ilin) müxalifət mətbuatının, ələlxüsus Müsavat, AXCP və Demokrat Partiyasının nəzarətindəki qəzetlərin əsas siyasi-ideoloji xətti idi.

Eyni zamanda, neobolşevist təfəkkürləri bu qüvvələrin olan-qalan realizm hissini də yox etmişdi. Elə bu səbəbdən idi ki, hələ prezident seçkiləri kampaniyası başlamamış özlərini artıq hakimiyyət kürsüsündə hiss edirdilər. Beton divarı başı ilə deşəcəyinə əmin olan avam qədər illüzor və avantürist təxəyyülə meydan vermişdilər. Yenə də müxalif elektorata və bütövlükdə cəmiyyətə «Amerika sarıdan hər türlü dəstək alacaqlarını» təlqin etməkdə idilər.

Baxmayaraq ki, Vaşinqton hələ seçki kampaniyası öncəsi faktiki prioritetini bəyan etmişdi və o, müxalifətin xeyrinə deyildi: «Birləşmiş Ştatlar Azərbaycan iqtidarının demokratiya yolunda addımladığını, ölkədə demokratiyanın təməl prinsiplərinə riayət olunduğunu məmnunluqla qeyd edir. Bu sahədə biz Azərbaycandan daha böyük nəticələr gözləyirik. Azərbaycanda fəaliyyət göstərdiyim iki il yarım ərzində məndə belə bir qənaət hasil olmuşdur ki, bəli, Azərbaycan xalqı demokratik prinsiplərin tam bərqərar olduğu bir cəmiyyətdə yaşamaq istəyir. Ölkənizin kiçik demokratiya tarixçəsinə malik olduğunu qəbul edərsək, bu öhdəliklərin yerinə yetirilməsində bir qədər təmkin və hövsələ nümayiş etdirilməsi məqsədəuyğundur». Bu fikirləri ABŞ səfiri Ross Uilson diplomatik fəaliyyətini başa vurub ölkəsinə dönüşü ərəfəsində bildirmişdi (9).

Sözsüz ki, Azərbaycan xalqı taleyini növbəti beş ildə kimə, daha doğrusu, hansı siyasi xəttə etibar etmək barədə suala 2003-cü il oktyabrında özü, öz seçimi ilə aydınlıq gətirəcəkdi. Eyni zamanda, bu, Azərbaycan xalqı və dövləti üçün tarixi bir seçim olacaqdı. Çünki aprel ayında prezident Heydər Əliyevin səhhətində problemlərin ortaya çıxması və İlham Əliyevin seçki kampaniyasına qoşulması nisbətən yeni siyasi situasiya yaratmışdı.

Bu, həmçinin regionun Azərbaycan kimi aparıcı və strateji özəlliklərə malik bir ölkəsində mühüm mənafeləri (o cümlədən milyardlarla dollarlıq sərmayələr şəklində) olan dünya gücləri

üçün də yeni vəziyyət idi. Çünki Azərbaycanda Heydər Əliyev siyasətinin, geosiyasi yöndən tarazlı, güvənilən və sabit bir siyasətin davam edib-etməyəcəyi bu seçkilərdən asılı olacaqdı. Sözsüz ki, həmin güclər Azərbaycandakı mövcud sabit siyasətin davam etməsində maraqlı idilər və bunu seçki kampaniyasının lap əvvəlindən istər Qərbin (və konkret olaraq ABŞ-ın), istərsə də qonşu Rusiya, İran və təbii ki, Türkiyənin rəsmi dairələri nəzərə çatdırmışdılar.

Digər tərəfdən, hələ seçki kampaniyası öncəsi xarici sorğu mərkəzlərinin keçirdiyi araşdırmalar Azərbaycan cəmiyyətində, ölkə elektoratının mütləq əksəriyyətində Heydər Əliyev siyasətinə yüksək dəstək və etimadın olduğunu bir daha təsdiqləmişdi. Məsələn, may ayında ABŞ-ın Respublikaçılar İnstitutunun Azərbaycanda prezident seçkiləri ilə bağlı keçirdiyi sorğuda respondentlərin 64 faizdən 69 faizə qədəri hakim partiyaya və onun namizədinə dəstək ifadə etmişdi. Bunun ardınca ABŞ-ın Demokratiyaya Yardım Milli Fondunun sifarişi ilə ADAM Sosioloji Mərkəzinin keçirdiyi sorğuda rəyi soruşulanların mütləq əksəriyyəti Heydər Əliyev iqtidarına etimad göstərdiyini, hakimiyyət dəyişikliyində maraqlı olmadığını bildirmişdi. Bilavasitə seçki kampaniyası öncəsi, iyulun əvvəlində Açıq Cəmiyyət İnsititutu - Yardım Fondunun (Soros Fondu) maliyyə dəstəyi ilə "Puls-R" sosioloji xidmətinin keçirdiyi ümumrespublika sorğusu da eyni mənzərəni ortaya qoymuş, seçicilərin böyük əksəriyyətinin Heydər Əliyev siyasətinə yüksək etimadını nümayiş etdirmişdi.

Xarici təşkilatların apardığı sorğuların nəticələri müxalifət təmsilçilərinin seçkilərlə bağlı imkan və şanslarına da aydınlıq gətirmiş, daha doğrusu, onların uğur qazanmaq şansı olmadığını bir daha göstərmişdi. Sorğu iştirakçıları ölkə müxalifətinin aparıcı nümayəndələrinin keyfiyyət göstəricilərini əsasən mənfi işarəli qeydlərlə nəzərə çatdırmışdı. Təsadüfi deyil ki, həmin vaxt müxalifət qəzetləri sözügedən sorğuların nəticələri barədə ötəri

məlumat verməklə kifayətlənirdilər. Səbəb də bəlli idi. Çünki prezidentliyə iddialı müxalifət partiya rəhbərləri nəzarət altında saxladıqları mətbuat orqanlarında bu reallığı əks etdirən sorğunun nəticələrini dərc edə bilməzdilər. Eyni zamanda, aydın idi ki, «müxalif düşərgə təmsilçilərinin bu mövzuda susması da nəticə etibarilə onların Heydər Əliyev siyasətinə alternativ qüvvə olmadıqlarını nümayiş etdirir» (10).

Əslində isə məhz müxalifət liderlərinin həmin sorğuların ortaya qoyduğu siyasi mənzərəyə daha diqqətlə fikir verməsi lazım idi. Çünki oradakı cavabların bir çoxu seçicilərin ölkə müxalifətinə verdiyi faktiki qiymət idi. Həmin cavablardan aydın olurdu ki, Azərbaycan müxalifətinin spontan təbiətə malik olması, nə istədiyini bilməməsi, xalqdan və onun problemlərindən uzaqlaşması, ucuz populizmə və primitiv təbliğat metodlarına, ifratçılığa yol verməsi, müxalif düşərgədə daxili intriqa və qarşılıqlı ittihamların gündəlik həyat tərzinə çevrilməsi kimi mənfi keyfiyyətlər seçici kütləsinin gözündən yayınmayan cəhətlərdir. Bu cəhətlərlə isə seçkidə uğura ümid bəsləmək, o cümlədən xaricdən hansısa ciddi siyasi dəstəyə bel bağlamaq əsassız idi.

Qeyd etmək lazımdır ki, müxalifətin 2003-cü il prezident seçkilərinə bütün əsas parametrlər üzrə hazırlıqsız getdiyi və artıq taktiki yöndən hakimiyyətə uduzduğu hələ kampaniya başlamazdan öncə düşərgə daxilində də dolayısı ilə etiraf olunurdu. Düşərgə daxilində hələ 2002-ci ilin sonundan başlanan "vahid namizəd oyunu" heç bir nəticə verməmişdi və müxalifətin seçkilərə ən azı 4-5 namizədlə gedəcəyi şübhə doğurmurdu. Odur ki, müxalifət mətbuatı etiraf etməyə başlamışdı ki, hakimiyyət opponentlərinin bu seçkidə uğur şansı yalnız nəzəridir. Hələ rəsmi kampaniyanın başlanmasına bir neçə ay qalmış «Azadlıq» qəzetində müxalifətin seçki taktikası, Qərbin ona münasibəti və müxalifətin vahid namizəd ideyası ilə bağlı dərc olunmuş analitik yazıda deyilirdi: «Müxalifətin Heydər Əliyevə qarşı vahid

namizədlə çıxış etməsindən daha ciddi alternativ variantı yoxdur... İndiki vəziyyət isə belədir: Heydər Əliyev hakimiyyətinin alternativi var, amma yox kimi görünür. Bu, müxalifətin ən ciddi problemi və qüsurudur...» (11).

Lakin hətta bu problemi aradan qaldırması və seçkiyə vahid namizədlə getməsi də müxalifətə uğur vəd edə bilməzdi. Çünki Heydər Əliyev siyasətinin cəmiyyətdəki real dəstəyi və elektoral çəkisi müxalifət liderlərinin ayrı-ayrılıqda hər birinin siyasi füqurunu kölgədə qoyduğu kimi, onların toplam reytinqindən də xeyli yüksəkdə idi. Digər tərəfdən, müxalifət liderlərinin cəmiyyətə nümayiş etdirdiyi siyasi kredo və davranış tərzi, dağıdıcılıq, populist inkarçılıq və ən əsası, neobolşevizm və qisasçılıq üzərində köklənən siyasi təbliğatı nəticə etibarilə onların əleyhinə işləyirdi. Bu cür təbliğat sabitlik və inkişaf yoluna çıxmış cəmiyyətə cəlbedici ola bilərdimi? Təbii ki, yox.

80-ci illərin sonu - 90-cı illərin əvvəllərində siyasətə "küçə mübarizəsi" taktikası, tətillər və mitinqlər təşkil etmək, yıxmaq, devirmək düşüncəsi ilə gələn qüvvələrin üstündən illər ötəndən sonra da dağıdıcılıq xislətindən əl çəkməməsi cəmiyyəti qorxudurdu. Zaman, dövran dəyişmiş, müxalifət liderlərinin baxış və düşüncələri isə dəyişməmişdi. Cəmiyyətin siyasi liderlərdən qurucu, konstruktiv fəaliyyət, müstəqil dövlətin gələcəyi naminə daha mütərəqqi ideya və konsepsiyalar gözlədiyi halda müxalifət liderlər vətəndaş qarşıdurması fəlsəfəsini təbliğ edir, əvvəlkitək «asıb-kəsməkdən» danışırdılar. Əslində, müxalifət liderləri xalq hərəkatı dövründə topladıqları az-çox siyasi kapitalı sonradan bu cür neobolşevist davranışla, Heydər Əliyev hakimiyyətinə aşkar qərəzli və qeyri-sağlam münasibət bəsləməklə israf etmişdilər və 2003-cü il seçkilərinə də faktiki siyasi müflis vəziyyətində gəlib çıxmışdılar.

Bu düşərgədə qisasçılıq meylini Azərbaycandakı siyasi prosesləri müşahidə edən xarici ekspertlər də vurğulayırdılar. Rusiyanın "İzvestiya" qəzetində seçki kampaniyası öncəsi dərc

olunan analitik yazıda bu məqama diqqət çəkilirdi: «Müxalifət bu məsələdə "siyasi qısırlıq"dan əziyyət çəkir. Bu düşərgənin hakimiyyətin hətta xarici ekspertlər tərəfindən yüksək qiymətləndirilən uğurlarını da gözdən salmaq cəhdləri, hakimiyyətə münasibətdə açıq düşmənçilik mövqeyindən çıxış etməsi ona nəinki siyasi divident gətirmir, əksinə, özlərini ictimai qınaq obyektinə çevirir. Müxalifət bu cür ifrat inkarçılıq və nihilizmlə dağıdıcı qüvvə imicini daha da möhkəmləndirir» (12).

Müxalifətin hakimiyyətə ideoloji cəhətdən və təşkilati baxımdan hazırlıqsız, ideya sarıdan isə «kasad» və əliboş gəlmək niyyəti, əslində, 10 il ərzində görülmüş işlərdən, qazanılmış nailiyyətlərdən imtina edilməsi demək idi. Düşərgə liderləri Heydər Əliyev hakimiyyətinin əldə etdiyi nailiyyətlərin hamısını - hətta neft müqavilələrini, ölkə iqtisadiyyatına yatırılan sərmayələri, real iqtisadi inkişaf göstəricilərini təftiş və inkar edərək bunların əvəzində özlərinin cılız hakimiyyət iddiasını ortaya qoyurdular. Halbuki, bu nailiyyətləri və Azərbaycanın uğurlu inkişaf yolunda olduğunu beynəlxalq təşkilatlar, müxalifətin öz siyasi planlarında mədət umduğu Qərb dairələri, o cümlədən bir qədər sonra postsovet məkanında «məxməri inqilab»ların «xaç atası» kimi tarixə düşən Corc Soros şəxsən etiraf edirdi.

2003-cü ilin mayında Soros Fondunun Azərbaycandakı nümayəndəliyinin təşkil etdiyi "Xəzərin neft gəlirləri: qazanan kim olacaq?" mövzulu konfransda iştirak etmək üçün Bakıya gələn xeyriyyəçi-milyarder prezident Heydər Əliyevlə görüşdə ölkəmizdə aparılan sosial-iqtisadi islahatları, özəlliklə neft sahəsində iqtisadi şəffaflığın təmin olunmasını yüksək qiymətləndirmişdi: «Bu, mənim Bakıya ilk səfərimdir, baxmayaraq ki, Fond artıq yeddi ildir burada fəaliyyət göstərir. Təəssüflər olsun ki, bu günə kimi Bakıya gəlməyə imkanım yox idi. Azərbaycan neft sahəsində yaratdığı iqtisadi şəffaflıqla bütün dünyaya örnək rolunda çıxış edə bilər. Siz neftinizdən

alınan gəlirlər üçün açıq, şəffaf Neft Fondu yaratmısınız. Azərbaycanın şəffaflığı və açıqlığı ilə öyünməyə əsası vardır. Çünki son zamanlar Azərbaycanda bu sahədə böyük göstəricilər əldə olunub" (13).

Yeri gəlmişkən, Soros bu fikri bir qədər sonra, iyun ayında Londonda Böyük Britaniya hökumətinin təşəbbüsü ilə keçirilən və ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin də iştirak etdiyi beynəlxalq konfrasda bir daha nəzərə çatdırmışdı. Sözsüz ki, Sorosun prezident seçkiləri ərəfəsində Azərbaycana səfəri təkcə neft sahəsindəki iqtisadi şəffaflıqla tanış olmaq məqsədi daşımırdı. Özünün də qeyd etdiyi kimi, o, rəhbərlik etdiyi Fondun Azərbaycanda fəaliyyət göstərdiyi yeddi ildə ilk dəfə buraya gəlmişdi və bu, Azərbaycandakı seçkiqabağı situasiyanı da gözdən keçirmək üçün bir imkan idi. Bu baxımdan onun Azərbaycan iqtidarının fəaliyyətinə verdiyi yüksək qiymət ölkə müxalifətinin «inqilab» arzuları ilə heç cür səsləşmirdi.

Onu da qeyd etmək lazımdır ki, Soros Bakıya gəlişindən bir qədər sonra parlament seçkilərinə hazırlaşan Gürcüstana da səfər etmişdi, amma orada artıq fərqli çıxışları ilə yadda qalmış, hakimiyyət təmsilçilərindən daha çox gürcü müxalifləri ilə görüşlər keçirmişdi. Faktiki olaraq Soros Fondunun yerli nümayəndəliyi Gürcüstanda 2003-cü ilin noyabrında gerçəkləşən «qızılgül» inqilabının beyin mərkəzlərindən biri idi və biz irəlidə bu barədə danışacağıq. İndilik isə onu qeyd edək ki, istər Soros, istərsə də Azərbaycana səfər edən, yaxud ölkəmizdəki seçkiönü vəziyyəti kənardan izləyən digər beynəlxalq təmsilçilər əhalinin mütləq əksəriyyətinin Heydər Əliyev siyasətinə yüksək etimadının olduğunun və 2003-cü ilin prezident seçkilərindən də «inqilab» havası gəlmədiyinin yaxşı fərqində idi.

Çünki əcnəbi nümayəndələr də görürdülər ki, Azərbaycan müxalifətinin liderləri Heydər Əliyev siyasətinə real alternativ olaraq cəmiyyətə heç bir yeni ideya təqdim etmirdi. Onlara yalnız hakimiyyətə gəlmək lazım idi, özü də nəyin bahasına

olursa-olsun. Müxalifət təmsilçilərinin hakimiyyətə gələndən sonra təkcə dövlət məmurlarının deyil, bu iqtidarla işbirliyində olanların hamısının, o cümlədən iş adamlarının, idmançıların, hətta mədəniyyət xadimlərinin, jurnalistlərin də cəza alacağı barədə hədələri isə sivil dünyanı, sadəcə, heyrətləndirirdi. Müxalifət mətbuatı səhifələrindəki aparıcı şüar-başlıqlar bunlar idi: «Biz hakimiyyətə gələndə onlar xaricə qaçmağa məcbur olacaq», «Onların yeri həbsxanadır» və s.

Radikal müxalifət Azərbaycana belə bir «inqilab» vəd edirdi. Bu qüvvələr hakimiyyətə gələcəyi təqdirdə hər şeyi bolşeviksayağı dağıdacaqlarını, sonra da yenidən quracaqlarını bildirsələr də, əslində, onların çıxışlarında quruculuqdan əsər-əlamət yox idi. Onların Azərbaycanı haraya aparacaqlarını isə təsəvvür etmək çətin deyildi. Bunun üçün, sadəcə, 1993-cü ilin yayını xatırlamaq kifayət idi: xalq həmin tarixi unutmamışdı və o dövrə bir daha qayıtmaq istəmirdi. Məhz buna görə Azərbaycan cəmiyyəti artıq 2003-cü il seçkiləri öncəsi radikal ovqatlı, dağıdıcı və populist siyasətlə rasional-praqmatik, quruculuq və sabitliyin təminatı olan siyasət arasında tarixi seçimini ikincinin xeyrinə etmişdi. Belə olan halda illüziyalara qapılan radikal müxalifət liderlərinin Qərbdəki «əmi-dayılara» bəslədikləri ümidlər də nəticə verə bilməzdi. Çünki onlar tamamilə əsassız idi.

Heydər Əliyev siyasətinin təməl prinsipləri - təhlükəsizlik, sabitlik və tərəqqi – Azərbaycanla səmərəli tərəfdaşlığı davam etdirmək istəyən xarici dövlətləri maraqlandıran nəzəri məsələlər deyil, faktiki reallıqlar idi. Heydər Əliyevin milli lider və dünya miqyaslı siyasətçi kimi tarixi rolu da onda idi ki, o, Azərbaycanın belə bir strateji yolunu müəyyənləşdirməklə kifayətlənməyərək həm də onun davamlığını, varisliyini təmin etmişdi və Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi onun yolunu uğurla davam etdirməyə hazır idi. Bu,

Azərbaycanın yaxın-uzaq ətrafındakı geosiyasi güclər üçün mühüm məqam idi.

Azərbaycandakı siyasi gedişatı yaxından izləyən Türkiyənin nüfuzlu "Nöqtə" jurnalı 2003-cü ilin 6 iyun tarixli nömrəsində "Azərbaycanın gələcəyi İlham Əliyev" sərlövhəli məqalədə bu barədə yazırdı: «ABŞ üçün Azərbaycanın önəmi çox böyükdür, çünki həm Xəzər hövzəsi neftinin qıfılı, həm də dünya bazarına çıxışı Bakı üzərindən keçir. Azərbaycanın əhəmiyyəti həm Avropa və Rusiya, həm də İran və Türkiyə üçün eynidir. Əgər İlham Əliyev gələcəkdə Azərbaycanın prezidenti olarsa, bunun Türkiyə və türk dünyası üçün son dərəcə mütərəqqi olacağını görməkdən ötrü kahinlik etməyə ehtiyac yoxdur. Həm ABŞ, həm də Avropa Birliyi ölkələri üçün İlham Əliyevin siyasəti ata Heydər Əliyevin siyasətinin davamı, Azərbaycanda sərbəst bazarın, demokratiyanın, balanslaşdırılmış siyasətin davam etməsi deməkdir. Bu gün ABŞ dairələri Azərbaycandakı müxtəlif müxalif qruplarına əl altından mavi muncuq paylasa da, tez-tez Heydər Əliyev iqtidarına «arxanızdayıq» xəbəri göndərirlər» (14).

2003-cü il avqustun 4-də İlham Əliyevin Baş nazir təyin olunmasının beynəlxalq dairələrdə doğurduğu müsbət rezonans, ona ünvanlanan təbriklər, o cümlədən ABŞ prezidenti Corc Buşun şəxsən İlham Əliyevi təbrik etməsi - bütün bunlar həm də Qərbin Azərbaycanda başlanan seçki kampaniyasına münasibəti, bu yarışda kimə rəğbət bəsləməsinin dolayı nümayişi idi. Bu təyinatın səhərisi, avqustun 5-də «Vaşinqton Post» qəzetində dərc olunan «Azərbaycan müxalifətinin seçkiləri udmaq şansı yoxdur» sərlövhəli məqalədə müəllif Syuzan Qlasser yazırdı: «Bu ölkədə müxalifət nə Heydər Əliyev, nə də İlham Əliyev üçün real qüvvə deyil. Müxalifətin heç bir proqramı yoxdur. Onlar öz aralarında kimin birinci olması ilə bağlı mübarizə aparır və heç zaman bir-birini başa düşmürlər». Müəllif daha sonra qeyd edirdi ki, Azərbaycanda fəaliyyət

göstərən Qərb iş adamları Heydər Əliyev siyasətini sabitliyin təminatı hesab edirlər və «digər siyasi partiyaların hakimiyyətə gələcəyinə inanmırlar».

Məqalənin diqqətçəkən məqamlarından biri müəllifin müxalifət namizədlərindən ən iddialısı olan Müsavat başqanı barədə mülahizələri idi: «İlham Əliyevlə yanaşı, bir neçə namizəd diqqət çəkir. Bunlardan biri İsa Qəmbərdir. Lakin bu şəxsin adı keçmişdəki iğtişaşlar və qanunsuzluqlar, insanların öz həyatları sarıdan arxayın olmadıqları dövrlə bağlıdır. Vətəndaşlar hesab edirlər ki, onlardan heç bir müsbət addım gözləmək və onların nağıllarına inanmaq olmaz» (15).

ABŞ-ın digər nüfuzlu qəzeti «Los-Anceles Taymsı» İlham Əliyevi Azərbaycanda islahatlar kursunun davam etdirilməsi, habelə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gələcəyi baxımından ən layiqli siyasi füqur kimi xarakterizə edirdi. Məqalədə qeyd olunurdu ki, Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Amerika və Türkiyə ilə yaxın əlaqələr qurmaqla yanaşı, Rusiya və İranla da tarazlı münasibətlər yarada bilib və İlham Əliyev bu siyasəti davam etdirəcək. Avqustun sonunda Bakıya gələn amerikalı konqresmenlər İlham Əliyevi Azərbaycanın gələcək lideri kimi gördüklərini və bu vəzifəyə ən layiqli namizəd olduğunu açıq şəkildə vurğulamışdılar. «Biz bilirik ki, Siz bu vəzifənin öhdəsindən layiqincə gələcəksiniz. Əminəm, bir çox ölkələrin xalqları arzulayırlar ki, onların da Sizin kimi bacarıqlı, beş dildə danışa bilən, müxtəlif mövzulara dair geniş bilgilərə malik, geniş dünyagörüşlü bir lideri olsun. Azərbaycan indi tarixi bir dövrünü yaşayır. Ölkənizin yeni bir dövrə qədəm qoyduğu bir vaxtda xalqınıza məhz Sizin kimi lider lazımdır. İnanıram ki, Siz Azərbaycana layiqincə xidmət edəcək, ölkənizə atanız qədər sadiq olacaqsınız, onun inkişafını təmin edəcəksiniz. Xüsusilə seçkilər ərəfəsində Sizin kimi bacarıqlı və savadlı adamın ölkəyə rəhbərlik etməsi böyük əhəmiyyət daşıyır», - deyə

konqresmen Kurt Ueldon Baş nazir İlham Əliyevlə görüşdə bildirmişdi (16).

Əslində, Qərbin, o cümlədən Amerikanın Azərbaycandakı seçkilərlə bağlı ümumi mövqeyi müxalifət liderlərinə də bəlli idi. Eyni mesaj seçki kampaniyası ərəfəsində (sentyabr 2003) Vaşinqtona səfər edən Müsavat başqanına da verilmişdi. Sirr deyil ki, İsa Qəmbər Amerikaya prezident seçkiləri ilə bağlı, heç olmasa, nəzəri dəstək almaq üçün getmişdi, amma onun ümidləri doğrulmamışdı. Qərb dairələrinin İlham Əliyevin Baş nazir təyin olunmasına münasibəti isə müxalifət düşərgəsində şaşqınlıq yaratmışdı.

Halbuki, müxaliflər güman edirdilər ki, bu təyinat istər ölkə daxilində, istərsə də xaricdə narazılıq doğuracaq və onlar da bundan yararlanacaqlar. «ABŞ, eləcə də Azərbaycana yatırım qoyan digər ölkələr maraqlıdırlar ki, Azərbaycanın yeni hakimiyyəti xalqın içərisində dəstəyi olan qüvvələrdən təşkil olunsun. Əks təqdirdə, ölkədə vətəndaş müharibəsinin, böyük qarşıdurmaların olacağı, sabitliyin uzun müddətə pozulacağı qaçılmazdır. İlham Əliyevin hakimiyyətdə qalması ölkəyə sərmayə qoyanların çıxarlarına ziddir. Amerikalı dostlarımız bunu bilirlər və həmin təhlükəni aradan qaldırmaq istiqamətində ağılla işləyirlər... İlham Əliyevin Baş nazir olmasından sonra ölkədəki narazılıqlar güclənən istiqamətdə üzə çıxmaqdadır. Proses bütün istiqamətlər üzrə davam etdiriləcək. Daha da böyüyəcək», - deyə Müsavat başqanının müavini Rauf Arifoğlu iddialı tərzdə siyasi falçılıq edirdi (17).

Bu iddiaların müqabilində ortaya çıxan real mənzərə radikal müxalifət ideoloqları üçün əsl şok idi və bunun bir neçə səbəbi vardı. Əvvəla, müxaliflər İlham Əliyevin Baş nazir təyin ediləcəyi barədə diskussiyaları aylar öncədən aparsalar da baş verənlər göstərdi ki, onlar bu fakta daxilən hazır deyilmişlər. Məhz buna görə də ilk gündən siyasi isteriya və qaraqışqırığa baş vurdular, sonra isə İlham Əliyevə qarşı böhtan və iftira kampaniyasına

daha geniş meydan verdilər. Müxalifət nəzarətindəki mətbuat vasitələrini tam səfərbər edərək arsenalındakı "qara piar"ı bütün gücü ilə işə salmışdı.

Lakin müxalif liderlərin «Qərb İlham Əliyevin Baş nazirliyini qəbul etmir» kimi köntöy əkstəbliğat texnologiyası tezliklə elə onların özlərinin əleyhinə işləməyə başladı. Müxaliflər qardaş Türkiyədən, qonşu Gürcüstan, İran və Rusiyadan, həmçinin Avropadan İlham Əliyevə ünvanlanan təbriklərdəki rəğbəti nisbətən həzm etsə də, daxili intizarla məhz Vaşinqtonun məsələyə münasibətini gözləyirdi. Dünyanın bir nömrəli fövqəldövlətinin Azərbaycandakı mühüm siyasi yeniliyə münasibəti ümumilikdə seçki yarışının perspektivinə də işıq tutmalı idi. Avqustun 11-də prezident Corc Buşun İlham Əliyevə göndərdiyi təbrik məktubu müxalifəti bu intizardan da «xilas etdi». Bundan sonra sıravi müxalifətçilərin öz liderlərinə ünvanladıqları «Bəs deyirdiniz Qərb, demokratik dünya İlham Əliyevin Baş nazirliyini qəbul etməyəcək, amma təbriklərin ardı-arası kəsilmir?» suallarına ikincilər cavab vermək iqtidarında deyildilər. Çünki onlar İlham Əliyevin Baş nazir təyinatının beynəlxalq müstəvidə belə rəğbətlə qarşılanacağına hazır deyildilər. Bu, müxalifəti şoka salan ikinci mühüm faktor idi.

Nəhayət, müxalifətin ciddi şəkildə yanıldığı üçüncü məqam İlham Əliyevin Baş nazir təyinatının ölkə daxilində doğurduğu rezonansla bağlı idi. Müxalifət güman edirdi ki, əhali bu təyinata etiraz edəcək, eyni zamanda, iqtidarda yeni Baş nazirə qarşı gizli müxalifət özünü büruzə verəcək və nəticədə hakim komandada parçalanma başlanacaq. Sonuncu faktor müxalifət ideoloqları üçün xüsusilə önəmli idi, çünki hakim elitanın parçalanması «məxməri inqilab»ın başlanğıcı demək olacaqdı.

Lakin gerçəklik bu iddiaların da əksini ortaya qoydu. Ölkə əhalisinin mütləq əksəriyyəti Heydər Əliyev siyasətinin ən layiqli davamçısının hakimiyyət olimpinə doğru yüksəlişini ruh yüksəkliyi, arxayınlıq və rəğbətlə qarşıladı. İctimai rəy

Azərbaycan dövlətinin inkişaf yolunun sabit qalacağına, son 10 ildə möhkəm əsasları təmin edilmiş dövlətçilik xəttinin davam edəcəyinə müvafiq müsbət impulslarını verdi. Eyni zamanda iqtidar komandası yeni Baş nazirin təyinatı ilə daha da səfərbər oldu. Bir sözlə, reallıqdan uzaq, özlərinin qapalı çevrəsində illüzor spekulyasiyalardan, xəyali hakimiyyət bölgüsündən uzağa gedə bilməyən müxalifət liderləri və onların siyasi texnoloqları həmişəkitək yenə yanılmışdılar.

Bütün bunlardan sonra seçkidə labüd məğlubiyyəti göz önünə alan radikal müxalifət liderlərinin bir «çıxış yolu» qalmışdı: seçkisonrası toqquşmalara rəvac verib seçkinin nəticələrinə kölgə salmağa cəhd etmək. Əslində, seçki kampaniyasının əvvəlindən müxalifət ideoloqları siyasi mübarizəni güc müstəvisinə keçirmək niyyətini gizlətmirdilər. Müxalifət qəzetlərinin səhifələrində günbəgün "xalq çaxnaşması"na, "üsyan"a siyasi-ideoloji hazırlıq gedirdi: «Bizə seçkilərə getmək, xalqı öz taleyi uğrunda kampaniyaya qoşmaq lazımdır. Nə olacaqsa, bundan sonra, səsvermənin nəticələrini əldə edərək olmalıdır. O səsi, o nəticəni əldə edib, uyğun addımlarımızı atacağıq. Əks təqdirdə savaşacağıq! Devirəcəyik! Qovacağıq ölkədən bütün məlunları!» (18).

Bu kampaniyada ifratçılığın bütün həddini aşan Müsavat ideoloqları müxalifətdən olan digər namizədlərə (Etibar Məmmədov, Lalə Şövkət, İlyas İsmayılov, Sabir Rüstəmxanlı) qarşı açıq şantajdan da çəkinmirdilər «Kim İsa Qəmbəri dəstəkləmirsə, deməli, İlham Əliyevin yanındadır. Mən bütün müxalifəti mövqeyini müəyyənləşdirməyə çağırıram, sonra gec olacaq» - bu, Müsavat başqanının müavini və «Yeni Müsavat» qəzetinin baş yazarı Rauf Arifoğlunun gündəlik çağırışlarından idi. Yaxud seçicilərə müraciətlə: «Səsverməyə azuqə və xüsusi hazırladığınız dəyənəklə gəlin. Çünki gecəni məntəqələrin yaxınlığında qalmalı və üsyana hazır olmalısınız" (19).

Birillik hakimiyyətləri dövründə dövlət idarəçiliyini dərəbəyliyə çevirən qüvvələr bu cür hikkə ilə Azərbaycan xalqından etimad mandatı istəyirdilər. Lakin onlar unudurdular ki, bir dəfə xalqdan alıb yerə vurduqları etimadı ikinci dəfə qazanmaq müşküldür. Buna görə də müxalifət radikallarının «xalq üsyanı» iddiaları havadan asılı qaldı. 2003-cü il oktyabrın 16-da Bakıda yaşanan olaylar müxalifət liderlərinin aylardan bəri təbliğatını apardıqları «inqilab»a acınacaqlı bir parodiya oldu. Onların təbliğ etdiyi «kim bizimlə deyilsə, bizim düşmənimizdir» kimi neobolşevist şüarların reallıqda nədən ibarət olduğu Bakı küçələrində iyrənc şəkildə nümayiş olundu. Bu olaylar radikal müxalifət liderlərinin Azərbaycana hansı siyasət, mədəniyyət və davranış tərzi gətirmək istədiklərini də nümayiş etdirdi.

Nəhayət, həmin olaylar birmənalı şəkildə göstərdi ki, Azərbaycanda hakimiyyətə zor gücünə, iğtişaşlar yolu ilə gəlmək istəyənləri biabırçı iflas gözləyir. Çünki onların qarşısında artıq Vəzirov, Mütəllibov, yaxud Elçibəy dövrünün köntöy dövlət idarəçiləri deyil, Heydər Əliyevin 10 il ərzində çoxlu sınaqlardan çıxmış, möhkəmlənmiş, ən əsası, xalqın mütləq əksəriyyətinin etimadına malik hakimiyyət sistemi və onun yeni lideri dayanmışdı. Demokratiya həm də qanunçuluq, qətiyyət, siyasi iradə deməkdir. Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gerçəyi bir daha sübut etdi. Müxalifətin «inqilab» arzuları isə, necə deyərlər, bir başqa payıza qaldı.

ÜÇÜNCÜ FƏSİL
GÜRCÜSTANDA «QIZILGÜL İNQİLABI»: SƏBƏB VƏ NƏTİCƏLƏR

«Xəyanətə çox vaxt düşünülmüş şəkildə yox, kortəbii halda, xarakterin zəifliyi üzündən yol verirlər».
F.Laroşfuko

«Qətiyyət və iradə çox vaxt zəif ağlın özündən güclü ağıl üzərində üstünlük qazanmasına imkan verir».
U.Vert

Azərbaycanda prezident seçkilərinin başa çatmasından bir neçə gün sonra, 2003-cü il noyabrın 2-də strateji tərəfdaş və yaxın qonşumuz olan Gürcüstanda parlament seçkiləri keçirildi. Bu seçkilər mahiyyətcə və nəticə etibarilə Azərbaycandakı seçki yarışından köklü şəkildə fərqlənməklə bərabər, eyni zamanda, postsovet məkanında «məxməri inqilab»ın ilk praktik təcəssümü oldu. Gürcüstan inqilabı bu ölkə üçün əlamətdar daxili siyasi yeniliklərdən ziyadə keçmiş SSRİ coğrafiyasında yeni geosiyasi mənzərənin şəkillənməsində əhəmiyyətli bir faktor kimi nəzərdən keçirilməlidir. Sovet imperiyasının süqutundan sonra bu coğrafiyada Qərbin (daha dəqiqi, Amerika Birləşmiş Ştatlarının) Rusiya ilə apardığı nüfuz mübarizəsində geosiyasi tərəzi ilk dəfə Gürcüstanın timsalında birincinin xeyrinə dəyişmiş oldu.

Bu dəyişikliyin özü ilə nələri gətirib-götürdüyünün təfərrüatına varmadan (çünki bu proses hələ tam başa çatmayıb) öncə bir mühüm məqamı qeyd etmək gərəkdir. Geosiyasi baxımdan strateji bir regionda yerləşən Gürcüstan kimi kiçik ölkənin böyük dünya gücləri arasındakı nüfuz savaşının obyekti olması tamamilə təbiidir. Önəmli olanı bu prosesdə axıradək yalnız obyekt, «tərəzi daşı» rolunda qalmayıb, suveren və müstəqil dövlət olaraq öz siyasi simanı, real milli maraqlarını və gələcək mənafelərini qorumağı bacarmaqdır.

Sözsüz ki, postsovet məkanındakı qlobal geosiyasi nüfuz mübarizəsi heç də Gürcüstandan başlamamışdı, onun çevrəsi digər ölkələri, o sıradan Azərbaycanı da əhatə edirdi. Hətta qeyd etmək olar ki, Azərbaycan istər zəngin təbii ehtiyatları və geniş iqtisadi potensialı, istərsə də regionda Gürcüstandan da üstün strateji mövqe özəllikləri ilə daha əvvəl bu mübarizənin obyektinə çevrilmişdi. Lakin Azərbaycan rəhbərliyi tarazlı xarici siyasət kursu yeritməklə, ən önəmlisi isə, böyük dövlətləri qarşı-qarşıya qoymaq deyil, onları əməkdaşlığa dəvət etmək prinsipi ilə davranmaqla bu mübarizənin arzuolunmaz fəsadlarını önləyə bilmişdi. Məhz buna görə böyük güclərin Azərbaycan uğrunda nüfuz mübarizəsi hansısa tərəfin qalib, digərinin məğlub olması ilə deyil, onların ümumi əməkdaşlıq nöqtələri tapması ilə nəticələnib. Bu geosiyasi tarazlıqdan ən çox karlı çıxan tərəf isə elə Azərbaycanın özüdür.

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan keçmiş sovet məkanında birinci olaraq əməli şəkildə sübut etdi ki, o, dünyanın fövqəldövlətləri ilə bərabər, qarşılıqlı faydalı münasibətlər qura və bu güclər üçün düşmənçilik deyil, əməkdaşlıq müstəvisi rolunu oynaya bilər: «Biz tam müstəqil şəkildə xarici siyasət həyata keçiririk, siyasi qərarlar□n qəbul edilməsi məsələsində heç bir dövlətdən asılı deyilik. Mən belə düşünürəm ki, bu, Azərbaycan xalqının, Heydər Əliyev siyasətinin ən böyük uğurlarından biridir. Azərbaycan öz milli maraqlarına uyğun və maraqlarının qorunmasına yönəlmiş siyasət həyata keçirir. Biz Azərbaycanda əməkdaşlıq zonası yaratmağa çalışırıq və buna nail oluruq. Biz imkan verə bilmərik ki, Azərbaycan müxtəlif ölkələr arasında qarşıdurma zonasına çevrilsin. Əgər hansısa ölkələr bir–biri ilə qarşıdurmaya girmək istəyirlərsə, onlar bunun üçün başqa yer tapa bilərlər» (20).

Təbii ki, Azərbaycanın özünü böyük güclər arasında əməkdaşlıq müstəvisi kimi təsdiqləməsi rəvan bir yol olmamışdır. Bu, Heydər Əliyev diplomatiyasının, müdrik və uzaqgörən

siyasətin addım-addım əldə etdiyi nəticə idi. 1994-cü ildən başlayaraq Azərbaycanın müstəqil neft strategiyasına, Xəzərdə Qərb şirkətləri ilə bağlanan neft müqavilələrinə Moskvanın sərt münasibətini yada salaq. Yaxud Rusiyanın Ermənistana gizli silah satışı, Çeçenistan müharibəsi ilə bağlı təhdidləri xatırlayaq. Amma Azərbaycan rəhbərliyi təmkinli, eyni zamanda, prinsipal siyasət sayəsində bu təhdidlərin önünü kəsməyə, üstəlik 2000-ci ildən etibarən Rusiya ilə qarşılıqlı səmərəli tərəfdaşlığa nail oldu. Özü də heç bir strateji güzəştə getmədən, milli maraqlarına xələl gətirmədən. Xəzərin bölünməsi, yaxud Qəbələ RLS-in statusu barədə Rusiya ilə əldə olunan strateji razılaşmaları qeyd etmək kifayətdir. Eyni zamanda, Bakı balanslı siyasət nəticəsində ABŞ və Rusiyanın Xəzərin Azərbaycan sektorunda enerci resurslarının istismarı və dünya bazarına ixracında yanaşı iştirakını (Bakı-Novorossiysk və Bakı-Tbilisi-Ceyhan kəmərləri) təmin etmiş oldu. Bu faktların sayını artırmaq olar.

Odur ki, 2003-cü ilin Azərbaycanını və Gürcüstanı geosiyasi prizmadan müqayisə etməli olsaq, ilk növbədə məhz bu fərqi qeyd etməliyik. Eduard Şevardnadze Gürcüstanda hakimiyyətə 1992-ci ildə, ölkənin çox ağır dövründə, faktiki vətəndaş müharibəsinin başlandığı bir vaxtda gəlmişdi. Bu baxımdan onun ölkədə sabitliyin yaradılması, islahatların aparılması, nisbi inkişafın təmin olunması istiqamətində gördüyü işlər qeyd olunmalıdır. Lakin bütün bunlarla yanaşı, Şevardnadze nəticə etibarilə Gürcüstanı nə daxildə sabit inkişaf yoluna çıxara bildi, nə də xarici siyasətdə dayanıqlı kurs yeritməyə müvəffəq oldu. Hakimiyyətdə olduğu illər ərzində o, xarici siyasəti əsasən Qərb (özəlliklə ABŞ) və Rusiyanı qarşı-qarşıya qoymaq və bu rəqabətdən nisbi dividentlər əldə etmək xətti üzərində həyata keçirirdi. Lakin bu taktiki manevrlərlə uzunmüddətli nailiyyət əldə etmək müşkül idi. Əksinə, böyük güclərin amansız rəqabəti nəticə etibarilə Şevardnadze iqtidarının (daha acınacaqlı halda

isə Gürcüstan dövlətinin) «başında çatlaya bilərdi» ki, sonda belə də oldu.

Düzdür, etiraf etmək lazımdır ki, Rusiya lap əvvəldən (Zviad Qamsaxurdia dövründən) Gürcüstanla sərt davranıb, o cümlədən Abxaziya və Cənubi Osetiyadakı separatizmi dəstəkləməklə Tbilisini mütəmadi təhdidlərə məruz qoyub. Şevardnadze ilk illər bu təhdidləri qismən neytralaşdırsa da, 90-cı illərin sonundan etibarən Rusiyanın təzyiqləri yenidən güclənmiş, 2001-ci ildən isə Moskva bu ölkəyə qarşı viza rejimi tətbiq etmişdi. Eyni zamanda, bu vəziyyətin yaranmasında Gürcüstan rəhbərinin Qərblə Rusiya arasında nəhayətsiz «vargəl etməsi» az rol oynamamışdı. Şevardnadzenin keçmiş SSRİ-nin xarici işlər naziri kimi «soyuq müharibə»nin aradan qaldırılmasında, xüsusilə də Almaniyanın birləşməsindəki rolunu nəzərə alan Qərb bir müddət ondan dəstəyini əsirgəmədi. Lakin sonda Gürcüstan rəhbərinin qeyri-sabit, «nə o yanlıq, nə də bu yanlıq» olan siyasi kursu Qərbi də usandırmışdı.

Məsələn, 2001-ci ildə Şevardnadze NATO rəsmilərinə bildirmişdi ki, Gürcüstan alyansa üzv olmağı qarşıya məqsəd qoyub və 2005-ci ildə NATO-nun qapısını döyəcək. Bundan bir qədər sonra Rusiya prezidenti Şevardnadze ilə görüşdə həmin bəyanatı yada salanda isə, o, bildirmişdi ki, «ehtiyatsızlıq edərək belə fikir söyləyib». Sözsüz ki, Gürcüstan liderinin bu cür «diplomatik» sapmaları Qərbdə diqqətdən yayınmırdı. Ona görə də Şevardnadzenin Qərbə ünvanladığı şikayətləri əvvəlkitək rezonans doğurmurdu. 2003-cü ilin yanvarında Şevardnadze Rusiyanın Abxaziya separatçılarına dəstəyi və birtərəfli qaydada Soçi-Suxumi dəmir yolunu işə salmaq niyyətindən ABŞ prezidentinə növbəti dəfə şikayətlənəndə Corc Buş cavab məktubunda ona Moskva ilə dil tapmağı məsləhət görmüşdü. Bir sözlə, 2003-cü ildə Amerika Birləşmiş Ştatları da Şevardnadzedən əlini üzərək Gürcüstanda yeni, Qərblə daha

sabit tərəfdaşlıq edəcək qüvvənin hakimiyyətə gəlməsində maraqlı idi.

Ümumiyyətlə, Qərbin postsovet məkanında nüfuz dalğasının genişlənməsi Amerika Birləşmiş Ştatlarındakı 2001-ci il 11 sentyabr terror olaylarından sonra yeni vüsət almışdı. Uzun müddət bu coğrafiyada hərbi-təhlükəsizlik yönündən möhkəmlənmək üçün imkanlar axtaran Birləşmiş Ştatlar üçün 11 sentyabrdan sonra başladığı antiterror kampaniyası çox əlverişli şans vermişdi. ABŞ-ın öncüllüyündə həyata keçirilən beynəlxalq antiterror kampaniyasının mühüm zolağının Cənubi Qafqaz-Xəzər-Orta Asiyadan keçməsi bu region üzərində geosiyasi rəqabətə əlavə impuls vermiş oldu. Rusiyanın geosiyasi "votçina"sı sayılan regionda daha öncə ehtiyatla davranan Vaşinqton postsentyabr situasiyasında daha sərbəst olmuşdu və bu mübarizədə Gürcüstan ən zəif nöqtələrdən biri idi. 2001-ci ildən başlayaraq Rusiya Gürcüstandakı keçmiş SSRİ-dən qalan hərbi bazaları çıxarmağa (bu, Rusiyanın ATƏT-in İstanbul sammitində (noyabr 1999) üzərinə götürdüyü öhdəlik idi) başlamışdı. Gürcüstandan Rusiyanın «ayağı üzüldükcə» ABŞ geniş-hərbi texniki yardımları ilə burada möhkəmlənirdi.

Maraqlıdır ki, 2001-ci il 11 sentyabr sonrası ABŞ-la Rusiyanın postsovet məkanındakı geosiyasi yarışının, Gürcüstanla yanaşı, digər həssas bir nöqtəsi sonradan «məxməri inqilaba» meydan olan Qırğızıstan idi. Bu ölkədə də Rusiyanın sovet dövründən qalan hərbi bazası vardı və 2001-ci ilin payızında Əfqanıstandakı antiterror əməliyyatı gedişində Bişkek yaxınlığındakı «Manas» hərbi aerodromunda müvəqqəti baza yerləşdirməyə müvəffəq olan ABŞ burada da Moskvanın «ayaqlarını tapdamağa» başlamışdı və bu məsələyə irəlidə daha ətraflı diqqət yetirəcəyik.

Sözsüz ki, Vaşinqton postsovet məkanındakı nüfuz mübarizəsində yalnız hərbi-təhlükəsizlik faktoru ilə kifayətlənmir. Amerika üçün nüfuz dairəsinə salmaq istədiyi

ölkənin bütövlükdə Qərbə üz tutması, buna müvafiq siyasi, iqtisadi, hüquqi və s. islahatlar aparması, bir sözlə, tam mənada Qərbin tərəfdaşı olması prioritetdir. 2003-cü ilin aprelində Vaşinqtonda ABŞ-ın Qafqaz və Mərkəzi Asiya üzrə siyasətinə həsr olunmuş konfransda dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Elizabet Cons vurğulamışdı ki, region ölkələrində Amerikanın dəstəyi ilə demokratik islahatlar, sabit inkişaf və iqtisadi rifahın təmin olunması «Amerika üçün daha təhlükəsiz dünya deməkdir». O, ABŞ-ın bu məsələdə regionun hər bir dövləti ilə ayrıca intensiv dialoqa hazır olduğunu və bu zaman siyasi sanksiyalara deyil, təşviq prinsipinə üstünlük verdiyini nəzərə çatdırmışdı: «Əslində, sanksiya tətbiq etməklə Amerika öz siyasətində riskə yol verə bilər. Odur ki, regionda problemlər olsa da, ABŞ bunlara arxa çevirməməlidir» (21).

Sözsüz ki, amerikalı diplomat bu bəyanatda bir qədər qeyri-səmimiliyə yol vermişdi. Çünki praktikada Amerika bu və ya digər ölkəni (o cümlədən postsovet məkanında) təşviq yolu ilə nüfuz dairəsinə salmağın mümkünsüzlüyünü görəndə məhz sanksiyalara əl atır. Buna misal olaraq Vaşinqtonun bir ara çox ilıq münasibət bəslədiyi Özbəkistana (xüsusilə Özbəkistanın GUAM formatında yer aldığı 1999-2003-cü illərdə) qarşı siyasətinin dəyişməsini və 2006-cı ildən bu ölkəyə qarşı sanksiyalar tətbiq etməsini göstərmək olar. Gürcüstanla bağlı isə nə əlavə təşviq, nə sanksiya effektli ola bilərdi. Bu ölkədə Amerika Birləşmiş Ştatlarının maraqlarını yalnız hakimiyyət dəyişikliyi təmin edə bilərdi.

Lakin, daha öncə də qeyd etdiyimiz kimi, Gürcüstanda və ümumiyyətlə, postsovet məkanındakı digər «məxməri inqilab»larda kənardan təsir, geosiyasi amillər, nə qədər mühüm olsa da, həlledici deyildi. Şərqi Avropada sosialist rejimlərinin süqutu ilə nəticələnən «məxməri inqilab»lardan fərqli olaraq, postsovet ölkələrində hakimiyyət çevrilişini labüd edən daha çox daxili faktorlardır: hakimiyyətin siyasi dayaqlarının sarsılması,

hakim elitanın parçalanması, ölkədə sosial böhranın yetişməsi və nəticə etibarilə «iqtidarla xalq arasında uçurumun yaranması». 2003-cü ilin noyabrında Gürcüstanda yaranmış vəziyyət də bu ölkədə bir neçə il ərzində davam edən və böhrana aparan proseslərin nəticəsi idi.

1999-cu ilin parlament seçkilərində Şevardnadzenin lideri olduğu Gürcüstan Vətəndaş İttifaqı hakimiyyətə yaxın olan Sənayeçilər Partiyası (lideri Qoqi Topadze) və rəsmi Tbilisi ilə «dəymə mənə - dəyməyim sənə» prinsipi ilə sakit davranan Acarıstan lideri Aslan Abaşidzenin rəhbərlik etdiyi Dirçəliş Partiyası ilə birlikdə qanunverici orqanda mütləq əksəriyyəti təmin edə bilmişdi. 2000-ci ilin martında prezident Şevardnadze ikinci müddətə çox rahat seçilmiş, seçkidə əsas rəqibi olan Gürcüstan KP MK-nın keçmiş birinci katibi (1985-1989-cu illərdə) Cumber Patiaşviliyə birinci turdaca qalib gəlmişdi. Lakin 2001-ci ilin payızında hakim elitada başlanan ixtilaf kifayət qədər monolit görünən Şevardnadze komandasının tədricən dağılmasına rəvac verdi. Məhz həmin proseslər nəticəsində hakimiyyət komandasının aparıcı simaları – spiker Zurab Cvaniya, onu həmin postda əvəz etmiş Nino Burcanadze, nəhayət, Gürcüstanın gələcək prezidenti Mixail Saakaşvili Şevardnadzeyə qarşı müxalifətə keçdilər.

Bu xüsusda M.Saakaşvili haqqında ayrıca qeyd etmək gərəkdir. Çünki o, siyasi ulduzunun parlamasında hamıdan çox məhz Şevardnadzeyə minnətdar olmalıdır. 1967-ci il təvəllüdlü Saakaşvili 1992-ci ildə Kiyevdə Beynəlxalq Münasibətlər İnstitutunu bitirdikdən sonra əvvəlcə Strasburqda Beynəlxalq Hüquq İnsitutuna daxil olub, 1993-cü ildə isə ABŞ Konqresinin təqaüdçüsü kimi Nyu-Yorkdakı Kolumbiya Universitetinə göndərilib və orada hüquq magistri rütbəsini alıb. Bir müddət ABŞ-da vəkil işləyib, 1995-ci ildə Vaşinqton Universitetində doktorluq dərəcəsi alıb. Həmin ilin yayında Tbilisiyə qayıdan Saakaşvilini spiker Cvaniya prezidentə təqdim etmiş və

Şevardnadze də perspektivli gəncə hakim partiyanın siyahısı ilə parlamentə seçilməyi təklif etmişdi. Deputat seçilən Saakaşvili 1995-1999-cu illərdə parlamentdə Hüquq komissiyasının sədri, həmçinin 1998-ci ildən hakim partiyanın parlament fraksiyasının rəhbəri olmuşdu. Bu dövrdə Saakaşvili Şevardnadzeni özünün siyasi idealı hesab edirdi, hətta 1995-ci ildə doğulmuş oğluna Eduard adını qoymuşdu. 1999-cu ildə yenidən deputat seçilmiş, 2000-ci ildə Gürcüstanın AŞPA-da nümayəndə heyətinin rəhbəri olmuşdu.

2000-ci ilin oktyabrında Şevardnadze Saakaşvilini bir qədər də irəli çəkdi və onu ədliyyə naziri təyin etdi. Məhz bu postda onun hakim komanda üzvləri və prezidentlə zidiyyətləri başladı. Saakaşvilinin korrupsiya ilə mübarizədə təklif etdiyi sərt xətt hökumət daxilində fikir ayrılığı yaratdı və o, 2001-ci ilin sentyabrında hökumətdəki həmkarlarını və prezidenti korrupsiyaya göz yummaqda ittiham edərək istefa verdi. Qısa müddət sonra Milli Hərəkat Partiyasını qurdu və 2002-ci ildə Tbilisi şəhər bələdiyyəsinin başçısı (mer) seçildi. 2003-cü ilin parlament seçkiləri ərəfəsində Saakaşvilini partiyası geniş nüfuza malik idi və favoritlər sırasında yer alırdı. Digər tərəfdən, Saakaşvilinin partiyasının güclü xarici əlaqələri vardı. Soros Fondu və digər qurumların dəstək verdiyi və «məxməri inqilab»da fəal rol oynamış «Kmara!» («Yetər!) gənclər təşkilatı faktiki olaraq bu partiyanın bazasında qurulmuşdu.

Qeyd etdiyimiz kimi, 2001-ci il Gürcüstanda hakim elitanın parçalanması və ölkənin siyasi böhrana girməsi ilə yadda qalıb. Bu proseslər isə Saakaşvilinin istefasından bir qədər əvvəl, 2001-ci ilin iyulunda Gürcüstanın tanınmış jurnalistlərindən biri, «Rustavi-2» telekanalının əməkdaşı Georgi Sanayanın müəmmalı şəkildə qətlə yetirilməsi ilə başlanmışdı. Qeyd etmək lazımdır ki, bu qətlin gerçək motivləri və təfərrüatı indiyədək naməlum qalır. Baxmayaraq ki, cinayətlə bağlı həbs olunan Qriqol Xurtsilava adlı keçmiş polis işçisi qətli törətdiyini etiraf

edərək 2003-cü ildə 13 il müddətinə azadlıqdan məhrum edilib. Bundan sonra mərhum jurnalistin həyat yoldaşı və yaxınlarının işə yenidən baxılması barədə müraciətləri (o cümlədən Saakaşvili hakimiyyəti dövründə) rədd olunub. Qətldən dərhal sonra səslənən əsas versiyalardan biri bu idi ki, telejurnalistdə Gürcüstanın Rusiya ilə sərhəddəki Pankisi dərəsində gürcü, rus və çeçenlərdən ibarət mütəşəkkil dəstənin cinayət əməlləri barədə məlumatlar varmış və bu işdə Gürcüstan və Rusiya hüquq-mühafizə orqanları əməkdaşlarının da adı hallanırmış.

Telejurnalistin qətlinin təfərrüatları müəmmalı qalsa da, bu hadisənin geniş ictimai rezonans doğurması həm müxalifət qüvvələrinin, həm də qismən hakim komanda daxilindəki qruplaşmaların işinə yaramışdı. Təsadüfi deyil ki, hadisədən dərhal sonra başlanan etiraz aksiyalarında təkcə Gürcüstanın güc strukturlarının rəhbərlərinin deyil, eləcə də prezidentin istefası tələbləri səslənmişdi. Hətta Şevardnadze vəziyyətin kritikliyini nəzərə alaraq həmin vaxt Bakıya nəzərdə tutduğu səfərini («Şahdəniz» layihəsi üzrə müqavilənin imzalanması ilə bağlı) təxirə salmalı olmuşdu.

Buradaca qeyd etmək yerinə düşər ki, «məxməri inqilab» ssenarilərində jurnalist qətli və ümumiyyətlə, hakimiyyətin əleyhinə işləyən səs-küylü kriminal faktlardan istifadə Gürcüstan misalından sonra da gündəmdə olub. Ukraynada populyar jurnalist Qriqori Qonqadzenin qətlə yetirilməsi (2000-ci ildə) uzun müddət, özəlliklə 2004-cü ilin prezident seçkiləri kampaniyasında müxalifətin hakimiyyətə və şəxsən prezident Kuçmaya qarşı siyasi kampaniyasında mühüm faktor kimi istifadə olunmuşdu. Hərçənd sonradan Ukraynada «narıncı inqilab» yolu ilə hakimiyyətə gələn qüvvələr də bu qətlin açılmasında elə bir təşəbbüskarlıq göstərmədilər və müvafiq cinayət işi indiyədək yekunlaşmayıb. 2005-ci ildə Azərbaycan müxalifəti də bənzər hadisədən yararlanmağa uğursuz cəhd etmişdi.

Gürcüstanda isə «Rustavi-2» telekanalı ətrafında 2001-ci ilin oktyabrında meydana gələn daha bir qalmaqal nəticə etibarilə hakimiyyətdaxili ixtilafın su üzünə çıxması və iqtidar komandanın parçalanmasına gətirdi. Buna formal səbəb hüquq-mühafizə orqanlarının telekanalda maliyyə və lisenziya məsələlərində qanun pozuntuları ilə bağlı yoxlama aparması olmuşdu. Yoxlamaya gələnlərlə telekanalın rəhbərliyi arasında insident baş vermiş, bundan sonra «Rustavi-2» canlı yayımda əhalini demokratiya və söz azadlığını qorumağa çağırmış və kütləvi aksiyalar başlanmışdı. Ümumiyyətlə, bu olaylardan sonra «Rustavi-2» telekanalı müxalifətin əsas təbliğat ruporlarından birinə çevrildi və 2003-cü ilin noyabr inqilabında da əhəmiyyətli rol oynadı. 2001-ci ilin oktyabrındakı olaylar zamanı isə artıq müxalifətdə olan Saakaşvili etirazçıların ön cərgəsində idi. Onun parlamentdəki dostları, o cümlədən Şevardnadze komandasında «islahatçılar» qanadına rəhbərlik edən spiker Cvaniya da baş verənlərdə hökumətdəki mühafizəkarları günahlandıraraq güc strukturlarının istefasını tələb etmişdi.

Şevardnadze isə dövlət təhlükəsizliyi nazirini (Vaxtanq Kutateladze) «qurban» versə də, digər hökumət üzvlərinin istefasına razı olmamışdı. «Əgər siz mənim kadrlarıma etimad göstərmirsinizsə, onda mən də gedəcəyəm», - deyə Şevardnadze bildirmişdi. Bunun ardınca Cvaniya prezident mövqeyinə etiraz olaraq istefa vermiş, daha sonra baş prokuror vəzifəsindən getmişdi. Nəticədə Şevardnadze acığa düşərək bütün hökuməti istefaya göndərmişdi. Yeri gəlmişkən, həmin hadisədən sonra formalaşan yeni hökumətdə köhnə tərkibdən bir neçə nazir qalmışdı və onlardan biri sonradan Saakaşvili komandasında yer alan Gürcüstanın hazırkı baş naziri Zurab Noqaideli (o vaxtkı maliyyə naziri) idi. Şevardnadze 2001-ci ilin oktyabrındakı siyasi böhrandan manevrlər yolu ilə çıxsa da, baş verənlər onun siyasi

və sosial dayaqlarının sarsıldığını göstərirdi. Onun bir neçə il öncəki monolit iqtidar komandasından əsər-əlamət qalmamışdı.

Bu baxımdan parlamentin spikeri Cvaniyanın istefası xüsusilə rezonanslı idi. Cvaniya hakim partiyanın ikinci şəxsi kimi Şevardnadzenin gələcək siyasi varisi hesab olunurdu. Lakin onun hakim komandada mövqeləri dayanıqlı deyildi, o, partiya daxilində «islahatçılar»ın lideri kimi hökumətin əksər üzvləri, həmçinin prezidentlə davamlı üstüörtülü münaqişədə idi. Cvaniyanın istefasından sonra Gürcüstan Vətəndaş İttifaqının parlament fraksiyası da parçalandı, «islahatçı» qruplaşmaya daxil olan deputatlar keçmiş spikerin ətrafında birləşdilər. Spiker postuna seçilən parlamentin xarici əlaqələr komissiyasının sədri Burcanadze prezidentə loyal münasibətilə tanınsa da, əslində Cvaniya qrupunun üzvü idi və 2003-cü il seçkilərinə bu iki liderin birgə («Burcanadze-demokratlar» bloku) getməsi də bunu təsdiqlədi.

Yeri gəlmişkən, artıq 2001-ci ilin payızında Gürcüstan siyasi elitasında yaşanan proseslər Qərblə Moskvanın qiyabi mübarizəsi ilə müşayiət olunmuşdu. Belə ki, parlamentin sədri postu uğrunda mübarizədə Qərbyönümlü siyasətçi kimi tanınan Burcanadze ilə yanaşı, Rusiyanın Gürcüstan siyasətindəki əsas dayaqlarından sayılan Acarıstan lideri Abaşidzenin yaxın qohumu, Dirçəliş Partiyasının parlamentdəki fraksiyasının rəhbəri Cemal Qoqitidze də mübarizə aparırdı. Öz növbəsində ölkədəki hər böhranlı situasiyada Rusiyanın nəzər-nöqtəsini öyrənməyə adət etmiş Şevardnadze 2001-ci ilin payız olayları zamanı da Moskva ilə münasibətləri sahmanlamağı Acarıstan rəhbəri Abaşidzeyə həvalə etmişdi. Burcanadzenin spiker postuna seçilməsindən sonra isə, Şevardnadze, necə deyərlər, geosiyasi balansı təmin etmək üçün hökumət başçısı postunu Abaşidzeyə təklif etsə də, acar lider bu nominal postdan imtina etmişdi. Beləliklə, artıq 2001-ci ilin sonundan etibarən Qərb Saakaşvili-Cvaniya-Burcanadze üçlüyünün timsalında

Gürcüstan siyasətində (həm müxalifət, həm də parlament müstəvisində) üstün mövqe əldə etmişdi. 2003-cü ilin noyabr seçkiləri, sadəcə, bu nisbi üstünlüyü real siyasi hakimiyyətə çevirmiş oldu.

Artıq seçki kampaniyasından öncə proseslər Amerika ssenarisi üzrə getməyə başlamışdı. İyun ayında Vaşinqton administrasiyasının qeyri-rəsmi elçisi qismində Tbilisiyə səfər edən ABŞ-ın keçmiş dövlət katibi Ceyms Beyker köhnə dostu Şevardnadzeni seçki komissiyalarının yeni formulda təşkilinə razı salmışdı. «Beyker formulu»na əsasən, MSK-dakı 15 yerdən 9-u müxalifətə verilmişdi. Köhnə dostu Şevardnadzeni əmin etmişdi ki, seçki komissiyalarında üstünlüyün müxalifətə verilməsi bu düşərgənin seçkidən sonra hər hansı giley və narazılıq bildirməsini aradan qaldıracaq. Gerçəkdə isə bunun əksi oldu. Bundan əlavə, MDB məkanında ilk dəfə olaraq Gürcüstandakı 2 noyabr seçkilərində seçicilərin barmaqlarına xüsusi işarələyici rəng vurulmuşdu ki, bu da seçki saxtakarlığını maksimum önləyirdi.

Sentyabrda seçki yarışına rəsmən start verildi. Seçkilər qarışıq sistem üzrə keçirilirdi, 235 yerlik parlamentə 150 deputat proporsional sistem üzrə (7 faizlik baryeri keçməklə), 75 nəfər isə majoritar qaydada seçilməli idi. Bundan əlavə, separatçı Abxaziya üçün nəzərdə tutulan 10 yer vakant saxlanılırdı. İqtidaryönlü partiyalar (o cümlədən keçmiş Gürcüstan Vətəndaş İttifaqı) «Yeni Gürcüstan uğrunda" blokda (xatırladaq ki, həmin vaxt Azərbaycandakı prezident seçkilərində iqtidaryönlü qüvvələr «Yeni Azərbaycan naminə» seçki hərəkatı təsis etmişdilər və yəqin Gürcüstan hakimiyyəti bu adın ona da uğur gətirəcəyini düşünürdü) birləşmişdi. Radikal müxalifət Milli Hərəkat Partiyası, «Burcanadze-demokratlar» bloku ilə, nisbətən mötədil müxalif düşərgə isə Leyboristlər Partiyası (Şalva Natelaşvili) və ötən parlamentdə üçüncü fraksiya olmuş

«sənayeçilər»lə təmsil olunurdu. Seçkinin favoritləri sırasında Abaşidzenin partiyası da qeyd olunurdu.

Seçkiləri ATƏT-dən 400 nəfər, habelə müxalifətin Qərb ölkələrindən dəvət etdiyi 3 minə yaxın müşahidəçi (bunun maliyyəsini də Soros Fondu başda olmaqla Qərb qurumları təmin etmişdi) izləyirdi. Gürcüstandakı seçkilərə heç vaxt bu qədər müşahidəçi gəlməmişdi. Şevardnadze beynəlxalq təşkilatların seçkilərə marağını belə şərh etmişdi: «Biz seçkilərin demokratik keçirilməsinin tərəfdarıyıq. Xaricdən bu qədər müşahidəçiyə də etirazımız yoxdur, kim nə qədər istəyir müşahidəçi göndərə bilər».

Əslində səsvermənin səhərisi beynəlxalq müşahidəçilərin ilkin bəyanatlarında da kobud qanun pozuntuları və saxtakarlıq faktlarından o qədər söz edilmirdi. Müşahidəçilərin əsas narazılığı seçki siyahıları ilə bağlı idi. Ölkə üzrə on minlərlə seçici səsvermə günü adını seçki siyahılarında tapa bilməmişdi və xeyli dərəcədə bu səbəbdən 2,6 milyon seçicidən yalnız 55 faizi səsvermədə iştirak etmişdi. Bu isə artıq seçkinin real nəticələrinə ciddi şübhə yaradacaq fakt idi. ATƏT-in müşahidəçilər missiyasının rəhbəri, ATƏT PA-nın sədri Brüs Corc «seçki siyahılarındakı dəhşətli vəziyyəti» qeyd edərək «insanların konstitusion hüquqlarının əllərindən alındığını» vurğulamışdı. MDB missiyası da seçki siyahılarındakı problemləri qeyd etsə də, seçkilərin ümumən demokratik keçdiyini və «texniki səciyyəli nöqsanların» nəticələrə ciddi təsir göstərmədiyini bildirmişdi. Yeri gəlmişkən, ABŞ Dövlət Departamenti də ilkin bəyanatında ATƏT missiyasının iradları ilə razı olduğunu, lakin, bununla belə, «Gürcüstanın demokratiya yolunda ciddi addım atdığını» qeyd etmişdi» (22).

Seçkisonrası vəziyyəti gərginləşdirən əsas səbəb isə MSK tərəfindən nəticələrin açıqlanmasının gecikdirilməsi oldu. Noyabrın 3-də ABŞ-ın «Global Strategy Group» kompaniyası keçirdiyi «exit poll»un nəticəsini açıqlayaraq Saakaşvilinin

partiyasının 26 faizlə birinci, iqtidarın «Yeni Gürcüstan uğrunda» blokunun isə 19 faizlə ikinci olduğunu elan etmişdi. Səsvermə günü ölkənin müxtəlif yerlərində «exit poll» keçirən «Rustavi-2» televiziyası da Milli Hərəkat Partiyasının qələbəsini elan etmişdi. Qanunvericiliyə əsasən, MSK səsvermə başa çatandan sonra 48 saatdan gec olmamaqla ilkin rəsmi nəticələri elan etməli idi. MSK-dan isə noyabrın 5-də səslərin hələ yarısının sayıldığı və qeyri-rəsmi məlumatlara görə, iqtidar blokunun 25 faizlə birinci, Saakaşvilinin partiyasının isə 23 faizlə ikinci olduğu, Abaşidzenin partiyasının isə üçüncü yerdə getdiyi bildirilmişdi. Bütün hadisələr də bundan sonra cərəyan etməyə başladı. Tərəfdarlarını Tbilisi meriyasının önünə toplayan Saakaşvili bəyan etdi ki, günün sonuna kimi prezident «Milli Hərəkat»ın qələbəsini etiraf etməsə, müxalifət onun istefasını tələb edəcək: «Şevardnadze inqilab istəyirsə, onu görəcək. Biz Şevardnadzeni və onun tərəfdarlarını qovmaq üçün bütün Gürcüstanı Tbilisiyə yığacağıq» (23).

Noyabrın 6-dan Tbilisidə müxalifətin aramsız aksiyaları başlandı. Saakaşvilinin mitinqinə qoşulan Burcanadze və Cvaniya da seçkilərin nəticələrini tanımadıqlarını və yeni parlamentin işində iştirak etməyəcəklərini bildirdilər. Burcanadze həmçinin yaranmış vəziyyətin faciəli qarşıdurmaya gətirəcəyini də istisna etməmişdi: «İlkin nəticələr xalqın iradəsini əks etdirmir. Biz mübarizəmizi qanuni yollarla davam etdirəcəyik. Qan töküləcəyini istisna etmirəm. Ancaq bunun bütün məsuliyyəti Gürcüstan rəhbərliyinin üzərinə düşəcək» (24).

Maraqlıdır ki, bu mərhələdə nisbətən mötədil müxalifət qüvvələri Saakaşvili-Cvaniya-Burcanadze radikal üçlüyünün etiraz aksiyalarına qatılmaqdan çəkinirdi. Hətta leyboristlər Saakaşvili və Burcanadzenin radikal çağırışlarını pisləyirdilər. «Beyker formulu» ilə işləyən (gerçəkdə isə müxalifətçi üzvlərin səyləri ilə fəaliyyəti faktiki iflic olan) MSK isə yalnız noyabrın

10-da, lakin yenə rəsmi olmayan nəticələri elan etdi. Həmin nəticələrə görə, «Yeni Gürcüstan uğrunda» blokun səsləri 20,5 faizə enmiş, ikinci yerə Abaşidzenin partiyası çıxmış (18,8), Saakaşvilinin partiyası isə üçüncü yerə (18,1) keçmişdi. Leyboristlər dördüncü (12), «Burcanadze-demokratlar» bloku beşinci yerdə (8) yerdə idi.

Qeyd etmək lazımdır ki, bu mənzərə ümumən iqtidarı və ona loyal yanaşan müxalifəti qane edirdi. Çünki bu halda iqtidar bloku Abaşidzenin partiyası və leyboristlərlə parlamentdə çoxluğu təmin edirdi. Radikal müxalifət isə bu vəziyyətlə qane ola bilməzdi. Saakaşvili, Cvaniya və Burcanadze noyabrın 9-da prezident Şevardnadze ilə görüşdə də bunu nəzərə çatdıraraq proporsional sistem üzrə seçkilərin nəticələrinin ləğvini tələb etmiş, əks halda prezidentin istefasında israr edəcəklərini bildirmişdilər. Şevardnadze isə seçkilərin ləğvinin yalnız MSK və məhkəmənin səlahiyyətində olduğunu, istefaya isə «bir neçə min nəfər müxalifətçinin deyil», xalqın tələbi ilə gedə biləcəyini demişdi. O həmçinin beynəlxalq müşahidəçilərin, eləcə də Soros Fondunun Gürcüstanın daxili işlərinə qarışmasına etirazını bildirərək «ölkədə vəziyyətin gərginləşməsində xarici qüvvələrin rolunun araşdırılacağını» demişdi. «Sirr deyil ki, müxalifətin bir çox liderləri müxtəlif beynəlxalq təşkilatlardan təlimatlar alırlar», - deyə o bildirmişdi.

Yeri gəlmişkən, Şevardnadze müxalifət liderləri ilə görüşdən öncə Rusiya prezidenti ilə telefonla danışmış və Putin Gürcüstandakı vəziyyəti diqqətlə izlədiyini, Şevardnadzenin sabitlik yaratmaq yönündə hərəkətlərini dəstəklədiyini bildirmişdi. Həqiqətdə isə Moskva da son illər ərzində istədiyini ala bilmədiyi üçün Gürcüstan liderinin hakimiyyətdə qalmasında maraqlı deyildi. Şevardnadze müxalifət liderləri ilə nəticəsiz görüşdən sonra Batumiyə gedərək Acarıstan lideri ilə yaranmış təhlükəli vəziyyətdən çıxış yolunu müzakirə etmiş, Abaşidze isə ona dəstək nümayişi olaraq geniş mitinq təşkil etmişdi.

Həmin vaxt yayılan xəbərlərə görə, Şevardnadze Abaşidzeyə yeni parlamentdə spiker postunu (konstitusiyaya görə, ölkənin ikinci şəxsi) təklif edərək bir qədər sonra özünün də istefa verəcəyini və növbədənkənar prezident seçkilərinin keçiriləcəyini vəd etmişdi. Bu danışıqlardan sonra Abaşidze gözlənilən hakimiyyət dəyişikliyi ilə bağlı regional tarazlığı təmin etmək üçün noyabrın 12-15-də Yerevana, Bakıya və Moskvaya səfərlər etmişdi.

Başqa sözlə, artıq öz komandası iflas edən Şevardnadze hakimiyyəti radikal gənclərə deyil, təcrübəli və təmkinli Abaşidzeyə təhvil verməyə hazırlaşırdı. Öz növbəsində Saakaşvili-Burcanadze-Cvaniya triosu Şevardnadze-Abaşidze anlaşmasına imkan verməyəcəyini bəyan etdi. Prezidentin yaxın ətrafı da buna birmənalı yanaşmırdı. Noyabrın 13-də Şevardnadzenin üç müşaviri onu tərk edərək radikal müxalifətin tərəfinə keçdi, bunun ardınca «Yeni Gürcüstan uğrunda» blokun aparıcı iştirakçılarından Xalq Partiyası (Boris Kakubava) müxalifətin tərəfinə keçdi. İqtidar blokunun liderlərindən Vaca Lordkpianidze isə vəziyyətdən çıxış yolu kimi səslərin bir hissəsini Saakaşvilinin partiyasına verməyi təklif etmişdi.

Hakimiyyət düşərgəsində qarışıqlıq və özünə inamsızlığın artması fonunda müxalifət liderləri özlərini daha inamlı hiss edirdilər. Üstəlik Qərb dairələri müxalifətdən dolayı dəstəyini əsirgəmirdi. Noyabrın 14-də ABŞ prezidenti Buş Şevardnadze ilə telefon danışığında ona müxalifətlə dil tapmağı tövsiyə etmişdi. «Rustavi 2» televiziyası canlı yayımda müxalifətin xidmətində idi. Qərb texnoloqları (o cümlədən serb gənclərinin «Otpor» təşkilatının liderləri) tərəfindən geniş təlimlər keçilmiş «Kmara»nın fəalları yerlərdən Tbilisiyə axın-axın mitinqçiləri səfərbər edirdi. Ölkədə sosial-iqtisadi durumun ağırlaşması da müxalifətin işinə yarayırdı. Yerlərdə çörək qıtlığı yaranmışdı, larinin (milli valyuta) məzənnəsi günbəgün düşürdü. Ölkənin

qərb rayonlarında (Zuqdidi, Senaki) kriminal ünsürlərin aktivləşməsi silahlı toqquşmalara gətirmişdi.

Nəhayət, noyabrın 22-də hadisələr pik nöqtəsinə çatdı. Bundan iki gün öncə MSK hələ noyabrın 10-dan bəlli olan sıralama ilə («Yeni Gürcüstan uğrunda» birinci, Abaşidzenin partiyası ikinci, Saakaşvilinin partiyası üçüncü) seçkinin rəsmi nəticələrini elan etmiş və noyabrın 22-nə parlamentin ilk iclası təyin edilmişdi. Saakaşvili-Cvaniya-Burcanadze üçlüyü iclasa qatılmayacaqlarını bildirərək həmin günə parlament binası önündə mitinq təyin etmişdi.

Bununla belə, iqtidar bloku mötədil müxalifət və majoritar deputatların hesabına kvorumu təmin edə bilmişdi. Bu arada ABŞ Dövlət Departamenti də bəyanat verərək seçki pozuntuları araşdırılmadan qanunverici orqanın fəaliyyətə başlamasını tənqid etmiş və faktiki olaraq yeni parlamentin legitimliyini şübhə altına almışdı.

Yeni parlamentin iclası isə baş tutmadı. Şevardnadzenin deputatlara təbrik nitqi üçün kürsüyə çıxdığı vaxt Saakaşvili öndə olmaqla müxalifət qüvvələri əllərində qızılgül heç bir müqavimət göstərməyən polis kordonunu keçərək parlamentin binasına, sonra isə iclas zalına daxil oldular. Zalda müxalifətçilərlə iqtidaryönlü deputatlar arasında toqquşmanın başlanması ilə prezidentin mühafizəsi Şevardnadzeni zaldan çıxarmağa məcbur oldu. Bundan sonra kürsüyə çıxan Burcanadze Şevardnadzenin konstitusiya və qanunları pozduğunu bildirərək köhnə parlamentin sədri kimi dövlət başçısı səlahiyyətlərini üzərinə götürdüyünü elan etdi.

Öz iqamətgahına qayıdan Şevardnadze dövlət çevrilişinə cəhd edildiyini bildirərək fövqəladə vəziyyət elan olunması barədə fərman verdi. Lakin artıq vəziyyət müxalifətin xeyrinə dəyişmişdi və tərəddüd içərisində olan güc strukturları fərmanı icra etməkdən boyun qaçırdılar. Noyabrın 23-nə keçən gecə müxalifət xalq kütləsinin iştirakı ilə dövlət televiziyasını və hava

limanını, səhərdən etibarən isə digər dövlət idarələrini nəzarətə götürmüşdü. Artıq mödətil müxalifət də inqilabın tərəfinə keçmişdi. Hətta ayrı-ayrı hökumət rəsmiləri də Şevardnadzeni istefaya çağırırdılar. Gürcüstanın Avropa Şurasındakı səfiri Lana Qoqoberidze isə Şevardnadzeni «vaxtilə Fransa lideri Şarl de Qollun atdığı addımı ataraq istefaya getməyə» çağırmışdı (25).

ABŞ-ın Gürcüstandakı səfiri Riçard Mayls (2000-ci ildə Amerikanın Belqraddakı səfiri işləyərkən Miloşeviçin devrilməsində fəal iştirak etmişdi) başda olmaqla Qərb ölkələrinin diplomatları da vəziyyətdən çıxış yolunun istefa olduğunu prezidentin ətrafına bildirirdilər. Bu arada Tbilisiyə gələn Rusiya XİN başçısı İqor İvanov da Gürcüstandakı hakimiyyət dəyişikliyinə öz «töhfə»sini vermək niyyətində idi. Noyabrın 23-ü səhərdən İvanov bir neçə dəfə prezident və müxalifət liderləri ilə görüşmüşdü. Axşamüstü isə məhz onun vasitəçiliyi ilə Krtsanisi prezident iqamətgahında Şevardnadze ilə Saakaşvili-Cvaniya-Burcanadze üçlüyünün görüşü baş tutdu. Nəhayət, saat 21 radələrində müxalifət liderləri ilə görüşdən çıxan Şevardnadze «mən gedirəm» deyə istefasını elan etdi.

Beləcə inqilab məntiqi sonluğa yetdi. Bu həm də Şevardnadzenin 11 illik hakimiyyətinin məntiqi yekunu idi. Bu 11 il ərzində o, Gürcüstanda nə uzunmüddətli və dayanıqlı sabitlik təmin edə bilmiş, nə də monolit, sabit və kritik anda onu dəstəkləyə biləcək hakimiyyət komandası yaratmağa müvəffəq olmuşdu. Gerçəklik ondan ibarət idi ki, bu illər ərzində Şevardnadze ölkəni birtəhər idarə etmiş, hələ SSRİ-nin xarici işlər naziri postunda qazandığı beynəlxalq nüfuzu isə israf edib qurtarmışdı. Hər bir hakimiyyət üçün uzunömürlük təminatı olan sosial rifah və iqtisadi dirçəlişdən isə danışmaq mümkün deyildi. Təkcə bir faktı qeyd etmək yetər ki, seçkisonrası qarşıdurma zamanı bir-birinin ardınca Şevardnadzeni tərk edərək müxalifətə keçən dövlət strukturlarının əməkdaşları da

cüzi əməkhaqqlarını bir neçə ay gecikmə ilə alırdılar. Bu hadisələrin əsas müsbət yekunu kimi isə onu qeyd etmək olardı ki, Şevardnadzenin hakimiyyəti dövründə yetişdirib siyasət meydanına çıxardığı gənc liderlər onu «məxməri» şəkildə yola salandan sonra ölkəni xaos girdabına düşməyə qoymadılar və tezlikə sabit idarəçiliyi təmin edə bildilər.

Sözsüz ki, bu işdə onlara ən yaxın dəstəyi Qərb, ələlxüsus Birləşmiş Ştatlar verirdi. Vaşinqton Şevardnadzenin istefasından dərhal sonra onun «siyasi müdriklik göstərərək atdığı addımı» alqışladı və «məxməri» hakimiyyətin fəaliyyətinə yardım məqsədilə Gürcüstana 21 milyon dollar təcili maliyyə ayırdı. Bu məbləğin hamısı aylardan bəri yığılıb qalan maaş, təqaüd və müavinətlərin ödənilməsinə sərf olundu. Öz növbəsində prezident səlahiyyətlərini icra edən spiker Burcanadze artıq inqilabın səhərisi bəyanat verərək Gürcüstanın xarici siyasətinin Qərbə və Avroatlantik məkana yönələcəyini bildirdi. Hökumət başçısı (dövlət naziri) səlahiyyətlərini yerinə yetirən Cvaniya isə Gürcüstanın NATO-ya üzvlüyü istiqamətində proqramın hazırlanacağını bəyan etdi.

Noyabrın 25-də Ali Məhkəmə 2 noyabr seçkilərinin nəticələrini (proporsional sistem üzrə) ləğv etdi və yeni seçkilərədək köhnə parlamentin səlahiyyət müddəti uzadıldı. Öz növbəsində köhnə tərkibli parlament 2004-cü il yanvarın 4-nə növbədənkənar prezident, martın 28-nə isə parlament seçkiləri təyin etdi. Hakimiyyəti ələ almış inqilab üçlüyü, bəzi ehtimalların əksinə olaraq, problemsiz şəkildə idarəçilik postlarını öz aralarında bölüşdürdü. Üçlük daxilində razılaşmaya görə, prezidentliyə Saakaşvilinin namizədliyi irəli sürüldü, parlament seçkilərində isə «Milli Hərəkat»la «Burcanadze-demokratlar» blokunun birgə iştirakı qərara alındı.

Hərçənd perspektivdə inqilab liderləri arasında yeni nüfuz mübarizəsinin başlanmayacağına təminat yox idi, çünki artıq ilk günlərdən yerlərdə hakimiyyət postlarının bölüşdürülməsində

Saakaşvilinin partiyası ilə Burcanadze-Cvaniya tərəfdarları arasında münaqişələr yaranmışdı. Digər tərəfdən, əgər inqilabın birinci ilinin tamamında, 2005-ci ilin yanvarında Baş nazir Cvaniya müəmmalı şəkildə ölməsəydi (bu məsələyə irəlidə toxunacağıq), bilmək olmaz, hələ Gürcüstanın hakimiyyət zirvəsində hansı proseslər (o cümlədən, Ukraynadakı kimi, prezident-Baş nazir münaqişəsi) yaşanacaqdı. Bununla belə, ilk mərhələdə inqilab qalibləri vahid komanda təsiri bağışlayırdı. O cümlədən Şevardnadze iqtidarının əksər üzvləri (yalnız dövlət naziri Avtandil Corbenidze, XİN başçısı İrakli Menaqarişvili, habelə maliyyə və daxili işlər naziri istefa vermişdilər) yeni hökumətdə işləməkdə davam edirdilər.

Qeyd etmək lazımdır ki, Gürcüstanda baş verən inqilabi proseslər, digər region ölkələri kimi, Azərbaycanda da diqqətlə izlənilirdi. Öz növbəsində Azərbaycan rəhbərliyi yaxın qonşu və strateji tərəfdaş olan Gürcüstanın böhrandan tezliklə çıxmasını arzu etdiyini ilk gündən nəzərə çatdırmışdı. Çünki əks təqdirdə iki ölkə üçün də müstəsna önəm kəsb edən regional layihələr, ilk növbədə isə inşası davam edən Bakı-Tbilisi-Ceyhan kəməri zərər görə bilərdi. Prezident İlham Əliyev noyabrın 24-də jurnalistlərin bununla bağlı sualına cavabında demişdi: «Biz hadisələri çox diqqətlə izləyirik. İstəyirik ki, Gürcüstanda sabitlik qorunsun, heç bir xoşagəlməz hadisə baş verməsin. Bildiyiniz kimi, Gürcüstanda 500 minə qədər azərbaycanlı yaşayır. Əlbəttə, biz onların taleyinə biganə qala bilmərik. Ümid edirəm ki, Gürcüstanda yaşanan böhran tezliklə öz həllini tapacaq və vəziyyət sabitləşəcək. Regionda vəziyyət gərginləşərsə, sabitlik pozularsa, bu, Bakı-Tbilisi-Ceyhan layihəsinə də təsir edə bilər. Məhz ona görə biz çalışırıq ki, bölgədə əmin-amanlıq olsun. Bu gün Azərbaycanda sabitlik var. Biz deyəndə ki, sabitlik müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir, məhz bunu nəzərdə tuturuq. Sabitlik pozulan yerdə irimiqyaslı layihələr

həyata keçirilmir. Ümid edirəm ki, Gürcüstanda yaşanan böhran tezliklə həllini tapacaq» (26).

İnqilabdan sonra «qızılgül» hakimiyyəti üçün əsas problemi isə Rusiyanın Gürcüstanın daxili siyasətindəki sonuncu kozırı – Acarıstan lideri Abaşidze yaratdı. Tbilisidəki yeni hakimiyyəti tanımadığını bildirən Abaşidze prezident seçkilərini boykot etdi. Rusiya tərəfi isə Abaşidzeni Gürcüstanın separatçı bölgələri olan Abxaziya və Cənubi Osetiyanın rəhbərləri bir yerdə mütəmadi Moskvaya məsləhətləşmələrə dəvət edirdi. 2004-cü il yanvarın 4-də Saakaşvili faktiki alternativsizlik şəraitində keçirilən seçkilərdə 97 faiz səslə prezident seçildi. 36 yaşlı gənc prezident üçün ilk hakimiyyət testi 66 yaşlı Abaşidze ilə mübarizə oldu.

Saakaşvili acar liderinin sərt davranışına qarşı əvvəlcə diplomatik xətt yeridərək onu muxtariyyət ərazisində 28 mart parlament seçkilərinin təşkilinə və Dirçəliş Partiyasının da seçkidə iştirakına razı saldı. Lakin bu «centlmen razılaşması» uzun sürmədi. Parlament seçkilərində «Milli Hərəkat-Demokratlar» bloku 67 faiz səslə yerlərin əksəriyyətini əldə etdi. Ondan savayı 7 faizlik baryeri yalnız bir blok - inqilab hakimiyyətinə loyal münasibət bəsləyən «Yeni sağçılar-sənayeçilər» keçə bilmişdi. Proporsional sistem üzrə 150 deputat yerindən 135-ni hakim blok əldə etdi.

Yeri gəlmişkən, yeni parlamentdə 5 erməni və 3 azərbaycanlı deputat mandatı qazanmışdı. Azərbaycanlılardan biri majoritar, 2-si "Milli hərəkat-Demokratlar" blokundan, ermənilərdən isə 3-ü Cavaxetiyadan majoritar qaydada, 2-si isə hakim blokun siyahısı ilə seçilmişdi. Qeyd edək ki, Şevardnadze dövründə bu məsələdə müəyyən balansa riayət olunurdu və öncəki parlamentdə azərbaycanlıların və ermənilərin hərəyə 6 deputatı vardı.

Yeni parlamentdən kənarda qalan Abaşidze isə muxtariyyətin inzibati sərhədlərini bağlayaraq Tbilisi ilə körpüləri həm həqiqi, həm də məcazi mənada yandırdı.

Gürcüstanın xaricə əsas çıxışının (o cümlədən Türkiyə ilə quru yol əlaqəsi) Acarıstandan keçdiyi nəzərə alınarsa, bu faktiki separatçılıq yolu idi. Yeni parlamentin ilk iclasında çıxış edən Saakaşvili növbəti «məxməri inqilab»ın Acarıstanda baş verəcəyini və bölgəni Abaşidzedən xilas edəcəyini bəyan etdi. Aprelin ortalarında Abaşidzenin Batumidəki hərbi hissələri nəzarətə götürmək və bölgədə fövqəladə vəziyyət tətbiq etmək cəhdləri də nəticə vermədi. «Kmara»çı gənclər artıq Batuminin küçələrində mitinqlər təşkil edirdilər. Mayın əvvəlində Abaşidze əleyhinə aksiyalar gücləndi. Bu arada Batumiyə gələn Rusiya Təhlükəsizlik Şurasının katibi İqor İvanov (XİN başçısı postundan bu vəzifəyə keçmişdi) da vəziyyətin Abaşidzenin xeyrinə olmadığını gördü. Mayın 5-dən 6-na keçən gecə Acarıstan rəhbəri istefa verərək İvanovun təyyarəsində Moskvaya uçdu və «qızılgül inqilabı»nın ikinci mərhələsi beləcə başa çatdı.

DÖRDÜNCÜ FƏSİL

AZƏRBAYCAN YENİ İNKİŞAF YOLUNDA

«Ancaq öz mənliyini qoruya bilənlər
həyat mübarizəsində qalib gəlirlər».
R.Emerson

«Dünyaya sahib olmaq istəyiriksə,
xoşniyyətli, iradəli və dözümlü olmalıyıq».
Ç.Dikkens

Ulu Öndər Heydər Əliyevin vəfatı Azərbaycan xalqı tərəfindən böyük faciə kimi qarşılandığı halda müxalifət düşərgəsində hakimiyyəti ələ keçirmə şansının artması kimi dəyərləndirildi. Digər tərəfdən Gürcüstandakı «məxməri» inqilab, ümumilikdə beynəlxalq miqyasda olduğu kimi, Azərbaycanda da geniş rezonans doğurmuşdu. Üstəlik bu hadisənin ölkəmizdəki prezident seçkiləri və radikal müxalifət düşərgəsinin son dərəcə primitiv və uğursuz özünütəsdiq cəhdindən sonraya təsadüf etməsi bu xüsusda çeşidli müqayisə və spekulyasiyalara rəvac vermişdi. Hələ Gürcüstanda vəziyyətin qeyri-müəyyən olduğu və siyasi böhranın hansı miqyasa varacağı dəqiq bilinmədiyi bir vaxtda Azərbaycanın müxalifət dairələri iki ölkədəki seçkisonrası prosesləri müqayisə edərək əslində ritorik olan suallara cavab axtarmağa çalışırdı. Özü də səslənən suallar da, onların mümkün cavabları da əsasən kənar amillər üzərində köklənirdi.

Seçkidəki məğlubiyyətinin real səbəblərini gözardı edərək yenə siyasi fantaziyalara qapılan və «Avropanı Amerikaya qatan» müxalifət təmsilçilərinə görə, Azərbaycandakı seçkiləri Gürcüstanda «məxməri» hakimiyyət dəyişikliyi ilə nəticələnən seçkilərdən fərqləndirən başlıca cəhət Qərbin, ilk növbədə ABŞ-

ın bu seçkilərə «ikili standart»la yanaşmasında idi. Həmin günlər «Yeni Müsavat» qəzetində dərc olunan «Amerika bizə niyə Gürcüstandakı kimi yanaşmadı?» adlı məqalədə deyilirdi: «Seçkilərin nəticələrinə etiraz etmək müxalifətin haqqıdır» - ABŞ Gürcüstanda keçirilən parlament seçkilərindən sonra yaranmış iqtidar-müxalifət qarşıdurmasına münasibətini bu cümlə ilə ifadə etdi. Seçkilərdən dərhal sonra Vaşinqtonun Tiflisdəki təmsilçisi Riçard Maylsın səsləndirdiyi fikirlər, təbii ki, proseslərin gedişatında öz rolunu oynamaqda və müxalifətin mübarizə əzminə ciddi təsir göstərməkdədir. Amma çox maraqlıdır ki, Azərbaycana münasibətdə ABŞ bu mövqeni tutmadı. Gürcüstandakı seçkilərdən cəmi 17 gün əvvəl Azərbaycanda da seçki keçirilmişdi. Bu da son günlər haqqında çox danışılan «ikili standart» məsələsidimi?». Ardınca qəzet Müsavat başqanının müşaviri Elxan Mehdiyevin bununla bağlı «tutarlı» arqumentini nəzərə çatdırırdı. Müsavatçı politoloqa görə, Amerikanın bu cür ikili yanaşmasının arxasında Gürcüstanının xristian dövləti olması amili də dayanır: «Xristian dövləti olması həmişə Gürcüstanı Qərbə yaxınlaşdırır. Eyni zamanda, Gürcüstanın faktiki olaraq Rusiya ilə üz-üzə qalması və əzmlə mübarizə aparması da öz rolunu oynayır. Bütün bunlar Gürcüstana yanaşmanın fərqli olmasına gətirib çıxarır» (27).

Bir sözlə, müxalifət həmişəkitək düçar olduğu uğursuzluğun səbəbini özündə deyil, kənarda axtarmağa meylli idi. İş o yerə çatmışdı ki, müxalifət yazarları bir neçə ay öncə demokratiya carçısı deyib şəninə tərif yağdırdıqları Amerikanı ən sərt ifadələrlə tənqid edir, prezident Corc Buşdan acıqlarını isə «orijinal» tərzdə - Amerikanın bir nömrəli düşməni olan Bin Ladenə rəğbət ifadə etməklə çıxırdılar. Həmin günlər «Azadlıq» qəzetindəki məqalələrdən biri elə belə də adlanırdı: «Yaşasın Bin Laden!». Təbii ki, bu ifrat emosionallıq bir yandan radikal müxalifətin uğradığı ağır məğlubiyyətin siyasi-psixoloji fəsadları

idisə, digər tərəfdən müxalifət nümayəndələrinin, düşərgə ideoloqlarının özünütənqiddən, səhvlərinin kökünü heç olmasa bir dəfə özlərində axtarmaq niyyətindən nə qədər uzaq olduqlarını göstərirdi.

Halbuki onlar qəzet səhifələrindən Amerikanı «topa tutmaq» əvəzinə öncə özlərinə sual verməli idilər ki, niyə ABŞ və bütövlükdə Qərb səmərəli tərəfdaşlıq etdiyi, xarici siyasətdə aydın və tarazlı kurs, daxildə isə güclü elektoral dəstəyi olan siyasət yeridən iqtidarı devirib onun yerinə səbatsız və qaragüruh qüvvələrin hakimiyyətə gəlməsində maraqlı olmalı idi. Bəli, Amerika Gürcüstandakı seçkilərdə əvvəldən təmkinli və eyni zamanda ağıllı davranan, bundan daha önəmlisi isə, ölkənin faktiki iflas etmiş hakimiyyəti fonunda kifayət qədər ictimai dəstəyə malik olan müxalifətə dəstək vermişdi. Bizim müxalifət təmsilçiləri isə heç vəchlə etiraf etmək istəmirdilər ki, onlar nə siyasi-təşkilati resursları, nə də real elektoral dəstək baxımından Gürcüstandakı həmkarları ilə müqayisə oluna bilməzdilər. Digər tərəfdən, onlar istər seçkidən əvvəl, istərsə də sonra ekstremizm, dağıdıcılıq və qaragüruh yolunu tutmaqla özlərini əvvəlcədən faktiki iflasa məhkum etmişdilər.

Məhz buna görə, Gürcüstandan fərqli olaraq, Azərbaycanın radikal müxalifətinin seçkisonrası planları «məxmərilik»dən əsər-əlamət olmayan azğın zorakılıq, impulsiv davakarlıq və kütləvi iğtişaşlar üzərində qurulmuşdu. Təsadüfi deyil ki, müxalifət liderləri hələ 15 oktyabrdan xeyli öncə seçkisonrası addımlar barədə danışarkən «məxməri» inqilabdan deyil, «üsyan»dan, «xalq çaxnaşması»ndan söz edirdilər. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycan müxalifətinin leksikonunda «məxməri inqilab» istilahı məhz Gürcüstandakı olaylardan sonra işləklik qazanmağa başladı. 2003-cü ilin dekabrında Müsavat başqanının müavini İbrahim İbrahimli «Yeni mərhələ: «məxməri inqilab» adlı məqaləsində yazırdı:

«Müxalifət indi çətin seçim qarşısında qalıb: ya siyasi səhnədən getməli, ya əbədi müxalifətdə qalmalı, ya da MƏXMƏRİ İNQİLAB yolunu seçməli... Yəni seçkilərin nəticələrinin ləğv edilməsinə və təkrar seçki keçirilməsinə səy göstərməlidir...İndi qalır demokratik müxalifətin vaxt itirmədən bir araya gəlib hədəfə – təkrar seçkiyə çatmaq üçün strategiya və taktika hazırlaması» (28).

Əslində müəllifin özü də daxil olmaqla bir çox müxalifət liderlərinin 2003-cü ilin oktyabrından sonra bütövlükdə Azərbaycan cəmiyyətinə və konkret olaraq müxalifət düşərgəsinə ən böyük xidmətləri birinci yolu seçib siyasi səhnədən getmək və meydana yeni siyasi təfəkkürlü gənclərin çıxmasına imkan yaratmaq olardı. Lakin müxalifət sıralarında illərdən bəri mövcud olan reallıqlar fonunda bu, faktiki olaraq mümkün deyildi. Çünki müxalif düşərgədə liderlik mövqelərini zəbt etmiş bir çox şəxslər üçün, özlərinin də qeyd etdikləri kimi, əbədi müxalifətçilik artıq rahat yaşam tərzinə çevrilmişdi. Müxalifət düşərgəsindəki bu vəziyyəti prezident seçkiləri ərəfəsində «Vaşinqton Post» qəzetinə müsahibəsində İlham Əliyev çox dəqiq qiymətləndirmişdi: «Onlar (müxalifət liderləri) özlərini rahat hiss edirlər, hamısının əla yaşayış şəraiti var. Ona görə də, yəqin, vəziyyətdən razı olmalıdırlar. Bu, onların ən çox əldə edə biləcəkləridir. Sizə deyim ki, onlar bu siyasi mühitdən aralı düşsələr, cəmiyyətdə öz yerlərini tapa bilməyəcəklər. Onların heç biri hansısa bir sahədə özünü heç bir cəhətdən büruzə verə bilməyib, heç biri ölkə üçün yaxşı bir iş görə bilməyib. İndiki siyasətləri, - xüsusilə də başa düşdükdən sonra ki, sivil, demokratik yollarla hakimiyyətə gəlmək şansları yoxdur, - onların əlində olan yeganə mexanizm özlərini yazıq kimi qələmə verməkdir» (29).

Digər tərəfdən, Müsavat başqanının müavini İ.İbrahimlinin yuxarıda adı çəkilən məqaləsindən də aydın olurdu ki, radikal

müxalifətin oktyabrın 15-16-da törətdiyi zorakılıq və qanunsuz əməllər heç də, sonradan iddia olunduğu kimi, seçkilərin nəticələrinə etiraz aksiyası olmayıb. Çünki İ.İbrahimli özü etiraf edir ki, həmin vaxt müxalifətin nəticələrindən narazı qaldığı seçkilərin ləğv edilməsinə və təkrar seçkiyə nail olmaq üçün hər hansı düşünülmüş xətti olmayıb və o, məqaləsində həmin «hədəfə çatmaq üçün» «strategiya və taktika hazırlamağı» həmkarlarına təklif edir. Bu yerdə deyiblər ki, «daldan atılan daş topuğa dəyər». Müsavat funksioneri (və onun timsalında bütövlükdə radikal müxalifət) seçkidən yalnız iki ay sonra «hədəf»dən yan keçdiklərini dərk etmişdi. Bəs elə isə həmin olaylarda müxalifət liderlərinin hədəfi nə olmuşdu? Təbii ki, hakimiyyəti nəyin bahasına olursa-olsun ələ keçirmək. Siyasi karyeralarında bir dəfə (1992-ci ilin mayında) «BTR»-in üstündə iqtidara gəlmiş qüvvələr zənn edirdilər ki, 11 il sonra yenə eyni üsulla hakimiyyəti qəsb edə bilərlər. Və bundan sonra hələ Amerikaya da ağız büzürdülər ki, bəs niyə o, Gürcüstanda olduğu kimi, Azərbaycan müxalifətinin «seçkilərin nəticələrinə etiraz etmək hüququ»nu dəstəkləməyib.

Hərçənd ABŞ rəsmiləri 15-16 oktyabr olaylarından dərhal sonra verdikləri bəyanatlarda Azərbaycan müxalifətinin törətdiyi qanunsuz əməllərin demokratiya və sivil etiraz normalarına zidd olduğunu nəzərə çatdırmışdılar. Bu mövqeyi Dövlət Departamentinin sözçüsü Adam Ereli, ABŞ-ın Bakıdakı səfiri Rino Harniş, eləcə də dövlət katibinin müavini Riçard Armitac baş nazir İlham Əliyevlə telefon danışığında ifadə etmişdi. Həmin bəyanatlar, bir tərəfdən, ABŞ-ın Azərbaycanda demokratik mühitin qorunmasında maraqlı olduğunu göstərirdisə, digər yandan, Vaşinqtondan dəstək almaq ümidində olan müxalifət qüvvələrinə siyasi ismarıc idi: «müxalifət ya platformasında kardinal dəyişiklik etməli, ya da siyasi səhnəni tərk etməlidir» (30).

Maraqlıdır ki, radikal müxalifət təmsilçiləri 15-16 oktyabr iflasından sonra bir ara qatı antiamerika mövqeyi tutaraq öz günahlarını okeanın o tayına «ötürməyə» çalışsalar da, sonradan yenə siyasi fantaziya janrına qayıdaraq «Amerika bizimlədir və bizim mübarizəmizi dəstəkləyir» tipli spekulyasiyaları təkrar dövriyyəyə buraxmışdılar. Təbii ki, müxalif liderlər bu spekulyasiyalara boy verməklə ilk növbədə kütləvi şəkildə onlardan üz döndərməyə başlayan sıravi tərəfdarları qarşısında sifətlərini qorumağı və təzədən siyasi səhnəyə qayıtmağı məqsəd güdürdülər. Bununla bağlı Müsavat funksioneri İ.İbrahimli yuxarıda qeyd olunan məqaləsində iddia edirdi: «Yeni siyasi şəraiti şərtləndirən həm daxili, həm də xarici faktorlar hazırda müxalifətin xeyrinə işləyir. Artıq müxalifətin taktiki qələbəsini ABŞ və Avropa ölkələri gec də olsa, etiraf edib, əlimizdə bunu əks etdirən sənədlər var». Və ardınca daha bir gülünc iddia: «Qeyri-müəyyən vəziyyətə düşən mövcud komanda daxilində İlham Əliyevin uzun müddətli prezident olacağına artıq inamsızlıq formalaşmaqdadır» (31).

Qeyd etmək lazımdır ki, İ.İbrahimli 15-16 oktyabr iğtişaşlarının əsas təşkilatçılarından biri kimi həmin vaxt həbsdə idi və «məxməri» inqilab mövzusunda «siyasi etüdləri» də orada qələmə alırdı. Bu baxımdan onun Bayıl həbsxanasının pəncərəsindən göyə baxaraq düzüb-qoşduğu siyasi fantaziyaların reallıqdan nə qədər uzaq olduğunu bəlkə də başa düşmək olardı. Hərçənd bizim müxalifət ideoloqları harada olmalarından asılı olmayaraq gerçəkliyə həmişə öz ambisiyalarının dar prizmasından baxıblar. Təsadüfi deyil ki, həmin günlər, həbsdəki silahdaşlarından fərqli olaraq, evindəki rahat divanda əyləşib siyasi seyrə dalan Müsavat başqanının da mülahizələri eyni fantaziyalardan xali deyildi.

Hələ noyabrın əvvəlində müxalifət qəzetləri xəbər yaymışdılar ki, ABŞ Konqresinin Helsinki Komissiyası

Azərbaycanda keçirilmiş prezident seçkilərinə dair dinləmələr keçirəcək və həmin tədbirə İsa Qəmbər də dəvət olunub. Müsavat başqanı iddia edirdi ki, bu müzakirələr prezident seçkilərinin nəticələrinin ləğvi üçün Vaşinqtonun rəsmi Bakıya təzyiqlərinin başlanğıcı olacaq. Müxalifətin Amerikadan digər bir gözləntisi senator Con Makkeynlə bağlı idi. Respublikaçı senator ABŞ-ın 2004-cü il üzrə xarici maliyyə yardımları paketinin müzakirəsi zamanı təklif etmişdi ki, rəsmi Vaşinqton Azərbaycandakı prezident seçkilərində yer almış pozuntuları və seçkisonrası hadisələri araşdırmaq üçün müstəqil komissiyanın yaradılması üçün Azərbaycan hökuməti ilə iş aparsın. Müxalifət dairələri isə bu təşəbbüsü guya ABŞ-ın Azərbaycana maliyyə yardımının dayandıracağı və hətta sanksiyalar tətbiq edəcəyi kimi yozurdu.

Həqiqətdə isə hər iki məsələ ilə bağlı iddialar illüzor və əbəs idi. Əvvəla, Amerika Konqresində dünyanın bir çox ölkələri ilə bağlı mütəmadi olaraq dinləmələr keçirilir və Vaşinqtonun strateji münasibətləri olan Azərbaycandakı seçkilərin də bu baxımdan diqqətə alınması təəccüblü deyildi. O cümlədən Konqresin insan haqları, demokratiya və seçki məsələləri üzrə ixtisaslaşan Helsinki Komissiyası ondan öncə və sonra dəfələrlə Azərbaycanla bağlı belə dinləmələr keçirib. Bununla belə, həmin dövrdə Helsinki Komissiyasına ermənipərəst konqresmen Kristofer Smitin rəhbərlik etməsi bu müzakirələrə əlavə özəllik verirdi. Smit ölkəmizə qarşı «907-ci düzəliş»in müəlliflərindən biri, eləcə də Dağlıq Qarabağ separatçılarına yardım göstərilməsi, Konqresdə «erməni soyqırımı»nın tanınması kampaniyasının fəal təşəbbüskarı kimi Azərbaycanda, necə deyərlər, yaxşı tanınırdı.

Əslində müxalifət liderləri siyasi ambisiyalarını azacıq da olsa vətənpərvərlik hissinə qurban verməyi bacarsaydılar, bu şəxsin Azərbaycanla bağlı «demokratiya qayğıkeşliyi»nin gerçək

məramını dərk etməli və bu müzakirələrə qatılmamalı idilər. Lakin onlar hələ 2000-ci ildə (parlament seçkiləri öncəsi) bunu etmişdilər. O vaxt İsa Qəmbər də daxil olmaqla Azərbaycan müxalifətinin liderləri cənab Smitin qarşısında «yaxşı» hesabat vermiş, hətta onun şəninə «böyük demokrat» deyə tərifl ər söyləmişdilər. Çünki onlar Azərbaycan iqtidarına qarşı mübarizədə, nəinki ermənipərəst Smitlə, hətta, İsa Qəmbərin seçkiqabağı çıxışların birində etiraf etdiyi kimi, şeytanla da işbirliyinə hazır idilər. Bununla belə, 16 oktyabr biabırçılığından sonra evindən çölə çıxmayan və partiyasının qərargahına getməyə belə üzü olmayan İ.Qəmbərin «Azərbaycan demokratiyasının müdafiəsi naminə» ABŞ-a səfər edəcəyi gerçəkdən təzadlı idi və nəticədə, görünür, bunu dərk edən Müsavat başqanı həmin səfərdən vaz keçməli oldu.

O ki qaldı senator Makkeynin təşəbbüsünə, burada əlahiddə bir şey yox idi. Ən azı ona görə ki, Azərbaycan rəhbərliyi özü seçkilərdən dərhal sonra bəyan etmişdi ki, baş vermiş bütün qanun pozuntuları araşdırılaraq müvafiq tədbirlər görüləcək və 700-ə yaxın seçki məntəqəsi üzrə nəticələrin ləğv olunması, 15-16 oktyabr hadisələri ilə bağlı başlanan geniş istintaq tədbirləri bunun təsdiqi idi. Bu məsələ həmçinin ABŞ prezidenti Corc Buşun İlham Əliyevə prezident seçilməsi münasibətilə göndərdiyi təbrik məktubunda əksini tapmışdı: «Ümid edirəm ki, bu problemlərin aradan qaldırılması üçün Sizin qəti səyləriniz elə həyata keçiriləcək ki, qanunun aliliyinə riayət olunsun və ölkəniz demokratiya, siyasi plüralizm və insan hüquqlarına hörmət edən yolla öz inkişafını davam etdirmiş olsun. Mən demokratik, sabit, suveren və firavan Azərbaycanla strateji tərəfdaşlığın inkişafının davam etdirilməsinə Birləşmiş Ştatların sadiqliyini bir daha təsdiq edirəm» (32).

Digər tərəfdən, senator Makkeyn də daxil olmaqla Amerikanın siyasi elitası İlham Əliyevin Azərbaycanın prezidenti

seçiləcəyinə əminliklərini və müxalifətin bu yarışda uğur şansı olmadığını hələ seçkilərdən öncə dəfələrlə nəzərə çatdırmışdı. Makkeyn özü 2003-cü il oktyabrın əvvəlində Bakıya səfər etmişdi və seçkiqabağı vəziyyətdən, siyasi qüvvələr nisbətindən də yaxşı xəbərdar idi. «Böyük təcrübəyə malik siyasətçi kimi inamla deyə bilərəm ki, İlham Əliyev kimi siyasətdə tam yetkinləşmiş liderlərin təşəbbüskarlığı həmişə elektoratın hörmətini qazanır», - senator Makkeyn bu sözləri İlham Əliyevlə görüşdə bildirmişdi (33).

Yeri gəlmişkən, senator Makkeyn Bakıda müxalifət liderləri ilə də görüşmüş, amma onların barəsində rəğbət doğuracaq heç nə deməmişdi. Odur ki, seçkidəki məğlubiyyətdən sonra radikal müxalifətin özünü siyasi reabilitasiya etmək naminə senator Makkeynin «ətəyindən yapışmaq» cəhdləri də uğursuzluğa məhkum idi. Onu da qeyd etmək lazımdır ki, ABŞ-ın nüfuzlu siyasətçilərindən olan Makkeyn postsovet məkanında «məxməri» inqilabların fəal müdafiəçisi kimi ad çıxarıb və bu baxımdan onun Azərbaycan müxalifətinə lap əvvəldən «üz verməməsi» əlamətdar fakt idi. Çünki onun potensialına da, perspektivinə də ümumən bələd idi.

Bütövlükdə Azərbaycandakı seçkiləri bu və ya digər şəkildə izləmiş beynəlxalq dairələrin yekdil qənaəti bu idi ki, müəyyən nöqsanlara rəğmən bu seçkilərdə İlham Əliyevin qələbəsi şəksizdir və müxalifətin bu xüsusda iddiaları siyasi ritorikadan savayı bir şey deyil. Hətta iqtidara aşkar mənfi münasibəti ilə tanınan, müxalifət üçün isə danılmaz siyasi avtoritet sayılan AŞPA-nın Azərbaycan üzrə məruzəçisi Andreas Qross da hakimiyyətin opponentlərinə bu məsələdə ifrata varmamağı tövsiyə etmişdi. O, müxalifət təmsilçilərinin guya İlham Əliyevin 50 faizdən çox səs toplamaması və seçkilərin ikinci turunun keçirilməsi zərurəti barədə iddialarını qeyri-ciddi adlandırmışdı.

Düzdür, isveçrəli parlamentar müxalifət dairələrini siyasi perspektiv baxımdan tam naümid qoymamış və bir qədər sonra bəyan etmişdi ki, «Gürcüstandakı «məxməri» inqilab Azərbaycan müxalifətini də ruhlandırmalıdır». Yeri gəlmişkən, Qrossun Azərbaycan müxalifətinə bu cür siyasi yolgöstərənlik etməsi haqlı olaraq hakim Yeni Azərbaycan Partiyası tərəfindən etirazla qarşılanmışdı. YAP-ın bununla bağlı bəyanatında nəzərə çatdırılırdı ki, Qrossun hərəkəti suveren dövlətin daxili işlərinə kobud müdaxilə olmaqla bərabər, onun AŞPA məruzəçisi kimi statusuna və Avropa Şurasının prinsiplərinə uyğun gəlmir, «bu nüfuzlu beynəlxalq təşkilatın statusuna, məqsəd və məramına xələl gətirir» (34).

Bir sözlə, müxalifət ideoloqlarının iddialarından fərqli olaraq, istər ABŞ-da, istərsə də ümumilikdə Qərb dairələrində İlham Əliyevin prezidentliyinə əvvəldən real dəstək vardı. Seçkilərdən sonra Vaşinqtondakı Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda Azərbaycanla bağlı müzakirələrdə çıxış edən nüfuzlu azərbaycanşünas alim, Kolumbiya Universitetinin professoru Tadeuş Svyatoxovski bunu xüsusilə vurğulamışdı. İlham Əliyevin prezident seçkilərindəki qələbəsini Amerika tərəfindən "gözlənilən hadisə" adlandıran professor əmin olduğunu bildirmişdi ki, yeni prezidentin fəaliyyətində Azərbaycanda islahatlar və inkişaf kursu davam edəcək, həmçinin «idarəçi nəslin əhəmiyyətli dərəcədə yeniləşməsi müşahidə olunacaq» (35).

Ümumiyyətlə, İlham Əliyevin prezidentliyinin ilk aylarından başlayaraq atdığı addımlar, qəbul etdiyi qərarlar Azərbaycanı nəzər-diqqətdə saxlayan beynəlxalq dairələr tərəfindən effektli və uzunmüddətli perspektivə hesablanmış idarəçilik nümunəsi kimi müsbət dəyərləndirilirdi. Bu baxımdan İlham Əliyevin sosial-iqtisadi sahədə atdığı addımlar, özəlliklə 2004-cü ilin fevralında

qəbul edilən «Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı» (2004-2008-ci illər) xüsusilə geniş rezonans doğurmuşdu. Hətta bir sıra təhlilçilər Vaşinqtonu və bütövlükdə Qərbi Azərbaycanın gənc liderinin başladığı genişmiqyaslı iqtisadi inkişaf proqramlarına yetərli diqqət göstərməməkdə məzəmmət edirdilər. «Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət hakimiyyətin nailiyyəti kimi daha çox demokratik islahatları nəzərə alır», - deyə Vaşinqtondakı Nikson Mərkəzinin təhlilçisi Zeyno Baran bununla bağlı bildirmişdi (36).

Bununla belə, ABŞ rəsmilərinin Azərbaycanın yeni rəhbərinin bu yöndə atdığı addımları diqqətdənkənar qoyduğunu demək də düzgün olmazdı. 2004-cü ilin martında Bakıya səfər edən ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşavirinin müavini Linn Pasko Vaşinqtonun prezident İlham Əliyevin iqtisadi sahədə təşəbbüslərini alqışladığını bəyan etmişdi. Bir qədər sonra, iyul ayında dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Elizabet Cons Bakıya səfər edərək Azərbaycan rəhbərliyi ilə ikitərəfli münasibətlərin geniş spektrini müzakirə etmişdi. Bundan əlavə, prezident İlham Əliyevin 2004-cü il iyunun sonunda İstanbuldakı NATO sammiti gedişində ABŞ prezidenti Corc Buşla görüşü, həmçinin iyulda Azərbaycan XİN başçısının ABŞ-a rəsmi səfəri Vaşinqton-Bakı münasibətlərinin yüksək səviyyədə olduğunu nümayiş etdirmişdi.

İlham Əliyevin prezidentliyinin ilk aylarından başlayaraq müxalifət təmsilçilərinin ortaya atdıqları əsassız iddialardan biri də guya rəsmi Bakının xarici siyasətinin Rusiyaya doğru əyilməsi və bununla da Azərbaycanın Heydər Əliyev dövründə yeritdiyi tarazlı diplomatiyanın iflasa uğraması barədə idi. Onların iddiasına görə, Heydər Əliyevdən fərqli olaraq, Azərbaycanın yeni rəhbəri dünya gücləri arasında geosiyasi manevr və balanslaşdırma aparmaq bacarığında deyil və bu üzdən

Rusiyanın təzyiqləri altında Moskvapərəst xarici siyasət yeritməyə məcburdur. Əslində müxalifət dairələrinin Heydər Əliyevin xarici siyasət kursunu onun sağlığında da təftiş etməyə uğursuz cəhdlər etmişdilər. Odur ki, bu cəhdlərin İlham Əliyevə münasibətdə davam etməsi təəccüblü deyildi. Təəccüb doğuran şey vardısa, o da ortaya atılan iddiaların bir-birindən əcaib və absurd olması idi. Məsələn, prezident İlham Əliyevin 2004-cü ilin fevralında Rusiyaya rəsmi səfəri öncəsi geniş kampaniya başladan müxalifət qəzetləri Azərbaycanın Rusiyanın təsiri altına düşdüyünü, ələlxüsus da Rusiya biznesinin tezliklə Azərbaycanın iqtisadiyyatını nəzarətə götürəcəyini iddia edirdilər.

Gerçəkdə isə bu səfər Azərbaycanın balanslı xarici siyasət kursunun dəyişmədiyini, Bakının Moskva ilə münasibətlərinin isə yalnız bərabərhüquqlu və qarşılıqlı səmərəli əməkdaşlığa söykəndiyini bir daha sübutlamış oldu. Bu baxımdan prezident İlham Əliyevin səfər gedişində İTAR-TASS informasiya agentliyində keçirdiyi mətbuat konfransında söylədiyi fikir xüsusilə əlamətdar idi. Dövlət başçısı rusiyalı jurnalistin «Azərbaycan iqtisadiyyatının dirçəlməsində Rusiyanın imkanlarını necə qiymətləndirirsiniz» sualına cavabında demişdi: «Mən Sizin kimi buna «dirçəliş» deməzdim, adətən, dirçəliş həyatın bir növ qurtardığı yerdə baş verir. Azərbaycanda isə vəziyyət başqa cürdür. Biz qarşılıqlı surətdə faydalı əməkdaşlıqda iştirakı alqışlayırıq. Bu gün Azərbaycanda Rusiya kapitalı var. Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatına yüz milyonlarla dollar məbləğində sərmayə qoymuşlar. Ona görə də biz qarşılıqlı fayda və qarşılıqlı mənfəət prinsiplərinə əsaslanan əməkdaşlıq üçün açığıq» (37).

Ölkə müxalifətinin Azərbaycanın guya Rusiyanın siyasi diqtəsi altında qaldığına dair iddiaları da tamamilə əsassız idi. 2004-cü ilin iyulunda MDB dövlət başçılarının Moskvada

keçirilən qeyri-formal sammitində Rusiya tərəfi ATƏT-in fəaliyyətini təftiş edən bəyanat layihəsini müzakirəyə çıxarmışdı. MDB-nin bir sıra ölkələrinin rəhbərləri həmin bəyanatı imzalasa da, prezident İlham Əliyev bunu etməmişdi. Buna rəğmən sammitdən sonra «Yeni Müsavat», ardınca isə digər müxalifət qəzetləri məlumat yaymışdılar ki, guya Azərbaycan Rusiyanın təklif etdiyi sənədi imzalayıb və bununla da Kremlin diqtəsi altında hərəkət etdiyini bir daha təsdiqləyib. Nəticədə Azərbaycan XİN bu uydurmanı rəsmən təkzib etməli oldu. XİN-in məlumatında bildirilirdi ki, Azərbaycan nəinki sözügedən sənədə qoşulmayıb, üstəlik «MDB-nin üzvü olan dövlətlərin ATƏT məkanında qarşılıqlı fəaliyyətinə dair bəyanat» adlı alternativ layihə ilə çıxış edib. Layihədə belə bir müddəa xüsusilə vurğulanırdı ki, ATƏT Avropa təhlükəsizliyi arxitekturasında, insan hüquqları və demokratiya sahəsində mühüm rol oynamaqla yanaşı, «özünün təməl sənədlərində əksini tapmış prinsip və normaları pozan dövlətlərə münasibətdə ardıcıl mövqe tutmur», Azərbaycan ərazisində milyondan çox qaçqın və məcburi köçkünün olması kimi humanitar fəlakətə lazımi diqqət göstərmir (38).

Qeyd etdiyimiz kimi, qərəz və subyektivizmdən heç vəchlə əl çəkmək istəməyən müxalifət dairələrindən fərqli olaraq, beynəlxalq təhlilçilər, eləcə də ayrı-ayrı xarici ölkə rəsmiləri Azərbaycan rəhbərliyinin daxildə apardığı inkişaf və quruculuq siyasətini, xarici siyasətdə isə Qərblə səmərəli tərəfdaşlıq, Rusiya ilə bərabərhüquqlu qonşuluq siyasətini yüksək qiymətləndirir, hətta bu siyasətə qibtə edirdilər. Onlardan biri Gürcüstanın yeni prezidenti, bu ölkədəki «məxməri» inqilabın qəhrəmanı kimi Azərbaycan müxalifətinin də siyasi kumiri halına gələn Mixail Saakaşvili idi. Bəllidir ki, hələ Şevardnadze dövründən Gürcüstanın xarici siyasətinin əsas zəif nöqtəsi onun balanslı olmamasında idi və bu cəhət Saakaşvili dönəmində də davam

edirdi. Necə ki, Şevardnadzenin xarici siyasəti əsasən Qərb (ilk növbədə ABŞ) və Rusiyanı qarşı-qarşıya qoymaq üzərində köklənmişdi, eləcə də onun gənc reformator xələfi bu xətti böyük ölçüdə davam etdirməyə başlamışdı. Fərq yalnız onda idi ki, Saakaşvili Qərbə daha yaxın və məhrəm siyasət yeridir və bu üzdən öz sələfinə nisbətən Qərbdən daha çox dəstək görürdü. Eyni zamanda, Tbilisidə etiraf edirdilər (və indi də etiraf edirlər) ki, Azərbaycanın yeritdiyi siyasət bütün parametrlərinə görə, daha optimal və səmərəlidir.

Təsadüfi deyil ki, Gürcüstan prezidenti Saakaşvili Bakıya ilk rəsmi səfəri gedişində bunu bir neçə dəfə vurğulamış, azərbaycanlı həmkarından çox şey öyrənməyə hazır olduğunu bildirmişdi: «Bu, mənim üçün Azərbaycanın yeni lideri ilə yaxından tanış olmaqdan ötrü nadir imkandır. Mən ona böyük rəğbət bəsləyirəm və ondan çox şey öyrənməyə hazıram. Mən onun fəaliyyətini diqqətlə izləyirəm. Düşünürəm ki, biz birlikdə xaqlarımız üçün çox işlər görə bilərik. Azərbaycanın dərin hörmət hissi bəslədiyim əvvəlki rəhbərliyinin Gürcüstanın da əvvəlki rəhbərliyi ilə yaxşı münasibətləri vardı. Bu münasibətlər davam etdiriləcək, genişləndiriləcək...Mən burada baş verənlərə yaxşı mənada qibtə edirəm. Biz Gürcüstanda da belə tikinti işləri aparmaq, belə tərəqqiyə nail olmaq istəyirik. Biz də demokratik dövlət çərçivəsində iqtisadi sabitliyə, nizam-intizama nail olmaq istəyirik və biz çox şeyi Azərbaycan rəhbərliyindən öyrənmək istəyirik» (39).

Lakin, nə yazıqlar ki, Azərbaycan cəmiyyətinin mütləq əksəriyyətinin, habelə xarici dairələrin müsbət dəyərləndirdiyi bu gerçəkliyə ambisioz müxalifət təmsilçiləri obyektiv yanaşmaq iqtidarında deyildilər, daha doğrusu, bu reallıqlarla barışmaq istəmirdilər. Məhz bu səbəbdən müxalifət təmsilçiləri İlham Əliyevin prezidentliyinin ilk günündən ona hədsiz qərəzlə yanaşmağa və bununla da əslində özlərinin siyasi mədəniyyət

səviyyəsinin nə dərəcədə kasad olduğunu nümayiş etdirməyə başlamışdılar. Siyasi mübarizənin sivil normalarına görə, prezident seçilmiş şəxsin fəaliyyətinə ilkin qiymət onun 100 günlük fəaliyyətinə əsasən verilir və bu müddətdə onun fəaliyyəti hətta ən qatı müxalifət tərəfindən tənqid olunmur, necə deyərlər, hakimiyyətin opponentləri bu məsələdə ölkə başçısına «kart-blanş» verərək səbr edirlər. Azərbaycanın radikal müxalifət kəsimi bu keyfiyyətlərdən xali olduğu üçün nəinki 100 gün, heç bir həftə də səbrini basa bilmədi.

Hətta bədnam düşərgə mənsubları Azərbaycan xalqının dərin hüzn içində olduğu günlərdə, Böyük Öndər Heydər Əliyevin vəfatı ilə bağlı elan edilmiş ümumxalq matəmində də cılız müxalifətçiliklərindən qalmadılar, prezidentə qarşı qarayaxma kampaniyalarına ara vermədilər. Çünki yaxşı bilirdilər ki, İlham Əliyev üçün Azərbaycan prezidenti postunda ən çətin sınaq böyük siyasətdəki yolunu davam etdirməyə başladığı Heydər Əliyevin vəfatı idi. Bununla belə, İlham Əliyev Böyük Öndərin Haqq dərgahına qovuşmasını, onun cismani yoxluğunu mətinliklə qarşıladı: «Azərbaycan normal həyata qayıtmalı, ölkəmizin inkişafı və rifahı yolunda Heydər Əliyevin başladığı işləri davam etdirməliyik». Bu itki bütün Azərbaycan xalqı üçün ağır idi, amma, heç şübhəsiz, onun ən böyük ağrısını məhz İlham Heydər oğlu yaşadı: «Bu, hamımız üçün çox böyük sınaq, çox böyük faciə idi. İlk növbədə, yəqin ki, mənim üçün. Çünki Heydər Əliyev mənim atamdır. Düzdür, o, xalqın atasıdır. Amma bizim ailə üçün bu, çox böyük zərbə idi. Hesab edirəm ki, biz hamımız bu böyük sınaqdan şərəflə çıxdıq. Bizim hamımızı birləşdirən o idi ki, gərək Heydər Əliyev işini davam etdirək, onun ruhu rahat olmalıdır» (40).

Heydər Əliyev yolunun ən layiqli şəkildə davam etdirilməsi isə Azərbaycanı daha qüdrətli, daha zəngin və firavan dövlətə çevirməyi özündə ehtiva edirdi. İlham Əliyevin prezidentliyi ilk

günlərdən ictimai rəydə bu inamı əsaslı şəkildə təsdiqlədi. Öz növbəsində İlham Əliyev xalqla daima təmasda olmaq, onun problemlərini şəxsən dinləyib həll etmək kimi üstün keyfiyyətlərini ilk günlərdən nümayiş etdirərək cəmiyyətin rəğbətini qazandı: «Xalq prezidenti seçir, prezident də xalqın qarşısında cavab verməlidir. Rəhbərin xalqla birliyi, ümumiyyətlə, ən mühüm məsələdir. Harada bu birlik yoxdursa, rəhbər xalqdan ayrılırsa, o rəhbər vəzifədə çox qala bilməz. Əgər xalq onun fəaliyyətini dəstəkləyirsə, ona inanırsa, bu, ən böyük mükafatdır» (41).

Bu bəyanatdan bir neçə gün sonra, Lənkəranda baş vermiş qəza (yaşayış binasının uçması) ilə əlaqədar dövlət başçısının dərhal hadisə yerinə getməsi və qəzanın nəticələrinin aradan qaldırılmasına bilavasitə rəhbərlik etməsi rəhbərin xalqla, onun dərd və problemləri ilə bir yerdə olduğunun bariz nümunəsi idi. Yeri gəlmişkən, bu, İlham Əliyevin prezident postunda paytaxtdan bölgəyə ilk səfəri idi və çox simvolikdir ki, dövlət başçısının ondan sonra regionlara etdiyi saysız səfərlərin hamısı ancaq xoş sədalı hadisələrlə, gerçəkləşən quruculuq, abadlıq və inkişaf layihələri ilə bağlı olub. Prezident təkcə 2004-cü il ərzində regionların inkişafı üzrə Dövlət Proqramının icrası ilə bağlı respublikanın 20-dən çox rayonuna baş çəkmiş, onlarla iri müəssisənin fəaliyyətinə şəxsən xeyir-dua vermişdir. Bütövlükdə bu müddətdə ölkədə 100 minə yaxın yeni iş yeri açılmışdı. Və hər belə səfər xalqın prezidentinə olan inamını, prezidentin də xalqdan aldığı güc və etimadını daha da artırıb: «Hər bir insan, xüsusilə rəhbər vəzifədə çalışan şəxs verdiyi sözə sadiq olmalıdır. Dövlət rəhbərinin gücü xalqın ona olan inamıdır. Mən də öz həyatımda həmişə çalışmışam və çalışıram ki, verdiyim sözə daim sadiq olum, vədimə əməl edim. Gördüyüm işlər haqqında sizin qarşınızda hesabat verirəm. Bu hesabat da göz qabağındadır» (42).

Sözsüz ki, bu sabit inkişafı, sosial-iqtisadi tərəqqini təmin etmək üçün ölkədə ictimai-siyasi sabitliyin davam etməsi zəruri idi. İlham Əliyev hələ prezident postunda etdiyi ilk çıxışında Azərbaycanın gələcək inkişaf perspektivlərini xarakterizə edərkən bu məqamı xüsusi qeyd etmiş, Heydər Əliyev siyasətinin Azərbaycanda bərqərar etdiyi sabitliyin ölkənin tərəqqisinin başlıca şərti olduğunu vurğulamışdı: «Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik. Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək» (43).

Prezident sonrakı çıxışlarında bu vacib tezisi dəfələrlə diqqətə çatdırıb. Məhz bu sabitlik sayəsində Azərbaycanda Heydər Əliyev tərəfindən təməli qoyulmuş iqtisadi layihələr, o cümlədən ölkədə uzunmüddətli sosial rifahın əsasını təşkil edən neft strategiyası uğurla davam etdi, Azərbaycan yeni inkişaf magistralına çıxmış oldu. Bu baxımdan 2004-cü ili Azərbaycanda sürətli iqtisadi inkişafa əsaslı keçid dövrü, dönüş mərhələsi kimi səciyyələndirmək olar. Azərbaycan xalqının 2003-cü ilin oktyabrında etdiyi tarixi seçimin, ölkəmizin Heydər Əliyev yoluna davam etməsi üçün hakimiyyətə verdiyi fəaliyyət mandatının həyata keçirilməsində bu il həlledici mərhələ oldu. Bu il nəticə etibarilə Azərbaycanda «güclü dövlət-ictimai sabitlik-iqtisadi tərəqqi» konseptual triadasının həm real ifadəsini, həm də bu inkişaf kursunun dönməzliyini təsdiqlədi. Azərbaycanın sonrakı mərhələdə nail olduğu uğurlar - sürətli iqtisadi tərəqqi, ölkəmizin regionun şəksiz liderinə çevrilməsi və beynəlxalq nüfuzunun möhkəmlənməsi – bütün bunlar xeyli dərəcədə prezident İlham Əliyevin 2004-cü ildə həyata keçirdiyi siyasət, məqsədyönlü və qərarlı fəaliyyət nəticəsində təmin olunmuşdu.

Halbuki bütün bu proseslər tamam başqa, müxalifətin 2003-cü il seçkilərindən sonra iddia etdiyi və səbirsizliklə gözlədiyi istiqamətdə də gedə, Azərbaycan öncəki 10 ildə əldə etdiyi nailiyyətləri itirməklə zəif hakimiyyət və permanent böhran zolağına düşə bilərdi. Təsadüfi deyil ki, müxalifət ideoloqları 2004-cü il boyunca məhz bu yöndə ssenariləri davamlı gündəmdə saxlamağa, İlham Əliyev hakimiyyətinin uzunömürlü olmayacağı, çox tezliklə iflasa uğrayacağı barədə iddiaları israrla ictimai rəyə təlqin etməyə çalışırdılar. Hətta okeanın o tayından siyasi münəccimliyini davam etdirən Rəsul Quliyev iddia etmişdi ki, İlham Əliyev hakimiyyətdə ən çox 6 ay qala biləcək.

Müxalifət düşərgəsinə yeni qatılmış siyasətçilərdən olan və düşərgə qəzetlərinin aparıcı siyasi şərhçisinə çevrilmiş Eldar Namazov isə mühacir həmkarının anons etdiyi yarımillik müddət bitəndən sonra təmkinlə bəyan edirdi ki, hələ proseslər yeni başlayır və bu siyasətin sonunu çox gözləmək lazım gəlməyəcək. Düzdür, o, müxalifətdəki radikal əhvallı, «nə qədər pis olarsa, bir o qədər yaxşıdır» fəlsəfəsi ilə yaşayan həmkarlarından fərqli olaraq, hakimiyyətə münasibətdə nisbətən mötədil mövqe tutur, hətta etiraf edirdi ki, «belə ağır vəziyyətdə, problemli cəmiyyətdə hakimiyyətə uğursuzluq arzulamaq düzgün deyil». Eyni zamanda, o, ölkənin gələcəyi üçün, hakimiyyətlə yanaşı, müxalifətin də məsuliyyət daşıdığını bildirir, başqa sözlə, müxalifət düşərgəsində ifrat radikalizm və dağıdıcılıq əhvalının aradan qaldırılmasının zəruriliyini etiraf edirdi: «Bu mənada bütövlükdə siyasi elitanın – həm hakimiyyətdə, həm də müxalifətdə olanların, cəmiyyətə təsir edən insanların məsuliyyəti ikiqat artır. Nə cür edək ki, mümkün qədər ağrısız, maksimum qısa müddətdə Azərbaycanın layiq olduğu gələcəyi qurmağa nail olaq?» (44).

Müxalif düşərgənin digər «koloritli» fiquru, əbədi müxalifətçilikdən və ardıcıl məğlubiyyətlərdən usanaraq 2004-cü

ildə, nəhayət, heç olmasa AMİP sədrliyindən istefa verməyə özündə güc tapan Etibar Məmmədov da həmkarlarını düşdükləri vəziyyəti daha real dəyərləndirməyə çağırır və etiraf edirdi ki, müxalifət düçar olduğu məğlubiyyətin səbəblərini öncə öz içində axtarmalıdır: «Dəfələrlə demişəm ki, hakimiyyət strukturları daha çox iş gördülər, daha məqsədyönlü oldular və qüvvələri artırmaq imkanlarımızı əlimizdən aldılar, bizlərin işini poza bildilər. Əksinə, biz qarşı cəbhənin sıxlaşmasının qarşısını ala bilmədik. Birincisi, bir-birimizin qarşısında götürdüyümüz öhdəliklər pozulmuşdu. İkincisi, birgə mübarizə üçün mümkün ola biləcək şərait aradan qaldırılmışdı. Çünki namizədlərdən biri (İsa Qəmbər) özünü qalib hesab etdi və tərəfdarlarını bunu rəsmiləşdirmək üçün mübarizəyə çağırdı. Biz gedib başqasının qələbəsini təmin etmək üçün adamlarımızı öldürəsi deyildik ki?». Bununla bərabər, E.Məmmədov müxalif düşərgəni tam bədbinliyə qapılmamağa çağıraraq «Azərbaycanın ciddi dəyişikliklər ərəfəsində olduğunu» bildirirdi: «İqtisadi inkişaf, Azərbaycanın məcburən gedəcəyi iqtisadi yol siyasi dəyişikliklərə gətirib çıxaracaq... Dövrə uyğun yeni, keyfiyyətli enerjiyə ehtiyac olacaq» (45).

Qeyd etmək lazımdır ki, bu, müxalifət dairələrində prezident seçkilərinin nəticələri və ümumilikdə düşərgənin gələcək perspektivləri ilə bağlı qızğın diskussiyaların getdiyi bir dövr idi. 2003-cü il 15-16 oktyabr iğtişaşlarının təşkilatçı və iştirakçıları üzərində məhkəmə ilə bir vaxta təsadüf edən diskussiyalarda iki istiqamət və nəzər-nöqtəsi özünü göstərirdi. Müxalifətin bir qismi prezident seçkilərindəki məğlubiyyətin səbəblərini özünütənqid prizmasından saf-çürük edib səhvlərdən nəticə çıxarmağı və bu xüsusda ifrat radikalizmdən əl çəkib daha mötədil və cəmiyyətin geniş təbəqələrinin rəğbətini qazanacaq siyasəti izləməyi təklif edirdisə, digər qisim əvvəlkitək barışmaz müxalifətçiliyi, təkəbbürlü və faktiki qaragüruh siyasəti davam

etdirmək mövqeyində qalmaqda idi. İkinci istiqamətin aparıcı qüvvələri Müsavat, AXCP («islahatçılar») və ADP idi ki, məhz bu üçlük sonradan, 2005-ci il parlament seçkiləri öncəsi birgə blok təşkil edərək Azərbaycanda «məxməri» inqilab sevdasına düşmüşdü. 2004-cü ilin yayında isə onlar, özəlliklə Müsavat Partiyası hələ də prezident seçkilərindəki məğlubiyyətin şokundan çıxmamışdı və «təkrar seçki» illüziyası ilə yaşayırdılar. Eyni zamanda, bütün bu müzakirələr müxalifət düşərgəsində dərin ixtilafın qaldığını və gələcəkdə elan ediləcək hər hansı blok və birliklərin də müvəqqəti dekorasiya olacağını yəqin etməyə əsas verirdi.

O ki, qaldı müxalifət dairələrinin İlham Əliyevin prezidentliyi və bütövlükdə hakimiyyətin perspektivi barədə səsləndirdikləri iddialara, onları zaman özü heçə çıxardı. O cümlədən konkret olaraq 2004-cü ildə prezidentin fəaliyyəti onun dövlət sükanını əlində möhkəm saxladığını, Azərbaycanın yeni inkişaf strategiyasını ardıcıl şəkildə həyata keçirdiyini sübut etdi. Müxalifət təmsilçilərinin bir-birinə və cəmiyyətə ünvanladıqları suallara İlham Əliyev əməli işlə, real siyasətlə ən doğru cavabı verirdi. Bu siyasət müxalifətçilərin «nə cür edək ki» sualına cavab olaraq nəinki «ağrısız və maksimum qısa müddətdə», üstəlik, ən optimal və effektli şəkildə Azərbaycanın layiq olduğu gələcəyi təmin etməyə hesablanmışdı.

Bunun üçün məxsusi olaraq yeni yol axtarmağa, hansısa sarsıntı və inqilaba da gərək yox idi, sadəcə, Heydər Əliyevin başladığı təkamül və tərəqqi yolunu daha mükəmməl şəkildə davam etdirmək lazım idi: «Ümumi strategiya dəyişməz olaraq qalır. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə Azərbaycana yenidən hakimiyyətə gələn zaman xalqımız öz tarixi seçimini edib və bütün sahələrdə həyata keçirilən islahatlarla bağlı siyasətimiz dəyişməz qalır. ...Eyni zamanda, həyat dəyişir, yeni məsələlər ortaya çıxır, ölkə statik vəziyyətdə

qala bilməz. Biz indi elə qərarlar qəbul edə bilərik ki, onlar əvvəlki dövrlərdə olduğundan, bəlkə də, fərqlənə bilər. Ölkə gücləndikcə, vəziyyət də dəyişir. Azərbaycanda siyasi, iqtisadi vəziyyət müsbət şəkildə inkişaf edir» (46).

Sözsüz ki, bu reallıqla barışmayıb ölkəni yeni çaxnaşmalara sürükləmək istəyənlərə də Azərbaycan dövləti cavab vermək gücündə idi. Prezident İlham Əliyev bunu həm 2003-cü ilin 15-16 oktyabr hadisələrindən ibrət dərsi götürmək istəməyən qüvvələrin nəzərinə, həm də bu hadisələrlə bağlı Azərbaycan hakimiyyətinə qarşı müəyyən subyektiv iddialar irəli sürən xarici qeyri-hökumət təşkilatlarının diqqətinə çatdırmışdı: «Bizim dövlətimiz özünü müdafiə etmək iqtidarındadır. Qanunu pozan, kütləvi iğtişaşlar törədənlər layiqli cavabını aldılar və cəmiyyətdən təcrid olundular. Düzdür, indi bundan istifadə etmək istəyir, bizi hansısa qeyri-demokratik üsullarda ittiham etməyə çalışırlar. Amma bu, belə deyildir. Sadəcə olaraq, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da qanun-qayda, qanunun aliliyi təmin ediləcəkdir. Əgər inkişaf etmiş hansısa başqa ölkədə polisə qarşı zorakılıq işlədilirsə, təbii ki, o cinayəti törədən şəxs cəmiyyətdən təcrid olunur. Ona görə bu məsələ ilə bağlı xaricdən buraya gəlmiş şəxslərə mən öz qəti mövqeyimi bildirmişdim. Azərbaycan müstəqil dövlətdir, özünü qorumağa qadirdir və biz sabitliyi qorumalıyıq» (47).

Prezident bu prinsipial mövqeyi beynəlxalq təşkilat rəsmiləri ilə görüşlərdə, o cümlədən 2004-cü ilin aprelində Strasburqda, Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasındakı çıxışında açıq ifadə etmişdi. Dövlət başçısı cəmiyyətdə qarşıdurmanın aradan qaldırılmasına, siyasi qüvvələr arasında sivil mübarizəyə tərəfdar olduğunu qeyd etməklə bərabər, öz ambisiyalarını «daş-kəsəklə ifadə etmək» istəyənlərə qarşı qanunun gücü ilə tədbirlər görüləcəyini vurğulamışdı. İlham Əliyev həmçinin bəyan etmişdi ki, Azərbaycanın demokratik

inkişaf və Avropa ailəsinə qovuşmaq niyyəti qətidir və o, prezident kimi həm əhalinin sosial rifahının, həm də cəmiyyətin demokratikləşməsinin təmin olunmasına eyni dərəcədə böyük önəm verir: «Biz problemlərin masa ətrafında həll edilməsinin tərəfdarıyıq. Təəssüf ki, müxalifətin bəzi üzvləri öz baxışlarını daş-kəsək parçaları ilə ifadə etməyə üstünlük verdilər. Demokratiya və qanun birlikdə olmalıdır. Mən həm seçkidən əvvəl, həm də seçkidən sonra Azərbaycandakı siyasi qüvvələri dialoqa çağırmışam. Təəssüf ki, hələ də cavab almamışam. Lakin biz öz təklifimizdən imtina etmirik və qapı açıqdır. Əminəm ki, Azərbaycanın bütün siyasi spektri birləşib dağıdıcılıqla yox, yaradıcılıqla məşğul olarsa, məqsədlərimizə daha tez çatarıq. Yerinə yetiriləcək vəzifələr çoxdur. Həyatımızın bir çox sahələri beynəlxalq standartlara cavab vermir. Amma bu yol bizim strateji seçimimizdir. İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya, şəffaflıq yoxdursa, insan haqları qorunmursa, uğur qazana bilməzsən. Yalnız bütün əhalimiz özünün daha yaxşı yaşadığını hiss etdiyi vaxt hökumətimiz vəzifəsini yerinə yetirmiş hesab edə bilər» (48).

Qeyd etmək lazımdır ki, İlham Əliyev ölkədə vətəndaş sülhünü möhkəmləndirmək, siyasi mübarizəni qarşıdurma və düşmənçiliyə çevirməmək istiqamətində ardıcıl bəyanatlarını konkret addımlarla da təsdiq edib. Buna misal olaraq onun prezidentliyinin ilk ilində imzaladığı 4 əfv fərmanını qeyd etmək olar. Həmin fərmanlarla müxtəlif illərdə Azərbaycanın suverenliyinə, dövlətçiliyinə qarşı cinayətlər törətmiş onlarla şəxs azadlığa çıxıb: «Mənim üçün hər bir vətəndaş əzizdir. Mən keçmişlə bu günün arasında görünməyən bir xətti görürəm. Keçmişdə çox səhvlər olub, Azərbaycan vətəndaş müharibəsi həddində olub. Mən cinayət törətmiş şəxsləri də azad etmişəm.

Ona görə yox ki, onlar siyasi məhbusdur. Mən Azərbaycanda qarşıdurma əhval-ruhiyyəsinin aradan götürülməsini istəyirəm. Bizim qarşımızda yeni vəzifələr durur, ölkəmizi inkişaf etdirməliyik. Biz milli barışığa nail olmuşuq və gərək bunu gücləndirək, keçmiş ədavət və ziddiyyətlər tarixdə qalsın. Bu, mənim niyyətimdir. Əgər qarşı tərəf bunu eşidirsə, mən şadam, əgər eşitmirsə, günah qarşı tərəfdədir» (49).

Təəssüflə qeyd etməliyik ki, prezidentin bu xoşməramlı çağırışları müxalifət radikalları tərəfindən eşidilmədi və onlar qaragürüh fəaliyyətdən əl çəkmək istəmədiklərini bir daha nümayiş etdirdilər. Halbuki Azərbaycan rəhbərinin siyasi dialoq və anlaşma istiqamətində bəyanatları beynəlxalq dairələrdə, o cümlədən radikal müxalifətin yenidən illüzor ümidlər bəsləməyə başladığı Vaşinqtonda yüksək qiymətləndirilmişdi. ABŞ prezidenti Corc Buş bunu İlham Əliyevə göndərdiyi növbəti məktubunda xüsusilə diqqətə çatdırmışdı: «Mən Sizin Azərbaycanda partiyalararası dialoqa və barışığa çağırışınızı alqışlayıram. Gündən-günə demokratikləşən, çiçəklənən və firavanlaşan ölkə quruculuğu prosesində baxışlarınızın reallaşmasında Sizə uğurlar arzulayıram» (50).

Hakimiyyətlə faktiki dialoqu rədd edən müxalifət liderləri isə bu arada iqtidar dəhlizlərinə «arxa qapı»dan girmək, oralarda özlərinə potensial dəstək axtarışına baş vurmuşdular. Müxalifətin hakimiyyətdə gizli dayaqlar tapması və bu yolla hakim elitada konflikt və parçalanmaya təkan verməsi «məxməri» inqilab ssenarilərinin mühüm tərkib hissəsidir, odur ki, Azərbaycan müxalifəti də yeni siyasi payıza – 2005-ci ilin parlament seçkilərinə hazırlıq kontekstində buna xüsusilə diqqət verməyə başlamışdı. Əslində müxalifət hakimiyyəti daxildən «vurmaq» planlarını daha öncə də, o cümlədən 2003-cü ilin prezident seçkilərində də sınaqdan çıxarmaq istəmişdilər, lakin buna müvəffəq olmamışdılar. Bu yöndə növbəti cəhdlərin də

uğursuzluğa düçar olacağı yəqin idi. Bununla belə, müxalifət liderlərinin yeni seçki taktikasında iqtidardaxili potensial ixtilaflara xüsusi yer ayırdıqları fakt idi və onlar hakimiyyət dəhlizlərində «kadrları»nın olduğunu ictimai rəyə də təlqin etməyə çalışırdılar. «Mən dəqiq bilirəm ki, hakimiyyətdəki xeyli qüvvə müxalifətin bir araya gələcəyi təqdirdə – onların çoxu İlham Əliyevi istəmirdi, onu əlacsızlıqdan seçdilər – müxalifətə doğru addım atacaqdılar», - deyə AXCP sədri Əli Kərimli prezident seçkilərindəki məğlubiyyətin «dərs»lərindən danışarkən bildirmişdi. Onun sözlərinə görə, müxalifət yeni siyasi mövsümdə bunu diqqətdə saxlamalıdır. Düzdür, Ə.Kərimli həmkarlarına bu faktora o qədər də bel bağlamamağı tövsiyə etmişdi: «Mən müxalifətdə bu məsələ ilə bağlı yeni arxayınçılıq yaratmağın tərəfdarı deyiləm. İstəmirəm arxayınlaşaq ki, hakimiyyətdaxili ixtilaflar artacaq və müxalifət avtomatik hakimiyyətə gələcək» (51).

«Cəbhəçi» liderin bu sözlərində həqiqət vardı. Çünki o yaxşı bilirdi ki, hakimiyyət komandasında onların ümid bəslədiyi ixtilaf real deyil və bunun işartıları üzə çıxsa belə, prezident onları aradan qaldırmaq gücündədir. Hərçənd hakim komandada onun monolitliyinə kölgə sala biləcək «ayağı sürüşkən» şəxslərin, yaxud şəxsi ambisiyalarının yedəyində gedən iqtidar mənsublarının olması da istisna deyildi və 2005-ci ilin oktyabrında meydana gələn proseslər bunu təsdiqlədi. Lakin sözügedən tendensiyanın nəzarətdən çıxması mümkün deyildi, ən azı o sadə səbəbə görə ki, hakim komandanın lideri, prezident buna imkan verməzdi. İlham Əliyev hökumət üzvlərinə bu yöndə ilk profilaktik xəbərdarlığını 2004-cü ilin dekabrında Nazirlər Kabinetinin geniş iclasında etmişdi. O nəzərə çatdırmışdı ki, hökumət üzvlərinin məmur kreslosunda siyasətbazlıq etməsinə, öz aralarındakı hər hansı problemi mətbuat üzərindən «çözməyə» çalışmasına yol verməyəcək.

Həmin iclas İlham Əliyevin idarəçilik üslubunun vacib keyfiyyətini bir daha nümayiş etdirdi. Cəmiyyət bir daha gördü ki, İlham Əliyev hakimiyyətin nöqsanlarını açıq şəkildə etiraf edir, reallığı bəzək-düzəksiz, olduğu kimi təqdim edir və ictimai rəyə həmin nöqsanların mütləq aradan qaldırılacağının mesajını verir.

Prezident o zaman konkret ad çəkməmişdi (həmin günlər təhsil naziri Misir Mərdanovla əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyev arasında mətbuat çəkişməsi geniş ictimaiyyətə bəlli idi, lakin dövlət başçısında digər nazirlər barədə də daha geniş məlumatların olması şübhə doğurmurdu), amma bu xəbərdarlıqdan hər kəs öz payını götürməli idi. Bunu etməyib hakimiyyətdə «müxalifətçilik» iddiasına düşənlər isə acı aqibətlərini bir il sonra yaşamalı oldular: «Bəzi hallarda hökumət üzvləri özlərinə aid olmayan məsələlərə qarışırlar. Əgər kiminsə iradı, təklifi varsa, bunu ifadə etmək üçün münasib şərait var. Nazirlər Kabineti, Baş nazir, Prezidentin İcra Aparatı, Prezident var. Hər bir hökumət üzvünün hansısa sahə ilə əlaqədar fikri ola bilər. Amma bu, o demək deyil ki, biz bunu ictimaiyyət qarşısına çox yaramaz formada çıxarmağa başlayaq. Bu bizim iş prinsiplərimizə ziddir. Belə hallar, ümumiyyətlə, cəmiyyətə çox yanlış bir mesaj göndərir. Kimsə açıq, kimsə gizli formada müəyyən hallarda bəzi kütləvi informasiya vasitələrini də bu işlərə cəlb edərək, bir-biri ilə mübarizə aparmaq istəyirlər. Hökumət üzvü məmurdur, siyasətçi deyildir. Mübarizə aparmaq istəyirsinizsə, buna çox gözəl qanuni yol var. O da ki siyasətə qoşulmaq, vəzifədən getməkdir. Kim istəyir, bu yol açıqdır. Kim siyasətlə məşğul olmaq istəyir, məşğul olsun, görək, necə məşğul olacaq. İndi Azərbaycanda bu sahədə boşluq yaranıbdır. Prezident seçkilərindən sonra xüsusilə müxalifət özü-özünə vurduğu zərbədən hələlik ayıla bilmir. İndi müxalifət liderləri ancaq xarici səfərlərdə özlərinə təsəlli tapırlar. Yaxud da xarici

ölkələrdə boynuna bant bağlayaraq mitinqlərdə çıxışlarda. Hünəri varsa, gəlsin bir dəfə mitinq təşkil etsin, özü də çıxış etsin. Bu, mümkün deyildir. Azərbaycan xalqı bu cür müxalifətdən artıq bezibdir (52).

DÜNYA LİDERLƏRİ GÜCLƏNƏN AZƏRBAYCANIN UĞURLARINA YÜKSƏK DƏYƏR VERİR

«Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər».
Heydər Əliyev

«Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir».
Heydər Əliyev

«Yeniləşib islahatlara duruş gətirən xalqın parlaq gələcəyi var».
Konstantin Kavelin



BEŞİNCİ FƏSİL
UKRAYNADA «NARINCI» İNQİLAB: AZƏRBAYCAN MÜXALİFƏTİ «TOY GENERALI» ROLUNDA

«Özünü olduğu kimi qəbul etmək istəməyən
yeganə varlıq insandır».
A.Kamyu

«Pis əxlaq yaraya oxşayır, sağalsa da izi qalır».

Sokrat

Prezident İlham Əliyevin 2004-cü ilin dekabrında Nazirlər Kabinetinin iclasında ölkə müxalifətinin vəziyyəti barədə söylədiyi fikirlər həmin vaxt bütövlükdə cəmiyyət üçün aktual olan sualı özündə ehtiva edirdi. Həqiqətən də Azərbaycan kimi kiçik bir ölkədə özünə minimal elektoral dəstək qazanmayan (xalq məsəli ilə desək, «özünə umac ova bilməyən») müxalifətin böyük geosiyasi güclərin üz-üzə gəldiyi Ukrayna seçkilərinə «siyasi desant» ezam etməsi hansı məntiq və motivdən irəli gəlirdi?

Əslində burada normal məntiqdən danışmaq yersiz idi. Ukraynadakı prezident seçkiləri əvvəldən ABŞ başda olmaqla Qərbin Rusiya ilə yüksək səviyyəli (hər iki tərəfdən birinci şəxslərin iştirakı ilə) geosiyasi çəkişməsi ilə müşayiət olunurdu və bu fonda Azərbaycanın müxalifət rəhbərinin Kiyevə gedərək Ukrayna müxalifətçilərinə dəstək ifadə etməsi ikincilər üçün əhəmiyyət kəsb etməyən bir epizod idi. Ən azı ona görə ki, onlar qələbə üçün zəruri dəstəyi artıq ABŞ və Avropanın liderlərindən şəxsən almışdılar. Digər tərəfdən, Müsavat başqanı İsa Qəmbər Ukrayna müxalifətinin lideri Viktor Yuşşenkoya «dəstək verməyə» gedəndə (noyabrın sonu) orada siyasi mübarizənin taleyi artıq həll edilmişdi: seçkinin ikinci turu ləğv olunmuşdu və təkrar səsvermədə müxalifətin qələbəsi şübhə doğurmurdu.

Odur ki, bu məsələdə yalnız siyasi motivdən, özü də seçkinin de-fakto qalibi olan Yuşşenko və tərəfdarları üçün deyil, məhz Azərbaycan müxalifətçiləri üçün önəmli olan motivdən danışmaq düzgün olardı. İsa Qəmbərin yaxasına narıncı bant taxıb Kiyevdəki «Müstəqillik meydanı»ndakı kütlə qarşısında çıxış etməsi və müsavatçıların bununla bağlı burada böyük siyasi şou düzəltməsi məqsədli siyasi konyukturdan savayı bir şey deyildi. Çünki gerçəkdə Müsavat lideri Ukrayna paytaxtına kiməsə dəstək vermək üçün yox, özünü göstərmək və əgər mümkün olarsa, perspektiv üçün müəyyən dəstək qazanmaq məqsədilə getmişdi.

Həmin vaxtlar beynəlxalq dairələrin diqqətinin Kiyevdə olduğunu, xarici telekanalların «Müstəqillik meydanı»ndakı mitinqləri canlı yayımladığını nəzərə alsaq, Qəmbər üçün, bir neçə saniyə də olsa, həmin telekanallarda gözə dəymək mühüm şəxsi piar aktı idi. Vaxtilə çar Rusiyasında tacirlər öz toylarına təmtəraq vermək üçün istefada olan generalları pulla dəvət edərdilər və onlar da gəlib bir-iki kəlmə ilə «təzəbəyi» tərifləyər, necə deyərlər, qonaq-qara qarşısında ona dəstək nümayiş etdirərdilər. Müasir dövrdə «toy generalı» ifadəsi siyasətdə hansısa şəxsə piar-dəstək kampaniyası ilə bağlı geniş istifadə olunur. Bu baxımdan Müsavat lideri və ümumilikdə bizim müxalifətçilər Ukraynadakı seçkilərdə «toy generalı» rolunda çıxış etməyə dəvətsiz-filansız, özləri can atırdılar ki, bəlkə bu əsnada onların da, necə deyərlər, siyasi bəxti açıla və adları hansısa dairələrin qeyd dəftərinə düşə.

Ümumiyyətlə, Gürcüstandakı «qızılgül» inqilabından sonra bizim müxalifətin postsovet məkanındakı siyasi proseslərə diqqəti birə beş artmışdı, müxalifət qəzetləri hər gün hansısa ölkədən «məxməri» xəbərlər verirdilər. Yəni onların siyasi azarkeşliyi təkcə Ukrayna ilə məhdudlaşmırdı. Hətta Ermənistan müxalifətinin «məxməri» inqilab planları da bizim müxaliflər üçün siyasi pərəstiş mövzusu idi. Təsadüfi deyil ki, 2004-cü ilin

aprelində Ermənistanda müxalifətlə hakimiyyət arasında meydana gələn toqquşmalar müxalifət qəzetlərində ayrı bir həvəslə işıqlandırılırdı. Qeyd olunurdu ki, erməni müxalifətçilərin gürcü həmkarlarının təcrübəsindən yararlanması nəticə etibarilə Azərbaycanda da «məxməri» dəyişiklikləri qaçılmaz edəcək.

Yeri gəlmişkən, 2004-cü ilin yazında Ermənistanda siyasi münasibətlər açıq qarşıdurma halına keçəndə bir sıra Qərb dairələri də postsovet məkanındakı «məxməri» inqilab qatarının növbəti dayanacağının bu ölkə ola biləcəyinə dair fikirlər səsləndirirdilər. Həmin qarşıdurma Ermənistanda 2003-cü ildə keçirilmiş prezident və parlament seçkilərinin siyasi epiloqu sayılırdı. Məlum olduğu kimi, Ermənistan Konstitusiya Məhkəməsi 2003-cü ilin martında mübahisəli seçki əsasında ikinci müddətə seçilmiş Robert Koçaryanın prezidentliyini təsdiqləyərkən bir il sonra hakimiyyətə etimad referendumunun keçirilməsini tövsiyə etmişdi. Lakin elə o vaxt bəlli idi ki, referendum barədə qərar hakimiyyətin radikal opponentlərini nisbətən sakitləşdirmək məqsədi güdürdü.

Nəticədə Koçaryan bu tövsiyəni qulaqardına vurdu, 2004-cü ilin yazında Ermənistan müxalifətinin referendum tələbli «məxməri» aktivliyi isə bir nəticəyə varmadı. Bunun isə iki mühüm səbəbi vardı: əvvəla, erməni müxalifəti dağınıq idi, güclü xarizmatik liderdən məhrum idi, digər tərəfdən, Koçaryanın o vaxtkı opponentləri əksəriyyət etibarilə rusiyameylli qüvvələrdən ibarət idi ki, onlara da Qərbin (Amerikanın) real dəstək verməsi mümkün deyildi. Kreml üçün isə onunla məhrəm olan Koçaryan hakimiyyətini özünə sadiq başqa hakimiyyətlə əvəzləməyin praktik lüzumu yox idi. Bu nəticə isə Ermənistanın Rusiyanın tam nəzarəti altında («forpost») olmasından irəli gələn bir reallıq idi və Qərb dairələri bu ölkə uğrunda, Gürcüstandakı, yaxud sonradan Ukraynadakı kimi, Rusiya ilə açıq geosiyasi mübarizəyə girişməyin perspektivsiz olduğunu başa düşürdülər.

Məhz buna görə də müxalifətin impulsiv çıxışlarından o qədər də narahatlıq keçirməyən Koçaryan bəyan etmişdi ki, erməni müxalifəti qonşuluqdakı «qızılgül» inqilabından ruhlansa da, yaddan çıxarır ki, Ermənistan Gürcüstan deyil.

Qərbin nəzər-diqqətində qalan, lakin real «məxməri» inqilab potensialı olmayan ikinci postsovet ölkəsi isə Rusiyanın başqa bir «forpostu» - Belarus idi. Buna görə Qərb dairələri Ukraynadakı proseslərə bilavasitə müdaxilə etməzdən öncə Belarusdakı vəziyyəti bir daha zondac etmək qərarına gəlmişdilər. 2004-cü ilin oktyabrında Belarusda parlament seçkiləri, həmçinin konstitusiyaya dəyişiklik üzrə (prezident Aleksandr Lukaşenkonun üçüncü müddətə seçilə bilməsi üçün) referendum gözlənilirdi. Bu ərəfədə Belarus müxalifətinə geniş dəstək kampaniyasına başlayan ABŞ ilk dəfə prezident Lukaşenkonu hakimiyyətdən uzaqlaşdırmaq niyyətini açıq elan etmişdi. Avqustda ABŞ Senatında Lukaşenko hakimiyyətinə qarşı ciddi sanksiyalar nəzərdə tutan «Belarusda demokratiya aktı» layihəsi qəbul olunmuş, həmin sənədə əsasən, Belarus müxalifətinə müxtəlif proqramlar üzrə 40 milyon dollar yardım ayrılmışdı. Sənəd Senatda qəbul olunarkən onun müəlliflərindən biri, senator Con Makkeyn Lukaşenko hakimiyyətinin beynəlxalq sanksiyalar hesabına devrilməsinə nail olacaqlarını vurğulamışdı. Lakin Rusiyanın Belarus hakimiyyətinə arxa durması (o cümlədən güzəştli iqtisadi əlaqələrlə), zəif Belarus müxalifətinin isə ona ayrılan pulları «göyə sovurması» bu planları mümkünsüz etdi. Referendumla konstitusiyanı dəyişdirən Lukaşenko isə daha sonra (2006-cı ilin martında) üçüncü müddətə prezident seçildi.

Belarusdakı uğursuz sınaq testindən sonra Qərbin diqqəti bütünlüklə Ukraynaya yönəldi. Çünki bu ölkə Qərb-Rusiya nüfuz çəkişməsində, Avropa Birliyinin, NATO-nun Şərq sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi, habelə alyansın gələcək genişlənməsi perspektivləri baxımından müstəsna strateji














































Republic of Azerbaijan








AZERBAIJAN














AZ10

















HAYDAR
ALİYEV
TERMİNALİ
btc


ORGANIZATION FOR DEMOCRACY
G U A M
AND ECONOMIC DEVELOPMENT
SUMMIT
BAKU
18-19 JUNE 2007


GUAM
ORGANIZATION FOR DEMOCRACY




BSEC
15th ANNIVERSARY SUMMIT
KEİ
15. YIL ZİRVESİ
25th June 2007
İSTANBUL

















TU-154M


HAYDAR
ALİYEV






















önəm kəsb edirdi. Əslində Qərb Rusiyanın postsovet məkanında sıxışdırılması ilə müşayiət olunan ilk «məxməri» uğura Gürcüstanda nail olsa da, onun Moskva ilə əsas geosiyasi mübarizə meydanı məhz Ukrayna idi. Gürcüstandakı olaylarda Rusiyanın elə bir siyasi dayağı (rusiyayönlü müxalifət) olmadığı üçün burada onun Qərbə (Amerikaya) məğlubiyyəti labüd idi. Digər yandan, Ukrayna həm coğrafi miqyası (Avropanın ərazicə ən böyük ölkəsi), həm də nəhəng iqtisadi resurslarına görə qat-qat geniş mübarizə meydanı idi və onun nəzarətə götürülməsi nəticə etibarilə Moskvanın postsovet məkanında küncə sıxılması demək olardı. Bununla yanaşı, Rusiyanın da Ukraynadakı güclü dayaqları (50 milyonluq əhalinin təxminən beşdə birini təşkil edən rus icması, ölkə iqtisadiyyatının üçdə ikisini əhatə edən Şərqi Ukraynanın Rusiya ilə sıx bağlılığı, nəhayət, rusiyameylli mütəşəkkil siyasi qüvvələr) bu mübarizənin nə dərəcədə güzəştsiz olacağını təsəvvür etməyə imkan verirdi. Bir sözlə, Moskva da Qərblə çəkişməyə çoxdan hazırlıq görürdü.

Hələ 2003-cü ildə Rusiya postsovet məkanındakı geosiyasi rəqabətin artan miqyasını diqqətə alaraq Ukraynaya yönəlik təşviq jestlərinə başlamışdı. 2003-cü ilin yanvarında MDB-nin Kiyevdə keçirilən növbəti sammitində Rusiya qurumda təkbaşına sədrliyə son qoyaraq bu missiyanı Ukrayna prezidentinə vermişdi. Leonid Kuçmanın MDB dövlət başçıları Şurasına sədr seçilməsini şəxsən təklif edən prezident Vladimir Putin bunu rotasiya prinsipi (halbuki ona 1992-ci ildən əməl olunmurdu) və birlik daxilində inteqrasiya və qarşılıqlı etimad atmosferini gücləndirmək istəyilə izah etmişdi. Gerçəkdə isə bu addım hər şeydən öncə Ukrayna başda olmaqla MDB ölkələrinin Qərbə meyllənməsini neytrallaşdırmaq niyyəti daşıyırdı. üstəlik bu o dövrə təsadüf edirdi ki, Ukrayna rəhbərliyi Qərbin, ilk növbədə ABŞ-ın ciddi tənqid və qınaq ünvanına çevrilmişdi. Odur ki, Moskvanın bu jestləri Kiyev tərəfindən də adekvat qarşılandı, tezliklə Ukrayna Rusiyanın

xeyli vaxtdan bəri lobbiləşdirdiyi Avrasiya İqtisadi Birliyinə üzv olmağa razılıq verdi. Buna paralel olaraq Ukraynanın Vaşinqtonun xüsusi önəm verdiyi GUAM regional əməkdaşlığından soyuması nəzərə çarpırdı.

Təbii ki, bu gedişat ABŞ-ı, eləcə də Ukraynaya yönəlik uzağagedən planları olan Avropa Birliyini qane edə bilməzdi. Hərçənd Kuçma hakimiyyəti dövründə Ukrayna ümumilikdə Qərblə Rusiya arasında strateji tarazlığı gözləyən bir siyasət yeritmişdi. 1994-ci ildə Ukrayna hərbi-sənaye kompleksinin nümayəndəsi və Rusiya ilə sıx əlaqəli şəxs kimi tanınan Kuçma prezident seçilərkən Qərbdə bir çox dairələr onun Moskvanın diqtəsi ilə oturub-duracağını güman edirdi. Lakin, bunun əksinə olaraq, Kuçmanın dövründə Ukrayna xarici siyasət prioritetləri kimi Avroatlantik məkana inteqrasiyanı elan etdi, postsovet məkanında Moskvanın qarşı çıxdığı regional inteqrasiya proseslərində (o cümlədən GUAM-ın yaradılmasında) aparıcı rol oynadı, bununla yanaşı, Rusiya ilə də sıx tərəfdaşlıq münasibətlərini saxladı.

Lakin 2002-ci ilin sonundan Kuçmanın Qərblə, o cümlədən ABŞ-la münasibətləri pisləşməyə başladı. O vaxt və sonralar bunun bir neçə səbəbi göstərilirdi. Əvvəla, Gürcüstan rəhbəri Şevardnadze kimi, Kuçma da hakimiyyətinin sonuna doğru Rusiyanın təzyiqləri qarşısında geriləməyə başlamışdı. Bundan əlavə, ölkədaxili siyasi proseslər Kuçma üçün arzuolunmaz istiqamətdə cərəyan edirdi. 2000-ci ildə müxalifyönlü jurnalist, «Ukrainskaya pravda» internet-qəzetinin redaktoru Qriqori Qonqadzenin müəmmalı şəkildə qətlə yetirilməsi ilə bağlı Kuçma hakimiyyətinə qarşı ittihamlar, Baş nazirin keçmiş müavini Yuliya Timoşenkonun liderlik etdiyi radikal müxalifətin «Kuçmasız Ukrayna» kampaniyası bu vaxt daha geniş vüsət almışdı. Timoşenko 2001-ci ildə Baş nazirin (həmin vaxt Baş nazir postunu Viktor Yuşşenko tuturdu) müavini vəzifəsindən azad edilmiş və qaz maxinasiyalarında ittiham olunaraq həbs

edilmiş, lakin məhkəmədə bəraət alaraq azadlığa çıxmışdı. Kuçmaya qarşı kampaniyaya Qərb dairələri və insan haqları təşkilatları da dəstək verirdi. Müxalifətin Kuçmanın mühafizə xidmətinin keçmiş əməkdaşı vasitəsilə əldə etdiyi bir audiokasetdə onun daxili işlər nazirinə jurnalistin aradan götürülməsini tapşırdığı iddia olunurdu. Ukrayna prezidenti bunu qəti rədd etsə də, ABŞ və Avropa ekspertləri kasetin qurama olmadığı və orada Kuçmanın səsinin təsbit edildiyi qənaətinə gəlmişdi. Hətta 2002-ci ilin noyabrında Kuçmanın NATO-nun Praqa sammitində iştirakına razılıq verilməməsi gündəmə gəlmişdi. Onu da qeyd edək ki, «Qonqadze məsələsi» sonradan bir sıra məhkəmə prosedurlarından keçsə də, qətlin sifarişçiləri indiyədək aşkarlanmayıb. Bu cinayət işi üzrə əsas şahidlərdən sayılan keçmiş DİN rəhbəri Yuri Kravçenko isə artıq «narıncı» hakimiyyətin dövründə, 2005-ci ilin martında dünyasını dəyişdi. Onun intihar etdiyi, yoxsa öldürüldüyü müəmmalı olaraq qalır.

Yeri gəlmişkən, həmin dövrdə Ukrayna müxalifətinin daha mötədil lideri olan Yuşşenko Kuçmaya qarşı bu sərt kampaniyada faktiki iştirak etmirdi. Kuçma hakimiyyətində yüksək postlar tutmuş (1994-1999-cu illərdə Ukrayna Mərkəzi Bankının rəhbəri, 1999-2001-ci illərdə Baş nazir) Yuşşenko müxalifətə keçəndən sonra da prezidentlə siyasi dialoq körpülərini yandırmamışdı. Digər tərəfdən, Kuçma özü zamanında Yuşşenkoya az dəstək verməmişdi. 1999-cu ilin yayında Ukrayna parlamenti Yuşşenkoya Mərkəzi Bankın rəhbəri kimi etimadsızlıq göstərəndən sonra Kuçma onu diqqətdən kənar qoymamış, əvvəlcə özünün prezidentlik kampaniyasının (1999-cu ilin oktyabrında keçirilən seçkilərdə) əsas fəallarından biri etmiş, seçkilərdən sonra isə Baş nazir təyin etmişdi. Yuşşenkonun prezidentlə fikir ayrılığı və 2001-ci ilin aprelində istefası da şəxsi-qərəzliklə deyil, ölkədə islahatların aparılmasına Kuçmanın mühafizəkar ətrafının maneə yaratması

ilə bağlı idi. İstefadan sonra onun mötədil müxalifətdə dayanması Timoşenko başda olmaqla radikal müxaliflərin narazılığın doğurmuş, hətta onlar Yuşşenkonu Kuçma ilə əlbir olmaqda ittiham etmişdilər. Yuşşenko isə məhz konstruktiv müxalifətçiliyi ilə həmkarlarından fərqli olaraq daha geniş sosial baza qazandı, 2002-ci ilin martındakı parlament seçkilərində onun «Bizim Ukrayna» bloku 450 nəfərlik Ali Radada yerlərin dörddə birini qazanaraq parlamentin ən iri fraksiyası və əsas müxalifət qüvvəsi oldu.

Qərb dairələri artıq o vaxtdan Yuşşenkoya Ukraynanın potensial gələcək lideri kimi göz qoymağa başlamışdılar. Yuşşenkonun xüsusilə Vaşinqtonla sıx münasibətləri vardı və bu işdə onun həyat yoldaşı, ABŞ Dövlət Departamentinin keçmiş əməkdaşı Katerina Çumaçenko (onun ailəsi vaxtilə Qərbi Ukraynadan Amerikaya mühacirət edib) müstəsna rol oynayırdı. Hələ Baş nazir postunda ABŞ-a hər səfərində xüsusi mehribanlıqla qəbul edilən Yuşşenko müxalifət lideri kimi də Vaşinqtonda tez-tez arzuolunan qonaq idi. Bəzi məlumatlara görə, Amerika dairələri, o cümlədən keçmiş dövlət katibi Madlen Olbrayt prezident Kuçma ilə qeyri-rəsmi söhbətlərdə ona Yuşşenkonu özünün siyasi varisi elan etməyi tövsiyə etmiş, lakin Kuçma buna razılaşmamışdı. Bununla belə, Kuçma 2003-cü ildə Rusiyaya doğru nəzərə çarpacaq şəkildə meyllənməklə yanaşı, ABŞ-la münasibətləri də xilas etməyə cəhd göstərmişdi. ABŞ-ın İraqa sülhməramlı kontingent göndərmək barədə çağırışına birincilər sırasında səs verən Ukrayna bu ölkəyə 1600 hərbçi göndərmişdi. Lakin 2004-cü ilin əvvəlində Ukraynanın vaxtilə İraq lideri Səddam Hüseynlə gizli hərbi əməkdaşlığına («Kolçuqa» raket sistemləri satması) dair faktların üzə çıxması ilə ABŞ Kuçmadan tamamilə üz döndərdi.

Ona yönəlik ittihamları rədd edən Kuçma cavab addımı kimi Qərblə münasibətlərdə tədricən «körpüləri yandırmağa» başladı. Prezident seçkiləri kampaniyasının start götürdüyü bir

vaxtda (iyul 2004) Kiyevin NATO və Avropa Birliyinə inteqrasiya ilə bağlı strateji xəttinin dəyişdiyi elan edildi. Halbuki Ukraynanın Avropa və Avroatlantik məkana inteqrasiya niyyətini əks etdirən hərbi doktrinası ondan az öncə qəbul olunmuşdu. Ən maraqlısı isə o idi ki, bu sensasiyalı xəbər Kuçmanın Rusiya prezidenti ilə növbəti görüşündən sonra bəyan edilmişdi.

Prinsipcə Kuçmanın Qərblə münasibətlərinin pisləşməsi onun siyasi karyerası üçün heç nə kəsb etmirdi, çünki səlahiyyət müddəti 2004-cü ilin oktyabrında başa çatacaqdı. Eyni zamanda, o, prezidentlikdən sonra aktiv siyasətdə olmayacağını bir neçə dəfə, o cümlədən 2004-cü ilin fevralında parlament və hökumətin səlahiyyətlərinin genişləndirilməsi və Ukraynanın prezident-parlament respublikasına çevrilməsi barədə konstitusion islahatlar paketi qəbul olunarkən (müxalifət iddia edirdi ki, Kuçma bu dəyişiklik sayəsində gələcəkdə Baş nazir olmağa hazırlaşır) nəzərə çatdırmışdı. Bununla yanaşı, Kuçma seçki kampaniyasının lap əvvəlində öz rəğbətini açıq bildirərək prezident postunda Baş nazir Viktor Yanukoviçi görmək istədiyini bildirmiş və bununla de-fakto qızğın siyasi mübarizənin tərəfinə çevrilmişdi.

Beləliklə, Ukraynada prezident seçkilərinə start verildi və seçkilər 2004-cü il oktyabrın 31-nə təyin olundu. Hakimiyyətin yeganə namizədi kimi seçki yarışına Baş nazir Viktor Yanukoviç qoşulmuş, ona əsas rəqib kimi «Bizim Ukrayna»nın lideri Viktor Yuşşenko çıxış edirdi. Ümumilikdə seçkidə prezidentliyə 20-dən çox iddiaçı iştirak edirdi. Radikal sağ müxalifətin aparıcı siması olan Yuliya Timoşenkonun («Batkovşina» partiyası) Yuşşenkoya dəstək verməsi ikincinin müvəffəqiyyət imkanlarını xeyli artırırdı. Yanukoviç 2002-ci ildən Baş nazir olsa da, onun arxasında konkret mütəşəkkil siyasi təşkilat deyil, sadəcə, hakimiyyətə yaxın partiya və blokların yaratdığı ümumən amorf ittifaq dayanmışdı. Yuşşenko isə müxalifətin əsas qüvvələrini bir

araya gətirməyə (üzdə olan qüvvələrdən yalnız kommunistlər və sosialistlər bu bloka qoşulmamışdı) nail olmuşdu. Digər tərəfdən, Yuşşenkonun bloku seçkilərə geniş maddi-texniki və informasiya resursları ilə (o cümlədən Yuşşenkonun yaxın dostu, iri biznesmen Pyotr Poroşenkonun «Kanal-5» televiziyası müxalifətin xidmətində idi) girmişdi, üstəlik həm Yuşşenkonun, həm də Timoşenkonun dünənəcən hakimiyyətdə yüksək post tutmaları onların iqtidar düşərgəsi ilə gizli əlaqələrini də təmin edirdi.

Bununla belə, yuxarıda qeyd etdiyimiz kimi, Ukraynadakı seçki yarışı əvvəldən Qərblə Rusiyanın qızğın geosiyasi çəkişməsi fonunda cərəyan edirdi və bu baxımdan kampaniya ilk gündən konkret namizədlərin mübarizəsindən çox onların arxasındakı güclərin rəqabəti təsiri bağışlayırdı. Təsadüfi deyil ki, əksər müşahidəçilər ilk gündən Ukraynadakı seçki yarışını Şərq (Rusiya) və Qərb arasında strateji seçim kimi qiymətləndirirdilər. Baş nazir Yanukoviçi şərqi Ukrayna elektoratı və Rusiya, Yuşşenkonu isə qərbi Ukrayna və Avropa-ABŞ dəstəkləyirdi. Faktiki olaraq Ukrayna elektoratı iki yerə bölünmüşdü. Rəy sorğuları hər iki namizədin şanslarını təxminən bərabər qiymətləndirirdi. Odur ki, mübarizənin ikinci tura qalacağı və mütəşəkkillik (o cümlədən xarici dəstək) baxımdan daha üstün olan tərəfin qələbə çalacağı təxmin edilirdi.

Ukrayna seçkiləri Azərbaycanda da maraqla izlənilirdi. Lakin, yuxarıda qeyd etdiyimiz kimi, bizim müxalifət ilk gündən bu prosesə anormal bir siyasi azarkeşliklə yanaşaraq tam ifrata varmışdı. Müxalifət qəzetlərindəki gen-bol yazılardan, düşərgə təmsilçilərinin qızğın çıxışlarından belə qənaətə gəlmək olardı ki, sanki bu seçkilər Ukraynada yox, Azərbaycanda keçirilir və seçiləcək şəxs də Ukraynanın deyil, bizim ölkənin prezidenti olacaq. Bu baxımdan Müsavat xüsusi canfəşanlıq göstərirdi. 2002-ci ildə «Bizim Ukrayna» bloku ilə imzalanmış əməkdaşlıq sazişini əldə rəhbər tutan Müsavat təmsilçilərinin ifrat

azarkeşliyi o həddə çatmışdı ki, onlar Yuşşenkonun Ukraynada hakimiyyətə gəlməsini nəticə etibarilə Qəmbərin də Azərbaycanda iqtidara gələcəyinə bərabər tuturdular. Halbuki bu cür partiyalararası əməkdaşlıq sazişləri adətən formal xarakter daşıyır və onlardan siyasi divident qazanmaq cəhdi sadəlövhlükdür. Təsadüfi deyil ki, Yuşşenko hakimiyyətə gələndən sonra onun blokunun nə vaxtsa Azərbaycanın bir partiyası ilə saziş imzaladığı yada düşmədi, Ukrayna prezidenti isə 2006-cı ildə Bakıya səfəri zamanı keçmiş «siyasi tərəfdaşı» ilə görüşməyə heç həvəs də göstərmədi.

2004-cü ildə isə «Yeni Müsavat» qəzetində Ukrayna seçkiləri barədə az qala hər yazı Yuşşenko və Qəmbərin birgə fotoşəkli ilə müşayiət olunurdu. Hələ özlərinin bu ifrat azarkeşliyi azmış kimi, müsavatçılar və ümumilikdə müxalifət düşərgəsi Azərbaycan hakimiyyətini Ukrayna iqtidarına və Baş nazir Yanukoviçin namizədliyinə dəstək verməkdə ittiham edirdilər. Bu baxımdan prezident İlham Əliyevin 2004-cü ilin iyununda Ukraynaya rəsmi səfəri müxalifətdə xəstəhal bir etiraz doğurmuşdu: «Artıq Ukrayna rəhbərliyi kimi, Azərbaycandakı hakimiyyət də Baş nazir Yanukoviçin təbliğinə girişib. Aşkar görünür ki, rejim Kuçmanın siyasi varisinin onu əvəzləməsində maraqlıdır» (53).

Müsavat liderinin Ukraynanın gələcək prezidenti yanında «yerini isti etməsi», təbii ki, digər müxalifət rəhbərlərini də laqeyd qoya bilməzdi və onlar da imkan daxilində bu azarkeşlikdə geri qalmamağa çalışırdılar. Üstəlik bəziləri öz dəyərləndirmələrində olduqca bəsit siyasi möhtəkirliyə yol verirdilər. Məsələn, AXCP lideri Əli Kərimli Yuşşenkonun hakimiyyətə gəlməsinin zəruriliyini belə izah edirdi ki, Ukraynada vaxtilə «Kravçukun (Ukraynanın birinci prezidenti – red.) iqtidarı zamanı genişləndirilmiş demokratik azadlıqların Kuçma hakimiyyəti dövründə məhdudlaşdırılması prosesi gedib»,

odur ki, həmin azadlıqların bərpası üçün bu ölkədə hakimiyyətin dəyişməsi vacibdir (54).

Lakin «cəbhəçi» lider bir gerçəyi gözardı edirdi (bəlkə də bundan xəbərsiz idi) ki, onun tərif dediyi «demokrat Kravçuk» nədənsə seçkilərdə Yuşşenkonu deyil, bizim müxalifətçilərin «antidemokrat və korrupsioner» damğası vurduğu Baş nazir Yanukoviçi müdafiə edirdi. Rəsmi Bakının Ukraynadakı seçkilərə münasibətinə gəldikdə isə, Azərbaycan prezidenti əvvəldən zəruri diplomatik etiket və dövlətlərin bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə riayət edərək bu yöndə hər hansı rəğbət və ya mövqe (o cümlədən bilavasitə seçkilər öncəsi, oktyabrın 28-də Kiyevin faşistlərdən azad olunmasının 60-cı ildönümünə həsr olunmuş təntənələrdə iştirakı zamanı) nümayiş etdirmədi. Digər tərəfdən, ölkə rəhbərliyi, bizim illüzor müxalifətdən fərqli olaraq, yaxşı başa düşürdü ki, qlobal geosiyasi rəqabət fonunda cərəyan edən Ukrayna seçkilərinə Azərbaycanın (yaxud bizim kimi digər ölkənin) müdaxiləsi, sadəcə, mənasızdır.

Ukrayna seçkilərinin arxasındakı xarici güclər isə ilk gündən aktiv mübarizəyə qoşulmuşdular. Hərçənd bu xüsusda Qərblə Rusiyanın hərəkətlərində prinsipial fərqlər vardı. Qərb, özəlliklə ABŞ Yuşşenkonun hakimiyyətə gəlməsinə tərəfdar olduğunu gizlətməməklə bərabər, eyni zamanda, mövqeyini rəsmi tərzdə deyil, incə siyasətlə və praktik addımlarla həyata keçirirdi. Prezident Buş hələ kampaniyanın əvvəlində Ukrayna rəhbəri Kuçmaya məktub göndərərək ondan şəffaf və ədalətli seçki şəraiti gözlədiyini birmənalı diqqətə çatdırmışdı. Bundan əlavə, ABŞ Konqresində Ukraynada demokratik proseslərə dəstəklə bağlı qətnamə qəbul edilmiş, həmçinin Avropa Birliyi rəsmiləri də prezident Kuçmaya seçkilərin demokratikliyini təmin etmək çağırışları etmişdilər. Qərb dairələri və siyasi texnoloqları «Bizim Ukrayna»nın gənclər təşkilatı olan «Pora» hərəkatına «narıncı» simvolika təchizatından tutmuş kütləvi siyasi pressinqlərin

incəliklərinədək hərtərəfli (o cümlədən serb gənclərinin «Otpor» və gürcülərin «Kmara» təşkilatları vasitəsilə) kömək göstərirdilər. Qərbin Ukraynaya təşviqat desantı isə əsasən qeyri-rəsmi nümayəndələrdən, ABŞ-ın sabiq dövlət katibi, Milli Demokratiya İnstitutunun rəhbəri Madlen Olbrayt, ayrı-ayrı konqresmenlər, eləcə də «məxməri» layihələrin əsas sponsorlarından sayılan Corc Soros kimi fiqurlardan ibarət idi. Yeri gəlmişkən, Sorosun seçkilər ərəfəsində Kiyevə səfəri qalmaqalla müşayiət olunmuş, Kuçma onunla görüşdən imtina etmiş, Yanukoviç tərəfdarları və kommunistlər isə onu «qatıqla qarşılamışdılar».

Bu fonda Moskvanın Ukraynadakı seçkilərə müdaxiləsi açıq-aşkar və forma etibarilə yöndəmsiz idi. Seçki kampaniyasının əvvəlindən sonunadək Rusiyanın dövlət televiziyası başda olmaqla əksər KİV, Dövlət Dumasının deputatları, politoloqlar, hətta qismən XİN əməkdaşları «Ukrayna uğrunda mübarizə»nin ön cəbhəsinə atılaraq Yanukoviçin xeyrinə və Yuşşenkonun əleyhinə kampaniyaya yüsət vermişdilər. Bu tərzdə aşkar tərəfkeşlik Ukrayna cəmiyyətində Moskvanın hərəkətlərindən narazılıq doğurmağa başlamışdı. Bu baxımdan Moskvanın Yanukoviçə dəstəyi daha çox, bir rus məsəlində deyildiyi kimi, «ayı xidməti» idi.

Siyasi tarixdə bu cür «xidmət»lərin acı nəticəsi barədə misallar çoxdur. Uzaq 1888-ci ildə Amerikada keçirilən prezident seçkiləri zamanı baş vermiş bir hadisə bu baxımdan xüsusilə ibrətamizdir. Həmin seçkilərdə iki namizəd – demokrat Klivlend və respublikaçı Harrison gərgin raqabət apararaq yarışın sonunadək başabaş getmişdilər. Kampaniyanın sonuna az qalmış Harrisonun seçki qərargahının üzvləri siyasi fəndə əl atmaq qərarına gəlirlər. Onlardan biri, yenicə ABŞ vətəndaşlığı almış keçmiş britaniyalı Vaşinqtondakı ingilis səfirinə məktub yazır və ondan soruşur: «Bir ingilis olaraq mənim üçün çox maraqlıdır: mənim keçmiş vətənim Britaniya üçün Amerika

seçkilərində hansı namizədin qalib gəlməsi daha arzuolunandır?». Britaniya səfiri Layonel Sekvil-Uest, təbii ki, keçmiş həmyerlisinin sualını səmimi qəbul edir və ona cavabında bildirir ki, London üçün seçkilərdə demokrat Klivlendin qələbəsi arzuolunandır. Səhərisi səfirin cavab məktubu qəzetlərdə dərc olunur və Britaniya diplomatının Amerikanı hələ də keçmiş müstəmləkə kimi görən, imperiya ambisiyalı fikirləri seçicilər arasında böyük etiraz doğurur. Nəticədə ingilis səfirin «namizədi» Klivlend seçkilərdə böyük fərqlə məğlub olur.

Görünür, Ukraynadakı seçkilər zamanı Moskva bu siyasi kuryozdan ya xəbərsiz olub, ya da onun keçmişdə qaldığını düşünüb. Gerçəkdə isə Rusiyanın müstəqil ölkənin seçki prosesinə saymazyana müdaxiləsi hətta Ukraynanın rusdilli əhalisi arasında da imperiyasayaq davranış kimi narazılıq doğururdu. Seçkilər ərəfəsində Kiyevə səfər edən prezident Putin Yanukoviçə olan simpatiyasını gizlətməmiş, hətta Ukrayna hökumətinin (yəni Yanukoviçin) nail olduğu yüksək iqtisadi inkişaf tempinin Rusiya üçün nümunə ola biləcəyini vurğulamışdı. Putinin səfəri zamanı, özü də seçkiyə bir gün qalmış (30 oktyabr) Rusiya və Ukrayna arasında vətəndaşların vizasız səfərlərinə dair hökumətlərarası sazişə dəyişikliklər edilməsi barədə protokol imzalanmışdı. Həmin sənədə görə, Ukrayna vətəndaşları (Rusiyaya qazanc dalınca gedənlər) Rusiya ərazisində 90 gün qeydiyyatsız yaşamaq hüququ əldə edirdi. Halbuki Rusiyaya gələn digər MDB ölkələrinin vətəndaşları üçün bu müddət 3 gün idi. Sözsüz ki, bu jestlər Ukrayna elektoratını Rusiyanın «namizədi»nə səs verməyə təşviq etmək məqsədi güdürdü. Onu da qeyd edək ki, sözügedən sənəd Ukraynada seçkilərin ikinci turu ərəfəsində tələsik Dövlət Dumasında ratifikasiya olunsa da, «narıncı» qüvvələrin hakimiyyətə gəlməsindən sonra Rusiya prezidenti tərəfindən imzalanmadı və arxivə verildi.

Qeyd etmək lazımdır ki, Ukraynada seçki kampaniyası son bir neçə həftəyədək ümumən sakit məcrada getmişdi və ilk baxışdan inqilab havası sezilmirdi. Ukrayna hakimiyyəti müxalifətin «məxməri» inqilaba hazırlaşması barədə ilk narahatlığını isə oktyabrın əvvəlində dilə gətirmişdi. Baş nazir Yanukoviç bildirmişdi ki, müxalifət 31 oktyabr seçkilərdən sonra «inqilab» planı hazırlayıb və hakimiyyət çevrilişini «Gürcüstan və Serbiya ssenarisi üzrə» həyata keçirmək istəyir: «Müxalifət seçkilərin nəticələrinin açıqlanacağı gecə MSK-nın qarşısında yarım milyon nəfərin iştirakı ilə mitinq keçirəcək və nəticələr müxalifəti qane etməsə, inqilabın sonrakı fazasına start veriləcək» (55).

Əslində sonrakı proseslər elə Yanukoviçin təxmin elədiyi istiqamətdə getdi. Kampaniyanın başa çatmasına bir həftə qalmış, oktyabrın 23-də müxalifət MSK-nın qarşısında böyük mitinq keçirdi. «Narıncı» izdiham qarşısında çıxış edən Yuşşenko əhalini «vicdanın səsinə qulaq asaraq səs verməyə» çağırdı. O, tərəfdarlarına səsvermə günü seçki məntəqələri bağlanana qədər oranı tərk etməməyi və seçki komissiyalarının protokollarının bir nüsxəsinin mütləq əldə etməyi tapşırdı. Yuşşenkonun çıxışından sonra mitinq bağlı elan edilsə də, kütlənin bir hissəsi MSK-nın qarşısından uzaqlaşmadı və bundan sonra oraya gəlmiş Yanukoviç tərəfdarları ilə «narıncı» mitinqçilər arasında toqquşma baş verdi, nəticədə 12 nəfər yaralandı (56).

Müxalifətin əvvəlcə MSK qarşısında, sonra isə Ali Rada və «Müstəqillik meydanı»nda yeni mitinq dalğası seçkilərin birinci turundan sonra başladı və faktiki olaraq «narıncı» inqilabın qələbəsinədək davam etdi. Oktyabrın 31-də keçirilmiş ilk turun rəsmi nəticələrinin elan olunmasının gecikməsi bir il öncə Gürcüstanda yaşanan vəziyyəti xatırladırdı. MSK-nın noyabrın 3-də açıqladığı natamam məlumata görə, Yanukoviç 39,9, Yuşşenko isə 39,2 faiz səs qazanmışdı. Üçüncü yeri tutan

sosialist Aleksandr Moroz 5,7, dördüncü olan kommunist Pyotr Simonenko isə 5 faiz səs toplamışdı. Qalan 20 namizədin göstəriciləri 1 faizdən az idi. Yuşşenko nəticələrlə razılaşmasa da, etiraf edirdi ki, seçkinin ikinci turu olmalıdır. Müxalifətin sorğu mərkəzləri isə, «exit-poll» nəticələrinə görə, Yuşşenkonun rəqibini ən azı 10 faiz üstələdiyini bildirirdi. Noyabrın 10-da MSK birinci turun rəsmi nəticələrini elan etdi. Həmin nəticələrə əsasən, Yuşşenko (39,8) Yanukoviçi (39,3) azacıq üstələmişdi. Birinci tur Ukrayna elektoratının həm siyasi, həm də coğrafi baxımdan ikiyə bölündüyünü nümayiş etdirdi: Yuşşenko və Yanukoviç səslərin böyük əksəriyyətini (80-90 faiz) müvafiq olaraq ölkənin qərb və şərq vilayətlərində qazanmışdılar, paytaxt Kiyevdə isə qeyri-müəyyənlik vardı.

Xarici müşahidəçilərdən yalnız MDB missiyası seçkidən ümumən razı qalmış, ATƏT və ABŞ pozuntuların, o cümlədən seçici siyahıları ilə bağlı manipulyasiyanın olduğunu bəyan etdi. Ölkə üzrə seçicilərin təqribən 10 faizi (Gürcüstanda olduğu kimi) adını səsvermə siyahılarında tapa bilməmişdi. Vaşinqton seçkilərin 2002-ci ilin parlament seçkilərinə nisbətən geriyə addım olduğunu bildirdi. Bununla belə, Qərb dairələri sərt ritorikadan çəkinərək ikinci turu gözləmək qərarına gəlmişdilər.

Noyabrın 21-nə təyin olunan ikinci tur öncəsi həm Yanukoviç, həm də Yuşşenko sosialistlərlə kommunistlərin elektoratını öz tərəfinə çəkməyə çalışırdı. Nəticədə ikinci buna qismən nail oldu. Qərbin Yuşşenkonun arxasında möhkəm dayandığını görən sosialistlərin lideri Moroz «Bizim Ukrayna blokuna yan aldı. Onun ardınca daha bir mərkəzçi namizəd, 2001-2002-ci illərdə baş nazir olmuş Anatoli Kinax tərəfdarlarını Yuşşenkonu dəstəkləməyə çağırdı. Bütövlükdə ikinci tura Yuşşenko komandası daha inamlı gedirdi.

İkinci turun MSK tərəfindən elan edilən nəticələrinə görə isə, qalib Yanukoviç elan olundu. Yanukoviçin 49,4, Yuşşenkonun 46,7 faiz səs topladığı bildirildi. Gözlənildiyi kimi, müxalifət

bunu rədd etdi və «narıncı» inqilabın son mərhələsinə start verildi. ABŞ, Avropa Birliyi, ATƏT seçkilərin nəticələrini tanımadıqlarını elan etdilər. AB ölkələri Ukrayna hakimiyyətinə siyasi etiraz olaraq Kiyevdəki səfirlərini müvəqqəti geri çağırdılar. ABŞ dövlət katibi Kolin Pauell vəziyyətin təcili aradan qaldırılmayacağı təqdirdə Ukraynaya qarşı sanksiyalar tətbiq olunacağını nəzərə çatdırmışdı: «Əgər Ukrayna hakimiyyəti təxirəsalınmaz tədbirlər görməsə, bunun çox ciddi fəsadları olacaq» (57).

Öz növbəsində Rusiyada bu çəkişmədə geri durmaq fikrində deyildi. Prezident Putin iki dəfə (noyabrın 21-də gecə və noyabrın 23-də, MSK-nın nəticələri elan etməsindən sonra) Yanukoviçi qələbə münasibətilə təbrik etmişdi. Onun ardınca MDB rəhbərlərindən Belarus, Qazaxıstan, Özbəkistan və Qırğızıstan prezidentləri də Yanukoviçə təbrik göndərmişdilər. Yeri gəlmişən, həmin günlərdə rəsmi Bakı əvvəlkitək siyasi rəğbət nümayişindən kənarda dayanaraq Ukraynanın daxili işlərinə müdaxilənin əleyhinə olduğunu nəzərə çatdırmışdı. «Ukrayna Azərbaycanın yaxın tərəfdaşıdır. Biz bu ölkə ilə münasibətləri həm ikitərəfli əsaslarla, beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdiririk. Azərbaycan Ukraynada sabitliyin olmasında maraqlıdır və bu ölkənin daxili işlərinə müdaxilənin və ona xarici təzyiq göstərilməsinin əleyhinədir. Biz ümidvarıq ki, böhrandan çıxış yolu tapılacaq», - deyə xarici işlər nazirinin müavini Araz Əzimov bildirmişdi (58).

Sözsüz ki, həm bütövlükdə Qərb, həm də Rusiya Ukrayna seçkiləri ətrafında çəkişməyə özlərinin bütün resurslarını (təşviqat-təbliğat, informasiya, maliyyə) qoymuşdular və bu mübarizədə birincinin faktiki üstünlüyü özünü göstərməli idi. Üstəlik mövcud vəziyyət Ukrayna iqtidarında ixtilaf və parçalanmaya rəvac vermişdi. Çünki hakimiyyətin Qərbin təzyiqlərinə dirənərək seçkinin nəticələrini təftiş etməməsi nəticədə ölkəni ağır fəsadlara düçar edə bilərdi. Onsuz da

seçkilər ölkəni ikiyə bölmüşdü: qərbi Ukrayna Yuşşenkonu, şərqi Ukrayna isə Yanukoviçi prezident sayırdı, regionlarda yerli hakimiyyətlərin bu bölgü ilə ələ keçirilməsi prosesi gedirdi. Bu arada paytaxt Kiyev «rəsmən» müxalifətin tərəfinə keçdi. Kiyev meri Aleksandr Omelçenko «narıncı» mitinqdə çıxış edərək Yuşşenkonu müdafiə etdiyini bildirdi. Eyni zamanda, parlamentin sədri Vladimir Litvin zahiri neytrallığını saxlasa da, bir ayağı ilə «narıncı»ların yanında idi. Məhz buna görə o, noyabrın 23-də Yuşşenkonun tərəfdarları ilə parlamentə gələrək «İncil» üzərində simvolik prezident andı içməsinə faktiki şərait yaratmışdı. Digər tərəfdən, istər prezident administrasiyasında, istərsə də hökumətin özündə Baş nazir Yanukoviçi lider olaraq qəbul etməyə qüvvələr vardı, onun prezidentliyə namizədliyi əvvəldən hakimiyyət düşərgəsində yekdil qəbul olunmamışdı. Yanukoviçə qarşı hökumət daxilində ilk «qiyamı» XİN başçısı Boris Tarasyuk qaldırdı. Nazir postundan istefa verib Yuşşenkonun tərəfinə keçən Tarasyuk Polşa Seymində çıxış edərək bu ölkədən seçkilərin nəticələrinin ləğvi üçün təsirli addımlar xahiş etdi.

Bütün bunlardan sonra yüksək səviyyəli «Qərb desantı»nın işə bilavasitə qarışması zamanı yetişmişdi. Noyabrın 25-də Polşa və Litvanın prezidentləri Aleksandr Kvasnevski və Valdas Adamkus, ATƏT-in Baş katibi Yan Kubiş, Avropa Birliyinin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Xavyer Solana Kiyevə gəldilər. Rusiya tərəfdən isə Ukraynaya Dövlət Dumasının spikeri Boris Qrızlov ezam edilmişdi və bu qeyri-bərabər formatın özü Moskvanın artıq uduzduğunu göstərirdi. Qərb nümayəndələri vəziyyətdən çıxış yolu kimi ikinci tur səsverməsini təzədən keçirməyi təklif etdilər. Prezident Kuçma öncə bunun «mümkün olmadığını» desə də, sonda razılaşmalı oldu. Dekabrın 3-də Ukrayna Ali Məhkəməsi ikinci tur nəticələrinin ləğv olunması və dekabrın 26-na təkrar (faktiki üçüncü tur) səsvermə keçirilməsi barədə qərar çıxardı.

Məhkəmənin qərarı ilə MSK-nın köhnə tərkibi də buraxıldı və yeni tərkib bütünlüklə «narıncı» koalisiyanın diqtəsi ilə formalaşdırıldı.

Seçki mübarizəsinin taleyinin faktiki həll edildiyi bəlli olandan sonra Azərbaycan müxalifəti Ukrayna demokratiyasına öz «töhfəsini» vermək qərarına gəldi və Müsavat başqanı «narıncı» kampaniyada gözə dəymək üçün Kiyevə getdi. Qeyd etdiyimiz kimi, bu, Qəmbərin şəxsi siyasi maraqlarından doğan səfər idi və «narıncı» inqilab liderlərinin belə «orta səviyyəli qonağa» xüsusi diqqət ayırması real deyildi. Müsavat başqanına Yuşşenko ilə yalnız ayaqüstü görüşmək müyəssər olmuşdu. «O elə düşünürdü ki, Yuşşenko ilə görüşdükdən sonra Qərbin Ukraynadakı təmsilçiləri də onu qəbul edəcəklər və onunla fikir mübadiləsi aparacaqlar. Ukraynaya səfərə də bu niyyətlə hazırlaşmışdı. Lakin onu heç kim qəbul etməmişdi» (59).

Halbuki məntiqlə həmin günlər Qəmbər, yaxud digər müxalifət təmsilçiləri Ukraynada hakimiyyət dəyişikliyinə «dəstək» verməyə can atmaq əvəzinə Azərbaycandakı siyasi fəaliyyətlərinin qeydinə qalaydılar. Yeri gəlmişkən, həmin günlər Azərbaycanda bələdiyyə seçkiləri (17 dekabr 2004-cü il) kampaniyası yekunlaşmaq üzrə idi və məntiqlə müxalifət liderləri də Azərbaycan seçiciləri qarşısında çıxışlar etməli idilər. Lakin özgənin siyasi təntənəsində «toy generalı» olmağa can atan radikal müxalifət partiyaları bu seçkiləri boykot etmişdilər.

Ukraynada «narıncı» inqilabın yekununa qayıdaraq onu qeyd etmək istərdik ki, dekabrın 26-da keçirilən təkrar ikinci tur Yuşşenkonun artıq labüd olan qələbəsi ilə (52 faiz) nəticələndi. Bununla belə, Yanukoviçin 45 faizə yaxın səs toplaması Ukrayna cəmiyyətinin siyasi baxımdan ikiyə bölündüyünü bir daha təsdiqləməklə yanaşı, prezidentlik yarışını uduzmuş qüvvələrin revanş imkanlarının qaldığını göstərirdi. Üstəlik təkrar ikinci tur öncəsi parlamentdə «narıncı» koalisiya ilə hakimiyyət qüvvələrinin ortaq qərarı ilə Ukraynada konstitusion

dəyişikliklər paketinin qəbul olunması buna əsas yaradırdı. Həmin sənədə əsasən, hökumətin formalaşdırılması tamamilə gələcək parlament çoxluğunun ixtiyarına verilir, prezident səlahiyyətlərinin bir qismi isə Nazirlər Kabinetinə keçirdi. Əslində bu «zorən konsensus» Ukraynada sonrakı siyasi böhranın (əvvəlcə prezident Yuşşenko ilə Baş nazir Timoşenko arasında ixtilaf, 2006-cı ildə Yanukoviçin partiyasının parlament seçkilərində qələbəsindən sonra isə prezident-hökumət qarşıdurması) əsasını qoydu. Bu baxımdan Ukraynadakı «narıncı» inqilab, bir il öncəki Gürcüstan inqilabından fərqli olaraq, heç də tam qələbə çalmamışdı və bu «natamamlıq kompleksi» sonrakı proseslərdə özünü daha aşkar biruzə verdi.

ALTINCI FƏSİL

QIRĞIZISTANDA DAŞ-KƏSƏKLİ «ZANBAQ» ÇEVRİLİŞİ – «MƏXMƏRİ» İDEYANIN İFLASI

«Zəiflikdən törəyən təvazökarlıq ləyaqət sayıla bilməz».

K.Abay

«Millət necə tarac olur-olsun, nə işim var?
Düşmənlərə möhtac olur-olsun, nə işim var?»

M.Ə.Sabir

«Çox da havalanıb uçma dünyada».

Aşıq Ələsgər

Ukraynada «narıncı» hakimiyyətin bərqərar olmasından iki ay sonra daha bir postsovet ölkəsində – Qırğızıstanda seçkilər inqilabla yekunlaşdı. Hərçənd bu ölkədə parlament seçkiləri öncəsi cərəyan edən proseslər labüd hakimiyyət dəyişikliyinə hədəflənmədiyi kimi, baş vermiş inqilab da nəticə etibarilə tam mənada «məxməri» sayıla bilməzdi. Gürcüstan və Ukrayna müxalifətindən fərqli olaraq, həm siyasi-təşkilati, həm də beynəlxalq dəstək baxımından xeyli zəif olan qırğız müxalifəti əslində 2005-ci ilin fevralındakı parlament seçkilərinə daha çox qüvvələrini toparlamaq, qanunverici orqanda nəzərəçarpacaq yer alıb həmin ilin oktyabrında gözlənilən prezident seçkilərinə hazırlıq niyyətilə qoşulmuşdu. Üstəlik hakimiyyətin prezident seçkiləri ilə bağlı aydın mövqeyinin olmaması birləşmiş müxalifətin uğur qazanmaq şansını artırırdı. Əsgər Akayev növbəti (artıq dördüncü) müddətə prezident seçilmək niyyətində olmadığını nəzərə çatdırmışdı, hakimiyyətin isə elə bir aşkar şanslı namizədi yox idi. O cümlədən Akayevin övladlarının (33 yaşlı qızı Bermet və 29 yaşlı oğlu Aydar) mövcud yaş senzi (35)

səbəbilə prezident seçkisində iştirakı mümkünsüz idi, ictimai fəaliyyətlə məşğul olan həyat yoldaşının (Maryam Akayeva) prezidentlik şansı isə yalnız nəzəri idi.

Düzdür, Akayev heç də siyasətdən birdəfəlik gedəcəyinə dair təminat verməmişdi. Üstəlik parlament seçkiləri öncəsi onun təşəbbüsü ilə ölkə konstitusiyasına edilmiş dəyişikliklər, o cümlədən Qırğızıstanın prezident-parlament idarəetmə sisteminə keçməsi və prezident səlahiyyətlərinin qismən ixtisarı hesabına Nazirlər Kabinetinin rolunun artırılması müxalifətdə belə əminlik yaratmışdı ki, Akayev bu yenilikləri özü üçün edir və prezidentlikdən sonra Baş nazir postunda əyləşmək niyyətindədir. Həmin konstitusion islahatlara görə, Qırğızıstanda parlamentin də rolu artırılmışdı, mövsümi fəaliyyət göstərən ikipalatalı qanunverici orqanın əvəzində daimi əsaslı birpalatalı parlamentin (Coqorku Keneş) təşkili və gələcək hökumətin də parlament çoxluğu tərəfindən formalaşdırılması nəzərdə tutulurdu. Bu baxımdan parlament seçkiləri xüsusi əhəmiyyət kəsb edirdi və daha öncə cəmiyyətin qismən laqeyd qaldığı deputatlıq uğrunda mübarizənin qızğın keçəcəyi yəqin idi. 75 deputat mandatı (hamısı majoritar qaydada seçilməli idi) uğrunda 400-dən çox namizəd yarışırdı. Namizədlər arasında Akayevin oğlu, qızı, habelə bir sıra yaxın qohumları vardı.

Onu da qeyd etmək lazımdır ki, Qırğızıstanda parlament seçkiləri kampaniyası Qərb dairələrində ümumən sakit tərzdə müşahidə edilmiş və Akayev hakimiyyətinə qarşı elə bir ciddi tənqid eşidilməmişdi. Seçki kampaniyası dövründə Qərbdən əsasən «Seçki qanunu»ndakı «oturaqlıq senzi» (həmin müddəa son 10 ildə Qırğızıstanda yaşamamış, o cümlədən xaricdə diplomatik fəaliyyətdə olmuş şəxslərin deputatlığa namizəd olmasını qadağan edirdi) ilə bağlı tənqidlər səslənmişdi. Bu qadağa üzündən müxalifət liderlərindən biri, keçmiş spiker və

XİN başçısı, 1997-2002-ci illərdə Qırğızıstanın Londonda səfiri olmuş Roza Otunbayeva seçkilərə buraxılmamışdı. Yeri gəlmişkən, sözügedən qadağa hələ 1993-cü ildə, özü də həmin vaxt parlamentin sədri olmuş Otunbayevanın şəxsi təşəbbüsü ilə seçki qanunvericiliyinə salınmışdı.

Bundan əlavə, Akayev hələ seçkilərədək Qərb institutlarının, o cümlədən ATƏT-in həm seçki qanunvericiliyi, həm də ümumilikdə dövlət idarəçiliyi ilə bağlı bir sıra tövsiyələrinə əməl etmişdi. Parlament və hökumətin səlahiyyətlərinin artırılması barədə konstitusiyaya dəyişikliklər də həmin tövsiyələrin bir hissəsi idi. Digər tərəfdən, Mərkəzi Asiyanın o biri rəhbərlərindən fərqli olaraq, Akayev «yumşaq» avtoritar və demokratik islahatlara daha meylli, ümumən liberal baxışlı siyasətçi kimi tanınırdı və bu üzdən Qərb dairələrində ona münasibət nisbətən loyal idi. Akayev xarici siyasətdə Qərb (özəlliklə ABŞ) və Rusiya arasında müəyyən balans saxlamağa çalışırdı, hərçənd ümumilikdə daha çox Rusiyaya meylli siyasət yeridirdi. Qırğızıstanın MDB-də Rusiyanın bütün layihələrində iştirak etməsi, bu ölkədə Rusiya hərbi kontingentinin (Bişkek yaxınlığındakı Kant hərbi-hava bazası) mövcudluğu, nəhayət, rus dilinə ikinci dövlət dili statusunun verilməsi buna sübut idi. Eyni zamanda, 2001-ci ilin 11 sentyabrından sonra ABŞ-ın Əfqanıstandakı antiterror əməliyyatı ilə bağlı müvəqqəti hərbi bazasının Qırğızıstanda (Bişkek yaxınlığındakı «Manas» hərbi aerodromu) yerləşməsi Vaşinqtonla münasibətlərin strateji mahiyyətini təmin edirdi. Bu baxımdan Qırğızıstandakı Rusiya və ABŞ hərbi bazalarının bir-birindən cəmisi 30 km məsafədə yerləşməsi onların bu regionda geosiyasi tarazlığını və müəyyən mənada dil tapdığını göstərirdi. Odur ki, Qırğızıstan hadisələrində əvvəldən Moskva ilə Vaşinqton arasında, məsələn, Gürcüstanda, ələlxüsus da Ukraynada olduğu kimi, elə bir nüfuz

çəkişməsi getməmişdi, yəni bu ölkədə baş verən siyasi proseslərə xarici təsir faktorundan danışmağa elə bir əsas yox idi.

Bunun əvəzində Qırğızıstanda inqilabi sarsıntıları, özü də «məxməri» deyil, qanlı toqquşmalarla müşayiət oluna biləcək hakimiyyət çevrilişini real edən ciddi daxili faktorlar vardı. Bu ilk növbədə ölkədəki ağır sosial-iqtisadi vəziyyətlə bağlı idi. Əsasən aqrar ölkə olan və qonşularından fərqli olaraq, zəngin təbii ehtiyatları olmayan Qırğızıstan hələ bir neçə il öncə BMT-yə müraciət edərək rəsmən dünyanın yoxsul ölkələri sırasına salınmasını və xarici borclarının bir qisminin silinməsini xahiş etmişdi. 5 milyonluq ölkənin illik büdcəsi 300-350 milyon dollar, xarici borcu 1,6 milyard dollar idi. Ölkənin cənub vilayətlərində sosial vəziyyət paytaxt Bişkek və şimal vilayətlərinə nisbətən daha ağır idi, bu isə ölkədə onsuz da mövcud olan regionlararası qarşıdurmanı daha da dərinləşdirirdi.

Qırğızıstanda şimallılarla cənubluların regional mübarizəsi hələ 1918-1920-ci illərin vətəndaş müharibəsindən aktual idi. Sovet hakimiyyəti bu mübarizəni özünəməxsus şəkildə, respublika rəhbərliyində cənublularla şimallıları əvəzləməklə nizamlayırdı. Məsələn, 1961-1985-ci illərdə Qırğızıstan KP MK-nın I-ci katibi şimallı Turdakun Usubəliyev olmuş, sonra onu cənublu Absamat Masaliyev (1985-1990) əvəz etmiş, 1990-cı ildə isə hakimiyyətə bişkekli professor, Qırğızıstan EA-nın prezidenti Əsgər Akayev gəlmişdi. Bu sıralamaya görə, Akayevdən sonra hakimiyyət növbəsi cənublulara keçməli idi. Bu baxımdan Qırğızıstandakı regional qarşıdurma, Ukraynada «narıncı» inqilab zamanı yaranmış regional (şərq-qərb) siyasi ixtilafdan fərqli idi. Qırğızıstanda bu bölgü siyasi deyil, daha çox tayfa-klan prinsiplərinə əsaslanırdı. Təsadüfi deyil ki, müxalifətin əsas liderləri, o cümlədən keçmiş Baş nazir, «Xalq Hərəkatı» partiyasının lideri Kurmanbek Bakiyev və sabiq XİN Başçısı,

«Ata Yurd» partiyasının sədri Roza Otunbayeva cənubdan idilər. Müxalifətin şimalı təmsil edən yeganə lideri Feliks Kulov («Ar Namıs» partiyası) isə həmin vaxt həbsxanada idi. Kulov 1992-1993-cü illərdə Qırğızıstanın vitse-prezidenti (sonradan həmin post ləğv edildi), sonra vilayət qubernatoru, milli təhlükəsizlik naziri və Bişkek meri olmuş, 1999-cu ildə istefa verərək müxalifətə keçmiş, bir il sonra iqtisadi cinayətlərdə ittiham olunaraq 10 il müddətinə həbsə məhkum edilmişdi.

Lakin Qırğızıstanda hakimiyyət uğrunda etnik-klan mübarizəsinin konturları bununla məhdudlaşmırdı. Ölkənin cənubunda yığcam şəkildə (əsasən Özbəkistanla həmsərhəd Oş vilayətində) yaşayan özbək əhalisi (təxminən 600 min) ilə qırğızlar arasında hələ 1990-cı ildə meydana gəlmiş toqquşmalar ara-sıra özünü biruzə verirdi. 90-cı illərin sonundan isə bölgədə dini dövlət qurmağı niyyətləyən radikal islamçı təşkilatlar («Hizbut-Təhrir», «Özbək İslam Hərəkatı») özünə geniş yer tapmışdı. Odur ki, Qırğızıstanda inqilab havası onların da planlarına uyğun idi və seçkilərdən sonra ölkənin cənub bölgələrində yaşanan toqquşmalarda bu qüvvələrin fəal iştirakı olmuşdu.

Sadalananlara Akayev hakimiyyətinin həm elektoral dəstək, həm də administrativ resurslar baxımdan çox zəif olmasını da əlavə edən əksər icmalçılar Qırğızıstanda inqilabın ümumən qaçılmaz olduğunu lakin, eyni zamanda, mürəkkəb fəsadlar, hətta vətəndaş müharibəsi doğura biləcəyini qeyd edirdilər. Hətta «məxməri» layihələrin sponsoru Corc Soros Gürcüstanda Baş vermiş inqilabın Mərkəzi Asiya ölkələrinə, o cümlədən Qırğızıstana yayılması perspektivindən danışarkən bu prosesin tam müsbət nəticə (yeni demokratikləşmə dalğası) doğuracağına şübhəsini bildirmişdi. Maraqlıdır ki, Akayev özü Gürcüstandakı «qızılgül» inqilabından sonra bu barədə kitab yazmış və

«məxməri» inqilabın ayrı-ayrı ölkələrə eksportunun ağır fəsadlar yaradacağını, o cümlədən ölkəsindəki etnik, regional xüsusiyyətlərə işarə edərək belə bir inqilabın Qırğızıstanda faciəli nəticələr doğura biləcəyini qeyd etmişdi. O hətta kitabın bir nüsxəsini hədiyyə olaraq Gürcüstan prezidenti Saakaşviliyə göndərmişdi.

Öz növbəsində Qırğızıstan müxalifətçiləri Akayevin 15 illik hakimiyyətinə son qoymaq üçün qüvvələrini maksimum səfərbər etməyə çalışaraq bu ölkədəki «məxməri» çevrilişin Gürcüstan və Ukraynadakı proseslərdən fərqlənməyəcəyini və dinc xarakterli, sakit inqilab olacağını vəd edirdilər. Hərçənd, yuxarıda qeyd etdiyimiz kimi, qırğız müxalifəti bu inqilabı daha çox payızdakı prezident seçkilərinə hazırlayırdı və parlament seçkilərini də bu istiqamətdə «baş məşq» kimi nəzərdən keçirirdi. Müxalifət inqilaba formal hazırlığa hələ bir neçə ay öncə başlamış, inqilabın simvolu kimi sarı (bu rəngə Qırğızıstanda ehtiram var, o, ölkənin bayrağında və gerbində əks olunub) zanbaq seçilmişdi. Bundan əlavə, müxalifətin rus və qırğız dilində mətbuat şəbəkəsi vardı. Müxalifət inqilaba digər bir formal hazırlığı kimi öz sıralarında müxtəlif vaxtlarda hakimiyyətdə olmuş və idarəçilik təcrübəsinə malik kifayət qədər şəxsin olmasını önə çəkirdi. Həqiqətən də bu baxımdan qırğız müxalifətinin rəhbərlərini Gürcüstan və Ukraynadakı inqilab liderləri ilə müqayisə etmək olardı. Onların əksəriyyəti müxtəlif vaxtlarda Akayev komandasını tərk etmiş şəxslər idi. Lakin buna rəğmən qırğız müxalifətinin, Gürcüstan və Ukraynada olduğu kimi, şəksiz və xarizmatik lideri yox idi.

Bu yerdə onu da qeyd etmək lazımdır ki, istər Gürcüstandakı, istərsə də Ukraynadakı inqilablardan fərqli olaraq, Qırğızıstandakı seçkiqabağı proseslərdə xarici siyasi texnoloqların elə bir fəallığı nəzərə çarpmamışdı. Baxmayaraq

ki, Qırğızıstanda da gənclərin «Kmara» və «Pora» analogiyalı təşkilatları («Birgə», «Gəl-gəl») yaranmışdı, lakin onların fəaliyyəti çox zəif idi, gürcü, yaxud ukraynalı həmkarları ilə bilavasitə əlaqəsi yox idi və bunu «Pora»nın lideri Vladislav Kaskiv də etiraf etmişdi. Yalnız seçkilərin ikinci turundan sonra hadisələrin kritik məcraya keçdiyi vaxt Gürcüstan parlamentinin bir neçə deputatı Bişkekə səfər etmişdi. Bütün bunlar onu göstərirdi ki, xarici dairələr Qırğızıstandakı parlament seçkilərinin «məxməri» inqilaba çevriləcəyinə elə də ehtimal vermirdilər. «Digər tərəfdən, Qırğızıstanda demokratiyanın inkişafını təşviq edən Qərb institutları üçün «məxməri» inqilabın bu ölkəyə radikal islamçı qüvvələrin fəal olduğu «cənub qapısı»ndan daxil olması o qədər də arzuolunan deyildi və yəqin ki, onlar seçim qarşısında qalsalar, Akayevin yumşaq avtoritarizmini daha məqbul sayacaqdılar. Məsələn, AŞPA missiyası birinci turdan sonra seçkilərin Avropa standartlarından xeyli uzaq olduğunu bəyan etsə də, yeni parlamenti legitim sayacağını bildirmişdi» (60).

Yeri gəlmişkən, parlament seçkilərinin fevralın 27-də keçirilmiş birinci turundan sonra 75 deputatdan yalnız 31-i müəyyənləşmişdi və əsas siyasi mənzərə martın 13-nə təyin olunan ikinci turdan sonra bəlli olacaqdı. Birinci turdan sonra bir neçə müxalifət təmsilçisi deputat mandatı qazanmış, daha bir neçə nəfər, o cümlədən Bakiyev ikinci tura keçmişdi. Müxalifət ilk turun nəticələrindən narazı qalsa da, xüsusilə geniş kütləvi aksiyalara baş vurmamış və ikinci turu gözləmək qərarına gəlmişdi. İkinci turun nəticələri açıqlanandan sonra bəlli oldu ki, müxalifətdən parlamentə cəmisi 7 nəfər keçib, düşərgənin üzdə olan simaları, eləcə də Bakiyev parlamentdən kənarda qalıb. Əslində hakim partiya da (Akayevin qızının lideri olduğu «İrəli, Qırğızıstan») parlamentdə elə bir üstünlük əldə etməmiş və

yerlərin dörddə birinə (19 mandat) sahib olmuşdu. Lakin parlamentdə iqtidaryönlü kiçik partiyaların, eləcə də sıralarında biznes təmsilçilərinin də olduğu bitərəflərin yer alması hakimiyyəti ümumən qane edirdi. Bununla yanaşı, ötən parlamentin üzvü olmuş ayrı-ayrı regional avtoritetlərin (cənub vilayətlərində) deputat seçilməməsi də lokal iğtişaşlara rəvac vermişdi.

Əslində yerlərdə müxalifət partiyalarının təmsilçiləri ilə ayrı-ayrı yarıkriminal biznes avtoritetlərinin idarə etdiyi narazı kütlələr bir-birinə qarışmışdı və nəticə etibarilə ölkədə inqilabi çaxnaşmalara da ikincilər təkan verdi. Fəaliyyətini hələ də birgə koordinasiya edə bilməyən siyasi müxalifət isə ikinci turdan sonra gələcək addımlar barəsində aydın mövqedə deyildi. Məhz buna görə Qırğızıstan seçkilərini «məxməri» inqilab prizmasından müşahidə edən bir sıra xarici dairələr, eləcə də bu məqsədlə Qırğızıstana axın etmiş çoxsaylı əcnəbi jurnalistlər «inqilab payızadək təxirə salındı» fikri ilə artıq geri dönməyə hazırlaşırdılar. O cümlədən Qırğızıstandakı olayları məxsusi siyasi azarkeşliklə izləyən Azərbaycan müxalifəti, düşərgə mətbuatı da bu baxımdan bədbin qənaətə gəlmişdi: «Belə görünür ki, bu mərhələdə qırğız müxalifətinə Akayev klanını hakimiyyətdən Gürcüstan və Ukrayna ssenarisi ilə uzaqlaşdırmaq müyəssər olmayacaq. Artıq Qərb Akayev klanına açıq dəstəyini ifadə edib, Qərb tərəfindən müxalifətin addımları heç bir dəstək görmədi. Əksinə, ATƏT bildirdi ki, seçkidə yol verilmiş pozuntular müxalifətə yolları kəsməyə, inzibati binaları tutmağa əsas vermir. Müxalifət bu seçkilərdə ancaq onu əldə edə bildi ki, birləşməyə qərar verdi və bu birlik payızda prezident seçkilərində müxalifətə kömək edə bilər» (61).

Lakin sonrakı proseslər başqa məcrada cərəyan etməyə başladı. Ölkənin cənubunda ayrı-ayrı yerli avtoritetlərin idarə

etdiyi və ağır sosial durumu üzündən istənilən inqilaba hazır olan lümpenləşmiş etirazçı kütlələr əvvəl bir, sonra digər rayon mərkəzində hakimiyyətin devrilməsi ilə nəticələnən iğtişaşlara cəlb olundular. Ölkənin ən iri Cəlilabad və Oş vilayətlərində faktiki hakimiyyətsizlik hökm sürür, aylarla əməkhaqqı almayan milis işçiləri də iğtişaş və talanlara mane olmayaraq bir çox hallarda etirazçı kütləyə qoşulurdular. Faktiki olaraq Qırğızıstanda inqilab lap aşağılardan, kortəbii şəkildə başlamışdı və bir çox qüvvələrin (o cümlədən kriminal elementlərin) körüklədiyi etiraz dalğasının hansı həddə varacağı şübhəli suallar doğururdu. Artıq martın 18-də Qırğızıstanın cənubunda faktiki hakimiyyətsizlik və başıpozuqluq hökm sürürdü. Vəziyyəti nəzarət altına almaqda faktiki aciz olan Bişkekdəki hakimiyyət isə qiyamçı bölgələri blokadaya almağa, onlara elektrik verilməsini kəsməyə başlamışdı.

Belə bir vəziyyətdə müxalifət liderlərinin başıpozuq etiraz dalğasını müəyyən siyasi məcraya yönəltməkdən, başqa sözlə, artıq başlanmış xaotik inqilaba rəhbərlik etməkdən savayı rasional bir yolu yox idi. Bu məqsədlə əvvəlcə Bakiyev və Otunbayevanın rəhbərliyi ilə «Koordinasiya Şurası» təsis olundu və yerli partiya təşkilatları prosesləri qismən nəzarətə götürməyə cəhd etdilər. Öz növbəsində Qərb dairələri də Qırğızıstanda yaranmış qarışıqlığın arzuolunmaz fəsadlarını (o cümlədən islamçı radikalların vəziyyəti nəzarətə götürmək ehtimalını) göz önünə alaraq müxalifət liderlərinə daha aşkar dəstək verməyə başladılar. ABŞ Dövlət Departamenti Qırğızıstan hakimiyyətini müxalifətin dinc etiraz aksiyalarına mane olmamağa və müxalifət liderləri ilə dialoqa başlamağa çağırdı. Hərçənd Akayev iqtidarının proseslərə nəzarəti itirdiyi və labüd iflası artıq Qərbdə şübhə doğurmurdu. Həmin günlər Böyük Britaniyanın nüfuzlu «The Times» qəzeti Qırğızıstandakı

hadisələri şərh edərkən yazırdı ki, bu Orta Asiya respublikasında dinc inqilabın uğurla başa çatması bütün regionda demokratik proseslərə zəmin ola bilər. Qəzet nəzərə çatdırırdı ki, əgər Qırğızıstanda yaşanan inqilab hakimiyyətin demokratik müxalifətə deyil, başqa qüvvələrə keçməsi ilə nəticələnsə, bu, Qərbin bütün regionda maraqlarına ciddi zərbə olacaq.

Onu da qeyd etmək lazımdır ki, Qırğızıstanda yaşanan seçkisonrası olaylar, Gürcüstanda, ələlxüsus da Ukraynadakı məlum olaylardan fərqli olaraq, Rusiyanı o qədər də narahat etmirdi. Ona görə yox ki, Moskva Qırğızıstandakı Akayev hakimiyyəti sarıdan arxayın idi və onun devrilməyəcəyinə inanırdı. Əksinə, regiondakı real vəziyyəti Qərb dairələrindən qat-qat yaxşı bilən, Akayev rejiminin də sonunun çatdığını başa düşən Moskva ona görə təmkinli davranırdı ki, Qırğızıstan müxalifətinin liderləri sarıdan tam arxayın idi və bu ölkədə yeni hakimiyyətin Rusiya ilə sıx münasibətlər saxlayacağını bilirdi. Təsadüfi deyil ki, seçkilər öncəsi həm Bakiyev, həm də Otunbayeva bir neçə dəfə Moskvaya səfərlər edərək Rusiya dairələri ilə görüşlər keçirmişdilər. Məhz buna görə Moskva Akayevin zəif hakimiyyətinə dəstək vermək üçün elə bir cəhd etmirdi. Akayevi müdafiə etmək çağırışları isə yalnız Dövlət Dumasında Vladimir Jirinovski kimi marginal siyasilər tərəfindən səslənirdi. Rusiya prezidenti Putin isə Akayevin devrilməsi xəbərini təmkinini pozmadan qarşılamışdı. Həmin vaxt Yerevanda səfərdə olan Putin həmçinin nəzərə çatdırmışdı ki, «əgər Akayev istəsə, Rusiya ona sığınacaq verməyə hazırdır». Qırğızıstanda yeni hakimiyyətə gəldikdə isə, Putin vurğulamışdı ki, o, «Qırğızıstan inqilabının liderlərini yaxşı tanıyır və Rusiyanın bu ölkənin yeni hakimiyyəti ilə heç bir problemi olmayacaq» (62).

Akayevin devrilməsi isə gözlənildiyindən də tez gerçəkləşdi. Martın 20-də cənub vilayətlərində yerli icra strukturlarını tamamilə devirmiş (bəzi bölgələrdə müxalifətin təşəbbüsü ilə «xalq qurultayları» çağırılmış və alternativ qubernatorlar, milis rəisləri və s. təyin edilmişdi) etirazçı kütlələrin ölkənin şimalına doğru yürüşü başlandı. Yürüş boyu başıpozuq kütlə ayrı-ayrı rayonlarda inzibati binaları ələ keçirir və talan edir, bəzi yerlərdə hətta həbsxanalardakı məhbuslar da azadlığa buraxılırdı. Martın 21-də Bişkek yaxınlığındakı Talas vilayəti də faktiki olaraq inqilabçıların nəzarətinə keçmiş, bir gün sonra isə etirazçılar dolu ilk avtobuslar paytaxta gəlib çıxmışdılar. Bu arada MSK seçkilərin rəsmi nəticələrini açıqlamış və maraqlıdır ki, səslərin yenidən hesablanması ilə daha bir neçə müxalifət namizədinin deputat seçildiyi elan edilmişdi.

Martın 22-də Bişkekdə etiraz mitinqlərinin davam etdiyi bir vaxtda yeni parlament 58 deputatla ilk iclasına toplandı. İclasda çıxış edən prezident Akayev ölkənin cənubunda baş verən olayları «yaxşı təşkil olunmuş qiyam» adlandıraraq müxalifəti yerli kriminal elementlərlə əlbir olmaqda ittiham etdi. Bununla yanaşı, o vəziyyətin tezliklə nəzarətə alınacağını və «heç bir inqilaba imkan verməyəcəyini» bildirmişdi. Daxili işlər naziri və Baş prokuror vəzifəsinə yeni şəxsləri təyin edən Akayev onlardan sabitliyi bərpa etməyi tələb etmişdi. Bundan əlavə, o, Baş nazir Nikolay Tanayevə ölkənin cənubuna səfər edərək vəziyyəti bilavasitə öyrənməyi tapşırmışdı. Lakin bütün bu gecikmiş addımların real nəticə verəcəyinə hakimiyyət dairələrində də inanan yox idi. Martın 23-də «Hökumət evi» qarşısında mitinq keçirən bir neçə yüz nəfərlik kütlə daş və dəyənəklərlə binaya hücum etmiş, lakin milis qüvvələri onların qarşısını almışdı. Ertəsi gün yaşanan olaylara isə artıq Bişkek milisi də seyrçi idi.

Martın 24-də səhərdən paytaxtda eyni vaxtda üç yerdə mitinqlər başlamışdı. Maraqlıdır ki, mitinqlərin biri şəhərin mərkəzi bazarı qarşısında toplaşmış və oradakı etirazçılar dövlət binalarını ələ keçirmək barədə xüsusilə radikal çıxışlar edirdi. Sonradan belə xəbərlər yayıldı ki, həmin mitinqi təşkil edən bazarın faktiki sahibi, parlamentin deputatı Cırqalbek Surabaldiyev olub və məhz onun «könüllülər» dəstəsi hökumət idarələrinin ələ keçirilməsində və sonrakı talanlarda xüsusilə fəallıq göstərib. Ümumiyyətlə, inqilabdan sonra bir sıra kütləvi informasiya vasitələrində yayılan xəbərlərdə Akayev hakimiyyətinin devrilməsinin «sponsorları» sırasında Surabaldiyevlə yanaşı, daha iki yarıkriminal biznes avtoritetinin – ölkənin ən iri bazarı olan Qarasu «tolkuçka»sına (Çindən gətirilən mallar buradan bütün regiona ixrac edilir) nəzarət edən Bayaman Erkinbayevin (o da parlamentin deputatı idi) və Rıspek Aktambayevin adları hallanırdı. Qeyd olunurdu ki, müxalifət liderləri inqilab günləri bu şəxslərlə gizli görüşlər keçirərək onların qüvvələrindən yararlanmaq istədiklərini bildiriblər. Maraqlıdır ki, hər üç avtoritet inqilabdan sonra qısa müddətdə (iyun-oktyabr 2005) müəmmalı şəkildə qətlə yetirildilər və həmin cinayətlərin üstü açılmamış qaldı.

Bu şəxslərin «könüllülər» dəstələrinin də fəal iştirak etdiyi inqilab isə martın 24-də bir neçə saatın içində başa çatdı. Əvvəlcə «Hökumət evi»nə hücum edərək milis və mühafizə qüvvələrinin müqaviməti ilə qarşılaşmadan binanı ələ keçirən dəstələr daha sonra Bişkek meriyasını, televiziya binasını və digər mühüm dövlət obyektlərini ələ keçirdilər. Lakin 2003-cü ilin noyabrında Tbilisidə yaşanmış olaylardan fərqli olaraq, Bişkekdə hakimiyyətin devrilməsi, müxalifətin elan etdiyi kimi, qızılgül və zanbaqla deyil, daş-kəsək və dəyənəklərlə həyata keçirildi, demək olar ki, kütlə ələ keçirdiyi bütün dövlət binalarını talan

etmişdi. Prezident Akayev isə «Hökumət evi»nin ələ keçməsindən az öncə binanı tərk etmiş, daha sonra isə onun təyyarə ilə Qazaxıstana, oradan da Moskvaya getdiyi bildirilmişdi. Bunun ardınca isə Tanayev Baş nazir vəzifəsindən istefa vermişdi.

Akayevin devrilməsinin ardından, martın 24-dən 25-nə keçən gecə Qırğızıstan paytaxtında baş verənlər isə, bir tərəfdən, ondan öncə yaşanan proseslərin «məntiqi» davamı idisə, digər tərəfdən, qırğız müxalifətinin vəd etdiyi dinc «zanbaq» inqilabına ağır bir kölgə oldu. Bişkek inqilabın ikinci gününü miskin bir vəziyyətdə - talan edilmiş ticarət mərkəzlərindən və dağıdılmış inzibati binalardan qalxan tüstü-duman içində qarşıladı. İnqilabın ilk gecəsinin insan tələfatı statistikası da acınacaqlı idi: talanlar zamanı 5 nəfər həlak olmuş, onlarla adam yaralanmışdı. Akayev hakimiyyəti süqut edəndən sonra Qırğızıstan paytaxtı lümpen kütlənin və müxtəlif kriminal elementlərin öhdəsinə buraxılmışdı. Əksəriyyəti ölkənin cənub bölgələrindən gələn və Bişkekdə hakimiyyət binalarının ələ keçirilməsində həlledici rol oynamış gənclərdən ibarət olan dağıdıcı kütlə inqilabın qələbəsini, sadəcə, şüarla qeyd etmək fikrində deyildi. Üstəlik inqilabın ideoloqları onlara ən qısa zamanda zənginlik və rifah vəd etmişdilər.

Minimum əməkhaqqının 4-5 dollar təşkil etdiyi bir ölkədə işsizlik və səfalətin sıxdığı inqilabçı gənclər Akayev rejiminin devrilməsinin praktiki bəhrəsini, necə deyərlər, bir an öncə dadmaq istəyirdi. Odur ki, havanın qaralması ilə Bişkekin mərkəzi küçələri nəhəng talançılıq meydanına çevrilmiş, daş-dəyənəklə silahlanmış yüzlərlə gənc şəhərdəki dəbdəbəli ticarət mərkəzlərindən xırda dükanlaradək hər şeyi talan etmişdilər. Şahidlərin sözlərinə görə, bu talanda yalnız daş-dəyənəkli gənclər iştirak etməmiş, tezliklə «hadisə yerinə» yüzlərlə

avtomobil gəlmiş və talan olunan mallar onlara yığılaraq aparılmışdı. Bu isə baş verənlərin heç də tam kortəbii olmadığını göstərirdi. Nəhayət, Bişkek tamamilə iflic hala gələndən sonra Qırğızıstan inqilabının rəhbərləri vəziyyətin kritikliyini dərk edərək şəhərin küçələrinə ordu hissələri və zirehli maşınlar yeridərək vəziyyətin tam xaosa dönüşməsinin qarşısını almışdılar.

Ümumiyyətlə, Qırğızıstandakı hakimiyyət çevrilişinin faktiki mənzərəsi sözdə dinc inqilab kimi elan edilən proseslərin tərs üzünü göstərməklə bərabər, ümumilikdə «məxməri» ideyanın konkret bir ölkə timsalında iflası idi. Təsadüfi deyil ki, bundan ayyarım sonra, 2005-ci ilin mayında Özbəkistanın Əndican vilayətində (Qırğızıstanın cənub rayonları ilə həmsərhəd) radikal dinçi qüvvələr yerli hakimiyyəti silah gücünə devirərək «məxməri» inqilab həyata keçirmək istədiklərini bəyan edərkən bir sıra Qərb analitikləri «məxməri» ideya eksportunun ziyanlı cəhətlərindən daha aktiv söz etməyə başlamışdılar.

Eləcə də Qırğızıstan inqilabının faktiki yekunları da həm Qərb dairələri üçün, həm də bütövlükdə «məxməri» inqilab ideoloqları üçün xeyli aktual suallar doğurmuşdu. Əvvəla, Qırğızıstanda Akayev rejimini əvəz etmiş hakimiyyət nə real daxili siyasəti, nə də xarici siyasəti ilə öz sələfindən ciddi şəkildə fərqlənmədi. Moskvada sığınacaq tapmış Akayev müxalifət (daha doğrusu, yeni hakimiyyət) nümayəndələri ilə danışıqlar nəticəsində istefa ərizəsinə qol çəkərkən onları Rusiya ilə strateji tərəfdaşlıq kursunu davam etdirməyə çağırmışdı. Öz növbəsində yeni hakimiyyət də elə ilk bəyanatlarından buna əməl edəcəyini bildirdi. «Rusiya bizim strateji tərəfdaşımızdır, həmişə bizə yardım əlini uzadıb və bu tərəfdaşlıq kursu davam edəcək», - deyə inqilabdan sonra XİN başçısı təyin edilən Otunbayeva bildirmişdi. Yəni strateji baxımdan Qərb bu inqilabdan özü üçün

elə bir nəticə əldə etmədi. Üstəlik yeni hakimiyyət ABŞ-dan Bişkek yaxınlığındakı hərbi baza üçün Akayev dövründə olduğundan qat-qat çox icarə haqqı tələb etməyə başladı. Bu məsələdə Vaşinqton Bişkekə qismən güzəştə getsə də, ümumilikdə münasibətlərdə gərginlik qalmaqdadır.

Qırğızıstanın yeni rəhbərliyinin daxili siyasətdə atdığı addımlar, o cümlədən demokratik islahatların ləngiməsi, ölkədə siyasi istiqrarsızlığın davam etməsi də Qərb dairələrində ruh yüksəkliyi doğurmur. Yeri gəlmişkən, inqilabdan sonra ölkənin yeni rəhbərliyini məhz Akayevin seçdirdiyi və müxalifətin qeyri-legitim elan etdiyi parlament təsdiqlədi: Bakiyev Baş nazir və prezident səlahiyyətlərinin icraçısı, həbsdən çıxmış Kulov Daxili işlər naziri və güc strukturlarının rəhbəri, Otunbayeva XİN başçısı təyin edildi. İnqilab hakimiyyəti tezliklə yeni parlament seçkiləri keçiriləcəyini vəd etsə də, buna əməl etmədi. Halbuki inqilab formal olaraq məhz həmin parlamentin saxta yolla seçilməsi üstündə və demokratiya şüarı ilə başlamışdı, amma nəticə bütün qovğanın, sadəcə, hakimiyyət davası olduğunu təsdiqlədi. Təsadüfi deyil ki, inqilab liderlərinin siyasi yolu da tezliklə ayrıldı. 2005-ci il iyulun 10-da Bakiyevin prezident seçilməsinə dəstək verən və əvəzində geniş səlahiyyətli baş nazir postu əldə edən Kulov ilyarım sonra istefa verməyə məcbur oldu və indi «zanbaq» hakimiyyətinin ən sərt müxalifləri sırasındadır. İnqilabın digər lideri Otunbayeva isə Xarici işlər naziri postunda cəmisi bir neçə ay qala bildi və sonradan ona parlamentdə boşalmış yerə seçilməsinə də imkan verilmədi.

Qırğızıstandakı inqilabdan ən çox ruhlanan isə, belə görünür ki, Azərbaycan müxalifəti idi. Özü də müxalifət liderlərinin bəyanatlarından belə qənaətə gəlmək olardı ki, onlar 2005-ci ilin payızında keçiriləcək parlament seçkilərinə, Gürcüstan və Ukraynadakı dinc ssenarilərdən daha ziyadə,

Qırğızıstan inqilabi üslübunda hazırlaşırlar. Yəqin həm də ona görə ki, onlar bir dəfə (1992-ci ilin mayında) hakimiyyətə bənzər yolla gəlmişdilər, 2003-cü ilin oktyabrında isə buna ikinci dəfə uğursuz cəhd etmişdilər. «Zənnimcə, Qırğızıstandakı olayların ölkəmizə təsiri, hətta Ukrayna hadisələrinin də təsirindən böyük olacaq. Elə görünə bilər ki, Azərbaycan cəmiyyətinin bu ölkədəki proseslərə diqqəti Ukraynadakına nisbətən az olub, amma bunun mahiyyətcə təsiri daha böyük olacaq. Məncə, Qırğızıstandakı proseslərdən sonra aydın oldu ki, bizə bunun hamıdan çox dəxli var», - deyə Müsavat başqanı İsa Qəmbər həmin günlər bildirmişdi. Bu sözlərin ardınca isə onun təsisçisi olduğu qəzet yazırdı: «İnqilab Azərbaycana yaxınlaşır. 1992-ci ilin 15 mayından sonra daha bir inqilab. 2003-cü ilin 15-16 oktyabrında yarımçıq qalmış inqilab...» (63).

YEDDİNCİ FƏSİL

MÜXALİFƏTDƏ «İNQİLAB» HƏYƏCANI VƏ «BÖYÜK-KİÇİK» DAVASI

«Ağıllısı hansıdı,qabaqda gedən dəli».
Azərbaycan atalar sözü

«Axmaqlığın dərmanı yoxdur».
Yapon atalar sözü

«Ağıllı özünü günahkar bilər,
ağılsız isə dostunu».
Özbək atalar sözü

«Ağıllı insanlar başqalarının problem
və çətinliklərindən ibrət alırlar,
axmaqlar isə heç öz səhvlərindən
də nəticə çıxarmaq istəsmirlər».
B.Franklin

Əslində, daha öncə də qeyd etdiyimiz kimi, Azərbaycan müxalifətində illüzor «inqilab» həyəcanı hələ Ukraynadakı hadisələrdən sonra başlanmışdı. Gürcüstanın ardınca bu ölkədə də hakimiyyətin dinc inqilab yolu ilə dəyişməsi bizdəki hakimiyyət opponentlərində belə əminlik yaratmışdı ki, onlar da Azərbaycanda eyni ssenarini təkrarlaya bilərlər. Necə deyərlər, onların gürcü və ukraynalı müxalifətçilərdən nəyi əskik idi ki? Hərçənd əskik olan çox şey vardı. Hər şeydən öncə Azərbaycan müxalifətçilərinin, uğurlarına həsəd apardıqları gürcü və ukraynalı həmkarlarından fərqli olaraq, cəmiyyətdə güvəniləcək dəstəyi yox idi və ümumən perspektivdə də görünmürdü. İkinci vacib fərq onda idi ki, bizim müxalifət liderləri özlərinə heç olmasa nisbi dəstək və sosial baza təmin etmək üçün əməli siyasi fəaliyyətlə məşğul olmaq əvəzinə köhnə təşəxxüs və siyasi

müştəbehlikdən əl çəkmək istəmirdilər. Düzdür, müxalif düşərgənin nisbətən realist kəsimi ötənlərdən siyasi dərs alaraq iddialarını mövcud imkanları ilə uzlaşdırmağa çalışırdı. Bu baxımdan mötədil müxalifət partiyalarının 2004-cü ilin dekabrında keçirilən bələdiyyə seçkilərində ümumən aktiv iştirakını qeyd etmək lazımdır.

Təbii ki, siyasi partiya üçün yerli seçkilər vacib özünütəsdiq imkanıdır və inkişaf etmiş Qərb ölkələri də daxil olmaqla dünyanın, demək olar ki, hər yerində siyasi qüvvələr hakimiyyət zirvəsinə yolunu məhz aşağıdan, yerli seçkilərdə ilkin uğurlar qazanmaqla təmin etmiş olurlar. Misal üçün uzağa getməyə də gərək yoxdur. Elə lap qonşuluğumuzda Gürcüstan prezidenti Mixail Saakaşvili 2003-cü ildə «məxməri» inqilabının zəfərinədək özünün və partiyasının siyasi yüksəlişini yerli seçkilərdəki nailiyyətlərdən başlayaraq, Tbilisi bələdiyyəsinin başçısı seçilməklə təmin etmişdi. Azərbaycan müxalifətinin özlərinə vurğun radikal liderləri isə, qeyd etdiyimiz kimi, 2004-cü ilin dekabrında bələdiyyə seçkilərini boykot edərək həmin günlər daha «effektli» siyasi fəaliyyətlə, özgə seçkilərində azarkeşlik edib, mitinqlərdə çəpik çalmaqla məşğul idilər. Əlbəttə, hər bir kəs öz rəğbət (o cümlədən siyasi) və azarkeşliyini nümayiş etdirməkdə azaddır. Bu baxımdan bizim müxalifət liderləri də dünyanın istənilən ölkəsinə səfər edib orada pərəstiş etdikləri siyasilərə yoruluncayadək əl çala bilərlər. Amma bir gerçək də var ki, özünü siyasətçi sayan və ölkəsində hakimiyyətə can atan hər bir kəs, eləcə də onun lideri olduğu partiya buna nail olmaq üçün yalnız öz xalqının etimadına və seçici dəstəyinə arxalanmalı və ona hörmət göstərməlidir.

Azərbaycanda isə özlərini müxalifətin avanqardı sayan və bələdiyyə seçkilərində iştirakı ambisiyalarına sığışdırmayan Müsavat, AXCP və ADP mənasız boykot qərarı ilə az-çox sayda potensial seçicilərinə hörmətsizlik etmələri bir yana, seçkilərə qoşulmuş digər müxalifət partiyalarını təhdid və şantaj etməkdən

də çəkinmir, onları hakimiyyətin siyasi sifarişini yerinə yetirməkdə ittiham edirdilər. Təbii ki, ikincilərin radikallara cavabı da adekvat idi. «Bələdiyyə seçkilərini boykot edən partiyalar bununla xarici qüvvələrin siyasi sifarişlərini yerinə yetirdiklərini ortaya qoyurlar. Əgər onlar yığışıb müzakirələr aparsaydılar, arqumentlərini biz də bilərdik. Birdəfəlik bilmək lazımdır ki, əgər Azərbaycanda hakimiyyətdə təmsil olunmaq istəyirsənsə, mütləq səni seçəcək Azərbaycan xalqından dəstək qazanmalısan», - deyə Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı müxalif həmkarlarının ona ünvanladığı ittihamlara cavabında bildirmişdi (64).

Onu da qeyd etmək lazımdır ki, sözügedən partiyaların boykot qərarlarına rəğmən onların bir sıra üzvləri liderlərinin hədəli çağırışlarına məhəl qoymayaraq fərdi qaydada bələdiyyə seçkilərinə qoşulmuş və bəziləri seçkilərdə uğur qazanmışdılar. Yeri gəlmişkən, 2004-cü il dekabrın 17-də keçirilmiş sayca ikinci bələdiyyə seçkilərində 2730 bələdiyyə üzrə 21 mindən çox bələdiyyə üzvlüyünə 40 minə yaxın namizəd iştirak etmiş və onlardan yarıdan çoxu hakim partiyanın namizədləri, ancaq 3 min nəfəri müxalifət təmsilçiləri idi. Digər tərəfdən, həmin seçkiləri boykot edən partiyalar beş il öncə (1999) keçirilmiş ilk bələdiyyə seçkilərində iştirak etmişdilər. O artıq başqa məsələdir ki, seçkilər nəticədə həmin partiyaların ürəyincə olmamış və onların sosial bazasının çox məhdud olduğunu nümayiş etdirmişdi. Əslində sözügedən partiyaların 2004-cü ildəki boykot qərarı da bu reallıqdan irəli gəlirdi. Bir il öncə prezident seçkilərində ağır məğlubiyyətə uğrayan qüvvələr real imkanlarına bələd idilər və bu üzdən bələdiyyə seçkilərində əldə edəcəkləri faiz göstəriciləri ilə özlərini daha da biabır etmək istəmirdilər.

Təsadüfi deyil ki, prezident İlham Əliyev bələdiyyə seçkilərini boykot edən partiyaların qərarını məhz bu cür izah etmişdi. Dövlət başçısı seçkilər günü jurnalistlərə müsahibəsində

demişdi: «Mən hesab edirəm ki, hər bir siyasi qüvvə istənilən seçkilərdə iştirak etməlidir. Xüsusilə, nəzərə alsaq ki, indi Azərbaycanda seçkilərdə kvorum məsələsi yoxdur, ona görə boykotun heç bir mənası yoxdur. O ki, qaldı onların iştirak etməməsinin səbəblərinə, bunlar da sirr deyildir. Müxalifətin ümumi vəziyyəti, əlbəttə, onlara imkan vermir ki, yerlərdə öz namizədlərinə kömək etsinlər. Ümumiyyətlə, yerlərdə indi müxalifətin nümayəndələri də çox azdır. Müxalifətin indiki zəif vəziyyəti ona gətirib çıxarıb ki, onlar yəqin öz gücünü, yaxud da zəifliyini gizlətmək üçün boykot taktikaları seçiblər». Dövlət başçısı həmin müsahibəsində hakimiyyətin öz opponentləri ilə, bütün mütərəqqi ölkələrdə olduğu kimi, sivil siyasi mübarizə qaydalarına əsaslanan münasibətlər qurmağa tərəfdar olduğunu, lakin müxalifətin radikal kəsiminin bu cür dialoqdan yayındığını da təəssüflə nəzərə çatdırmışdı: «Mən dəfələrlə demişəm ki, on il ərzində bütün seçkiləri uduzan siyasi qüvvələr, əlbəttə, cəmiyyətdə böyük rəğbətə malik ola bilməzlər. Müxalifət yeniləşməlidir, Azərbaycan müxalifətinə yeni qüvvələr, yeni simalar gəlməlidir. Ədavət keçmişdə qalmalıdır, konstruktiv münasibətlər lazımdır. Təəssüf edirəm ki, bizim bütün cəhdlərimizə baxmayaraq, indiki müxalifətin liderləri ilə normal dialoqun yaranması mümkün olmayıbdır. Gələcək göstərər, hər halda indiki vəziyyət məni qane etmir» (65).

Müxalifət rəhbərləri isə ölkədəki siyasi proseslərdə fəal iştirak edib özünə sosial baza qazanmaq, eləcə də hakimiyyətlə normal siyasi rəqabət müstəvisinə keçərək mənasız radikalizm və ifratçılıqdan əl çəkmək əvəzinə yenə kənarda siyasi dəstək axtarışında idilər. Bu baxımdan dünyanın diqqət mərkəzində olan Ukraynadakı siyasi dəyişikliklər fonunda müxalifət liderlərinin bu ölkəyə səfərləri bir anlamda siyasi dəb halına gəlmişdi. Onlara elə gəlirdi ki, Kiyevdə siyasi izdiham içərisində görünməklə, nəhayət, özləri üçün Qərbə «siyasi pəncərə» açmağa

müvəffəq olacaqlar. Qarşıdan gələn parlament seçkilərində belə bir «pəncərə» onlara xüsusilə lazım idi.

Təsadüfi deyil ki, Müsavat başqanı İsa Qəmbər 2005-ci ilin yanvarında yenidən Kiyevə – «Ukraynanın yeni prezidentinin andiçmə mərasimində iştirak etməyə» gedəndə bu dəfə ona «cəbhəçi» lider Əli Kərimli və Milli Demokrat Partiyasının sədri İsgəndər Həmidov da yol yoldaşlığı etmişdilər. Hərçənd bu səfər də nəticə etibarilə onlar üçün bir turist gəzintisindən artıq olmamışdı. Müsavat lideri isə, öncəki səfərində heç olmasa mitinq meydanında ayaqüstü salamlaşdığı Yuşşenkonun bu dəfə heç üzünü də görə bilməmiş, onun Kiyevdə görüşdüyü «yüksək dövlət rəsmiləri» isə parlamentin komitə sədri, «Bizim Ukrayna»nın MSK-dakı nümayəndəsi və bir də «Pora» gənclər təşkilatının sədri olmuşdu.

Yeri gəlmişkən, Müsavat liderinin özünün etiraf etdiyi kimi, onun Ukraynada ən məhsuldar və işgüzar görüşü ilə «Pora»nın rəhbəri Vladislav Kaskivlə olmuş və sonuncu Azərbaycanın müxalifətçi gənclərinə «məxməri» inqilab texnologiyalarını öyrətməyə söz vermişdi: «Məsləhətləşmələr nəticəsində qərara gəlmişik ki, cənab Kaskivin və həmkarlarının yaratmaq istədiyi strukturlarla Azərbaycanın qeyri-hökumət təşkilatlarının əməkdaşlığı məqsədəuyğundur. Ukraynadakı demokratik mübarizə təcrübəsi ilə, dinc mübarizə üsulları ilə Azərbaycandakı sivil mübarizə təcrübəsini tutuşdurmaq, təcrübə mübadiləsi aparmaq üçün görüşlərin keçirilməsi zəruri sayılıb. Bu məqsədlə də onu ölkəmizə dəvət etmişəm. Yəqin ki, uyğun vaxtda bu səfər reallaşacaq. Təbii ki, Azərbaycanda o, ilk növbədə QHT-lərlə, gənclər təşkilatları ilə əlaqələri genişləndirməyi planlaşdırır» (66).

Düzdür, sonradan «Pora»nın lideri səfərlə bağlı sözünün üstündə durmadı və yalnız sentyabrda təşkilatın bir neçə fəalını Bakıya ezam etdi. Lakin bu zaman Azərbaycanın müxalifətçi gənclərinin onlardan nəsə öyrənməsinə, necə deyərlər, ehtiyac

qalmamışdı. Ona görə yox ki, artıq gec idi, ona görə ki, bizim müxalifətçi gənclər, daha dəqiqi, onların avanqardı adına iddia edən və AXCP sədri Əli Kərimlinin xüsusi himayəsi altında olan «Yeni Fikir»çi gənclər inqilab etmək üçün Ermənistan xüsusi xidmət orqanlarının simasında başqa sponsorlar və siyasi texnoloqlar (irəlidə bu məsələyə qayıdacağıq) tapmışdılar.

Sözsüz ki, müxalifət təmsilçilərinin xarici səfərləri və planlaşdırılan «məxməri» ssenarilər üçün dəstək arayışları təkcə Ukrayna ilə məhdudlaşmırdı. Əksinə, hakimiyyət opponentləri gələcək siyasi planları üçün başlıca dəstəyin məhz okeanın o tayından – Vaşinqtondan almaq gərəkdiyini yaxşı başa düşürdülər. 2005-ci ilin fevralında ABŞ-da «MDB məkanında «məxməri inqilab»ların perspektivi» adlı konfransda iştirak edən AXCP rəhbəri Əli Kərimli və «Azərbaycan Naminə İctimai Forum»un rəhbəri Eldar Namazov ölkə müxalifətinin bu istiqamətdə ümidlərini diqqətə çatdırmağa çalışmışdılar. Üstəlik ABŞ prezidenti Corc Buşun 2005-ci ilin yanvarında ikinci səlahiyyət müddətinə başlayarkən söylədiyi inauqurasiya nitqi bizim müxaliflərdə «narıncı» duyğular doğurmuşdu. Buş həmin nitqində Amerikanın xarici siyasət prioritetləri sırasında dünyada demokratik hərəkatların dəstəklənəcəyini xüsusi qeyd etmişdi. Dünyanın bir nömrəli fövqəldövlətinin başçısının bu bəyanatı, üstəlik Ukraynadakı məlum hadisələr fonunda bir çox ölkələrdə, ələlxüsus da postsovet məkanında çeşidli spekulyasiyalara rəvac vermiş, o cümlədən özlərini Azərbaycanda demokratik hərəkatın öncülləri sayan müxalifət liderləri Buşun məhz bizim ölkədən və onlardan söz etdiyi qənaətinə gəlmişdilər.

Hərçənd bu məsələdə realist davranan və həmkarlarını illüziyaya varmamağa çağıran müxalifət təmsilçiləri də vardı. «Ümidsizliyə düşmüş Azərbaycan müxalifətini xaricdə demokratiya barəsində səslənən istənilən bəyanat ruhlandırır. Başa düşmək lazımdır ki, hakimiyyətin dəyişməsi xarici

qüvvələrin yox, Azərbaycan xalqının əlindədir. Xalq yalnız o halda buna gedər ki, hakimiyyətə güclü və cəlbedici alternativ görsün. İnsanlar müxalifətdə vicdanlı, güclü və intellektual lider görmək istəyirlər. Lakin onlar görəndə ki, bu həmin o şəxslərdir ki, dəfələrlə öz tərəfdarlarını məğlubiyyətə gətiriblər, bu zaman xalq hakimiyyəti dəyişmək istəməz», - deyə keçmiş sosial-demokrat, indi isə müstəqil politoloq Zərdüşt Əlizadə radikal müxalifətin «məxməri» illüziyalarını şərh edərkən bildirmişdi. Onun həmkarı, keçmiş müsavatçı Rasim Musabəyov isə demokratiyanın inkişafını yalnız inqilabda görənlərin yanıldığını bildirərək bu prosesin təkamül yolu ilə daha effektli nəticə verdiyini və Azərbaycanda da prosesin məhz bu istiqamətdə getməsinin arzuedilən olduğunu vurğulamışdı: «Azərbaycanda belə bir imkan var ki, hakimiyyət özü demokratik dəyişikliklər prosesini idarəolunan bir rejimdə həyata keçirsin» (67).

Qarşıdan gələn parlament seçkiləri ilə bağlı xaricdə dəstək arayışına çıxan müxalifət liderləri bu arada hakimiyyətdən müxtəlif dairələrə şikayətlənmək kimi köhnə adətlərindən də qalmırdılar. Özü də onların bu giley-güzarı hər dəfə yeni əcaib forma alırdı. Bu baxımdan 2005-ci ilin fevralında Müsavat, AXCP, ADP, Xalq, Ümid, Milli Demokrat və s. partiyaların adından bir sıra xarici ölkə rəhbərlərinə ünvanlanmış müraciət absurd mahiyyətilə xüsusilə diqqət çəkirdi. Müxalifət mətbuatının gen-bol təbliğ etdiyi müraciətdə hakimiyyətin opponentləri ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, hətta Gürcüstan və Türkiyə rəhbərlərinə müraciət edərək onlardan prezident İlham Əliyevi ölkələrinə səfərə dəvət etməməyi xahiş edirdilər. Əslində radikal müxalifət düşərgəsinin ondan öncə də dəfələrlə bu cür düşük addımlar atdıqlarını, o cümlədən müxtəlif beynəlxalq dairələrdən, özəlliklə Avropa Şurasından Azərbaycana qarşı sanksiyalar tələb etdiklərini nəzərə alsaq, sözügedən müraciətə diqqət yetirməmək də olardı. Bununla belə, bir məqamı qeyd etməmək olmur. Fəaliyyətlərinin

böyük hissəsini xaricdə dəstək arayışında keçirən, hansısa üçüncü dərəcəli bir əcnəbi hökumət rəsmisi ilə yanaşı fotoşəkil çəkdirməklə qürrələnən müxalifət təmsilçiləri dərk (daha doğrusu, etiraf) etmək istəmirdilər ki, dövlətlər arasında münasibətlər hansısa siyasi marginalların istək və tələbi üzərində qurulmur. Üstəlik əgər söhbət Azərbaycan kimi regionun strateji bir dövlətindən və onunla qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olan xarici tərəfdaşlardan gedirsə, onda bu cür siyasi «şikayətnamələr», ümumiyyətlə, gülüş doğururdu.

Məsələnin bir absurd tərəfi də onda idi ki, müxalifət liderlərinin sözügedən müraciətinədək prezident İlham Əliyev yuxarıda sadalanan ölkələrdən ABŞ istisna olmaqla hamısında (özü də prezidentliyinin ilk ilində) artıq rəsmi səfərlərdə olmuşdu və həmin səfərlər ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu təsdiqləmişdi. O ki, qaldı prezidentin ABŞ-a səfərinə, ki buna müxalifət dairələri xüsusilə xəstəhal bir həssaslıqla yanaşırdılar, Vaşinqton-Bakı strateji münasibətlərin yüksək səviyyədə olduğu bəlli gerçək idi, öncəki dövrdə dəfələrlə təsdiqlənmişdi və 2006-cı ildə İlham Əliyevin ABŞ-a rəsmi səfəri də bunu bariz nümayiş etdirdi. Bu baxımdan müxalif liderlərin «İlham Əliyev ABŞ-a dəvət olunmur» tipli spekulyasiyaları tənqidə tab gətirməyəcək dərəcədə mənasız idi. Bir də ki, dövlətlərarası münasibətləri yalnız qarşılıqlı səfərlərlə ölçmək diplomatiya və siyasətdən baş çıxarmayanların ağlına gələ bilər. Ona qalırsa, Türkiyənin (hər halda bu ölkənin ABŞ-la müttəfiqliyinə heç kim şübhə etmir) prezidenti Əhməd Necdət Sezər 7 illik prezidentliyi dövründə bir dəfə də olsun ABŞ-a səfər etmədi, Baş nazir Rəcəb Tayyib Ərdoğan isə bu vəzifəni tutandan ancaq iki il yarım sonra Vaşinqtona rəsmi səfər etmişdi.

Bir sözlə, bütün bu iddialar müxalifət rəhbərlərinin siyasi demaqogiya və möhtəkirliyindən savayı bir şey deyildi. Digər tərəfdən, radikal müxalifət Qərb dairələrinə ünvanlanan bu cür

«şikayətnamə»ləri tiraclamaqla nəticə etibarilə həmin dairələrin heç olmasa diqqətini çəkmək, maksimum məqsəd olaraq isə müəyyən dəstək qazanmağı düşünürdü. Müsavat başqanı Qəmbər bunu açıq ifadə etmişdi: «Qərbin dəstəyi olmadan, beynəlxalq dəstək olmadan hakimiyyəti dinc yolla dəyişmək mümkün deyil. Mən bunu dəfələrlə təkrar edirəm... Siyasi qüvvələrin, qeyri-hökumət təşkilatlarının, cəmiyyətin müəyyən hissəsinin fəallığı və beynəlxalq birliyin addımları – bu amillər bir-birini tamamlamalı və stimullaşdırmalıdır. Hələliksə addım-addım irəli getmək lazımdır. Belə bir inam bizdə yaranan kimi cəmiyyətə tam arxayın şəkildə çağırışlarımızı edəcəyik ki, bəli, hərəkətə keçmək lazımdır və dəyişikliklər mütləq olacaq» (68).

Müsavat başqanı bu tezisləri bəyan edərkən, göründüyü kimi, özü də əmin deyildi ki, həsrətində olduqları dəyişikliyi, «inqilabı» həyata keçirmək üçün istər xaricdən, istərsə də ölkə daxilindən, cəmiyyətdən umduqları dəstəyi ala biləcəklər, yoxsa yox. Çünki zahirən özünəarxayın görünməyə və bununla öz ambisiyalarını ictimai rəyə sırımağa hər nə qədər çalışsalar da, gerçəkdə imkan və bacarıqlarının kasadlığını bilirdilər. Ona görə də müxalifət ideoloqları «qonşudan qalma dala» prinsipi ilə öz sıralarında «məxməri» həyəcana start versələr də, onun cəmiyyətdə adekvat impuls doğuracağı sarıdan bədgüman idilər. Təsadüfi deyil ki, Azərbaycanda «məxməri» inqilab perspektivlərindən söz edərkən bunun reallıqdan ziyadə arzu olduğunu faktiki etiraf edirdilər. Müsavat başqanının müavini və partiyanın aparıcı «politoloji qafası» sayılan Qabil Hüseynli bununla bağlı məqaləsində yazırdı: «Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin bu günlərdə yayılmış məlumatına inansaq, 2020-ci ilədək «məxməri» inqilablar dünyanın daha 36 ölkəsində baş tutmalıdır. Özü də MDB məkanında belə inqilabların baş vermə müddəti 3-5 il arasında nəzərdə tutulur. Kifayət qədər cəzbedici rəqəmdir, deyilmi? Bu prosesdən geri qalmamaq üçün hamı tərpənməyə çalışır. Elə Azərbaycan müxalifəti də, Azərbaycan

müxalifətinin əsas hissələrinin birləşərək Azad Seçki Forumu yaratmasını «məxməri» inqilab arzusu ilə yaşayanların siyasi iradələrini ortaya qoyması kimi də yozmaq olar. Parlament seçkiləri ərəfəsində belə iradənin ərsəyə gəlməsi kifayət qədər örnəkvericidir» (69).

Azad Seçki Forumu gələcək «inqilab triosu»nun – Müsavat, AXCP («islahatçılar») və ADP-nin təşəbbüsü ilə ortaya çıxan və parlament seçkilərində müxalifətin vahid fəaliyyət mərkəzi kimi düşünülən uğursuz formatlardan birincisi idi. Onun uğursuzluğu isə artıq ilk mahiyyətində özünü göstərirdi. Formal olaraq seçki qanunvericiliyinə dəyişikliklər edilməsi və azad seçki şəraiti formalaşdırmaq üçün müxalifətin geniş təbəqəsini bir araya gətirmək məramı ilə elan edilən qurumun gerçək məqsədi sözügedən üç partiyanın müxalif düşərgədə inhisarını təmin etmək və qalan partiyaları bu üçlüyün diqtəsinə tabe etdirmək idi. Əslində bu format Müsavat və AXCP-nin, İsa Qəmbərlə Əli Kərimlinin ittifaqı kimi meydana gəlmişdi və bu cütlüyün Rəsul Quliyevin rəhbərlik etdiyi ADP-ni də «bərabər əsasda» sıralarına qəbul etməsi bəlli konyuktur mənafelərdən irəli gəlirdi. 10 ilə yaxın okeanın o tayında siyasi sərgərdanlıq edən və yalnız seçkidən seçkiyə diqqətə gələn eks-spiker yenə müxalifətdəki həmkarları üçün yalnız pul kisəsi ilə əhəmiyyətli idi. Müxalifət isə bu dəfə sadəcə seçkiyə deyil, «inqilaba» hazırlaşdığından pul əvvəlki vaxtlardakından daha çox lazım idi.

Digər tərəfdən, «inqilab triosu»nun özəyini təşkil edən Müsavat və AXCP arasında barışmaz rəqabət də hər kəsə bəlli olduğundan bu müttəfiqliyin uzun sürməyəcəyi şübhə doğurmurdu. Təsadüfi deyil ki, hələ yanvar ayında, yəni Qəmbərlə Kərimli arasında mümkün koalisiya ilə bağlı ilkin müzakirələr başlandığı vaxt onların himayə etdiyi mətbuat səhifələrində bu iki liderdən hansının gələcək «məxməri» inqilabın rəhbəri olacağı barədə diskussiyalar başlanmışdı və təbii ki, tərəflərdən hər biri «yorğanı» öz üstünə çəkirdi. Eyni

zamanda, Müsavat və AXCP-nin nəzarətində olan mətbuat ADP-yə gələcək «inqilab piroqu»ndan az bir pay ayıraraq bu partiyanın onsuz da sosial bazasının zəif olduğuna işarə vururdular. Necə deyərlər, müxalifətdə daha öncəki seçkilərdə olduğu kimi, «öldürülməmiş ayının dərisinin bölüşdürülməsi» üstündə qızğın mübahisə başlanmışdı.

Odur ki, belə bir fonda bir-biri ilə daima rəqabətdə olmuş və öncəki seçkilərdə dəfələrlə uğursuzluq cığırının sonuna gəlmiş qüvvələrin birləşməsi də, sadəcə, «inqilab» həvəsi ilə qurulan məcburi və müvəqqəti işbirliyi idi. Belədə həmin üçlüyün ətrafında əlavə müxalifət qüvvələrinin birləşməsi də faktiki olaraq mümkün deyildi. Ən azı ona görə ki, yerdə qalan qüvvələr bu üçlüyün qeyri-səmimi əsaslarla təşəkkül tapdığını çox yaxşı bilirdi. Bu baxımdan xüsusilə Müsavatın öncəki seçkilərdə müxalifətdaxili proseslərdə oynadığı dezinteqrasiya rolu yenə aktual idi. 2000-ci ilin parlament seçkiləri öncəsi müxalif düşərgədəki əzəli rəqibi olan AXCP-nin parçalanması üçün hər şeyi edən və partiyanın «klassiklər» qanadı (Mirmahmud Mirəlioğlu) ilə müttəfiqlik edən Müsavat bu dəfə prioritetləri dəyişmişdi. İndi İsa Qəmbər «islahatçıları» AXCP olaraq tanıyaraq Əli Kərimli ilə ittifaq qurmaqda idi. Motivlər də aydın idi. 2000-ci ildə Müsavat «islahatçılar»la (daha dəqiqi, Qəmbər Kərimli ilə) vahid proporsional siyahısı üzərində anlaşa bilməmiş və bu baxımdan faktiki ambisiyaları olmayan «klassikləri» özlərinə yedək seçmişdi. İndi isə proporsional seçki sistemi artıq yox idi və 125 birmandatlı (majoritar sistem) dairə müxalifət liderlərinin uzlaşma imkanlarını qismən artırmışdı. Hərçənd bu uzlaşmanı da hərə öz istədiyi kimi görürdü. Məhz bu baxımdan özünü «müxalifətin əsas gücü və qüdrəti» hesab edən Müsavat-AXCP-ADP üçlüyü «Azad Seçki Forumu»nu təsis edərkən düşərgədən əlavə şərikləri dəvət etməmişdi, yalnız sonradan bildirilmişdi ki, yerdə qalan müxalifət partiyaları da bu formata

qoşula bilərlər. Necə deyərlər, baxıb görərik, kiçik partiyalardan hansına namizədlər siyahısında yer vermək olar.

Təbii ki, bu davranış müxalifətin üçlükdən kənarda qalan əksər partiyalarını ciddi narazı salmış və nəticədə onların da müxtəlif birlik formatları yaranmağa başlamışdı. İlk belə təsisat elə həmin yanvar ayında «Demokratik Seçki Forumu» adı altında Böyük Quruluş (Fazil Qəzənfəroğlu), Vətəndaş Həmrəyliyi (Sabir Rüstəmxanlı), Ədalət (İlyas İsmayılov), Bütöv Azərbaycan Xalq Cəbhəsi (Qüdrət Həsənquliyev) partiyalarının və daha bir neçə təşkilatın təşəbbüsü ilə yarandı. Düzdür, bu təsisat da, «Azad Seçki Forumu» kimi, uzun sürmədi və onun iştirakçıları daha sonra başqa təsisatlara transfer oldular. Başqa müxalifət partiyaları da (o cümlədən Etibar Məmmədovun lideri olduğu Milli İstiqlal Partiyası, Lalə Şövkətin rəhbəri olduğu liberallar və s.) yeni təsisatlar formalaşdırmaq niyyətini gizlətmirdi. Bundan əlavə, yanvar ayında müxalifət düşərgəsində «Həmrəylik və Etimad» adlı seçki alyansının (rəhbəri «Azərbaycan Naminə Hərəkat»ın sədri İlqar Qasımov) yarandığı elan edildi. İlkin bəyanatlarından bu təsisatın Azərbaycanda «üçüncü» qüvvə adına iddialı olduğu görünürdü. Maraqlıdır ki, Müsavat-AXCP-ADP üçlüyü dərhal bu təsisatı rusiyameylli elan edərək ona qarşı informasiya təbliğatına başladı. Hərçənd sözügedən format nə gerçək resurslarını, nə də haraya meylli olduğunu heç nümayiş etdirməyə imkan tapmayaraq sıradan çıxdı.

Yeri gəlmişkən, həmin dövrdə Rusiyanın Azərbaycandakı ayrı-ayrı partiya və təşkilatların vasitəsilə gələcək parlamentə «öz adamlarını» keçirmək planları barədə spekulyasiyalar mətbuatda xeyli yayılmışdı. Hətta rusiyalı jurnalistlər prezident İlham Əliyevdən onun Moskvaya səfəri öncəsi bu mülahizələrə münasibətini də soruşmuşdular. Öz növbəsində prezident Azərbaycan seçkilərində nə Rusiya, nə də digər xarici ölkə faktorunun rol oynamayacağını birmənalı şəkildə nəzərə

çatdırmışdı: «Əgər Azərbaycanda bundan öncə keçirilmiş seçkilərə baxsaq, aydın olar ki, həmin seçkilərdə xarici faktor rol oynamayıb. Azərbaycanın iqtisadi qüdrəti, dünyada və regionda rolu gücləndikcə xarici amillərin təsiri daha da minimuma endirilir. Azərbaycan müstəqil siyasət yeritmək gücündədir və praktik olaraq heç kimin bizə təsir etmək rıçaqı yoxdur. Və bu yaxşıdır, çünki yalnız güclü, müstəqil tərəfdaşla normal, etibarlı münasibətlər qurmaq olar. Başqasından asılı olan ölkə isə əvvəlcədən zəif ölkədir və ondan hər şey gözləmək olar. Çünki bu gün bir ölkədən asılı olan sabah başqasından asılı ola bilər. Azərbaycanın bugünkü inkişafının dəyəri də ondadır ki, biz milli maraqlarımızı əks etdirən müstəqil siyasət yeridirik» (70).

Müxalifətdəki vəziyyətə qayıdaraq onu da qeyd etmək istərdik ki, bu düşərgədə «böyük-kiçik» davası əslində hər seçki kampaniyasında ortaya çıxıb. Məsələn, 2003-cü ilin prezident seçkilərində İsa Qəmbər bir adı, bir sədri, bir də sədrin qoltuğunudakı «papka»dan ibarət olan «partiyaları» lideri olduğu «Bizim Azərbaycan» blokunda toplayanda müxalifətdəki bəzi həmkarları bunu ona irad tutmuşdular. Lakin o zaman Müsavat başqanına prezidentliyə namizəd kimi bu cür geniş dekorativ fon çox lazım idi. Parlament seçkilərində isə kiçik partiyalar, sadəcə, fon olmaqla kifayətlənmək istəmirdilər, onlara deputatlığa namizədlər siyahısında yer də ayırmaq gərək idi. Ona görə də 2005-ci ilin parlament seçkiləri öncəsi isə həm Müsavat, həm də AXCP və ADP kiçik partiyaları özlərinin «inqilab» qatarına real şərik etməkdən qaçaraq onlara ən yaxşı halda «parovoz»da iddiasız körükçü rolu ayırmağa hazır idilər.

Başqa sözlə, radikal müxalifət liderlərinin ambisiyaları lap əvvəldən müxalifətin ən geniş seçki koalisiyasının yaranmasını mümkünsüz etmişdi. Eyni zamanda, onlar özlərindən savayı düşərgədə ortaya çıxa biləcək istənilən başqa təsisatı düşmən elan etməyə hazır idilər: «Müxalifətin real güc mərkəzi qələbənin yarısıdır. İndiki halda, ictimai rəy müxalifətin vahid seçki

blokunun mərkəzini konkret təsəvvür edir. Bu, AXCP, Müsavat, AMDP və ADP-nin təsis edə biləcəyi mərkəzdir. Bütün başqa siyasi birləşmə təşəbbüsləri yalnız o halda alqışlana bilər ki, onlar məhz bu mərkəzin gücləndirilməsinə xidmət etmiş olsun. Bu güc mərkəzi özünün seçki taktikasına qarşı çıxan hər bir təşkilatı və ya şəxsi özünə qarşı elan etməlidir. Xırda təsisatlarla "məzələnmək" köhnə nəticələrdən başqa heç nə doğura bilməz» (71).

Maraqlıdır ki, «Azadlıq» qəzetinin baş yazarının bu sitatda müxalifətin ön cəbhəsində yer ayırdığı İsgəndər Həmidovun Milli Demokrat Partiyasını sonradan «inqilab triosu» çıxdaş elədi. Halbuki cəmisi bir neçə ay öncə, 2004-cü ilin sonunda AXCP və MDP uzunmüddətli müttəfiqlik sazişi imzalamışdı. Lakin, görünür, Müsavatla «dil tapandan» sonra Əli Kərimlinin bu müttəfiqliyə ehtiyacı qalmamışdı. Yeri gəlmişkən, bu Əli Kərimlinin ilk belə hərəkəti deyildi. 2003-cü ilin prezident seçkilərində o, AMİP lideri Etibar Məmmədovun prezidentliyə namizədliyini dəstəklədiyi halda, seçkinin səhərisi Müsavat başqanını müdafiə etməyə başlamışdı. Bütün bunlar bir tərəfdən, müxalifətdə, özəlliklə onun radikal kəsimində siyasi əxlaq və tərəfdaşlıq prinsiplərinin nə dərəcədə aşılandığını göstərirdisə, digər yandan, bu düşərgədə 2005-ci ilin əvvəlindən başlayaraq az qala isterik özünğtəlqinlik halına gəlmiş «məxməri» inqilab təbliğatının de-fakto sabun köpüyü olduğunu göstərirdi. Hətta böyüklü-kiçikli bütün müxalifət düşərgəsi «inqilab» ideyası ətrafında birləşsəydi (hərçənd müxalifətin mötədil kəsimi əvvəlcədən «inqilab» şüarlarını rədd etmişdi) belə, bunun nəticəsi olmayacaqdı. Çünki hakimiyyətin, prezident İlham Əliyevin xalq tərəfindən gördüyü yüksək etimad bu cür ssenariləri, sadəcə, mümkünsüz edirdi.

Öz növbəsində ölkə başçısı aparılan uğurlu daxili və xarici siyasətin, özəlliklə əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlərin hələ Azərbaycanın sürətli inkişafı

yolunda ilk mərhələ olduğunu qeyd edərək daha böyük nailiyyətlərin irəlidə olduğunu vurğulayırdı. Məhz buna görə də müxalifətin seçki hazırlıqlarına başlamasına rəğmən hakimiyyət bu yöndə tələsmirdi. Çünki nəticədə xalq sözə deyil, real əmələ qiymət verəcəkdi: «Hər bir ölkənin inkişafı üçün ən önəmli məsələlərdən biri də iqtidarla xalq arasında inamın yüksək səviyyədə olmasıdır. Bu, çox mühüm məsələdir. Biz bu inamı qazanmışıq, bu inamı hiss edirik və əlbəttə istəmirik ki, bu inamı itirək. Bu inamı itirməmək üçün gərək yaxşı işləyək, ləyaqətlə işləyək. Verdiyimiz bütün vədləri yerinə yetirək, qarşımıza qoyduğumuz proqramları uğurla icra edək. Əlbəttə, çətinliklər də, çatışmayan cəhətlər də olub. Bu, təbiidir. Amma bütövlükdə 2004-cü ili təhlil edəndə biz görürük ki, qarşımızda duran bütün məsələlər öz həllini tapıb. Nəzərə alsaq ki, 2005-ci ildə ümumi daxili məhsulun artımı hardasa 14-15 faiz civarında (əslində 2005-ci ildə iqtisadi artım proqnozlaşdırıldığından xeyli çox, 26 faiz oldu – müəl.) nəzərdə tutulub, görərik ki, bu artım daha da sürətlə gedəcəkdir. Ancaq güclü dövlət müstəqil siyasət apara bilər. Ancaq güclü dövlətdə insanlar özlərini rahat hiss edə bilərlər. Mənim də məqsədim buna nail olmaqdır» (72).

O ki qaldı «məxməri» inqilabla bağlı müxalifətin arzularına, prezident İlham Əliyev bu barədə birmənalı mövqeyini həm Azərbaycan cəmiyyətinə, həm də bu mövzuda spekulyasiya edən xarici jurnalistlərə ilk günlərdən bildirmişdi: «Azərbaycanda heç bir inqilab gözlənilmir. Bu fikrə düşənlər isə 1993-cü ildən başlayaraq bütün seçkiləri uduzmuş şəxslərdir. Onların bir traqikomik inqilab cəhdi prezident seçkilərindən sonra olmuşdu. Amma bu çox miskin bir mənzərə idi və xalq onları dəstəkləmədi. O yerdə ki xalq hakimiyyəti dəstəkləyir, orada inqilab mümkün deyil. Çünki insanların dəstəyi olmadan heç bir – nə inzibati, nə maliyyə resursu – hakimiyyəti saxlamağa kömək edə bilməz. O vaxtadək ki, Azərbaycanda hakimiyyət xalqın

etimadına malik olacaq, heç bir inqilab da olmayacaq. Mən isə öz tərəfimdən hər şeyi edəcəyəm ki, bu etimad azalmasın» (73).

Sözsüz ki, bu reallıq qarşısında radikal müxalifət qüvvələri üçün «inqilab» ssenarilərini işə salmağın bir yolu qalırdı: ölkədə maksimum siyasi gərginlik atmosferi yaratmaq, sabitliyi pozmağa xidmət edə biləcək istənilən imkandan yararlanaraq seçkiqabağı qarşıdurma və toqquşmalara rəvac vermək. Əslində düşərgə ideoloqlarının parlament seçkilərinə qədər izlədiyi başlıca taktika məhz bundan ibarət olmuşdu və sonrakı müddətdə cərəyan etmiş olaylar da bunu göstərdi. Eyni zamanda, müxalifət liderləri bu taktikaya əlavə olaraq hakimiyyət dəhlizlərinə «arxa qapı»dan girmək niyyətini, ayrı-ayrı iqtidar mənsubları ilə gizli sövdələşmələri də kənara qoymurdular. Çünki onlar bu müddətdə inqilab texnologiyalarını az-çox öyrənmişdilər və hakim elitada ortaya çıxa biləcək konflikt və ya parçalanmanın bu xüsusda müstəsna önəm kəsb etdiyini yaxşı bilirdilər. Lakin hələlik bu istiqamətdə «qazanlar qapalı qaynayırdı» (təbii ki, geniş ictimaiyyət üçün), müxalifət dairələrinin ölkədaxili gərginliyə rəvac verəcək olaylardan, ələlxüsus da kriminal hadisələrdən maksimum sui-istifadə cəhdləri isə ilk gündən göz qabağında idi. Müxalifət dairələri hətta 2005-ci ilin fevralında ölkənin bir neçə cəzaçəkmə müəssisəsində meydana gələn «obşak» davası və lokal iğtişaşlardan da siyasi məqsədlər naminə yararlanmağa cəhd etmiş, az qala bu aksiyanı hakimiyyətə qarşı «inqilab qığılcımı» kimi təqdim etməyə başlamışdı. Lakin radikal müxalifət üçün nə qədər təəssüfedici olsa da, hüquq-mühafizə orqanları qısa müddətdə bu aksiyanın qarşısını almış və cəzaçəkmə müəssisələrinin cinayətkar ünsürlərin müdaxiləsi və «oğru qanunları» ilə idarə olunmasına imkan verilməyəcəyini bəyan etmişdilər. Müxalifət isə ictimai rezonans doğura biləcək növbəti hay-küylü kriminal olaylar intizarında idi və mart ayı bu baxımdan onlar üçün «göydəndüşmə» oldu.

SƏKKİZİNCİ FƏSİL

KRİMİNAL ÜZƏRİNDƏN SİYASƏT - «ÜÇLƏR»İN BƏDNAM SEÇKİ TAKTİKASI

«Yaramaz adam bir anda,
təmiz adam isə illər ötdükdən
sonra tanınır».
Demokrit

«Arif ol, arif, atma vicdanı,
Ara qəlbində dinü imanı».
H.Cavid

«Yalnız özünü yalan, azğınlıq və
abırsızlıq zirehinə bürümüş şəxs
vicdan məhkəməsindən çəkinməz».
M.Qorki

2005-ci il martın 2-də «Monitor» jurnalının baş redaktoru Elmar Hüseynov qətlə yetirildi. O, axşam evinə gələrkən yaşadığı binanın girişində tapançadan açılan atəşlə öldürülmüşdü. Bu qətl hadisəsi təkcə ölkə daxilində deyil, xaricdə də geniş rezonans doğurdu. Bunun bir neçə səbəbi vardı. Əvvəla, ictimai-siyasi sabitlik şəraitində yaşayan ölkədə belə hay-küylü kriminal olayları hər zaman böyük əks-səda və ajiotaj yaradır. Digər tərəfdən, Azərbaycanda ilk dəfə olaraq jurnalist dinc şəraitdə qətlə yetirilmişdi və qətlin sifarişli olduğu aydın idi. Üstəlik qətlə yetirilən jurnalist radikal mövqeli və açıqfikirli nəşrə rəhbərlik edirdi və bu üzdən hakimiyyət mənsubları ilə müəyyən problemləri olan şəxs idi. Nəhayət, qətl hadisəsi Azərbaycanda mühüm seçki kampaniyası ərəfəsində meydana gəlmişdi. Bu fakt xüsusilə xarici şərhçilər tərəfindən dərhal vaxtilə Gürcüstanda (telejurnalist Sanayanın öldürülməsi) və Ukraynada (müxalifətçi

jurnalist Qonqadzenin qətlə yetirilməsi) baş vermiş bənzər hadisələrin bu ölkələrdəki siyasi proseslərə təsiri ilə müqayisədə nəzərdən keçirilməyə başlandı.

Odur ki, hadisədən dərhal sonra cəmiyyətin nəzər-diqqəti ilk növbədə hakimiyyətə yönəldi. Çünki hakimiyyətin bu məsələ ilə bağlı tutacağı mövqe, atacağı addımlar ictimai rəyin bu və ya digər istiqamətdə köklənməsi üçün əsas meyar olacaqdı. Bu baxımdan prezident İlham Əliyevin hadisəyə dərhal reaksiya verməsini və bütün hüquq-mühafizə orqanlarının qətlin istintaqına səfərbər edilməsini qeyd etmək lazımdır. Hadisənin ertəsi gün, 3 mart 2005-ci il tarixdə Prezident yanında Təhlükəsizlik Şurasının iclası keçirildi. Dövlət başçısı bu hadisəni Azərbaycanda demokratiya və söz azadlığına vurulmuş zərbə kimi qiymətləndirdi və bu qətlin arxasında ölkə üçün mühüm hadisələrin gözlənildiyi bir vaxtda (parlament seçkilərinə hazırlıq, Bakı-Ceyhan kəmərinin işə salınması) sabitliyi pozmaq, Azərbaycanın beynəlxalq imicinə xələl gətirmək niyyətlərinin durduğunu bildirdi: «Bu, müstəqil Azərbaycanın tarixində ilk belə hadisədir ki, hansısa mətbuat orqanının rəhbəri, yaxud da işçisi öldürülür. Biz Azərbaycanın inkişafının bütün məqamlarında xaricdən və daxildən qaynaqlanan bir çox sui-qəsdlərin şahidi olmuşuq. Yaxın aylarda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi başa çatdırılacaq. Azərbaycan növbəti parlament seçkilərini keçirməyə hazırlaşır. Belə bir məqamda jurnalistin qətlə yetirilməsi Azərbaycanın demokratik inkişafına vurulan ağır zərbədir. Bu hadisəni törədənlər Azərbaycanın beynəlxalq aləmdə formalaşan imicinə zərbə vurmağa, Azərbaycanı azad sözün boğulduğu bir ölkə kimi təqdim etməyə, seçki ərəfəsində nüfuzdan salmağa çalışırlar» (74).

Prezidentin tapşırığı ilə dərhal Daxili İşlər Nazirliyi, Respublika Prokurorluğu və Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarından ibarət birgə istintaq qrupu yaradıldı. Bundan

əlavə, ölkə başçısının göstərişi ilə qətl hadisəsinin təhqiqatı üçün xarici ölkələrdən – ABŞ və Türkiyədən ekspertlər dəvət edildi, həmçinin bu işə Rusiya və Fransa kriminalistlərinin də cəlb edildiyi bildirilirdi. Eyni zamanda, istintaqa ictimai nəzarətin təmin edilməsinə, müstəqil ictimai istintaqın aparılmasına şərait yaradıldı. Prezident mərhumun dövlət səviyyəsində dəfn edilməsi, habelə ailəsinə diqqət və qayğı göstərilməsi barədə göstərişlər verdi. Bütün bu addımlarla prezident cəmiyyətə birmənalı şəkildə nümayiş etdirdi ki, baş vermiş qətlin açılmasında dövlət başçısı olaraq o şəxsən maraqlıdır, çünki bu hadisədən müxtəlif qüvvələrin həm Azərbaycan dövlətinə, həm də bilavasitə hakimiyyətə qarşı sui-istifadə edəcəyi yəqin idi.

Dövlət başçısı bu məqamı hadisə ilə bağlı mətbuata verdiyi xüsusi bəyanatda bir daha diqqətə çatdırmışdı. Prezident vurğulamışdı ki, Azərbaycanın sürətli inkişaf yoluna qədəm qoyduğu, regionda liderlik mövqelərini möhkəmləndirdiyi bir vaxtda belə hadisəni törədənlər ölkədəki sabitliyi pozmaq, ələlxüsus da parlament seçkiləri öncəsi qarışıqlıq və gərginlik yaratmaq məqsədi güdüblər: «Azərbaycan indi öz müstəqilliyinin, bəlkə də, ən vacib ilini yaşayır. 2005-ci il bütün cəhətlərdən - iqtisadi, regional inkişaf, siyasi cəhətdən həlledici il olacaqdır. Ona görə belə təxribatların, vəhşi hərəkətlərin baş verməsi, əlbəttə, bizi çox narahat edir. İlk növbədə, ona görə ki, gənc insan qətlə yetirildi, onun ailəsi başsız qaldı. Digər tərəfdən, ümumiyyətlə, bəzi qüvvələr bu vəziyyətdən öz maraqlarını təmin etmək üçün istifadə edə bilərlər. Həm daxili, həm də xarici dairələr bundan istifadə edə bilərlər. Çünki Azərbaycanda mövcud olan indiki ictimai-siyasi sabitliyi hansısa bir üsullarla, yaxud da bir hərəkətlə pozmaq mümkün deyildir. Ciddi bir hadisə baş verməlidir ki, Azərbaycanda bu sabitliyə hansısa bir zərbə dəysin. Belə olan hallarda adətən sual verilir ki, bu qətl kimin xeyrinədir? Əgər biz bu suala cavab versək görərik ki,

kimin xeyrinədir. Hər halda, Azərbaycan iqtidarının xeyrinə deyildir. Azərbaycanda vəziyyəti gərginləşdirmək istəyən, Azərbaycanda bu müsbət meyllərin qarşısını almaq istəyən dairələrin, qüvvələrin marağındadır» (75).

Prezident bəyanatında onu da xüsusi vurğulamışdı ki, qətlə yetirilən jurnalist siyasi baxışlarından asılı olmayaraq Azərbaycan vətəndaşıdır və o, dövlət başçısı olaraq bundan sonra da söz və mətbuat azadlığının müdafiəsində dayanacaq, çünki azad mətbuat Azərbaycan dövlətinin əldə etdiyi mühüm nailiyyətlərdən biridir. Prezidentin bu fikri xüsusilə önəmli idi. Çünki E.Hüseynovun qətlindən sonra müxalifət dairələri, o cümlədən müxalifət mətbuatı dərhal belə bir təbliğata start verdi ki, «Monitor» müxalifət nəşri olduğu üçün qətlin sifarişçilərini də hakimiyyət dairələrində axtarmaq lazımdır. Halbuki «Monitor» jurnalı fəaliyyət göstərdiyi dövrdə həm də müxalifəti tənqid edən nəşr kimi tanınmışdı: «Azad mətbuat bizim əldə etdiyimiz ən böyük nailiyyətlərdən biridir. Vaxtilə senzura məhz Heydər Əliyevin dövründə aradan götürüldü və bu gün Azərbaycanda mətbuat azadlığı var və bu, reallıqdır. Bu azadlığı heç kim boğa bilməz və ümumiyyətlə, bunu etmək mümkün deyildir. «Monitor» jurnalı uzun illərdir fəaliyyət göstərir. Onun özünə xas olan mövqeyi var. Azərbaycanda hər bir mövqeyə hörmətlə yanaşılır. Əlbəttə, bu jurnalın müxtəlif yazıları kimisə qıcıqlandıra bilər. Mən deməzdim ki, bu jurnal müxalifətin bir orqanıdır. Çünki orada iqtidarla müxalifət, demək olar ki, təxminən eyni səviyyədə tənqid edilir. Hesab edirəm ki, hər iki tərəf buna normal baxır. Yəni Azərbaycan cəmiyyəti - onun iqtidarı da, müxalifəti də artıq belə açıq mətbuata öyrəşibdir. Bu qətl məhz azad mətbuatın boğulmasına, yaxud da başqa maraqların güdülməsinə yönəlmişdir» (76).

Bu qətlin üstünü tezliklə açmaq mümkün olmasa da, onun arxasında hansı maraqların güdüldüyü dərhal özünü büruzə

verdi. Radikal müxalifət qüvvələri, fürsət gözləyirmişlər kimi, hadisədən dərhal siyasi məqsədlərlə yararlanmağa, E.Hüseynovun adını özlərinin xəbis siyasi kampaniyalarına alət etməyə başladılar. Halbuki prezident həm Təhlükəsizlik Şurasının iclasında, həm də mətbuata bəyanatında bu hadisədən sui-istifadənin yolverilməzliyini vurğulayaraq müxalifət qüvvələrini bir ailənin faciəsindən siyasi məqsədlər naminə yararlanmamağa və siyasi mübarizəni vicdanla, ləyaqətlə aparmağa çağırmışdı: «Bəzi qüvvələr bu olaydan istifadə edib öz siyasi maraqlarını güdəcəklər. Biz buna imkan verə bilmərik. Mən təəssüf edirəm ki, bu insanın faciəsi, ailənin faciəsi kiminsə əlində alətə çevrilə bilər. Hesab edirəm ki, bu, yolverilməzdir. Bu hadisədən heç bir siyasi kampaniya düzəltmək olmaz. Hesab edirəm ki, bütün siyasi qüvvələr özlərini təmkinlə aparmalıdırlar. Bu məsələdən şəxsi ambisiyalar naminə heç kim istifadə etməməlidir» (77).

Eyni zamanda, hakim Yeni Azərbaycan Partiyası E.Hüseynovun qətlini pisləyən bəyanat yaydı və siyasi opponentlərini bu hadisədən siyasi kampaniya düzəltməməyə çağırdı. Bundan əlavə, «Monitor»un baş redaktorunun dəfni öncəsi iqtidar və müxalifət təmsilçiləri arasında keçirilmiş görüşdə bu mərasimin siyasi tədbirə çevrilməməsi barədə ümumi razılıq da əldə olundu. Lakin hakimiyyətin bu çağırışına və əldə olunmuş razılığa rəğmən AXCP-Müsavat-ADP üçlüyünün öncüllük etdiyi radikal müxalifət hadisədən hakimiyyətə qarşı növbəti ittihamlar seriyasını başlamaq üçün istifadə etdi.

Bu baxımdan AXCP sədri Əli Kərimli xüsusi canfəşanlıq göstərirdi. Hələ martın 2-si axşam gecə, qətldən dərhal sonra hadisə yerinə gələn Ə.Kərimli mərhum jurnalistin qanı üzərində «alovlu inqilabi çıxış» etmiş və bu hadisədən hakimiyyətə qarşı siyasi kampaniya olaraq istifadə edəcəklərini, o cümlədən E.Hüseynovun dəfn mərasimini geniş etiraz mitinqinə

çevirəcəklərini bildirmişdi. Martın 4-də Ə.Kərimli və tərəfdarları AMEA-nın binasında jurnalistlə vida mərasimini siyasi şouya çevirməyə cəhd etdilər və bu qeyri-mənəvi, siyasi xəbislikdən doğan hərəkət istər mərhumun yaxınları, istərsə də ictimaiyyət tərəfindən haqlı narazılıqla qarşılandı. Əslində Ə.Kərimli və tərəfdarları milli-mənəvi adət-ənənəyə, eləcə də müsəlman dini dəyərlərinə zidd olan bu cür davranışı birinci dəfə nümayiş etdirmirdilər. 2000-ci ilin avqustunda onlar öz liderləri Əbülfəz Elçibəyin dəfn mərasimini də beləcə siyasi şouya çevirməyə cəhd göstərmiş, mərasimdə iştirak edən prezident Heydər Əliyevə qarşı hörmətsizlik etmişdilər. Halbuki onların bu yaramaz hərəkəti ilk növbədə mərhum Elçibəyin ruhuna qarşı hörmətsizlik və həqarət idi. Həmin mərasimdə Ə.Kərimli özünü elə aparırdı ki, sanki uzun müddət Xalq Cəbhəsi daxilində ikitirəliyi təşviq edən, «yurd»çu tərəfdarları ilə Elçibəyə qarşı kampaniya aparan heç o deyilmiş. Eləcə də «Monitor»un baş redaktorunun dəfn mərasimində Ə.Kərimli özünə elə əl qatmışdı ki, sanki E.Hüseynovun müxalifət barəsində yazdığı çoxsaylı kinayəli yazıların əsas hədəflərindən biri o deyildi.

Sözsüz ki, şərait və ələ düşmüş siyasi girəvə Ə.Kərimliyə bu faktları «unutdurmuşdu», çünki indi ona mərhum jurnalistin tabutu üzərində siyasət yapmaq və bundan maksimum siyasi xal toplamaq daha önəmli idi. Məhz buna görə AXCP sədri ictimai qınaq doğuran hərəkətindən məmnun idi və bundan ağız dolusu danışırdı: «Əlbəttə, bu hadisəyə prinsipial qiymət verməliydim, bunun siyasi terror olduğunu deməliydim, belə də etdim. Azərbaycan xalqının bu terroru dayandırmaq üçün səfərbər olmasını, ictimai müqavimət təşkil etməsini deməliydim. Biz bütün bunları dedik. Bu mənada öz siyasi borcumuzu yerinə yetirmişik. Hər şeyi düz etmişəm, hesab edirəm ki, hələ bir az da artığını etmək lazım idi» (78).

AXCP sədri «bir az da artığını etmək» dedikdə dəfn mərasimini bir müxalifət mitinqinə çevirə bilmədiklərini nəzərdə tuturdu. Lakin mərhumun ailəsinin etirazı, eləcə də ictimai qınaq onları bu niyyətdən vaz keçməyə məcbur etmişdi. E.Hüseynovun dəfnini siyasi mitinqə çevirməyə müvəffəq olmayan radikal müxalifət bu ssenarini mərhumun yeddi mərasimində həyata keçirməyə çalışdı, bu niyyətə bir sıra KİV mənsubları da qoşuldu və martın 9-na mitinq təyin edildi. Lakin bu çağırışlar cəmiyyətdə adekvat reaksiya doğurmadı, ən əsası isə, mərhumun atası oğlunun ölümündən siyasi məqsədlər naminə yararlanmaq istəyənlərə etirazını bildirərək buna razılıq vermədi. Eyni zamanda, ictimai qurumlar müxalifətin bu hadisədən siyasi kampaniya düzəltmək niyyətinə etirazını bildirdi. Ölkənin nüfuzlu qeyri-hökumət təşkilatlarının 10 mart 2005-ci il tarixli bəyanatında bununla bağlı bildirilirdi: «Bu faciəli hadisədən bəzi siyasi qüvvələrin sui-istifadə etmək və divident qazanmaq cəhdlərini yolverilməz və milli-mənəvi dəyərlərimizə zidd hesab edirik. Siyasətçiləri və KİV orqanlarını yaranmış vəziyyətdən şəxsi və korporativ məqsədlər üçün sui-istifadədən, düşünülməmiş hərəkətlərdən və fikirlərdən, milli maraq və dəyərlərimizə zidd olan hər bir addımdan çəkinməyə çağırırıq».

Radikal müxalifətin bu faciədən yararlanmaq cəhdlərinə paralel olaraq bir sıra kütləvi informasiya vasitələrində, özəlliklə düşərgə mətbuatında E.Hüseynovun qətlinin Azərbaycanda geniş ictimai etiraz dalğasına təkan verəcəyi, hətta bu dalğanın Azərbaycanda «məxməri» inqilaba yol açacağı barədə çeşidli yazılar dərc olundu. Analoji məqalələr bir sıra xarici KİV-lərdə də yer aldı. Lakin bu təxminlər özünü doğrultmadı, hadisəyə beynəlxalq dairələrin münasibəti isə ümumən anlaşıqlı oldu. Baxmayaraq ki, əksər beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası və ATƏT bu qətlin Azərbaycanda söz azadlığı və demokratiya sahəsində problemlərin olduğunun göstəricisi kimi

xarakterizə etdi. Bununla belə, həmin təşkilatların bəyanatlarında Azərbaycan hakimiyyətinin məsələyə münasibəti və qətlin açılması üçün atdığı addımlar təqdir olunurdu.

Bir sözlə, E.Hüseynovun qətli ümumən geniş ictimai rezonans doğursa da, həmin rezonans nəticə etibarilə - daxildə və xaricdə bəzi dairələrin istəyinin əksinə olaraq - ictimai etiraz hərəkatına və siyasi aksiyalara transformasiya olunmadı. Bunun isə bir neçə səbəbi vardı. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi, hakimiyyətin, şəxsən prezident İlham Əliyevin məsələyə operativ müdaxiləsi və atılan addımlar prosesin siyasiləşməsinin qarşısını ümumən aldı. İkincisi, etiraf etmək lazımdır ki, E.Hüseynovun şəxsiyyəti Azərbaycan cəmiyyəti üçün o qədər də populyar və birmənalı qəbul edilib rəğbət bəslənilən bir fiqur deyildi ki, onun qətli ölkədə böyük çalxalanmaya təkan versin. Bu bir faktdır ki, həftəlik 3-4 min tirajla və rus dilində nəşr olunan «Monitor»un mövcudluğundan cəmiyyətin bir çox təbəqələri yalnız baş redaktorun qətlindən sonra xəbərdar olmuşdu. Üçüncüsü, Azərbaycanda əhalinin sosial vəziyyəti, ictimai-siyasi durum böhran həddində deyildi ki, bu qətl hadisəsi əlavə kütləvi narazılıq dalğasına təkan versin. Nəhayət, zahiri hay-küyçülüyə və özündən müştəbehliyə rəğmən radikal müxalifət elə bir sosial bazaya malik deyildi ki, prosesləri siyasi dalğalanma və kütləvi aksiyalar həddinə gətirib nəyəsə nail olsun. Sonuncu məqamı hamıdan yaxşı elə müxalifətin içindəkilər bilirdilər. 2003-cü ilin 15-16 oktyabr iğtişaşlarının ideoloq və təşkilatçılarından olmuş və qanunsuz əməllərinə görə bir neçə həmkarı ilə həbsə məhkum edilmiş Müsavat başqanının müavini Rauf Arifoğlu «Monitor»un baş redaktorunun qətli ilə bağlı yazırdı: «Elmar çox narahat və narazıydı ki, müxalifət süstdü, yatır, mübarizə aparmır. O, mövcud vəziyyəti bu müxalifətlə dəyişməyin mümkünlüyünə inanmırdı. Elmarın qətlindən sonra da bu müxalifət bir şey etməsə, qalxmasa, vəziyyəti dəyişdirmək üçün

təzədən meydana atılmasa, mən özüm o mövqeyə, onun mövqeyinə keçəcəm...» (79).

Siyasi resurs və sosial dayaqlarının məhdudluğuna daxilən əmin olan müxalifət isə seçkiqabağı vəziyyəti bulandırmaq üçün kriminal səciyyəli «kənar amillərdən» yararlanmaq cəhdlərini davam etdirirdi. Martın 10-da Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilmiş «Qara kəmər» əməliyyatı nəticəsində ölkədə uzun müddət adam oğurluğu, qətllər və digər ağır cinayətlər törətmiş bandanın ifşa edilməsi bu baxımdan hakimiyyət opponentlərinə yeni siyasi spekulyasiya mövzusu vermişdi. Lakin, E.Hüseynovun qətl hadisəsindən fərqli olaraq, bu məsələdən müxalifətin hakimiyyətə qarşı sui-istifadə imkanları əvvəlcədən kasad idi. Ən azı ona görə ki, «Qara kəmər» əməliyyatı uğurla başa çatmaqla (o cümlədən bandanın əlində olan sonuncu girovun - Beynəlxalq Bankın prezidentinin həyat yoldaşının azad olunması) yanaşı, son illərdə ölkədə törədilmiş bir sıra dəhşətli cinayətlərin də üstünü açmış və cəmiyyətdə müsbət rezonans doğurmuşdu. Çünki bandanın müxtəlif vaxtlarda törətdiyi cinayətlər ictimai rəydə həm ciddi narahatlıq, həm də dövlət orqanlarının cinayətkarlıqla mübarizəsinin səmərəliliyinə şübhələr yaratmışdı.

Təsadüfi deyil ki, prezident İlham Əliyev «Monitor»un baş redaktorunun qətli ilə bağlı jurnalistlərə müsahibəsində bu məsələyə də toxunmuşdu. Prezident cinayətkarlıqla mübarizə, o cümlədən bir qədər əvvəl (fevral 2005-ci il) bəzi cəzaçəkmə müəssisələrində meydana gələn olaylarla bağlı ən sərt tədbirlər görüldüyünü, o cümlədən hüquq-mühafizə orqanları sistemində köklü kadr və idarəetmə islahatlarının aparıldığını nəzərə çatdırmışdı: «Son müddət ərzində Azərbaycanda, Bakıda baş vermiş xoşagəlməz hadisələr, silahlı basqınlar, adam oğurluğu və nəhayət, bu qətl hadisəsi çox narahatedici simptomlardır. Belə hadisələrin çoxalması və qəddarlığı hamı kimi məni də narahat

edir. Ona görə hüquq- mühafizə orqanlarının qarşısında ciddi tələblər qoyulub...Həbsxanalarla bağlı artıq bir neçə aydır məlumatlar daxil olur. Əlbəttə, mənim tərəfimdən onlar öyrənilir, təhlil edilir və son müddət ərzində kadr dəyişiklikləri elə-belə baş vermədi. Ona görə ciddi tapşırıq verilibdir ki, araşdırma aparılsın və ölçülər götürülsün. Bəzi ölkələrin təcrübəsi onu göstərir ki, əgər vaxtında ciddi tədbirlər görülməsə, cinayətkar aləm ölkədə gedən proseslərə çox güclü şəkildə təsir edir. Biz buna imkan verə bilmərik» (80).

Müxalifətin bu məsələdəki siyasi möhtəkirliyi isə, təbii ki, MTN-nin uğurlu əməliyyatı ilə ifşa edilən bandanın başında hansısa residivist-cinayətkarın deyil, DİN-in Cinayət-Axtarış Baş İdarəsinin baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı Hacı Məmmədovun dayanması faktı ilə bağlı idi. Müxalifət bu faktı – nə az, nə çox – Azərbaycanın kriminallaşmış dövlət olmasının sübutu kimi təqdim edərək buradan ən fantastik nəticələr çıxarmaqda idi. Xüsusilə müxalifət mətbuatı bu faktla bağlı Azərbaycan polisinin və ümumilikdə hüquq-mühafizə orqanlarına qarşı «səlib yürüşü»nə çıxmışdı və Azərbaycanı az qala kriminal mafiya bosslarının idarə etdiyi «banan ölkə» kimi qələmə verirdi. Hərçənd fakta siyasi qərəzçiliklə deyil, real baxan hər kəs üçün aydın idi ki, «paqonlu qulyabanılar» problemi (hüquq-mühafizə orqanları əməkdaşlarının kriminal aləmlə çulğalaşması) dünyanın bir çox ölkələrində, o cümlədən demokratiyanın möhkəm təşəkkül tapdığı Qərbdə də mövcuddur. Odur ki, önəmli olanı dövlətin bu problemlə nə dərəcədə effektiv mübarizə aparmasıdır. Bu baxımdan, sözsüz ki, MTN-nin həyata keçirdiyi əməliyyat Azərbaycan dövlətinin mütəşəkkil kriminal üzərində mühüm qələbəsi idi və dövlətin gücünü nümayiş etdirmişdi.

Prezident İlham Əliyev bu əməliyyatı Azərbaycanın müasir tarixində mütəşəkkil cinayətkarlığa qarşı ən uğurlu əməliyyat

kimi xarakterizə etmiş, krminal ünsürlərə qarşı sərt tədbirlərin gələcəkdə də davam etdiriləcəyini vurğulamışdı. Eyni zamanda, dövlət başçısı bu hadisədən ümumiləşdirilmiş nəticə çıxararaq bütövlükdə polisə, hüquq-mühafizə orqanlarına qarşı qarayaxma kampaniyası aparmağın yolverilməzliyini nəzərə çatdıraraq bu xüsusda siyasi möhtəkirlik edən müxalifət dairələrini hakimiyyətlə vicdanlı siyasi mübarizə aparmağa çağırmışdı: «Azərbaycan dövləti öz gücünü göstərdi, bu cinayətkar dəstə zərərsizləşdirildi və məsuliyyətə cəlb olundu. Əlbəttə, bu, çox acınacaqlı bir haldır və böyük ləkədir. Daxili İşlər Nazirliyi bu ləkəni yumalıdır və ciddi tədbirlər görməlidir. Kim günahkardır, o, məsuliyyətə cəlb olunacaqdır. Ancaq bəziləri bu vəziyyətdən istifadə edib şəxsi, yaxud da siyasi maraqlarını təmin etmək üçün daxili işlər nazirinə qarşı bir kampaniya başlamaq istəyirlər. Biz buna imkan verməyəcəyik. Bu hadisə Daxili İşlər Nazirliyi tərəfindən bu günə qədər görülmüş işlərin üstündən xətt çəkməməlidir. Daxili İşlər Nazirliyində və bütün başqa hüquq- mühafizə orqanlarında nöqsanlar var. Bu nöqsanlarla mübarizə aparmaq lazımdır. Amma normal qaydada. Əfsuslar olsun ki, Azərbaycanda baş vermiş hadisələr müəyyən çirkin qüvvələr tərəfindən öz maraqlarını təmin etmək üçün kampaniyaya çevrilir. Artıq müxalifət bütün imkanlarını itiribdir. Onların əlində bir şey qalmayıb ki, vəziyyəti gərginləşdirsinlər. Bir şey qalıb ki, Azərbaycanda hansısa xoşagəlməz hadisələr yaransın ki, onlar da iqtidarı ittiham etsinlər. Bu da alınmır. Elmar Hüseynovun qətli bir daha onların əxlaqsız hərəkətlərini göstərdi. Onların nalayiq çıxışları cəmiyyətdə heç bir əks-səda doğurmadı. Əksinə, cəmiyyətdə onlara qarşı olan mənfi münasibət daha da gücləndi. Çünki bir insanın, bir ailənin faciəsi bunların əlində bayraq oldu. Burada hansı əxlaqdan söhbət gedə bilər?» (81).

Qeyd etmək lazımdır ki, prezidentin göstərişindən sonra «Qara kəmər» əməliyyatı ilə bağlı müvafiq istintaq hərəkətləri ilə yanaşı, DİN-də bu məsələ ilə əlaqədar geniş daxili təhqiqat da aparıldı, nazir müavini və idarə rəisləri də daxil olmaqla bir qrup yüksək rütbəli məmur işdən kənarlaşdırıldı. Onların bir qismi, ümumiyyətlə, polis orqanlarından xaric edildi, Hacı Məmmədovun bandası ilə əlaqəsi olanlar isə ədalət mühakiməsi qarşısında çıxarıldılar. Lakin buna rəğmən müxalifət dairələrin mövzu ətrafında siyasi möhtəkirliyi nəinki səngimədi, əksinə, daha da gücləndi. Müxalifət mətbuatı isə bu məsələni müntəzəm gündəmdə saxlayaraq az qala hər həftə daxili işlər naziri Ramil Usubovun istefaya göndəriləcəyi barədə «etibarlı mənbə»lərdən informasiyalar dərc etməkdə idi. Sözsüz ki, bu səngiməyən spekulyasiya DİN rəhbərinin şəxsiyyəti ilə deyil, ümumilikdə bu qurumun dövlət idarəçiliyi sistemindəki önəmi (özəlliklə seçkilər ərəfəsində) ilə bağlı idi. Aparılan kampaniyanın motivi də bəlli idi. Müxalifət parlament seçkiləri ilə əlaqədar kütləvi aksiyalara, ələlxüsus da icazəsiz aksiyalara hazırlaşırdı. Bununla yanaşı, müxalifət gözəl başa düşürdü ki, təşkil edəcəkləri icazəsiz etiraz aksiyaları polisin müqaviməti ilə üzləşəcək. Bu baxımdan, müxalif düşərgənin nəzarətində olan mətbuat orqanları vasitəsilə Ramil Usubovun müntəzəm şəkildə «vurulması» başadüşülən idi: «Ramil Usubovun bu gün-sabah vəzifədən gedəcəyi barədə ictimai rəy formalaşdırılır, nəticədə ictimai asayişin qorunmasına birbaşa məsuliyyət daşıyan bir dövlət orqanında - DİN-də, onun tabeçiliyində olan strukturlarda boşluqlar yaranır, bundan sonra isə müxalifətin keçirəcəyi etiraz aksiyaları əvvəlkitək ciddi müqavimətlə üzləşmir və beləcə «rəngli» inqilab xülyası gerçəkləşir. Bütün bu canfəşanlığının, dezinforomasiya dəyirmanının işə salınmasının kökündə dayanan gizli niyyət də budur» (82).

DİN-ə qarşı geniş qaralama kampaniyası və bu qurumu digər güc strukturu – MTN-lə, onların hər ikisini isə Respublika Prokurorluğu ilə üz-üzə qoymaqla müxalifət dairələri başqa bir məqsəd də güdürdülər. Hakimiyyətin opponentləri bununla dövlətin mühüm strukturları arasında etimadsızlıq atmosferinin yaranmasına, onların münasibətlərinin aşınmasına öz «töhfə»sini vermək və nəticə etibarilə hakimiyyətin üst qatlarında ciddi qarşıdurma və konfliktin yaşandığını ictimai rəyə təlqin etmək məqsədi güdürdülər. Əslində müxalifətin hakimiyyət dəhlizlərindəki nüfuz mübarizəsi və çəkişmələr mövzusunda spekulyasiyaları heç vaxt səngiməyib, bu kampaniya öncəki illərdə də daima aktiv olub, sadəcə, 2005-ci ilin martında meydana gələn olaylar bu xüsusda məhz güc strukturlarını əlahiddə diqqət mərkəzinə gətirmişdi. Onu da qeyd etmək lazımdır ki, bu kampaniyada müxalifət dairələrinə, özəlliklə AXCP, Müsavat və ADP-nin mətbu orqanlarına hakimiyyət dəhlizlərindən gizli dəstək verənlər də yox deyildi və təsadüfi deyil ki, sonrakı proseslər həmin kanalların ifşası ilə müşayiət olundu. Lakin bu hələ bir qədər sonra üzə çıxacaqdı, indiliksə radikal müxalifətin mətbu vasitələri güc strukturları ətrafında möhtəkirliyi davam etdirir və bunu gələcək inqilaba zəruri informasiya hazırlığı kimi görürdülər. ADP-nin nəzarətindəki «Hürriyyət» qəzeti bununla bağlı yazırdı: «Rejimin əsas sütunları güc nazirlikləridir. Azərbaycanda inqilabi dəyişikliklərin baş verməsi üçün ilk növbədə məhz bu sütunlar sökülüb atılmalıdır... Çünki, inqilabi şərait haqqında məşhur tərifdə deyildiyi kimi, onun ilkin və başlıca əlaməti yuxarıların köhnə qaydalarla işləyə bilməməsidir. Son vaxtlar rejimin əsas dayaqlarından sayılan güc nazirliklərini əhatə edən qalmaqallar da sözügedən əlamətlərdən xəbər verir». Maraqlıdır ki, qəzet, bir tərəfdən, «Azərbaycanda inqilab başlayır» qənaətinə gəlsə də, digər yandan, ölkə rəhbərliyinin hüquq-mühafizə qurumlarında

ciddi islahatlar apardığını etiraf edirdi. Bununla da əslində dəyişikliklərin yuxarıdan baş verəcəyini, yəni bunun müxalifətin gözlədiyi «inqilaba» aidiyyəti olmayacağını dolayısı ilə etiraf edirdi: «İstər Ədliyyə Nazirliyində aparılan kadr islahatları və ortaya çıxarılan cinayət əməlləri, istər Daxili İşlər Nazirliyinin simasını faş edən «Qara kəmər» əməliyyatı, istərsə də bu əməlləri bildiyi halda gizlədən digər hüquq-mühafizə orqanlarının ifşası rejimin ənənəvi idarəetmə üsullarından imtina etmək istədiyini göstərir» (83).

DOQQUZUNCU FƏSİL

PREZİDENT İLHAM ƏLİYEV OPPONENTLƏRİNİ LƏYAQƏTLI MÜBARİZƏYƏ DƏVƏT EDİR

«Ləyaqət davranışın ciddiliyini müəyyənləşdirir və təsdiq edir».

«Şi-Tszı»-ndan

«Bizim bütün ləyaqətimiz düşüncəmizdədir».

B.Paskal

«Ulu sözünə baxmayan ulaya-ulaya qalar».

Azərbaycan atalar sözü

Nəyin bahasına olursa-olsun hakimiyyəti ələ keçirməyə çalışan radikal müxaliflərin qara-qışqırıq və eyforiya ilə müşayiət olunan kampaniyası qarşısında Prezident İlham Əliyev son dərəcə müdrik və təmkinli davranaraq yersiz siyasi gərginlikdə maraqlı olmadığını və seçkilər öncəsi opponentləri ilə dialoq və sivil mükalimə qapılarını da açıq saxladığını nəzərə çatdırırdı. Prezident həmin dövrdə etdiyi bütün çıxışlarında siyasi qüvvələri seçkilərə, hakimiyyət mübarizəsi əhvalına köklənməklə ölkənin strateji inkişaf perspektivlərini, bu inkişafın vacib şərti olan sabitliyi gözardı etməməyə çağırırdı. Çünki Azərbaycanda daxili istiqrarın pozulması bir sıra xarici qüvvələrin, o cümlədən Azərbaycana düşmən olan dairələrin əlahiddə marağında idi və onlar bunun üçün hər vəchlə çalışırdılar: «Sirr deyil ki, Azərbaycan öz coğrafi-siyasi vəziyyətinə görə, iqtisadi potensialına bir çox xarici dairələrin diqqətini çəkir, bir çox məsələlər burada xarici dairələr tərəfindən istiqamətləndirilib, yaxud da buna cəhdlər göstərilir. Biz buna imkan verə bilmərik. Azərbaycan tam mənada müstəqil dövlətdir. Biz öz siyasətimizi yalnız və yalnız Azərbaycan

xalqının milli maraqlarının qorunması üçün aparırıq. Əldə edilmiş nailiyyətləri qorumaq və inkişaf etdirmək üçün ölkədə ictimai-siyasi vəziyyət sabit olmalıdır. Sabitliyi pozmaq istəyən qüvvələr də əminəm ki, yaxşı başa düşürlər ki, buna cəhd edənlər layiqli cavabını alacaqlar».

Prezident, eyni zamanda, Azərbaycanda «məxməri» ssenarilər intizarı ilə yaşayan qüvvələrə də növbəti dəfə tövsiyə etmişdi ki, əsl, praktik siyasət reallıqlara əsaslanır, hansısa illüziyalara yox. Azərbaycanda «inqilab» havası axtaranlar da hər şeydən öncə mövcud reallıqlara diqqət yetirib oradan nəticə çıxarmalıdırlar. İlham Əliyev jurnalistlərin «Azərbaycan prezidenti «məxməri» inqilab təhlükəsi gözləyirmi» sualına cavabında demişdi: «Mən belə təhlükə gözləmirəm. İnqilablar o yerdə olur ki, orada xalqla iqtidar arasında uçurum var, inamsızlıq var. Azərbaycanda isə vəziyyət tamamilə başqadır. Müxalifət tərəfindən, yaxud da hansısa müstəqil, - əgər belə demək olarsa, - xarici fondlar tərəfindən aparılmış sorğulara baxın. Prezidentin reytinqinə baxın. Ən yüksək həddədir. Bunu demək, bəlkə də mənim üçün yaxşı deyil, amma bu, həqiqətdir. Belə olan şəraitdə, adətən, inqilablar baş vermir. İnqilablar o yerdə baş verir ki, iqtisadi vəziyyət, sosial vəziyyət pisləşir, yaxud da iqtidar hansısa addımlar atır və bunlar xalq tərəfindən mənfi qarşılanır. Azərbaycanda bunların heç biri yoxdur və olmayacaq da. Mən də çalışacağam bundan sonra da elə işləyim ki, xalq həmişə məni dəstəkləsin» (84).

Bununla yanaşı, prezident İlham Əliyev dövlət maraqlarını hər şeydən üstün tutaraq hakimiyyətin seçkiqabağı mühiti mülayimləşdirmək və öz opponentləri ilə seçki yarışını normal raqabət müstəvisində aparmaq niyyətində olduğunu bir daha təsdiqləmək üçün konkret addımlar da atdı. Bu xüsusda 2003-cü ilin 15-16 oktyabr hadisələri ilə bağlı həbs edilmiş müxalifət

təmsilçilərinin əfv olunmasını xüsusi qeyd etmək gərəkdir. Prezidentin 20 mart 2005-ci il tarixli fərmanı ilə Azərbaycan dövlətçiliyinə qarşı əməllərdə iştiraka görə məhkum edilmiş və adları Avropa Şurasının təqdim etdiyi məhbuslar siyahısında yer alan 53 nəfər, həmçinin 2003-cü il oktyabrın 15-16-da Bakıda kütləvi iğtişaşlarda iştirak etmiş şəxslərin hamısı əfv edilmişdi. «Azərbaycan Respublikasının Prezidenti cəmiyyətdə vətəndaş barışığına və qarşılıqlı anlaşmaya doğru növbəti addım ataraq, Azərbaycan xalqının azad seçimi ilə barışa bilməyən bəzi qüvvələr tərəfindən törədilən kütləvi iğtişaşların təşkilatçılarını və iştirakçılarını əfv etməyi mümkün hesab etmişdir. Prezident əmin olduğunu bildirmişdir ki, əfv edilən şəxslər bu humanist aktdan düzgün nəticə çıxararaq, Azərbaycan dövlətinin qanunlarına gələcəkdə dönmədən əməl edəcəklər», - deyə əfv fərmanında vurğulanırdı (85).

Həbsdən çıxan müxalifət təmsilçilərinin bəyanatları həm onların siyasi baxışlarında hansı dəyişikliklərin baş verdiyini, həm də bu hadisənin müxalifətdaxili proseslərə necə təsir göstərəcəyini izləmək baxımından mühüm idi. Qeyd edək ki, müxalifət təmsilçilərinin əfv olunması ərəfəsində (martın 18-də) Müsavat, AXCP və ADP bir qədər əvvəl Azad Seçki Forumu ilə əsası qoyulmuş müttəfiqliklərini birgə sazişlə rəsmiləşdirmiş və parlament seçkilərində vahid blokda iştirak edəcəklərini bildirmişdilər. Həbsdən çıxan müxalifətçilər ilk mətbuat konfransında «16 oktyabr» adlı təşkilat qurduqlarını və sonrakı fəaliyyətlərini də çiyin-çiyinə davam etdirəcəklərini elan etsələr də, bu şəxslərin birliyinin uzun sürməyəcəyini təxmin etmək çətin deyildi. Maraqlıdır ki, «16 oktyabr»çıların birgə mətbuat konfransına onlardan biri – Xalq Partiyasının sədri Pənah Hüseyn qatılmamış və dostları bunu onun xəstə olması ilə izah etmişdilər. «Xəstə lider» isə bir gün sonra «Yeni Müsavat»

qəzetinə «çoxseriyalı» müsahibə verərək həm 2003-cü ilin prezident seçkilərindən sonrakı çaxnaşmalar, həm də yeni «inqilab» perspektivi ilə bağlı şəxsi və həmkarlarından fərqli mülahizələrini bildirmişdi. Bu fakt müxalifət liderlərinin komanda əhvalından çox fərdçiliyə və şəxsi ambisiyalara nə dərəcədə meylli olduqlarını bir daha sübut edirdi.

Yeri gəlmişkən, P.Hüseyn 2003-cü ilin oktyabrındakı iğtişaşların rəhbərlərindən biri kimi həmin müsahibəsində diqqətçəkən etiraflar da etmişdi. Ümumiyyətlə, bu şəxs 1992-1993-cü illərdəki AXC-Müsavat hakimiyyətinin, sonrakı dövrdə isə radikal müxalifətin əsas ideoloqlarından biri kimi zaman-zaman maraqlı etiraflarla gündəmə gəlib. Onun sözlərinə görə, radikal müxalifət 2003-cü ilin oktyabrında Azərbaycanda inqilab etməyə çox yaxın olub və onun baş tutmamasında həm xarici dəstəyin olmaması, həm də müxalifət liderlərinin özlərinin faktiki bacarıqsızlığı rol oynayıb. Odur ki, müxalifət hakimiyyət uğrunda mübarizəsini 2003-cü ilin 16 oktyabrında qaldığı yerdən davam etməlidir: «Belə bir cəmiyyətdə dəyişiklik hansısa təkamül, tədrici islahatlar vasitəsilə həyata keçirilə bilməz. Azərbaycanda çox ciddi, sıçrayışlı keyfiyyət dəyişikliklərinə ehtiyac var və bu, demokratik inqilab tələb edir. Bir şeyi də bilmək lazımdır ki, inqilabı inqilabçılar edir. Bu inqilabı həyata keçirən inqilabi təşkilatlar olmalıdır. Ona görə də Azərbaycan cəmiyyətində inqilab etmək fikrində olan siyasətçi və siyasi təşkilat ən əvvəl özündə və təşkilatında inqilab etməlidir ki, sonradan cəmiyyət miqyasında ümumi siyasi inqilaba nail olsun. Bu gün biz seytnot vəziyyətindəyik...Biz peşəkar siyasətlə məşğuluqsa, bunun texnoloji tərəflərinə də fikir verməliyik ki, o da bizim mənsub olduğumuz müxalifət düşərgəsinin problemlərinin həllindən keçir. ...Aprelin sonlarına qədər proseslərlə bağlı beynəlxalq aləmin mövqeyinin müəyyənləşməsi

üçün situasiya ortada olmalıdır. Bizim bir ay vaxtımız var. Bu gün düşərgədə konkret iradi addımlara ehtiyac var və belə addımlar atılmalıdır. Əks təqdirdə nəticələr müsbət istiqamətdə olmayacaq».

Əslində P.Hüseyn bu fikirləri ilə Azərbaycan müxalifətində inqilab etmək gücündə və bacarığında siyasi lider və təşkilatın olmadığını etiraf etməklə (çünki illərlə ortaya çıxmayan potensialın bir ayın içində meydana gələcəyi real deyildi) bərabər, həm də özünün «Azərbaycanda dəyişiklik təkamül, tədrici islahatlar vasitəsilə həyata keçirilə bilməz» tezisini təkzib etmiş olurdu. Eyni zamanda, o, inqilabın mümkün liderlərini yalnız mövcud müxalifətin sıralarında (ki orada zatən inqilab lideri olacaq şəxs yox idi) deyil, iqtidar cəbhəsində də axtarmağın zəruriliyini bildirirdi. Bu o vaxt idi ki, cəmiyyətdə və qismən mətbuatda hakimiyyət dəhlizlərindən müxalifət düşərgəsinə yollar açıldığı, o cümlədən «islahatçı nazir» və gələcək «inqilabçı» Fərhad Əliyevin müxalifət dairələri ilə sıcaq münasibətləri barədə xəbərlər dolaşmağa başlayırdı: «Ən azı nəzəri baxımdan bu gün kölgədə qalan, hətta iqtidar daxilindən olan hər hansı şəxsin mübarizə gedişində meydana çıxacağı halda, əgər rejimin demokratik üsul-idarə ilə əvəzlənəcəyinə cəmiyyəti, bizi inandıra biləcəksə, hətta belə bir şəxsi müdafiə etməyə hazır olmaq, bu hazırlığı bəyan etmək lazımdır» (86).

Bununla yanaşı, P.Hüseyn müxalif həmkarlarını intizarında olduqları inqilabı gerçəkləşdirmək üçün xarici yardım amilinə o qədər də arxalanmamağı tövsiyə edirdi. Çünki nəticə etibarilə xarici qüvvələr də bu və ya digər ölkə barəsində qərarlarını həmin ölkədəki real situasiyaya görə verirlər. Bu baxımdan isə Azərbaycan müxalifətinin şanslı olmadığını onun liderlərindən biri kimi P.Hüseyn də faktiki olaraq etiraf edirdi: «Xaric nə vaxt desə, burada o zaman inqilab olacaq fəlsəfəsini qəbul etmirəm.

Xaricin müəyyən qərarlar qəbul etməsi buradakı konkret fəaliyyətdən asılıdır... Bizim müxalifətçilərin bəzisində belə bir ovqat yaranıb ki, ağlayıb yalvarmaqla kiməsə hakimiyyət verirlər, - ağlayan uşağa oyuncaq verilən kimi. Yaxşı «dayı» və «xala» rolunda da beynəlxalq təşkilatlar, aparıcı dövlətlər görünür. Ancaq hakimiyyət oyuncaq deyil. Özüm də daxil olmaqla, əgər ənənəvi müxalifət öz gücünü, potensialını yenə ortaya qoya bilməyəcəksə, açıq bəyan edirəm, bu müxalifətin siyasi səhnədən çəkilib getməsinin vaxtının çatması barədə düşünməli olacağıq» (87).

Qeyd etmək lazımdır ki, P.Hüseyn istər 2005-ci ildə, istərsə də ondan öncəki seçkilərdə radikal müxalifətin ən sərt xətt tərəfdarlarından olub, hətta dəfələrlə icazəsiz aksiyalar zamanı polislə toqquşmada başı da yarılıb. Onun reallığı göz önünə alaraq hələ parlament seçkiləri kampaniyası ərəfəsində mövcud müxalifətin Azərbaycanda inqilab etmək gücündə olmadığını etiraf etməsi əlamətdar fakt idi. Əslində prinsip etibarilə müxalifətin başqa liderləri də «inqilab» ideyasının siyasi fantaziya olduğunu dərk edirdi, lakin, öz tərəfdarlarında, müxalif kütlədə eyforiya, cəmiyyətdə isə müəyyən tərəddüd yaratmaq naminə növbəti dəfə siyasi blef yaratmaqla məşğul idilər. Hətta bəziləri ifadələrində o qədər ifrata varırdılar ki, onların çıxışları ilə bir sonrakı addımlarını və bəyanatlarını müqayisə edəndə ortaya tragikomik bir mənzərə, həmin şəxslərin siyasi səbatlığına isə dərin şübhələr meydana çıxır. Məsələn, ADP sədrinin müavini Sərdar Cəlaloğlu həbsdən çıxandan sonra həmkarları ilə birgə mətbuat konfransında bəyan etmişdi: «Mən son damla qanıma qədər bu hakimiyyətlə mübarizə aparacağam. Məncə, dövlətini sevən, Azərbaycanı demokratik görmək istəyən hər kəs də bu rejimə qarşı mübarizə aparmalıdır. Çünki bu iqtidarın heç bir sosial bazası yoxdur. Onlar beynəlxalq

dayaqlarını da itiriblər. Uzun müddət bunlara lobbiçilik edən qüvvələr də artıq arxalarında deyillər» (88).

Kənar müşahidəçinin bu «alovlu» çıxışdan çıxaracağı ilk qənaət o olar ki, müxalifət əslində yersiz siyasi israfçılıqla məşğul olub. Çünki, əgər ADP-çi liderin iddia etdiyi kimi, həqiqətən də Azərbaycan hakimiyyətinin heç bir sosial bazası və beynəlxalq dayaqları olmayıbsa, onda onu dəyişmək üçün inqilab etməyə nə ehtiyac varmış. Eləcə seçkiləri gözləmək olardı ki, xalq da «heç bir dayağı olmayan» iqtidarı öz səsi ilə dəyişsin. Lakin məsələ də bundadır ki, müxalifətin bir çox liderləri onda da, ondan əvvəl və sonra da bəyan etdikləri fikirlərin, söylədikləri iddiaların gerçəklə nə dərəcədə uzlaşmasının fərqinə varmayıblar. Eləcə də S.Cəlaloğlunun sonrakı siyasi fəaliyyəti, radikal həmkarlarının sırasını tərk edib mötədil müxalifətçiliyə keçməsi onun 2005-ci ilin martında bəyan etdiyi fikirlərin gerçəklikdən nə qədər uzaq olduğunu göstərir. Həmin mətbuat konfransında səslənən digər fikirlər də maraqlı idi. Ümid Partiyasının sədri İqbal Ağazadə, radikal həmkarlarından fərqli olaraq, nə 2003-cü ilin oktyabrında qaldıqları yerdən yola davam edəcəklərini, nə də inqilab həyata keçirəcəklərini dilə gətirmişdi. O, partiyasının Müsavat, AXCP və ADP-nin qurduğu blokda yer alacağını, seçkilərdə isə «beynəlxalq aləmin və Azərbaycan cəmiyyətinin qəbul etdiyi nəticələrə nail olacaqlarını» bildirmişdi. Əslində elə nəticə də deyildiyi kimi oldu. Beynəlxalq aləm də, Azərbaycan cəmiyyəti də parlament seçkilərinin yekununu olduğu kimi, yəni inqilabsız-filansız qəbul etdi. İ.Ağazadənin yeni blokla bağlı ümidlərinə gəldikdə isə, «üçlük» nəinki onun partiyasını, heç ayrılıqda özünü də vahid namizədlər sırasına almadı. Ümumiyyətlə, «16 oktyabr»çıların müxalifətin birgə seçki mübarizəsi barədə bəyanatları həmin mətbuat konfransından o yana getmədi. O cümlədən müxalifətçi həmkarları ilə birgə

məhbəs həyatı keçmiş Qarabağ Qaziləri Hərəkatının sədri Etimad Əsədova, hətta Müsavat başqanının müavini İbrahim İbrahimliyə də nəticədə «üçlər»in seçki siyahısında yer tapılmadı.

Bütün bunlar müxalifət düşərgəsində müttəfiqlik, səmimiyyət və ümumilikdə siyasi əxlaq prinsiplərinin nə dərəcədə aşındığını göstərirdi. Sonrakı mərhələdə həm Müsavat, AXCP və ADP ittifaqının daxilindəki ixtilaflar, həm də onun müxalifətdəki digər partiya və seçki blokları ilə qeyri-sağlam münasibətləri bunu dəfələrlə təsdiqləmiş oldu. Yeri gəlmişkən, üç partiya hələ mart ayında müttəfiqlik sazişi imzalasa da, blokun adı, simvolikası barədə müzakirələr uzun müddət sürdü. Əvvəlcə Müsavatın təklifi ilə «Uğur» adını götürən blok, görünür, sonra bu adın «düşər-düşməzi» ola biləcəyini nəzərə alaraq, AXCP-nin təklifi ilə «Azadlıq» adı üzərində dayandı. Blokun rəngini isə Müsavat başqanı «axtarıb tapmışdı». Qəmbərin sözlərinə görə, Ukraynadakı «narıncı» inqilabdan sonra Azərbaycan üçün xüsusi rəng axtarmağa ehtiyac yox idi. Əslində Müsavat başqanının bu cür siyasi plagiatlığı, «hazıra nazir olması» birinci dəfə deyildi. 2003-cü ilin prezident seçkilərində də o özünün seçki blokuna adı çox arayıb-axtarmamış, Yuşşenkonun hələ 2002-ci ildə təsis etdiyi «Bizim Ukrayna» adından yararlanaraq «Bizim Azərbaycan» blokunun lideri kimi ortaya çıxmışdı. Bu dəfə isə Ukrayna inqilabının siyasi brendindən istifadə, sadəcə, plagiatlıq deyildi, həm də gələcək inqilabın, necə deyərlər, maddi-texniki təchizatı baxımından vacib idi. Çünki Ukraynadakı inqilabdan sonra narıncı bayraq və köynəklərdən çadırlaradək çoxlu sayda siyasi aksessuar istifadəsiz qalmışdı və onları çox ucuz qiymətə, bəlkə də lap havayı Azərbaycana gətirib, bizim müxalifəti də geyindirib-keçindirmək olardı. Və «üçlər» sonda elə belə də etdilər.

Lakin forma ilə mahiyyəti əvəzləmək mümkün olmadığı kimi, «üçlər»in yarıoğurluq siyasi dekorasiyaları da bu ittifaqın bəlli mahiyyətini dəyişdirə bilməzdi. Qeyd etdiyimiz kimi, «üçlük» ilk gündən inhisarçı təkəbbürü ilə digər müxalifət qüvvələrini özündən narazı salmışdı. Bu baxımdan Müsavat-AXCP-ADP blokunun vahid müxalifət cəbhəsinin mərkəzi olmaq iddiası əvvəlcədən iflasa uğramışdı. «Onsuz da hamı, o cümlədən beynəlxalq dairələr də bilir ki, Azərbaycanda gerçək müxalifət və real güc kimdir. Biz hakimiyyətə əsl alternativ gücü formalaşdırırıq. Əgər başqaları da hakımiyyətə alternativ olduqlarını iddia etsələr, bu hər halda ciddi səslənməz», - deyə İsa Qəmbər bildirmişdi. Maraqlıdır ki, ondan iki il öncə (prezident seçkilərində) Müsavat başqanı lideri olduğu «Bizim Azərbaycan» blokunu da eyni cür («gerçək müxalifət və real güc») təqdim etmişdi. Fərq yalnız onda idi ki, indi İsa Qəmbər və Rəsul Quliyevin arasında yer alan Əli Kərimli o vaxt başqa blokda, AMİP lideri Etibar Məmmədovun yanında idi. Bu siyasi ekskurs fonunda AXCP sədrinin 2005-ci ilin martında Müsavat və ADP ilə qurduğu «narıncı» müttəfiqliyin parlament seçkiləri ilə məhdudlaşmayacağı və 2008-ci ilədək davam edəcəyini bəyan etməsi isə həqiqətən istehza doğururdu. Necə ki, Müsavat başqanının «üçlər» blokunun Milli Məclisdəki yerlərin 75 faizini əldə edəcəyi barədə fantastik iddiası da istehzadan savayı bir şeyə layiq deyildi. Təsadüfi deyil ki, Qəmbərin bu bəyanatı müxalifətdəki digər qüvvələr tərəfindən də kinayə ilə qarşılanmışdı.

Qeyd edək ki, həmin vaxt müxalifət düşərgəsində «üçlərə» faktiki rəqib olacaq qüvvə kimi - əsasən sabiq dövlət və hökumət xadimlərinin, o cümlədən eks-prezident Ayaz Mütəllibovun, eks-spiker Yaqub Məmmədovun, sabiq Baş nazir Rəhim Hüseynovun, sabiq prezident köməkçisi Eldar Namazovun,

habelə AMİP, ASDP və s. partiyaların yer aldığı "Yeni siyasət" bloku formalaşmaqda idi və o da seçki ilə bağlı iddialarını gizlətmirdi. Düzdür, hələ təşkilatlanma mərhələsində bu blokda dezinteqrasiya meylləri özünü göstərmiş və nəticədə liberalların lideri Lalə Şövkət onu tərk edərək ayrıca seçki bloku («Milli birlik») təşkil etdi. Yəni hələ seçki kampaniyasına start verilməmiş müxalifət düşərgəsində faktiki dağınıqlıq və daxili rəqabət hökm sürürdü. Bununla yanaşı, ayrı-ayrı partiyaların daxilindəki ixtilaf və qopmalar onların dekorativ «monolitliyinin» gerçək tərəfini göstərirdi. Bu arada Əli Kərimlinin müavinlərindən Asim Mollazadə öz tərəfdarları ilə AXCP-dən gedərək yeni təşkilat – Demokratik İslahatlar Partiyasını qurmuşdu. Müsavatda isə başqan müavinləri arasında ikitirəlik (Arif Hacılı-Rauf Arifoğlu dueti ilə Vurğun Əyyub-Sülhəddin Əkbər cütlüyü arasında) faktiki parçalanmaya gətirməsə də, seçki kampaniyası boyu qarşılıqlı ittihamlarla müşayiət olundu. Birinci cütlük ikincini qeyri-mübarizlikdə və hakimiyyətlə işbirliyində ittiham edirdi. R.Arifoğlu partiyadaxili rəqibləri barədə yazırdı: «Biz (həbsxanada) İsa Qəmbərin, Müsavatın, Azərbaycanın uğrunda mücadilə verəndə, onlar istintaqla əməkdaşlıq edərək, özü də aşkar şəkildə əməkdaşlıq edərək, canlarını həbsdən qurtarmağa çalışıblar. İndi narahatdırlar. Yamanca birləşiblər. Hər yerdə bizim əleyhimizə təbliğat aparırlar» (89).

Müxalifətdəki bu dağınıqlıq, aşkar-gizli nifaq və dekorativ müttəfiqlik fonunda hakimiyyətin ümumən arxayın davranışı diqqət çəkirdi. Bu isə hər şeydən öncə xalqın mütləq əksəriyyətinin hakimiyyətə, şəxsən ölkə prezidentinə inam və etimadından irəli gəlirdi. Bu baxımdan prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının 3-cü qurultayındakı proqram səciyyəli nitqini xüsusi qeyd etmək lazımdır. Qeyd edək ki, İlham

Əliyev həmin qurultayda yekdilliklə hakim partiyanın yeni sədri seçilmişdi. Prezident öz nitqində iqtidarın siyasi opponentləri ilə sivil, sağlam rəqabət münasibətləri qurmaq, parlament seçkilərini də bu əsaslar üzərində keçirmək niyyətini bir daha bəyan etməklə yanaşı, ölkədə sabitliyi pozmaq, siyasi mübarizəni yenidən daş-kəsəklə aparmaq istəyənlərə də sərt cavabın veriləcəyini vurğulamışdı: «Azərbaycanın uğurlu inkişafı üçün ictimai-siyasi sabitlik qorunmalı, möhkəmlənməlidir. Kim bu sabitliyi pozmaq istəsə, öz layiqli cavabını alacaqdır. 2003-cü ildə keçirilmiş prezident seçkilərindən sonra belə cəhdlər olub, amma qarşısı alınıbdır. Əgər onlar bir daha buna başlasalar, yenə eyni qaydada cavablarını alacaqlar. Biz siyasi mübarizəni daş-kəsəklə deyil, sözlə, siyasətlə aparırıq, siyasi mübarizənin yalnız sivil formalarına üstünlük veririk. Mən çox təəssüf edirəm ki, dialoq haqqında bizim bir neçə dəfə səsləndirdiyimiz təkliflər müxalifət tərəfindən qəbul edilmir. Hər halda, hesab edirəm ki, Azərbaycanın normal inkişafı üçün, ölkəmizin demokratik inkişafı üçün siyasi münasibətlər sivil formada olmalıdır».

Prezident nəzərə çatdırmışdı ki, 2005-ci il Azərbaycan üçün təkcə sürətli iqtisadi tərəqqinin deyil, həm də demokratik inkişafın təmin olunması baxımından çox vacib bir il olacaq və hakimiyyət ölkəmizin bu mühüm dönüş nöqtəsini uğurla keçməsi üçün hər şeyi edəcək. İlham Əliyev vurğulamışdı ki, hakimiyyət seçkilərin maksimum şəffaflıq şəraitində keçməsində hamıdan çox maraqlıdır ki, seçkidən sonra heç kimin YAP-ın əldə etdiyi qələbəyə şübhəsi olmasın: «2005-ci ildə ölkəmizin gələcəyini böyük dərəcədə müəyyən edəcək Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləcək. Bu bizə imkan verəcək ki, cəmi üç il ərzində biz öz ixrac potensialımızı üç, dörd, beş dəfə artıraq. Bu vəsait də Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir. 2005-ci ildə parlament seçkiləri

keçiriləcəkdir. Hesab edirik ki, Azərbaycanın demokratik inkişafında bu seçkilər mühüm rol oynayacaq. Mən şübhə etmirəm ki, seçkilər tam ədalətli, şəffaf keçiriləcək və Azərbaycan xalqının iradəsi bu seçkilərin nəticəsində öz əksini tapacaqdır. Şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyası tərəfindən dəstəklənəcək namizədlər parlament seçkilərində açıq, ədalətli mübarizədə qalib gələcəkdir. Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir. Biz populizmdən uzağıq. Bizim siyasətimiz əməli işlərdir, praktiki addımlardır» (90).

MÜDRİK VƏ QƏTİYYƏTLİ LİDERİ OLAN XALQ XOŞBƏXTLİYƏ LAYİQDİR

ONUNCU FƏSİL

AZƏRBAYCAN LİDERİ AZAD VƏ ŞƏFFAF SEÇKİLƏRƏ TƏMİNAT VERİR: «MƏNİ HEÇ NƏ QORXUTMUR, ÇÜNKİ XALQIN DƏSTƏYİNƏ ARXALANIRAM»

«İradəli şəxsiyyət üçün heç bir çətin şey yoxdur».
Erazm Rotterdamlı

«Xalq həmişə hiss edir, özü də düzgün hiss edir».
Ceyms Harrinqton



«Düzlük almaz kimidir, qaranlıqda daha çox parıldayır».
F.Bekon

«Həqiqi düzlük çox vaxt çirkli mərcanın içindəki mirvari kimi yaşayır».
U.Şekspir

«Doğruya zaval yoxdur, çəksələr min divana».
Azərbaycan atalar sözü

Hakimiyyətin parlament seçkilərinə əməli fəaliyyət və praktik siyasətlə hazırlaşdığını bəyan etməsi fonunda onun radikal əhvallı opponentləri xarici dəstək üçün Qərb ölkələrinə ayaq döyməkdə idilər. Onlar əmin idilər ki, seçkilərin taleyi barədə həlledici qərar Azərbaycandan kənarda veriləcək və ona görə də hələ rəsmi kampaniya başlamamış Qərb dairələrindən, ABŞ və Avropadan maksimum dəstək alaraq bununla öz güclərini həm iqtidara, həm də ümumilikdə cəmiyyətə nümayiş etdirəcəklər. Bu baxımdan Müsavat, AXCP və ADP rəhbərlərinin 2005-ci ilin aprelində ABŞ və Böyük Britaniyaya birgə səfər turnesi, Vaşinqton və Londonda bir sıra siyasi dairələrlə görüşlər keçirməsi müxalifət qəzetləri tərəfindən az qala «Amerikanın ikinci fəthi» kimi böyük ruh yüksəkliyi ilə təqdim olunurdu. Eyni zamanda, bu turne «üçlərə» birgə seçki mübarizəsi və müttəfiqliklərini beynəlxalq dairələrə göstərmək üçün lazım idi.

Hərçənd mahiyyət etibarilə bütün bu gedişlər və müxalifətdəki dekorativ birliyin növbəti nümayişi Azərbaycan siyasət səhnəsi üçün «köhnə dəbli komediya»dan savayı bir şey

deyildi. Hələ 2003-cü il prezident seçkiləri öncəsi müxalifət liderləri Londonda «sammit» keçirərək həm beynəlxalq dairələrə, həm də Azərbaycan cəmiyyətinə iddialı mesajlar vermişdilər. Özü də o vaxt Britaniya paytaxtındakı görüşdə üç deyil, dörd partiyanın - AXCP, AMİP, Müsavat və ADP-nin liderləri bir araya gəlmişdi. «Liderlər hesab edirdilər ki, «London sammiti» müxalifət partiyalarının birlikdə mübarizə apara bilməmələri ilə bağlı uzun müddət ölkə daxilində və xaricində formalaşmış mənfi rəyi öz xeyirlərinə dəyişdirmək üçün istifadə edilə bilər» (91).

Məlum olduğu kimi, o vaxt «dumanlı Albion» havası müxalifət liderlərinin birliyi üçün düşərli olmamış və sözügedən dördlük seçkilərdə iki cütlük (İ.Qəmbər-R.Quliyev, E.Məmmədov-Ə.Kərimli) şəklində iştirak edərək məğlubiyyətə düçar olmuşdu. İndi isə AMİP-in çıxdaş olduğu bu format yenidən bəxtini özgə paytaxtlarında sınamaq qərarına gəlmişdi. Hələ səfər öncəsi bu yöndə geniş piar kampaniyası başladan müxalifət ideoloqları cəmiyyəti inandırmağa çalışırdılar ki, liderlərin Qərb turnesi nəticə etibarilə seçkidəki uğurun əsasını təmin etmiş olacaq. Buna görə P.Hüseyn «aprelin sonuna qədər beynəlxalq aləmin mövqeyinin müəyyənləşməsi üçün situasiya ortada olmalıdır» deyə həmkarlarını təcili iradə nümayiş etdirməyə çağırırdı. Bəs niyə məhz aprelin sonuna qədər? Çünki may ayında Azərbaycanda bütün dünyanın diqqət kəsiləcəyi tarixi hadisə – Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin açılışı gözlənilirdi və müxalifət liderləri yaxşı başa düşürdülər ki, bundan sonra onsuz da onlar üçün əlverişli olmayan situasiya (o cümlədən beynəlxalq dairələrin Azərbaycana diqqəti) bütünlüklə iqtidarın xeyrinə cərəyan edəcəkdi. Odur ki, müxalifət təmsilçiləri bu arada öz tərəfdarlarını və qismən ictimai rəyi uydurduqları siyasi illüziyalara inandırmağa çalışırdılar. Müsavat başqanının müavini Rauf Arifoğlu həbsxanadan çıxar-

çıxmaz özünün «etibarlı informasiya mənbələrinə» istinadən yazırdı: «İlham Əliyevin və onun təmsil etdiyi hakimiyyətin demokratiya paytaxtları qarşısında bütün limitləri tükənib. Qarşıdakı parlament seçkiləri İlham Əliyevin, YAP-ın son şanslarıdır. Yenə saxtalaşdıracaqlarsa, gedəcəklər. Və bu dəfə bunu müxalifət etməsə də, Amerika edəcək! Məndəki məlumatlara görə, YAP rəhbərliyi bu barədə Amerika təmsilçilərinin bilavasitə özləri tərəfindən xəbərdarlıq alıblar. İnanıram ki, yaxın gələcəkdə demokratiya paytaxtları Azərbaycanla bağlı müvafiq qərarlarını verəcəklər» (92).

Lakin «üçlər»in demokratiya paytaxtlarındakı görüşləri onların gözlədikləri nəticəni vermədi. İstər ABŞ Dövlət Departamentində və Konqresdə, istərsə də Londondakı görüşlər tanışlıq ziyarətləri və ümumi müzakirələrdən o yana getməmiş, həmin dairələrdə «narıncı» birliyə siyasi perspektiv baxımından hansısa ümid verilməmişdi. Bunu Müsavat və AXCP liderləri də Bakıya dönüşlərində dolayısı ilə etiraf etməli olmuşdular. İ.Qəmbər hər iki ölkəyə səfər zamanı məqsədlərinə nail olduqlarını və «koalisiyanın təqdimatını yüksək səviyyədə keçirdiklərini» iddia etsə də, seçkilərlə bağlı dəstək alıb-almadıqları barədə suala cavabında «Koalisiyamız o qədər güclüdür ki, kənardan hər hansı dəstək lazım deyil» deyə bildirmişdi. Görəsən, müxalifət liderlərinə dəstək lazım deyildisə, bu qədər yolu basa-basa Amerikaya niyə getmişdilər? Təbii ki, onlara dəstək (o cümlədən maliyyə yardımı şəklində) çox lazım idi, lakin onu əldə edə bilməyəndən sonra başqa nə deyə bilərdilər ki?

Yeri gəlmişkən, bu arada ABŞ Dövlət Departamenti ayrı-ayrı ölkələrdə müxalifətə ayırdığı maliyyə yardımları (müxtəlif qrant və təlim proqramları şəklində) barədə növbəti hasabatını açıqlamış, o cümlədən 2004-cü ildə Ukraynada «narıncı» inqilab üçün 14 milyon dollar xərclədiyini rəsmən bildirmişdi.

Azərbaycanın müxalifət liderləri isə nəinki belə bir yardımın heç vədini də almamışdılar, hələ üstəlik səfərin xərcini də özləri çəkdiklərini etiraf etmişdilər. Təbii ki, bu xərcin böyük hissəsi həmişəkitək Amerikadakı «ev sahibi» müxalifət liderinin – R.Quliyevin üzərinə düşmüşdü. Sonuncunun isə müxalifətçi həmkarlarından əsas gözləntisi bəlli idi. Eks-spiker ANS-ÇM radiosuna müsahibəsində bildirmişdi ki, nəhayət, bu seçkilər ərəfəsində Azərbaycana qayıtmaq istəyir və bu işdə müxalifətçi həmkarlarının dəstəyinə ümid bəsləyir: «Belə düşünürəm ki, Azərbaycana avqust ayında qayıtmalıyam. Məncə, həm Müsavat, həm də AXCP mənim qayıtmağım uğrunda mübarizə aparacaqlar. Amma yüz faiz əminliklə heç nə demək mümkün deyil». Həqiqətdə R.Quliyevin əminliyi yalnız 50 faiz özünü doğrultdu və o, Bakıya yolun yarısından geri dönməli oldu.

Elə Müsavat başqanının Amerika səfərinin təəssüratı altında seçki gözləntiləri də yarıümid və tərəddüdlərdən ibarət idi: «Demokratik seçki inqilabı qaçılmaz olacaq. Bu labüdlüyü görürük. O zaman demokratik seçki inqilabının məsuliyyətini bizim koalisiya üzərinə götürməyə hazırdır. Lakin əgər xalq öz taleyini dəyişmək istəmirsə, heç bir xarici ölkə təsir göstərə bilməz». Və ardınca: «Azərbaycanda demokratik dəyişikliklərin baş verməsinə Vaşinqtonda müsbət münasibətin olduğunu açıq-aydın hiss elədim. Amma Amerika heç bir zaman xalqın hazır olmadığı dəyişikliyə təkan verməz» (93).

Bununla belə, müxalifət mətbuatı liderlərin Qərb turnesindən əliboş dönmələrini maksimum retuşlamağa çalışaraq vəziyyəti «parlaq» tonda təsvir etməkdə idi. Bu xüsusda müxtəlif spekulyasiyalar dövriyyəyə buraxılırdı. Onlardan biri ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin müxalifət liderlərinin Amerikaya səfəri öncəsi Bakıya gəlişi ilə bağlı idi. Düşərgə mətbuatı iddia edirdi ki, ABŞ müdafiə naziri Azərbaycan rəhbərliyi qarşısında konkret şərt qoyub: rəsmi Bakı ölkə

ərazisində Amerika hərbi bazasının yerləşdirilməsinə, eləcə də Pentaqonun İrana qarşı mümkün əməliyyatında iştiraka razılıq verməlidi, əks təqdirdə Azərbaycanda «məxməri» inqilab qaçılmaz olacaq. Düşərgə mətbuatının iddiasına görə, prezident İlham Əliyev bu tələblə razılaşmadığı üçün Amerika da «inqilab» planlarına start verib: «Beləliklə, ABŞ müdafiə nazirinin Bakıya səfərini İlham Əliyevə verilən son şans kimi də dəyərləndirmək olar. Bu şans əldən verildi. Onun bu addımı ABŞ-ın mövqeyinə ciddi təsir göstərəcək. Artıq bu seçimin konturları görünməkdədir. Müxalifət liderlərinin ABŞ rəsmi dairələri ilə mühüm görüşlər keçirməsi və onlara sıcaq münasibət göstərilməsi onu deməyə əsas verir ki, artıq ABŞ Azərbaycan iqtidarının yola salınmasına öz xeyir-duasını verib və bu hakimiyyətin dəyişilməsi günün tələbidir» (94).

Müxalifət liderlərinin Vaşinqton görüşlərində Amerika tərəfinə konkret bir xahişi də olmuşdu. Onlar ABŞ prezidenti Corc Buşun may ayında Tbilisiyə səfəri gedişində onunla görüşmək istədiklərini bildirmişdilər: «Biz orada həmçinin cənab Buşun Gürcüstana gözlənilən səfəri haqda müzakirələr apardıq. Mən dedim ki, cənab Buş Bratislavada (fevral 2005 – müəllif) olanda ətraf ölkələrin demokratik ictimaiyyətinin nümayəndələrini görüşə dəvət etmişdi. Gürcüstan səfərində də qonşu dövlətlərin demokratik ictimaiyyətinin təmsilçilərini dəvət edib, görüş keçirsə, bu, bölgədə demokratik proseslərin inkişafına ciddi təkan verər», - deyə Müsavat başqanı Bakıya dönüşündə bildirmişdi (95).

Lakin cənab Buşun Gürcüstana səfərini təşkil edən ABŞ rəsmiləri Müsavat başqanının «bölgədə demokratik proseslərin inkişafına təkan vermək» barədə məsləhətini nəzərə almadılar və müxalifət liderlərinə, geniş informasiya hazırlığına rəğmən, Tbilisiyə gedib Amerika prezidenti ilə görüşmək müəyəssər olmadı. Buşun Gürcüstana səfərinə gəldikdə isə, o, qonşu ölkəyə

«qızılgül» hakimiyyətinə dəstək vermək üçün gəlmişdi. Faşizm üzərində Qələbənin 60-cı ildönümü təntənələrində iştirak etmək üçün Moskvaya səfər edən ABŞ prezidenti yolüstü Latviya paytaxtında dayanmış, sonra isə Tbilisiyə gəlmişdi. Bu, Amerika rəhbərinin keçmiş postsovet respublikalarına ilk səfəri idi və onun ikinci müddətə prezident seçilməsindən sonra belə bir turneyə çıxması Vaşinqtonun regionda gedən siyasi və demokratik yeniləşmə proseslərinə böyük önəm verdiyini göstərirdi. Bu baxımdan onun Tbilisidə verdiyi bəyanat da əlamətdar idi. O, Gürcüstanda «məxməri» inqilabdan sonra demokratiya yolunda böyük uğurlar qazanıldığını vurğulayaraq Gürcüstanı «azadlığın mayakı» adlandırmışdı: «Bu gün Qafqazdan Mərkəzi Asiyayadək xalqlar azadlıq istəyir və onlar onu əldə edəcəklər. Siz elə bir zamanda yaşayırsınız ki, azadlıq uğrunda mübarizə Qara dənizdən Xəzər dənizinədək yayılıb və siz öz nümunənizlə başqalarına da qələbəyə inam aşılamış olursunuz. Mən sizin fədakarlığınıza təşəkkür etmək üçün buraya gəlmişəm» (96).

Bu bəyanatdan Azərbaycanın müxalifət liderləri elə siyasi ehtizaza gəlmişdilər ki, sanki Amerika prezidenti Gürcüstan rəhbərliyinə deyil, onlara təşəkkür edibmiş. Üstəlik, bundan az keçmiş ABŞ rəhbəri Vaşinqtonda daha bir bəyanat da verdi ki, ondan sonra bizim müxalifət liderlərinin sevincinin həddi-hüdudu yox idi. Prezident Buş Beynəlxalq Respublikaçılar İnstitutunun təşkil etdiyi qəbulda bildirmişdi ki, ABŞ postsovet ölkələrinin demokratiyaya keçidinə yardım məqsədilə fəaliyyət planı hazırlayıb və onun həyata keçirilməsi üçün «Çevik müdaxilə korpusu» adlı xüsusi struktur yaradılacaq. Bu, bir qədər əvvəl ABŞ Konqresində senatorlar Con Makkeyn və Cozef Libermanın təşəbbüsü ilə qəbul olunmuş «Demokratiyanın yayılması Aktı»na əsasən hazırlanmış plan idi və mahiyyət etibarilə Amerikanın postsovet ölkələrində həyata keçirdiyi

demokratik təsisatlara yardım proqramının tərkib hissəsi idi. Yəni burada hansısa əlahiddə tədbirlərdən, yaxud inqilablar ssenarisindən söhbət getmirdi. Lakin bu detallar Azərbaycan müxalifətinin «məxməri» şadyanalığı fonunda, təbii ki, diqqətə alınmırdı. ABŞ prezidenti həmin çıxışında demokratik inkişafdan kənarda qalan ölkə kimi yalnız Belarusun adını çəksə də, bizim müxaliflər dərhal Buşun çıxışının sətiraltı mənalarında Azərbaycanın da adını «tapmağa» müvəffəq olmuşdular.

Halbuki Amerika rəsmiləri elə həmin günlərdə müxalifətin «inqilab» menyusuna heç də uyğun gəlməyən açıqlamalar verirdilər. Məsələn, Buşun Gürcüstan səfəri öncəsi «Azadlıq» radiosuna müsahibəsində Dövlət Departamentinin rəsmisi qeyd etmişdi ki, Vaşinqton Azərbaycanda demokratik islahatların tempi ilə qane olmasa da, bu prosesin təkamül yolu ilə həyata keçiriləcəyinə inanır və bu yöndə Azərbaycan hakimiyyəti ilə işləməkdə davam edəcək: «Vaşinqtonda hesab edirlər ki, onun tövsiyə etdiyi demokratik islahatlar təkamül yolu ilə, Azərbaycanın rəhbərliyi tərəfindən həyata keçirilə bilər. ABŞ istəyir ki, Azərbaycanda növbəti seçkilər daha demokratik olsun, islahatlar daha əzmlə və ardıcıl şəkildə həyata keçirilsin, müxalifət dinc demokratik proseslərə cəlb olunsun» (97).

Həmin günlər müxalifət dairələrin digər bir spekulyasiya mövzusu ABŞ-ın Azərbaycandakı səfiri Rino Harnişin bölgələrə səfərləri və orada yerli müxalifət fəalları ilə görüşlər keçirməsi ilə bağlı idi. Hərçənd gerçəkdə amerikalı diplomat yerlərdə yalnız müxalifətin fəalları deyil, vətəndaş cəmiyyətinin – qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də yerli hakimiyyət orqanları rəhbərləri ilə silsilə görüşlər keçirmiş və bu xüsusda əsas müzakirə mövzusu da, təbii ki, parlament seçkilərinə hazırlıq məsələsi olmuşdu. Prinsipcə burada qeyri-adi bir şey yox idi. ABŞ-ın (eləcə də digər Qərb ölkələrinin) diplomatları ondan öncə də mütəmadi bölgələrə səfərlər etmiş, o cümlədən 2003-cü

ildə prezident, 2004-cü ildə bələdiyyə seçkiləri ərəfəsində regionlarda müxtəlif siyasi maarifləndirmə treninqləri və s. təşkil etmişdilər. Amma daha öncə bu səfərlərə məxsusi diqqət yetirməyən müxalifət təmsilçiləri indi faktı bəlli siyasi prizmadan qiymətləndirərək «Amerika səfiri Azərbaycanda inqilab hazırlayır» kimi mülahizələri dövriyyəyə buraxmışdılar. Hətta müxalifət yazarları R.Harnişi «inqilabçı səfir» deyə təqdim edirdilər. Halbuki ondan ilyarım öncə, 2003-cü ilin payızında elə həmin müxalifət yazarları R.Harnişi sərt ifadələrlə «topa tutaraq» onu «Azərbaycanda irticaya yardımçı olmaqda» ittiham etmişdilər. Odur ki, belədə sual yaranırdı: o vaxtkı tənqid nə idi, indiki tərif nədir? Əgər Amerikanın Azərbaycanda «məxməri» inqilab ssenarisi vardırsa, niyə Vaşinqton onu ilyarım öncə, prezident seçkilərində işə salmamışdı? Yoxsa, müxalifətin iddia etdiyi kimi, ABŞ-ın Azərbaycan hakimiyyətinə münasibəti dəyişmişdi? Təbii ki, burada söhbət yalnız və yalnız siyasətdə həvəskarlığa aludə olanların illüziyalarındakı növbəti menyu dəyişikliyindən gedə bilərdi.

Bu yerdə onu da qeyd etmək lazımdır ki, müxalifət dairələrinin Amerika diplomatından «inqilabçı səfir» düzəltmək kampaniyasına hakim partiyanın bəzi təmsilçilərinin, o cümlədən ayrı-ayrı deputatların çıxışları da dolayı təsir edirdi. Bu mövzunu bir neçə dəfə Milli Məclisin iclaslarında gündəmə gətirərək «Amerika səfiri müxalifət təmsilçiləri ilə niyə görüşür» kimi ritorik suallar səsləndirən iqtidaryönlü deputatlar nəticə etibarilə müxalifət mətbuatında «Hakimiyyət ABŞ-a «soyuq müharibə» elan edib» kimi gülünc iddialara təkan vermiş olurdular. Gerçəkdə isə nə bu cür ritorikaya, nə də qeyd olunan iddialara əsas vardı. O cümlədən Vaşinqton-Bakı münasibətlərinin real mahiyyətindən xəbərdar olanlar üçün ortada hansısa yeni tendensiya da yox idi. ABŞ rəsmiləri dəfələrlə nəzərə çatdırıblar ki, Vaşinqtonun Azərbaycandakı


maraqları üç əsas vektor üzərində köklənib: enerji əməkdaşlığı, təhlükəsizlik məsələləri üzrə tərəfdaşlıq və demokratiya sahəsində əməkdaşlıq. Bu vektorlar üzrə Amerika-Azərbaycan münasibətləri heç də əlahiddə deyil, bir-biri ilə üzvi bağlılıqda inkişaf edir. Eyni zamanda, o da gerçəkdir ki, ayrı-ayrı məsələlərə, o cümlədən konkret olaraq demokratik islahatların həyata keçirilməsi tempinə münasibətdə Vaşinqton və Bakının nisbətən fərqli yanaşmaları var və bunu Azərbaycan rəhbərliyi də inkar etmir. Amma önəmli olanı Azərbaycanın bu strateji inkişaf yolunda olması, Amerikanın da buna dəstək verməsidir.

Təsadüfi deyil ki, ABŞ prezidenti Buş 2005-ci ilin mayında prezident İlham Əliyevə BTC-nin Azərbaycan hissəsinin açılışı və Respublika Günü münasibətilə göndərdiyi məktublarda bu məqamı xüsusi vurğulamışdı. Azərbaycanda demokratiya və bazar iqtisadiyyatı istiqamətində islahatları dəstəklədiyini qeyd edən ABŞ rəhbəri əmin olduğunu bildirmişdi ki, uğurlu neft strategiyası ölkədə iqtisadi rifahın və demokratik inkişafın güclənməsinə də geniş təkan verəcək: «Azərbaycan öz demokratik və bazar iqtisadiyyatı islahatlarını genişləndirdiyi bir vaxtda, bu boru kəməri tarazlaşdırılmış iqtisadi artıma nail olmaqda yardımçı olur və azadlığı daha da inkişaf etdirən çiçəklənən və ədalətli cəmiyyətin qurulması üçün zəmin yaradır. Biz azadlıq nemətlərinin bütün Azərbaycan vətəndaşlarına çatdırılması üçün demokratik və iqtisadi islahatlar üzərində işinizi dəstəkləməkdən məmnunuq» (98).

Qeyd etmək lazımdır ki, dövlətlərarası münasibətlərdə epistolyar janr, o cümlədən qarşılıqlı təbrik məktubları, sadəcə, diplomatik etiket nümunəsi deyil. Bu məktubların mətni, xitabət tonu ölkələr arasında mövcud olan münasibətlərin mahiyyətinə işıq tutan vacib nüanslardır. Ola bilməz ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədə olsun, amma onların dövlət rəhbərlərinin bir-birinə ünvanladığı təbrik məktubları quru və

şablon ifadələrdən ibarət olsun. Yaxud da əksinə. Bu baxımdan ABŞ prezidentinin Azərbaycan rəhbərinə ünvanladığı məktublar iki ölkə arasında tərəfdaşlığın strateji mahiyyətini bir daha təsdiqləyirdi. Bu tərəfdaşlığın ən aydın barometrlərindən birinin isə 2005-ci il mayın 25-də fəaliyyətinə start verilən BTC neft kəməri olduğunu desək, yanılmarıq. Çünki bu layihə və ümumilikdə iki ölkənin qarşılıqlı inam və etibara dayanan enerji əməkdaşlığı nəticə etibarilə siyasi, hərbi-təhlükəsizlik, regional və beynəlxalq müstəvidə hərtərəfli tərəfdaşlığına da müsbət impuls verib. Odur ki, BTC layihəsinin reallaşması Azərbaycanın ABŞ-la və ümumilikdə Qərblə münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlaması demək idi. «Buş iqtidarı Azərbaycana xüsusi dəstək verir və Azərbaycan demokratik inkişafı ilə müsəlman ölkələri arasında ABŞ-ın istədiyi bir model ola bilər», - deyə həmin günlər «Washington Times» qəzeti yazırdı. Bu isə öz növbəsində Qərbin Azərbaycan iqtidarına etimad və etibarının daha da möhkəmlənməsi demək idi ki, bunu müxalifət liderləri də yaxşı başa düşürdülər.

Məhz buna görə radikal müxalifət bu əlamətdar hadisəyə kölgə salmaq, ən əsası isə Azərbaycan hakimiyyətinin beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə BTC-nin açılışı ərəfəsində, mayın 21-də Bakıda qanunsuz kütləvi aksiya keçirməyə cəhd etdi. Baxmayaraq ki, hakimiyyət Müsavat, AXCP və ADP rəhbərlərinə mitinqi BTC-nin açılışından sonraya saxlamağı tövsiyə etmişdi, «üçlər» bu aksiyanı məhz 25 may öncəsi, özü də şəhərin mərkəzində keçirməkdə israrlı idi. Müxalifət liderləri düşünürdülər ki, aksiya həqiqətən kütləvi iştirakla müşayiət olunacaq və polisin həmin günlər Bakıya təşrif buyurmuş çoxsaylı xarici jurnalistlərin gözü qarşısında mitinqi dağıtması nəticədə geniş beynəlxalq rezonans doğuracaqdı. Lakin gerçəkdə «üçlər»in səylə hazırlaşdığı aksiya iflasa uğradı, hər partiyadan 10-15 fəalın şəhərin müxtəlif yerlərində «mitinq-yürüş» keçirmək










HEYDƏR ƏLİYEV
























cəhdi isə radikal müxalifətdəki «inqilabçılar» kontingentinin nə dərəcədə məhdud olduğunu göstərdi. Yeri gəlmişkən, bu, Müsavat-AXCP-ADP üçlüyünün narıncı simvolikalı ilk aksiyası idi və bu uğursuz başlanğıc «narıncı» hərəkatın sonrakı məğlubiyyəti üçün bir növ mesaj idi.

Müxalifət dairələri 21 may aksiyasına imkan verilməməsini Azərbaycanda seçkiqabağı mitinqlərə qadağa qoyulması kimi təqdim edərək beynəlxalq ajiotaj qaldırmağa çalışsa da, ölkə rəhbərliyi bunu dərhal təkzib etmişdi. Prezident İlham Əliyev BTC-yə ilk neftin vurulması mərasimində iştirak üçün Bakıya gəlmiş xarici jurnalistlərlə görüşdə bu məsələyə aydınlıq gətirmişdi: «Mən deməzdim ki, bütün mitinqlərə qadağa qoyulub. Azərbaycanda 2003-cü ildə prezident seçkilərindən sonra baş vermiş iğtişaşlar və zorakılıq halları yadımızdadır. O vaxt mitinqlərə gedən şəxslər ciblərini daşla doldurmuş, əllərinə metal dəyənəklər almışdılar. İğtişaş zamanı onlar polisə hücum etmiş, maşınları vurub dağıtmış və yandırmışdılar. Ona görə də bu hadisələr əhalini şok vəziyyətinə saldı. Cəmiyyətimiz bu ünsürləri pislədi. Hazırda isə belə bir tarixi hadisə ərəfəsində nümayiş keçirmək niyyəti bizdə narahatlıq doğurur. Biz bu möhtəşəm hadisənin əhalinin etimadını tamamilə itirmiş müəyyən siyasi qüvvələr tərəfindən zorakılıq hallarına çevrilməsinə yol verə bilmərik. Buna görə mərasimin başa çatmasına qədər nümayişlərin keçirilməsinin təxirə salınmasını düzgün hesab etdik. Mərasim başa çatandan sonra heç bir məhdudiyyət qoyulmayacaqdır» (99).

Əslində radikal müxalifətin 21 mayda toqquşma və iğtişaşa uğursuz cəhdi bu düşərgənin parlament seçkilərinə də hansı əhvalla hazırlaşdığını göstərirdi. Radikal liderlər onsuz da bəyan etmişdilər ki, siyasi mübarizəyə 2003-cü ilin 16 oktyabrında qaldıqları yerdən, yəni «daş-kəsək siyasəti» ilə davam edəcəklər və bu baxımdan hakimiyyətin bu cəhdlərə imkan verməməsi təbii

idi. Eyni zamanda, müxalifət dairələrində, o cümlədən radikal «üçlüyə» yaxın çevrələrdə bu cür qarşıdurma tendensiyasının ümumilikdə Azərbaycana, ayrılıqda isə elə müxalifətin özünə yaxşı heç nə vəd etmədiyinin fərqində olanlar yox deyildi. Müsavatın yan quruluşu kimi təsis olunmuş Əhrar Partiyasının sədri Vaqif Hacıbəyli (Müsavat başqanının müavini Arif Hacılının qardaşı) seçki mübarizəsinin müəyyən mərhələsində müxalifətin kütləvi aksiyalarının idarəolunmaz proseslərə və hətta qanlı qarşıduramaya gətirə biləcəyini qeyd edərək yazırdı: «Müxalifət bu təhlükəni nəzərə alaraq ölkədə alovlana biləcək vətəndaş müharibəsinin qarşısının alınması istiqamətində həm iqtidar, həm də Azərbaycanda ciddi iqtisadi maraqları olan beynəlxalq dairələrlə, beynəlxalq təşkilatlarla əməkdaşlığa və lazım gələrsə, müəyyən güzəştlərə tam hazır olmalıdır. Bununla əlaqadar müxalifət partiyaları vətəndaş itaətsizliyinə və siyasi sabitliyin pozulmasına yönələn çağırışlar etməməli, qisasçılıq və siyasi düşmənçilik təbliğatına yol verməməli, siyasi mübarizədə yalnız qeyri-zorakı vasitələrindən yararlanmalı, sanksiyalaşdırılmamış kütləvi aksiyalardan imtinaya hazır olmalıdır... Seçkilərin taleyi küçə və meydanlarda deyil, seçki məntəqələrində həll edilməlidir» (100).

Ümumiyyətlə, seçki kampaniyası ərəfəsində müxalifət mətbuatını tamamilə zəbt etmiş «inqilab» mövzusunda yazılıb-cızılan saysız məqalə və təhlillərdən aşkar görünürdü ki, hakimiyyətin opponentləri bu məsələdə geniş tərəddüd içindədirlər və rəvac verə biləcəkləri hər hansı çaxnaşmanı sonradan idarə edəcəklərinə də çox ciddi daxili şübhələri var. Həmin günlər müxalifət qəzetləri çeşidli «inqilab düsturları», «məxməri» ssenarilər və müxalifət üçün «yol xəritə»ləri ilə dolub daşsa da, bu rəngarəng nəzəriyyədən heç düşərgə ideoloqlarının özlərinin də baş açmadıqları dəqiq idi. «Azadlıq» qəzetində «inqilab traktatları»ndan birində qeyd olunurdu: «Təbii ki,

müxtəlif mülahizələr irəli sürülür, adamların bir qismi inqilabın baş verəcəyini, bir qismi baş verməyəcəyini, bir başqaları isə bunu arzu etmədiklərini bildirirlər. Məsələn, Siyasi və İqtisadi Tədqiqatlar Mərkəzinin direktoru Sabit Bağırov bildirir: "Sözün düzü, mən Azərbaycanda inqilab olacağını görmürəm. Yəni obyektiv olaraq prosesin bu istiqamətdə getməsi mümkün görünmür. Özü də, bu, arzuolunan istiqamət deyil. Yaxşı olar ki, inqilabsız keçinək və islahatlar da tədricən reallaşsın... Mən təkamül tərəfdarıyam». İnqilab haqqında bu cür düşənənlərin sayı da az deyil. İnqilabın arzuolunmazlığı barədə bəyanatları müxalifət partiyalarının liderləri də verirlər. Məsələn, Ədalət Partiyasının sədri İlyas İsmayılov bildirib ki, Azərbaycanda məxməri inqilab gözlənilmir. O, fikrini belə əsaslandırıb ki, «MDB-də inqilabları Qərb həyata keçirir. Amma Qərb axmaq deyil ki, neft pullarını təhlükə altına alsın». Ən radikal siyasi təşkilatlar da qeyd-şərtsiz inqilabın baş verəcəyini iddia etmirlər. Axı, inqilab sosial fenomendir və kimlərinsə şıltaqlığı nəticəsində yaranmır» (101).

Maraqlı etirafdır, deyilmi? Bununla belə, radikal müxalifət liderlərinin əksəriyyəti bu tezisi yaxın buraxmayaraq özlərini inqilab banisi kimi görürdülər və «inqilabi şərait yoxdursa, onu yaratmaq lazımdır» şüarı ilə hərəkət edirdilər. Özü də səslənən çıxışlardan, bəyan edilən siyasi intibahnamələrdən görünürdü ki, onlar Azərbaycanda «məxməri» ssenarilərin Qırğızıstan variantını özlərinə məqbul sayırlar. Öncəki fəsillərin birində Müsavat başqanın bu barədə dediklərini nəzərə çatdırmışdıq. Onun fikrini inkişaf etdirən ADP funksionerlərindən Qurban Məmmədov əmin idi ki, müxalifət ölkədə çaxnaşmaya təkan verə bilsə, son nəticədə Qərb də onları müdafiə etməli olacaq: «Necə ki, iş-işdən keçməyib, şansı əldən verməməliyik. Az saylı və səmərəsiz mitinqlərə qətiyyən yol vermək olmaz. Əhali arasında gündəlik, anbaan təbliğat aparılmalı, bu məqsədlə müxtəlif

təlimatlar və müraciətlər xalq arasında yayılmalıdır. Müşahidələr göstərir ki, polis və hərbi qüvvələr xalqın kütləvi şəkildə küçələrə çıxacağı təqdirdə ona qoşulmağa hazırdır və bu, mütləq baş verəcəkdir. İstər Avropa, istərsə də Amerika bir şeyin fərqində olmalıdır ki, artıq Azərbaycan insanı rejimin dəyişdirilməsində qərarlıdır. Vəziyyətin daha çox itkisiz dəyişdirilməsi üçün Qərb xalqımızın yanında olmalıdır. Azərbaycana qoyulmuş Qərb sərmayəsinin də taleyi bunu tələb edir... Yalnız bu yolla Azərbaycandakı kortəbii ümumxalq hərəkatı düzgün məcraya yönəldilər» (102).

ADP-çi ideoloqun «inqilab düsturu»nu cəbhəçi həmkarları davam etdirirdilər: «Cəmiyyətin seçkiyə marağı inqilab gözləntisi ilə bağlıdır. Əgər seçkidə xalqın səs vermək istədiyi müxalifət indidən inqilabçı mövqe nümayiş etdirməsə və bu barədə xalqa söz verməsə, onda parlament seçkilərində xalqdan yüksək siyasi fəallıq gözləməyə dəyməz. Ona görə də iqtidarla görüşlərin təşkilində müxalifət elə mövqe seçməlidir ki, cəmiyyətdə formalaşmış radikal ovqat zəifləməsin, əksinə, siyasi qütbləşmənin gücləndirilməsi iqtidarı geri çəkilməyə məcbur edə biləcək ictimai təzyiq üçün çox vacibdir» (103).

Hərçənd, yuxarıda qeyd etdiyimiz kimi, müxalifət düşərgəsində də «inqilab» spekulyasiyalarına realist yanaşan, o cümlədən ərazisinin 20 faizi işğal altında olan Azərbaycan üçün inqilabi təlatümlərin nə demək olduğunu nisbətən soyuqqanlı analiz etməyi bacaranlar vardı. Hətta «məxməri» illüziyaların arxasında imperialist maraqların dayandığını vurğulayanlar da tapılırdı. Odur ki, müxalifət mətbuatı bütünlüklə «narıncı» təbliğata köklənsə də, ara-sıra onun səhifələrində fərqli nəzər-nöqtəsinə də rast gəlmək mümkün idi: «Azərbaycan tarixinə «oyuncaq inqilab»larla düşən 20-ci əsr başa çatdı. Biz isə, deyəsən, inqilab oyunlarına qoşulmaq vərdişimizi hələ də tərgidə bilməmişik. İndi isə bəlkə də təfəkkürümüz daha artıq

bulandığındandır ki, inqilabın rəngi bizə narıncı görünür... Daha konkret ifadə ilə desək, dəstəyinə bel bağladığımız qüvvələrin bizə münasibətdə tutduqları mövqe ölkəmizin demokratikləşməsindən daha çox öz imperialist maraqlarının həyata keçirilməsi üzərində köklənib. Və deməli, bu maraqlar təmin olunduqdan sonra bizə verilən dəstəkdən də məhrum olacağıq. Nəticədə növbəti sabun köpüyü də partlayacaq, yerində acı dolu narıncı xatirədən başqa heç nə qalmayacaq» (104).

Bu fikirləri radikal müxalifətin «inqilab» çalışmalarının 2005-ci ilin noyabrındakı yekunu ilə müqayisə edəndə müəllifin düşərgədəki həmkarlarından xeyli uzaqgörən olduğunu qeyd etməyə bilmirsən. Hərçənd proseslərin bu yekuna varacağını təxmin etmək o qədər də çətin deyildi. Çünki «inqilabçı» qüvvələrin Azərbaycanı hansı xaos girdabına sürükləmək istədikləri göz qabağında idi və buna nə hakimiyyət, nə də onun arxasındakı xalq imkan verərdi. Yeri gəlmişkən, Azərbaycanda seçki mübarizəsinin arzuolunmaz məcrada gedə biləcəyini prosesi izləyən xarici müşahidəçilər də qeyd edirdilər. Hələ aprelin sonunda Azərbaycana səfər edən AŞPA Monitorinq Komitəsinin məruzəçiləri Andreas Qross və Anders Herkel bu mənfi tendensiyanı nəzərə çatdırmışdılar. Qross bildirmişdi ki, parlament seçkilərinin normal siyasi rəqabətdən kənara çıxaraq «ölüm-dirim» mübarizəsinə çevrilməsi Azərbaycanda çox faciəli nəticələrə gətirib çıxara bilər. Qross bu məsələni prezident İlham Əliyevlə müzakirə etdiyini və dövlət başçısının seçkiqabağı siyasi qarşıdurmaya yol verməcəyini, seçkilərin azad və sivil rəqabət şəkildə keçirilməsinə imkan yaradılacağını vəd etdiyini vurğulamışdı.

Qeyd etmək lazımdır ki, həmin dövrdə hakimiyyət Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Bakı ofisi və ABŞ-ın ölkəmizdəki səfirliyi ilə seçkiqabağı şəraitin demokratikləşməsi,

seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində aktiv dialoq içində idi. Bununla yanaşı, hakim partiya müxalifətlə Seçki Məcəlləsi ətrafında müzakirələrə də razılıq vermiş və ilk dialoq raundu mayın 4-də YAP-ın qərargahında baş tutmuşdu. Lakin Müsavat-AXCP-ADP üçlüyü ilk görüşdən bu müzakirələri Mərkəzi Seçki Komissiyasının (MSK) tərkibinin dəyişdirilməsi, bitərəflərinin təmsilçilərinin oradan çıxarılması və qurumun iqtidarla müxalifət arasında paritet əsasda qurulması üzərində kökləmişdi. Özü də «narıncı» üçlük MSK-da müxalifət payına yalnız özü iddia edirdi. Gerçəkdə isə onların bu iddiaları MSK-nın fəaliyyətini iflic etmək və nəticə etibarilə seçkini pozmağa yönəlmişdi. Necə ki, öncəki seçkilərdə müxalifət MSK-dakı üçdə iki yetərsayından sui-istifadə edərək onun işini bir müddət əngəlləmişdi.

Təsadüfi deyil ki, prezident İlham Əliyev müxalifətin MSK ilə bağlı iddialarına münasibət bildirərkən bu məqamı nəzərə çatdırmışdı: «Əgər 2003-cü ilin prezident seçkilərini yada salsaq, görərsiniz ki, o vaxt MSK-da müxalifət nümayəndələrinin hamısı mənim namizədliyimi qeydə almamaq üçün səs verdilər. Mən o zaman baş nazir, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini idim. AŞPA sədrinin müavini, 10 ilə yaxın Milli Məclisin deputatı idim. Yəni mənim tam hüququm var idi ki, prezidentliyə namizədliyim qeydə alınsın. Amma onların hamısı bunun əleyhinə səs verdilər. Bu nəyi göstərir? Onu göstərir ki, əgər onların əlində imkan olarsa, bundan istifadə edəcəklər. Onda böhran yarana bilər. Biz bunu aradan necə götürəcəyik? Ona görə gərək biz buna hərtərəfli yanaşaq. Elə etməliyik ki, Azərbaycanda vəziyyətin pisləşməsini istəyən qüvvələrin əlində elə bir alət, mexanizm olmasın ki, seçkilər pozulsun, yaxud böhran yaransın. Mən Azərbaycan xalqının təhlükəsiz şəraitdə yaşamasının təminatçısıyam və heç cür imkan vermərəm ki,

kimsə burada vəziyyəti gərginləşdirsin və yaxud süni şəkildə böhran yaratsın» (105).

Eyni zamanda, dövlət başçısı seçkilərin şəffaflığının təmin olunması üçün gərəkən addımların atılacağını bildirmişdi və onun 2005-ci il mayın 11-də imzaladığı «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» sərəncam buna bariz misal oldu. Sənəddə yer alan müddəaların bir qismi ayrı-ayrı qanunvericilik aktlarında, o cümlədən Seçki Məcəlləsində əks olunsa da, onların xüsusi prezident sərəncamında bir daha nəzərə çatdırılması həm hüquqi, həm də siyasi yöndən əhəmiyyət kəsb edirdi. İlk dəfə olaraq Azərbaycanda seçkilər ərəfəsində belə bir sərəncam imzalanmışdı. Təsadüfi deyil ki, sənəd beynəlxalq dairələr tərəfindən də müsbət qarşılandı. Sərəncamda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə, digər dövlət məmurlarına seçki prosesinə qanunazidd müdaxilələr etmək birmənalı şəkildə qadağan olunur və belə müdaxiləyə yol verənlərin məsuliyyətə cəlb ediləcəyi vurğulanırdı. Müqayisə üçün qeyd edək ki, öncəki seçki kampaniyalarında bu müddəalar adətən müvafiq müşavirələrdə şifahi olaraq səslənirdi. Sənəddə budəfəki seçki kampaniyasının bir sıra yenilikləri də əks olunmuşdu. İlk dəfə olaraq prezident sərəncamı ilə Azərbaycanda səsvermə günü rəy sorğusunun, «exit-poll»un keçirilməsinə hüquqi baza yaradıldı və yerli icra strukturlarına bu prosedura şərait yaratmaq tapşırıldı. Sənədin digər mühüm məqamı seçki kampaniyasında vətəndaşlarının sərbəst toplaşmaq azadlığının təmin edilməsi və siyasi mənsubiyyətindən asılı olmayaraq bütün namizədlər üçün bərabər təbliğat şəraitinin yaradılması üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırığın verilməsi idi. Sənəddə bütün namizədlərə bərabər təbliğat imkanının təmin olunması üçün dövlət

televiziyasına və yeni yaradılan İctimai televiziyaya tapşırıq, özəl telekanallara müvafiq tövsiyə əksini tapmışdı.

Prezident sərəncamına paralel olaraq Milli Məclis də AŞ-nin Venetsiya Komissiyasının irəli sürdüyü tövsiyələrin əksəriyyətini nəzərə alaraq Seçki Məcəlləsinə müvafiq əlavə və düzəlişlər (ümumilikdə 43 müddəa üzrə) etmişdi. Ümumiyyətlə, hakimiyyət seçki qanunvericiliyinin təkmilləşdirilməsi, azad və ədalətli seçki şəraitinin təmin olunması istiqamətində beynəlxalq instansiyaların, demək olar ki, bütün tövsiyələrini, o cümlədən müxalifətin irəli sürdüyü təkliflərin əksəriyyətini (seçki komissiyalarının paritet əsasda təşkili istisna olmaqla) nəzərə alan addımlar atmışdı. Eyni zamanda, ölkə prezidenti seçki kampaniyası gedişində prosesin şəffaflığının təmin edilməsi istiqamətində gərəkən əlavə addımların da atılacağını vurğulamışdı: «Biz hökumət olaraq bütün tədbirləri görəcəyik ki, parlament seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirsin. Biz çalışmalıyıq ki, artıq bizə bəlli olan müəyyən qüsurlar aradan götürülsün və Azərbaycan seçkilərdən sonra uğurla öz inkişafını davam etdirsin. Elə etməliyik ki, bu prosesin bütün mərhələlərində bütün namizədlər üçün bərabər şərait yaradaq. Bu çox vacibdir və burada heç bir ayrı-seçkilik edilməməlidir. Həm qapalı şəkildə, eyni zamanda, açıq meydanlarda mitinqlərin keçirilməsi üçün şərait yaradılmalıdır. Ona görə gərək müəyyən yerlər ayrılsın, bunlar həm namizədləri və onları dəstəkləyən insanları qane etsin, eyni zamanda, vətəndaşların gündəlik həyatına maneçilik törətməsin... Səslərin sayılması prosesi tam açıq və şəffaf olmalı, heç bir saxtakarlığa yol verilməməlidir. Əgər kimsə saxtakarlıqla məşğul olarsa, onlara qarşı ciddi tədbirlər görüləcək və o insanlar məsuliyyətə cəlb ediləcəklər. Biz seçkiləri tam şəffaf, ədalətli, demokratik şəraitdə keçirməliyik və əminəm ki, belə də olacaqdır» (106).

Qeyd etmək lazımdır ki, bütün bunlar, sadəcə, yüksək səviyyədə bəyan olunan deklarativ müddəalar deyildi, ölkə rəhbərliyinin azad və şəffaf seçkilərə praktik təminat verən siyasi iradəsinin nümayişi idi və seçkilərdən sonra qanun pozuntuları ilə bağlı görülən tədbirlər də bunu sübutladı. Bunlarla bərabər, ölkə başçısı tərəfindən seçkilər ərəfəsində hakimiyyətin elektoral nüfuzuna mənfi təsir göstərə biləcək məsələlərin, o cümlədən sosial-iqtisadi sahədə ortaya çıxan problemlərin həlli üçün təsirli addımlar atılırdı. Çünki nəticə etibarilə insanların seçkiyə münasibəti və siyasi rəğbətinin müəyyənləşməsində sosial rifah faktoru mühüm rol oynayır. Təsadüfi deyil ki, postsovet məkanında meydana gəlmiş «məxməri» hakimiyyət dəyişikliklərində, özəlliklə Gürcüstanda və Qırğızıstanda bu faktor, yəni əhalinin böyük hissəsinin sosial vəziyyətinin ağırlığı həlledici olmuşdu. Təbii ki, Azərbaycan müxalifəti də seçki kampaniyasında bu amildən istifadə etmək əzmində idi. Üstəlik 2005-ci ilin əvvəlindən başlayaraq ölkədə enerji təminatı və kommunal xidmətlərin dövlət dotasiyasından çıxarılması ilə bağlı atılan zəruri addımların doğurduğu qiymət artımı müəyyən sosial narazılığa səbəb olmuşdu. Lakin ölkə rəhbərliyinin bu istiqamətdə atdığı addımlar, kommunal xərclərdəki artımın qismən kompensasiya edilməsi, bu sahədə dövlət hesabına sayğaclaşmanın aparılması, süni qiymət artımı və inflyasiyaya qarşı kompleks tədbirlərlə bağlı xüsusi prezident fərmanının imzalanması bu faktorun böyük həcmdə aradan qaldırılmasını təmin edə bilmişdi. Nəzərə almaq lazımdır ki, həmin vaxt əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün ölkənin maliyyə imkanları da indiki kimi geniş deyildi.

Yəni problemlər vardı, amma onların aradan qaldırılması üçün də ardıcıl tədbirlər görülürdü. Prezident regionlara müntəzəm səfərləri zamanı insanların giley-güzarlarını bilavasitə onların öz dilindən dinləyir və onların həlli üçün yerindəcə

tapşırıqlar verirdi. Eyni zamanda, dövlət başçısı ictimaiyyətə hər müraciətində mövcud problemlər və onların həlli barədə açıq danışır, heç bir populizmə yol vermirdi: «Əlbəttə, problemlər də mövcuddur. Biz bu problemləri bilirik. İşsizlik, yoxsulluq, digər problemlər var, amma biz onları həll edirik. İstərdik ki, daha da sürətlə həll edək. İstərdik ki, yeniləşmə, müasirləşmə, yaxşılığa doğru meyllər daha da sürətlə getsin. Amma bilin ki, əlimizdən gələni edirik və bunu bir konsepsiya şəklində həyata keçiririk. Həm xarici siyasətdə, həm daxili siyasətdə, həm də iqtisadi islahatlarda. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsində söylənilən fikirlər, xarici qonaqlarımızın çıxışları, dünyanın aparıcı ölkələrinin dövlət başçılarının təbrik məktubları da onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir» (107).

Sözsüz ki, bu uğurlu inkişaf tempi ölkə əhalisi tərəfindən də müsbət qarşılanır və dəstəklənirdi. 2005-ci ilin may-iyun aylarında ABŞ-ın nüfuzlu «Gallup İnternational» institutunun, habelə Estoniya və Sloveniya mütəxəsislərinin iştirakı ilə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının keçirdiyi rəy sorğuları əhalinin hakimiyyətə və dövlət başçısına yüksək etimad göstərdiyini nümayiş etdirmişdi. «Gallup İnternational»ın keçirdiyi sorğuda iştirak edənlərin 77 faizi prezident İlham Əliyevin fəaliyyətini dəstəklədiyini bildirmişdi ki, bu, MDB ölkələrinin dövlət başçıları arasında ən yüksək reytinq idi. İkinci sorğu isə İlham Əliyevin 2005-ci ilin ilk yarısında prezidentlik fəaliyyətinə həsr olunmuş və onun nəticələrinə görə, respondentlərin prezidentlik institutuna etimadının 87,1 faiz, şəxsən dövlət başçısına inamının 87,3 faiz təşkil etdiyi bildirilmişdi. İkinci tədqiqatın gedişində həmçinin aydın olmuşdu ki, respondentlərin 36,7 faizi qarşıdan gələn parlament seçkilərində hakimiyyət, 8,4 faizi isə müxalifətyönlü

namizədlərə səs vermək fikrindədir. Müstəqil namizədlərə səs vermək niyyətində olanlar 25,6 faiz təşkil edirdi (108).

Xalqın hakimiyyətə və şəxsən dövlət başçısına geniş dəstəyi, təbii ki, Azərbaycanda hər hansı «inqilabı» istisna edirdi və prezident İlham Əliyev bunu istər yerli, istərsə də xarici jurnalistlərə müsahibələrində hər dəfə diqqətə çatdırırdı. Digər MDB ölkələrində yaşanmış proseslərlə Azərbaycandakı seçkiqabağı situasiya arasında analogiya axtarılmasının sırf nəzəri, reallıqla əlaqəsi olmadığını qeyd edən dövlət başçısı parlament seçkilərinin şəffaflığına təminat verdiyini və müxalifət dairələrinin təbliğ etdiyi «inqilab» iddialarının da onu qorxutmadığını vurğulamışdı. Prezident Türkiyənin "CNN-Türk" televiziya telekanalına müsahibəsində bu barədə demişdi: «Məni heç nə qorxutmur. Çünki prezident vəzifəsi elə bir vəzifədir ki, əgər bu vəzifədə olan şəxsi nəsə qorxudursa, o, bu vəzifədən getməlidir. Mən öz vəzifələrimi cəsarətlə və inamla icra edirəm. Çünki xalqın dəstəyinə, xalqın məhəbbətinə arxalanıram. Əlbəttə, paralellər ola bilər. Bəzi ölkələrdə inqilab oldu, indi düşünürlər, əcəba, bu, başqa ölkələrdə də mümkündür, yoxsa yox? Bilirsiniz, orada əsas problem onda idi ki, iqtidarla xalq arasında inam yox idi, yaxud çox az idi. Çünki orada həm sosial-iqtisadi durum, həm də rəhbərliyin fəaliyyəti artıq xalq tərəfindən o qədər də qəbul edilmirdi. Ona görə əgər prezident xalqa ləyaqətlə xidmət edirsə və xalq da onu bəyənirsə, o, gərək öz fəaliyyətindən, öz vəziyyətindən arxayın olsun. Bu arxayınlıq, əminlik məndə var... Parlament seçkilərində də kimin cəmiyyətdə hörməti var, getsin, seçilsin. Azərbaycan xalqı müdrik xalqdır. İstədiyi namizədə öz səsini verər (109).

Lakin bütün bunlarla yanaşı onu qeyd etmək gərəkdir ki, həmin dövrdə hakim elitada, iqtidar komandasında situasiya heç də tam rəvan və ideal deyildi. Ayrı-ayrı iqtidar mənsubları arasında nüfuz çəkişməsi və hakimiyyətdaxili qruplaşmaların

yaranması mətbuatın geniş müzakirə mövzusu idi. Sözsüz ki, bu xüsusda spekulyativ məqamlar üstünlük təşkil edirdi, amma, eyni zamanda, yuxarılarda arzuolunmaz tendensiyanın getdiyi də bir fakt idi. Ümumiyyətlə, iqtidar komandası daxilində müəyyən nüfuz mübarizəsi bütün ölkələr üçün xas problemdir və Azərbaycan bu baxımdan istisna deyil. Önəmli olanı belə tendensiyaların qarşısının vaxtında alınması və ayrı-ayrı məmurların ambisioz davranışının nəticə etibarilə iqtidarın nüfuzuna və ümumilikdə dövlət idarəçiliyinə mənfi təsirinə yol verilməməsidir. Xatırladaq ki, prezident İlham Əliyev bu barədə hökumət üzvlərinə qəti mövqeyini 2004-cü ilin dekabrında Nazirlər Kabinetinin iclasında bildirmiş və ayrı-ayrı məmurlar arasında qarşılıqlı irad, yaxud anlaşmazlığın «ictimaiyyət qarşısına çox yaramaz formada çıxarılmasının» yolverilməzliyini vurğulamışdı. Prezident nəzərə çatdırmışdı ki, əgər hansısa hökumət məmurlarının bir-birinə qarşı, yaxud hökumətin atdığı addımlarla bağlı irad və narazılığı varsa, onlar bunu hökumətin iclasında bəyan etməli, yaxud ölkə başçısına bildirməlidirlər, amma kimlərinsə «kütləvi informasiya vasitələrini də bu işlərə cəlb edərək, bir-biri ilə mübarizə aparmasına» yol verilməyəcək. Dövlət başçısı vurğulamışdı ki, «hökumət üzvü məmurdur, siyasətçi deyildir», siyasətlə məşğul olmaq istəyənlərsə zəhmət çəkib əvvəl vəzifələrindən istefa versinlər, sonra gedib siyasətlə məşğul olsunlar.

Görünür, bu xəbərdarlıq bəzi məmurlar üçün təsirli olmamış və onlar, bir tərəfdən, hökumət postunda siyasətçilik etməyə, digər yandan, ayrı-ayrı kütləvi informasiya vasitələrini özlərinin piar-kampaniyasına cəlb edərək gələcək siyasi ambisiyaları ilə bağlı cəmiyyətə, ələlxüsus isə müxalifət düşərgəsinə mesajlar verməyə başlamışdılar. Bu baxımdan müxalifət qəzetlərində səhiyyə naziri Əli İnsanovun iqtidarda prezidentə qarşı qrup formalaşdırması, iqtisadi inkişaf naziri

Fərhad Əliyevin isə guya iqtidarda islahatlara qarşı çıxan qüvvələrlə mübarizə aparması barədə ardıcıl yazılar diqqət çəkirdi. Özəlliklə F.Əliyevin media vasitələrində təbliğatı, onun «islahatçı nazir» kimi təqdimatı geniş yayılmışdı. Bu işdə onun qardaşı, «Azpetrol» şirkətinin prezidenti Rafiq Əliyevin geniş «xeyriyyəçilik» fəaliyyəti, o cümlədən müxalifət qəzetləri ilə sıcaq münasibətləri sonuncular tərəfindən də etiraf olunurdu. «Azadlıq» qəzetində F.Əliyevin «islahatçılığı»na yazılar həsr olunur, «Yeni Müsavat» qəzetinin baş redaktoru və Müsavat başqanının müavini Rauf Arifoğlu F.Əliyevi «islahatçı təfəkkürlü şəxs» və iqtidar daxilindəki nüfuz sahiblərindən «müxalifət üçün ən məqbul fiqur» kimi qiymətləndirirdi. «İnqilab»ın uğuru üçün hakim elitada parçalanmanın mühüm şərt olduğunu bilən müxalifət dairələri hakimiyyət dəhlizlərindən gələ biləcək ən zəif mesaja da qulaq kəsilmişdilər: «Rejim daxilində yaranan mərkəzdənqaçma prosesini sürətləndirmək üçün müxalifət qüvvələri dərhal hərəkətə keçməli və «məxməri» inqilaba əlindən gələn köməyi əsirgəməyən istənilən məmurla əməkdaşlığa hazır olduqlarını bəyan etməlidirlər. Fikrimizcə, şərtləri qarşılıqlı razılaşmalar nəticəsində müəyyənləşdirilən əməkdaşlıqda heç bir qəbahət yoxdur və bu, bizim istəyimizdən asılı olmayaraq onsuz da reallaşacaqdır» (110).

Bu arada «islahatçı nazir»in təbliğatı, onun az qala Azərbaycanın «Saakaşvilisi» ola biləcəyi fikrinin ictimai rəyə təlqin olunması kampaniyası elektron KİV-də, özəlliklə ANS telekanalında aktiv şəkildə gedirdi. Bütün bunlar, ictimaiyyətin gözü qarşısında baş verirdi və ortaya çoxlu suallar çıxarırdı: «Necə olur ki, müstəqil bir telekanal «birdən» Fərhad Əliyev kimi iri məmurun təbliğatına başlayır. Hətta bəzi səfirlərin F.Əliyevin baş nazir postuna yüksəlməsi üçün müəyyən metodlarla lobbiçilik etdikləri bildirilir. Belə görünür ki, Fərhad Əliyev hələlik «Saakaşvili olmaq» fikrindən çəkinərək ilk siyasi

məqsəd kimi konstitusiya ilə ölkənin ikinci şəxsi olan baş nazir postunu tutmağı düşünür. Sonrasına isə, necə deyərlər, baxarıq» (111).

Sözsüz ki, bu proseslərə ölkə rəhbərliyinin münasibəti maraq doğururdu. Bu baxımdan prezidentin bir müddət sükutu qoruması ictimai rəydə birmənalı qarşılanmamışdı. Lakin sonrakı hadisələr göstərdi ki, dövlət başçısının bu cür davranması səbəbsiz olmayıb, əksinə, bu tamamilə düşünülmüş taktika olub və proseslərin, necə deyərlər, bütün miqyası ilə «su üzünə çıxmasını» gözləmək üçün onları bir müddət təmkinlə izləmək lazım imiş.

ON BİRİNCİ FƏSİL

«NARINCI» KOALİSİYA SPONSOR AXTARIŞINDA: ERMƏNİ PULUNA «İNQİLAB» SİFARİŞİ

«Ləkəli vicdan hamı üçün təhlükəlidir».
S.Publili

«Özgə buzovu bağlayanın çatısı əlində qalar».
Azərbaycan atalar sözü

«Məşhurlaşmaq üçün vicdanı hərraca qoymaq
gözəl bir rəsm əsərini yandırıb külündən
bəhrələnməyə oxşayır».
Çin atalar sözü

2005-ci il iyulun 4-də prezident İlham Əliyev parlament seçkilərinə rəsmi start verilməsi barədə sərəncam imzaladı. Sərəncama əsasən, üçüncü çağırış Milli Məclisə seçkilər 2005-ci il noyabrın 6-na təyin olundu. Bu ərəfədə (2 iyul 2005-ci il) isə «Seçki Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında» qanun prezident tərəfindən imzalanaraq qüvvəyə minmişdi. Qeyd etdiyimiz kimi, seçki qanunvericiliyinə edilən əlavə və dəyişikliklər, eləcə də bir qədər əvvəl prezidentin ölkədə seçki praktikasının təkmilləşdirilməsi məqsədilə imzaladığı sərəncam ümumilikdə parlament seçkilərinin azad və şəffaf keçirilməsi üçün zəruri hüquqi bazanı təmin etmişdi. Beynəlxalq təşkilatların bu xüsusda irəli sürdüyü tövsiyələrin böyük əksəriyyəti, seçki komissiyalarının paritet əsasda formalaşdırılması iddiası istisna olmaqla, müxalifətin irəli sürdüyü təkliflərin bir çoxu (seçkilərin monitorinqinin təşkili, seçki təbliğatı, kütləvi aksiyaların keçirilməsi ilə bağlı) həllini tapmışdı. Beynəlxalq təşkilatların texniki səciyyəli bir sıra tövsiyələri (məsələn, seçicilərin barmaqlarının işarələnməsi) isə bir qədər sonra, seçki kampaniyası gedişində həllini tapdı.

Bununla belə, radikal müxalifət seçki komissiyalarından bitərəf nümayəndələrin çıxarılması və bu qurumlarda 50 faiz təmsilçiliyin ona verilməsi barədə iddialarını sürdürürdü. Maraqlıdır ki, bəzi beynəlxalq dairələr, o cümlədən AŞPA Monitorinq Komitəsinin məruzəçiləri bu iddiaya dolayı dəstək verməyə başlamışdılar. Halbuki seçki komissiyalarının iqtidar, müxalifət və bitərəflərin nümayəndələrindən təşkili 2003-cü ildə beynəlxalq ekspertlər, o cümlədən AŞ-nin Venetsiya Komissiyası tərəfindən tövsiyə olunmuş və Seçki Məcəlləsində əksini tapmışdı. Digər tərəfdən, parlament seçkilərində deputatlığa namizədlərin az qala yarısının, millət vəkili seçilənlərin isə üçdə birinin bitərəflərdən ibarət olması onların seçki komissiyalarında təmsilçiliyinin əsaslı olduğunu bir daha sübut etdi.

Təbii ki, bir qədər əvvəl qeyd etdiyimiz kimi, radikal müxalifətin «paritet» tələbinin arxasında konkret siyasi məqsəd dururdu: bu qüvvələr seçkidə məğlub olacaqlarını yəqin bildikləri üçün faktiki olaraq onun pozulması üçün yollar aramaqda idilər. Seçki komissiyalarının yarısını nəzarətə götürməklə bu qurumların fəaliyyətinin iflic edilməsi nəticə etibarilə ölkədə siyasi böhranı və deməli, bu qüvvələrin nəzərdə tutduqları inqilab ssenarisi üçün əlverişli şəraiti təmin edə bilərdi. Təsadüfi deyil ki, artıq seçki kampaniyasının ilk günlərindən «narıncı» cəbhədə gedən aktiv diskussiyaların bir mövzusu da «inqilabı seçkilərdən əvvələ çəkmək» barədə idi. Yəni radikal müxalifət seçkiyə deyil, hakimiyyəti ələ keçirməyə hazırlaşdığını biruzə verirdi. ADP-nin mətbu ruporu 1992-ci ilin 15 may çevrilişini nostalji ilə xatırlayaraq yazırdı: «Azərbaycan reallığına nəzər salsaq, aydın olar ki, «məxməri» inqilabı elə biz özümüz icad etmişik, sadəcə, əcnəbilər onu bizdən oğurlayıblar. Deməli, hakimiyyətin seçkilər yolu ilə deyil, çevrilişlərlə əldə olunmasının ənənəsi çoxdan qoyulub. Bu gün ölkədəki siyasi ab-hava eyni situasiyanın yetişdiyindən xəbər verir... Başqa reallıq ondan ibarətdir ki, «məxməri» inqilabı seçkilərdən əvvələ çəkmək

məsələsi xeyli aktuallaşıb. Bu inqilabların texnologiyasına nəzər saldıqda görünür ki, bütün proseslər seçkilərdən sonra baş verir və kulminasiya nöqtəsinə çatır. Ancaq, deyəsən, azərbaycanlıların bir o qədər gözləməyə səbri çatmayacaq... Bu ssenari də xeyli ağlabatandır» (112).

Bu arada «narıncı» koalisiyanın beynəlxalq təqdimatını davam etdirən Müsavat-AXCP-ADP üçlüyü İstanbulda bir araya gələrək növbəti «inqilab» çağırışı ilə çıxış etmişdi. İsa Qəmbər, Rəsul Quliyev və Əli Kərimlinin iyunun 26-da imzaladıqları birgə bəyanat müxalifət mətbuatı tərəfindən təmtəraqlı şəkildə - «İstanbul deklarasiyası» adlandırılırdı. Qeyd etmək lazımdır ki, seçkilər ərəfəsində bir neçə dəfə Türkiyəyə səfər edən müxalifət liderləri bu ölkənin kütləvi informasiya vasitələrinə müsahibələrində Azərbaycanın inqilab astanasında olduğunu, az qala ölkə əhalisinin bütünlüklə onların tərəfində olduqlarını iddia edirdilər. Öz növbəsində buradakı müxalifət mətbuatı «narıncı» liderlərin Türkiyədə yüksək səviyyədə qəbul olunması, rəsmi Ankaranın onlara sıcaq münasibəti barədə spekulyasiyaları tiraclayırdı. Hərçənd müxalifət liderləri Türkiyədə bir neçə millət vəkili istisna olmaqla heç bir rəsmi məqamda görüşə nail ola bilməmişdilər. Yüksək səviyyədə qəbula gəldikdə isə, həqiqətən də «narıncı» liderlərdən biri orada çox «sıcaq» qarşılanmışdı. Belə ki, AXCP sədri Əli Kərimlini İstanbul hava limanında bir qrup seksual azlıq gül-çiçək və «sevgi» şüarları ilə qarşılamış və bu hadisə Türkiyə mediasında da rezonans doğurmuşdu.

Müxalifət liderləri onların Türkiyəyə səfərlərinin guya Azərbaycan hakimiyyətində qısqanclıq və narahatlıq doğurduğunu, hətta bu səfərlərin əngəllənməsi üçün tədbirlər görüldüyünü iddia etsələr də, prezident İlham Əliyev türkiyəli jurnalistlərə müsahibəsində bunu birmənalı şəkildə təkzib edərək həmin qüvvələrin hakimiyyət üçün ciddi rəqib olmadığını nəzərə çatdırmışdı: «Bu məni qətiyyən narahat etmir. Çünki onlar bizim

üçün rəqib deyildir. Onların siyasi iflası artıq bir neçə il bundan əvvəl baş vermişdir. İndiki müxalifət 1992-ci ildə müəyyən yollarla iqtidara gəlmişdi. Amma cəmi bir il ərzində onlar hakimiyyəti itirdi. Nə üçün? Çünki Azərbaycan xalqı onların siyasətinə dözmədi. 1993-cü ildən bu günə qədər bütün seçkilərdə onlar iflasa uğrayırlar. Sadəcə olaraq, o liderlərdə cəsarət çatmır ki, öz vəzifələrindən çəkilsinlər, yeni nəslə yol açsınlar. Azərbaycanda iqtidarda dəyişiklik baş verdi. 2003-cü ildən Azərbaycanda yeni prezident seçildi. Müxalifətdə isə eyni simalar, eyni vədlər və eyni uğursuzluqlar. Ona görə müxalifətin nəyi harada deməsindən asılı olmayaraq, bu, bizi narahat etmir. Bizim müxalifət Avropa ölkələrinə, digər ölkələrə də səfərlər edir. Bu, bizim üçün əsla bir problem deyildir» (113).

Müxalifət liderləri seçkinin taleyinin Azərbaycandan çox əcnəbi ölkələrin siyasi dəhlizlərində həll olunacağı ümidilə xarici səfərlərini davam etdirərək həm də öz aralarında bir növ yarışa girmişdilər. Onların düşüncəsinə görə, bu yarış onlardan hansının Qərbdən daha çox dəstək aldığını göstərməklə bərabər, nəticə etibarilə kimin inqilab rəhbəri kimi daha şanslı olduğunu sübutlamalı idi. Başqa sözlə, «narıncı» üçlük zahirən monolit görünsə də, gerçəkdə daxildə liderlər, partiyalar və onların nəzarətindəki qəzetlər arasında gərgin rəqabət gedirdi və tərəflərin hər biri illüzor inqilabın reallaşmasında həlledici rol oynayacağı qənaətində idi. Bu baxımdan iyul ayında ABŞ-ın keçmiş dövlət katibi, Milli Demokratiya İnstitununun (MDİ) rəhbəri Madlen Olbraytın Bakıya səfəri müxalifət düşərgəsində xüsusi canlanma doğurmuşdu. Düşərgə ideoloqları iddia edirdilər ki, Olbrayt Vaşinqtonun Azərbaycan rəhbərliyinə sərt mesajlarını verməyə və faktiki olaraq müxalifəti dəstəkləməyə gəlir. «Cəbhəçi» yazarlar isə bir qədər də irəli gedərək iddia edirdilər ki, xanım Olbraytın Bakıya səfəri AXCP sədrinin məxsusi xidmətidir: «Qərblə Azərbaycanın demokratik müxalifəti arasında mövqe birliyi var...Şişirtmədən deyə bilərik

ki, bu işin əsasını Əli Kərimli qoydu və burada öncüllük ona məxsusdur. 2003-cü il oktyabr hadisələrindən sonra da Əli Kərimli hamıdan qabaq ABŞ-a və Avropaya səfərə çıxaraq demokratik qüvvələrin mövqeyini çatdırdı və dəstək istədi. Artıq bu gün deyə bilərik ki, belə bir dəstək alınıb. Bütün bu görüşlərin nəticəsidir ki, ABŞ Madlen Olbraytı xüsusi missiya ilə Azərbaycana göndərməyə, parlament seçkilərinin azad və ədalətli keçirilməsi üçün İlham Əliyevə öz mövqeyini açıq şəkildə çatdırmağa hazırlaşır» (114).

Qeyd etmək lazımdır ki, Olbraytın seçki kampaniyasına rəsmi start verilməsindən sonra (11-14 iyul) Bakıya səfər etməsi xarici kütləvi informasiya vasitələrində də geniş rezonans doğurmuşdu və onların da bir qismi sabiq dövlət katibinin Azərbaycana «inqilab missiyası» ilə gəldiyi qənaətində idi. Onlar 2003-cü ildə «qızılgül» inqilabı öncəsi ABŞ-ın keçmiş dövlət katibi Ceyms Beykerin Gürcüstana, 2004-cü ildə isə prezident seçkiləri ərəfəsində Olbraytın Ukraynaya səfərlərini yada salaraq budəfəki səfərin də Azərbaycanda inqilab üçün düşərli olacağını təxmin edirdilər. Hərçənd bu qənaət müəlliflərinə də yaxşı bəlli idi ki, Gürcüstan və Ukraynadakı inqilablara Amerikanın sabiq dövlət katiblərinin «ayaqlarının yüngüllüyü» deyil, bu ölkələrdəki siyasi, sosial-iqtisadi böhranın ağırlığı səbəb olmuşdu. Ona qalırsa, Qırğızıstandakı inqilab öncəsi bu ölkəyə Amerikadan və ümumiyyətlə, Qərbdən heç kim səfər etməmişdi. Bununla belə, o da aydın idi ki, Olbrayt Amerika siyasətində söz sahiblərindən biridir və onun bu səfərdən hansı qənaətlə dönəcəyi Vaşinqton dairələrinin Azərbaycandakı seçkiqabağı vəziyyət barədə qənaətinə müəyyən təsir göstərəcəkdi. Onun səfər gedişində Azərbaycan rəhbərliyi və müxalifət liderləri ilə yanaşı, qeyri-hökumət təşkilatları, mətbuat rəhbərləri, həmçinin ölkəmizdə fəaliyyət göstərən xarici ölkə diplomatları ilə görüşlər keçirməsi də buradan maksimum informasiya ilə qayıtmaq istədiyini göstərirdi.

Olbraytın səfər təəssüratı isə müxalifət düşərgəsinin gözləntilərinə adekvat olmadı. O, Bakıya «inqilab missiyası» ilə deyil, Azərbaycanın dostu kimi gəldiyini vurğulayaraq Vaşinqtonun prezident İlham Əliyevlə əməkdaşlığa böyük önəm verdiyini və onun apardığı islahatlar kursunun dəstəklədiyini nəzərə çatdırdı. O, rəhbərlik etdiyi MDİ-nin Azərbaycanda heç bir siyasi qüvvəyə xüsusi rəğbət bəsləmədiyini, bütün partiyalara yardımçı olmağa çalışdığını bildirdi. Sabiq dövlət katibi Amerikanın Azərbaycandakı maraqları və onu bu səfərə gəlməyə motivə edən məqamları belə sıralamışdı: «Hazırda bir neçə səbəbə görə Azərbaycana böyük beynəlxalq maraq var. Azərbaycan bu gün bir çox problemlərlə üzləşən, eyni zamanda, çox mühüm iqtisadi göstəriciləri olan ölkədir. Azərbaycan bölgədə enerji resurslarına görə lider dövlətdir. Azərbaycan iki böyük qonşu dövlət arasında yerləşir. Bundan başqa, Azərbaycan həyati əhəmiyyət kəsb edən parlament seçkiləri dövrünə qədəm qoyur. Mən buranı belə ümidlərlə tərk edirəm ki, Azərbaycan xalqı demokratiyaya dinc təkamül yolu ilə keçəcək. Çünki bu, Azərbaycan xalqının özünün müstəsna haqqıdır. Ona da inanıram ki, buradakı əməkdaşlığımız öz səmərəli bəhrəsini verəcək» (115).

Bir sözlə, Olbraytın səfəri bir daha təsdiqlədi ki, Amerikanın Azərbaycandakı maraqları dəyişməyib və bu ölkə Azərbaycanla enerji və təhlükəsizlik sahəsində uğurlu tərəfdaşlığını demokratik islahatlar sahəsində də davam etdirmək niyyətindədir. Eyni tezisi bu və ya başqa şəkildə Bakıya səfər edən digər amerikalı qonaqlar da nəzərə çatdırmışdılar. Bu səfərlərin intensivləşməsi isə təəccüblü deyildi. Azərbaycan mühüm seçkilər ərəfəsində idi və burada ciddi maraqları olan superdövlət kimi ABŞ-ın proseslərlə maksimum geniş kontekstdə tanış olmaq istəyi başadüşülən idi. Olbraytın ardınca Azərbaycan paytaxtına Amerikanın daha bir keçmiş dövlət xadimi, ata Buşun dövründə Ağ ev administrasiyasına rəhbərlik etmiş və oğul Buşla sıx

münasibətdə olan Con Sununu təşrif buyurdu. Ondan sonra ABŞ-ın nüfuzlu Brukinqs İnstitutunun analitiki xanım Fiona Hill Azərbaycan prezidentinin qəbulunda oldu. İyulun sonunda isə ABŞ dövlət katibinin qlobal məsələlər üzrə müavini xanım Pola Dobryanski Bakıya səfər etdi. Dövlət katibinin müavini prezident İlham Əliyevlə görüşdə bir daha nəzərə çatdırmışdı ki, ABŞ Azərbaycanla tərəfdaşlığın bütün istiqamətlər üzrə inkişafından məmnundur və parlament seçkilərinin Azərbaycanın demokratik inkişafında mühüm rol oynayacağına inanır. O, həmçinin prezidentin seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncamını yüksək qiymətləndirərək onun müddəalarının həyata keçirilməsi üçün Vaşinqtonun gərəkən köməyi göstərməyə hazır olduğunu bildirmişdi.

Öz növbəsində Azərbaycan rəhbərliyi səsvermə günü seçki məntəqələrində «exit-poll»un keçirilməsində Amerika şirkətlərinin də iştirakına razılığını vermişdi. Bir qədər sonra ABŞ hökumətinin (Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyi – USIAD) «exit-poll»un təşkili ilə bağlı keçirdiyi müsabiqədə bu ölkənin nüfuzlu «RA Government Services» şirkətinin qalib gəldiyi elan edildi. Amerika tərəfi həmçinin «exit-poll»un bütün seçki dairələrində deyil, «daha çox siyasi əhəmiyyət kəsb edən ərazilərdə», yəni hakimiyyət və müxalifətin əsas namizədlərinin yarışacağı dairələrdə keçiriləcəyini bildirmiş və rəsmi Bakı bu məsələdə heç bir problem olmadığını nəzərə çatdırmışdı. Eyni zamanda, bir sıra yerli və xarici sorğu mərkəzləri (o cümlədən Amerikanın daha iki şirkəti) «exit-poll» keçirilməsi üçün hökumətə və Mərkəzi Seçki Komissiyasına müraciət etmiş və onların hamısına razılıq verilmişdi. Yeri gəlmişkən, müxalifət dairələri bəri başdan yalnız ABŞ hökumətinin (USIAD-ın) xətti ilə düzənlənəcək «exit-poll»un nəticələrinə etibar edəcəyini, digər nəticələri isə qəbul etməyəcəyini bəyan etmişdi. Lakin nəticədə radikal müxalifət

siyasi cığallığını davam etdirərək bu sözünün də üstündə durmadı.

6 noyabr parlament seçkiləri avqustun əvvəlində Azərbaycan XİN başçısı Elmar Məmmədyarovun Vaşinqtona rəsmi səfəri və dövlət katibi Kondoliza Raysla görüşdə də əsas müzakirə mövzularından biri olmuşdu. ABŞ xarici siyasət idarəsinin rəhbəri nəzərə çatdırmışdı ki, Vaşinqton Azərbaycanı regionun lider ölkəsi hesab edir və parlament seçkilərində demokratiya sahəsində daha böyük irəliləyiş gözləyir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanla ABŞ arasında davam edən bu intensiv dialoq fonunda müxalifət dairələri, eləcə də ayrı-ayrı xarici KİV-lər bir qədər əvvəl gündəmdə olmuş spekulyasiyanı yenidən dövriyyəyə buraxaraq guya Vaşinqtonla Bakı arasında «hərbi baza, yoxsa «məxməri» inqilab» mövzusunda siyasi bazarlaşma getdiyini bildirdilər. Özü də bu dəfə iddia olunurdu ki, Azərbaycan rəhbərliyi ölkə ərazisində Amerika hərbi bazasının yerləşdirilməsinə prinsipial razılıq verib və guya bu üzdən Vaşinqton da noyabr seçkiləri ilə bağlı mövqeyini xeyli yumşaldıb. Hətta ABŞ-ın «Stratfor» araşdırma mərkəzi Azərbaycanda Amerika bazasının yerləşdirilməsinə yaxın aylarda başlanacağını iddia edirdi. Halbuki, bu fikirləri istər Amerika rəsmiləri, istərsə də Azərbaycan rəhbərliyi bir neçə dəfə təkzib etmişdi. Avqust ayında Böyük Britaniyanın «Sky News» televiziyasına müsahibəsində prezident İlham Əliyev bu yöndə spekulyasiyalara birdəfəlik nöqtə qoydu: «Azərbaycanda xarici hərbi bazaların yerləşdirilməsi haqqında məlumat düzgün deyildir. Bunlar şayiədir. Bəzi hallarda bunu bilərəkdən yayırlar, digər hallarda isə, insanlar sadəcə bu haqda düşünürlər. Bu barədə biz Birləşmiş Ştatlarla heç bir danışıq aparmırıq. Onların rəsmiləri bir neçə dəfə bəyan ediblər ki, bu cür bazaları yerləşdirməyi planlaşdırmırlar. Biz bununla bağlı heç bir danışıqlar aparmırıq və mən hesab etmirəm ki, ölkədə hər hansı

xarici hərbi bazanın yerləşdirilməsi bizim təhlükəsizliyimizə töhfə verəcəkdir» (116).

Prezident bu cür qeyri-ciddi və mənasız diskussiyaları, eləcə də xaricdən «inqilab» idxalına dair illüziyaları gündəmdə saxlamağa çalışan müxalifət dairələrinin özünüaldanışla məşğul olduğunu vurğulamış, hakimiyyətin opponentlərinə xaricə boylanmaqdan əl çəkib, siyasi dəstəyi xalqda, seçicilərdə axtarmağı tövsiyə etmişdi. Prezident nəzərə çatdırmışdı ki, radikal müxalifətin «narıncı» rəngə bürünərək siyasi imitasiya yaratması iflasa məhkumdur, çünki Azərbaycan reallıqları onların nümunə göstərdikləri ölkələrdən kökündən fərqlənir: «Bu, müxalifətin səhvlərindən biridir. Çünki buradakı vəziyyət Gürcüstan, Ukrayna və Qırğızıstandakı vəziyyətdən fərqlənir. Həmin ölkələrdə dövlət başçıları on illər ərzində hakimiyyətdə olmuşlar. Nəticədə iqtidara yeni insanlar gəldi və bu da təbiidir. Bizim strateji xəttimiz dəyişməyib. Ancaq mən yeni prezidentəm və hakimiyyətə yeni ideyalarla, yeni yanaşma ilə gəlmişəm. Bunları nəzərə alaraq, Azərbaycanda dəyişikliklər artıq baş veribdir. Bundan əlavə, Azərbaycanda keçmiş hökumətin siyasəti də dəstəklənmişdir. Ona görə də biz Gürcüstandakı parlament seçkiləri və ya Ukraynadakı prezident seçkiləri kimi hadisələr ərəfəsində deyilik. Burada fərqlər var. Müxalifət isə əks imic yaratmağa çalışır. Onların hamısı Ukrayna və ya Gürcüstandakı müxalifət liderlərinə bənzəmək arzusuna düşübdür. Lakin 1992-ci ildə onlar bir dəfə hakimiyyətə gəlmişdilər. Həmin hakimiyyət yalnız bir il çəkdi. Ona görə ki, xalq onları dəstəkləmirdi. Hesab edirəm ki, müxalifətin ən böyük problemlərindən biri də odur ki, onlar artıq uzun illərdir eyni fikirlərlə və eyni şüarlarla çıxış edirlər. Zənnimcə, həmin insanlar geri çəkilməli və gənc müxalifətçi nəsillərə imkan verməlidirlər» (117).

Prezidentin bu dəyərləndirməsi hansısa siyasi konyuktur üzərində köklənməyən, tam obyektiv bir qiymət idi. Azərbaycan

reallıqlarının Gürcüstan və ya Ukraynadakı inqilab öncəsi durumdan köklü şəkildə fərqləndiyini, inqilabı sosial səfalət içində qarşılamış Qırğızıstanla isə, ümumiyyətlə, müqayisənin belə yersiz olduğunu yəqin etmək üçün, müxalifət liderlərindən fərqli olaraq, ətrafa «narıncı» eynəklərlə deyil, adi gözlə nəzər salmaq yetərli idi. İlin birinci yarısının yekunlarına görə, ölkədə iqtisadi artım 18-20 faiz həddinə çatmış (halbuki illik büdcə proqnozunda bu göstərici 14 faiz nəzərdə tutulmuşdu), 2004-cü ilə nisbətən 50 faiz artan dövlət büdcəsinin növbəti ildə də azı daha bu qədər artacağı konkret iqtisadi göstəricilərlə təsdiqlənirdi. Uğurlu neft strategiyası ilə yanaşı, regionların inkişafı proqramının icrası, qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının geniş dövlət sərmayəsi ilə dəstəklənməsi real nəticələrini verməkdə idi. Yeni iş yerlərinin açılması, bölgələrdə yeni istehsal və xidmət müəssisələrinin, müasir standartlara uyğun sosial infrastrukturun yaradılması Azərbaycanın ümumi mənzərəsinin dəyişdiyinin bariz göstəricisi idi.

Bütün bunlar ölkə əhalisi tərəfindən müsbət qarşılanır və ölkə başçısı müntəzəm şəkildə etdiyi səfərlər gedişində xalq rəğbətinin əyani sübutunu görürdü. Belə olan halda dövlət rəhbəri də istər həyata keçirdiyi siyasət, istərsə də ölkənin siyasi gələcəyi sarıdan, sözsüz ki, daha arxayın, daha əmin olmalı idi və prezident İlham Əliyev xalqla hər görüşündə bunu nəzərə çatdırırdı: «Azərbaycan xalqı müdrik xalqdır, yaxşını pisdən yaxşı ayıra bilir. Seçkilərdən seçkilərə xalqa müraciət edən, ondan səs istəyən siyasətçilərə Azərbaycan xalqı öz münasibətini çoxdan bildiribdir. Əgər kimsə indiyədək daşı daş üstünə qoymayıbsa, xalqına heç bir xidmət etməyibsə, əməli işləri ilə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində töhfə verməyibsə, o siyasətçilərdən heç nə gözləmək lazım deyildir. Azərbaycan xalqı real işə, əmələ öz dəstəyini verir. Bu dəstək var və o, mənə də qol-qanad verir. Mənə imkan verir ki, heç kimdən çəkinmədən, heç kimə fikir vermədən dünyanın ən mötəbər

kürsülərindən sözümü deyim və deyəcəyəm də. Bizə təzyiq etmək istəyən qüvvələrə bu gün bir daha deyirəm ki, bu cəhdlərin heç bir nəticəsi olmayacaq, Azərbaycan xalqının iradəsi, Azərbaycan xalqının dəstəyi bizim üçün bayraqdır, bizim üçün bir işıqdır» (118).

Bütün bunların fonunda hakimiyyətin davakar opponentlərinin faktiki bleflə məşğul olduqları prosesləri az-çox izləyən hər kəsə aydın idi. Təsadüfi deyil ki, bu məqamı Azərbaycan gerçəkliklərini bilən xarici icmalçılar, nüfuzlu siyasət adamları da çıxışlarında nəzərə çatdırırdılar. Bu xüsusda tanınmış politoloq, ABŞ-ın Milli Təhlükəsizik Şurasının keçmiş rəhbəri Zbiqnev Bjezinskinin avqust ayında «Alman dalğası» radiosuna müsahibəsi diqqətəlayiq idi. Qeyd edək ki, Vaşinqtondakı Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzində qlobal təhlükəsizlik və geostrategiya məsələləri üzrə kafedraya rəhbərlik edən Bjezinski dəfələrlə ölkəmizdə olmuşdu və Azərbaycan siyasətinin incəliklərinə də yetərincə bələd idi. Jurnalistin «Azərbaycanda digər postsovet ölkələrindəki kimi «məxməri» inqilab baş verə bilərmi» sualına cavabında Bjezinski bildirmişdi ki, «bu cür analogiyalar tez-tez səslənir, lakin bir şeyi nəzərə almaq lazımdır ki, Azərbaycan nə Gürcüstandır, nə də Ukrayna». Politoloq nəzərə çatdırmışdı ki, Azərbaycanda sabit siyasi hakimiyyət mövcuddur və Amerika bu sabitliyin davam etməsi, ölkənin demokratikləşmə prosesinin isə təkamül yolu ilə inkişafında çox maraqlıdır: «Azərbaycanda cərəyan edən prosesləri vaxtilə adı çəkilən ölkələrdə yaranmış vəziyyətə bərabər tutmaq yanlışlıq olardı. Mənim təəssüratıma görə, azərbaycanlıların əksəriyyəti həqiqətən prezident İlham Əliyevi dəstəkləyir. Odur ki, biz burada artıq qeyd etdiyiniz ölkələrdən fərqli bir situasiyanın şahidiyik» (119).

Azərbaycan reallıqlarını inqilab baş vermiş ölkələrdən fərqləndirən isə təkcə hakimiyyətin güclü xalq dəstəyinə malik olması ilə yanaşı onun opponentlərinin sosial baza baxımından

zəif, siyasi imkanlar baxımından isə dağınıq və daxili ziddiyyətlər içində olması idi. Seçki kampaniyasının başlanması ilə bu mənzərə daha qabarıq şəkildə üzə çıxdı. Baxmayaraq ki, budəfəki parlament seçkilərinin ancaq majoritar sistem üzrə keçirilməsi və partiya rəqabətinin arxa plana keçməsi müxalifətdə vahid namizədləri razılaşdırmaq imkanlarını artırmışdı, kampaniyanın ilk mərhələsi bu məsələnin düşərgə daxilində problemlərə yol açdığını göstərirdi. Qeyd etdiyimiz kimi, müxalifət qüvvələri ilin əvvəlindən seçkilərə vahid namizədlər siyahısı, yaxud heç olmasa vahid platformada getmək üçün çeşidli müzakirələr aparsa da, müsbət nəticə əldə etməmişdi. Müxalif düşərgədə 10-a yaxın blok və qruplaşma yaranmışdı. «Azadlıq» blokundan sonra düşərgədə ikinci iri seçki birliyi kimi ortaya çıxan «Yeni siyasət» bloku «narıncı» radikallara nisbətən mötədil müxalifət mövqeyində idi. Bundan əlavə, radikalizmlə mötədillik arasında birmənalı mövqe tuta bilməyən və ümumiyyətlə, seçkinin sonunadək öz siyasi sifətini nümayiş etdirməyərək nəticədə «narıncı» koalisiyanın kölgəsinə çevrilən «Milli birlik» bloku (Lalə Şövkətin liderliyi altında) düşərgənin üçüncü qruplaşması idi. Onlardan savayı, daha bir neçə birlik («Demokratik Azərbaycan», «Azərbaycançı qüvvələr», «Milli-demokratik qüvvələr birliyi», «Demokratik islahatlar» və s.) yaranmışdı. Bəzi müxalifət partiyaları (Ümid, Bütöv Azərbaycan Xalq Cəbhəsi, AXCP- «klassiklər» və s.) isə namizədlərini ayrılıqda irəli sürmüşdülər. Ümumilikdə seçkilərə təxminən yarısı müxalifəti təmsil edən 40-a yaxın siyasi partiyasının təmsilçisi qoşulmuşdu.

Bu rəngarəng müxalifət xorunda məhz «narıncı» koalisiyanın yüksək ambisiyaları digər müxalif bloklarla uzlaşmanı istisna edirdi. «Narıncı» üçlük «Yeni siyasət» blokunun ayrı-ayrı dairələr üzrə razılaşdırılmış namizədlər irəli sürmək təklifini rədd etmiş, «Milli birlik» blokundan isə ancaq Lalə Şövkətə namizədlər siyahısında yer tapa biləcəyini

bildirmişdi. Əslində «Azadlıq» blokunun rəhbərləri hələ seçki kampaniyasından öncə bu məsələdə uzlaşmazlıq göstərərək bunu özünəməxsus tərzdə əsaslandırmağa çalışmışdılar. Məsələn, ADP sədrinin 1-ci müavini Sərdar Cəlaloğlu bildirirdi ki, «narıncı» koalisiyanın seçkilərdə qələbəsi labüddür və onlar iqtidara gələndən sonra ölkəyə «keyfiyyətli müxalifət» lazım olacaq, çünki devrilmiş iqtidar mənsubları «mütləq ölkəni tərk edəcəklər». Odur ki, müxalifətin yerdə qalan hissəsi «narıncı» hakimiyyətə opponentlik etməyə hazırlaşmalıdır: «Bütün müxalifəti bir yerə yığıb hakimiyyətə gətirdikdən sonra ...müxalifətdə kim olacaq? İndiki iqtidarın heç bir siyasi qüvvəsi də yoxdur ki, qalıb müxalifətçilik etsin. Bundan qaçmaq üçün biz müxtəlif bloklar şəklində seçkilərə getməliyik. Udan tərəf iqtidara gəlməlidir, uduzan tərəf isə yeni, keyfiyyətli demokratik müxalifət kimi fəaliyyətini davam etdirməlidir» (120).

Göründüyü kimi, «narıncı» liderlər nəinki özlərinə, həmçinin «inqilab»dan sonra onlara «keyfiyyətli» opponentlik edəcək qüvvələrin də qayğısına qalırdılar. Hərçənd seçki kampaniyası irəlilədikcə «narıncıların» uğursuzluq zolağı təkcə kənar müşahidəçilərə deyil, elə onların yaxın həmkarlarına da aşkar görünürdü. Hətta ilin əvvəlindən müxalif düşərgənin birləşməsi üçün xeyli səy göstərən politoloq, «Yeni siyasət» blokunun təsisçilərindən biri Eldar Namazov bütün cəhdləri boşa çıxandan sonra «narıncı» koalisiyanın «inqilab» iddialarına istehza etməyə başlamışdı: «İnqilab məsələsinə bizim siyasətçilərin yanaşması həmişə olduğu kimi çox azərbaycansayağı olub. İnqilab etmək üçün qabaqca parlament seçkilərində qalib gəlmək lazımdır. Gərək beynəlxalq təşkilatlar və Azərbaycan ictimaiyyəti müxalifətin qalib gəldiyini qəbul etsin. Və iqtidar bunu qəbul etməyəndə cəmiyyəti dinc kütləvi müqavimətə çatdırasan. Buna deyirlər «məxməri» inqilab. İndi, gəlin bir düşünək: Azərbaycanın demokratik qüvvələri birinci məsələni həll etmək, seçkilərdə qalib gəlmək üçün hər şeyi

etdimi? Xeyr! Ona görə ki, seçkilərə müxalifət vahid cəbhədə getmir və düşərgənin nümayəndələri bir-biri ilə mübarizə aparacaqlar. Sabah «exit-poll» keçirəcəklər ki, həqiqətən də məhz bu səhv siyasətin nəticəsində müxalifət yalnız 10 dairədə qalib gəlib, iqtidar da onun 8-ni tanıyıb. Bu iki yerə görə Azərbaycan xalqını qaldırıb inqilab etmək olacaqmı? Yəqin ki, yox. Xalq yalnız qalib gələn qüvvənin dalınca gedəcək» (121).

Əslində bu sözləri 6 noyabr seçkilərinin yekunu ilə bağlı əlamətdar bir öncəgörmə də hesab etmək olar. Çünki nəticə etibarilə «Azadlıq» və «Yeni siyasət» blokları ümumilikdə elə 8 deputat yeri qazanmağa müvəffəq oldular. Müxalifətçi namizədlərin irəli sürülməsinə gəldikdə isə, bu xüsusilə «Azadlıq» blokunda narazılıq və ziddiyyətlərlə müşayiət olunmuşdu. Müsavat, AXCP və ADP ortaq namizədlərin əksəriyyətinin hələ iyunda müəyyənləşdirildiyini iddia etsələr də, yalnız avqustun əvvəlində qalmaqallı prosedur (bəzi dairələrdə vahid namizədin müəyyənləşməsi üçün ilkin seçkilər keçirilmiş və nəticələr ixtilafa səbəb olmuşdu) qismən yekunlaşdı və blok 115 dairə üzrə namizədlərini elan etdi. Onlardan 10-a yaxını partiya mənsubiyyəti olmayan ziyalılar, mədəniyyət xadimləri idi. Qalan yerlər üç partiya arasında bərabər bölünmüşdü. Bərabər kvota prinsipi ilk gündən blok daxilində ziddiyyət doğurmuş, müsavatçılar bu bölgünün onların real elektoratına qeyri-adekvat olduğunu bildirərək narazı qalmışdılar. Üçlüyün siyahısında ADP-nin kadr potensialının xüsusilə zəif olduğu aşkar görünürdü. Əvəzində Müsavatın rəhbərliyinə daxil olan və müxalif düşərgədə nüfuza malik şəxslərə (İbrahim İbrahimli, Rasim Musabəyov) blokun vahid siyahısında yer tapılmadı. Onlar partiya sıralarından istefa verərək seçkiyə müstəqil şəkildə qatılmalı oldular. Yeri gəlmişkən, seçki qrafikinə görə, iyulun 6-dan deputatlığa namizədlərin irəli sürülməsi nəzərdə tutulsa da, proses avqustun əvvəlində intensivləşdi. Deputatlığa namizəd fərdi qaydada, seçicilərin təşəbbüs qrupu, habelə partiya və blok

tərəfindən irəli sürülə bilərdi. Yəni bu məsələdə qanunvericilik tam liberal idi. Halbuki, bir çox ölkələrdə bu məsələdə məhdudiyyətlər mövcuddur.

Hakim partiya, gözlənildiyi kimi, seçkilərə təkbaşına qatıldı. YAP bu barədə qərarını öncədən elan etmişdi. İqtidaryönlü partiyalar da əvvəlcə ayrıca blok halında birləşmək istəsələr də, sonradan bu fikirdən daşındılar və onların bəzilərinin birinci şəxsləri hakim partiyanın dəstəklədiyi namizədlər siyahısında yer aldılar. Bu isə iqtidaryönlü namizədlərin seçkiyə ümumi platforma şəklində getməsini təmin etmiş oldu. Hakim partiya rəsmi namizədlər siyahısını ən sonda, avqustun 16-da elan etdi. Müxalifət gecikməni YAP daxilində ixtilafların olması kimi qələmə versə də, əslində hakim partiyanın bu addımı taktiki məqamlarla bağlı idi. YAP müxalifət namizədlərinin harada yarışacağı tam bəlli olandan sonra bu addımı atmaqla öz namizədlərini konkret hansı dairədə yerləşdirmək məsələsində kifayət qədər manevr imkanı əldə etmişdi. Hərçənd o da bəlli idi ki, YAP-ın vahid namizədləri ilə bağlı partiyadaxili diskussiyalar da xeyli qızğın keçmişdi. Hakim partiya 109 dairə üzrə namizəd irəli sürmüşdü, qalan dairələrdə isə tanınmış ictimai xadim və ziyalıların, habelə iqtidaryönlü partiyaların rəhbərlərinin namizədliyinin dəstəklənəcəyi bildirildi. Siyahı cəmiyyətdə geniş rezonans doğurdu. Namizədlərin yarıdan çoxu YAP-ın öncəki deputat korpusuna daxil olmayan, amma cəmiyyətə yaxşı tanış olan və ictimai nüfuzu olan şəxslər idi. Hakim partiyanın ikinci çağırış Milli Məclisin deputatı olmuş 74 təmsilçisindən 41-i təkrar namizəd göstərilmişdi. Əksər icmalçılara görə, siyahı hakim partiyadakı köhnə və yeni «qvardiya»ların optimal sintezi idi. Bundan əlavə, hakim partiyanın bir sıra üzvləri seçkilərə fərdi qaydada qoşulmuş və YAP rəhbərliyi buna normal yanaşmışdı.

Prezident İlham Əliyev YAP-ın sədri kimi namizədlər siyahısının hazırlanmasında şəxsən iştirak etdiyini və həmin

tərkibdə parlament təcrübəsi olan şəxslərlə yanaşı, cəmiyyətdə nüfuz sahibi olan yeni adların yer almasını partiyada zəruri yeniləşmənin təzahürü kimi qiymətləndirmişdi. O, hakim partiyanın namizədlərinin seçicilər tərəfindən müsbət qarşılanacağına əminliyini bildirmişdi: «Əlbəttə ki, partiyanın rəhbəri kimi mən bu tərkibin formalaşmasında çox ciddi rol oynamışam və mənim fikirlərim o tərkibdə öz əksini tapmışdır. Mən hesab edirəm ki, partiyanın qarşısında böyük xidmətlər göstərmiş insanlar, cəmiyyətdə nüfuz sahibi olan insanlar mütləq siyahıda olmalıdırlar. Eyni zamanda, cəmiyyətdə olduğu kimi, yeniləşmə prosesi də getməlidir. Bizim partiyamızda bu yeniləşmə prosesi gedir və siyahıda yeni adların görünməsi məhz bunun təzahürüdür. Deyə bilərəm ki, bu siyahı seçicilər tərəfindən də müsbət qarşılanmalıdır. Biz elə namizədlər irəli sürməliyik ki, seçicilər onların fəaliyyətini bəyənsinlər və onlara səs versinlər» (122).

Sonuncu tezis, yəni fəaliyyəti seçicilər tərəfindən bəyəniləcək namizədlər məsələsi müxalifət üçün də aktual idi, amma düşərgə ideoloqları bu məsələdə hakimiyyətə ciddi şəkildə uduzduqlarının fərqində idilər. O cümlədən «narıncı» koalisiyanın bölgələrdə irəli sürdüyü namizədlərin əksəriyyəti nəinki ölkədə, heç yaşadıqları rayonda tanınmayan boz simalar idi. Üzdə olan müxalifət liderlərinin əksəriyyəti isə siyasi cəhətdən aktiv olan Bakıda seçki yarışına qoşularaq doğulduğu rayon və şəhərdən namizəd olmağa risk etməmişdi. Çünki deputatlığa namizəd olaraq paytaxtda siyasi populizmlə müəyyən səs qazanmaq olardı, amma bölgələrdə buna da nail olmaq mümkün deyildi. Yeri gəlmişkən, müxalifətçilərə müəyyən tövsiyələr verən xarici dairələr də onlara məhz bölgələrlə, yerlərdəki seçici kütləsi ilə işləməyi məsləhət görürdülər. Varşavada «məxməri» inqilablara həsr olunmuş konfransdan qayıdan Müsavat funksioneri Hikmət Hacızadə etiraf edirdi: «Nəzərə almaq lazımdır ki, bizim yerimizə heç kim işləməyəcək.

Biz gərək ağıllı tərpənək, dünya təcrübəsindən yararlanaq və işləyək. Yaxşı işlənmiş dinc etiraz aksiyaları olmalıdır. İkincisi də ümumi nəticə hər bir vətəndaşdan asılıdır. Amma hələ də biz əhalimizdə laqeydlik görürük. Bunları aradan qaldırmalıyıq. Rayonlara getmək, xalqın könlünü almaq, ciddi təbliğat aparmaq lazımdır» (123).

Maraqlıdır ki, xalqın içinə getmək, onun «könlünü almaq» yalnız seçki kampaniyası başlayandan sonra müxalifət liderlərin yadına düşmüşdü. Yəqin həm də ona görə ki, xaricə bəslənən ümidlər ümumən puça çıxmış, «narıncı» koalisiya rəhbərləri Azərbaycanda hakimiyyət dəyişikliyinə heç bir real kömək vədi ala bilməmişdilər. Amma özləri bunun əksini iddia edir və zamanı yetişəndə xarici sponsorların da hərəkətə gələcəyinə işarə vururdular. «Azərbaycanda demokratik dəyişikliklər mümkün yox, labüddür və olacaq...Mənim daha çox informasiyam var və daha çox bilirəm ki, yaxın vaxtlarda hansı addımlar olacaq», - deyə İsa Qəmbər növbəti xarici səfərindən sonra bəyan etmişdi (124).

Qeyd edək ki, həmin vaxt Müsavat başqanının Türkiyəyə növbəti səfəri zamanı «məxməri» inqilabların əsas sponsoru olan Corc Sorosla məxfi görüşdüyü barədə xəbərlər yayılmışdı. Hərçənd əksər etibarilə bütün bunlar spekulyativ mülahizələr idi. «Narıncı» liderlər xaricdə dəstək arayışını davam etdirdikləri bir vaxtda isə onların gənc yetirmələri daha «praktik» işlərlə məşğul idilər və tezliklə ortaya çıxan xəbərlərdən bəlli oldu ki, onlar, liderlərindən fərqli olaraq, konkret nəticələrə, hətta gələcək inqilab üçün sponsorlardan avans da almağa müvəffəq olublar.

Avqustun 4-də Azərbaycan Respublikasının Baş Prokurorluğu «Yeni fikir» gənclər hərəkatının sədri Ruslan Bəşirlinin Tbilisidə özünü «Gürcüstan demokratik hərəkatının nümayəndəsi» kimi təqdim etmiş Ermənistanın xüsusi xidmət orqanlarının əməkdaşından 2 min dollar alması barədə məlumat yaydı. «Yeni fikir» təşkilatı 2004-cü ildə AXCP sədri Əli

Kərimlinin himayəsi altında yaradılmış və bu partiyanın «gənclik qolu» kimi fəailyyət göstərirdi. Baş Prokurorluğun məlumatında bildirilirdi ki, radikal müxalifət qüvvələri tərəfindən vətəndaş qarşıdurması yaradılmasına və dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəlmiş qanunsuz hərəkətlərin hazırlanması barədə hüquq-mühafizə orqanlarına müxtəlif məlumatlar daxil olur və üzə çıxan son fakt onların doğru olduğunu, hətta bu əməllərin Ermənistanın xüsusi xidmət orqanlarının iştirakı ilə hazırlanmasını təsdiqləyir: «Ermənistan xüsusi xidmət orqanları tərəfindən üçüncü dövlətlərin ərazisində müxtəlif demokratik təsisatlara nüfuz etdirilmiş erməni mənşəli şəxslər vasitəsilə Azərbaycandakı müxalifətçi qüvvələrlə əlaqələr qurulmasına üstünlük verilir, onlara maliyyə yardımları göstərilir, ictimai-siyasi sabitliyin pozulması, iğtişaşların təşkili üçün təxribat üsul və metodları üzrə xüsusi təlimatlar keçirilir» (125).

Məlumatda bildirilirdi ki, 2005-ci il iyunun sonu – iyulun əvvəllərində Gürcüstan vətəndaşı Merabi Cibutia bu ölkənin demokratik qüvvələrinin nümayəndəsi qismində Bakıya gəlmiş, burada «Yeni fikir» gənclər hərəkatının sədri Ruslan Bəşirli ilə görüşmüş, sonuncu isə qonağı özünün siyasi lideri, AXCP sədri Əli Kərimli ilə tanış etmişdir. İyulun 28-29-da M.Cibutianın dəvəti və Ə.Kərimlinin xeyir-duası ilə R.Bəşirli və təşkilatın fəallarından O.Əlimuradov Tbilisiyə səfər edirlər və burada «Gürcüstan demokratik hərəkatının başqa bir nümayəndəsi», erməni Georgi İspiryanla tanış olurlar. Onlara yaxşı qonaqlıq təşkil edən G.İspiryan «cəbhəçi» gənclərin Ə.Kərimlinin rəhbərliyi altında «Azərbaycanda demokratiya uğrunda gördükləri işlər barədə» məlumatdan elə təsirlənir ki, dərhal cibindən 2 min dollar pul çıxararaq onu «Azərbaycanda demokratik dəyişikliklər naminə» xərcləmək üçün «Yeni fikir» rəhbərinə verir və bu barədə ondan yazılı qəbz də alır. «Erməni demokrat» hər ay R.Bəşirliyə 2 min, həmçinin Bakıdakı liderlərə

çatdırılmaq üçün birdəfəlik 20 min dollar verəcəyinə boyun olur. O, Ermənistanın və Gürcüstanın demokratik qüvvələrinin Azərbaycandakı həmkarlarına hərtərəfli dəstək, hətta, lazım gələrsə, Azərbaycanda sabitliyin pozulması üçün müxalifətin keçirəcəyi mitinqlərin birində atəş açılmasını təşkil etməyi, eləcə də qısa müddətə erməni tərəfdən atəşkəsin pozulmasını da vəd edir. Sonra görüş içki məclisi ilə davam edir və «erməni demokrat»ın əliaçıqlığından vəcdə gələn «cəbhəçi» gənc tezliklə Azərbaycanda demokratik qüvvələrin hakimiyyətə gəlməsindən sonra Qarabağ münaqişəsini də beləcə «konyak içməklə və şokolad yeməklə» həll edəcəklərini bildirir.

«Uğurla» başa çatan görüşdən sonra «erməni demokrat» G.İspiryanın adından Vardan adlı şəxs «Yeni fikir»çi O.Əlimuradova yaxınlaşaraq özlərinin Ermənistan xüsusi xidmət orqanlarını təmsil etdiklərini və qonaqlığı da gizli surətdə videolentə aldıqlarını bildirir. O, 2 min dolların gənclərə elə-belə deyil, gələcək əməkdaşlıq üçün avans olaraq verildiyini, onların bu əməkdaşlıqdan yayınacaqları təqdirdə isə videoçəkilişin telekanallar vasitəsilə yayımlanacağını deyir və «Yeni fikir»çi gənclərin bu təhdiddən əmin olmaları üçün videoçəkilişin bir surətini ona verir. O.Əlimuradov Bakıya qayıdandan sonra hüquq-mühafizə orqanlarına müraciət edərək hadisə barədə məlumat vermiş və hüquq-mühafizə orqanlarının başladığı cinayət işi ilə bağlı R.Bəşirli şübhəli şəxs qismində saxlanılmışdı.

«Narıncı» müxalifətin əsl siyasi mərəkəsi də bundan sonra başlandı. R.Bəşirlini «demokratik inqilaba» dəstək axtarmaq üçün ezam edən AXCP rəhbərliyi baş vermiş biabırçılıqdan heç olmasa mənəvi peşmançılıq çəkib cəmiyyətə üzrxahlıq etmək əvəzinə daş atıb başını tutdu ki, onun gənc yetirməsinə qara yaxılır. Əslində siyasi fəaliyyətlərində yol verdikləri hər hansı yanlışlığa görə ictimai qınaq qarşısında üzrxahlıq etmək kimi bir keyfiyyətin bu qüvvələrin siyasi məsləkinə tərs olduğu nəzərə alınsa, onların qaldırdığı mərəkə də təəccüblü deyildi. Təbii ki,

R.Bəşirlinin hərəkətlərinin hüquqi qiymətini, bu hərəkətlərdə cinayət tərkibinin dərəcəsini hüquq-mühafizə orqanları və sonda məhkəmə müəyyən edəcəkdi. Amma bu nəticədən asılı olmayaraq baş vermiş hadisə Azərbaycanın radikal müxalifətinin hansı miskin durumda olduğunu göstərirdi. Bu, sadəcə, dövləti təəssübkeşlikdən, «düşmənlə işbirliyi olmaz» tezisindən irəli gələn qənaət deyildi, geniş mənada milli-mental gerçəkləri ehtiva edən bir məsələ idi. Təsadüfi deyil ki, Azərbaycan xalqı ən kəskin ictimai qınaq ünvanı olan əməl sahiblərinə mənfi münasibətini ifadə edərkən adətən «bələləri işinin xatirinə ermənіyə də dayı deyər» kəlamından istifadə edir. «Narıncı» müxalifət də inqilab iddiasını həyata keçirmək üçün «ermənіyə dayı deməyə» hazır idi. Sözsüz ki, «Yeni fikir»çi gənc ona təlqin olunan «narıncı» ssenaridə üzərinə düşən rolu oynamışdı. Bu ssenarinin müəllifləri isə R.Bəşirli və onun kimilərin «beynini yuyub» onlardan siyasi alət kimi yararlanmağa çalışan müxalifət liderləri idi. Müxalifətçi gənci erməni konyakından və erməni xəfiyyəsinin masaya qoyduğu 2 min dollardan başını itirib biabırçı vəziyyətə düşürən də həmin liderlərin onlara verdikləri siyasi dərslər olmuşdu. Məqsədə çatmaq naminə ən miskin üsulları, yezuit prinsiplərini dərindən mənimsəmiş liderlərdən yetirmələri bundan artığını öyrənməyəcəkdi ki.

ON İKİNCİ FƏSİL

KÖHNƏDƏBLİ SİYASİ MAZOXİZM: RADİKAL MÜXALİFƏT SEÇKİ MÜBARİZƏSİNİ QARŞIDURMA MÜSTƏVİSİNƏ KEÇİRİR

«Naşıya zurna verəndə yoğun başından yapışar».
Azərbaycan atalar sözü

«İblisin başqa bir adı da yalandır».
V.Hüqo

«Ovurdunda yaxşı yer eləyibsən, armud versələr».
Azərbaycan atalar sözü

Avqustun 28-də deputatlığa namizədlərin irəli sürülməsi prosesi başa çatdı. MSK-nın statistik məlumatına görə, ölkə üzrə 125 seçki dairəsindən 2237 nəfər deputatlığa namizədliyini irəli sürmüş, onlardan 2148-i imza toplama prosedurunu tamamlayaraq sənədləri qeydiyyat üçün dairə seçki komissiyalarına təqdim etmişdi. Qeyd edək ki, yeni seçki qanunvericiliyinə əsasən, namizədlərin qeydə alınması proseduru xeyli yumşaldılmış, o cümlədən qeydiyyat üçün əsas şərt olan seçici imzalarının sayı 2 mindən 450-yə endirilmişdi. Bundan əlavə, prezidentin 11 may 2005-ci il tarixli məlum sərəncamı seçki komissiyalarının bu məsələdə daha obyektiv və şəffaf fəaliyyətini təmin etmişdi. Təsadüfi deyil ki, deputatlığa namizədlərin qeydiyyatı ilə bağlı seçki qurumlarına hər hansı ciddi irad irəli sürülməmiş, beynəlxalq təşkilatlar isə prosesin yüksək səviyyədə keçdiyini bəyan etmişdilər. Müqayisə üçün qeyd edək ki, 2000-ci il parlament seçkilərində namizədliyini irəli sürmüş 800-dən çox şəxsdən yalnız yarısı (409 nəfər) qeydiyyat prosedurunu keçə bilmişdi. Bu dəfə isə ölkə üzrə cəmisi 29 nəfərin (əsasən imza vərəqlərindəki qüsurlara görə) namizədliyi qeydə alınmamışdı.

Daha 56 nəfər namizədliyi qeydə alınandan sonra kampaniyanı könüllü tərk etmişdi.

Seçki kampaniyasının təbliğat-təşviqat mərhələsinə 125 dairə üzrə 2063 namizəd gəlib çıxmışdı. Onların təxminən yarısı (963 nəfər) seçkilərə bitərəf olaraq qoşulmuşdu. Namizədlərin 431 nəfəri YAP üzvü idi ki, onların da, qeyd etdiyimiz kimi, 109-u partiya tərəfindən rəsmən irəli sürülmüş, qalanları seçkiyə müstəqil qaydada qoşulmuş şəxslər idi. Seçki kampaniyasının sonuna doğru onların əksəriyyəti namizədliklərini daha şanslı partiyadaşlarının xeyrinə geri götürdülər. «Azadlıq» blokunun 115 nəfər rəsmi namizədinin hamısı qeydə alınmış, bundan əlavə, Müsavat, AXCP və ADP-nin bir sıra üzvləri ümumi siyahıda özlərinə yer tapmadıqları üçün namizədliklərini müstəqil qaydada irəli sürmüşdülər. «Azadlıq» blokundan savayı, müxalifətdən daha iki seçki bloku – «Yeni siyasət» və «Milli birlik» blokları ölkə üzrə 60-dan çox namizəd irəli sürməklə, Seçki Məcəlləsinin tələbinə əsasən, təşviqat dövründə dövlət televiziyasında və İctimai televiziyada pulsuz efir vaxtı (hər gün 8 dəqiqə) almışdılar. Qalan namizədlər isə, əgər yarışdıqları seçki dairələrində dövlət büdcəsindən maliyyələşən regional televiziya və radio vardısa, onların efirindən pulsuz təşviqat vaxtı ala bilərdilər.

Qeyd etmək lazımdır ki, namizədlərə pulsuz efir vaxtının ayrılması seçki kampaniyasını izləyən beynəlxalq dairələr, o cümlədən sentyabrın əvvəlində fəaliyyətə başlamış ATƏT-in müşahidəçilər missiyası tərəfindən xüsusilə müsbət qiymətləndirilmişdi. Çünki Avropa ölkələrində deputatlığa namizədlərə pulsuz efir vaxtının ayrılmasına, demək olar ki, rast gəlinmir. Digər tərəfdən, müxalifət qüvvələrinin seçki qanunvericiliyinin bu liberal müddəalarından sui-istifadəsi də göz qabağında idi. Əvvəlcə «Yeni siyasət» bloku pulsuz efir naminə namizədlərin sayını süni şəkilə artırdı, ardınca isə, çox

cüzi elektoratı olmasına baxmayaraq, nəinki rayon miqyasında, öz kəndində güclə tanınan adamların namizədliyini irəli sürməklə Liberal Partiyası («Milli birlik» bloku) da ödənişsiz efir imkanı əldə etdi. Nəticədə müxalifətdən üç blok faktiki dövlət büdcəsi hesabına hakim partiyaya qarşı açıq mübarizə aparırdılar. «Nədənsə iqtidaryönlü partiyalar blok təşkil etməmişdi. Halbuki buna kifayət qədər imkan vardı. Doğrudur, təşviqat kampaniyası dövründə hakimiyyətin namizədləri birləşmiş şərçilərin dəstəsinə layiqincə cavab verdi. Amma disputlar zamanı iftira və böhtan püskürən müxalif ruporlar qarşısında onlar təklənmiş kimi görünürdülər. Gələcək parlament seçkilərində hakimiyyət tərəfindən bu məqamın nəzərə alınması zəruridir» (126).

Eyni zamanda, bu vəziyyət onu göstərirdi ki, hakimiyyət müxalifətin və bəzi beynəlxalq dairələrin seçkiqabağı şəraitlə bağlı qərəzli iddialarına əsas verməmək üçün hətta müəyyən mənada özünün siyasi manevr imkanlarını məhdudlaşdıran addımlara da getmişdi. Çünki ölkə rəhbərliyi xalqın mütləq əksəriyyətinin hakimiyyətə, həyata keçirilən siyasətə dəstək verdiyini dəqiq bilirdi və bu baxımdan seçkilərin nəticəsi sarıdan elə bir narahatlıq da yox idi. Məhz buna görə də prezident İlham Əliyev seçkiqabağı bütün çıxışlarında xüsusilə yerli icra hakimiyyəti rəhbərlərindən heç bir halda seçki kampaniyasına qanunsuz müdaxilə etməməyi, müxalifətin ittihamlar üçün bəhanə verməməyi qəti şəkildə tələb edirdi. O, qeyd edirdi ki, əksinə, müxalifətçilərə danışmaq üçün çox imkan yaratmaq lazımdır, çünki onlar danışdıqca özlərini biabır edirlər: «Bilirsiniz, boşboğazlıq dövrü Azərbaycanda artıq çoxdan keçmişdir. Sadəcə olaraq, bəzi üzdəniraq siyasətçilər bunun fərqində deyillər. Bəziləri hələ 1980-ci illərin sonlarında, 1990-cı illərin əvvəllərindəki ab-hava ilə yaşayırlar. Artıq bu, tarixdir. Özü də o qədər də xoşagəlməyən tarixdir. Bu gün Azərbaycanın

qarşısında başqa məqsədlər durur. İnkişaf, dünya birliyinə inteqrasiya məsələləri, regionların inkişafı, Azərbaycanda iqtisadi potensialın güclənməsi - bugünkü Azərbaycanın həyatını səciyyələndirən amillər budur. Ona görə, naftalin qoxusu gələn siyasətçilərə heç kim səs verməyəcəkdir. Müxalifətdə olan adamlar nə qədər çox danışsalar, özlərini o qədər çox biabır edəcəklər. İcra hakimiyyətlərinin başçılarından tələbim odur ki, siz bu məsələlərə müdaxilə etməyin. Bəzi hallarda yaxşılıq etmək üçün, yaxud hansısa xidmət göstərmək üçün müdaxilələr olur, amma bu "ayı xidməti" bizə lazım deyildir. Mən şübhə etmirəm ki, bizim gördüyümüz işlər, görünən tərəqqi nəticəsində Azərbaycan seçiciləri bizim namizədlərə səs verəcəkdir. Yeni Azərbaycan Partiyasının nümayəndələrinə, müstəqil nümayəndələrə, o insanlara ki, onlar öz əməli işləri ilə artıq nüfuz qazanıblar, həm də o insanlara ki, onların nəsə edəcəklərinə ümid vardır» (127).

İstər seçki kampaniyasından əvvəl, istərsə də kampaniya gedişində regionların inkişaf proqramının icrası vəziyyətilə şəxsən tanış olmaq üçün bölgələrə müntəzəm səfərlər edən prezident İlham Əliyev hər çıxışında bəyan edirdi ki, seçkilərin gedişinə müdaxiləyə yol verənlər, hansısa namizədə üzgörənlik etmək istəyən yerli hakimiyyət nümayəndələrinə qarşı tədbirlər görüləcək. Prezident nəzərə çatdırmışdı ki, əgər hansısa icra başçısı vəzifəsini itirmək istəmirsə, seçki prosesindən kənarda dayanmalı, öz işini vicdanla yerinə yetirməli, əhalinin problemlərini həll etməlidir: «Seçki kampaniyasının birinci mərhələsi çox yaxşı keçdi. Bunu həm seçicilər görür, həm də deputatlığa namizədlər görür, beynəlxalq təşkilatlar da bunu qiymətləndirir. İndi təşviqat kampaniyası başlayıb. Siz kənarda durmalısınız, seçki prosesinə müdaxilə etməməlisiniz. Əksinə, çalışmalısınız ki, bütün namizədlərə eyni şərait yaradılsın. Harada ki, seçicilərlə görüşəcəklər, - qapalı şəraitdə, yoxsa açıq

havada, - bütün namizədlərə eyni şərait yaradılmalı, heç bir müdaxilə olmamalı, sərbəst toplaşma hüququ təmin edilməlidir. Mənim may ayında imzaladığım sərəncamın bütün bəndləri yerinə yetirilməlidir...Mən hər şeyə ədalətli yanaşıram. Son ilyarım ərzində 34 icra başçısı vəzifədən çıxarıldı, yeni adamlar təyin olundu. Mənim kadrlara qarşı tələblərim aydındır: səmərəli işləmək, rayonun sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, əhaliyə diqqətlə yanaşmaq» (128).

Beləliklə, sentyabrın 7-də seçki marafonunun ikinci mərhələsi - təşviqat kampaniyası başlandı. Yeri gəlmişkən, qanunvericiliyə əsasən, hər namizədə təşviqat kampaniyası üçün dövlət büdcəsindən 1 milyon köhnə manat (200 AZN) vəsait ayrılmışdı. Müxalifət qüvvələrinin seçki kampaniyasının bu mərhələsində də imkanlarını birləşdirmək cəhdləri baş tutmadı. «Azadlıq» və «Yeni siyasət» bloklarının namizədlərinin bir-birinə qarşı təbliğat aparmaması barədə saziş imzalamaq niyyəti də reallaşmadı. Üstəlik hər iki blokun təmsilçiləri bir-birinə ağır ittihamlar irəli sürməyə başladılar. «Yeni siyasət»in təsisçilərindən ASDP həmsədri Araz Əlizadə vaxtilə Ayaz Mütəllibovu devirmiş qüvvələrlə (cəbhəçi və müsavatçılar) işbirliyinin mümkünsüzlüyünü, «Azadlıq» blokundan ADP-çi Sərdar Cəlaloğlu isə «Yeni siyasət»də sağlam müxalifət qüvvələrinin olmadığını bəyan etmişdi. «Milli birlik» blokuna gəldikdə isə, onun, ümumiyyətlə, real qüvvəsi və resursu yox idi. Bu kasadlıq həm də onda görünürdü ki, blokun televiziya ilə, demək olar ki, bütün təşviqat çıxışlarını yalnız Liberal Partiyanın sədr müavini Əvəz Temirxan edirdi və bir qayda olaraq «Azadlıq» bloku təmsilçilərinin populist çıxışlarını təkrarlayırdı. Blokun rəhbəri Lalə Şövkət isə yalnız öz seçki dairəsinin seçiciləri ilə görüşməklə kifayətlənmişdi.

Təbliğat kampaniyasının başlanması ilə zahirən monolit görünən «narıncı» koalisiyada da ixtilaf cücərtiləri üzə çıxmışdı.

Əvvəla, vahid namizədlərin irəli sürülməsinə və təbliğatın bütün blok adından aparılacağının bəyan edilməsinə rəğmən kampaniyanın ilk günlərindən üçlükdəki hər partiya əsasən öz üzvlərinin qeydinə qalmışdı. Digər yandan, bloka daxil olan partiyaların bəzi fəallarının seçkilərə müstəqil qatılması, partiyaların nəzarətində olan qəzetlərin isə vahid siyahıdan kənar namizədlərin təbliğatını aparması «narıncı» koalisiya daxilində inamsızlıq atmosferi yaradırdı. Bunu blokun rəhbərləri də qismən etiraf edirdilər. İsa Qəmbər: «Ölkə ictimaiyyəti görməlidir ki, bu blok doğurdan da monolitdir, blokun vahid namizədləri var. Beynəlxalq aləm də Azərbaycanda gedən prosesləri yaxından müşahidə edir, onlar da blokun monolitliyini, səmimiyyətini önəmli faktor kimi nəzərə alırlar. Ona görə də bütün umu-küsüləri, şəxsi mülahizələri kənara qoyub vahid namizədlərimizin qələbəsi üçün əlimizdən gələni etməliyik». Əli Kərimli: «Blokda təmsil olunan partiyaların daxilində, cəmiyyətdə üç partiyanın bir orqanizm kimi birləşməsi qənaəti yaranmayıb. Əgər biz yenə də köhnə qaydalarla hərəkət etsək, düşünsək ki, vahid namizədləri müəyyənləşdirmişik, bundan sonra hər partiya öz üzvü olan namizədin qələbəsi üçün çalışmalıdır, bu, çox səhv yanaşma olardı. Belə yanaşma qüvvədə qalsa, gördüyümüz işlərin heç bir nəticəsi olmayacaq» (129).

Lakin bütün bu etiraflara rəğmən «narıncı» blok təmsilçilərinin nə «köhnə qaydalar»dan əl çəkməsi, nə də «bir orqanizm kimi birləşməsi» real idi. Çünki «Azadlıq» bloku mahiyyət etibarilə sırf siyasi konyukturdan doğan dekorativ birlik idi. Onun təsisçiləri arasındakı şəxsi ambisiya və umu-küsülər isə kənara qoyulmamış, sadəcə, müvəqqəti retuş edilmişdi. Gerçəkdə isə nə müsavatçılar demokratlarla çəkişmələrini, o cümlədən ADP rəhbərlərinin İsa Qəmbərə qarşı «DTK agenti» kampaniyasını unutmuşdular, nə də cəbhəçilər

Müsavat rəhbərliyinin 2000-ci ildə AXCP-nin parçalanmasındakı rolunu, müsavatçıların Əli Kərimli əleyhinə uzun müddət apardığı «qara-piarı» yaddan çıxarmışdılar. Eləcə də «cəbhəçi» və müsavatçılar ADP sədri Rəsul Quliyevin vaxtilə onları «bədbaxtlar» deyə lağa qoymasını heç unutmamışdılar. Odur ki, «narıncı» pərdə altında siyasi izdivac görüntüsü yaradan partiyaların daxilində və ümumilikdə müxalifət düşərgəsində hər kəs bu birliyin hakimiyyət davası naminə, yəni siyasi girəvə anlayışı ilə qurulmuş müvəqqəti koalisiya olduğunu başa düşürdü. Bu üzdən «Azadlıq» bloku rəhbərlərinin «inqilab» iddialarının da spekulyativ olduğu düşərgə içindəkilərə daha çox aydın idi.

«Narıncı» koalisiya təsisçiləri arasında müttəfiqlik və səmimiyyət prinsiplərinə həqiqətdə necə riayət olunduğunu başqalarından daha yaxşı bilən müxalifətçilərdən biri, «klassik» AXCP-nin rəhbəri Mirmahmud Mirəlioğlu bununla bağlı deyirdi: «İnqilabın Azərbaycanda baş verməsi üçün zəmin və şərait yoxdur. İnqilab şüarlarla baş vermir. İnqilab edənlərin özlərinə kifayət qədər inanan adamlar olmalıdır... Öndə olanlar keçdikləri yolu yaddan çıxarsalar da, onların arxasınca gələn insanlar onları yaddan çıxamırlar. Onun üçün də inqilabı edə biləcək qüvvələr, onun lokomotivi Azərbaycanda bu gün yoxdur».

O həmçinin nəzərə çatdırmışdı ki, müxalifət, bir tərəfdən, xalqın gələcəyi naminə inqilab, hakimiyyət dəyişikliyi etmək istədiyini bildirir, digər yandan, xalqın malını mənimsəmiş, rüşvətxorluqda ad çıxarmış keçmiş məmurlara qapı açır, hakimiyyət tərəfindən «vurulmuş» şəxsləri öz sıralarına qəbul edir ki, bu da siyasi qeyri-səmimiliyin bir nümunəsidir: «Təsəvvür edin, hakimiyyətdə nə qədər adamlar vardı ki, bunların «vurulması» baş verdi. O, vəzifəsindən götürülənə qədər hamı onu söyürdü. Hamı onun haqqında danışırdı ki, bu

korrupsionerdir və s. Və sabahdan onun «əzabkeş» sifətini görəcəyik müxalifət mətbuatında, hüquqlarının müdafiəsi ilə məşğul olacağıq... Dünən cinayətkar adlandırdığımız adam cəzalandığı vaxtda onun «hüququ» müdafiə olunmamalıdır, cəmiyyətdə bir qınaq hissi olmalıdır» (130).

Sonrakı proseslər, hakimiyyətdən vurulmuş yüksək vəzifəli məmurların, keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin, ələlxüsus da vəzifədəykən müxalifət qəzetlərinin əsas tənqid hədəflərindən olmuş sabiq səhiyyə naziri Əli İnsanovun yeni «ampluada», bu dəfə «əzabkeş» simaları ilə müxalifət mətbuatı səhifələrini zəbt etməsi bu fikirlərin daha bir təsdiqi oldu. M.Mirəlioğlunun haqqında bəhs etdiyi həmin «əzabkeş» simalardan biri və bəlkə də birincisi isə vaxtilə müxalifət tərəfindən ən sərt tənqidlərə məruz qalan, lakin vəzifədən gedəndən sonra korrupsioner mahiyyətini demokrat görkəminə dəyişərək nəticədə düşərgənin liderlərindən birinə çevrilən Rəsul Quliyev idi. ADP sədrinin «narıncı» inqilaba ümidləri xüsusilə böyük idi, çünki bu işə təkcə müxalifətin deyil, həm də hakimiyyət daxilindəki qüvvələrin bir hissəsini səfərbər etdiyi qənaətində idi. Bu həmin vaxt idi ki, R.Quliyevin ayrı-ayrı iqtidar mənsubları ilə əlaqələri aktiv fazaya daxil olmuşdu və eks-spiker hakimiyyətdəki «inqilabçı»ların da köməyi ilə Azərbaycana - özü də elə belə yox, birbaşa hakimiyyətə - qayıtmağa hazırlaşırdı. Buna görə o, seçki kampaniyasının ilk günlərindən müxalifəti kütləvi və mümkün qədər aqressiv ruhlu aksiyalara daha çox kökləməyə çalışırdı. Avqustun sonunda «Azadlıq» blokunun növbəti mitinq öncəsi müşavirəsinə Avropadan telefonla qoşulan eks-spiker bildirmişdi: «Biz seçkiqabağı şəraitin dəyişməsinə nail olmalıyıq. Hər şey bizdən asılıdır. Əgər biz bir yerdə mübarizə aparsaq, vətəndaşların fəallığını təmin edə bilsək, rejimin gücü bizim qarşımızda dayana bilməyəcək. Hər şey bizim əlimizdədir... Blokda təmsil olunan

qüvvələr, hər kəs həm də mənim Azərbaycana qayıdışım üçün mübarizə aparmalıdır» (131).

ADP sədri bəyan edirdi ki, 6 noyabr parlament seçkiləri müxalifətin hakimiyyəti dəyişmək üçün «son şansı» olacaq. Eyni zamanda, o, açıq etiraf etməsə də, başa düşürdü ki, tərəfdaşları ilə birgə hazırlaşdıqları «inqilab» həm də onun dəfələrlə vəd verib sonradan vaz keçdiyi «qayıdış»ın gerçəkləşməsi üçün son şansdır. Əks halda tamamilə «siyasi meyitə» çevriləcəyini özü də dərk edirdi. Həmin günlər R.Quliyev Avropadan təkcə «Azadlıq» blokundakı həmkarlarına telefon açmamışdı. Bir qədər sonra aydın olacaqdı ki, eks-spiker eyni telefon mesajlarını hakimiyyətdəki «inqilabçı yoldaşlara» da ünvanlayıbmış. İnqilab böyük pullar tələb edir və xarici dairələrdən maliyyə qopara bilməyən «narıncı» liderlər bu məsələdə eks-spikerin əlaqələri sayəsində «daxili imkanlara», iqtidardakı «ayağı sürüşkən» məmurlara bel bağlamışdılar.

Maraqlıdır ki, Müsavat və AXCP-nin nəzarətində olan qəzetlər seçki kampaniyası boyunca «inqilab» tematikasını xüsusi nikbinliklə işıqlandırdığı halda, bilavasitə R.Quliyevin lideri olduğu ADP-nin mətbu ruporu bu mövzuda ara-sıra təftişçilik edir, necə deyərlər, xaric simlərə vururdu. Yəqin ona görə ki, ADP-çi yazarlar öz liderlərinin imkan və bacarığına, daha doğrusu, onun blef etmək xüsusiyyətinə müxalifətdəki digər həmkarlarından daha yaxşı bələd idilər. Odur ki, ADP-çi yazarlar inqilab illüziyasına, müxalifət liderlərinin meydana gələ biləcək çaxnaşmaları axıradək nəzarət altında saxlaya biləcəyinə nisbətən bədbin yanaşırdılar: «Qərbin siyasi dairələrini də narahat edən və tərəddüdlər burulğanına salan ən mühüm faktor Azərbaycandakı proseslərin öz məcrasından çıxa bilmək ehtimalının xeyli yüksək olmasıdır. Unutmaq olmaz ki, heç bir halda beynəlxalq birlik Azərbaycan xalqının əvəzindən kardinal dəyişikliklərə getməyəcək. Müxalifət bütövlükdə Azərbaycan

cəmiyyəti demək deyil. Qonşu ölkələrdəki proseslər göstərdi ki, dəyişiklik məhz o zaman baş verir ki, müxalifət bütün cəmiyyəti silkələyərək ayağa qaldıra bilir. Azərbaycan müxalifətinin inqilabın Azərbaycan variantını reallaşdıra biləcəyini isə proqnozlaşdırmaq çətindir. Hər halda ölkədəki siyasi mühit və hakimiyyətin bir addım da geri çəkilməməsi belə deməyə əsas verir» (132).

«Narıncı» koalisiyanın geniş hazırlıqdan sonra avqustun sonunda keçirdiyi yürüş-mitinq isə istər kəmiyyət baxımdan, istərsə də səslənən çıxış və bəyanatların siyasi mahiyyəti nöqteyi-nəzərindən öncəkilərdən fərqlənmədi. «Azadlıq» bloku ondan öncə iyun ayında iki, iyulda isə bir yürüş-mitinq keçirmiş və onların hamısı «20 Yanvar» metrosu – «Qələbə» meydanı marşrutu üzrə olmuşdu. Öz növbəsində hakim partiya bir dəfə 15 iyun – Milli Qurtuluş Günü münasibətilə «Qələbə» kinoteatrı qarşısındakı meydanda mitinq keçirmişdi. Ümumilikdə isə hakimiyyət seçki kampaniyasının əvvəlindən kütləvi aksiyalara deyil, seçicilərlə birbaşa ünsiyyətə, konkret seçki dairələrində əhali ilə görüşlərə üstünlük vermişdi ki, bu da majoritar sistem üzrə keçrilən seçkilər üçün tamamilə düzgün taktika idi. Üstəlik ölkə üzrə 125 seçki dairəsinin dörddə üçünün bölgələrdə yerləşdiyi nəzərə alınarsa, seçki mübarizəsinin və kütləvi aksiyaların paytaxt Bakıda cəmləşməsi qeyri-normal idi. Müxalifətin seçki kampaniyasında paytaxtda aksiyalara üstünlük verməsinin də motivi bəlli idi. Bölgələrdə elektoratın məhdud olduğunu yəqin bilən müxalifət Bakıda 10-15 min nəfərlik mitinqlər keçirməklə bir növ özünün sosial bazasının sıxlığını nümayiş etdirməyə çalışırdı.

Mitinqlərin keyfiyyət göstəricilərinə nəzər saldıqda isə, onların radikal müxalifətin öncəki seçkilərdə keçirdiyi aksiyalardan elə bir fərqi nəzərə çarpmırdı. Yenə ifrat sözçülük, reallıqdan uzaq, populist çıxışlar və qaraqışqırıq emosiyalar

üstünlük təşkil edirdi. Prinsip etibarilə bu mitinqləri öncəkilərdən fərqləndirən bir cəhət vardısa, o da aksiyaların zahiri görkəmi, yəni «narıncı» rəngdə olması idi. Lakin Ukrayna inqilabının siyasi brendini özününküləşdirməyə çalışan «Azadlıq» bloku liderlərinin «narıncı» aludəçiliyi o qədər ifrat həddə çatmışdı ki, aşkar plagiatlıqla bərabər, zövqsüz siyasi tamaşa təsiri bağışlayırdı. Başdan ayağa narıncıya bəzənmiş mitinqlərdə Azərbaycan bayrağının tək-tük sayda gözə dəyməsi isə radikalların milli dövlət simvoluna faktiki münasibətini göstərirdi.

«Azadlıq» blokunun «narıncı» təchizatının ən «diqqətçəkən» aksessuarı isə, heç şübhəsiz ki, qısaqol köynəklər idi. Bu köynəklərə xeyli xərc və əziyyət çəkib ölkəyə gətirən müxalifət rəhbərlərindən birinin də ağlına gəlməmişdi ki, parlament seçkiləri yayda yox, noyabrda keçiriləcək. Hələ üstəlik onlar əgər seçkilərdən sonra da aksiyalara hazırlaşırdılarsa, onda payızın yağış və soyuğunda bu qısaqol narıncı köynəklərin heç nəyə yaramayacağını düşünməli idilər. Nəticədə müxalifətçilərin «inqilab» qarderobundan sonadək praktik işə yarayan təkcə narıncı qalstuklar oldu. Onların bu cür naşı narıncı həvəskarlığı seçki kampaniyasında siyasi lətifə mövzusuna çevrilmişdi. Ölkə prezidenti də bu fakta zarafatyana münasibət bildirmişdi: «Mən indi onların bəzi hərəkətlərinə qiymət vermək istəmirəm. Amma bəzi gülməli məqamlar da var. Məsələn, onlar bir neçə ay bundan əvvəl buraya narıncı köynəklər gətirmişdilər, böyük pul ödəmişdilər. Amma ağılları çatmadı ki, artıq noyabr ayıdır, bu köynəklər indi heç kimə lazım deyil. İndi onlar həmin köynəklərlə hara çıxacaqlar?! Yəni bu xırda məsələ onu göstərir ki, görün, onların ağlı necə kasıbdır» (133).

«Narıncı» həvəskarlar «inqilab»ın uzunmüddətli fasiləsiz aksiyalarla müşayiət olunacağını nəzərə alaraq ölkəyə xeyli narıncı çadır da gətirmişdilər. Lakin onlara narıncı çadırı yalnız

bir günlüyə ADP qərargahının eyvanında qurmaq müəyyəsər oldu, onu da gecəykən oğurlamışdılar. Hərçənd mitinqləri oturaq aksiyalara çevirmək təklifləri «Azadlıq» blokunun hələ iyun-iyul aylarındakı mitinqlərində səslənməyə başlamışdı. Hətta mitinqlərin birində ADP-çi aparıcı iştirakçıların oturaq aksiyalara hazırlığını yoxlamaq üçün 1988-1989-cu illərin mitinqlərini yamsılayaraq onları oturub-qalxmağa da məcbur etmişdi. Əslində bu epizod, eləcə də mitinqlərdə səslənən yekəxana və populist çıxışlar müxalifət liderlərinin siyasi mübarizə fəlsəfəsinin 16-17 il öncəki meydan təfəkküründən fərqlənmədiyini, bu müddətdə onların hansısa yeni siyasi texnologiyaları əxz etmədiklərini bariz şəkildə göstərirdi. «Narıncı» koalisiyanın gücünü iqtidara və beynəlxalq dairələrə nümayiş etdirmək məqsədi güdən 27 avqust mitinqi də radikal liderlərin hədsiz təkəbbürünün, düşərgə elektoratını illüzor vədlərlə tovlamaq niyyətinin növbəti nümayişi oldu. İsa Qəmbər: «Ölkənin üç aparıcı partiyası bir araya gəlib, yumruq kimi birləşib və Azərbaycanda hakimiyyət də, xarici qüvvələr də daxil olmaqla heç bir qüvvə «Azadlıq» blokunun hakimiyyətə gəlməsinin qarşısını ala bilməyəcək. Heç bir zaman olmadığı dərəcədə dünyanın Azərbaycana diqqəti artıb. Bu dəfə azad dünya bizim arxamızdadır... Mən sizi əmin edirəm ki, əzmlə bu yolumuzu davam etdirəcəyiksə, bütün Azərbaycan xalqı «Azadlıq» bloku ilə bir yerdə olacaq, bütün azad dünya bizimlə bir yerdə olacaq və Tanrı da bizimlə bir yerdə olacaq». Sərdar Cəlaloğlu: «Biz mütləq öz azadlığımıza nail olacağıq. Biz bu meydanda rejimə və dünyaya öz gücümüzü göstərəcəyik» (134).

«Narıncı» liderlərin populizmi onların televiziya vasitəçilə təşviqat çıxışlarında da aparıcı yer tuturdu. Həmin çıxışlara çoxsaylı sosial vədlər əlavə edən, hakimiyyətə gələndən sonra əməkhaqlarını dəfələrlə artıracaqlarını, neft pullarını xalqa paylayacaqlarını, bir sözlə, hamını «yağ-bal içində

saxlayacaqlarını» bəyan edən müxalifət rəhbərlərinin əslində bu populizmi də yeni deyildi. Onlar Azərbaycan xalqına «qızıl dağları» 1992-ci ildə hakimiyyətə gəlməmişdən öncə də vəd etmişdilər, lakin bir ilin içində ölkənin iqtisadi resurslarını darmadağın edərək olan-qalan qızıl-valyuta ehtiyatının və büdcə vəsaitlərinin «kökünə daş atmışdılar». Bu baxımdan xalq əslində onların hansı iqtisadi idarəçilik təfəkküründə malik olduqlarını yaxşı bilirdi. Bununla yanaşı, radikal liderlərin budəfəki sosial populizminin başqa bir tərəfi də vardı. Çünki Azərbaycan artıq onların iflas etdirib sonra da qoyub qaçdıqları bir ölkə deyildi, indi Azərbaycanın böyük iqtisadi və maliyyə imkanları vardı. İndi Azərbaycanın illik dövlət büdcəsinə tən gələcək valyuta ehtiyatı da vardı. Çünki Heydər Əliyevin neft strategiyası artıq real bəhrəsini verməyə başlamışdı, Bakı-Tbilisi-Ceyhan kəmərinin işə salınması ölkəyə milyardlarla dollar gəlir gəlməsini təmin edəcəkdi.

Təbii ki, bütün bunlar müxalifət liderlərinin siyasi iştahasını, onların tezliklə hakimiyyətə gəlib bu vəsaiti sağa-sola dağıtmaq istəyini xüsusilə artırırdı. Çünki onlar nəyi bacarmasalar da, dövlətin büdcəsini israf etməyi yaxşı bilirdilər. Ona görə də seçki kampaniyası başlayan kimi «kisənin ağzını açıb» hamıya cib dolusu pul vəd etməyə başlamışdılar. Müsavat başqanı Qəmbər burada mitinq kürsülərindən və teleefirdən əhaliyə yağlı vədlər verməklə kifayətlənməyərək xarici səfərlərdəki çıxışlarını da həmin populizm üzərində kökləyirdi. Sentyabrda Türkiyəyə növbəti səfəri zamanı «Sky Türk» telekanalında çıxış edən Qəmbər «Azadlıq» blokunun iqtisadi proqramından danışarkən iqtidara gəldikləri zaman hər azərbaycanlı ailəsinə ildə 1 milyon manat neft pulu verəcəklərini, «müəllimlərin, həkimlərin, polislərin, ordu zabitlərinin maaşlarını 400-500 dollara çatdıracaqlarını, pensiyaların ən azı 100 dollaradək artırılacağını» demişdi. Bu liderlərə elə gəlirdi ki, iqtisadi siyasət,

o cümlədən neft gəlirlərinin ölkənin rifahına yönəlməsi dedikdə elə əhaliyə pul paylamaq nəzərdə tutulur. Maraqlıdır ki, seçicilərə maaş və pensiyaları qat-qat artırmağı vəd edən liderlər həmin artımın hansı zaman kəsiyində, neçə müddətə reallaşacağına aydınlıq gətirmək istəmirdilər. Çünki bu zaman həmin artımların real iqttisadi əsaslarını da izah etmək lazım gələcəkdi ki, onlar da buna qadir deyildilər. Qəmbər həmin çıxışında Azərbaycanı Estoniya ilə müqayisə edərək təbii ehtiyatları olmayan bu kiçik Baltikyanı ölkəsinin büdcəsinin 6 milyard dollar, Azərbaycanın büdcəsinin isə 2 milyard dollar olmasından gileylənmişdi (135).

Qeyd edək ki, Müsavat rəhbərinin bu «iqtisadi proqramı» yeni deyildi, həmin fikirləri o, eynilə iki il öncə, prezident seçkiləri zamanı da səsləndirmişdi. Azərbaycanla Estoniyanın müqayisəsi isə, ümumiyyətlə, həm 2003-cü il, həm də 2005-ci il seçkilərində müxalifət liderlərinin ən sevimli tezisi olmuşdu. Əslində real iqtisadi təfəkkürdən uzaq olan bu cür müqayisələr müxalifət liderlərinin arqument və mülahizələrinin nə dərəcədə kasad olduğunu göstərirdi. Bu cür «müqayisəli arifmetika» müəllifləri Estoniyadan da qat-qat balaca olan Lüksemburqu Avropanın sənayecə inkişaf etmiş iri ölkələri ilə müqayisə etsəydilər, onda görərdilər ki, birincidə adambaşına düşən milli gəlirin həcmi ikincilərdən xeyli yüksəkdir. Odur ki, hər bir müqayisə real müstəvidə aparılmalı, elə hakimiyyətə opponentlik də bu müstəvidə olmalıdır. Azərbaycanla Estoniyanın 1991-ci ildə müstəqilliklərini bərpa edərkən real olaraq hansı vəziyyətdə olduqlarını, sözsüz ki, həmin populistlər də yaxşı bilirdilər və burada xüsusi təfərrüata varmağa gərək yoxdur. Bir də ki, əgər Estoniyaya da müstəqilliyinin ilk illərində, Azərbaycandakı kimi, başabəla liderlər rəhbərlik etsəydilər, bilmək olmaz, bu ölkə indi hansı vəziyyətə olacaqdı.

O ki qaldı büdcə artımına, 2003-cü ildə Qəmbər və digər populist liderlər Estoniyanı bizə nümunə göstərəndə Azərbaycanın büdcəsi 1,2 milyard dollar idisə, 2005-də onlar bu müqayisəni təkrarlayanda Azərbaycanın büdcəsi 2,5 milyard dollara çatmışdı, bu gün isə həmin göstərici daha üçqat artaraq həmin Estoniyanı da üstələyib, başqa sözlə, müxalifətin bu «müqayisəli» tezisi artıq aktuallığını itirib. Eləcə də «narıncı» liderlərin vəd etdikləri yüksək əməkhaqları da xeyli dərəcədə artıq reallıqdır, bu gün ölkədə kifayət qədər istehsal və xidmət sahələrində maaşlar Müsavat başqanın vəd etdiyindən də yüksəkdir. Lakin bu artım, «narıncı» liderlərin bəyan etdiyi populist və yalançı vədlərdən fərqli olaraq, havadan götürülməyib, real iqtisadi siyasətə və real inkişafa əsaslanır.

Əlbəttə, başqa bir hakimiyyət populistcəsinə davranıb, məsələn, Neft Fondunun pullarını adambaşına əhaliyə bölüşdürüb israf edə bilərdi. Əhali də həmin pullara bir müddət, necə deyərlər, yeyib içib yaşayardı. Bəs sonra? Axı meyar həddi olmayan populizmdən fərqli olaraq, reallığın bəlli hüdudları var. Məhz bu real siyasətin nəticəsidir ki, Müsavat başqanı iki il əvvəl ucdandutma hər ailəyə ildə 1 milyon manat (yəni 200 AZN) neft pulu vəd edirdisə, bu gün (daha doğrusu, artıq ikinci ildir ki) hökumət sosial baxımdan imkansız ailələrə bundan qat-qat çox ünvanlı müavinət verir. «Narıncı» liderlərin sağa-sola səpələmək istədikləri neft gəlirləri isə artıq həmin 2005-ci ildən başlayaraq Azərbaycanın qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafına, regionların sosial-iqtisadi tərəqqisinə, dövlət investisiya layihələrinə, yeni iş yerlərinin açılmasına, yoxsulluğun azaldılmasına, sahibkarlığın dəstəklənməsinə xidmət edir.

Bir sözlə, o addımları ki müxalifət vəd edirdi, hakimiyyət onları artıq həyata keçirirdi və «narıncı» liderlərinin ucuz populizminə ən təsirli cavab da prezident İlham Əliyevin rəhbərliyi altında görülən real işlər idi: «Bütün bunlar ölkədə

gedən inkişafın təzahürüdürdür. Əminəm ki, getdikcə bütün problemlər öz həllini tapacaq və Azərbaycanda insanlar yaxşı, rahat yaşayacaqlar. Azərbaycanda işsizlik problemi və onunla bərabər yoxsulluq da aradan qaldırılacaqdır. Yoxsulluğun səviyyəsi ilyarım ərzində 10 faiz aşağı düşübsə, gələn 2-3 ildə daha da aşağı düşəcək. Azərbaycanda yoxsul olmamalıdır. Açılan fabriklər, zavodlar, yeni müəssisələr bu məqsədi güdür. Bu baxımdan sahibkarlığın inkişafı çox böyük əhəmiyyət kəsb edir. Çünki bu iş yerlərinin əksəriyyəti özəl sektorda yaranmalıdır. Sahibkarlara 2004-cü ildə 100 milyard, 2005-ci ildə 200 milyard manat kredit ayrılmışdır. 2006-cı ildə isə onlara 400 milyard güzəştli kredit ayrılacaqdır. Mən demək istəmirəm ki, biz bütün məsələləri həll etdik, hər şey yaxşıdır. Mən bütün problemləri bilirəm. Bu problemlərə baxmayaraq, bizim siyasətimiz, atdığımız addımlar deməyə əsas verir ki, biz problemləri həll edəcəyik» (136).

Müxalifətin seçki təbliğatının ən yaxşı halda hakimiyyətin gördüyü işləri, yeritdiyi siyasəti, bəyan etdiyi kursu təkrarlamaqdan ibarət olduğunu prosesləri izləyən xarici ekspert və politoloqlar da nəzərə çatdırırdılar. Sentyabrın sonunda ABŞ-a növbəti səfəri zamanı Müsavat başqanı amerikalı politoloqlar qarşısında «narıncı» koalisiyanın Azərbaycanın gələcəyi ilə bağlı planlarından danışarkən ölkədə köklü siyasi və iqtisadi islahatlar aparılması, korrupsiya ilə mübarizə, demokratikləşmə, Azərbaycanın Avropa Birliyi və NATO-ya inteqrasiyası kimi məlum və iqtidar tərəfindən həyata keçirilən prioritetləri vurğulamışdı. Həmin müzakirələrdə çıxış edən Nikson Mərkəzinin proqram direktoru və Azərbaycan üzrə mütəxəssis Zeyno Baran Müsavat rəhbərinin bəyan etdiyi proqramın prezident İlham Əliyevin siyasi platformasından fərqlənmədiyini nəzərə çatdırmış və müxalifətin bu işləri hakimiyyətdən daha yaxşı görəcəyinə də şübhə etdiyini bildirmişdi: «Siyasi

platformaya gəldikdə, deməliyəm ki, - özü də bu, yalnız hazırkı seçkilərlə bağlı deyil, əvvəllər də müşahidə olunmuşdur, - müxalifət və hakimiyyətin mövqeləri arasında böyük fərq görmürəm. Əlbəttə, hakimiyyət bu məqsədlərə çatmaq üçün kifayət qədər iş görmədiyinə görə tənqid oluna bilər. Amma, açığı, mən müxalifətin hakimiyyətdən daha yaxşı iş görəcəyini düşünmürəm. Məsələn, Ukraynada inqilab nəticəsində hakimiyyətə gələn qüvvə həddən artıq islahat ruhlu olsa da, elə ilk mərhələdə korrupsiya ittihamları üzündən dağıldı» (137).

Öz növbəsində cəmiyyət də müxalifətin ucuz populizmini hakimiyyətin real siyasətindən yaxşı ayırd edirdi. Radikal qüvvələrdən fərqli olaraq, cəmiyyətdə mütləq əksəriyyət başa düşürdü ki, həyata keçirilən iqtisadi inkişafın davam etməsi, ölkənin və ayrılıqda hər bir vətəndaşın firavan gələcəyini təmin edəcək iri layihələrin uğurla icrası üçün hər şeydən öncə sabitlik lazımdır. Bu isə «narıncı» koalisiyanın inqilab iddialarının cəmiyyətin mütləq əksəriyyəti tərəfindən rədd olunması demək idi. Ölkənin qədəm qoyduğu sürətli inkişaf mərhələsində dəyişikliklərin, yeni islahatların labüdlüyünü cəmiyyət də başa düşürdü, bununla yanaşı, cəmiyyətdə əksəriyyət onu da görürdü ki, ölkə prezidenti bu prosesi tədricən, təkamül yolu ilə və nəticə etibarilə daha effektli həyata keçirmək üçün addımlar atır. Belə olan halda müxalifətçilərin özəlliklə televiziya çıxışlarında hay-küylü bəyanatlar, hakimiyyətə qarşı hansısa ultimativ tələblər səsləndirməsi təşviqat baxımından ancaq ötəri rezonans doğura bilərdi. Çünki seçicilər həmin liderlərdən siyasi ibarəbazlıqdan savayı bir şey, hakimiyyətin gördüyü işlərə real alternativ olacaq yeni məram eşitmirdi. Əgər hakimiyyətə iddia edən qüvvə öz təbliğatını yalnız iqtidarı qaralamaq və xalqa yönəlik «Siz bizi hakimiyyətə gətirin, sonra sizin üçün hər şey edəcəyik» kimi iddialar üzərində qurursa, bu zaman onun cəmiyyət tərəfindən dəstək tapması mümkünsüzdür.

Dünyanın bütün demokratik, sivil siyasi mübarizənin təşəkkül tapdığı ölkələrində müxalifət iqtidara gəlmək üçün özünü cəmiyyətə daha işgüzar, daha bacarıqlı və daha yenilikçi qüvvə kimi sübut etmək istəyir. Obrazlı şəkildə desək, əgər iqtidar öz fəaliyyəti dövründə stəkanı yarıyadək su ilə doldurmağa müvəffəq olubsa, müxalifət onu tam doldura biləcəyinə elektoratı inandırmağa çalışmalıdır. Elə də olur ki, müxalifətin bir hissəsi, stəkanın, ümumiyyətlə, boş olduğunu iddia edir və hakimiyyətə gəlib onu dolduracağını bildirir, yəni sırf populizmlə məşğul olur. Bizim «narıncı» radikallar isə reallıq hissini o qədər itirmişdilər ki, nəinki stəkandakı suyu, stəkanın özünü belə inkar etmək həddinə gəlmişdilər. Və bu cür ifrat radikallıq və nihilizm üzərində köklənərək «məxməri» inqilab ideologiyasını kultivasiya edən siyasətbazlar Azərbaycanı, necə deyərlər, söküb yenidən qurmaq iddiasında idilər.

Buna görə də seçki kampaniyasının sakit məcrada getməsi əvvəldən «Azadlıq» blokunun rəhbərlərini qane etməmişdi və onlar müxtəlif bəhanə və üsullarla vəziyyəti gərginləşdirmək, siyasi çaxnaşmaya rəvac verərək, özlərinin də bəyan etdikləri kimi, «inqilabı seçkilərdən əvvələ çəkmək» niyyətində idilər. Çünki populist teleçıxışlarla, bir-birini təkrarlayan və sıraları heç cür sıxlaşmayan icazəli yürüş-mitinqlərlə «inqilaba» nail olmayacaqlarını dərk edirdilər. Odur ki, «narıncı» liderlər sentyabrın 10-da keçirdikləri sonuncu icazəli yürüş-mitinqdən sonra mübarizənin «B» planına keçmək qərarına gəldilər. Həmin aksiyanın mitinq hissəsi «texniki» səbəbdən – səsgücləndiricinin sıradan çıxması üzündən – baş tutmamışdı və blok liderləri bunda hakimiyyəti ittiham etmişdilər. Onların iddiasına görə, «Qələbə» meydanı yerləşən ərazıyə qəfil yüksək elektrik cərəyanı verilib ki, texniki avadanlıq sıradan çıxsın və blokun «möhtəşəm» mitinqi pozulsun. Halbuki, bu iddiaların əksinə olaraq, həmin ərazidə yerləşən binaların heç birində cərəyan

yüksəlməsi və məişət cihazlarının sıradan çıxması baş verməmişdi. Gerçəkdə isə «mikrofon problemi», sadəcə, bəhanə idi və blok liderləri onu qabaqcadan planlaşdırmışdılar.

Təsadüfi deyil ki, hələ «qəza»nın səbəbləri aydınlaşmamış onlar bundan sonra mitinqlərin paytaxtın başqa meydanlarında keçiriləcəyini bəyan etmişdilər. Hələ bir öncəki mitinqdə «rejimə və dünyaya gücümüzü bu meydanda göstərəcəyik» deyən ADP-çi Sərdar Cəlaloğlu «Qələbə» meydanının «yanacaqdoldurma məntəqəsinin yaxınlığında yerləşdiyi üçün» kütləvi aksiyalar üçün yararsız olduğunu bəyan etməyə, həmkarları isə «bu meydan bizə darlıq edir» deyə səs-səsə verməyə başladılar. Nədənsə, bu meydanda 2000-ci ildən mitinqlər keçirən müxalif liderlər onun yaxınlığındakı yanacaqdoldurma məntəqəsini əvvəllər «görməmişdilər». Meydanın onlara darlıq etməsi isə lap «küçə mənə dar gəlir» mahnısını xatırladırdı. Ən maraqlısı isə o idi ki, «Azadlıq» blokunun «Qələbə»dən imtina edərək şəhərin mərkəzində tələb etdiyi meydanlar (o cümlədən daha çox israr etdiyi C.Cabbarlı meydanı) birincidən qat-qat kiçik idi və nəqliyyatın ən gur hərəkət etdiyi marşrutlar üzərində, çoxsaylı ticarət mərkəzlərinin, əhalinin kütləvi istirahət yerlərinin yaxınlığında yerləşirdi. Əslində «narıncı» koalisiya qəsdən aksiya üçün belə yerləri seçmişdi. Blok rəhbərləri bilirdilər ki, hakimiyyət orqanları qanunvericiliyin tələblərini əsas gətirərək həmin yerlərdə kütləvi aksiya keçirməyə icazə verməyəcək və belə olan halda əhalinin sıx olduğu yerlərdə polislə toqquşmaya gedib iğtişaş yaratmaq daha asan olardı. Faktiki olaraq «narıncı» müxalifət 10 sentyabr yürüş-mitinqindən sonra rəsmi təşviqat kampaniyası dövründə bütün aksiyalarını (25 sentyabr, 1, 9, 23 oktyabr) icazəsiz keçirməyə cəhd etməklə məhz bunu məqsəd güdürdü. Bir sözlə, normal seçki yarışında uğur qazana bilməcəyini yəqin bilən qüvvələr artıq seçkilərə deyil, çaxnaşma və qarşıdurmaya getmək qərarına gəlmişdilər.

Bu baxımdan 25 sentyabr aksiyası «narıncı» müxalifət üçün xüsusilə böyük önəm kəsb edirdi. Çünki ilk küçə toqquşmasının necə nəticələnəcəyi bütövlükdə radikalların sonrakı addımları üçün də həlledici olacaqdı. Onlar nəyin bahasına olursa-olsun şəhərin mərkəzini zəbt edib orada fasiləsiz oturaq aksiyalara başlamaq və bununla da seçki günündək hadisələrin gedişini öz istədiyi kimi diqtə etmək niyyətində idilər. 2004-cü ildə Ukraynadakı prezident seçkiləri öncəsi «narıncı» inqilaba da məhz belə start verilmişdi. Odur ki, bizim «narıncılar» da eyni ssenarini təkrarlayacaqlarına əmin idilər. Təsadüfi deyil ki, 25 sentyabr aksiyası öncəsi müxalifət qəzetləri «İnqilab başlayır» başlıqları ilə zəngin idi. «Sentyabrın 25-də «Azadlıq» bloku seçkiyə təxminən qırx gün qalmış şəhərin mərkəzində razılaşdırılmamış yürüş-mitinq keçirmək fikrindədir. Bu aksiya ölkəmizdə siyasi proseslərin əsas istiqamətini müəyyənləşdirəcək və belə demək mümkünsə, demokratik inqilabın təməlini qoyacaq. Bəzi müşahidəçilərin qənaətinə görə, bu proses oktyabrın sonu, noyabrın əvvəllərində inqilabla yekunlaşa bilər. Artıq bunun simptomları görünməkdədir», - deyə «Yeni Müsavat» qəzeti yazırdı. Qəzetə müsahibəsində isə Əli Kərimli deyirdi: «Biz daha da mübariz olmalıyıq. Şəhərin mərkəzində mitinq keçirilməsi qərarını bu addımların başlanğıcı kimi qiymətləndirmək lazımdır. Keyfiyyətcə yeni bir mərhələyə keçmək lazımdır. 25 sentyabrda keçirəcəyimiz mitinqin yüksək səviyyədə olması bu seçkinin taleyini həll edə bilər» (138).

Radikallar bu gedişata çoxdan hazırlaşırdılar. Hələ iyun mitinqlərində AXCP sədri «Bakının hər küçəsini barrikadaya çevirəcəklərini» bəyan etmişdi. 25 sentyabr aksiyası isə bu bəyanatları reallaşdırmalı idi. Lakin həmişəkitək müxalifət liderlərinin evdəki hesabı gerçəklə uzlaşmadı. Yeri gəlmişkən, 25 sentyabrdan sonra ABŞ səfirliyinin vasitəçiliyi ilə iqtidar və müxalifət təmsilçiləri arasında yeni görüş keçirildi və paytaxt

meriyası «Azadlıq» blokuna şəhərin müxtəlif rayonlarında mitinqlər üçün daha dörd meydan təklif etdi, lakin müxalifçilər bundan imtina etdi. Eyni zamanda, Daxili İşlər Nazirliyi Bakıdakı seçki dairələri üzrə deputatlığa namizədlərin seçki təşviqatı üçün 200-dək qapalı və açıq yerlər ayrıldığını bildirdi. Lakin bu statistika «narıncılar»ın siyasi planlarına cavab vermirdi. Hərçənd artıq ilk icazəsiz aksiyanın uğursuzluğundan sonra müxalifçilər hakimiyyətlə hədə ilə danışmağın əbəs olduğunu dərk etmişdilər və bir qədər sonra «narıncı» iflasın faktiki olaraq elə sentyabrın 25-dən başlandığını da etiraf edəcəkdilər: «Sentyabrın 25-dən başlayaraq Azərbaycanda «qlobal siyasi iqlim dəyişməsi» baş verir. Bu, həmin tarixdir ki, Azərbaycan hakimiyyəti bütün beynəlxalq təşkilatların tövsiyələrini rədd edərək ölkədaxili siyasi qüvvələrin dialoqundan imtina etdi. Belə çıxır ki, seçkilərin demokratik keçiriləcəyini təsdiq edən arqumentlərdən biri məhz sentyabrın 25-də darmadağın edildi» (139).

Təbii ki, hakimiyyət müxalifətin hazırlaşdığı addımlara seyrçi deyildi və zəruri tədbirlər görülürdü. Prezident bir neçə dəfə müxalifəti seçki kampaniyasını qarşıdurma müstəvisinə keçirməməyə çağıraraq radikalların bu yöndə atacaqları addımlara adekvat cavab veriləcəyini nəzərə çatdırmışdı. Dövlət başçısı vurğulamışdı ki, hakimiyyət seçki kampaniyasının normal keçirilməsi üçün gərəkən şəraiti yaradır, amma müxalifçilərin bundan sui-istifadə edib ultimativ hərəkətlərinə də seyrçi qalmayacaq: «Hakimiyyətin dinc toplaşmaq azadlığını təmin etmək niyyəti səmimidir və bunu öz əməllərimizlə nümayiş etdiririk. Seçki təşviqatı başlayanda bütün siyasi qüvvələr öz mitinqlərini «Qələbə» meydanında keçirməyə başladılar. Rəhbərlik etdiyim Yeni Azərbaycan Partiyası da mitinqini həmin meydanda keçirmişdir. Müxalifətin mitinqləri bu meydanda olmuşdur. Nə üçün bu meydan əvvəlki təşviqatlar zamanı

müsbət qəbul edilirdi, lakin sonra isə bilə-bilə ki, şəhər rəsmiləri imtina edəcəklər, başqa yerlər tələb olunmağa başlandı? Məsələ bundadır ki, müxalifət «Qələbə» meydanındakı mitinqlərə getdikcə daha az insan toplaşdığını görürdü. Buna görə də onlar başqa taktika, qarşıdurma taktikasını seçiblər. Bütün bu hərəkətlər müxalifətin zorakılıq törətmək, döyülmək, sonra isə Azərbaycanda demokratiyanın mövcud olmaması barədə fikirlər yaratmağa yönəldilmiş qəsdən edilən əməlləridir...

Müxalifətin niyyəti mitinq keçirmək deyil. Əgər onlara indi can atdıqları meydanda mitinq keçirməyə icazə verilərsə, gələn həftə yeni bir şey icad edəcəklər. Müxalifətin niyyəti dinc yığıncaqlar keçirmək, seçkilərdə iştirak etmək deyil. Onlar bəyan edirlər ki, hakimiyyətə gələcəklər. Belə olduqda, müxalifət nəyi nəzərdə tutur və nə planlaşdırır? Onlar «inqilab əhval-ruhiyyəsi»ndən cuşa gəlmiş, artıq başqa yerlərdə istifadə olunmuş, gülünc doğuran geyimləri əyinlərinə almışlar və fikirləşirlər ki, narıncı köynəkləri geyinməklə böyük inqilabçılara çevrilirlər. Onlar çox gülünc və zəifdirlər. Mən şəxsən çox təəssüf edirəm ki, Azərbaycanda müxalifət belə bir vəziyyətdədir. Çünki bu həm də ölkə üçün rüsvayçılıqdır» (140).

Radikalların rəvac verdiyi küçə toqquşmalarınadək seçki prosesini izləyən beynəlxalq dairələr də Azərbaycan rəhbərliyinin təşviqat kampaniyası üçün yaratdığı şəraiti müsbət qiymətləndirirdilər. ABŞ-ın ATƏT-dəki daimi nümayəndəsi Culi Finli həmin günlər Varşavada insan haqlarına həsr olunmuş konfransdakı çıxışında Azərbaycandakı seçkiqabağı vəziyyətdən razılıq edərək hakimiyyətin kütləvi aksiyalar və seçki təşviqatı üçün normal şərait yaratmasının şəffaf seçkilərə təminat verdiyini vurğulamışdı. O həmçinin ümidvar olduğunu bildirmişdi ki, «bu müsbət tendensiya seçki gününədək davam edəcək» (141).

Bu müsbət tendensiyanı qəbul etməyən «narıncı» radikallar nəyin bahasına olursa-olsun qarşıdurmaya can atırdılar. Bu işdə onların ehtiyatında daha öncə təcrübədən keçirilmiş addımlar, «küçə teatrı» üçün nəzərdə tutulmuş qan nümayişi «səhnələri» də vardı. Məhz buna görə də «narıncı» fəalların bir çoxu qanunsuz aksiyalara təkcə zorakılıq törətmək üçün deyil, həm də nümayişkəranə şəkildə döyülmək üçün gedirdilər. Bu artıq, sadəcə, ifrat radikalizm deyil, onun daha iyrənc forması olan siyasi mazoxizm idi. Radikallar bu bacarıqlarını hələ 1998-ci il sentyabrın 12-də (prezident seçkiləri kampaniyasında) «Sahil» bağında polislə toqquşmada başından yaralanmış bir bədbəxti çiyinlərinə alıb küçə boyu aşağı-yuxarı yürüyəndə nümayiş etdirmişdilər. Ertəsi gün müxalifət mətbuatı həmin səhnəni «Bakıda Kərbəla müsibəti» deyə «tərənnüm» etmiş, düşərgə liderləri isə sonralar bu hadisəni özlərinin siyasi mübarizə tarixinə «12 sentyabr olayı» kimi daxil etmişdilər (142).

Bu dəfə isə «narıncı» siyasi mazoxizmin arxasında başqa mətləblər də dururdu. Polisdən dəyənək zərbəsi almaq artıq təkcə siyasi fanatizm nümayişi deyil, həm də bir qazanc mənbəyi idi və hər zərbənin konkret qiyməti, «təzminat haqqı» vardı. Özü də bu pulları müxalifətə hansısa xarici sponsorlar deyil, iqtidarın daxilindəki səbatsız və simasız ünsürlər, korrupsiyadan harınlayıb «inqilab», hakimiyyət çevrilişi iştahasına düşənlər ötürürdülər: «Azərbaycanda qarşıdurmaya gətirib çıxarmaq, vəziyyətin sabitliyini pozmaq, əfsuslar olsun ki, indi onların, necə deyərlər, iş üslubuna çevrilibdir, onların siyasətidir....Son qanunsuz mitinqin reportajı göstərdi ki, mitinqin bir iştirakçısı polisə deyir ki, məni vur. Nəyə görə vur? Çünki vurulanda ona 400 dollar pul verirlər. Bu pul haradan gəlirdi? Bizim aramızda oturanlardan!» (143).

Bu o zaman idi ki, «narıncı» müxalifətlə hakimiyyət daxilindəki «inqilabçı yoldaşlar» artıq qüvvələrini birləşdirib

həlledici həmləyə, tarixə ikinci «Oktyabr üsyanı»nı yazmağa hazırlaşırdılar. Amma hesabları yenə tutmadı. Hər şeyin suyun üzünə çıxmasına az qalmışdı və prezident İlham Əliyev birincilərin iddialarını da, ikincilərin iştahasını da qursaqlarında qoydu.

ON ÜÇÜNCÜ FƏSİL

«BİRLƏŞMİŞ» MÜXALİFƏTİN OKTYABR İFLASI

«Məğlub olanlara yalnız göz yaşı vermək lazımdır ki,
doyunca ağlaya bilsinlər».
O.Bismark

«Özünə də yalan satan insan bir müddətdən sonra daha doğru ilə
yalanı bir-birindən ayırmaz».
F.Dostoyevski

2000-ci ilin oktyabrında baş verən hadisələr ölkədə getdikcə qatılaşan siyasi proseslərin və ümumilikdə seçki mübarizəsinin həm kulminasiya, həm də bir çox düyünlərinin açılma mərhələsi oldu. Bu, «narıncı» müxalifətlə hakimiyyət dəhlizlərindəki harınlamış, satqın və rəngsiz-simasız məmurlardan ibarət gizli müxalifətin birgə həyata keçirməyə çalışdığı çirkin planın ifşası, faktiki hakimiyyət çevrilişinə cəhdin qarşısının alınması demək idi. Bütün bunlar prezident İlham Əliyevin son dərəcədə təmkinli, soyuqqanlı və nəticə etibarilə qətiyyətli hərəkətlərinin məntiqi yekunu olmaqla bərabər eyni zamanda, onun bir dövlət rəhbəri və gerçək lider kimi siyasi fəhm və fərasətinin parlaq nümayişi idi. Əslində nəticələr də göstərdi ki, İlham Əliyevin hadisələrin ən kritik anlarında qəbul etdiyi qərarlar, atdığı addımlar bu aşkar və gizli qüvvələrin heç praktik olaraq birləşməsinə də imkan verməmiş, Azərbaycandakı sabit inkişafı anarxiya və xaosa çevirəcək mənhus ssenari işə düşməyə macal tapmayaraq iflas etmişdi.

Sözsüz ki, həmin hadisələrdə dövlət başçısının göstərdiyi qətiyyət, siyasi iradə və liderlik bacarığı olmasaydı, bunların tam əksi də baş verə bilərdi ki, nəticədə Azərbaycanın hansı böhran burulğanına yuvarlandığını təsəvvür etmək belə qorxunc olardı.

Çünki oktyabrın əvvəlindən başlayaraq cərəyan edən proseslər, hadisələrin gedişatı radikal müxalifətin (sonradan üzə çıxan hakimiyyətdaxili himayədarlarının köməyi ilə) ölkəni məhz bu təhlükəyə doğru apardığını təxmin etmək mümkün idi. Ötən fəsildə qeyd etdiyimiz kimi, təşviqat kampaniyasının ilk həftələrindən seçki mübarizəsini qarşıdurma müstəvisinə keçirməyə çalışan «narıncı» koalisiya artıq 6 noyabra deyil, qarışıqlıq və iğtişaşlara rəvac verməklə seçkinin faktiki pozulmasına və «erkən inqilaba» hazırlaşdığını büruzə vermişdi. «Azadlıq» blokunun 25 sentyabrdakı uğursuzluqdan sonra oktyabrın 1-də və 9-da keçirmək istədiyi qanunsuz aksiyalarda xüsusilə aqressivlik nümayiş etdirməsi də bunu sübut edirdi. Müxalifət fəallarının asayişi təmin etməli olan polis əməkdaşları ilə toqquşmaya girməsi, onlara xəsarət yetirməyə çalışması blok liderlərinin elan etdikləri «qərənfilli aksiya»ların (guya aksiya iştirakçıları vaxtilə gürcü müxalifətinin hərəkətini təqlid edərək polis əməkdaşlarına qərənfil təqdim edəcəkdilər) gerçək mahiyyətini göstərirdi. Nəticədə 1 oktyabr aksiyası zamanı müxalifət radikalları tərəfindən 24 polis işçisinə, 9 oktyarda isə 11 qanun keşikçisinə müxtəlif bədən xəsarəti yetirilmişdi. Təbii ki, bu hərəkətlərə yol verən müxalifət fəallarına qarşı qanunun tələbilə müvafiq inzibati tədbirlər (cərimə, rəsmi xəbərdarlıq) görülmüş, o cümlədən 15 nəfər məhkəmələr tərəfindən 2 sutkadan 15 sutkayadək inzibati qaydada həbs olunmuşdu.

Qanunsuz aksiyalarla bağlı Daxili İşlər Nazirliyinin xüsusi bəyanatında nəzərə çatdırılırdı ki, paytaxtda deputatlığa namizədlərin seçicilərlə görüşləri hər cür şərait, eləcə də kütləvi aksiyalar üçün 5 meydan ayrılmasına rəğmən radikal müxalifət qüvvələri qəsdən hakimiyyət strukturları ilə qarşıdurma yaratmaq, iğtişaş törətmək yolunu tutub. Bəyanatda vurğulanırdı ki, müxalifət qüvvələrinin qanunsuz hərəkətləri,

hakimiyyəti zorla ələ keçirmək, ölkədə və paytaxtda mövcud sabitliyi pozmaq çağırışları kimi hüquqazidd əməlləri qanun çərçivəsində və qətiyyətlə alınacaq: «Bu gün Azərbaycanda həyata keçirilən hüquq mühafizə siyasətinin əsasını humanizm, məsuliyyət, törədilmiş hüquqazidd əmələ görə cəzanın mütənasibliyi və ədalətliliyi təşkil edir. Ölkədə vətəndaş qarşıdurması və iğtişaşlar törətməyə yönələn hər cür cəhdlərin qarşısı, dünyanın bütün sivil dövlətlərində olduğu kimi, asayiş keşikçiləri tərəfindən qətiyyətlə alınacaqdır» (144).

Küçə toqquşmalarında istədiyi nəticəyə nail ola bilməyən müxalifət təmsilçilərinin televiziya ilə təşviqat çıxışları da aqressivlik, təhqir, hakimiyyətə qarşı hədələr, hakimiyyət çevrilişinə çağıran bəyanatlar üzərində köklənmişdi və bu proses oktyabrın əvvəlindən etibarən xüsusilə intensiv xarakter almışdı. Həddən ziyadə liberal seçki qanunvericiliyinin müddəalarından, həm gündəlik pulsuz efir, həm də faktiki limitsiz ödənişli efir imkanından sui-istifadə edən «narıncı» namizədlər hər axşam televiziya ekranlarından böhtan, təhdid və hədə dolu çıxışlar yağdırırdılar. Xüsusilə televiziyalardakı ödənişli efir vaxtının böyük hissəsinin müxalifət tərəfindən zəbt olunması bu qüvvələrin maliyyə imkanları barədə şübhələrə yol açırdı ki, sonrakı proseslər bu imkanların haradan qaynaqlandığına xeyli aydınlıq gətirdi. Eyni zamanda, «Milli birlik» və qismən «Yeni siyasət» blokunun bəzi təmsilçiləri də bu iftira kampaniyasında «narıncı» həmkarlarına züy tutmağa çalışırdılar.

Onu da qeyd etmək lazımdır ki, seçki təşviqatının qanun çərçivəsində, etika və tolerantlıq normalarına uyğun aparılmasına nəzarət etməli olan Mərkəzi Seçki Komissiyası bu faktlara ləng rezonans vermiş, o cümlədən televiziya kanallarına qanunvericiliyə müvafiq şəkildə xəbərdarlıq etməkdə gecikmişdi: «Mərkəzi Seçki Komissiyası qeyd etməyi vacib hesab edir ki,

seçkiqabağı təşviqatla əlaqədar çıxışlarda qanunun tələblərinə zidd olaraq hakimiyyətin zorla ələ keçirilməsinə, vətəndaşların şərəf və ləyaqətini təhqir edən, etik normalarla bir araya sığmayan, böhtan xarakterli fikir və mülahizələrin yayılmasına yol verilmir. Televiziya və radio təşkilatları qeydə alınmış namizədlərə efir vaxtı ayırarkən Seçki Məcəlləsinin tələblərinə ciddi əməl etməli və bu sahədə sui-istifadə hallarına yol verməməlidirlər. Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərinə ciddi əməl olunmasını tələb edir və bəyan edir ki, qanunvericiliyin bu münasibətləri tənzimləyən müddəalarına əməl olunmaması Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və Mülki Məcəllə ilə müəyyən edilmiş qaydada məsuliyyət doğurur» (145).

«İnqilab» həvəsi aşıb-daşan radikallar isə artıq bu xəbərdarlıqları eşitməz hala gəlmişdilər və bütünlüklə seçiöncəsi çaxnaşmalara köklənmişdilər. Çünki «inqilabı» seçkidən sonraya saxlamaq onlara heç nə vəd etmirdi. Ən azı ona görə ki, 6 noyabrda ağır məğlubiyyətə uğrayacaqlarını və bundan sonra da nə xalqın, nə də beynəlxalq dairələrin onların cığal ambisiyalarına dəstək verməyəcəyini dərk edirdilər. Seçkiyədək vəziyyətin qarışması isə «bulanıq suda balıq tutmaq istəyənlər» üçün ideal variant ola bilərdi. Üstəlik bu vəziyyətdə «balıqçılıq» həvəsinə düşənlərin sırası xeyli geniş idi: həm üzdə və gizlində olan müxalifətdə, həm də Azərbaycanın xoas girdabına yuvarlanmasını çoxdan gözləyən xarici dairələrdə. Hərçənd onu da vurğulamaq lazımdır ki, Azərbaycanda «erkən inqilab»la hakimiyyət dəyişikliyinə çalışanların niyyəti müxalifət düşərgəsində heç də hamı tərəfindən qəbul olunmurdu və hətta bunun artıq «məxməri» inqilab deyil, əsl dövlət çevirilişi olacağını həmkarlarının diqqətinə çatdıranlar da vardı. Məsələn, «Yeni siyasət» blokunun təsisçilərindən olan AMİP lideri Etibar

Məmmədov müxalifətin inqilabı seçkidən əvvəl edib hakimiyyəti ələ alması, parlament seçkilərinin isə yeni hakimiyyət tərəfindən keçirilməsi ideyasına münasibət bildirərkən demişdi: «Əvvala, istənilən inqilabın səbəbləri olmalıdır. İndiki halda belə səbəb bizim seçkilərdə qalib gəlməyimiz, hakimiyyətin isə nəticələri kütləvi saxtalaşdırması ola bilər. Əgər seçkilər olmasa, onda bizim qələbimizin hakimiyyət tərəfindən oğurlandığını necə və kimə sübut edəcəyik. Əks halda bu artıq inqilab deyil, çevriliş olacaq və onun əsasında yaranacaq hakimiyyət də heç bir halda legitim sayıla bilməz» (146).

Əslində AMİP liderinin belə xəbərdarlıqla çıxış etməsinin yaxın tarixdən bəlli olan şəxsi bir motivi də vardı. 1992-ci ilin mayında, prezident seçkisinə (7 iyun) bir neçə həftə qalmış onun cəbhəçi həmkarları çevriliş edərək hakimiyyəti ələ almış və nəticədə onun özünü seçkidən də, hakimiyyət uğrunda mübarizədən də kənarda qoymuşdular. Odur ki, özünün də bəlli ambisiyaları olan E.Məmmədov həm də bu tarixin təkrar oluna biləcəyindən ehtiyat edirdi. Hərçənd özlüyündə AMİP lideri də, onun inqilab həvəsli həmkarları da 2005-ci ilin Azərbaycanının 1992-ci ilin Azərbaycanı olmadığını çox gözəl bilirdilər. 2005-ci ilin Azərbaycanının sabit və uğurlu inkişaf yolunda olduğunu və belə vəziyyətdə inqilaba deyil, təkamül yoluna, yeni demokratik islahatlara ehtiyac olduğunu kənardan da aydın görmək mümkün idi.

Təsadüfi deyil ki, bizim «narıncı» liderlərin inqilab təbliğatı apardıqları bir vaxtda «məxməri» inqilabların beynəlxalq sponsorlarından biri kimi ad çıxarmış milyarder Corc Soros Azərbaycanda arzu edilən demokratiyanın inqilabsız da bərqərar ola biləcəyini və bunun üçün əsasların olduğunu vurğulamışdı. Açıq Cəmiyyət İnstitutunun rəhbəri Böyük Britaniyanın «The Financial Times» qəzetinə müsahibəsində bildirmişdi: «Neftlə

zəngin olan Azərbaycan sübut etməlidir ki, o, inqilaba əl atmadan da əsl demokratiya qura bilər. İnqilab əksər hallarda demokratik islahatlar qarşısında yaşıl işıq yandırır, lakin heç kimə tam demokratiya zəmanəti vermir. Gürcüstan, Ukrayna və Qırğızıstandakı xalq üsyanları bu ölkələrdə demokratikləşmə istiqamətində mühüm addım idi, amma inqilabi eyforiya aradan qalxdıqdan sonra siyasətçilər demokratikləşmə prosesinə sıfırdan başlamalı oldular. Azərbaycan bu ssenaridən sığortalana bilər». Azərbaycan hakimiyyətinin Dövlət Neft Fondunu yaratmaqla neft gəlirlərinin şəffaflığı təşəbbüsünə birincilər sırasında qoşulduğunu xatırladan Soros bunun özünün bir demokratiya nümunəsi olduğunu vurğulamış, Azərbaycanda «məxməri» inqilab baş verəcəyi ilə bağlı proqnozlarla isə razılaşmadığını vurğulamışdı: «Azərbaycan bu addımı ilə vətəndaşların hesabına öz ciblərini dolduran əksər neft ölkələrindən fərqli mövqedə dayandığını, öz xalqı qarşısında hərəkətlərinə görə cavab verməyə hazır olduğunu nümayiş etdirir. Müxalifət və hakim elitanın müəyyən dairələri döyüşə hazırlaşır. Amma bu, Azərbaycana lazım deyil. İndi inqilabın gərəksiz olduğunu sübuta yetirən prosesə start vermək, noyabrın 6-da keçiriləcək seçkilərin ədalətliliyini təmin etmək vacibdir» (147).

Azərbaycanda inqilaba hazırlaşanlar isə bu prosesə «Azadlıq» blokunun həmtəsisçisi, ADP sədri Rəsul Quliyevin mühacirətdən ölkəyə dönüşü ilə başlamaq niyyətində idilər. Həmin plana görə, qaçaq eks-spikerin «qayıdışı» hakimiyyətdaxili müxalifətin də hərəkətə gələrək «narıncı» müxalifətlə birləşməsinə təkan olmalı idi. Düzdür, proseslərin bir qədər sonra üzə çıxan təfərrüatı göstərdi ki, eks-spikerin «qayıdış və inqilab» adlı ikihissəsi siyasi farsında onun «narıncı» koalisiyadakı müttəfiqlərinin də yetərincə bilmədikləri məqamlar

varmış və R.Quliyev bu proseslərdə əslində komanda oyunu deyil, öz oyununu oynayırmış.

Xatırladaq ki, 1996-cı ilin payızında hakimiyyətdəki postunu və ölkəni tərk edərək okeanın o tayına üz tutan və sonradan müxalifətçi görkəm alaraq bu düşərgədəki marcinal partiyalardan birinin qiyabi sədrinə çevrilən eks-spiker ötən müddətdə dəfələrlə «evə dönüş» tamaşaları barədə anons vermişdi. Amma hər dəfə son anda onları səhnələşdirməyə cürət etməmişdi. Bu cür boş vədlər onun tərəfindən 1998 və 2003-cü illərin prezident, eləcə də 2000-ci ilin parlament seçkilərindən də verilmişdi. Hətta 2003-cü ilin prezident seçkilərində Müsavat başqanı ilə ittifaq bağlayaraq onun gələcək iqtidarında baş nazir olmağa hazırlaşan eks-spikerin səsvermə günü (15 oktyabr) Bakıda olacağı elan olunmuşdu. Lakin hər belə hay-küylü vəddən sonra Bakıya döndüyündə barəsində açılmış cinayət işinə, mənimsədiyi milyonlara görə cavab verməli olacağını gözə alaraq bu fikrindən vaz keçmişdi. Bu baxımdan onun növbəti «dönüş» vədinin də boş söz olduğunu düşünməyə əsas vardı.

Eks-spiker hələ seçki kampaniyasından öncə bildirmişdi ki, müxalifətçi həmkarlarının ona layiqli qarşılanma təşkil edəcəkləri, başqa sözlə, həbsinə imkan verməyəcəkləri təqdirdə ölkəyə qayıdacaq. Odur ki, onun bu dəfə vəd etdiyi «tamaşa»nı səhnələşdirməyə qərar verməsi sözügedən qarşılanmanın təşkil olunacağına əminliyindən irəli gəlirdi. Çünki bu işə onun təkcə blok yoldaşlarının fəallığı deyil, həm də hakimiyyətdəki «dostları»nın pulları da səfərbər olacaqdı. Eks-spikerin bu arxayınlığının bir tərəfi də, qeyd etdiyimiz kimi, liberal seçki qanunvericiliyi və onun barəsində cinayət işi olmasına rəğmən deputatlığa namizəd kimi qeydə alınması idi. O hesab edirdi ki, hakimiyyət onun namizədliyinin qeydə alınması ilə geriyə addım atıb və özünə müvafiq dəstəyi təmin etsə, Bakıda hüquq-

mühafizə orqanları onu həbs edə bilməz. Hərçənd ölkə rəhbərliyinin seçki kampaniyasında hər hansı ayrı-seçkiliyə yol verilməməsi barədə siyasi iradəsinin nəticəsi olaraq R.Quliyevin namizədliyinin qeydə alınması hələ o demək deyildi ki, o müvafiq hüquqi məsuliyyətdən tam azad olunur.

Başqa sözlə, onun seçki hüquqları təmin olunmuşdu, amma qanun, Konstitusiya hər kəsə hüquqlarla bərabər müvafiq vəzifələr müəyyən edir və birinci ikincini inkar etmir. Buna görə də R.Quliyevin deputatlığa namizədliyinin qeydə alınmasından sonra Respublika Prokurorluğu xüsusi açıqlama ilə çıxış edərək onun barəsindəki cinayət işinə görə qanun qarşısında cavab verməli olduğunu nəzərə çatdırmışdı. Müxalifət dairələri bununla bağlı əsassız hay-küy qaldırsalar da, prezident jurnalistlərə müsahibəsində bu məsələyə bir daha aydınlıq gətirmişdi: «Mən hər bir insanın hüququnu və vəzifələrini qanun və Konstitusiya çərçivəsində qiymətləndirirəm. Biz fəaliyyətimizdə qanun və Konstitusiyanın tələblərinə ciddi əməl etməyə çalışırıq. Seçki hüququ mövcuddur, hər kəsin ondan istifadə etmək haqqı var. Kiminsə namizədliyinin qeydiyyata alınması üçün heç bir məhdudiyyət yoxdur. Lakin kimlərinsə qanunla bağlı problemləri varsa, cinayət törətmişlərsə və buna görə cavab verməlidirlərsə, bu, başqa məsələdir. Siyasətçi, deputatlığa namizəd olub-olmadıqlarından asılı olmayaraq, onlar buna görə cavab verməlidirlər. Bunların biri digəri ilə heç cür bağlı deyildir» (148).

Eks-spikerin namizədliyinin qeydə alınmasından sonra onun «qayıdış» planının gündəmə gəlməsi ilə hakimiyyət daxilindəki «inqilabçılar» da tərpənməyə başlamışdılar. Təsadüfi deyil ki, liderlərinin tezliklə Bakıda olacağını iddia edən ADP-çilər onun gəlişini iqtidar dairələrində, hakim partiyada da çoxlarının səbrsizliklə gözlədiyini durmadan təkrarlayırdılar: «Rəsul

Quliyev mütləq gələcək və biz bu hazırlıqları təkcə ADP və «Azadlıq» seçki bloku səviyyəsində yox, bütün Azərbaycan səviyyəsində aparırıq. Partiyalardan kənar çox böyük qüvvələr var: ziyalılar, elm adamları, müxtəlif peşə sahibləri, keçmiş məmurlar, başqa partiyaların nümayəndələri. O cümlədən Yeni Azərbaycan Partiyasının bir çox üzvləri onu qarşılamağa hazırlaşırlar. Rəsul Quliyevi qarşılanma məsələsini isə bütün dünya görəcək» (149).

Düzdür, bu iddiadakı «bir çox» ifadəsi həqiqətdən uzaq idi, amma hakimiyyətdə yüksək mənsəb sahibi olan və onlara həvalə edilmiş yüksək postları, dövlət idarələrini şəxsi təsərrüfatları sanaraq yeyib-talayan və daha yüksək iddialara düşən bəzi satqın məmurlar eks-spikerin dönüşünü gözləyirdilər. Hətta bunun üçün dövlətdən oğurladıqları pulların bir qismini xərcləməyə də hazır idilər. ADP-çilərin öz liderlərinin iqtidardakı geniş dəstəyi barədə əminliklə danışması onların «narıncı» həmkarlarına da təsir etmişdi. Onlar da R.Quliyevin dönüşü ilə hakimiyyətin parçalanacağını, əksər yüksək vəzifəli məmurların müxalifətin tərəfinə keçəcəyini, bunun isə nəticədə inqilabın qələbəsini təmin edəcəyini bildirirdilər: «Eks-spikerin ölkəyə qayıdışından sonra ona simpatiya bəsləyən hakimiyyət nümayəndələrinin üzə çıxması üçün münbit şərait yaranıb. Artıq hakimiyyətin daxilində laxlama prosesi baş verib. Hakimiyyətdə ADP sədrinin mövqeyini müdafiə edən qruplar var. Çox güman ki, Rəsul Quliyevin də onlarla əlaqələri var. Bu əlaqələr də öz işini görür. ADP sədrini həbs etmək istəsələr də, bu, mümkün olmayacaq. Çünki Rəsul Quliyevi zindanda saxlamağa gücləri çatmayacaq. Əgər belə bir addım atsalar, seçki, ümumiyyətlə, baş tutmaya bilər, proseslər tamam başqa məcraya yönələr. Hətta seçkiyə qədər inqilabın baş verməsi də istisna deyil» (150).

Bu arada hakimiyyətdəki «inqilab cəbhəsi»ndən də maraqlı bəyanat və xəbərlər eşidilməyə başlamışdı. Özü də mətbuat (ilk növbədə müxalifət qəzetləri) bu müddətdə diqqətini əsasən bir nəfərin – iqtisadi inkişaf naziri Fərhad Əliyevin üzərində cəmləmişdi, digər «inqilabçı» nazir Əli İnsanov, görünür, daha çox öz kanalları ilə işləməyə üstünlük verirmiş və bu baxımdan qəzet səhifələrində o qədər də gözə dəymirdi. Bununla belə, səhiyyə naziri də şəxsi piarının qeydinə qalır, ara-sıra qəzetlərdə onun «Amerika dəstəyi» barədə, guya bəzi nüfuzlu konqresmenlərlə isti münasibətlərdə olması və onların səhiyyə nazirinə «toxunmamağı» şəxsən prezidentdən xahiş etdikləri barədə spekulyasiyalar dolaşırdı. F.Əliyev isə mətbuat vasitələrinə xüsusi «qayğıkeşliyi» sayəsində zatən aylardan bəri «islahatçı nazir», «Qərbyönümlü reformator» və «Amerikanın adamı» kimi geniş təbliğatını aparırdı. Hakimiyyətdəki «Amerika adamları»nın Amerikadakı müxalifət lideri ilə əlaqələrinin yaranması isə, necə deyərlər, artıq «texniki» məsələ idi və əvvəl-axır yeraltı sular bir yerdə üzə çıxmalı idi. Üstəlik bu mənhus əməl sahiblərinin hərəkətləri, heç də onların güman etdiyi kimi, gizlin deyildi, proseslər lazımi səviyyələrdə və diqqətlə izlənilirdi. Ölkə başçısının onlara göstərdiyi etimada xəyanət yolunu tutan bu ambisioz və hərdəmxəyal şəxslər başa düşmürdülər ki, dəvəquşu kimi başlarını quma soxsalar da, heç nəyi gizlədə bilməmişdilər və gizlədə də bilməzdilər.

Gözlənildiyi kimi, birinci olaraq bu narahatlığı «islahatçı nazir» büruzə verməyə başladı. Getdikcə özündən daha çox şübhələnən və gizli əməlləri barədə məlumatların yavaş-yavaş qəzet səhifələrinə yol tapdığını görən F.Əliyev avqustun sonunda mətbuata «şok» açıqlama verərək guya həyatının təhlükədə olduğunu və apardığı iqtisadi islahatlara, özəlliklə inhisarçılığa qarşı mübarizəsinə görə kimlərdənsə hədələr almağa başladığını

bildirdi: «Başa düşürəm ki, bu, hətta mənim üçün, həyatım üçün riskli olsa da, vətənim, xalqım, iqtisadi inkişafımızın təmin olunması üçün lazım olduğundan bu addımları atacam. Bunları mən etməliyəm, başqa çarəm də yoxdur». «İslahatçı» nazirin populist və dekorativ pafoslu etirafını şərh edən müxalifət qəzetləri onun müdafiəsinə qalxmışdılar: «İqtisadi inkişaf naziri ölkənin diqqətini üzərinə yönəldəcək bəyanatla çıxış edib. O haqqında yazılanları «bar gətirən ağaca» atılan daşlara bənzədərək, bunu normal qarşıladığını deyib. Bununla yanaşı, F.Əliyev gördüyü işlərin məsuliyyətini dərk etdiyini də vurğulayıb... F.Əliyevin bir sıra sahələr üzrə islahat təşəbbüsləri isə hakimiyyət komandasının mühafizəkar qanadının ciddi təpkisinə səbəb olub. Bir sıra strukturların İİN-dən alınması da bundan xəbər verir. Bu itkilərə baxmayaraq, son açıqlamaları F.Əliyevin geri çəkilmək niyyətində olmadığından xəbər verir. Əslində onun çəkilməsi üçün imkan da qalmayıb ki, açıq şəkildə həyatı ilə risk etdiyini bildirir» (151).

Maraqlıdır ki, F.Əliyev həyatının təhlükə altında olması barədə mətbuata populist bəyanat verməsinə rəğmən bu barədə hüquq-mühafizə orqanlarına müraciət etmək istəməmişdi. Elə bu faktın özü onun həyəcan və narahatlığının başqa motivdən qaynaqlandığını düşünməyə əsaslar verirdi. Bu əsaslar isə geniş ictimaiyyətə bir qədər sonra bəlli olacaqdı. Hələliksə o, inhisarçılıqla mübarizə adı altında şəxsi piarını və kapitalını genişləndirməkdə, gələcək siyasi planları üçün gizli körpülər salmaqda idi. Qeyd etmək lazımdır ki, F.Əliyevin inhisarçılıqdan bəhs edərkən özünün faktiki nəzarət etdiyi iqtisadi sahələri diqqətdənkənar qoyması onu siyasi maraqlar naminə müdafiə edən müxalifətçilərə də yaxşı məlum idi. Lakin elə həmin maraqlardan dolayı onlar bunu qabartmaq istəmirdilər. Halbuki «islahatçı nazir»in qardaşı Rafiq Əliyev özü rəhbərlik etdiyi

«Azpetrol» şirkətinin ölkə üzrə benzin satışının 50 faizdən çoxuna nəzarət etdiyini iftixarla etiraf etmişdi (152).

Müxalifət rəhbərlərindən isə faktiki olaraq yalnız bir nəfər, AMİP lideri Etibar Məmmədov bu məqamı açıq diqqətə çatdırmış və F.Əliyevin islahatçılıq və antiinhisarçılığının «gözə kül üfürmək» olduğunu vurğulamışdı: «İndi bəziləri hakimiyyətdəki islahatçılardan danışır və onların sırasında birinci olaraq Fərhad Əliyevin adını çəkirlər. Məhz o hamıdan çox inhisarçılığın ziyanından danışır. Amma bütün bunlar gülməlidir. İnhisarçılıqla mübarizədən dəm vuran Fərhad Əliyev nədənsə öz qardaşının prezidenti olduğu şirkəti yaddan çıxarır, halbuki birinci elə ondan başlamalıdır» (153).

Təbii ki, məsələ təkcə «Azpetrol»la məhdudlaşmırdı. Əslində F.Əliyevin rəhbərlik etdiyi nazirlik ölkə iqtisadiyyatının bir çox sahələrini (ticarət, sənaye, özəlləşdirmə, daşınmaz əmlakın qeydiyyatı, aqrar-sənaye kompleksi və s.) əlində saxlamaqla özlüyündə bir monopolist idi və «islahatçı nazir» bu imkanlardan geniş şəkildə sui-istifadə edirdi. Bu baxımdan 2004-cü ildən başlayaraq prezident fərmanları ilə sözügedən sahələrin bir qisminin İİN-dən alınaraq digər, daha aidiyyəti olan dövlət strukturlarına verilməsi, yaxud müstəqil qurumlara çevrilməsi, bir tərəfdən, effektiv və daha şəffaf iqtisadi idarəçilik məqsədi dayışırdısa, digər yandan, rəhbərlik etdiyi «supernazirliyi» şəxsi «votçinası» sayan F.Əliyevə edilən xəbərdarlıq idi. Maraqlıdır ki, hər dəfə hansısa struktur İİN-in tərkibindən çıxarılanda müxalifət mətbuatı hay-küy qaldırır və faktiki F.Əliyevin müdafiəsinə qalxırdı. Sözsüz ki, bu havadarlığın arxasında müəyyən mətləblər vardı. Yeri gəlmişkən, 2005-ci ilin həmin avqust ayında «narıncı» müxalifətin nəzarətindəki qəzetlərdə guya rəsmi Vaşinqtonun Azərbaycan iqtidarının köklü şəkildə yenilənməsi barədə prezident İlham Əliyevə təqdim etdiyi bir

siyahı dərc olunmuşdu. Az qala bütün iqtidar komandasının dəyişdirilməsini nəzərdə tutan həmin siyahıda F.Əliyevin adı yox idi.

Təbii ki, bütün bunlar güclü piar maşınının fəaliyyətindən xəbər verirdi. O ki qaldı F.Əliyevin və digər «inqilabçı» məmurlarının adlarının hansısa siyahıda yer almasına, bu yalnız R.Quliyevin tərtib etdiyi siyahı ola bilərdi. Orada kimin «inqilab xəzinə»sinə nə qədər pul verməli olduğu da aydın göstərilmişdi. Lakin R.Quliyevin «qayıdış» tamaşası üçün, sadəcə, maliyyə yetərli deyildi, həmin maliyyə ilə kütləvi səhnələrdə («massovka») iştirak edəcək insanları da səfərbər etmək lazım idi ki, bu işi də onun «Azadlıq» blokundakı həmkarları həyata keçirməliydilər. «Narıncı» koalisiya isə R.Quliyevi qarşılamaq üçün oktyabrın 16-na nəzərdə tutduğu növbəti qanunsuz aksiya planını da təxirə salmışdı. Çünki eks-spiker qayıdışının son və dəqiq tarixini oktyabrın 17-si saat 16-ya elan etmişdi. Onun Londondan Bakıya çarter reysi ilə və çoxsaylı xarici jurnalistlər, Avropa Parlamentinin deputatları, hətta konqresmenlərin müşayiətilə gələcəyi bildirilmişdi. ADP sədri Bakıda möhtəşəm qarşılanacağına o qədər əmin idi ki, müsahibələrində artıq «inqilab»dan sonrakı perspektivlərdən bəhs edirdi. Onun iddiasına görə, Bakıya dönüşü müxalifətin gücünə elə bir güc qatacaqdı ki, təkcə sədri olduğu ADP seçkilərdə «minimum 30 yer», qalan müxalifət partiyaları isə «70-80 mandat» əldə edəcək və parlament bütünlüklə nəzarətə götürüləcəkdi. Sonrası isə, necə deyərlər, məlum idi. Eks-spikerə daha öncə də ölkəyə qayıtmaq istədiyi, amma bunun baş tutmadığı xatırladılanda isə o, «bu dəfə müxalifət qüvvələrinin hər şeyi ölçüb-biçdiyini və hər şey barədə əvvəlcədən razılaşdığını» bildirmişdi (154).

Oktyabrın 15-də Londondan «Azərbaycan xalqına müraciət» ünvanlayan R.Quliyev Bakıya «demokratik dünyanın

dəstəyi ilə» qayıdacağını və bu dönüşün Azərbaycanda «yeni tarix üçün mühüm başlanğıc olacağını» bəyan etmişdi. ADP liderinin müraciətindən belə məlum olurdu ki, sən demə, o heç inqilab-filan tərəfdarı da deyilmiş və Azərbaycana ölkəmizi təkamül yolu ilə inkişaf etdirmək üçün gəlirmiş: «Artıq iki aydan artıqdır ki, mən dünyanın ən nüfuzlu ölkələrinin yüksək səviyyəli dairələrində, xüsusən ABŞ və İngiltərədə görüşlər keçirirəm. Bu görüşlərdə mənim Azərbaycana dönüşümün ölkədə sabitliyə qarant ola biləcəyi fikrini və təkamül tərəfdarı olduğumu, mənə qarşı şəxsi düşmənçilik etmiş insanları bağışladığımı Azərbaycanın rəsmi dairələrinə izah etmələri üçün son dərəcə ciddi səylər etmişəm. Mənim məqsədim xalqın iradəsilə ali hakimiyyət qollarının, indiki zamanda isə Milli Məclisin formalaşmasıdır. Xalqımızın həqiqi xoşbəxtliyinin təkamül yolundan keçdiyinə qəti əminəm. Biz Azərbaycanı qansız-qadasız yolla irəliyə - demokratik dəyişilmələrə doğru aparmalıyıq. Bu yol ilk öncə 17 oktyabrda mənim qayıdışımla başlamalıdır» (155).

Bu arada «narıncı» koalisiya daxilində eks-spikerin «qayıdış»ına hazırlıqla bağlı maraqlı situasiya yaranmışdı. Faktiki olaraq R.Quliyevin hava limanında qarşılanması üçün «massovka» səfərbərliyi ADP-nin üzərinə düşmüşdü. Müsavat və AXCP təmsilçiləri bu yöndə çalışdıqlarını desələr də, hiss olunurdu ki, onların bu çalışması, necə deyərlər, mənəvi dəstəkdən o yana getməyəcək. Bu baxımdan oktyabrın 16-da Müsavat başqanının Bakının Nərimanov rayonunda seçicilərlə görüşündə səslənən fikirlər əslində «Azadlıq» blokundakı mütttəfiqlik münasibətlərinin nə dərəcədə dekorativ olduğunu bir daha göstərirdi. Həmin görüşə təşrif buyuran ADP sədrinin müavini S.Cəlaloğlu Müsavat başqanına o qədər tərif demişdi ki, yəqin bunun müqabilində sabahkı (17 oktyabr) qarşılanma

aksiyasına maksimum müsavatçının çıxacağı qənaətində idi: «İsa bəyə irad tuturlar ki, o, Elmlər Akademiyasında uzun müddət işləyib, amma heç bir elmi iş müdafiə edə bilməyib. Əvvəla, 20 yaşından başlayaraq bütün şüurlu fəaliyyətini Azərbaycan xalqının müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş və 10 ildən sonra bu müstəqilliyə nail olmuş bir adamın hansısa elmi işə vaxt ayırması lazım idimi? Əgər iqtidarın belə bir alimi varsa, buyursun meydana, İsa Qəmbərlə dialoqa girsin. Çox vaxt deyirlər ki, İsa bəy tarixçidir. Mən Azərbaycan iqtidarının bütün tarixçilərini, iqtisadçılarını, siyasətçilərini, riyaziyyatçılarını, fiziklərini İsa Qəmbərlə dialoqa çağırıram və tam əminəm ki, İsa Qəmbər onların hamısına qalib gələr».

Yəqin ADP-çi natiq dialoq deyərkən «debatı» nəzərdə tuturmuş, sadəcə, həmin söz yadına düşməyib. Nə edəsən, insan həddən ziyadə emosiyaya qapılanda belə şeylər olur. Güman ki, elə Müsavat başqanı da bunca tərif qarşısında ADP təmsilçisinin xəcalətindən necə çıxacağını düşünürmüş ki, onun bu nigarançılıqdan müavini R.Arifoğlu qurtarmışdı. O, cavab nitqində ADP liderinə tərif deməsə də, «çox maraqlı» təkliflər irəli sürmüşdü: «Aeroportu, bütün sərhədləri bağlasalar da, Rəsul Quliyev sabah Azərbaycanda olacaq. Mən sizin hər birinizi, kimin imkanı varsa, sabah aeroport istiqamətinə hərəkət etməyə çağırıram. Kimin buna imkanı yoxsa da, ayın 17-də saat 16-da hərə öz blokunun qarşısına düşsün, yarım saat dayansın. Buna imkanı olmayanlar da Allaha dua etsinlər ki, Azərbaycanın demokratik qüvvələri qalib gəlsinlər» (156).

Oktyabrın 17-də baş verənlər göstərdi ki, təkcə müsavatçılar deyil, ümumiyyətlə, R.Quliyevin pişvazına çıxmağa söz verən bütün müxalifətçilər elə R.Arifoğlunun məhz ikinci təklifinə (yarım saat yaşadığı evin bloku qarşısında dayanmaq) əməl ediblər. Sözsüz ki, R.Quliyevi «qarşılamağa» hüquq-mühafizə

orqanları da hazırlaşırdılar. Artıq oktyabrın 17-nə keçən gecə məlum oldu ki, Daxili İşlər, Milli Təhlükəsizlik nazirliklərinin və prokurorluq orqanlarının həyata keçirdikləri tədbirlər nəticəsində radikal müxalifətin planlaşdırdığı pozuculuq əməllərinin bir qisminin qarşısı alınıb, şəhərdə kütləvi çaxnaşma, polis əməkdaşları ilə toqquşmalar təşkil etməyə hazırlaşan bir sıra şəxslər saxlanılıb. Ən əsası isə hüquq-mühafizə orqanları R.Quliyevin «qayıdış» planının koordinatoru olduğu aşkarlanan keçmiş maliyyə naziri Fikrət Yusifovu həbs etmişdilər. Faktiki olaraq eks-spikerin «hər şeyin ölçülüb-biçildiyini» iddia etdiyi plan suyun üzünə çıxmışdı və bundan, yəqin ki, onun özü də xəbərdar idi.

Daxili işlər naziri və baş prokuror həyata keçirilən tədbirlər barədə həmin gecə «Lider» televiziyasına müsahibələrində məlumat vermişdilər. Daxili işlər naziri Ramil Usubov: «Məlumatlar daxil olurdu ki, radikal müxalifətin adamları insanları qanunsuz hərəkətlərə təhrik etmək yoluna düşüblər. Müəyyən adamları pul vasitəsilə ələ almaqla polisə qarşı güc tətbiq etmək üçün planlar cızıblar. Daxil olmuş məlumatlar əsasında əməliyyatlar keçirilir. Bakı şəhərində 26 nəfər saxlanılıb. Saxlanılanlar arasında Gəncənin sabiq polis rəisi Natiq Əfəndiyev də var. Eyni zamanda, əməliyyat məlumatlarından görünürdü ki, qanunsuz aksiyaların keçirilməsi üçün maliyyə yardımını birbaşa təşkil edən sabiq maliyyə naziri Fikrət Yusifovdur. Keçirilən əməliyyat zamanı Fikrət Yusifovun üstündən «Makarov» tipli tapança, evinin axtarışı zamanı isə 100 min avro və 60 min dollar aşkar edilərək götürülmüşdür. Siqnallar daxil olur ki, Bakı şəhərinə respublikanın ayrı-ayrı rayonlarından adamlar gətirilir. Bizdə olan məlumata görə, onlar bağlarda yerləşdiriliblər və oktyabrın 17-si saat 10-11 radələrində hava limanına yaxınlaşmaq üçün cəhdlər ediləcəkdir.

Bəzi məlumatlar var ki, ayrı-ayrı yerlərdə silah-sursat var. Bununla bağlı əməliyyat qrupları həmin yerləri yoxlayır... Rəsul Quliyev elan edib ki, guya çarter reysi ilə Londondan Bakıya gələcək. Biz maraqlanmışıq, hələlik bu haqda Londondan müraciət olmayıb. Rəsul Quliyev yəqin ki, gəlməkdə tərəddüd edir. Ola bilər ki, keçirilən əməliyyatlar və bunların nəticəsi onu sarsıdıb və düşünməyə vadar edibdir».

Baş prokuror Zakir Qaralov: «Hüquq mühafizə orqanlarına daxil olan bütün məlumatlar qanun çərçivəsində araşdırılır. İstintaq getdiyindən hələlik geniş məlumat verməkistəməzdim. Ancaq, cənab nazirin dediyi kimi, keçmiş maliyyə naziri Fikrət Yusifov Rəsul Quliyevdən külli miqdarda vəsait almışdır və bu, yaradılan müxtəlif təxribat qruplarının üzvlərinə paylanmaq üçün nəzərdə tutulurdu. Bir qismi paylanıb və götürülən qəbzlər artıq bizim tərəfimizdən araşdırılır. Təəssüflər olsun ki, hüquq mühafizə orqanlarının etdiyi xəbərdarlıqlara baxmayaraq, bunların niyyəti polis əməkdaşlarının xidməti vəzifələrinin icrasına mane olmaq və xüsusi axtarışda olan Rəsul Quliyevin həbsinin qarşısını almaqdır. Bu isə cinayət sayılır. Mən aldadılmış vətəndaşlarımıza bir daha müraciət edirəm ki, onlar qanun pozuntularından əl çəksinlər, polis əməkdaşlarına qarşı təxribat törətməsinlər» (157).

Oktyabrın 17-si müxalifət qəzetləri bayram əhvalında çıxmışdılar. ADP-nin mətbu orqanı isə artıq bu günün Azərbaycanın yeni tarixinə «qırmızı» haşiyədə düşəcəyini iddia edirdi: «Bu gün Azərbaycan təqvimi daha bir «haşiyə»yə namizəddir. Bir gün ki, insanlara, bütövlükdə cəmiyyətə və dövlətçiliyə xoşbəxtlik gətirəcək, onu qeyd etməmək təqvimin özünə qarşı xəyanətdir...Rəsul Quliyev tarix yazmağa gəlir, ən yeni tarixi. Onun ən yeni tariximizin qəhrəmanı olacağı şəksizdir. Hamı Rəsul Quliyevin yolunu gözləyir, hava limanına tələsir».

Demokratların yalan təbliğatı o həddə çatmışdı ki, onlar «çox etibarlı mənbələrə istinadən» hətta prezidentin guya Bakını tərk edərək Naxçıvana getdiyini və eks-spikerin gəlişindən sonra «hadisələrin müxalifətin xeyrinə dəyişməsi halında dərhal Türkiyəyə, oradan isə Böyük Britaniyaya və ya Rusiyaya keçəcəyini» bildirirdilər (158).

Məsəl var, deyərlər, yalanın ömrü qırx gün olar. Amma R.Quliyevin «qayıdış» siyasi şousu ətrafında yaradılan yalan-palan təbliğat elə bir günün içində, oktyabrın 17-si axşamüstü sabun köpüyü olub havaya uçdu. Səbəb isə çox sadə idi. Eks-spiker özünün yalançı, fitnəkar və nəhayət, böyük bir kopçu olduğunu növbəti dəfə nümayiş etdirərək Bakıya gəlməkdən vaz keçmişdi. Çünki onu Londondan yola çıxanda nə hansısa beynəlxalq təmsilçilər, xarici jurnalistlər ordusu və avroparlamentarlar müşayiət etməyə razılıq vermişdi, nə də Bakıda pişvazına minlər və onminlərlə insan çıxmışdı. Daha doğrusu, 10-15 ADP-çi və bir neçə digər müxalifət partiyasının fəalı istisna olmaqla eks-spikeri qarşılamaq üçün kimsə özünə əziyyət verib hava limanına tələsməmişdi. ADP sədrinin hakimiyyət dairələrindəki adamları tərəfindən muzdlu «massovka» üçün ayrılmış pullar isə, necə deyərlər, ünvanına çatmamışdı.

Bakıya «ən yeni tarix yazmaq üçün» gəlməli olan R.Quliyev isə bu vaxt Qara dəniz sahilindəki Simferopolda İnterpolun Ukrayna nümayəndəliyinin əməkdaşlarına izahat yazmaqla məşğul idi. Çünki onun sifariş etdiyi çarter reysli təyyarə bu şəhərdə yerə enmiş və Ukrayna hüquq-mühafizə orqanları da, Azərbaycanın daha öncə İnterpola etdiyi rəsmi müraciətə əsasən, barəsində beynəlxalq axtarış elan olunmuş R.Quliyevi saxlamışdılar. Həmçinin məlum olmuşdu ki, eks-spikerin xeyli xərc çəkib sifariş etdiyi yekə bir təyyarədə onun özü, iki qohumu

və iki ingilisdən savayı sərnişin qismində heç kim olmayıb. Bununla bağlı «AZAL»-ın rəhbərliyinin mətbuata açıqlamasında deyilirdi: «Oktyabrın 17-si yerli vaxtla saat 14.56-da Heydər Əliyev adına beynəlxalq hava limanına «London Executive Aviation» şirkətindən Farnboro-Simferopol-Bakı marşrutu ilə xüsusi reysin uçuşuna icazə verilməsi barədə müraciət daxil olmuşdur. Müraciətdə şirkətin «Celendcer-C560» tipli təyyarəsinin Bakıya saat 19.45-də enəcəyi barədə bizə məlumat verilmişdir. Beynəlxalq normalara uyğun olaraq, müraciətə cavab 72 saat ərzində verilməli idi. Lakin biz 1 saat 52 dəqiqədən sonra bu müraciətə rəsmi müsbət cavab vermişik. Cavab beynəlxalq poçtla həm «London Executive Aviation» şirkətinin ünvanına, həm də Simferopolda olan dispetçer xidmətlərinə göndərilib. Cavabımızda bildirmişdik ki, Bakının hava limanı təyyarəni sizə uyğun saatlarda qəbul edə bilər. Bu cavabı göndərəndən 5 dəqiqə sonra, saat 16.53-də biz «London Executive Aviation» şirkətindən cavab almışıq ki, təyyarəni sifariş edən şəxs bu reysdən imtina edir. Biz şirkətin dispetçerinə rəsmi zəng etdik. Dispetçer cavab verdi ki, baş sərnişin reysdən imtina etdi və təyyarə Simferopoldan Farnboro şəhərinə qayıdıb. Farnboro şəhəri Londonun yaxınlığındadır» (159).

Beləliklə, R.Quliyev onu Simferopola gətirmiş təyyarəni geri yola salaraq özü bir neçə gün bu şəhərdə qalaraq Ukrayna məhkəməsinin onun barəsində verəcəyi qərarı gözləməli olmuşdu. Bu arada Azərbaycanın hüquq-mühafizə orqanları R.Quliyevin ölkəyə ekstradisiyası ilə bağlı Ukraynaya xüsusi qrupun göndərildiyini bildirmişdi. Daxili işlər naziri oktyabrın 17-də eks-spikerin «qayıdış» şousu ətrafında baş verənlərin ilkin nəticələri barədə yerli və «narıncı» inqilab görmək ümidilə Bakıya təşrif buyurmuş çoxsaylı xarici jurnalistlərə məlumat vermişdi: «Daxili işlər orqanlarının, Milli Təhlükəsizlik

Nazirliyinin, prokurorluğun və digər dövlət qurumlarının işi çox əlaqəli təşkil olunmuşdur. Əlaqəli işlədilər və baş verə biləcək kütləvi iğtişaşın, hər hansı qanunsuz hərəkətlərin kütləvi hal almasının qarşısı vaxtında alındı. Cənab prezident dəfələrlə bildirib ki, mən heç kəsə imkan verməyəcəm ki, kimlərsə bu asayişi, əmin-amanlığı pozmağa cəhd etsin. Siz bir daha bunun əyani şahidi oldunuz ki, belə cəhdlər əbəsdir. Görünür, Rəsul Quliyev Azərbaycandan çoxdan uzaq düşdüyünə görə, ölkədəki real vəziyyəti bilmir. İnsan özü haqqında bu qədər yüksək, reallığa söykənməyən fikirdə olmamalıdır. Rəsul Quliyevin düzgün çıxış yolu bu olardı ki, əvvəlcədən istintaq orqanlarına bildirəydi ki, mən gəlirəm, özümü təhvil vermək istəyirəm və istintaqda günahımla bağlı ifadələr verəcəyəm, vəkillərim var, sübut edəcəyəm ki, günahkar deyiləm... Hesab edirəm ki, Azərbaycan dövlətinin, hökumətinin qərarı düzgündür, keçirdiyi tədbirlər qanun, beynəlxalq hüquq normaları çərçivəsindədir. Düzdür, təəssüflənirəm ki, bizim günahımız olmadan insanların müəyyən hüquqlarının məhdudlaşdırılması üçün bəzi tədbirlər görmüşük. Aeroportun ətrafında və digər zonalarda hərəkəti məhdudlaşdırmağa məcbur olduq. Yəqin vətəndaşlarımız bizi başa düşər ki, bunu onların təhlükəsizliyinin təmin olunması üçün etmişik» (160).

Respublika Prokurorluğu və DİN-in Ukraynaya ezam olunmuş heyəti R.Quliyev barəsində açılmış cinayət işinə dair sənədləri, eləcə də onun barəsində həbs qətimkan tədbiri seçilməsi haqqında Bakı Şəhər Səbail Rayon Məhkəməsinin 10 oktyabr 2000-ci il tarixli qərarını Ukrayna tərəfinə təqdim etmişdi. Qeyd edək ki, R.Quliyev barəsində cinayət işi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.2.1, 179.2.3, 179.3.1, 179.3.2-ci (mənimsəmə və israfetmə yolu ilə külli miqdarda əmlakı talama), 313-cü (vəzifə saxtakarlığı) və 309.1-ci

(vəzifə səlahiyyətlərini açma) maddələri üzrə açılıb. Bununla belə, Ukrayna məhkəməsi R.Quliyevin ABŞ-da siyasi sığınacaq almasını əsas gətirərək onun ekstradisiyasına razılıq verməmişdi və eks-spiker, bu dəfə artıq adi reyslə, geriyə - Londona qayıtmalı olmuşdu. Onu da qeyd edək ki, oktyabrın 18-də ABŞ Dövlət Departamentində gündəlik brifinqdə jurnalistlərin Bakıda baş verən hadisələr və R.Quliyevin İnterpol tərəfindən saxlanılması barədə sualına cavabında mətbuat katibi Şon MakKormak bildirmişdi ki, «ABŞ Quliyevə qarşı Azərbaycanda qaldırılan cinayət işi ilə bağlı hazırda heç bir şərh verə bilməz».

Yeri gəlmişkən, ADP sədri geri dönməzdən öncə Müsavat başqanı təcili Ukraynaya gedərək onunla görüşmüş və «narıncı» koalisiya üzrə müttəfiqlər faktiki puç olmuş «inqilab» arzuları barədə baş-başa xeyli dərdləşmişdilər. Hərçənd Müsavat başqanı Bakıya qayıdandan sonra bu görüş barədə «narıncı» tonda danışaraq eks-spikerin hələ də «inqilabi» əhvalda olduğunu və seçkilərədək ölkəyə gələcəyini bəyan etmişdi. R.Quliyev isə Londona dönüşündə bir həftə öncə iddialı müsahibə verdiyi Rusiyanın «Nezavisimaya qazeta»sına and-aman eləmişdi ki, onun təyyarəsi yarım saat Azərbayacanın hava məkanında dövrə vursa da, Bakı aeroportu onu qəbul etməkdən imtina etmiş, buna görə də «qayıdış» baş tutmamışdı (161).

Eks-spikerin baş tutmayan «qayıdışı» barədə Rusiyanın başqa bir qəzeti – «Moskovski komsomolets»də isə maraqlı bir yazı dərc olunmuşdu. «Yüksək pilotac. Azərbaycan oliqarxı Vətəndə yerə enməmək üçün havada dövrə vurdu» adlı məqalədə deyilirdi: «Oktyabrın 17-si axşam, «MK»-nın növbəti nömrəsi artıq çapa imzalandıqdan sonra, Azərbaycanda parlament seçkiləri intriqasını büsbütün itirdi. Belə hesab edilirdi ki, Heydər Əliyevə on il ərzində uduzan köhnə müxalif qvardiya onun oğlu İlhama qarşı guya mübarizəyə qalxa biləcəkdir. Bəzi

müşahidəçilərə elə gəlirdi ki, möcüzə mümkündür. Lakin hər şey normal həyatda olduğu kimi – heç bir möcüzə-filan baş vermədən cərəyan etmişdir. Müxalifətçilərin ümid bəslədikləri möcüzə bir anlığa mümkün olan kimi göründü. Xəbər gəldi ki, Milli Məclisin sabiq sədri Rəsul Quliyev Azərbaycana qayıtmağa hazırlaşır. Şayiələr gəzirdi ki, guya Quliyev Amerika senatorlarının müşayiəti ilə gələcək, Qərb hökumətləri birləşiblər Azərbaycan rəhbərliyinə təzyiq göstərəcəklər. Quliyev iddia edirdi ki, çoxminli tərəfdarları hava limanına gələcəklər. Lakin gözdən salınmış oliqarxı qarşılamağa, olsa-olsa, 50-dən çox adam getmişdi. Quliyev isə çarter reysi ilə Simferopoladək gəldi. Lakin ya onu qarşılamağa çox az adam gəldiyindənmi, yaxud da uzun müddət həbsxanada qalmaq istəmədiyindənmi, o, Azərbaycanın hava məkanına daxil olmadı... İndi Quliyevin rüsvay olmaması üçün nə kimi gedişlər icad edilsə də, o, sadəcə olaraq, varlı siyasi meyitdir. O, qorxaraq, həyatında başlıca günü uduzdu, adicə bir fitnəkar kimi göründü. Şübhə yoxdur ki, bu rüsvayçılıq müxalifətin qalan liderlərini daha güclü şəkildə ruhdan salacaqdır» (162).

Lakin bu rüsvayçılıq təkcə «narıncı» müxalifətin qalan liderlərini ruhdan salmamışdı. Əslində onlar bu cür iflas və biabırçılıqlara artıq öyrəncəli idilər. Onlardan da böyük ruh düşkünlüyünə məruz qalanlar isə hakimiyyətdəki «inqilabçı yoldaşları» idi. Çünki «inqilab» oyunu üzərindən pərdənin götürülməsi vaxtı, ifşa zamanı çatmışdı. Əgər «narıncı» liderlər bu biabırçılıq nəticəsində onsuz da kasad olan siyasi kapitallarını bir az da uduzmuşdularsa, ikincilər üçün bu, illər uzunu oğurluq və korrupsiya ilə topladıqları gerçək kapitalı, milyonları itirib və dəmir barmaqlıqlar arxasına düşmək demək idi.

XALQIN MƏHƏBBƏTİNİ QAZANAN VƏ ONA ARXALANAN LİDER YENİLMƏZDİR

«Məni heç nə qorxutmur, çünki xalqın dəstəyinə arxalanıram».
İlham Əliyev

«Xalqın iradəsi ən yaxşı qanundur».
Uliss Qrant

«El gücü – sel gücü».
Atalar sözü



ON DÖRDÜNCÜ FƏSİL

HAKİMİYYƏTDƏ BÖYÜK TƏMİZLİK VƏ SATQIN MƏMURLARIN İFŞASI

«Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla firavanlığı hər bir kəs özü seçir».
H.Əliyev

«Satqınlar ilk növbədə özlərini satırlar».
Plutarx

«İstər göydə, istər dərya dibində, istərsə də dağın başında ol, işlətdiyin günahlara görə öz cəzanı alacaqsan».
Budda

«Yekə baş yiyəsinə donuz güddürər».
Azərbaycan atalar sözü

Müxalifətin uzun müddət planlaşdırdığı və təbliğ etdiyi «Eks-spikerin qayıdışı» tamaşası fiaskoya uğrayandan sonra ertəsi gün,oktyabrın 18-i ümumən sakit keçdi. Düşünmək olardı ki, hadisələrin bütün intriqası elə ayın 17-də qalıb. Lakin bu müvəqqəti sükut, hətta demək olar ki, siyasi fırtına öncəsi sakitlik idi. Oktyabrın 19-da Fərhad Əliyevin iqtisadi inkişaf naziri vəzifəsindən azad edilməsi barədə prezident sərəncamı bu sükuta son verdi.

Oktyabrın 20-də Baş Prokurorluq, Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin xüsusi məlumatı açıqlandı. Məlumatda R.Quliyevin «qayıdışı» və sonrakı hakimiyyət çevrilişi üçün «səxavət» kisəsini açmış satqın məmurlar sırasında adı birinci keçən F.Əliyevin «inqilab dosyesi» əksini tapmışdı. Məlumatda nəzərə çatdırılırdı ki, Rəsul Quliyev həbsinə imkan verilməməsi üçün bu işə geniş əhali kütləsini cəlb etmək,

hakimiyyətin devrilməsində maraqlı olan şəxslərlə əlaqə yaratmaq və onların maliyyə imkanlarından istifadə etmək barədə təəssübkeşlərinə tapşırıqlar verib və bu işlərin koordinasiyasını keçmiş maliyyə naziri Fikrət Yusifov həyata keçirib. Oktyabrın 16-da həbs olunan keçmiş nazir iki gün sonra baş prokurora ərizə ilə müraciət edərək bu barədə könüllü məlumat vermək istədiyini bildirib. Necə deyərlər, açıb sandığı, töküb pambığı».

Məlum oldu ki, keçmiş maliyyə naziri 2005-ci ilin iyulunda Rusiyanın Sankt-Peterburq şəhərində olarkən əvvəllər də sıx əlaqədə olduğu Rəsul Quliyev onun mobil telefonuna zəng vuraraq, hakimiyyətin ələ keçirilməsi prosesini maliyyələşdirmək barədə tapşırıqlarını iqtisadi inkişaf naziri Fərhad Əliyevə və maliyyə imkanları olan digər yoldaşlara çatdırmaq barədə göstəriş veribmiş. Bununla əlaqədar, o, avqust ayında Fərhad Əliyevlə onun qardaşı Rafiq Əliyevə məxsus ofisdə görüşür və Rəsul Quliyevin tapşırığını çatdırır. Fərhad Əliyev isə bu məsələdə hər cür kömək göstərəcəyini və öz əlaqələri vasitəsilə əlavə tədbirlər görəcəyini vəd edir. Avqustun sonlarında F.Yusifov Sankt-Peterburq şəhərinə qayıdaraq, F.Əliyevin razılığını telefon vasitəsilə ADP sədrinə xəbər verir. Xatırladaq ki, bu həmin vaxt idi ki, iqtisadi inkişaf naziri mətbuata həyəcanlı açıqlamalar verərək, həyatı bahasına da olsa, «vətən, xalq və iqtisadi inkişafımız üçün lazım olan addımları atacağını» bəyan edirdi.

Az keçmir ki, F.Yusifov eks-spikerin növbəti tapşırığına əsasən, sentyabrın 23-də Bakıda, F.Əliyevin qardaşının ofisində yenidən onunla görüşür. Bu dəfə F.Əliyev ondan gözlənilən istənilən köməyi göstərəcəyini, bu işə 3 milyon dollar ayırmağa və ondan asılı olan bütün işləri təşkil etməyə hazır olduğunu bildirir. 2005-ci ilin oktyabrın 3-də F.Yusifov Berlin şəhərində R.Quliyevlə görüşür. Oktyabrın ortalarında Bakıya dönəcəyini bildirən ADP sədri onu böyük insan kütləsinin qarşılamasının,

bununla da həbsinə imkan verilməməsinin, kütləvi iğtişaşlar törətməklə hakimiyyətin zorla ələ keçirilməsinin vacibliyini vurğulayır və bu işlərin təşkili üçün F.Əliyevin real maliyyə yardımı göstərməsi barədə konkret tapşırıq verir. Bakıya qayıdan F.Yusifov bu tapşırığı F.Əliyevə çatdırır. Oktyabrın 15-də F.Əliyev «inqilab»ın ilkin avansı kimi 100 min avro pulu şəxsən F.Yusifova verir ki, həmin pullar səhərisi, oktyabrın 16-da F.Yusifov həbs olunarkən onun mənzilində aşkar edilir.

Xüsusi məlumatda qeyd olunurdu ki, istintaq gedişatında aparılmış axtarış zamanı F.Əliyevə məxsus evlərdə, bağlarda və müxtəlif obyektlərdə külli miqdarda xarici valyuta, zinət əşyaları, sənət əsərləri və cinayət yolu ilə əldə edilmiş digər qiymətli əşyalar götürülüb. Bundan əlavə, əməliyyat tədbirləri nəticəsində F.Əliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, dövlət əmlakını cüzi qiymətlərlə öz qohum və yaxınlarının adına rəsmiləşdirərək, faktiki olaraq, öz mülkiyyətinə keçirməsi barədə çoxsaylı faktların aşkarlandığı nəzərə çatdırılırdı. Bu faktlara əsasən, 2005-ci il 18 oktyabr tarixdə Cinayət Məcəlləsinin 179.3 (mənimsəmə və israf etmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 28, 220 (iğtişaşa hazırlıq), 278 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama) maddələri ilə cinayət işi başlanılmış və F.Əliyev oktyabrın 19-da həbs olunmuşdu. Onun qardaşı, «Azpetrol» şirkətinin sahibi Rafiq Əliyevin isə ölkəni tərk etmək istərkən hava limanında yaxalandığı bildirilirdi (163).

Həmin gün, oktyabrın 20-də digər «inqilabçı yoldaş»ın, səhiyyə naziri Əli İnsanovun işdən azad olunması barədə prezident sərəncamı elan edildi. Ertəsi gün hüquq-mühafizə orqanları onun da «inqilab dosyesini», eləcə də F.Əliyevlə bağlı əlavə faktları açıqladılar. Məlum oldu ki, F.Əliyev barəsində açılmış cinayət işi üzrə aparılmış axtarışlar nəticəsində onun İİN-dəki kabinetində 50,5 min dollar, 6 min avro və 860 funt sterlinq, mənzilində 30 min avro, 6,5 min dollar, bağ evlərində 34 ədəd

qiymətli rəsm əsəri, 500 ədəd dövlət özəlləşdirmə payı aşkar edilib. Qardaşı R.Əliyevə məxsus «Azpetrol» şirkətinin ofisindən 565 min dollar və kassaya mədaxil edilməmiş 5 milyard 609 milyon manat aşkar edilərək götürülmüşdü. Bundan əlavə, qeyd olunan ünvanlarda külli miqdarda qızıl-zinət əşyaları, 7 ədəd müxtəlif markalı tapança və ov silahları, digər qiymətli əşyalar, çoxsaylı əmlaklara mülkiyyət hüququnu təsdiq edən sənədlərin aşkar olunduğu, F.Əliyevə faktiki məxsus olan çoxlu kommersiya obyektlərində korrupsiya və digər pozuntularla bağlı araşdırmaların davam etdiyi bildirilirdi.

Keçmiş səhiyyə nazirinə gəldikdə isə, bəlli oldu ki, o, «inqilab xəzinəsi»nə 3 milyon dollar ayırmağa hazır olan F.Əliyev qədər «əliaçıq» olmasa da, var-dövlət sarıdan ondan heç də geri qalmır. Məlum oldu ki, eks-spikerin maliyyə koordinatoru F. Yusifov onun tapşırığı ilə 2005-ci ilin avqustunda Ə.İnsanovla Novxanı-Sumqayıt yolunun kənarındakı «Flaqman» restoranında görüşmüş və söhbət zamanı səhiyyə naziri eks-spikerin planlaşdırdığı işlərə hərtərəfli kömək edəcəyi barədə söz vermişdir. F.Yusifov bu razılıq barədə eks-spikerə məlumat vermiş və o, Ə.İnsanovdan 100 min dollar almaq barədə tapşırıq vermişdir. Sentyabrın sonunda Ə.İnsanov F.Yusifova onun qohumu, Səhiyyə Nazirliyinin işlər idarəsinin müdiri Arzu Ələkbərova vasitəsilə deyilən məbləği göndərir. Oktyabrın 10-da F.Yusifov eks-spikerin tapşırığı ilə Ə.İnsanova daha 100 min dollar ayırması barədə xəbər göndərir və o, ayın 14-də bu məbləği nazirliyin işlər idarəsinin müdiri vasitəsilə ona çatdırır. Bundan sonra F.Yusifov ADP sədrinin telefonla verdiyi tapşırığa müvafiq olaraq həmin 100 minin 50 minini «təyinatı üzrə» göndərir, qalanını isə növbəti tapşırıq verilənə kimi özündə saxlayır. Oktyabrın 16-da F.Yusifovun mənzilində aşkar edilmiş 60 min dolların 50 mini məhz Ə.İnsanovun verdiyi pul olub.

Məlumatda Ə.İnsanovun barəsində oktyabrın 20-də açılan cinayət işi üzrə həbs edildiyi, həyata keçirilmiş istintaq-əməliyyat


tədbirləri nəticəsində onun Səhiyyə Nazirliyi sistemində külli miqdarda dövlət əmlakını mənimsəməsi, rüşvət alması hallarını təsdiqləyən faktların müəyyən edildiyi vurğulanırdı. Bu əməllərdə onunla əlbir olmuş Səhiyyə Nazirliyi Əczaçılıq və tibbi texnika şöbəsinin rəisi Akif Məhərrəmovun da tutulduğu bildirilirdi. İstintaq gedişatında aparılan axtarışlar zamanı Ə.İnsanovun mənzilindən və bağ evlərindən 1 milyon 289 min dollar, 884 min avro, 25 kiloqram qızıl-brilyant əşyalar, kərpic formasında qızıl külçələr, çoxsaylı əmlaklara mülkiyyət hüququnu təsdiq edən sənədlər, qiymətli rəsm əsərləri və əntiq əşyalar, nazirlikdəki iş otağından 20 min dollar aşkarlandığı qeyd olunurdu. Eyni zamanda, nazirliyin şöbə rəisi A.Məhərrəmovun mənzilindən 1 milyon 217 min dollar, iş otağından isə 8,9 min dollar aşkar edilərək götürüldüyü, Səhiyyə Nazirliyi sistemində korrupsiya halları ilə araşdırmalar başlandığı bildirilirdi (164).

Oktyabrın 19-20-dən sonrakı proseslər Azərbaycanda yeni situasiyanın yarandığını göstərirdi. Tutduqları yüksək dövləti vəzifəyə, prezidentin onlara göstərdiyi etimada xəyanət edərək oğurluq və korrupsiya yolu ilə əldə etdikləri milyonlar hesabına harınlayan və hakimiyyət çevrilişini maliyyələşdirmək iştahasına düşən satqın məmurlara, bu hərdəmxəyal karyeristlərə ağır zərbə endirilmişdi. Bu hadisələr bir daha göstərdi ki, Azərbaycanda güclü dövlət, güclü lider və onun rəhbərliyi altında effektiv, zərurət yarandıqda isə, qətiyyətli idarəçilik sistemi mövcuddur. Bunun əksini düşünüb illüziyaya qapılanlar, Azərbaycanı anarxiyaya sürükləmək istəyənlər növbəti dəfə uğursuzluğa düçar olmuşdular.

Prezident İlham Əliyev bu iddialara düşənlərə onları gözləyən acı aqibət barədə dəfələrlə, o cümlədən 17 oktyabr hadisələri öncəsi də xəbərdarlıq etmişdi. Dövlət başçısı həmçinin yarızarafat şəkildə nəzərə çatdırmışdı ki, müxalifət liderləri bundan sonra da siyasi iddialarını illüziyalar üzərində qurmaqda

davam etsələr, yəqin ki, «əmək fəaliyyətlərini» elə müxalifətdə başa vurmalı olacaqlar: «Biz heç vaxt özbaşınalığa, anarxiyaya yol verə bilmərik. Kiminsə nazı ilə də oynayan deyilik. Azərbaycan dövlətinin gücü kifayət qədərdir. Hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmaq istəyən qüvvələr də artıq buna yaxşı bələddir. Mən demişəm, bir də deyirəm, - Azərbaycanda boşboğazlıq dövrü çoxdan bitdi. Sadəcə olaraq, bəzi insanlar hələ 1980-ci illərin sonları - 1990-cı illərin əvvəlində baş vermiş hadisələrlə, o əhval-ruhiyyə ilə yaşayırlar. O tarixin kitabı bağlandı və arxivə göndərildi. O ki qaldı bizə müxalif olmaq istəyən adamlara, xatırlayıram, 2000-ci ildə parlament seçkilərində demişdim ki, müxalifət pensiyaya çıxana qədər müxalifət olaraq qalacaqdır. İndi üstündən beş il keçibdir. Mən yenə haqlı çıxdım. İndi onların pensiyasına hələ 10-15 il var. Allah onlara ömür versin. Pensiyaya qədər müxalifətdə olarlar. Ondan sonra biz onlara yaxşı pensiya verərik, getsinlər yaşasınlar» (165).

Tarixin təkərini geri fırlatmaq istəyənlərin iflasını isə çox gözləmək lazım gəlmədi. Prezident həmin günlər «inqilab» xəbərilə Bakıya gələn amerikalı jurnalistlərlə görüşdə bir daha nəzərə çatdırdı ki, «narıncıya» bürünüb kimlərisə yamsılamaqla inqilab etmək olmaz. Çünki məsələ «narıncı»da deyil, xalqda, onun kimə etimad göstərməsindədir: «İnqilab o zaman baş verir ki, prezident, hökumət ilə xalq arasında dərin ziddiyyətlər olsun. Azərbaycanda isə belə hal yoxdur. Azərbaycan ən dinamik inkişaf edən iqtisadiyyata malikdir. Xalq bizə böyük dəstək verir. İqtisadi, sosial baxımdan, Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiyası baxımından olduqca uğurlu siyasət həyata keçiririk. Əlbəttə, bütün bu amillər bizim hakimiyyətimizi daha da gücləndirir. Bunun əksinə olaraq, müxalifət qeyri-mütəşəkkil və zəifdir. Onların Azərbaycanda inqilaböncəsi vəziyyət yaratmaq səyləri uğursuzluğa düçar oldu, göstərdikləri

























ÜMİDLƏRİNİZİ
İLHAM SABAHA DOĞRU!







cəhdlər, aldıqları maliyyə vəsaitləri öz faydasını vermədi. Məsələ «narıncı» və ya digər rəngdə deyil, xalqdadır» (166).

Bu arada satqın məmurların ifşası və hakimiyyətdə başlanan «təmizlik» davam etməkdə idi, hüquq-mühafizə orqanlarının açıqlamaları ortaya yeni təfərrüatlar çıxarırdı. Başlanılmış cinayət işlərinin istintaqı gedişində bəlli olmuşdu ki, R.Quliyevin «qayıdış» tamaşasının səhnələşdirilməsinə daha iki yüksək vəzifəli məmur - Prezidentin İcra Aparatı İşlər İdarəsinin müdiri Akif Muradverdiyev və «Azərkimya» Dövlət Şirkətinin prezidenti Fikrət Sadıqov da maya qoyubmuş. Araşdırmalar nəticəsində onların «inqilabçı nazirlər» F.Əliyev və Ə.İnsanovla, eləcə də R.Quliyevin koordinatoru F.Yusifovla bir neçə dəfə görüşdükləri və planlaşdırılan çirkin əməllər üçün müəyyən məbləğlərdə pul boyun olduqları üzə çıxmışdı. O cümlədən «Azərkimya»nın rəhbəri F.Sadıqov F.Yusifova 30 min dollar verdiyini etiraf etmişdi. F.Sadıqov həmin vaxt ikinci çağırış Milli Məclisin deputatı, eyni zamanda, 6 noyabr seçkilərində YAP tərəfindən irəli sürülmüş namizəd idi. Odur ki, onun barəsində cinayət işinin başlanması üçün Milli Məclis toplanaraq (oktyabrın 28-də) müvafiq razılıq verdi, deputatlığa namizədlikdən isə o öz ərizəsi ilə imtina etdi. Prezidentin İcra Aparatının sabiq işlər müdiri A.Muradverdiyev isə oktyabrın 22-də baş prokurora ərizə ilə müraciət edərək, dövlət hakimiyyəti əleyhinə hazırlanan əməllərdə iştirak etdiyini, o cümlədən sonuncu dəfə bu məsələni oktyabrın 13-də iqtisadi inkişaf naziri F.Əliyevlə müzakirə etdiyini boynuna almışdı. Barəsində cinayət işi açılan A.Muradverdiyevin bağ evində aparılan axtarış zamanı çoxlu miqdarda valyuta, qızıl zinət əşyaları aşkarlanmışdı.

Bundan əlavə, həyata keçirilən istintaq tədbirləri nəticəsində Xızı rayonu Şurabad bələdiyyəsinin sədri Nəcəfqulu Quliyev tutulmuş və o, Ə.İnsanov, A.Muradverdiyev və F.Sadıqovun Xızıdakı bağ evlərində tez-tez görüşdüklərini və hakimiyyət çevrilişi barədə söhbətlər apardıqlarının şahidi olduğunu

bildirmişdi. İstintaq gedişində R.Quliyevin «qayıdış» planının daha bir iştirakçısı, Nəsimi rayon polis idarəsinin rəis müavini İlqar Rəhimzadə həbs olunmuşdu. Müəyyən edilmişdi ki, o, vəzifə borcuna xəyanət edərək oktyabrın 17-də Bakı şəhərində ictimai təhlükəsizliyin qorunması üzrə həyata keçiriləcək işləri əks etdirən tədbirlər planı barədə müxalifət qüvvələrinə məlumatlar ötürürmüş. Həmçinin hələ oktyabrın 16-da həbs olunmuş Gəncə şəhər polis idarəsinin sabiq rəisi və R.Quliyevin ADP-dəki müavinlərindən olan Natiq Əfəndiyevin Daşkəsən rayonunun Bayan kəndindəki evində axtarış zamanı silah-sursat, partlayıcı maddələr, Yaponiya istehsalı olan peyk rabitə vasitəsi aşkar edilib götürülmüşdü. Həbs edilənlər arasında Azərbaycan Milli Elmlər Akademiyasının sabiq prezidenti Eldar Salayev də vardı. R.Quliyevin maliyyə koordinatoru F.Yusifov ayrı-ayrı məmurlardan toplanan pulları (ümumilikdə 305 min dollar) sonradan təyinatı üzrə çatdırılmaq üçün E.Salayevə verildiyini bildirmişdi. Sonuncunun AMEA-dakı iş otağında aparılmış axtarış zamanı onun bu hərəkətlərdə iştirakını təsdiqləyən maddi sübutlar aşkar olunaraq götürülmüşdü.

Ümumilikdə 17 oktyabr olayları ilə bağlı başlanmış cinayət işləri üzrə 12 nəfər barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilmişdi. Lakin baş verən hadisələr, o cümlədən aparılan istintaq hərəkətləri barədə müvafiq rəsmi strukturların operativ və ətraflı məlumatlar verməsinə rəğmən, müxalifət mətbuatı, eləcə də onlara istinadən bir sıra yerli və beynəlxalq hüquq müdafiə təşkilatları Azərbaycanda guya parlament seçkiləri ərəfəsində kütləvi repressiyaların aparıldığı, müxalifətin yüzlərlə fəalının tutulması barədə yalan xəbərlər yayırdı. Öz növbəsində Respublika Prokurorluğu, DİN və MTN bu dezinformasiyanı qəti şəkildə təkzib etmiş, aparılan istintaq tədbirlərinin heç bir halda seçki təşviqatının məhdudlaşdırılması səciyyəsi daşımadığını, 17 oktyabr olayları ilə bağlı inzibati qaydada saxlanılmış şəxslərin azad edildiyini, həbsdə olan 12

nəfərin isə bütün prosessual hüquqlarının təmin olunduğunu nəzərə çatdırmışdı. Həmçinin bildirilirdi ki, sentyabr-oktyabr aylarında ölkə üzrə seçicilərlə keçirilmiş 22,7 min görüşdən 5,6 mini müxalifət təmsilçiləri tərəfindən təşkil olunmuşdu. O ki qaldı kütləvi aksiyalara, bu müddətdə ölkə üzrə keçirilmiş 55 seçki təşviqatı mitinqinin üçdə ikisi (38) müxalifətin payına düşmüşdü (167).

Əslində 17 oktyabrda faktiki iflasa uğramış müxalifətçilərin bu cür dezinformasiya yaymaqdan savayı özgə əlacı qalmamışdı. 17 oktyabr olayları və sonrakı proseslər bu qüvvələrə soyuq duş effekti yaratmışdı. Odur ki, xəyanətkar məmurların ifşası və müxalifətə uzanan gizli maliyyə kanallarının kəsilməsinin yaratdığı çaşqınlığı ört-basdır etmək üçün onlar müxtəlif uydurmaları dövriyyəyə buraxırdılar. Həmin uydurmalardan biri də guya Ə.İnsanovun həbsi ilə onun «ağsaqqallıq etdiyi» ayrı-ayrı məmurların və bütövlükdə qərbi azərbaycanlıların prezidentə qarşı çıxacağı və bunun da hakimiyyətdə parçalanmaya səbəb olacağı barədə idi. Lakin bu cılız iddialar qərbi azərbaycanlıların nüfuzlu şəxsləri, ziyalıları tərəfindən təkzib edildi və onlar müxalifət dairələrinin regionçuluq, tayfabazlıq təbliğatını qəti şəkildə pisladilər. Yeri gəlmişkən, Ə.İnsanov özü oktyabrın 30-da prezidentə ünvanladığı müraciətdə iştirakçısı olduğu çirkin əməlləri etiraf edərək bundan peşmançılıq çəkdiyini bildirmişdi. Düzdür, sonradan, məhkəmə prosesi zamanı Ə.İnsanov belə bir müraciət yazmadığını iddia etmişdi. Amma, necə deyərlər, əlahəzrət faktı inkar etmək mümkün deyildi və sabiq səhiyyə nazirinin öz dəst-xəttilə kiril qrafikasında yazdığı məktubun surəti mətbuatda dərc olundu. «Müxalif qüvvələr ardı-arası kəsilmədən məni öz tərəflərinə çəkmək, təsirləri altına salmağa çalışdılar. Rəsul Quliyev məni özünün avantürist planlarına bağlamış oldu. Mənim Rəsul Quliyev kimi perspektivsiz, ölkədə heç bir nüfuzu olmayan, avantüristə qoşulmağım əcaib və bağışlanmazdır,

nifrətə layiqdir», - deyə Ə.İnsanov məktubunda bildirmişdi (168).

«Narıncı» müxalifətçilərin davranışında digər diqqətçəkən cəhət onların, bir tərəfdən, ifşa olunmuş və hakimiyyətdən qovulmuş korrupsioner məmurlarla hər hansı əlaqələrini təkzib etmələri, digər yandan isə, onlara faktiki qahmar çıxmaları idi. «Narıncılar» özəlliklə F.Əliyevin «halına acıyır», hətta «islahatçı nazir»in həbsinin Azərbaycanın Qərblə, ələlxüsus ABŞ-la münasibətlərində problemlər yaradacağını bildirirdilər. Qeyd olunurdu ki, «ABŞ-ın dəstəklədiyi, Qərbyönümlülüyü ilə tanınan, beynəlxalq maliyyə qurumları ilə isti ilişgiləri olan» F.Əliyevin vəzifədən kənarlaşdırılması və həbsi rəsmi Bakının beynəlxaq münasibətlərinə mənfi təsir göstərəcək. «Azadlıq» blokunun seçki qərargahının rəhbəri Pənah Hüseyn iddia edirdi ki, F.Əliyevin «vurulması» prezident İlham Əliyevin «islahatçı dövlət başçısı imicinə vurulan çox böyük bir zərbədir». Müsavat təmsilçisi R.Arifoğlu isə hətta prezidentə «kömək əlini uzadaraq» onu «hakimiyyəti demokratik müxalifət düşərgəsi ilə bölüşməyə» çağırırdı (169).

Bu spekulyasiyalara paralel olaraq müxalifət dairələri guya Azərbaycanın Rusiyanın «ağuşuna atılması» barədə köhnə və absurd iddiaları da dövriyyəyə buraxmışdılar. Onların iddiasına görə, 17 oktyabr hadisələrinin üstünün açılmasında Rusiya kəşfiyyatı xüsusi rol oynayıb və bu üzdən indi Moskvanın Bakıya təsiri güclənəcək. Qeyd etmək lazımdır ki, müxalifət dairələrinin bu cür iddiaları yeni deyildi, onlar hər dəfə siyasi iflasa uğrayanda, bacarıqsızlıqları üzə çıxanda bunun səbəblərini hansısa gizli mətləblərdə, xarici xüsusi xidmət orqanlarının əməllərində axtarırlar. İki il öncəki prezident seçkilərində, 2003-cü ilin 16 oktyabr hadisələrində də onlar «Rusiyanın barmağını» görmüş və ondan sonra da Azərbaycanın Kremlin təsiri altına düşdüyünü iddia etmişdilər. Bu olaylar arasında oxşarlıq və ya paralellərə gəldikdə isə, bu oxşarlıq hər iki hadisədə radikal

müxalifətin uğursuzluğa düçar olmasında idi. Əgər 2003-cü ilin 16 oktyabrında hakimiyyət radikal müxalifətin ekstremist çıxışlarını, meydana gələn iğtişaşları zəruri güc tətbiqi ilə aradan qaldırmışdısa, 2005-ci ilin 17 oktyabrında çevik qabaqlayıcı addımlarla bunun baş verməsinə, ümumiyyətlə, imkan verməmişdi. Müxaliflər isə heç vəchlə etiraf etmək istəmirdilər ki, hakimiyyətlə mübarizədə uduzublar və hər dəfə bu işdə hansısa kənar qüvvələrin rolunu axtarırdılar. Necə deyərlər, bu da bir cür siyasi xislətdir.

Yeri gəlmişkən, 17 oktyabr olayları və ümumilikdə parlament seçkiləri ilə bağlı Rusiyanın Azərbaycana təsiri barədə həmin günlər Bakıda olan amerikalı jurnalistlər də prezident İlham Əliyevlə görüşdə söz açmışdılar. Öz növbəsində dövlət başçısı təkcə Rusiya ilə deyil, başqa xarici ölkələrlə də bağlı ortaya atılan bu cür mülahizələrin əsassız olduğunu vurğulamışdı: «Bizə hər hansı bir təsir edilmir və bu istiqamətdə səylər də göstərilmir. Qonşularımız ilə münasibətlərimiz konstruktivdir. Hesab edirəm ki, əlaqələr daxili işlərə qarışmamaq, qarşılıqlı hörmət prinsipləri əsasında qurulanda hər iki tərəf bundan faydalanır. Eyni zamanda, Azərbaycan öz imkanları əsasında yaşayışını təmin edə bilir. Biz hər hansı xarici yardımdan asılı deyilik. Yalnız öz imkanlarımıza arxalanmaq bizim daimi siyasətimiz olmuşdur. Buna görə də hətta hansısa dövlət burada öz nüfuzundan istifadə etməyə çalışsa da, bu, asan olmayacaqdır» (170).

O ki qaldı konkret olaraq 17 oktyabr olaylarının, müxalifətlə hakimiyyətdəki bəzi xəyanətkar məmurların gizli əlaqələrinin üstünün açılmasına, burada, təbii ki, Azərbaycanın təhlükəsizlik orqanlarının xarici tərəfdaşlarla işbirliyinin müəyyən rolu olmuşdu. Çünki söhbət nəticə etibarilə mütəşəkkil cinayətkarlıqla mübarizədən, «çirkli» pullarla qanuni hakimiyyətin devrilməsinə cəhdin qarşısının alınmasından gedirdi və Azərbaycan dövləti bu məsələdə öz gücünü nümayiş

etdirmişdi: «Uzun illər, on il ərzində bizim aramızda olan, bizimlə bərabər işləyən adamlar bizə arxadan zərbə vururlar. Özü də kiminlə birləşdilər? Beynəlxalq mafiyanın rəhbərlərindən biri, Azərbaycanda korrupsiyanın təməlini qoyan, dünyada korrupsioner və oğru kimi tanınan Rəsul Quliyevlə birləşiblər! Qanunsuz yolla, oğurluq və korrupsiya yolu ilə qazanılmış «çirkli» pullarını onun sifarişi ilə onun əlaltılarına verməklə Azərbaycanda kütləvi iğtişaş törətmək istəmişlər. Nə üçün? Azərbaycanın uğurlu inkişafı kimin gözünü deşir? Azərbaycan dövlətinin, Azərbaycan xalqının düşmənlərinin! Onların arzusu nə idi? O boyda vəzifə sahibi idilər. Amma görünür, bu imtiyazlar, bu şərait, bu vəzifə, bu var-dövlət onları bu işlərə sövq etdi. Bundan da böyük iddiada imişlər.

İndi görün, nələr baş verə bilərdi? Bir tərəfdən korrupsioner məmurlar Əli İnsanov, Fərhad Əliyev və başqa məmurlar hərəsi öz iddiasında, ikinci tərəfdən, xaricdən gəlmək istəyən mafioz Rəsul Quliyev prezidentlik iddiasında, digər tərəfdən, bizim bu köhnəlmiş, naftalin qoxusu gələn müxalifət - İsa Qəmbərov, Əli Kərimov. Burada nə olacaqdı? Əgər onların planları həyata keçsəydi, Azərbaycanda yenidən vətəndaş müharibəsi başlanacaqdı. Azərbaycan yenə də anarxiya, qanunsuz silahlı birləşmələr və hakimiyyət davası dövrünə sürüklənərdi. Biz bütün bu xoşagəlməz halların qarşısını qətiyyətlə, cəsarətlə, qanun çərçivəsində aldıq. Hərə öz payını aldı. Bu, hamı üçün dərs olmalıdır.

Hamı bilməlidir ki, Azərbaycanda belə konspirativ qaydada, gizli yolla artıq heç nə etmək mümkün deyildir. Bizim qətiyyətli addımlarımız var. Təkcə Azərbaycanda deyil, başqa ölkələrdə nə baş verir, onu da bilirik. Başqa ölkələrdəki o gizli sövdələşmələr bizə bəlli olur. Hamı bunu bilməlidir ki, Azərbaycanda ciddi tədbirlər görülür, dövlətçiliyimiz möhkəmlənir. Bizimlə ultimatum dilində danışmaq istəyənlər, narıncı köynəklərlə bizə hücum edənlər indi haradadırlar? Rəsul

Quliyev, o oğru, mafioz haradadır? Azərbaycana gəlsin, cavab versin! Qorxur, o birilər də qorxurlar, çünki hünərləri çatmır» (171).

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin geniş iclasında bəyan etdiyi bu sözlər onun hökumətin təxminən bir il əvvəl, 2004-cü il dekabrında keçirilmiş toplantısında etdiyi çıxışın məntiqi yekunu idi. Xatırladaq ki, prezident həmin çıxışında hökumət postunda «müxalifətçilik» etmək iddiasına düşən, yüksək vəzifə və mənsəbdən sui-istifadə edərək şəxsi piar kampaniyaları aparan məmurlara xəbərdarlıq edərək bu əməllərə son qoymağa çağırmışdı. Dövlət başçısı açıq şəkildə bildirmişdi ki, kimin siyasi ambisiyası varsa, buyurub istefa verə və siyasətlə məşğul ola bilər, hakimiyyət dəhlizlərində hansısa gizli oyunlara isə yol verməyəcək. O vaxt hər bir məmur bu xəbərdarlıqdan nəticə çıxarmalı idi, amma, görünür, ambisiyalarına yenik düşən bəziləri bunu ciddiyə almamışdı. Və nəticə ortada idi: «Mən Nazirlər Kabinetinin toplantısında demişdim, kim siyasətlə məşğul olmaq istəyir, getsin məşğul olsun. Amma burada oturmasın. Getsin, siyasətlə məşğul olsun, görüm necə məşğul olacaqdır. Eşitmədilər. Bəlkə hesab edirdilər ki, mən bunu elə-belə, söz naminə deyirəm. Mən sözü bir dəfə deyirəm. İkinci dəfə hərəkət edirəm. Mən son zamanlar bu məsələ ilə bağlı gedən prosesləri müşahidə edirəm. Əlbəttə, bu, bizim hamımızı düşünməyə vadar edir. Hamımız bilməliyik, kim kimdir. Gərək burada şəffaflıq olsun. Tutaq ki, kimsə başqa yol tutmaq istəyir, tutsun. Gəlsin, kişi kimi desin ki, mən bununla razı deyiləm. Mən də bunu qəbul edərəm. Mən açıq mübarizənin tərəfdarıyam.

Mənim atam Heydər Əliyev də açıq mübarizə aparmışdır. Bunu gizli yolla, altdan-altdan etməmişdi. Sovet rəhbərliyini və Qorbaçovu pislədi, Kommunist Partiyasını ifşa etdi və çıxıb getdi. Ondan sonrakı dövrdə, Azərbaycanda Vəzirov, Mütəllibov kimi adamların dövründə mübarizə aparırdı. Ondan

sonra Xalq Cəbhəsi dövründə Yeni Azərbaycan Partiyasını yaratdı. Müxalifətdə idi, kişi kimi. Belə olmalıdır!

Mən mübarizəyə qoşulanda da eyni məramla qoşuldum. Prezident seçkilərində mübarizə apardım, qələbə qazandım. Bu gün də mübarizəni aparıram, sabah da aparacağam. Çünki mən haqlıyam və mənim siyasətim xalq tərəfindən dəstəklənir. Yaxşı, bəs bunlar - Fərhad Əliyev, Əli İnsanov mənim yanımda olanda yaltaqlanırdılar, yalan sözlər deyirdilər: ay, biz Sizi belə dəstəkləyirik, ay, Siz belə adamsınız. Fərhad Əliyev mənim kabinetimdə Qurana əl basırdı. Son aylar ərzində onunla bir neçə ciddi söhbətim olmuşdu. Mən düzgün yolda olmadığını ona deyirdim. Ona şans verirdim ki, öz hərəkətlərində düzəliş etsin. Gəlirdi, mənim otağımda əlini Qurana basırdı. Belə hərəkətlər insanda ikrah hissi doğurur. Əli İnsanov öz müraciətində yazıb ki, onun hərəkətləri bağışlanılmazdır, nifrətə layiqdir. Onu düz deyir. Onların hərəkətləri nifrətə layiqdir. Adam mübarizəni kişi kimi aparar. Qalib də gələr, məğlub da olar, amma öz mənliyini saxlayar. Çünki iqtidar bu gün var, sabah da ola bilər, ondan sonra da ola bilər, ondan sonra olmaya da bilər. Amma insanda insani keyfiyyətlər həmişə olmalıdır. Bir daha deyirəm ki, kim siyasətlə məşğul olmaq istəyir, kim bu yolu tutmaq istəyir, bax, bu gün, indi dursun, desin. Qapılar açıqdır. Yox əgər belə deyilsə, onda hamı öz işi ilə məşğul olsun. Məni xalq seçib, mən xalq qarşısında məsuliyyət daşıyıram. Siz prezident qarşısında məsuliyyət daşıyırsınız. Sizi nə isə qane etmir - gəlin, deyin, heç bir problem yoxdur. Amma burada oturub müxalifətlə əlbir olmaq, onlara pul vermək ki, o pulla gəlsinlər prezidenti devirsinlər, sonra nə olacaq, Allah bilir. Buna imkan verilməyəcəkdir» (172).

Qeyd etmək lazımdır ki, İlham Əliyevin 2004-cü ilin dekabrında məmurlara etdiyi xəbərdarlıqdan sonra uzun müddət bu mövzu qayıtmaması və bu sükutdan sui-istifadə edən ayrı-ayrı iqtidar mənsublarının, necə deyərlər, lap cızığından çıxması

ictimai rəydə də birmənalı qarşılanmamışdı. Müxalifət mətbuatı isə bu müddətdə prezidentin guya hakim komandanın ayrı-ayrı üzvləri ilə bacarmaması və faktiki olaraq onların təsiri altında olması barədə spekulyasiyalara geniş meydan vermişdi. Bu baxımdan cəmiyyətdə bu spekulyasiyalara son qoyacaq anın, prezidentin dövlət idarəçiliyində həlledici söz sahibi olduğunu qəti şəkildə nümayiş etdirəcək addımların bir daxili gözləntisi də vardı. Eyni zamanda, çoxları hesab edirdi ki, prezident bu addımlara parlament seçkilərindən sonra başlaya bilər. Lakin sonrakı proseslər göstərdi ki, dövlət başçısı tərəfindən bu addımların zahirən ləngidilməsinin nəticə üçün həlledici olan səbəbləri varmış. Prezidentin 17 oktyabr öncəsi və sonra atdığı addımlar göstərdi ki, o, proseslərə diqqətlə nəzarət edirmiş və hadisələrin, necə deyərlər, lazımi kondisiyaya yetişməsini gözləyirmiş və zamanı çatanda qəti addımlar atılmışdı.

Baş verənlərin mahiyyətinə diqqət yetirsək, əslində 17 oktyabrdan sonra Azərbaycanda inqilabi, cəmiyyət üçün tamamilə sürpriz sayılacaq dəyişikliklərin başlandığını qeyd etmək olardı. Prezident İlham Əliyevin hakim komanda daxilində gerçəkləşdirdiyi - fakt etibarilə qəfil, amma məntiq nöqteyi-nəzərindən çoxdan gözlənilən təmizləmə prosesi bir anlamda «məxməri» inqilabın yuxarıdan başlanması demək idi. Çünki 17 oktyabr olayları göstərmişdi ki, hakimiyyət daxilindəki simasız məmurlardan ibarət «müxalifət» Azərbaycanın sabit inkişafı və dövlətçiliyi üçün «narıncı» rəngə bürünmüş ifrat radikallardan heç də az təhlükə törətmirmiş və əgər ölkə başçısının həlledici məqamda qətiyyətli addımları olmasaydı, sonrakı proseslər ölkəni hansı ağır xaos girdabına sala bilərdi. Hakimiyyətin harınlamış miskin karyeristlərdən təmizlənməsi, bir tərəfdən, prezidentin sabitliyin, qanunçuluğun və dövlətçiliyin qarantı kimi qətiyyətini nümayiş etdirirdisə, başqa tərəfdən, onun cəmiyyətə daha şəffaf, daha məsuliyyətli və sadiq iqtidar komandası təqdim etmək kimi strateji niyyətini

göstərirdi. Bu komandada, prezidentin vurğuladığı kimi, hər kəsin siması, kimin kim olduğu dəqiq və birmənalı bilinməlidir. Bu baxımdan 17 oktyabr sonrası olaylarla Azərbaycanda dövlət idarəçiliyi üçün keyfiyyətcə yeni mərhələ başlanmışdı və prezidentin atdığı addımlara cəmiyyətin geniş dəstək verməsi bunu sübut edirdi. Bu, daha təkmil və cəmiyyətin gözləntilərinə daha çox cavab verəcək dövlət idarəçiliyi naminə həyata keçirilən «məxməri» dəyişikliklərin Azərbaycan variantı idi.

ON BEŞİNCİ FƏSİL

PREZİDENT İLHAM ƏLİYEV PARLAMENT SEÇKİLƏRİNİ BÖYÜK ZƏFƏRLƏ BAŞA VURDU

«O insan ki, dözər dərdə, baş əyməz mərdə, namərdə,
Onu diz çökdürə bilməz tutan dörd əllə dünyanı».
Xaqani

«Narıncı» qüvvələrin 17 oktyabr iflası, hakimiyyət daxilindən bu qüvvələrə uzanan gizli maliyyə kanallarının kəsilməsi, xəyanətkar və rüşvətxor məmurların ifşası və ən əsası, dövlət başçısının bu proseslərdə göstərdiyi siyasi iradə və qətiyyət cəmiyyətdə böyük təqdirlə qarşılanmaqla yanaşı, seçki yarışının taleyini də xeyli dərəcədə həll etmişdi. Üstəlik 17 oktyabr olayları, sadəcə, xalqın mütləq əksəriyyətinin radikal müxalifətə etimadsızlığını nümayiş etdirmədi. Bu hadisələr həm də «Azadlıq» blokundakı birliyin görüntü olduğunu ortaya qoymuşdu. ADP sədrini qarşılamaq üçün əllərindən gələni edəcəklərini deyən Müsavat və AXCP həlledici anda bu vədə əməl etmədilər. Əslində hər iki partiya məhz onda maraqlı idi ki, bu hadisələrdə eks-spikerin və onun partiyasının sosial bazasının nə qədər məhdud və kasad olduğu hər kəsə əyan olsun. Digər tərəfdən, 17 oktyabrdan sonra cərəyan edən olaylar, R.Quliyevin təlimatı ilə «inqilaba» (hakimiyyət dəyişikliyinə) hazırlaşan iqtidardaxili qüvvələrin ifşası göstərdi ki, eks-spiker də «inqilabın» baş tutacağı təqdirdə onun nəticələrini «Azadlıq» blokundakı həmkarlarından çox hakimiyyət daxilindəki gizli müttəfiqləri ilə bölüşmək niyyətindəymiş.

Odur ki, 17 oktyabr sonrasında «Azadlıq» blokunun təsisçiləri arasında onsuz da mövcud olan, lakin müvəqqəti retuşlanmış çatların tədricən üzə çıxması labüd idi və bu müttəfiqliyin, sadəcə, seçkiqabağı dövr üçün quraşdırılmış siyasi dekorasiya olduğunu tezliklə hər kəs görəcəkdi. Bu baxımdan Rəsul Quliyevin «qayıdış» avantürası onun özü üçün növbəti

şəxsi biabırçılıq idisə, bütövlükdə «Azadlıq» blokunun siyasi iddiaları üçün 6 noyabr ərəfəsində ağır və dəf ediləsi mümkün olmayan siyasi şlaqbaum oldu. Faktiki olaraq «narıncı» müxalifət üçün seçki yarışı vaxtından əvvəl və uğursuz başa çatmışdı. Ondan sonrakı dövrdə radikallar ancaq «ətalət qanunu»na uyğun olaraq seçkinin finişinə doğru hərəkət edə yə nisbi nəticələrə ümid bəsləyə bilərdilər. Bu gedişat təkcə Azərbaycan cəmiyyətinə aşkar deyildi. Azərbaycanda cərəyan edən prosesləri maraqla izləyən bir sıra xarici jurnalistlər də artıq seçkinin və iqtidar-müxalifət mübarizəsinin birincinin xeyrinə həll olunduğunu başa düşürdülər. Bu, həmin günlər xarici mətbuatın Azərbaycanla bağlı xəbərlərindən də aydın görünürdü. Onlardan biri, Fransanın «Le Fiqaro» qəzeti «Əliyev Bakıda təmizləmə aparır» adlı məqalədə Azərbaycan prezidentinin 17 oktyabr sonrası atdığı addımların ölkədə sabitliyi daha da möhkəmləndirdiyini, «növbəti məğlubiyyətdən özünü itirmiş müxalifətin çox aciz durumda olduğu» vurğulanırdı (173).

Təsadüfi deyil ki, məhz bu olaylardan sonra seçki kampaniyası da nisbətən sakit məcraya qayıtdı. «Azadlıq» blokunun oktyabrın 23-də paytaxtın mərkəzində 200-300 nəfərlə növbəti icazəsiz aksiya keçirmək cəhdi də iflasa uğrayandan sonra «narıncı» koalisiya artıq Bakıda mübarizəni uduzduğunu göz önünə alaraq təşviqat kampaniyasının son iki həftəsini bölgələrdə seçicilərlə görüşlərə sərf etdi. Radikal qüvvələrin «erkən inqilab» arzusu daşa dəyəndən sonra siyasi mübarizəni qanuni müstəvidə aparmaq qərarına gəlməsi ölkə başçısı tərəfindən də təqdir olunmuşdu. «Azərbaycanda qanun hamı üçün eynidir. Bütün qanunsuz hərəkətlərin qarşısı çox ciddi şəkildə alınıbdır və gələcəkdə də alınacaqdır. Kim sərbəst toplaşmaq istəyirsə, mitinq keçirmək istəyirsə, buyursun, getsin müəyyən yerlərdə, meydanlarda o mitinqləri keçirsin. Hesab edirəm ki, artıq müxalifət də bunu başa düşübdür. Bu gün mənə

dedilər ki, onlar növbəti qanunsuz mitinqə getməyəcəklər. Hesab edirəm, müsbət haldır ki, müxalifət də təkamül yolu ilə inkişaf edir. Artıq başa düşüb ki, bizimlə bu dildə danışmaq olmaz. Biz heç bir qanunsuz hərəkətə yol verməyəcəyik», - deyə prezident seçkilərə son hazırlıq işlərinə həsr olunmuş müşavirədə bildirmişdi (174).

Yeri gəlmişkən, ölkə başçısının sədrliyi ilə oktyabrın 25-də keçirilmiş həmin müşavirə parlament seçkilərinin şəffaflığının təminatı baxımdan daha bir neçə əlamətdar qərarın qəbul edilməsi ilə yekunlaşdı. Prezident seçki praktikasının təkmilləşdirilməsi sahəsində tədbirlərin səmərəliliyini artırmaq və «vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədi ilə» daha bir mühüm sənəd - «Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında» sərəncam imzaladı. Sənəddə beynəlxalq dairələrin seçkilərlə bağlı daha iki tövsiyəsi - səsvermə günü seçicilərin barmaqlarının gözə görünməyən mürəkkəblə işarələnməsi və maliyyələşmə mənbəyindən asılı olmayaraq bütün qeyri-hökumət təşkilatlarına (QHT) seçkiləri müşahidə hüququnun verilməsi məsələsini müsbət həllini tapdı. Qeyd edək ki, həmin vaxtadək «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» qanun nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan QHT-lərə seçkiləri müşahidə etməyi qadağan edirdi və Milli Məclis prezidentin tövsiyəsi ilə bu qadağanı aradan qaldırdı. Bundan əlavə, prezidentin sərəncamında DİN-ə şəxsiyyəti təsdiq edən sənədi olmayan vətəndaşlara seçki günündək şəxsiyyət vəsiqələrinin verilməsini təmin etmək, yerli icra hakimiyyəti orqanlarına isə qanunvericiliyə uyğun olaraq partiya və bloklara, deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə kütləvi tədbirlər keçirilməsi üçün bütün zəruri şəraiti təmin etmək tapşırıldı. Sərəncama əsasən, Respublika Prokurorluğu səsvermə günü baş verəcək qanun pozuntuları ilə əlaqədar seçki

komissiyalarından daxil olan məlumatları təcili araşdırmalı və cinayət əməlləri törətməkdə təqsirli bilinən şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etməli idi.

25 oktyabr 2005-ci il tarixli sərəncam mayın 11-də imzalanmış ilk sərəncamla birlikdə dövlət başçısının seçkiləri azad və şəffaf şəkildə keçirmək əzminin bariz təsdiqi idi. Seçici vəsiqələrinin tətbiqinə əlavə olaraq seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi barədə qərarın qəbul olunması «seçici siyahılarının saxtalaşdırılması», seçkilərdə «karusel»in tətbiqi, «ikili seçici vəsiqələri» barədə söz-söhbətlərə son qoymalı idi. Düzdür, bu tədbirlərə əvvəlcədən qərəzlə yanaşan və seçkidə yalnız qalib gələcəkləri təqdirdə onun nəticələrini tanıyacaqlarını iddia edən qüvvələrin yeni addımları da obyektiv qiymətləndirəcəyi ağlabatan deyildi. Bununla belə, prezident bu məsələdə öz siyasi iradəsini nümayiş etdirmişdi: «Biz gərək hər bir məsələyə operativ reaksiya verək və onun həlli üçün yollar axtaraq. Fikirləşməliyik ki, seçkilərin ədalətli keçirilməsi üçün əlavə nə edilməlidir. Onsuz da biz bilirik ki, Azərbaycanın siyasi spektrinin bir hissəsi seçkilərin nəticələrini tanımaq fikrində deyildir. Biz bunu müşahidə edirik ki, istənilən halda daim seçkiləri uduzan qüvvələr bu dəfə də yəqin seçkilərin nəticələrini tanımayacaqlar və müxtəlif bəhanələrlə bizi ittiham etməyə çalışacaqlar. Yəni, bir sözlə, biz hər şeyi etməliyik ki, heç kim zərrə qədər şübhə etməsin ki, bu seçkilər ədalətli və şəffaf keçiriləcək və Azərbaycan dövlətinin, prezidentin niyyəti məhz bundan ibarətdir».

Dövlət başçısı həmçinin bir daha yerli icra hakimiyyəti başçılarına xəbərdarlıq edərək seçkilərə qanunsuz müdaxilələr edən hər kəsin ciddi şəkildə cəzalandırılacağını nəzərə çatdırmışdı. Seçkidən sonra prezidentin bəzi rayonların İH başçılarını işdən azad etməsi bu xəbərdarlığın elə-belə edilmədiyini göstərdi: «Bəzi hallarda yerli icra hakimiyyəti orqanları tərəfindən seçkilərə müdaxilələr olur. Məlumatlar var

ki, bəzi icra hakimiyyəti başçıları namizədlərlə birlikdə gedib tədbirlərdə iştirak edirlər. Bunlar yolverilməz hallardır. Mən bütün icra hakimiyyəti başçılarına xəbərdarlıq edirəm, bunları yığışdırın. Bəzi hallarda yerli icra hakimiyyəti başçıları istəyirlər ki, özlərinə yaxın adamlara kömək etsinlər ki, öz rayonlarından seçilən deputatlar onlara yaxın olsunlar, onların sözü ilə oturub-dursunlar və onların işinə qarışmasınlar. Amma bir daha deyirəm, heç kimə icazə verməyəcəyəm ki, seçkidə öz adamlarını keçirsin, hansısa səbəblərə görə burada bizim işimizi pozsun. Kim bunu edəcəksə, ciddi şəkildə cəzalandırılacaqdır. Hansısa namizədə görə nə üçün biz özümüzü pis vəziyyətə salmalıyıq? Nə üçün? Ona görə bu məsələyə ciddi yanaşın. İndi hərə öz payını götürsün» (175).

Təsadüfi deyil ki, prezidentin atdığı addımlar beynəlxalq dairələrdə də müsbət reaksiya doğurmuşdu. ABŞ Dövlət Departamenti oktyabrın 26-da yaydığı bəyanatla prezidentin son sərəncamını alqışladığını bildirdi. Rəsmi Vaşinqton həmçinin nəzərə çatdırmışdı ki, Azərbaycandakı seçkiləri yaxından izləməkdə davam edərək bu prosesin ölkədə demokratikləşməyə mühüm töhfə olacağını gözləməkdədir. Eyni fikri həmin günlər Bakıda səfərdə olan ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Daniel Frid də vurğulamışdı. Qeyd edək ki, Amerika xarici siyasət idarəsinin yüksək vəzifəli rəsmisi Bakıya 17 oktyabr olaylarından dərhal sonra gəlmişdi və bu fakt özlüyündə Vaşinqtonun Azərbaycanda cərəyan edən prosesləri yaxından izlədiyini göstərirdi. Bu baxımdan onun səfərin yekunlarına dair keçirdiyi mətbuat konfransında Azərbaycan rəhbərinin həyata keçirdiyi islahatlar kursunu təqdir edərək, bu prosesin Amerikada da diqqətlə izlənildiyini qeyd etməsi əlamətdar idi. Frid xüsusi olaraq qeyd etmişdi ki, jurnalistlər onu tez-tez MDB ölkələrindəki «rəngli» inqilabların müəllifi adlandırsalar da, «o, Azərbaycanda demokratiyaya keçid

prosesinin islahatlar vasitəsilə getməsinin tərəfdarıdır, çünki inqilablar uğursuzluqlar nəticəsində baş verir» (176).

Oktyabrın 26-da ABŞ-ın vitse-prezident Dik Çeyninin prezident İlham Əliyevə telefon zəngi də rəsmi Vaşinqtonun Azərbaycandakı seçkiöncəsi proseslərə məxsusi diqqətinin təsdiqi idi. Həmin telefon söhbəti barədə Dik Çeyninin mətbuat xidmətinin yaydığı məlumatda vurğulanırdı ki, ABŞ vitse-prezidenti Azərbaycan rəhbərinin parlament seçkilərinin azad və ədalətli şəkildə keçirilməsi istiqamətində addımlarını təqdir edərək «prezident Əliyevin davamlı liderliyi altında daha möhkəm ABŞ-Azərbaycan strateji münasibətlərinə ümidini ifadə etmişdir» (177).

Əslində, öncəki fəsillərdə də qeyd etdiyimiz kimi, Qərb dairələri, özəlliklə də ABŞ Azərbaycandakı parlament seçkilərini geniş mənada postsovet məkanında demokratikləşmə prosesinin keyfiyyətcə yeni bir mərhələsinin başlanması üçün əlamətdar şans kimi nəzərdən keçirirdi. Söhbət digər ölkələrdə meydana gəlmiş «məxməri» inqilablardan fərqli olaraq, bu prosesin siyasi sarsıntılar olmadan, tədrici islahatlar və təkamül şəraitdə həyata keçirilməsindən gedirdi. Özəlliklə 2005-ci ilin yayından başlayaraq Ukraynadakı «narıncı» hakimiyyət daxilində meydana gələn ixtilaf və böhran, eləcə də Qırğızıstanda «məxməri» ssenaridən xeyli kənara çıxmış inqilabdan sonra sabitliyin təmin olunmaması Qərb dairələrində, o cümlədən Amerikada «demokratiya eksportu»nda inqilabi metodologiyanın səmərəsi barədə ciddi şübhələr yaratmışdı. Odur ki, Qərbdə demokratikləşmənin artıq inqilablar yolu ilə deyil, mövcud hakimiyyəti köklü siyasi islahatlara təşviq etməklə həyata keçirməyin daha optimal olduğu qənaəti möhkəmlənməkdə idi.

Bu baxımdan Azərbaycandakı seçkilər həmin qənaətin daha da əsaslandırılması üçün mühüm bir presedent kimi nəzərdən keçirilirdi. Ona görə də xüsusilə Birləşmiş Ştatlar seçki

kampaniyası boyunca ən müxtəlif səviyyələrdə nəzərə çatdırmışdı ki, Azərbaycanda hər hansı inqilab və hakimiyyət dəyişikliyi marağında deyil və rəsmi Bakı ilə demokratiya və islahatlarla bağlı dialoq və əməkdaşlığı davam etdirmək əzmindədir. Bu məqam bilavasitə seçkilər öncəsi Vaşinqton dairələrində səslənən mesaj və mülahizələrdə də özünü göstərirdi. ABŞ-ın nüfuzlu «Heritace» Fondunun «Azərbaycandakı parlament seçkiləri və Birləşmiş Ştatların Xəzərdəki maraqları» mövzusunda keçirdiyi müzakirələrdə qurumun Rusiya və Avrasiya üzrə eksperti Ariel Kohen vurğulamışdı: «Prezident İlham Əliyevin 11 may və 25 oktyabr tarixli sərəncamları göstərir ki, bölgədəki digər dövlət başçılarından fərqli olaraq, o, Amerikadakı dostların məsləhətlərini eşidir, habelə müasir lider kimi bilir ki, demokratik seçkilərdən bəhrələnən ən əvvəl Azərbaycan dövləti və xalqı olacaqdır» (178).

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə keçmiş müşaviri xanım Elizabet Cons «Washington Times» qəzetində dərc olunan məqaləsində parlament seçkilərinin demokratikliyi üçün prezident İlham Əliyevin göstərdiyi səylərin Qərb liderləri və ABŞ rəsmiləri tərəfindən alqışlandığını qeyd edirdi. Məqalədə o da diqqətə çatdırılırdı ki, «Azərbaycan müxalifəti bilərəkdən, icazə verilən yerlərdə nümayişlər keçirmək əvəzinə, Bakının mərkəzində qanunsuz yürüşlər vasitəsilə polisi cavab hərəkətlərinə təhrik etmişdir». Bununla yanaşı, müəllif Azərbaycan rəhbərini «onu gözdən salmaqda maraqlı olanların tələsinə düşməməyə» çağırırdı: «İlk daşı kimin atmasından asılı olmayaraq, bütün dünya polis qüvvələrinin nümayişçilərlə əlbəyaxa olduğunu görüb heç nəyin dəyişmədiyini düşünəcəkdir» (179).

Azərbaycan prezidentinin 6 noyabr seçkiləri ilə bağlı atdığı addımlar Avropa Şurası tərəfindən də müsbət qarşılanmışdı. AŞ-nin baş katibi Terri Devis prezidentin 2005-ci il 25 oktyabr tarixli sərəncamı ilə bağlı açıqlamasında bu addımın seçkiləri

daha yaxşı müşahidə etməyə, seçkilərdə dövlət orqanlarının bitərəf mövqe tutacağına və saxtakarlıq cəhdlərinin qarşısını alacağına imkan yaratdığını vurğulamışdı. Hətta AŞPA-nın Azərbaycan üzrə həmməruzəçisi, hakimiyyətə qərəzli münasibəti və müxalifətə himayədarlığı ilə ad çıxaran Andreas Qross da BBC-yə müsahibəsində vurğulamışdı ki, 25 oktyabr sərəncamı Azərbaycan rəhbərliyinin «məqbul və ədalətli seçkilər keçirmək istəyi və iradəsi olduğunu göstərir». Nəhayət, postsovet məkanındakı «məxməri» inqilabların əsas qəhrəmanları - Ukrayna və Gürcüstan prezidentləri bilavasitə seçki günü ərəfəsində (4-5 noyabr) prezident İlham Əliyevə zəng edərək onun seçkilərin şəffaflığı və demokratikliyinin təmin olunması istiqamətində addımlarını təqdir etdiklərini nəzərə çatdırmışdılar.

Bu arada «narıncı» koalisiya seçki marafonunun finişinə faktiki demoralizə olunmuş vəziyyətdə gəlib çıxmışdı. Bölgələrdə aradığı geniş dəstəyi tapa bilməyən «Azadlıq» bloku Bakıda noyabrın 4-nə planlaşdırdıqları yekun təşviqat mitinq-konsertindən vaz keçmişdi. Əvəzində Yeni Azərbaycan Partiyası bütün ölkə üzrə uğurla keçmiş təşviqat kampaniyasının son akkordu olaraq «20 Yanvar» metrosu - «Qələbə» meydanı marşrutu üzrə icazəli yürüş-mitinq keçirmişdi. Kütləvi aksiyalara «narıncı»ya bürünərək çıxan müxalifətdən fərqli olaraq hakim partiya izdihamlı yürüş-mitinqə möhtəşəm (təxminən 1 km uzunluğunda) üçrəngli dövlət bayrağımızla çıxmışdı.

Beləliklə, 4 ay sürən seçki marafonu 6 noyabr finişinə çatdı. Təşviqat kampaniyası dövründə 2063 nəfər deputatlığa namizəddən təxminən dörddə biri seçki yarışını tərk etmiş, 125 dairə üzrə seçki bülletenlərinə ümumilikdə 1541 namizədin adı salınmışdı. Bu seçkilərə qoşulmuş şəxslərin (2237 nəfər) təxminən 70 faizini təşkil edirdi. 50-yə yaxın namizəd dairə seçki komissiyalarının müraciəti əsasında Apellyasiya Məhkəməsi tərəfindən seçkidən kənarlaşdırılmışdı. Onların bir qismində qarşı

təbliğat dövründə qanunvericiliyi pozması (seçiciləri maddi təşviqlə ələ alma və s.) ilə bağlı ittihamlar irəli sürülmüşdü.

MSK-nın məlumatına görə, ölkə üzrə 5137 seçki məntəqəsi yaradılmış və həmin məntəqələr üzrə 4 milyon 660 min seçici qeydə alınmışdı. İlk dəfə olaraq 122 saylı Xankəndi seçki dairəsi üzrə də seçkilər keçirilirdi. Səsvermənin gedişi MSK-nın «Seçkilər» İnformasiya Mərkəzi tərəfindən «on-layn» rejimində (ilk dəfə bu sistem 2000-ci il 5 noyabr seçkilərində tətbiq edilmişdi) internetdə, həmçinin televiziya kanalları vasitəsilə yayınlanırdı və hər kəs prosesi izləyə bilərdi. Səhər saat 8-də başlanan səsvermə saat 19-da başa çatdı və səsvermədə ölkə üzrə seçicilərin 46,83 faizinin (2 milyon 184 min nəfər) iştirak etdiyi elan olundu.

Artıq səsvermənin başa çatmasından bir neçə saat sonra MSK-nın «Seçkilər» İnformasiya Mərkəzi ilkin (qeyri-rəsmi) nəticələri elan etməyə başladı. Bu yerdə xatırlatmaq yerinə düşər ki, 2003-cü ildə qonşu Gürcüstanda «məxməri» inqilaba yol açan parlament seçkilərinin ilkin nəticələri bir neçə gün sonra elan edilmişdi. Rəsmi olmayan nəticələrə görə, 125 yerlik parlamentdə deputat mandatlarının təxminən yarısını YAP təmsilçilərinin, üçdə birini bitərəf namizədlərin əldə edəcəyini demək mümkün idi. Müxalifət düşərgəsindən olan namizədlərin 15-16, o cümlədən «narıncı» koalisiyanın 7-8 yerə şansı olduğu görünürdü. Səsvermə bitəndən bir neçə saat sonra elan edilən «exit-poll» nəticələri də bu mənzərəni ümumən təsdiqlədi.

Qeyd edək ki, səsvermə günü ABŞ hökumətinin (USAİD) tərəfdaşı olan «PA Government Services» şirkətindən əlavə, ABŞ-ın «Mitofsky International» və «Edison Media Research» şirkətləri də «exit-poll» keçirmişdi. Həmin «exit-poll» nəticələri 85-90 faiz MSK-nın göstəricilərinə uyğun idi. Müxalifət isə əvvəldən yalnız ABŞ hökumətinin tərəfdaşı kimi «PA Government Services» şirkətinin təşkil etdiyi «exit-poll» nəticələrinə etibar edəcəyini bildirmişdi. Lakin bu nəticələr də

müxalifət üçün ürəkaçan olmadı. Şirkətin «exit-poll» keçirdiyi 65 dairədən 57-də nəticələr MSK-nın ilkin nəticələrinə müvafiq idi, yəni bu dairələrdən eyni namizədlər qalib çıxmışdı. Həmin gün «exit-poll» keçirmiş daha iki qurumun - Estoniyanın «Saar-poll» şirkətinin və yerli «Proqnoz» sosioloji xidmətinin nəticələri də ümumilikdə MSK-nın göstəriciləri ilə üst-üstə düşürdü.

Bütün hallarda nəticələrdən narazı qalan müxalifət təmsilçiləri «PA Government Services» şirkətinin «exit-poll» göstəricilərinə etimadsızlıq göstərərək yerlərdə bu şirkət üçün sorğu keçirənlərin çoxunun guya hakim partiyaya yaxın şəxslər olduğunu bəyan etdilər.

Lakin ABŞ şirkəti bu ittihamları dərhal rədd etdi. Bununla bağlı USAİD-in yaydığı məlumatda deyilirdi: «Sorğu keçirənlərə heç kim tərəfindən təzyiq göstərilməmişdir. Biz siyasi yönümündən asılı olmayaraq, heç bir tərəfin arzuolunmaz təsirinə yol verməmək üçün «exit-poll» prosesinə hərtərəfli nəzarət sistemini təmin etmişdik. Seçkilər zamanı «exit-poll»a kənar müdaxilələr barədə əlimizdə heç bir dəlil-sübut yoxdur. Biz «exit-poll»u tələb olunan dəqiqliklə yanaşı, dörd əsas prinsipə - siyasi neytrallığa, şəffaflığa, sorğuya cəlb olunanların anonimliyinə və peşəkarlığa uyğun surətdə həyata keçirmişik. Biz seçkilər zamanı görülən işləri təsdiqlədiyimizi və dəstəklədiyimizi qürur hissi ilə bəyan edirik» (180).

Beləliklə, bütün dünyanın çox böyük maraqla izlədiyi parlament seçkiləri demokratiyanın azad və ədalətli seçki standartlarına uyğun olaraq keçirildi və Prezident İlham Əliyevin parlaq qələbəsi ilə başa çatdı.

ON ALTINCI FƏSİL

«NARINCI » KOMEDİYANIN SONU

«Yalan min oyundan çıxsa da
heç vaxt həqiqətə çevrilə bilməz».
R.Taqor

«Yalan söyləmək yalan söylədiyin adamın üstünlüyünü
qəbul etmək deməkdir».
S.Batler

«Narıncı» müxalifətin seçkilərin nəticələrini istənilən halda şübhə altına alacağı əvvəlcədən gözlənildiyi üçün əslində bu davranışda təəccüb doğuracaq bir şey yox idi. «Azadlıq» bloku təmsilçiləri hələ səsvermə başa çatmamış bu yöndə bəyanatlar verməyə başlamışdılar. Səsvermədən dərhal sonra isə blok liderləri mətbuat konfransı keçirərək seçkinin nəticələrini tanımayacaqlarını və yeni seçkilər tələb etdiklərini bildirdilər. Onların sözlərinə görə, 125 dairədən 100-dən çoxunda (yəqin qalan dairələrdə müxalifət təmsilçilərinin qalib gəldiyinə ümid edərək onlara hələ «toxunmurdular») seçkilər saxtalaşdırılıb. Halbuki bu vaxt nə seçkilərin qeyri-rəsmi nəticələri, nə də «exit-poll» nəticələri elan olunmuşdu. «Narıncı» liderlər noyabrın 7-dən etibarən seçkilərin nəticələrinin ləğvi və yeni seçkilər uğrunda mübarizəyə başlayacaqlarını, yəni «inqilab» ssenarisinə start verdiklərini bəyan etmişdilər.

Təsadüfi deyil ki, noyabrın 7-də Müsavat, AXCP və ADP-nin nəzarətində olan qəzetlərin hamısı «İnqilab başlanır», «Narıncı inqilaba start verilir» kimi manşetlərlə çıxmışdı. Həmin yazılara ötəri baxmaqla onların bir neçə gün öncədən hazırlanaraq kompüterin yaddaşında qəzetlərin 7 noyabr nömrəsi üçün saxlanıldığını yəqin etmək çətin deyildi.

«Narıncılar»ın inqilabla bağlı əsas ümidləri isə yenə okeanın o tayına bağlanmışdı: «Amerika müxalif qüvvələrin yanında olacaq. Sözsüz ki, mövcud şəraitdə bunun əksini düşünmək yanlış olar...Bu baxımdan, güman olunmur ki, Birləşmiş Ştatlar regionda başladığı işi Azərbaycana çatanda yarımçıq qoyub geri çəkiləcək. Əksinə, hesab edirik ki, MSK tərəfindən rəsmi nəticələr elan olunandan dərhal sonra ABŞ-ın Azərbaycandakı seçkilərlə bağlı daha ciddi addımlarının şahidi olacağıq. Azərbaycanda baş verən siyasi proseslər iki il öncəki Gürcüstanı xatırladır. Orada yalnız rəsmi nəticələr açıqlandıqdan sonra Amerika açıq mövqe nümayiş etdirərək müxalifətə dəstək verdi. Tezliklə Azərbaycanla bağlı da eyni siyasətin yürüdüləcəyi ehtimalı böyükdür» (181).

Noyabrın 7-də narıncı qalstuklarını taxaraq çoxsaylı yerli və xarici jurnalistlər ordusu qarşısına çıxan «Azadlıq» bloku liderləri də eyni «ehtimal» əhvalında idilər. Xarici telekanalların kameraları qarşısında inamlı və qətiyyətli görünməyə çalışan Müsavat, AXCP və ADP rəhbərləri ingilis dilinə tərcümə edilən çıxışlarında beynəlxalq ictimaiyyətə «məxməri» inqilabla yekunlaşacaq «dinc və konstitusion mübarizəyə» başladıqlarının mesajını verdilər. İlk etiraz mitinqini noyabrın 9-na təyin edən «narıncılar» bu arada hakimiyyətə də «vəziyyəti düzəltmək» üçün vaxt verdiklərini bəyan etdilər.

Müxalifətin beynəlxalq dəstəyə yönəlik iddialarının nə dərəcədə əsaslı olub-olmadığını isə, təbii ki, xarici müşahidəçilərin seçkilərlə bağlı rəyi nümayiş etdirməli idi. Qeyd edək ki, MSK-nın məlumatına görə, 6 noyabr seçkiləri ilə bağlı 45 ölkədən 1586 nəfər xarici müşahidəçi akkreditə olmuşdu. Bu, 2000-ci ilin parlament seçkiləri ilə müqayisədə üç dəfə çox idi. Bundan əlavə, seçkiləri 300-dən çox əcnəbi jurnalist izləmişdi. ATƏT, Avropa Şurası, NATO Parlament Assambleyası və Avropa Parlamentini təmsil edən müşahidəçilərin birləşdiyi

Beynəlxalq Müşahidəçilər Missiyasına 660-a yaxın nümayəndə daxil idi. Məhz bu missiyanın qənaəti xüsusi maraqla gözlənilirdi.

Beynəlxalq Müşahidəçilər Missiyası noyabrın 7-də açıqladığı ilkin rəyində 6 noyabr seçkilərinin bir sıra cəhətləri ilə öncəki seçkilərdən müsbət şəkildə fərqləndiyini, özəlliklə seçkiqabağı mərhələnin demokratikliyi ilə seçildiyini bildirməklə yanaşı, səsvermə zamanı və səslərin hesablanmasında bir sıra pozuntulara yol verildiyini bəyan etdi. Missiya prezident İlham Əliyevin 2005-ci il 11 may və 25 oktyabr tarixli sərəncamlarını seçki prosesinin təkmilləşdirilməsi üçün siyasi iradənin ifadəsi olduğunu vurğulamışdı. Müsbət məqamlar kimi namizədlərə pulsuz efir vaxtının verilməsi, debatların təşkili, namizədlərin seçiciləri ilə görüşlərinə imkan yaradılması, seçicilərin barmaqlarının görünməyən mürəkkəblə işarələnməsi, seçkilərin müşahidəsi üçün geniş şərait yaradılması, bütün QHT-lərə seçkiləri müşahidə hüququnun verilməsi və digər faktlar qeyd olunmuşdu. Mənfi məqamlar sırasında yerli icra orqanlarının seçki prosesinə müdaxiləsi, bəzi hallarda müxalifətin mitinqlər keçirməsinə məhdudiyyətlər qoyulması, seçici siyahılarının hazırlanmasında, şikayətlərə baxılmasında qanunun tələblərinə lazımınca əməl edilməməsi, səslərin sayılmasında və protokolların hazırlanmasında pozuntulara yol verilməsi nəzərə çatdırılırdı. Missiyanın rəyinə görə, ölkə üzrə seçki məntəqələrinin 87 faizində seçki ümumən normal keçib və xırda pozuntularla müşayiət olunmuş, 13 faizdə isə proses mənfi qiymətləndirilmişdi.

Missiyanın rəhbəri, ATƏT PA-nın sədri Elsi Hastinqs seçkilərin «Azərbaycanın beynəlxalq təşkilatlar qarşısında üzərinə götürdüyü bir sıra öhdəliklərə cavab vermədiyini» qeyd edərək hakimiyyəti pozuntuların aradan qaldırılması üçün tədbirlər görməyə çağırdı. Bənzər fikri missiyada AŞPA-nın

müşahidəçilər qrupunun rəhbəri Leo Platvoet nəzərə çatdırmış, 6 noyabr seçkilərində öncəki seçkilərə nisbətən müsbət məqamların olduğunu, bununla yanaşı, rəsmi Bakının seçki praktikasının təkmilləşdirilməsi üçün beynəlxalq təşkilatla əməkdaşlığının davam etməsinin vacibliyini vurğulamışdı. ATƏT-in müşahidəçilər qrupunun rəhbəri Gert Arens hakimiyyəti pozuntuları aradan qaldırmaq üçün təsirli tədbirlər görməyə çağıraraq bu addımların missiyanın dekabrda açıqlanacaq yekun hesabatında əksini tapacağını bildirmişdi.

ABŞ Dövlət Departamenti də noyabrın 7-də yaydığı bəyanatında seçkilərin bir sıra cəhətləri ilə öncəki seçkilərdən müsbət mənada fərqləndiyini vurğulayaraq, eyni zamanda, ayrı-ayrı məntəqələrdə baş verən mənfi faktlardan narahatlığını ifadə etmiş və Azərbaycan rəhbərliyinin onların aradan qaldırılması üçün müvafiq addımlar atacağına ümidvar olduğunu bildirmişdi. Dövlət Departamenti Azərbaycan vətəndaşlarını seçki pozuntularına dair şikayətlərini qanun çərçivəsində, dinc yolla həll etməyə, zorakılıqdan çəkinməyə, hökuməti isə sərbəst toplaşmaq azadlığını təmin etməyə çağırmışdı. Başqa sözlə, Vaşinqtonun seçkilərlə bağlı ilkin rəyində nəinki müxalifətin ümid bəslədiyi hansısa dəstək notları əksini tapmamışdı, Dövlət Departamentinin bəyanatında heç «müxalifət» kəlməsi yer almamış və ümumilikdə vətəndaşların seçki hüquqlarından bəhs olunmuşdu.

Bundan əlavə, nümayəndələrin sayına görə ikinci olan (600 nəfər) MDB-nin müşahidəçilər missiyası, həmçinin Türkiyənin, bəzi Avropa ölkələrinin (Baltikyanı respublikalar, Bolqarıstan, Rumıniya və s.) təmsilçiləri seçkilərə müsbət, yaxud ümumən müsbət qiymət vermişdilər. Həmin rəylərdə səsvermə prosesində prosedur xarakterli bir sıra pozuntular olduğu vurğulansa da, həmin nöqsanların kütləvi xarakter daşımadığı, seçkilərin gedişinə və ümumilikdə nəticələrə əhəmiyyətli təsir göstərmədiyi

qeyd olunurdu. Xarici müşahidəçilər MSK-nın ilkin nəticələrinin «exit-poll» nəticələri ilə 85-90 faiz uyğun gəlməsini də təqdir etmişdilər.

Bir sözlə, istər ümumilikdə Beynəlxalq Müşahidəçilər Missiyasının, istərsə də ABŞ-ın və ondan sonra səslənən digər Qərb dairələrinin, beynəlxalq təşkilatların rəylərində, müxalifətin iddialarının əksinə olaraq, seçkilərin ümumi nəticələrini, eləcə də yeni parlamentin legitimliyini şübhə altına alacaq hər hansı müddəa yox idi. Əksinə, bütün rəylərdə 6 noyabr seçkilərində öncəki seçkilərə nisbətən irəliləyişin olduğu vurğulanırdı. Sözsüz ki, bu mənzərə müxalifətçiləri heç cür qane edə bilməzdi və onlar artıq ilkin rəylər açıqlanandan sonra beynəlxalq dairələrdən gileylənməyə başlamışdılar.

Maraqlıdır ki, beynəlxalq dairələrin Azərbaycandakı seçkilərdən ciddi şəkildə narazılıq etməməsi postsovet məkanında növbəti inqilab həvəsində olan bir sıra xarici media təmsilçilərini də razı salmamışdı. «İnqilabı» öz gözləri ilə görmək üçün Bakıya təşrif buyurmuş jurnalistlər intizarla «narıncı» müxalifətin nə edəcəyini gözləməkdə idilər. Onların Amerikadakı bəzi həmkarları isə rəsmi Vaşinqtonu Azərbaycanda «inqilaba» dəstək vermədiyinə görə qınayırdılar. Bu baxımdan noyabrın 7-də ABŞ Dövlət Departamentində keçirilən gündəlik brifinqdə mətbuat katibi Adam Ereli ilə jurnalistlərdən birinin maraqlı polemikası olmuşdu. Jurnalist israrla Dövlət Departamentinin sözçüsünü inandırmağa çalışmışdı ki, o, Azərbaycandakı vəziyyətdən yaxşı xəbərdardır, orada seçkilər kütləvi şəkildə saxtalaşdırılıb və buna görə də ABŞ bu ölkə ilə münasibətləri kəsməlidir. ABŞ diplomatının hövsələsiz jurnalistə ümumi cavabı isə belə olmuşdu: «Mən Sizinlə tam razı deyiləm. Deməliyəm ki, seçki prosesindəki irəliləyişlər göz qabağındadır: seçkilərə iştiraka olduqca çox namizəd buraxılmışdır, mətbuat seçkiləri geniş işıqlandırmaq

imkanına malik idi, əcnəbi müşahidəçilərin səsvermə prosesini izləmək imkanı vardı. Seçkilərdə ayrı-ayrı saxtakarlıq halları olub. Onlar Azərbaycan qanunlarına müvafiq surətdə araşdırılmalı və bu, siyasi proseslərdə dinc iştirak edən adamların şikayətlərini ödəməlidir. Bu mənada seçkilərdən cəmi bir gün keçib və buna görə də hansısa xüsusi tədbirlər barədə diskussiyaya girişmək istəmirəm. Bizim Azərbaycanla müəyyən münasibətlərimiz var. Biz bu münasibətləri inkişaf etdirmək, Azərbaycanla bir çox sahələrdə əməkdaşlıq etmək fikrindəyik» (182).

Azərbaycan rəhbərliyinin seçkidə yer almış pozuntu və nöqsanlarla bağlı addımları isə özünü çox gözlətmədi. Prezident İlham Əliyev artıq noyabrın 7-də MSK-ya və prokurorluq orqanlarına bütün şikayətlərin operativ şəkildə araşdırılması üçün göstəriş verdiyini, müşahidəçilərin və beynəlxalq dairələrin tənqidi qeyd və çağırışlarının da diqqətə alınacağını vurğulamışdı. Dövlət başçısı seçkilərin ümumilikdə xalqın iradəsini əks etdirdiyini, pozuntulara görə isə günahkarların cəzalandırılacağını nəzərə çatdırdı: «Həmişə deyirdim, bu gün də deyirəm, əsas məsələ ondadır ki, Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapsın. Seçkilərin ilkin nəticələri bunu deməyə əsas verir. Mənim üçün çox sevindirici hal o oldu ki, Yeni Azərbaycan Partiyasının nümayəndələri seçkilərdə çox uğurlu iştirak etmişlər. Bütün beynəlxalq rəy sorğuları da onu göstərirdi ki, iqtidarı dəstəkləyən nümayəndələr daha şanslıdırlar. Seçkilərin nəticəsi bu fikri əyani şəkildə təsdiqlədi. Eyni zamanda, digər siyasi spektrin nümayəndələri, o cümlədən bitərəf namizədlər seçkilərdə gözəl nəticələr göstərmişlər.

Ancaq bununla yanaşı, seçki günü müəyyən qanun pozuntuları da oldu. Prokurorluğa müvafiq göstəriş verilmişdir ki, qanun pozuntuları ciddi şəkildə araşdırılsın. Harada ki, vəzifədən sui-istifadə halları olubdur, orada insanlar inzibati

məsuliyyətə cəlb ediləcəklər. Harada ki, cinayət xarakterli hallar olubdur, orada təbii ki, bunu törətmiş insanlar cinayət məsuliyyətinə cəlb olunacaqlar. Bir neçə ay ərzində biz seçkilərin normal keçirilməsi üçün əlimizdən gələni etdik və mən imkan verə bilmərəm ki, hansısa məmur özbaşınalığına görə, hansısa qanunsuz müdaxiləyə görə, seçkilərin ümumi nəticələrinə zərbə dəysin.

Digər tərəfdən, əlbəttə, seçki praktikasının təkmilləşdirilməsi bir sərəncamla, yaxud da ki, bir seçki kampaniyası ilə həll olunan məsələ deyil. Buna müəyyən vaxt lazımdır. Beynəlxalq müşahidəçilər missiyası da öz ilkin rəyini artıq təqdim edib. İlkin hesabatda əks olunan məqamlar ciddi təhlil ediləcək və ölçülər götürüləcəkdir. Onların rəyi bizim üçün vacibdir. Ümid edirik ki, bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir. Biz bundan sonra da demokratikləşmə prosesinə böyük diqqət göstərəcəyik. Mən dəfələrlə qeyd etmişdim, bu gün də demək istəyirəm ki, bizim iqtisadi nailiyyətlərimiz, gələcək perspektivlərimiz bilavasitə Azərbaycanda demokratiyanın inkişafı ilə bağlıdır» (183).

Seçki pozuntuları ilə bağlı konkret qərarlar da gecikmədi. MSK 9 saylı Binəqədi ikinci, 38 saylı Hizami ikinci (Gəncə), 42 saylı Sumqayıt ikinci və 110 saylı Zaqatala dairələrində seçkilərin nəticələrini ləğv etdi. Bütövlükdə MSK-ya seçkilərin yekun protokolu təsdiqlənədək 500-dən çox şikayət daxil olmuş, nəticədə 80-ə yaxın seçki dairəsinin 460 məntəqəsində (ölkə üzrə bütün məntəqələrin 9 faizi) nəticələri ləğv edilmişdi. Eyni zamanda, MSK bir sıra şikayətləri araşdırılmaq üçün prokurorluq orqanlarına təqdim etmişdi. Araşdırmaların yekunu olaraq seçkidəki pozuntularla bağlı 11 cinayət işi, o cümlədən seçiciləri ələ almaq məqsədilə qanunazidd hərəkətlərə yol verdiklərinə görə 7 namizəd və seçki sənədlərini saxtalaşdırdıqlarına görə 4 DSK-nın sədri və üzvləri barəsində

cinayət işi açılmışdı. Bundan əlavə, prezident «2005-ci il 11 may və 2005-ci il 25 oktyabr tarixli sərəncamların yerinə yetirilməməsinə və seçkilər zamanı səslərin hesablanması prosesinə müdaxilə etdiyinə görə» üç rayonun (Sabirabad, Suraxanı və Zaqatala) icra başçısını işdən azad etdi.

Bütün bu operativ tədbirlər Azərbaycanda seçkisonrası vəziyyəti diqqətlə izləyən beynəlxalq dairələr tərəfindən müsbət qarşılanmışdı. AŞPA müşahidə missiyasının rəhbəri Platvoet prezidentin addımlarını təqdir edərək bunun AŞPA-nın 2006-cı il yanvar sessiyasında Azərbaycandakı seçkilərlə bağlı müzakirələrdə nəzərə alınacağını bildirmişdi. ABŞ Dövlət Departamenti isə bu addımlardan sonra daha bir bəyanatla çıxış edərək MSK tərəfindən bəzi dairələrdə nəticələrin ləğv edilməsi, qanun pozuntularının prokurorluq tərəfindən araşdırılması və prezidentin bu işlərə ciddi nəzarət etməsini razılıqla vurğulamışdı. ABŞ-dan hələ də «ürəkaçan» xəbərlər gözləməkdə olan müxalifətçilərin bu bəyanatları necə qarşıladığını təsəvvür etmək mümkün idi.

Üstəlik «narıncılar»ın noyabrın 9-da «Qələbə» meydanında keçirdikləri ilk seçkisonrası aksiya arzuolunan etirazçı kütləni toplaya bilməmişdi. Baxmayaraq ki, aksiyaya «Azadlıq» blokundan savayı, «Milli birlik» bloku (Liberal Partiyası) və «Yeni siyasət» blokundan AMİP, eləcə də seçkidə onsuz da mandata ümid etməyən və indi də «massovka» xatirinə ümummüxalifət həmrəyliyi nümayiş etdirən daha bir neçə partiya qoşulmuşdu. Lakin bu çoxbloklu «narıncı» toplanışdan «inqilab» qoxusu gəlmədiyi artıq məyus şəkildə Bakını tərk etməyə başlamış əcnəbi media mənsublarına da, bu mənzərəni laqeydcəsinə seyr edən sıravi paytaxt sakinlərinə də aydın idi. Çünki birincilər də, ikincilər də əyninə narıncıdan bir şey geyib, əlində qırmızı qərənfil (narıncı qərənfil tapa bilməmişdilər) tutaraq qol-qola addımlayan müxalifət liderlərinin «məxməri»

inqilab qəhrəmanlarına zahirən belə oxşamadıqlarını aşkar görürdü. Bu mənzərəni olsa-olsa zövqsüz səhnələşdirilmiş siyasi parodiya hesab etmək olardı. Çünki müxaliflərin büründükləri narıncı rənglə əllərindəki qırmızı qərənfil palitra baxımından bir-birinə nə qədər uyğunsuz idisə, onların siyasi ambisiyaları da Azərbaycan reallığına bir o qədər qeyri-adekvat idi.

Bu arada müxalifət dairələrində Qərbin, o cümlədən Amerikanın niyə, vaxtilə Gürcüstan, yaxud Ukrayna olduğu kimi, onlara da dəstək verməməsi barədə diskussiyaların yeni dalğası baş qaldırmışdı. Müxalifətçi yazarlar bu məsələdə ABŞ səfiri Rino Harnişi tənqid etməyə, Vaşinqtonun yenə nefti demokratiyadan üstün tutduğunu vurğulamağa başlamışdılar. Səfir Harniş bu iddialara cavab olaraq bildirmişdi: «Xeyr, bu doğru deyil. Mən bunu tamamilə təkzib edirəm. Biz lap əvvəldən sabitqədəm olmuşuq. Biz məkanından asılı olmayaraq hər yerdə azad və ədalətli seçkiləri dəstəkləyirik. Bizim Azərbaycanda strateji və iqtisadi maraqlarımız var və biz bunu gizlətmirik. Biz ümid edirik ki, Azərbaycanın nefti onun xalqına xeyir gətirəcək. Biz Azərbaycanın qanuni təhlükəsizlik maraqlarını da nəzərə alırıq və bunu da bildiririk ki, həqiqi sabitliyə yol - islahat və demokratiyadan keçir. Və demokratiya sabitsizlik demək deyildir» (184).

Səfirin cavabındakı sonuncu fikir («demokratiya sabitsizlik demək deyil») əslində geniş mənada elə Qərbin bizim «narıncılara» faktiki münasibətinin ifadəsi idi. Bu qüvvələr vaxtilə qısamüddətli hakimiyyətləri dövründə, sonra isə müxalifətdəki qeyri-konstruktiv, səbatsız fəaliyyətləri ilə sabitsizliklə, dağıdıcılıqla o qədər sıx assosiasiya olunublar ki, bu artıq onların, necə deyərlər, siyasi brendinə çevrilib. Odur ki, amerikalı səfir də dolayısı ilə nəzərə çatdırırdı ki, Qərb və konkret olaraq onun ölkəsi bu baxımdan bizim «narıncılara» faktiki olaraq etibar etmir. Bu qüvvələrin sivil siyasi mübarizə

üsullarına sadiqliyinə şübhə ilə yanaşan təkcə ABŞ səfiri deyildi. Radikal müxalifətin yaxın keçmişdən bəlli olan siyasi keyfiyyətindən Qərb dairələrində yetərincə xəbərdar idilər. ATƏT-in həmin dövrdə fəaliyyətdə olan sədri, Sloveniyanın xarici işlər naziri Dmitri Rupel «Wall Street Journal» (ABŞ) qəzetində Azərbaycandakı seçkilərə həsr olunmuş məqaləsində yazırdı: «Azərbaycanda elə qüvvələr var ki, öz xudbin məqsədlərinə çatmaq üçün ölkədəki sabitliyi zorakılıqla əvəz etməyə hazırdırlar». ATƏT sədri məqalədə nəzərə çatdırırdı ki, Azərbaycan yaxın illərdə neftdən külli miqdarda gəlir əldə edəcək və bunu müxtəlif sahələrin inkişafına yönəltmək olar: «Lakin iqtisadi islahatlar, sabitlik və ümumi təhlükəsizlik olmasa, uzunmüddətli iqtisadi tərəqqi mümkün deyildir». Məqalədə qeyd olunurdu ki, beynəlxalq birlik Azərbaycanda iqtidar-müxalifət münasibətlərində şəffaflığı təmin etməlidir. Müəllif vurğulayırdı ki, prezident İlham Əliyev ölkədə iqtisadi və siyasi liberallaşmanı sürətləndirmək istiqamətində xeyli addımlar atmışdır və «siyasi proseslər daha qanuni əsaslarla getsə, hökumətin mövqeyi daha da möhkəmlənə bilər» (185).

Bir sözlə, 6 noyabr seçkilərinin real nəticələri və ölkəmizdəki mövcud vəziyyəti adekvat qiymətləndirən beynəlxalq dairələr aylardan bəri spekulyasiyaları davam edən «məxməri» inqilabın Azərbaycandan, necə deyərlər, yan keçdiyini, daha doğrusu, bu ölkədə inqilabi proseslərə əvvəldən hansısa real əsas olmadığını etiraf etməkdə idilər. Bu ümumi qənaət seçkisonrası proseslərlə bağlı Qərb mətbuatında dərc olunan çeşidli yazılarda da özünü göstərirdi. Böyük Britaniyanın «The Independent» qəzetinin Bakıya ezam olunmuş əməkdaşı müxalifətin 9 noyabr mitinqi barədə məqaləsində yazırdı: «Müxalifət dünən «məxməri» inqilab həvəsi ilə narıncı rəng tərəfdarlarından bir neçə min nəfəri küçələrə çıxarsa da, bu aksiya onların ümid bəslədiyi lazımi qüvvəyə cevrilmədi. Aksiyada təşkilatçıların ümid etdiyi

30-50 min adam yox idi, iştirakçılarda hakimiyyətə qətiyyətlə müqavimət göstərmək meyli və inqilaba cəhd görünmürdü. Onlar meydanda Ukrayna inqilabçılarının uğuru və hökumətə hansı yolla təzyiq göstərmək barədə danışırdılar. Dünənki qüvvə çox aşağı səviyyədə idi» (186).

Almaniyanın «Handelsblatt» qəzeti 6 noyabr seçkilərinə dair şərhində Azərbaycan rəhbərliyinin saxtakarlıq hallarını araşdırmaq və təqsirkarları cəzalandırmaq istiqamətində iş apardığını qeyd edərək yazırdı ki, Qərb diplomatları müxalifətin etiraz aksiyalarının hər hansı nəticə verəcəyi fikrində deyillər. Qəzet nəzərə çatdırırdı ki, «müxalifət liderlərinin adları azərbaycanlılarda SSRİ-nin süqutu dövrünün hərc-mərclik və iğtişaşları ilə assosiasiya olunur» (187).

Almaniyanın başqa bir qəzeti – «Berliner Zeitung» qəzeti 6 noyabr seçkilərinin nəticələrindən bəhs edərkən qeyd edirdi ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi Azərbaycanı dünyanın neft ixracatçısı olan 20 əsas ölkəsi sırasına daxil edəcək, Azərbaycana sərmayə yatıran neft şirkətləri isə orada sabitliyin olmasında maraqlıdır. Qəzet vurğulayırdı ki, postsovet məkanında baş vermiş «işarə xarakterli inqilabların» Azərbaycanda meydana gəlməsi mümkün görünmür: «Azərbaycanda sistemli dəyişikliklər həyata keçirə biləcək müxalifət lideri yoxdur. Nə qədər ki, hakimiyyət İlham Əliyev kimi şəxsiyyətin əlindədir, heç bir namizədin müvafiq səviyyəyə yüksəlmək şansı yoxdur» (188).

Azərbaycandakı «narıncı» müxalifətin seçkisonrası inqilab illüziyaları barədə ən obrazlı şərh isə İsveçrənin «Le Temps» qəzetində yer almışdı. Qəzet müxalifətin 9 noyabr mitinqinə «cəmi bir neçə min adam çıxara bildiyini» qeyd edərək «artıq Azərbaycanda «narıncı» inqilabın gözlənilmədiyini» nəzərə çatdırırdı. Bakı meriyasının «Qələbə» meydanındakı mitinq üçün ayırdığı vaxt sona çatmamış, «soyuqdan donmuş aksiya

iştirakçılarının» dağılışmağa başladığını bildirən qəzet onları «sevimli komandasının məğlubiyyətindən sonra stadionu tərk edən azarkeşlərə» bənzədirdi: «İnsanlar səssiz-səmirsiz, polisin nəzarəti altında meydanı tərk edirdi... Narıncı bayraqlar isə artıq bükülmüşdü - matəm mərasimində olduğu kimi» (189).

Lakin bu ümumi qənaətlə yanaşı, Azərbaycandakı seçkisonrası vəziyyəti öz arşını ilə ölçüb ortaya hansısa «inqilab» işartıları çıxartmağa çalışan qüvvələr də yox deyildi. Bu tendensiyaya ayrı-ayrı Qərb qəzetlərində də rast gəlmək olurdu, seçkiləri izləmiş bəzi avropalı müşahidəçilərin ifrat subyektiv mülahizələrində də. Təsadüfi deyil ki, ATƏT-in müşahidəçilər missiyasında Rusiya, Baltikyanı ölkələr, eləcə də Bolqarıstan, Rumıniya və s. ölkələrin təmsilçiləri ilə bəzi Qərbi Avropa nümayəndələri arasında bu məsələdə mübahisələr düşmüşdü. Bəzi avropalı müşahidəçilərin Azərbaycana məhz «məxməri» inqilaba «əsas tapmaq» üçün gəlməsi missiyanın digər üzvlərinin etirazını doğurmuşdu. Bu barədə Moskvada «Azərbaycanda parlament seçkilərinin yekunları: «narıncı» inqilablar erasının sonudur?» mövzulu mətbuat konfransında rusiyalı müşahidəçilərdən biri, Rusiya Seçki Hüququ İctimai İnstitutu Şurasının sədri İqor Borisov bildirmişdi: «ATƏT-in missiyası çərçivəsində Rusiyadan yola düşərkən, - biz təxminən yüz nəfər idik, - «məxməri inqilablar» adlı oyunun «final mərhələsini» görmək ümidində idik, çünki bütün yay ərzində və payızın əvvəllərində iqtidar və müxalifət mübarizə aparırdı, mətbuatda böyük hay-küy qaldırılmışdı. Lakin biz Azərbaycana gəldikdə, guya başlanmalı olan «inqilab»ın hətta əlamətini belə görmədik. ATƏT missiyasının hansı tərzdə işləməsi istisna olmaqla, hər şey öz sakit axarında gedirdi. Mən yəqin etdim ki, missiya heç də təmiz oyun oynamır. Göstərişlər açıq-aşkar siyasi xarakter daşıyırdı, nəticələr qabaqcadan çıxarılmışdı. Missiyanın rəyi müşahidəçilərin məruzələrinə əsaslanmırdı. ATƏT yoxlamadan

vətəndaşların hər bir müraciətini və ya telefonla zənglərini pozuntular kimi qeydə alırdı. Halbuki pozuntular barədə telefon zəngləri ilə verilən məlumatları yoxladığımız zaman əksəriyyəti təsdiqini tapmamışdı» (190).

Bununla belə, ayrı-ayrı xarici dairələrin müxalifət qüvvələrinə təsəlli nümayişi də onların «narıncı» illüziyaları üçün real heç nə vəd etmirdi. Çünki bu qüvvələr inqilab üçün başlıca faktor olan xalq dəstəyindən məhrum idilər. Belədə kənardan gələn yardım və dəstək də əslində havayı və mənasız idi. Prezident İlham Əliyev Türkiyə jurnalistlərinə müsahibəsində «narıncı» müxalifətin seçkisonrası çıxışlarına münasibət bildirərkən bu məqamı çox dəqiq ifadə etmişdi: «Müxalifətin seçkiləri tanımaması, sadəcə olaraq, öz məğlubiyyətini tanımaması deməkdir. Çünki əgər onlar bunu tanısalar, onda siyasi səhnədən getməlidirlər. O ki qaldı narıncı bayraqların meydana gətirilməsinə, bunun heç bir əhəmiyyəti yoxdur. Müxalifətin bütün dövrlərdə mitinqlərə yığdığı adamların sayı eynidir, nə artır, nə azalır. Son zamanlar bir az azalır. Çünki onların bütün maliyyə məsələlərini həll edən rüşvətxor məmurlar həbs olundu. Xaricdən gələn pullar da var, biz onu da bilirik. Hansısa xarici dairələrdən gələn dəstək Azərbaycanda heç nəyi həll etmir və müxalifətin əsas problemi ondan ibarətdir ki, o, hansısa bir yardıma arxalanmaq istəyir. Kimdənsə, nəsə umur, kimdənsə, nəsə istəyir. Amma başa düşmür ki, ona yardım edən, onun qanunsuz hərəkətlərinə dəstək verən qrup sabah gəlib ondan haqq-hesab soracaqdır. Sabah gəlib deyəcək ki, mən sənə yardım etdim, indi sən gəl, Azərbaycanda mənim maraqlarımı müdafiə et! Biz dövlətçiliyi möhkəmləndiririk. Bizim siyasətimiz xalqın gələcəyinə, onun rifah halının yaxşılaşmasına yönəldilibdir. Ona görə xaricdən, yaxud hansısa başqa yerdən müxalifətə çirkli pullar verilsə, onun heç bir əhəmiyyəti yoxdur.

O pulları verən tərəflər düşünməlidirlər ki, bu pullar havaya sovrulur» (191).

«Narıncı» qüvvələrin noyabrın 13 və 19-da keçirdiyi yürüş-mitinqlər onların ümid bəslədiyi etirazçı dairənin daha da daraldığını göstərirdi. «Azadlıq» blokunun seçkidə uduzmuş bütün müxalifət qüvvələrini, həmçinin narazı qalmış bitərəf namizədləri bir araya gətirərək geniş müqavimət hərəkatı yaratmaq cəhdləri iflasa uğramışdı. Ayrı-ayrı müxalifət partiyalarının (Vətəndaş Həmrəyliyi, Ümid, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Böyük Quruluş, Demokratik İslahatlar və Vətəndaş Birliyi partiyaları) parlamentdə yer almış təmsilçiləri, o cümlədən «Yeni siyasət» blokundan deputat seçilmiş şəxslər müəyyən pozuntu və nöqsanlara rəğmən seçkilərin ümumən şəffaf keçdiyini bəyan etdilər və radikal qüvvələri siyasi cığallıqdan əl çəkməyə çağırdılar. Bundan əlavə, seçkilərdə məğlub olmuş, lakin nəticə ilə barışmış 200-dək namizəd birgə bəyanat qəbul edərək seçkidən narazı qalmış həmkarlarını öz iddialarını küçələrdə deyil, məhkəmələr vasitəsilə həll etməyə, lüzumsuz gərginlik yaratmamağa çağırdılar. Həmin bəyanata sonradan ümumilikdə 700-dək namizəd qoşulmuşdu.

Düzdür, «narıncı» koalisiya da öz növbəsində 500-dək deputatlığa namizədin adından seçkinin nəticəsini tanınmaması barədə bəyanat qəbul edildiyini bildirmişdi. Amma 125 deputat yerinə 1500-dən çox şəxsin iddia etdiyi yarışda hamının nəticə ilə qane olması da, sadəcə, mümkün deyildi. Bu arada «Azadlıq» bloku seçkidə qalib gəlmiş 8 nümayəndəsinin mandatdan imtina edəcəyini bildirdi. Həmin bəyanata «Milli birlik» blokundan deputat seçilmiş Lalə Şövkət də qoşuldu. Lakin sonradan «narıncı» qaliblər bu bəyanatdan vaz keçdilər, mandatdan imtina edən yeganə şəxs isə Lalə Şövkət oldu. Yeri gəlmişkən, 2000-ci il seçkilərində də müxalifət düşərgəsində analoji vəziyyət yaranmış və o zaman da əksəriyyət mandatını qəbul etmiş, tək

bir nəfər («klassik» AXCP-nin rəhbəri Mirmahmud Miraliğolu) küyə getmişdi.

Əslində isə «narıncı» koalisiyanın bütün bu siyasi hoqqabazlığı Qərb dairələrindən müəyyən praktik dəstək qazanmaq üçün hesablanmış cəhdlər idi. Çünki seçkidən sonra günlər və həftələr ötsə də, «inqilab» ssenarisi elə kağız üzərində qalmışdı. «Beynəlxalq təşkilatlar yenə hakimiyyəti dəstəkləmək yolunu tutublar. Biz Qərbə ümidlər bəsləyirdik, amma onlar yenə son anda demokratiyaya xəyanət etdilər. Ona görə də biz onlara qarşı təsir vasitələrini işə salmalıyıq», - deyə ADP sədrinin müavini Sərdar Cəlaloğlu bildirirdi (192).

ADP-çi liderin blok yoldaşları da faktiki bədbinliyə qapılsalar da, bunu büruzə verməməyə çalışır və sıravi müxalifətçiləri ruhdan düşməməyə çağırırdılar. Məsələn, İsa Qəmbər inqilabın digər ölkələrdən tamamilə fərqli, «Azərbaycan mentalitetinə uyğun formada baş tutacağını» bildirmişdi. Müsavat başqanının bu nikbinliyini könülsüz şərh edən müxalifətçi yazar isə «Ola bilsin ki, bizdə Gürcüstan, Ukrayna və Qırğızıstandan tamamilə fərqli proseslər baş verəcək və belə deyək ki, Azərbaycansayağı «qərənfil inqilabı» reallaşacaq... Ancaq unutmaq olmaz ki, hal-hazırkı mövcud siyasi durum o qədər də ürəkaçan deyil» (193).

Vəziyyət həqiqətən «narıncı» koalisiya üçün ürəkaçan deyildi və əslində müxalifət liderləri bu vəziyyətdən birtəhər, siyasi sifətlərini nisbətən qorumaqla çıxmaq, başqa sözlə, getdikcə sıraları seyrələn həftəsonu yürüş-mitinqlərə bir yolla son qoyub, bu siyasi tragikomediya səhnəsini «üzü sulu» tərk etmək istəyirdilər. Təbii ki, aksiyaları könüllü şəkildə dayandırmaq onlar üçün məqbul deyildi və bunu mütləq hakimiyyətin «əli ilə» etmək lazım idi. Bunun isə radikal müxalifət tərəfindən dəfələrlə «sınaqdan keçirilmiş» bir üsulu vardı: polislə toqquşmaya gedib lokal çaxnaşma törətmək, sonra

da bütün dünyaya car-çəkmək ki, «Azərbaycan hakimiyyəti müxalifətə divan tutdu». Bunun ən yaxın örnəyi 2003-cü ilin oktyabr olaylarında yaşanmışdı. Maraqlıdır ki, həmin olayların əsas təşkilatçısı olmuş Müsavat Partiyası bu dəfə nisbi mötədillik nümayiş etdirərək hakimiyyətlə toqquşmadan çəkinməyə çalışırdı. Odur ki, Müsavat rəhbərliyi «Azadlıq» bloku daxilində hələ seçkilər öncəsi gündəmə gələn, 6 noyabrdan sonra isə AXCP və ADP tərəfindən müdafiə olunan fasiləsiz və oturaq aksiyalar ideyasına o qədər də meyilli görünmürdü. Çünki bilirdi ki, hakimiyyət müxalifətin bu aksiyalarına icazə verməyəcək, yaranacaq qarşıdurmanın isə necə nəticələnəcəyi öncədən bəlli idi.

«Narıncı» müxalifətin 2003-cü ilin acı təcrübəsini təkrar edib-etməyəcəyi Azərbaycandakı vəziyyəti izləyən xarici dairələrin də diqqət mərkəzində idi. ABŞ-dakı «Jamestown Foundation»un baş təhlilçisi və MDB üzrə mütəxəssis Vladimir Sokor «Eurasiya daily monitor» qəzetində «Azərbaycan müxalifəti iğtişaşlar strategiyasını seçəcəkmi?» adlı məqaləsində yazırdı: «Azərbaycandakı seçkilər keçmiş seçkilərlə müqayisədə daha azad və demokratik seçkilərə doğru böyük addım olmuşdur, lakin barışmaz müxalifət bu tərəqqini qiymətləndirmədi. Seçkilərə beynəlxalq müşahidəçilərin verdikləri müəyyən ədalətsiz qiymətlərdən ruhlanan müxalifət liderləri seçkilərin nəticələrinin ləğv edilməsinə və yeni seçkilər keçirilməsinə nail olmaq məqsədi ilə mitinqlər təşkil edirlər. Hazırda «Azadlıq» radikal müxalifət bloku seçkilərdə guya qələbə qazandığı barədə iddia ilə öz tərəfdarlarını səfərbər edir. Müxalifətin daxilindəki bəzi ünsürlər mitinqləri oturaq aksiyalara çevirmək və çadırlar qurmaqla hədələyirlər. Təbii ki, bu aksiyalar və çadırlar qanunsuz hesab ediləcək və toqquşmalara gətirib çıxaracaqdır» (194).

Bu arada «narıncı» koalisiyanın içindən noyabrın 26-da keçiriləcək növbəti yürüş mitinqin oturaq aksiyaya çevriləcəyi barədə səslər eşidilməyə başlamışdı. Noyabrın 23-də MSK parlament seçkilərinin yekun protokolunu təsdiqləyəndən sonra düşərgədəki radikal çıxışlar daha da artmışdı. Qeyd edək ki, seçkilərin yekun protokoluna əsasən, nəticələri ləğv olunmuş 4 dairə istisna olmaqla 121 dairə üzrə qaliblər elan edilmişdi. Onlardan 58-i YAP təmsilçisi, 42 nəfər bitərəf namizəd idi. Müxalifət düşərgəsi ümumilikdə 17 yer (o cümlədən «Azadlıq» bloku 8, «Yeni siyasət» 2, «Milli birlik» bloku 1) əldə etmişdi. Yeri gəlmişkən, MSK-nın yekun protokolu 13 lehinə, 2 əleyhinə olmaqla təsdiqlənmişdi. Müxalifətin 6 nümayəndəsindən 4-ü (o cümlədən Müsavat və ADP nümayəndələri) yekun qərarı imzalamışdı. MSK seçkilərin yekun protokolunu Konstitusiya Məhkəməsinə göndərdi.

MSK tərəfindən seçkilərə yekun vurulması ilə «narıncılar» da öz «üslublarında» seçki marafonuna son qoymaq qərarına gəldilər. 26 noyabr mitinqində qanunsuz hərəkətlərin ola biləcəyini nəzərə alan hüquq-mühafizə orqanları «Azadlıq» bloku rəhbərlərinə bunun yolverilməzliyi barədə rəsmi xəbərdarlıq da etmişdilər. Bununla bağlı paytaxt polis idarəsinin məlumatında nəzərə çatdırılırdı ki, yürüş-mitinqə, onun təşkilatçılarının götürdüyü öhdəliklərə uyğun, «o cümlədən çadırlar qurulmaqla fasiləsiz oturaq aksiyaların keçirilməməsi şərtilə razılıq verilmişdir». Lakin gözlənilənlər oldu və mitinq üçün ayırılmış vaxtın başa çatmasına baxmayaraq Əli Kərimli, Sərdar Cəlaloğlu, Lalə Şövkət və digərləri iştirakçıları meydanı tərk etməməyə çağıraraq oturaq aksiyanın başlandığını elan etdilər, daha sonra isə tribunadan enərək kütləyə nümunə olsun deyə asfalt üzərində oturdular. Bu arada Müsavat başqanı Qəmbər partiyadaşlarının müşayiəti ilə meydanı tərk etmişdi. Onun «narıncı» həmkarlarının soyuq asfalt üstündə «dincəlişi»

isə uzun sürmədi. Aksiya ilə bağlı razılaşdırılmış şərtlərdən kənara çıxmamaq və meydanı boşaltmaq barədə müxalifət liderlərinə xəbərdarlıq edən polis buna rədd cavabı alandan sonra meydanı öz qüvvələri ilə boşaltmalı olmuşdu. Bu zaman bir neçə mitinq iştirakçısı, eləcə də polis əməkdaşları müxtəlif dərəcəli bədən xəsarətləri almışdılar.

Beləcə müxalifətin son «narıncı» toplanışı da başa çatdı. Bu, eyni zamanda, radikal müxalifətin aylardan bəri ictimai rəydə kultivasiya etməyə çalışdığı «inqilab»ın sonu, «narıncı» birliyin isə faktiki süqutu idi. Təsadüfi deyil ki, Müsavat başqanı 26 noyabr aksiyasından sonra Ə.Kərimli və S.Cəlaloğlunun keçirdiyi birgə mətbuat konfransına qatılmamışdı. Bu cütlüyün də ayrılması, sadəcə, zaman məsələsi idi. Necə deyərlər, oyun bitmiş, «narıncı» yuxulardan ayılmaq və ayrılmaq zamanı gəlmişdi.

GƏLƏCƏYİMİZ OLAN UŞAQLAR VƏ GƏNCLƏR BÖYÜK LİDERLƏRİNİN QAYĞI VƏ MƏHƏBBƏTİNƏ EYNİ SEVGİYLƏ CAVAB VERİRLƏR

«Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır».
Heydər Əliyev

«Hər bir millətin istər tərəqqisi, istərsə də tənəzzülü həmin millətin gənclərinin alacaqları tərbiyədən asılı olur».
Uilyam Şekspir



ON YEDDİNCİ FƏSİL

AZƏRBAYCANDA İNQİLAB NİYƏ BAŞ VERMƏDİ?

«Keçmişin haqqı ödənilib, Bu gün əldə durmur – sürüşür,
gələcəyə ümid edin».
Q. Levis

«Söhbət gələcəyi qabaqcadan görməkdən, onu qoruyub –
yaratmaqdan gedir».
D. Rujmon

2005-ci il dekabrın 1-də Konstitusiya Məhkəməsinin (KM) plenumu Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsi və 130-cu maddəsinin VIII və IX hissələrini rəhbər tutaraq üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair yekun qərarı elan etdi. Qərarda Apellyasiya Məhkəməsi, Ali Məhkəmə, Ədliyyə Nazirliyi və Respublika Prokurorluğunun seçki qanunvericiliyinin pozulması ilə bağlı şikayətlərin araşdırılmasına dair məlumatları da əksini tapmışdı. Həmin məlumatların diqqətlə incələndiyini nəzərə çatdıran KM-nin qərarında qeyd olunurdu ki, MSK tərəfindən təsdiq edilmək üçün təqdim olunmuş 121 dairə üzrə protokollardan 115-i Seçki Məcəlləsinin müddəalarına uyğundur, 6 dairə üzrə isə protokollar qanunvericiliyin tələblərinə cavab vermir. Yüksək məhkəmə instansiyası 31 saylı Suraxanı ikinci, 44 saylı Sumqayıt-Abşeron, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar, 103 saylı Gədəbəy, 106 saylı Tovuz-Qazax-Ağstafa və 119 saylı Ağdam kənd seçki dairəsi üzrə nəticələri təsdiq etməyərək 115 dairə üzrə deputatların seçildiyini elan etdi. Qərarda nəzərə çatdırılırdı ki, nəticələri təsdiqlənməyən dairələrin bir sıra məntəqələrində nəticələr daha öncə MSK tərəfindən ləğv

olunmuş, həmin məntəqələrin bir qisminin sədr və üzvləri barəsində seçki pozuntularına yol verdiklərinə görə cinayət işləri açılmışdı. Odur ki, KM sözügedən dairələrin nəticələrini qəbul etməyi məqbul saymamışdı. Bununla da nəticəsi ləğv edilən seçki dairələrinin sayı 10-a çatdı. Qanunvericiliyə görə, həmin dairələrdə yeni seçki keçirilməli idi.

KM-nin seçkilərlə bağlı verdiyi qərar, ölkə qanunvericiliyinə görə, son instansiya qərarı idi və heç bir orqan tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməzdi. Pozuntular yol verilmiş və nəticələri mübahisəli olan dairlərdə seçkilərin KM tərəfindən ləğv olunması beynəlxalq dairələrdə də müsbət qarşılanmışdı. ABŞ-ın Bakıdakı səfirliyi bununla bağlı bəyanatında deyilirdi: «Birləşmiş Ştatlar Azərbaycan Konstitusiya Məhkəməsinin pozuntuların səsvermənin yekununa güclü təsir etdiyi dairələrdə seçkilərin nəticəsini ləğv etməsini alqışlayır. Seçkilərdən sonrakı dövrdə Azərbaycan hakimiyyəti saxtalaşdırma halları ilə bağlı daxil olmuş məlumatları araşdırmış, 10 dairədə və bir neçə yüz məntəqədə seçkilərin nəticələri ləğv olunmuş, bir dairədə isə yekun nəticə dəyişdirilmişdir. Biz inanırıq ki, bu addımlar seçki prosesinin düzgünlüyünün təmin olunmasının tərkib hissəsidir. Biz Azərbaycan hakimiyyətini nəticələri ləğv olunmuş 10 dairədə beynəlxalq standartlara uyğun olan təkrar seçkilər keçirməyə çağırırıq» (195).


Seçkidə ağır məğlubiyyətə uğramış radikal müxalifət isə nəticələrə etiraz bildirməkdə davam edirdi. Düzdür, 26 noyabr aksiyasının iflasından sonra bu etiraz daha çox mətbuat səhifələrindəki çıxışlar və «narıncı» liderlərin maraqlı siyasi jestlərində özünü göstərirdi. Məsələn, Müsavat, AXCP və ADP liderləri Rumıniya səfirliyinin 6 noyabr seçkilərini demokratik normalara uyğun qiymətləndirməsinə etiraz əlaməti olaraq bu ölkənin milli bayramı şərəfinə keçirilən ziyafətdə iştirakdan
























BRIEF INFORMATION OF THE HISTORY OF GARABAGH
THE BEGINNING OF THE GARABAGH CONFLICT
CONSEQUENCES OF ARMENIAN AGGRESSION AGAINST AZERBAIJAN
ACTIVITY OF ARMENIAN TERRORIST ORGANIZATIONS AGAINST AZERBAIJAN


Who we are



AFİNADA AZƏRBAYCAN İDMANÇILARINA UĞURLAR DİLƏYİRİK.





imtina etmişdilər. Partiya liderləri seçkiləri məqbul qiymətləndirmiş digər ölkələrin səfirliklərini bu cür boykot edəcəklərini bildirmişdilər. Siyasi fəaliyyətdə onsuz da səmərəsiz boykotçuluğa aludə olan müxaliflərin bu addımı təəccüblü deyildi. Odur ki, əgər müxalifət liderləri Azərbaycandakı seçkiləri tanımış xarici ölkələrə heç vaxt səfər etməyəcəklərini, yaxud onların istehsal etdikləri mal və məhsulları almayacaqlarını bəyan etsəydilər, zənnimizcə, bu daha effektli boykot olardı.

Ümumilikdə isə KM-nin seçkilərin nəticələrinə dair yekun qərarından sonra müxalifətin aktivliyi tədricən səngiməkdə idi. Üstəlik «narıncı» blok daxilində 26 noyabr aksiyasından sonra yaranan ixtilaf onun fəaliyyət qabiliyyətini heçə endirmişdi. Hər seçkidən sonra olduğu kimi, bu dəfə də müxalifət düşərgəsində siyasi «razborkalar» qarşılıqlı ittihamlarla müşayiət olunurdu. Tərəflər 26 noyabr aksiyasının və bütövlükdə seçkisonrası etiraz kampaniyasının iflasa uğramasında bir-birini günahlandırırdılar. AXCP və ADP təmsilçiləri Müsavat rəhbərliyini mitinq meydanını tərk edərək oturaq aksiyaya tərəfdar çıxmamaqda, müsavatçılar isə həmkarlarını bu məsələdə tələsik və razılaşdırılmamış qərar verməklə müxalifətin ümumi mübarizəsinə zərər vurmaqda ittiham edirdilər. Lakin bu ittihamlar fonunda müxalifət düşərgəsində hər kəs başa düşürdü ki, artıq seçki uduzulub və siyasi ambisiyaları da, rəngli-rəngsiz illüziyaları da bir başqa payızın (seçkinin) ümidinə buraxmaqdan savayı əlac yoxdur. Təsadüfi deyil ki, müxalifət ideoloqları, bir tərəfdən, növbəti dəfə məğlubiyyətin məsuliyyətini onların «ümidini puça çıxarmış» Qərbin, özəlliklə Amerikanın üzərinə yıxmağa çalışır (sanki Amerika rəhbərliyi onlara hansısa söz vermiş, sonra da arxasında durmamışdı), digər yandan, düşərgə elektoratına təskinlik verərək «inqilabın da zaman ehtiyacı olduğunu» vurğulayırdılar: «Ancaq «oyun»

davam edir və ikinci hissədə hesabın kimin xeyrinə yekunlaşacağını indidən proqnozlaşdırmaq çətindir. Necə deyərlər, inqilabın da zamana ehtiyacı var... Gec-tez bizlərin də səsinə səs verən tapılacaq. O zaman ABŞ prezidenti verdiyi sözün arxasından qaçdığına görə xəcalət çəkməli olacaq. Lənətə gəlsin bu cür haçadilli demokratiyanı! Bəlkə heç Buş müəllim heç vəd-filan verməyib...Bu halda müxalifət Qərbə inteqrasiya deyil, digər dəyərlərə meyllənmək zorunda qalacaq. Bundansa ən çox itirən Qərbin özü olacaq. Hər bir halda müxalifətin itirəcəyi bir şey qalmayıb» (196).

Həqiqətən də bu qüvvələrin itirəcəkləri elə bir şey yox idi, çünki olan-qalan siyasi resurslarını seçkidən seçkiyə israf edərək gəlirdilər. Müxaliflərin Qərbə yönəlik acıqlı hədələri də öncəki illərdən yaxşı bəlli olan seçkisonrası siyasi depressiyanın əlamətləri idi. Eləcə də «narıncı» koalisiyada yeni parlamentin boykot ediləcəyi barədə səslənən bəyanatlar da köhnədənqalma idi. Yeri gəlmişkən, MK-nin nəticələrini təsdiq etmədiyi 6 dairədən 2-si «narıncı» namizədlərin (o cümlədən AXCP sədri Ə.Kərimlinin) ilkin qalib elan edildiyi dairələr idi və beləliklə, «Azadlıq» blokunun parlamentdəki yerlərinin sayı 6-ya enmişdi. Blok liderlərindən heç biri parlamentə seçilə bilməmişdilər. AXCP-nin aktivində bir mandat qalmış, ADP isə əvvəldən heç bir yer qazanmamışdı. Təsadüfi deyil ki, boykot məsələsində xüsusilə israr edənlər də onlar idi. Lakin, öncəki fəsildə qeyd etdiyimiz kimi, liberalların lideri L.Şövkət istisna olmaqla heç bir müxalifətçi deputat mandatdan imtina etmədi. «Narıncı» koalisiyanın deputatları parlamentin ilk iclaslarına təşrif buyurmasalar da, sonradan bu mənasız addımdan vaz keçdilər.

2005-ci il dekabrın 2-də üçüncü çağırış Milli Məclisin ilk iclası keçirildi. İclasda mandatı təsdiqlənmiş 115 deputatdan 106-sı iştirak edirdi. Yeni parlamentin açılışında prezident İlham Əliyev parlament seçkilərinin yekunu, bu seçkilərin Azərbaycanın

həyatındakı rolu və önəmi barədə geniş nitq söylədi. Bu, Azərbaycanın 2005-ci ildə yaşadığı proseslərə və ölkənin gələcək strateji inkişaf perspektivlərinə işıq tutan proqram xarakterli nitq idi. Dövlət başçısının yeni seçilmiş Milli Məclisə xitabən bəyan etdiyi fikirlər ümumilikdə Azərbaycan cəmiyyətinə, daha geniş miqyasda isə dünya birliyinə, bizə dost və ya düşmən münasibəti bəsləyən xarici qüvvələrə yeniləşən Azərbaycanın inkişaf prioritetlərini, dövlətçilik fəlsəfəsini aydın və dəqiq ifadə edən təməl tezislər idi. Onların bir neçəsini xüsusi qeyd etmək gərəkdir.

Birinci tezis: seçkilərin nəticəsi Azərbaycandakı mövcud reallıqları, xalqın hakimiyyətə və onun siyasətinə etimadını əks etdirir. Dövlət başçısı vurğuladı ki, 6 noyabr seçkilərinin şəffaflığının təmin olunması üçün daha öncə Azərbaycanın seçki praktikasında görünməmiş kompleks tədbirlər həyata keçirilmişdi. Çünki seçkilərin maksimum azad keçirilməsində və hakimiyyətin öz opponentləri üzərində üstünlüyünün maksimum şəffaf seçki yarışı nəticəsində üzə çıxmasında o, prezident olaraq şəxsən maraqlı olub: «2005-ci ilin parlament seçkiləri ölkə həyatında çox mühüm bir proses idi. Bir neçə ay ərzində ölkədə gedən siyasi proseslər daha da sürətlənmiş, ölkə demokratik inkişaf baxımından daha da möhkəmlənmişdir. 2 min namizədin qeydiyyatdan keçməsi də özlüyündə parlament seçkilərinə əhali tərəfindən böyük inamın təzahürü idi. Seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün hər şey edilmişdi. Bütün tədbirlər görüldü ki, seçki saxtakarlığına imkan olmasın, əgər hansısa hallarda bu saxtakarlıq olarsa, onu gizlətmək mümkünsüz olsun. Nəticələr də bunu təsdiq etdi. O dairələrdə ki, qanun pozuntuları olub, orada nəticələr ya dəyişdirilib, ya da ləğv edilibdir. Məhz bizim tərəfimizdən qəbul edilmiş sərəncamlar, verilmiş göstərişlər, atılmış addımlar imkan yaratdı ki, bu qanun pozuntularının aşkarlanması mümkün olsun...Seçkilərin nəticələri

Azərbaycanda hökm sürən ab-havanın təzahürüdür. Bu gün xalqla iqtidar arasında olan bu birlik, bu inam bir daha onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Parlament seçkiləri bunu bir daha təsdiqlədi. Mən çox sevinirəm ki, parlamentdə təmsil olunan deputatlar açıq, ədalətli mübarizədə qələbə qazandılar və əlbəttə, bu, parlamentin legitimliyinə də öz böyük töhfəsini vermiş oldu» (197).

İkinci tezis: Azərbaycanda inqilab baş vermədi, çünki bunun üçün əsas yox idi. Prezident xatırlatdı ki, Azərbaycanda «məxməri» inqilab baş verəcəyi barədə mülahizələr əvvəldən reallığa deyil, illüziya və fərziyyələrə əsaslanmışdı. Seçkilər hakimiyyətin həyata keçirdiyi siyasətin xalq tərəfindən dəstəkləndiyini, xalqın ölkə rəhbərliyinə etibarını sübut etdi. Hakimiyyət, bəzi xəbis mülahizələrin əksinə olaraq, bu seçkilərdən daha da möhkəmlənərək çıxdı: «Seçkilərə hələ bir neçə ay qalmış müxtəlif fərziyyələr irəli sürülürdü ki, görəsən, Azərbaycanda növbəti inqilab olacaq, yoxsa yox. Mən bu barədə öz fikrimi dəfələrlə, hələ bir neçə ay bundan əvvəl ifadə etmişəm. Bu gün həyat göstərir ki, mən haqlıyam. Çünki inqilabı, yaxud da çevrilişi şərtləndirən amillər var. İlk növbədə, Azərbaycanda iqtidarla xalq arasında uçurum olmalıydı. Bizdə, əksinə, xalqla iqtidar arasında birlik var, inam var. Biz bunu gündəlik fəaliyyətimizlə daha da möhkəmləndiririk. Digər tərəfdən, çevriliş etmək üçün güclü müxalifət və cəsarətli müxalifət lideri lazımdır. Azərbaycanda nə o var, nə də bu. Bundan başqa, təkcə müxalifətin güclü olması kifayət etməz. Ciddi ictimai sifariş olmalıdır. Bu, Azərbaycanda bütövlükdə yoxdur və mövcud deyildir. Parlament seçkiləri, onun nəticələri və seçkilərdən sonra baş vermiş hadisələr bunu bir daha təsdiqləyir. Azərbaycan iqtidarının apardığı siyasət xalq tərəfindən dəstəklənir. Ona görə Azərbaycanda çevrilişi təmin edəcək heç bir amil yox idi.

Bilirəm, buraya gəlmiş çoxlu xarici jurnalistlər bir az məyus oldular ki, Azərbaycanda bu hadisəni görmədilər. Ancaq mən dedim, onlara deyin ki, üzr istəyirik, əgər bu hadisələri görmək istəyirlərsə, getsinlər bunu öz ölkələrində görsünlər. Bilirəm ki, seçkilərdən sonra müxalifətin bəzi mitinq cəhdləri də böyük maraq doğururdu və bəzi jurnalistlər artıq başlıqları da hazırlamışdılar ki, sabah çevriliş haqqında məlumat verəcəklər. Bəziləri hesab edirdilər ki, bu seçkilərdən sonra Azərbaycan iqtidarı və onun prezidenti zəifləyəcək və belə olan halda, Azərbaycanda hansısa işləri görmək daha da asan olacaqdır. Amma həyat göstərdi ki, Azərbaycan iqtidarı bu seçkilərdən sonra daha da möhkəmləndi. Bir də bilirsiniz ki, on ay ərzində iqtisadiyyatı 23 faiz artan ölkələrdə, adətən, çevrilişlər baş vermir» (198).

Üçüncü tezis: Azərbaycan demokratiya yoluna sadiqdir, onu könüllü seçib, amma bu yolda heç bir təzyiqi qəbul etməyəcəyik. İlham Əliyev daha öncə dəfələrlə bəyan etdiyi fikri bir daha nəzərə çatdırdı ki, demokratik inkişaf Azərbaycan dövlətinin strateji seçimidir. Biz bu yolu kiminsə xatirinə və ya məsləhətinə görə deyil, ölkəmizin və xalqımızın gələcək rifahını, sabitlik və təhlükəsizliyini demokratik dünya ailəsində görürük. Azərbaycan regionda və dünyada iqtisadi qüdrətini artırmaqla yanaşı, demokratiyanın da daha dolğun təşəkkül tapdığı ölkəyə çevrilmək əzmindədir. Lakin Azərbaycanın məhz iqtisadi yüksəlişi, onun artan nüfuzu bir sıra qüvvələri rahatsız edir və onlar bizə qarşı siyasi təzyiq üsullarından yararlanmağa çalışırlar. Dövlət başçısı bir daha bəyan etdi ki, bütün bu cəhdlər əbəsdir: «Müxtəlif xarici təşkilatlar buraya çoxlu müşahidəçi göndərmişdi. Bu da təbiidir. Çünki Azərbaycan Avropa, Avro-atlantik strukturlarına sürətlə inteqrasiya edir. Azərbaycanda bütün meyarlar gərək yüksək səviyyəyə cavab versin. Müxtəlif beynəlxalq təşkilatlar rəylər təqdim etmişlər. Bu rəylər öyrənilir,

təhlil edilir, harada ki, ədalətli irad varsa, o irad, təbii ki, qəbul edilir və nəticə çıxarılır. Harada ki, ədalətsiz yanaşma varsa, hansısa səhv məlumatın əsasında yaranmış yanlış fikir varsa, əlbəttə, biz bunu qəbul edə bilmərik. Harada ki, qərəzli irad varsa, biz bunu bütövlükdə rədd edirik. Çünki biz ədalətin tərəfdarıyıq.

Amma o da faktdır ki, Azərbaycanın regionda və dünyada önəmi artmaqdadır. Təbii sərvətlərlə zəngin olan, çox mühüm yerdə yerləşən, dünyəvi ölkəyə, Avro-atlantik strukturlarına inteqrasiya yolu seçmiş ölkəyə, əlbəttə, böyük maraq var və bəzi hallarda müxtəlif siyasi hadisələr bəzi dairələr tərəfindən başqa məqsədlər üçün də istifadə olunur. Heç kəs üçün sirr deyil, seçkilərə mənfi yanaşan bəzi dairələr bunu siyasi motivlərlə etmişlər. Bu, bir növ siyasi təzyiqin əlaməti idi. Bu, var, sabah da olacaqdır. Biz buna hazır olmalıyıq. Mən də buna hazıram. Biz əməkdaşlığın, qarşılıqlı hörmət, bərabərlik əsasında qurulmuş münasibətlərin tərəfdarıyıq. Biz öz siyasətimizi, o cümlədən xarici siyasətimizi açıq və aydın bəyan etmişik. Azərbaycan Avropa Şurası ilə çox gözəl əməkdaşlıq edir. Avropa Şurası yalnız Azərbaycan üzrə məruzəçilərdən ibarət deyildir. Avropa Şurası o təşkilatdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edibdir.

Mən tam əminəm ki, əgər biz Azərbaycanda güclü iqtisadi və siyasi potensial yaratmaq istəyiriksə, Azərbaycanda həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə aparılmalıdır. Biz bilirik, bəzi ölkələrdə belə fikir var ki, öncə gərək iqtisadiyyat möhkəmlənsin, güclü iqtisadi baza formalaşsın, ondan sonra demokratikləşmə proseslərinə daha da böyük təkan verilə bilər. Mən bu fikrə şərik deyiləm. Mən düşünürəm ki, bu iki proses paralel şəkildə getməlidir. Əgər Azərbaycanda demokratiya tam şəkildə bərqərar olmasa, azad cəmiyyət yaranmasa, bizim iqtisadi uğurumuzun heç bir əhəmiyyəti olmayacaqdır. Mənim

siyasətim bundan ibarətdir: güclü iqtisadiyyat yaratmaq və eyni zamanda, Azərbaycanda demokratik prosesləri sürətləndirmək. Bu istiqamətdə parlament seçkilərinin çox böyük əhəmiyyəti vardır. Seçkilər ərəfəsində görülmüş işlər, Seçki Məcəlləsinə edilmiş dəyişikliklər və başqa yeniliklər artıq bir səviyyə yaratdı. Bundan sonra Azərbaycan artıq bu səviyyədən aşağı enməyəcəkdir» (199).

Dördüncü tezis: hakimiyyət bundan sonra da xalqa populizmlə deyil, əməli işlərlə xidmət göstərəcək, xaos və çaxnaşma tərəfdarlarını isə hər zaman iflas gözləyəcək. Azərbaycanın 2005-ci ildə böyük iqtisadi uğurlar əldə etdiyini diqqətə çatdıran prezident qeyd etdi ki, bu, ölkənin gələcək, daha sürətli inkişafının yalnız başlanğıcıdır. Dövlət başçısı bir məqamı da xüsusi vurğuladı ki, hakimiyyətin başlıca məqsədi, sadəcə, yüksək makroiqtisadi göstəricilər əldə etmək deyil, bu inkişafın real nəticəsini hər bir vətəndaşın bilavasitə öz həyatında hiss etməsinə nail olmaqdır. Bunun üçün isə bilavasitə cəmiyyətin özünün aktivliyi, hər kəsin cəmiyyətdəki neqativ hallara münasibətdə fəal vətəndaş mövqeyi nümayiş etdirməsi çox vacibdir. Və təbii ki, bu inkişafın davamlılığı üçün ölkədə ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin davam etməsi zəruridir: «Büdcəmiz 67 faiz artıb, 4 milyard dollara gəlib çatıbdır. İki il bundan əvvəl 1 milyard dollar səviyyəsində idi. İnvestisiya xərclərimiz artır, rayonlar abadlaşır, ən ucqar kəndlərə yollar salınır, su, neft kəmərləri çəkilir, elektrik stansiyaları, məktəblər, xəstəxanalar tikilir. Bunu görməmək mümkün deyildir. Mənim məqsədim ondan ibarətdir ki, bu gözəl makroiqtisadi göstəriciləri biz insanların gündəlik həyatının normasına çevirək. Çünki adi vətəndaşı ümumi daxili məhsul və onun yüksəlməsi o qədər də maraqlandırmır. Onu real həyatı, güzəranı maraqlandırır. Ancaq bunu yalnız mərkəzdən etmək mümkün deyildir. Büdcə gəlirlərini artırırıq. Azərbaycanda

iqtisadi islahatların aparılması üçün lazımi qərarlar qəbul edirik. Ancaq əgər yerlərdə rüşvətxor məmurlar buna imkan yaratmırsa, onda bizim heç bir proqramımız həyatda öz əksini tapa bilməz. İctimai nəzarət olmalıdır, o cümlədən parlament tərəfindən ki, büdcə xərclərindən necə istifadə olunur. Xərclər artdıqca, nəzarət də güclənməlidir. Bu, mütləq və mütləq olmalıdır.

Mən şübhə etmirəm ki, qarşıda qoyulmuş bütün vəzifələr uğurla icra ediləcəkdir. Son iki ilin təcrübəsi bunu əyani şəkildə göstərir. Heç vaxt, heç bir populist vədlə çıxış etməmişik. Bəzi müxalifət nümayəndələrindən fərqli olaraq, deməmişik ki, biz hər bir vətəndaşa 200 dollar pul verəcəyik. Çünki biz öz vətəndaşlarımıza hörmətlə yanaşırıq. Azərbaycan xalqı dünyada gedən prosesləri çox yaxşı bilir. Əgər onlara deyirlərsə ki, hər bir vətəndaşa 200 dollar pul veriləcək, sadəcə onlar bunu təhqir kimi qəbul edirlər ki, görün, Azərbaycan xalqı haqqında nə fikirdədirlər? Əgər onlar hakimiyyətə gəlsələr, Azərbaycan xalqı ilə necə rəftar edəcəklər? Biz bunu 1990-cı illərin əvvəllərində görmüşük. Azərbaycan xalqı da bunu görübdür, yaxşı xatırlayır və bu qüvvələrə Azərbaycan siyasətində heç vaxt yer olmayacaqdır... Mən deyə bilmərəm ki, Azərbaycanda siyasi həmrəylik var. Ancaq Azərbaycanda vətəndaş həmrəyliyi var. Azərbaycan iqtidarının apardığı siyasət xalq tərəfindən bəyənilir və dəstəklənir» (200).

Prezident əmin olduğunu vurğuladı ki, yeni parlament ölkənin qarşısında duran yeni inkişaf mərhələsində layiqli yerini tutaraq islahatlar kursunun davam etməsinə, Azərbaycan dövlətinin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək. Üçüncü çağırış Milli Məclisin ilk iclası Azərbaycanda parlamentarizm və siyasi mədəniyyət təcrübəsi üçün əlamətdar olan bir sıra yeniliklərlə də yadda qaldı. Ötən iki çağırış Milli Məclisə sədrlik etmiş YAP sədrinin müavini Murtuz Ələsgərov

yaşı ilə əlaqədar bu posta növbəti dəfə seçilmək istəmədiyini bildirərək spiker postuna hakim partiyanın başqa bir təmsilçisinin, YAP Siyasi Şurasının üzvü, 45 saylı Abşeron seçki dairəsindən millət vəkili seçilmiş Oktay Əsədovun namizədliyini irəli sürdü. Dövlət başçısının da vurğuladığı kimi, bu, «Azərbaycanda yeni bir siyasi mədəniyyətin, yeni bir ənənənin» nümunəsi idi. Dövlət başçısı 9 il ərzində parlamentə sədrlik etmiş M.Ələsgərova fəaliyyətinə görə təşəkkür edərək onun təcrübəli millət vəkili və hakim partiyanın rəhbərliyində təmsil olunan şəxs kimi bundan sonra da Azərbaycan dövlətçiliyinə xidmət edəcəyinə əminliyini bildirdi. Yeni parlamentin ilk iclasında spikerlə yanaşı, sədarətin digər üzvləri də yenilənmişdi. Ötən parlamentdən yalnız sədr müavini Ziyafət Əsgərov rəhbərlikdə yerini saxlamış və bu dəfə birinci vitse-spiker postuna seçilmişdi. İki vitse-spiker vəzifəsinə isə hakim partiyanın təmsilçisi, YAP-ın icraçı katibinin müavini Bahar Muradova və bitərəf deputatların nümayəndəsi Valeh Ələsgərov seçildilər.

Qanunverici orqanda 10 deputat yeri vakant qalsa da, onun ümumi siyasi mənzərəsi aydın idi. Yeni seçilmiş 115 millət vəkilindən 56-sı YAP-ı təmsil edirdi. Bu, hakim partiyanın öncəki parlament fraksiyası (74 nəfər) ilə müqayisədə az olsa da, ümumilikdə parlamentdəki qüvvələr nisbəti baxımından yüksək nəticə idi. Eyni zamanda, 10 dairə üzrə təkrar seçkilərdə YAP təmsilçilərinin sayının artacağını gözləmək olardı. İkinci çağırış Milli Məclislə müqayisədə hakim partiyanın deputat fraksiyasının yarıdan çoxu yenilənmiş, 20-yə yaxın təmsilçisi isə parlamentə ilk dəfə seçilmişdi. Digər tərəfdən, hakim partiyanın deputat korpusunun qismən təzələnməsi prosesi bütövlükdə hakimiyyət düşərgəsində, iqtidar komandasında gedən dəyişiklik və yenilənmə prosesinin tərkib hisssi olmaqla yanaşı, həm də hakim partiyanın ölkənin siyasi mühitinə müəyyən yeni nəfəs, yeni ab-hava gətirmək niyyətinin göstəricisi idi. İllərdən bəri

sıraları, rəhbərliyi təzələnməyən əksər müxalifət partiyalarından fərqli olaraq hakim partiya yeniləşməyə, islahatlara daha açıq siyasi təşkilat olduğunu bir daha nümayiş etdirirdi.

Yeni parlamentdə başqa bir diqqətçəkən cəhət bitərəf deputatların daha geniş şəkildə təmsil olunması idi – 41 nəfər. Halbuki öncəki parlamentdə onların sayı 30-a yaxın idi. Parlamentə müstəqil qaydada seçilmiş şəxslərinin sayının artması cəmiyyətdə önə çıxan yeni tendensiyadan xəbər verirdi. Bu onu göstərirdi ki, cəmiyyətdə partiya mənsubiyyəti olmayan (iqtidar və ya müxalifətdə olmasından asılı olmayaraq), lakin fəaliyyəti, ictimai aktivliyi ilə əhalinin rəğbətini qazanmış şəxslərin qanunverici orqanda geniş təmsilçiliyi müəyyən sosial zərurətə, bir növ ictimai sifarişə çevrilib. Bu həm də ictimai rəydə siyasi qütbləşməyə, özəlliklə siyasi radikalizmə meylin getdikcə daha da azalmasının, əksinə, praqmatik ictimai təfəkkürün özünə daha geniş yer tapmasının, sırf siyasətçiliklə deyil, əməli fəaliyyəti ilə ictimaiyyət arasında nüfuz qazanan şəxslərə diqqət və rəğbətin artmasının göstəricisi idi. Yeri gəlmişkən, bu məqam Milli Məclisin rəhbər strukturların formalaşmasında da əksini tapmış, bir vitse-spiker postu ilə yanaşı, 11 daimi komissiyadan 2-nin rəhbərliyinə bitərəf deputatlar seçilmişdi.

Yeni parlamentdə müxalifətçi millət vəkillərinə gəldikdə isə, liberalların lideri L.Şövkətin deputat mandatından rəsmən imtina etməsindən sonra düşərgə təmsilçilərinin sayı 14-ə enmişdi. «Azadlıq» blokundan deputat seçilmiş 6 nəfərdən 4-ü müsavatçı, 2-si (Pənah Hüseyn və Cəmil Həsənli) isə faktiki müstəqil deputat statusunda idi. AXCP rəhbərliyi C.Həsənlini parlamentə getməkdən daşındırmağa çalışsada, o, mandatdan imtina etmədi, əksinə, partiya üzvlüyündən istefa verdi. Bundan əlavə, qeyd etdiyimiz kimi, «Yeni siyasət» blokundan 2 nəfər, daha 6 müxalifət partiyasının (Vətəndaş Həmrəyliyi, Demokratik İslahatlar, Ümid, Bütöv Azərbaycan Xalq Cəbhəsi,

Böyük Quruluş və Vətəndaş Birliyi partiyaları) hərəsindən bir deputat seçilmişdi.

Yeni parlamentin fəaliyyətə başlaması təkcə Azərbaycanda deyil, ölkəmizdə seçkisonrası siyasi prosesləri izləyən xarici dairələrdə də maraqla izlənilirdi. Çünki postsovet məkanındakı ard-arda «məxməri» inqilab və çevrilişlərdən sonra Azərbaycanın timsalında bu proses dayanmış, mövcud hakimiyyətə geniş elektorat dəstəyi ifadə edən seçki yarışı heç bir sarsıntı olmadan başa çatmışdı. Bu baxımdan xarici dairələrin Azərbaycandakı seçkilərin nəticələrinə marağı «məxməri» inqilabın niyə gerçəkləşməməsi sualı üzərində köklənmişdi. Bu xüsusda seçkilərdən dərhal sonra xarici mətbuat səhifələrində yer almış rəy və mülahizələrin bir qismini ötən fəsildə nəzərə çatdırmışdıq. Lakin, bununla yanaşı, «Azərbaycanda inqilab niyə baş vermədi?» sualına daha geniş və konseptual yanaşan xarici politoloqların, mütəxəssislərin gəldiyi qənaət də maraq doğururdu. Çünki bu qənaət nəticə etibarilə Azərbaycanda baş verənlərin mühüm bir presedent olaraq regional və hətta beynəlxalq müstəvidə hansı yeni proseslərə yol açа biləcəyini nümayiş etdirirdi. Vaşinqtondakı Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun «İpək Yolunun Öyrənilməsi» proqramının rəhbəri, ABŞ-ın tanınmış politoloq və postsovet ölkələri üzrə mütəxəssislərindən biri Svante Kornellin hazırladığı analitik hesabat məhz bu qəbildən idi.

Qeyd edək ki, Svante Kornell ölkəmizdə 2000-ci və 2005-ci illərdə keçirilmiş parlament seçkilərini şəxsən müşahidə etmişdi və bu baxımdan onun gəldiyi nəticələr həm Azərbaycanda bu müddətdə baş vermiş proseslərin, həm də bu proseslərin digər postsovet ölkələrində meydana gəlmiş olaylarla müqayisəli təhlilinə əsaslanmışdı. «Azərbaycanda parlament seçkiləri: irəliyə doğru addım» adlı hesabatda müəllif nəzərə çatdırırdı ki, 6 noyabr seçkiləri «demokratiyaya doğru əziyyətli yolda irəliyə

doğru mühüm addım» olmuş və Azərbaycanın nümunəsində demokratiyanın təkamül yolu ilə inkişafının uğurunu nümayiş etdirmişdir: «Bu parlament seçkiləri ölkənin müstəqilliyi tarixində ən mütəşəkkil və açıq seçkilər idi. Seçkilərdən sonra hökumət ən kobud səhvlərə dair faktlara dərhal reaksiya verərək, bir neçə dairədə seçkilərin nəticələrini ləğv etdi, habelə saxtakarlıqlarda təqsirli olan rəsmi şəxsləri vəzifələrindən kənarlaşdırdı. Seçkilərdə yol verilmiş nöqsanların tənqidi ədalətli olsa da, Azərbaycandakı seçkilər göstərir ki, keçmiş sovet dövlətlərində demokratik inkişaf təkcə inqilabi yolla deyil, təkamül yolu ilə də baş verə bilər. Qərb dəyişikliklərin sürətinə bəslədiyi ümidlərində realist olmalıdır. Azərbaycan bu tərəqqiyə görə tərifə layiqdir» (201).

Amerikalı ekspert xüsusilə olaraq qeyd edirdi ki, Beynəlxalq Müşahidəçilər Missiyası Azərbaycanda seçkilərdə əldə edilmiş tərəqqini lazımınca nəzərə çarpdırmadı. Onun sözlərinə görə, bunun bir səbəbi də xarici müşahidəçilərin bir qisminin əvvəlcədən Azərbaycandakı seçkilərin növbəti «məxməri» inqilab olacağı fikrinə köklənməsi olub. Onun fikrincə, 6 noyabr seçkiləri Gürcüstan, Ukrayna və Qırğızıstandakı «rəngli» inqilablar seriyası ilə bir vaxta düşməklə əslində «beynəlxalq və yerli şəraitin mürəkkəb olduğu bir vəziyyətdə keçmişdir». Bununla belə, politoloqun sözlərinə görə, Qərb, konkret olaraq, ABŞ sözügedən ölkələrdəki inqilabların arzuolmayan fəsadlarını göz önünə alaraq Azərbaycandakı seçkini əvvəldən xüsusi nəzarətə götürərək onun artıq yeni, qeyri-inqilabi presedent olmasında maraqlı idi: «Əslinə qalsa, Azərbaycan Buş doktrinasında presedent kimi daha geniş səpkidə nəzərdə tutulur. Vaşinqtondan gəlmiş emissarlar çalışırdılar ki, seçkilər demokratik keçsin və bununla da iğtişaşlar riski və dağıdıcı inqilab təhlükəsi azalsın, habelə strateji mənafelərlə demokratiya arasında seçimə ehtiyac qalmasın. Bu niyyət belə ehtimala

əsaslanırdı ki, Azərbaycan Gürcüstandan, Ukrayna və Qırğızıstandan güclü şəkildə fərqlənir. Əvvəla, bu ölkələrin hökumətləri son dərəcə qeyri-populyar idi, onların rəhbərləri iqtisadi inkişafın olmaması nəticəsində etimadı itirmişdilər. İkincisi, onların müxalifəti yekdil idi, müxalifətə hökumətin keçmiş yüksək vəzifəli üzvləri rəhbərlik edirdilər. Üçüncüsü, hüquq mühafizə orqanları mənəvi cəhətdən aşınmışdı və cəmiyyətin ayağa qalxması nəticəsində mövcud rejimi dəstəkləmək iqtidarında deyildi... Azərbaycan bu meyarlardan heç birinə uyğun gəlmirdi. Ən başlıcası isə, Azərbaycan hökuməti Şevardnadze, Kuçma və Akayev rejimləri kimi qeyri-populyar deyildi. İlham Əliyev prezident seçildiyi vaxtdan bəri özünü atasının başladığı proseslərin ardıcıllığını saxlamağa və yeniliklər tətbiq etməyə qadir qüvvə, habelə islahatçı qüvvə kimi göstərmişdir. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir, cəmiyyətdə gələcəyə ümidlər artır, bu əsasda Əliyevin reytinqi də artır».

Amerikalı ekspert nəzərə çatdırırdı ki, hakimiyyətin əhali arasında yüksək reytinqini nəzərə alan prezident İlham Əliyev demokratik islahatlar kursunda daha cəsarətli addımlar atmağa başladı, çünki «liberallaşmanın onun hakimiyyət mövqelərini təhdid etmədiyinə inanmağa əsası vardı». Politoloqun fikrincə, Azərbaycan rəhbərliyi başa düşürdü ki, «rəngli» inqilab riskini azaltmaq üçün daha məzmunlu siyasi sistem lazımdır. Hakimiyyətin opponentlərinə gəldikdə isə, amerikalı ekspert qeyd edirdi ki, «müxalifət gücünü seçki kampaniyası aparmaqdan daha çox Qərbin diqqətini cəlb etməyə və inqilabdan danışmağa verdi».

Azərbaycanın demokratiya və islahatlar yoluna inqilabsız davam etdiyini nəzərə çatdıran ekspert 6 noyabr seçkilərinin regional nəticələrinin olacağını vurğulamışdı: «Bu seçkilərin regional nəticələri olacaqdır. Keçmiş Sovet İttifaqında avtoritar

idarə üsulundan imtina prosesi 2003-cü ilin dekabrında Gürcüstanda, Ukraynada rejimi süpürüb atan «rəngli» inqilablara yol açdı. Qırğızıstanda inqilab xalq arasında hörməti olmayan prezident Əsgər Akayevin qovulması ilə nəticələndi. Lakin bu, həmin ölkədə talanlara, korrupsiyaya qurşanmış daha bir hökumətin təşkil olunmasına və ölkədəki vəziyyətin pozulmasına gətirib çıxardı. Müşahidəçilər Ukrayna hökumətinin bu yaxınlardakı süqutunun timsalında «rəngli» inqilabların avtomatik dəyişikliklər edəcəyinə getdikcə daha çox şübhə ilə yanaşırlar. Qərbin Azərbaycandakı mənafeləri artdıqca, o, daha çox risk edir. Azərbaycanda tərəqqi, istənildiyi qədər sürətli olmasa da, hər halda göstərmişdir ki, beynəlxalq demokratik normalara doğru irəliləyiş təkcə inqilabi yolla deyil, həm də təkamül yolu ilə baş tuta bilər» (202).

Amerikalı ekspertin Qərbin mənafeləri məsələsini xüsusi qeyd etməsi səbəbsiz deyildi. Çünki postsovet məkanında inqilab burulğanından keçmiş ölkələrin təcrübəsi göstərirdi ki, Qərb bu proseslərdən heç də umduğu geosiyasi dividendləri əldə edə bilməyib. Düzdür, Gürcüstanın timsalında «məxməri» inqilabın Qərb, özəlliklə Amerika üçün uğurlu nəticə doğurduğunu söyləmək olardı. Amma, eyni zamanda, Gürcüstanın inqilabdan sonra qonşu Rusiyanın daha güclü pressinqi altına düşdüyü fakt idi və «qızılgül» hakimiyyətinin bu vəziyyətdə özünü Şevardnadze iqtidarından rahat hiss etdiyini söyləmək çətindir. Ukraynanın nümunəsində isə inqilab, daha öncə qeyd etdiyimiz kimi, yarımçıq qələbə çalmışdı və bu, ölkənin xarici siyasət prioritetlərində özünü göstərməkdə idi. «Narıncı» inqilabın lideri kimi prezident Yuşşenko ölkənin Qərbə, Avro - atlantik məkana inteqrasiyası kursunu bəyan etsə də, sonradan parlamentin onun Rusiyameylli opponentlərinin nəzarətinə keçməsi bu kursun real irəliləyişini mümkünsüz edib. Qırğızıstana gəldikdə isə, inqilab nəticəsində onun xarici siyasəti, ümumiyyətlə, dəyişməmiş və

ölkə, Akayevin zamanında olduğu kimi, daha çox Rusiyaya bağlı olaraq qalmışdı.

Odur ki, bu hadisələrdən, özəlliklə «Qırğızıstan təcrübəsi»ndən sonra aydın idi ki, Qərb inqilab ssenarilərində risk dərəcəsini hesablamağa məcburdur və «rəngli» inqilabların nəticələrindən Rusiyanın asanlıqla bəhrələnməsi Qərbi bu inqilabları təşviq etmək niyyətindən daşındıra bilər: «Bu çevrilişlər heç də həmişə demokratik islahatların həyata keçirilməsinə, sosial-iqtisadi inkişafa, vətəndaş cəmiyyəti institutlarının təşəkkül tapmasına səbəb olmur. Əksinə, rəngli inqilabların son nəticədə qeyri-stabillik mühitinə səbəb olması günün reallığıdır. «Rəngli» inqilabların qeyri-stabilliyi gücləndirməsi isə Qərbin maraqları ilə daban-dabana ziddir. Bu mənada MDB məkanında gerçəkləşdirilən inqilabların bumeranq effekti verərək son nəticədə Qərbin maraqlarına zərbə vurduğunu söyləmək mümkündür və Qərbi bu məsələdə ehtiyatlı mövqe tutmağa sövq edib» (203).

Bu fonda Azərbaycanın tutduğu yol, onun kənar güclərin qarşıdurma müstəvisinə çevrilmədən sabit inkişafı bütün parametrlərinə görə, müsbət nümunə, ən optimal variant idi. Prezident İlham Əliyev dəfələrdə bəyan edib ki, Azərbaycan bu regionda maraqları olan qüvvələr üçün rəqabət, qarşıdurma yox, əməkdaşlıq məkanı olmalıdır və bu zaman, ilk növbədə, Azərbaycanın milli maraqları təmin edilməlidir. Bu baxımdan bizim kiməsə oxşamağa, «narıncı» liderlərin davrandığı kimi, kimlərisə yamsılamağa da ehtiyacımız yox idi, əksinə, proseslərin yekunu göstərdi ki, bizim yol başqalarına örnək ola bilər: «Bizim iqtidarla müxalifət arasında çoxlu fərqli məqamlar var. Mən bunların hamısını sadalamaq istəmirəm. Amma bu seçkilərə gəldikdə, bir fərqli məqam da ondan ibarətdir ki, bizim müxalifət həmişə kiməsə oxşamaq istəyir, kiminsə təcrübəsini yamsılamaq istəyir, kiminsə arxasınca getmək istəyir. Biz isə açıq hərəkət

edirik, öz siyasətimizi aparırıq. Heç kimin dalınca getmirik, heç kimə oxşamaq istəmirik, heç kimin Azərbaycan üçün məqbul olmayan təcrübəsini tətbiq etmək istəmirik. Bizim siyasətimiz Azərbaycan xalqının iradəsinə, onun maraqlarına əsaslanır. Fərq bundan ibarətdir» (204).

Azərbaycanın öz yolu ilə sabit inkişafı isə hər şeydən öncə dövlətçiliyimizin möhkəmlənməsi və onun gələcək uğurlarının təminatı demək idi. Ölkəmizin qarşısında hansı taleyüklü məsələlərin, ən ümdəsi, üzləşdiyimiz hərbi təcavüzə son qoymaq, ərazi bütövlüyümüzü bərpa etmək vəzifəsinin dayandığını nəzərə alsaq, bu şərtin nə dərəcədə müstəsna önəm kəsb etdiyini xüsusi vurğulamağa gərək qalmaz. Hərçənd bir çoxları – istər xaricdə, istərsə də daxildə – Azərbaycanın bu seçkilərlə silkənəcəyini, sabitlik və dayanıqlığını itirəcəyini güman edirdi və buna birbaşa və dolayı yollarla çalışırdı. Amma Azərbaycan silkələnmədi, əksinə, bu seçkilərdən daha da möhkəmlənərək çıxdı. Bunun niyəsini axtaranlar isə, nə qədər qərəzli və subyektiv olsalar da, sonda həqiqət üzərinə gəlib çıxmağa məcbur idilər: Azərbaycan öz liderinin qətiyyəti, iradəsi və bacarığı sayəsində, xalqın mütləq əksəriyyətinin onun yeritdiyi siyasətə dəstək verməsi nəticəsində sabit inkişaf kursunu qorudu.

Təsadüfi deyil ki, parlament seçkilərindən bir müddət sonra da bu xüsusda Qərbin çeşidli qəzetlərində şərhlər davam etməkdə idi. Fransanın nüfuzlu «Lö Mond» qəzetinin tematik əlavəsi olan «Lö Mond politik» qəzetində dərc olunmuş məqalə isə elə belə də adlanırdı: «Nə üçün Azərbaycan silkələnmədi?». Məqalə həm də ona görə maraq doğururdu ki, əvvəla, onun müəllifi erməni mənşəli isveçrəli jurnalist idi, ikincisi isə, o, Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə (Rambuye) növbəti görüşü (fevral 2006) ərəfəsində qələmə alınmışdı. Bəzi xarici dairələri bir kənara qoyaq, Azərbaycanın özündə bir para qüvvələrin görmək istəmədiyi reallıqlardan bəhs edən erməni

jurnalist yazırdı: «Çoxları Gürcüstan və Ukraynadan sonra Azərbaycanda «qəzəbli inqilab» baş verəcəyini güman edirdilər. Amma inqilab baş vermədi. Çünki 2005-ci ilin noyabrında keçirilmiş parlament seçkilərində xalqın əksəriyyəti prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyanın namizədlərini dəstəklədi. 2003-cü ildə keçirilmiş prezident seçkilərindən sonra bəziləri ölkə başçısı kimi onun fəaliyyətinə şübhə ilə yanaşırdılar. Amma İlham Əliyev bu şübhələrə son qoydu və ölkədə sabitliyi daha da möhkəmləndirdi». Azərbaycanın getdikcə daha güclü iqtisadi inkişaf yoluna qədəm qoyduğunu, Bakı-Tbilisi-Ceyhan neft kəməri tam istifadəyə verildikdən sonra ölkənin iqtisadi qüdrətinin daha da yüksələcəyini nəzərə çatdıran müəllif ölkə prezidentinin yoxsulluğun, işsizliyin aradan qaldırılması istiqamətində fəaliyyətindən də söz açırdı. Qarabağ münaqişəsindən bəhs edən jurnalist yazırdı ki, «Bakı daim ölkənin ərazi bütövlüyü prinsipindən çıxış edir və iqtisadi potensial hesabına müdafiə xərclərinə ayrılan vəsait ilbəil artırılır» (205).

Bu, Azərbaycan gerçəkliklərinə kənardan, özü də düşmən hesab etdiyimiz cəbhədən bir baxış idi. Amma bu reallıqları əyri güzgüdə təsvir etməyə çalışanlar da az deyildi və seçkilərdə uğradığı məğlubiyyətlə barışmaq istəməyən, öz ambisiyalarını sürdürərək Azərbaycan dövləti və hakimiyyətindən beynəlxalq dairələrə şikayət edən müxalifət liderlərinin seçkisonrası addımları da bunu göstərirdi. Əslində həmin qüvvələrin cığal iddiaları beynəlxalq dairələrə aydın idi və onlara real ümid verəcək elə bir instansiya da qalmamışdı. Bu baxımdan müxalifət liderlərinin son güman yerləri Avropa Şurası, daha dəqiqi, Azərbaycanın yeni seçilmiş parlament nümayəndə heyətinin mandatının təsdiqlənəcəyi AŞPA-nın sessiyası (yanvar 2006) idi. Qeyd edək ki, AŞ-yə üzv olan hər bir ölkədə keçirilmiş parlament seçkilərindən sonra onun deputat qrupunun

mandatının AŞPA-da təsdiqlənməsi formal bir prosedurdur. Digər tərəfdən, mandatın təsdiqlənib-təsdiqlənməməsinin seçkilərin nəticələrinə də hər hansı təsiri olmayacaqdı. Eyni zamanda, beynəlxalq təşkilatların 6 noyabr seçkilərinə ümumi qiyməti, eləcə də ölkə rəhbərliyinin seçki pozuntularının aradan qaldırılması üçün atdığı addımların AŞ-də müsbət qarşılanması deməyə əsas verirdi ki, Azərbaycan deputat qrupu ilə bağlı prosedur müsbət həll olunacaq. Bunu sessiya öncəsi Strasburqa müraciətlər göndərərək Azərbaycan deputatlarının mandatının təsdiqlənməməsini tələb edən müxalifət liderləri də yaxşı bilirdilər.

Lakin həmişəkitək cılız firqə mənafeləri, illüzor revanşizm iddiaları bu qüvvələrdə dövlət təəssübkeşliyi hissini üstələmişdi. Üstəlik AŞPA-dakı bəzi qüvvələr, konkret olaraq təşkilatın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri müxalifətə siyasi havadarlığı davam etdirərək onların bu niyyətini təşviq edirdilər. Odur ki, müxalifət liderləri Azərbaycan hakimiyyətindən AŞPA-ya şikayət etmək üçün dəstə ilə Strasburqa yola düşdülər. Nəzərə alınsa ki, səfərin xərclərini AŞ çəkmişdi, bu, müxaliflər üçün pulsuz bir turist gəzintisi oldu. Müxalifət liderlərinə elə gəlirdi ki, AŞPA yalnız məruzəçilərdən ibarətdir və onların məruzələri də sessiyada qeyd-şərtsiz qəbul ediləcək. Amma nəticə yenə onların düşündüyünün əksi oldu. Məruzəçilərin Azərbaycandakı seçkilərlə bağlı subyektiv mülahizələr AŞPA-nın əksər üzvləri tərəfindən qəbul olunmadı. Qurum seçkilərdəki müsbət məqamlarla yanaşı, neqativ halları təsbit edən ümumən obyektiv qətnamə qəbul etdi və Azərbaycan deputat qrupunun mandatı təsdiqləndi. Sessiya göstərdi ki, Azərbaycanla AŞ arasında müəyyən fikir ayrılıqları, anlaşmazlıqlar olsa da, təşkilatda həmin məsələləri dialoq yolu ilə çözmək məramında olanlar vəziyyəti qaraqışqırıq və şantajla böhrana salmaq istəyənlərdən qat-qat çoxdur.

Eyni zamanda, Strasburqdakı müzakirələr göstərdi ki, AŞ-yə üzvlük demokratik dünya birliyinə inteqrasiya yolunu seçmiş Azərbaycan üçün nə qədər önəmlidirsə, bu təşkilat üçün də Azərbaycan kimi strateji əhəmiyyətli ölkənin onun sıralarında olması bir o qədər vacibdir. Prezident İlham Əliyev AŞPA-dakı müzakirələr barədə danışarkən bu məqamı xüsusilə nəzərə çatdırmışdı: «Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda iştirak edir, bu təşkilatlara könüllü daxil olubdur. Təşkilatda üzv olmaq o demək deyil ki, kimsə səni zorla oraya salmaq istəyir, yaxud da səni oradan çıxartmaq istəyir. Azərbaycanda bəzi siyasi qüvvələr ölkəmizin Avropa Şurası ilə olan münasibətlərinə kölgə salmaq üçün müxtəlif şayiələr, uydurmalar səsləndirirdilər. Onların heç birinin əsası olmamışdır. Avropa Şurasının bəzi üzvləri Azərbaycana qarşı ədalətsiz mövqedədirlər. Bu, bu gün yaranan məsələ deyil, mən onu da xatırlayıram. Elə insanlar var ki, onlar Azərbaycanı Avropa ailəsinin bir üzvü kimi qəbul etmək istəmirlər. Bunun səbəbləri var, bu barədə mən çox dərinə getmək istəmirəm. Amma bu, faktdır. O da faktdır ki, bizim əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. Ona görə yenə deyirəm, bu, siyasi mübarizədir və Azərbaycan öz iradəsini açıq şəkildə ifadə etmişdir. Bizim Avropa Şurası ilə əməkdaşlığımız bizə lazımdır və Avropa Şurasına lazımdır. Mən yeni parlamentin ilk iclasında demişdim ki, Avropa Şurası yalnız Azərbaycan üzrə məruzəçilərdən ibarət deyil və mən haqlı çıxdım. Azərbaycanı təcrid etmək cəhdləri, Azərbaycanın əleyhinə ədalətsiz rəy formalaşdırmaq cəhdləri - onların heç birinin təsiri olmadı. Bir daha deyirəm, Avropa Şurası ilə, bütün başqa təşkilatlarla bizim səmərəli, qarşılıqlı hörmətə əsaslanmış münasibətlərimiz mövcuddur və münasibətlər məhz bu istiqmətdə davam edə bilər. Kimsə fikirləşirsə ki, Azərbaycanı haradasa təhqir etmək olar, yaxud da Azərbaycanı alçaltmaq, təcrid etmək, onu cəzalandırmaq olar - o insanlar yanılırlar. Bu

mümkün deyil və heç vaxt da mümkün olmayacaqdır. Bizim kifayət qədər imkanlarımız var, gücümüz var ki, öz siyasətimizi davam etdirək» (206).

O ki qaldı müxalifət liderlərinin AŞPA-da Azərbaycana qarşı hansısa sanksiyaya nail olmaq istəyinə, bu həmin qüvvələrin zatən çoxdan bəlli olan siyasi simasının göstəricisi idi. Söhbət ondan getmir ki, Azərbaycanın AŞPA-da bir müddət söz demək hüququndan məhrum edilməsi ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirəcəkdi. Bu, məsələnin siyasi tərəfi idi və hətta bu, baş versəydi belə, növbəti sessiyalarda (10 dairə üzrə təkrar seçkilərdən sonra) deputat qrupunun mandatı təsdiqlənəcəkdi. AŞPA-da bizimlə bağlı qəbul ediləcək sanksiyanın nəticəsi isə hər şeydən öncə özünü onda göstərəcəkdi ki, Azərbaycan bu qurumda Dağlıq Qarabağla əlaqədar, o cümlədən Ermənistanla bağlı hər hansı müzakirəyə müdaxilə etmək imkanından məhrum olacaqdı. Təsadüfi deyil ki, Ermənistanda AŞPA-nın Azərbaycanla bağlı qərarını bizim müxalifətçilərdən heç də az səbirsizliklə gözləmirdilər və nəticə onları da məyus etmişdi. Yeri gəlmişkən, 2003-cü ildə Ermənistandakı parlament seçkilərindən sonra bu ölkənin müxalifəti də siyasi revanş naminə erməni deputat qrupunun mandatının təsdiq edilməməsi üçün AŞPA-ya müraciət etmək qərarına gəlsə də, sonradan bu niyyətdən vaz keçmişdi. Çünki ortada dövlət maraqları deyilən bir şey vardı.

Nə yazıqlar ki, bizdə hələ də bir sıra qüvvələr üçün firqə həmrəyliyi dövlət təəssübkeşliyini üstələyir: «Bizim müxalifət Avropa Şurasına Azərbaycan haqqında donoslar yazmışdır. Müxalifətin üzvləri Avropa Şurasına gedərək, orada sanksiyaların tətbiq olunmasını gözləyirdilər. Burada məqsəd nədir? Məqsəd Azərbaycanı səsdən məhrum etməkdir. O ərəfədə ki, orada Dağlıq Qarabağ məsələsi müzakirə olunacaq. Azərbaycanı kim o səsdən məhrum etmək istəyir? Azərbaycan müxalifəti, ermənilər, bir də erməni lobbisinin təsiri altında olan

siyasətçilər. Yəni bu, milli xəyanətin göstəricisidir. Ona görə Azərbaycan xalqı, əlbəttə, bütün bunları çox yaxşı bilir. Donos yazmaq, - özü də öz ölkəsindən, - ən biabırçı bir haldır. Onların fəaliyyəti elə əvvəllər də bizə bəlli idi. Ermənistanın xüsusi xidmət orqanları ilə onların nümayəndələrinin sövdələşməsi, konyak içməsi, yaxud da pul alması - bütün bunlar onların siyasətinin əsasını təşkil edir» (207).

Müxalifətin cığal ambisiyalarla bağlı AŞPA-yə bəslədiyi ümidlərinin də puça çıxması 6 noyabr seçkilərinin məğlub tərəfi üçün bəlli bir həqiqət anı oldu. «Narıncılar», eləcə də 6 noyabrdan sonra onlara qoşulmuş digər qüvvələr seçkinin bütünlüklə uduzulduğunun fərqində idilər və bunu etiraf etmək vaxtı gəlmişdi. Lakin, məğlubiyyəti etiraf etmək kimi adi siyasi mədəniyyət praktikasının təşəkkül tapdığı başqa ölkələrdən fərqli olaraq, bizdə bu mənzərəni, görünür, hələ çox gözləmək lazım gələcək. Odur ki, müxalifət düşərgəsində hərə bu vəziyyətdən özünə uyğun üslubda çıxdı. Bu, düşərgə təmsilçilərinin 10 dairədə keçiriləcək təkrar seçkilərə münasibətində özünü daha qabarıq nümayiş etdirdi. Qeyd edək ki, prezidentin hələ 2005-ci il dekabrın 9-da imzaladığı sərəncamla təkrar seçkilər 2006-cı il mayın 13-nə təyin edilmişdi, seçki kampaniyası isə faktiki olaraq fevralda start götürdü. AXCP və ADP-nin parlamenti və təkrar seçkiləri bokyot etmək çağırışlarına rəğmən həm yeni Milli Məclisin fəaliyyətində, həm də 10 dairə üzrə seçkilərdə iştiraka qərar verən Müsavat bununla artıq keçmiş həmkarlarından ayrıldı və «narıncı» koalisiyanın süqutu rəsmiləşdi. Müsavat bu addımı siyasi situasiyanın diqtəsi altında və faktiki əlacsızlıqdan atmışdı. Partiya seçkidə nisbi nəticə (4 yer) əldə etmiş, formal olaraq «ana müxalifət» adına sahib olmuşdu. Belə vəziyyətdə Müsavatın parlamentdə yeri olmayan həmkarlarına qoşulub mənasız radikalizm və nihilizmi davam etdirməsi normal məntiq baxımından siyasi intihar

anlamına gəlirdi. Düzdür, partiya radikal düşərgə üçün bu qeyri-populyar addımı atarkən siyasi sifətini qorumaq xatirinə bəzi populist bəyanatlardan da qalmamış, hətta bəzi müsavatçılar «narıncı» inqilab mübarizəsinin parlament müstəvisində davam edəcəyini bildirmişdilər. Müsavat başqanı isə «narıncı» inqilabın hələ bitmədiyini, «ölkənin və bölgənin demokratikləşməyə məhkum olduğunu» bəyan etmişdi: «Bizim tutduğumuz yol beynəlxalq tələblərə cavab verir və Qərb Azərbaycanda demokratik dəyişikliklərin olmasında maraqlıdır» (208).

Yeri gəlmişkən, beynəlxalq dairələr, o cümlədən Azərbaycanda siyasi gedişatı yaxından izləyən AŞ təmsilçiləri də müxalifəti boykot iddialarından geri durmağa çağırmış və Müsavatın addımını təqdirlə qarşılamışdılar. Müsavatın hərəkətini müxalifət düşərgəsinə xəyanət hesab edən AXCP, ADP və onlara qoşulmuş Liberal Partiyası və AMİP-in «Əli Əliyev qanadı» (daha sonra Vətəndaş və İnkişaf Partiyası adı altında rəsmiləşdi) isə «Azadlıq» blokunu yenidən formatlaşdıraraq «narıncı» idealları yaşatmaq qərarına gəldilər. Düzdür, bir qədər sonra ADP bu dördlükdən ayrıldı və iqtidarla dialoqa hazır olan, daha konstruktiv müxalifət partiyasına çevrildiyini bəyan etdi. Necə deyərlər, həqiqət anı hər kəsə fərqli-fərqli zamanlarda əyan olur. Lakin bütün bunlar Azərbaycanın real siyasi mənzərəsinə ciddi yenilik gətirməyəcək təfərrüat və detallardır, buradakı başlıca reallıq isə dəyişməz qalır. Ölkənin siyasi səhnəsində şəksiz siyasi nüfuz və geniş elektoral dəstəyə malik prezident və onun lideri olduğu partiya və bir də hakimiyyətə alternativ olmayacaq qədər dağınıq və qarışıq olan müxalif düşərgə qalmaqdadır.

Təkrar seçkilərə gəldikdə isə, bu seçkilər proses etibarilə 6 noyabr seçkilərinin daha təkmil və şəffaf davamı, nəticə etibarilə isə hakimiyyətin rəqibləri üzərində üstünlüyünü növbəti təsdiqi oldu. Seçkilərdə 10 dairə üzrə 154 namizəd iştirak edirdi.

Maraqlıdır ki, hakim partiya təkrar seçkilərdə 10 dairədən yalnız 6-da rəsmi namizəd irəli sürmüş, 20-dək YAP-çı fərdi qaydada seçkiyə qoşulmuşdu. Müsavatın 10-a yaxın təmsilçisi, daha 15 partiyanın isə hərəsindən seçkilərdə 1-5 namizəd seçkidə iştirak edirdi. Deputatlığa namizədlərin yenə təxminən yarısı bitərəflərdən ibarət idi. Təkrar seçkilər, 6 noyabr seçkilərindən fərqli olaraq, sakit və qalmaqalsız keçdi. Təşviqat kampaniyası gedişində 30 namizəd seçki yarışını tərk etmişdi. Onların əksəriyyəti bunu könüllü etmiş, bir neçə namizəd seçiciləri maddi təşviqlə ələ almaqda ittiham olunaraq məhkəmənin qərarı ilə yarışdan kənarlaşdırılmışdı. 13 mayda keçirilən səsvermənin gedişini 165 nəfər xarici və 6 mindən çox yerli müşahidəçi izləmişdi. Səsvermə zamanı ciddi qanun pozuntusu qeydə alınmamış, ayrı-ayrı insidentlərlə bağlı MSK-ya müraciətlər operativ şəkildə həllini tapmışdı. Təkrar seçkilərdə də bir neçə yerli və xarici təşkilat, o cümlədən ABŞ-ın Respublikaçılar İnstitutu tərəfindən «exit-poll» keçirilmişdi və onların hamısının yekunu bütün 10 dairə üzrə MSK-nın elan etdiyi nəticələrlə üst-üstə düşdü. Nəticələrə gəldikdə, 10 dairədən 5-də YAP nümayəndələri, 3-də bitərəflər, 2-də isə müxalifət təmsilçiləri qalib gəlmişdilər. Seçkidə uğur qazanan hər iki müxalifətçi düşərgənin mödətil qanadını (Ədalət və Vətəndaş Həmrəyliyi partiyaları) təmsil edirdi. Nəticədə hakim partiyanın deputatlarının sayı 61-ə, bitərəf deputatların sayı 44-ə, müxalifət təmsilçilərinin sayı isə 16-ya çatdı. Daha 3 deputat iqtidaryönlü partiyaları (Ana Vətən və Sosial Rifah) təmsil edirdi.

Beynəlxalq müşahidəçilərin təkrar seçkilərlə bağlı rəyi 6 noyabr seçkilərinə nisbətən daha pozitiv idi. O cümlədən Avropa Şurasını və ATƏT-i təmsil edən müşahidəçilər qrupu təkrar seçkilərin daha şəffaf və demokratik keçdiyini elan etdilər. Eyni zamanda, beynəlxalq müşahidəçilər bir sıra irad və tövsiyələrini (o cümlədən seçki komissiyaların tərkibinə yenidən baxılması ilə

bağlı) bildirdilər. Nəhayət, 2006-cı il iyunun 5-də Konstitusiya Məhkəməsi təkrar seçkilərin nəticələrinə dair son qərarı açıqladı və 10 dairə üzrə qaliblərin mandatlarını təsdiqlədi. Bu ümumilikdə 11 ay (2005-ci ilin iyulundan) davam etmiş parlament seçkilərinin başa çatması demək idi.

Beləliklə, Azərbaycanın yeni tarixində mühüm bir siyasi mərhələ, nəticəsi ölkənin gələcək inkişafı üçün müstəsna önəm kəsb edən seçki ili yekunlaşmışdı. Bu yekunun ortaya qoyduğu çox mühüm nəticələr vardı. Faktiki olaraq bu seçki ili Azərbaycanın dövlət və cəmiyyət olaraq inkişafında tarixi bir zaman ayrımı, mühüm bir dönüş mərhələsi idi. Bu, Azərbaycanda 1993-cü ildən, əsası böyük öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli dövlətçilik konsepsiyasının, sabit inkişaf yolunun keyfiyyətcə yeni mərhələyə qədəm qoyması demək idi. İki il öncə, 2003-cü ildə Heydər Əliyev yolunun davamına və onun layiqli davamçısına səs verən xalq 2005-ci ildə bu etibar və dəstəyini yeniləyərək öz liderinin, onun həyata keçirdiyi siyasətin arxasında olduğunu nümayiş etdirdi. Bu baxımdan 2003-cü ilin prezident seçkilərində İlham Əliyevin qələbəsi Azərbaycanda Heydər Əliyev yolunun, sabitlik və inkişaf kursunun dönməzliyini sübut etmişdisə, 2005-ci ilin parlament seçkiləri bu siyasətin mühüm tarixi sınaqdan uğurla keçdiyini təsdiqlədi. Faktiki olaraq bu seçkilər hakimiyyət üçün, ilk növbədə, ölkənin rəhbəri üçün ümumxalq referendumu idi və onun nəticələri ölkə əhalisinin həyata keçirilən siyasətə, prezident İlham Əliyevə və onun liderliyinə yüksək etimadını bir daha nümayiş etdirdi.

Bu seçkilər Azərbaycanın iqtisadi inkişaf, sosial rifah, demokratik cəmiyyət və möhkəm dövlətçilik kursunun uğurunu təsdiqləməklə bərabər, eyni zamanda, bu yolun daha rəvan və nəticə baxımından daha dolğun və effektiv olduğunu sübuta yetirdi. Çünki bu yol ictimai-siyasi sarsıntılardan, fəsadları

uğurundan qat-qat çox olan rəngbərəng inqilablardan uzaq olan təkamül və islahatlar yoludur. Azərbaycan özünün uğurlu inkişaf kursu ilə müasir siyasi tarixə, keçid dövrü kimi səciyyələnən siyasi proseslər nəzəriyyəsinə öz yolunu, öz variantını təqdim etmiş oldu. Bu yolun hansısa məxsusi rəngi, yaxud qurama simvolu yoxdur. Bu, Azərbaycan reallıqlarını ən mütənasib şəkildə əks etdirən, xalqın dəstəyinə arxalanan, onun daha rifahlı, daha əmin və təhlükəsiz gələcəyinə təminat verən şəffaf və sabit bir inkişaf yoludur. Təsadüfi deyil ki, Azərbaycandakı parlament seçkilərindən sonra beynəlxalq siyasət icmallarında, özəlliklə postsovet məkanındakı siyasi prosesləri, bu coğrafiyadakı ölkələrin demokratiya və azad iqtisadi münasibətlər sisteminə keçidini tədqiq edən xarici ekspertlərin çıxışlarında Azərbaycan presedenti, onun məziyyətləri barədə fikirlərə tez-tez rast gəlmək olur.

Hələ 2005-ci ilin parlament seçkiləri ərəfəsində Azərbaycanda «məxməri» inqilabın mümkünlüyü barədə mülahizələri ciddi qəbul etmədiyini və prezident İlham Əliyevin yeritdiyi siyasətin ölkə əhalisinin əksəriyyəti tərəfindən dəstəkləndiyini nəzərə çatdıran nüfuzlu amerikalı politoloq, ABŞ-ın Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin məsləhətçisi Zbiqnev Bjezinski AzTV-yə müsahibəsində həmin qənaətini bir daha vurğulayıb. Politoloq qeyd edir ki, İlham Əliyevin bacarıqlı liderliyi sayəsində Azərbaycan həm regionda mövqelərini gücləndirir, həm də demokratik cəmiyyət quruculuğu yolunda sabit şəkildə inkişaf edir: «O, Azərbaycanda bir siyasi davamçı kimi mühüm rol oynayır. Eyni zamanda, beynəlxalq səhnədə də onun rolu artmaqdadır. O, özünəinamlı, ciddi dövlət adamıdır və Avropanın həmin hissəsində öz mühüm rolu və konstruktiv mövqeyi ilə seçilir. Başqa ölkələr kimi, Azərbaycan da keçmiş sovet respublikasından müasir dövlətə keçid mərhələsini yaşayır. Bununla yanaşı, Azərbaycanın regionda rolu artmaqda davam

edir. Azərbaycanın bir neçə mühüm məsələlərə dair mövqeyi həm regional, həm də beynəlxalq səviyyədə öz konstruktivliyi ilə seçilir və regionda sabitliyin qorunub saxlanılması ilə yanaşı, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafına da stimul verir və enerji mənbələrinin şaxələndirilməsinə kömək edir. Bilirəm ki, bir vaxtlar demokratiya və milli müstəqillikdən məhrum olan cəmiyyətdə demokratiya quruculuğu çox mürəkkəb və çətin prosesdir. Bəziləri üçün bu proses yavaş, digərləri üçün sürətli görünə bilər. Çox zaman xarici müşahidəçilərin siyasi dəyişikliyin mürəkkəbliyi barədə ətraflı məlumatı olmur və vaxtaşırı səbirsizlik edərək, tənqidi mövqe tuturlar. Bunun da nəticəsində müəyyən bir proses barəsində sadə və ümumiləşdirilmiş qiymətləndirmə aparmaq asan olmur. Lakin mənim ümumi fikrim belədir ki, Azərbaycan daha müasir, daha inkişaf etmiş və daha plüralist cəmiyyətə çevrilməkdədir və bununla bağlı Azərbaycanın daha da demokratikləşməsi prosesi qaçılmazdır» (209).

Azərbaycan seçkiləri postsovet məkanında təkcə «məxməri» inqilablar qatarının dayanması demək deyildi, bu seçkilər geniş mənada həm də ortaya daha optimal və örnək alına biləsi uğurlu bir nümunə qoymuşdu. Onun üstünlüyü isə, təbii ki, hər şeydən öncə müqayisədə özünü təsdiqləyirdi. 2003-2005-ci illərdə «məxməri» inqilablardan keçmiş ölkələrdə, Gürcüstan qismən istisna olmaqla, kəskin siyasi təbəddülatlar ağır sosial-iqtisadi nəticələr doğurmuş, sabitsizlik və böhran zolağına yol açmışdı. Özəlliklə Ukraynada «narıncı» inqilabın fəsadları uzun müddət sürdü və bu proses hələ də davam etməkdədir. İnqilabın qələbəsindən cəmi doqquz ay sonra, 2005-ci ilin sentyabrında «narıncı» koalisiyanın dağılması, dünənki müttəfiqlər – prezident Yuşşenko və baş nazir Timoşenkonun siyasi mübarizənin əks cəbhələrinə keçməsi «məxməri» inqilabın tərs üzünü ən qabarıq şəkildə ortaya qoymuşdu. Ukrayna təcrübəsi

göstərdi ki, tarixdəki bütün inqilablar kimi, «məxməri» inqilabların da bəyan edilən populist şüarlar fonunda başlıca məsələsi hakimiyyətdir və onun naminə inqilab liderləri dünənki müttəfiqliyin də, onları dəstəkləmiş kütlənin maraqlarının da üzərindən adlamağa hazırdırlar. Əhali isə gördü ki, inqilabdan sonra nəinki onlara vəd olunan sosial-iqtisadi irəliləyiş başlanmayıb, əksinə, vəziyyət daha da ağırlaşıb. Ukraynada 2004-cü ildə («narıncı» inqilabadək) 11-12 faiz təşkil edən iqtisadi artım 2005-ci ildə 4-5 faizə enmişdi. Növbəti ildə bu geriləməni qismən aradan qaldırmaq mümkün olsa da, 2007-ci ilin cari statistikası (8-9 faiz artım) Ukraynanın hələ də üç il öncəki iqtisadi inkişaf tempini bərpa edə bilmədiyini göstərir.

Əlbəttə, qeyd oluna bilər ki, bu müddətdə Ukraynada demokratik islahatlar sürətlənib, lakin bu prosesin doğurduğu fəsadlar, uzun siyasi böhran, ölkədə hələ də sabit parlament və hökumətin formalaşmaması bu xüsusda birmənalı müsbət fikir söyləməyi mümkünsüz edir. Üstəlik dünənki narıncı ideallar da xeyli dərəcədə arxa plana keçib. 2006-cı ilin martında «narıncı» hakimiyyətin keçirdiyi ilk seçki onun məğlubiyyəti ilə nəticələndi. Ali Rada Yuşşenkonun prezident seçkilərində məğlub etdiyi Yanukoviçin partiyasının faktiki nəzarətinə keçdi, sonuncunun qurduğu koalisyon hökumətlə prezident hakimiyyəti arasında başlanan qarşıdurma isə dövlət idarəçiliyini zaman-zaman iflic etdi. Nəticədə Ukrayna son ilyarımda ikinci parlament seçkilərinə (30 sentyabr 2007-ci il) getdi və onun nəticələrinin bu ölkəyə nə dərəcədə uzunmüddətli siyasi sabitlik gətirəcəyini söyləmək çətindir. Yeri gəlmişkən, «məxməri» inqilab ideologiyasının müəlliflərindən sayılan ABŞ-ın keçmiş dövlət katibi Madlen Olbrayt hələ 2005-ci ilin yayında Çexiyanın «Praqa-Fronta» qəzetinə müsahibəsində Ukraynadakı proseslərdən narahatlıq ifadə edərək bunun nəticdə «narıncı» hakimiyyət üçün əksinqilabla yekunlaşa biləcəyini bildirmişdi.

İnqilab burulğanından keçən digər bir ölkə – Qırğızıstan isə, ümumiyyətlə, «məxməri» ideologiyanın faktiki iflas etdiyi nümunə kimi göstərilə bilər. Bu ölkədə Akayev dönəmində onsuz da ağır olan sosial-iqtisadi vəziyyət 2005-ci ilin mart çevrilişi və sonrakı siyasi böhran nəticəsində daha da pisləşmiş, iqtsadiyyat faktiki yerində (1 faizədək artım) saymışdı. Düzdür, növbəti iki ildə iqtisadi artım tempi yüksəldi (8-9 faiz), lakin inqilabsonrası geriləmə ilə müqasiyədə bu, nisbi bir artımdır. Ölkədəki siyasi proseslərə gəldikdə isə, «zanbaq» inqilabından sonra davam etməkdə olan konstitusion böhran (prezident hakimiyyəti ilə hökumət və parlament arasında səlahiyyətlərin yenidən bölüşdürülməsi ilə bağlı), ötən müddətdə hökumətin iki dəfə dəyişdirilməsi, hakimiyyət düşərgəsindən gərginlik və qalmaqalın əskik olmaması vəziyyəti təsəvvür etməyə imkan verir. Qırğızıstanda «zanbaq» çevrilişindən sonra mütəşəkkil cinayətkarlığın siyasətə getdikcə daha çox nüfuz etməsini xarici ekspertlər də mütəmadi nəzərə çatdırırlar. Təkcə 2005-ci ildə ölkədə 7 deputat qətlə yetirilmişdi. İnqilabın liderlərindən isə hakimiyyətdə tək prezident Bakiyev qalıb, onun dünənki müttəfiqləri, o cümlədən keçmiş baş nazir Kulov indi hakimiyyətə ən sərt müxalifətdədir.

Qeyd etdiyimiz kimi, bu müddətdə inqilab ölkələrindən yalnız Gürcüstanda ümumi sabitlik və inkişaf tempi davam edib. Hərçənd, bütün siyasi ekspertlər nəzərə çatdırırlar ki, «qızılgül» inqilabının əsas simalarından birinin, baş nazir Cvaniyanın 2005-ci ilin əvvəlində müəmmalı şəkildə ölümü hakimiyyət komandasında sonradan tədricən üzə çıxa biləcək siyasi çəkişmə və gərginliyin təşəkkül tapmaması üçün bəlkə də həlledici faktor oldu. Bu tezisə arqument kimi ötən müddətdə Gürcüstanın hakimiyyət komandasında ortaya çıxan konfliktlər və komandanı tərk etmiş bir sıra önəmli simaların prezident Saakaşviliyə müxalifətə keçməsi göstərilir. Gürcüstan «məxməri»

inqilabdan keçmiş tək ölkədir ki, orada dərin siyasi dəyişikliklər böhrana yol açmamış və iqtisadi inkişaf yüksələn xətt üzrə getmişdir. Lakin bu xüsusda onu da mütləq qeyd etmək lazımdır ki, Gürcüstanın bu illərdəki sabit inkişafında Azərbaycanın yaxın dost və tərəfdaş kimi bu ölkəyə verdiyi mütəmadi dəstək böyük rol oynamışdır. Təsadüfi deyil ki, qonşu ölkənin rəhbərliyi Gürcüstan dövlətinin inkişafı və möhkəmlənməsində Azərbaycanın qardaş yardımının böyük rol oynadığını daima məmnunluq hissi ilə qeyd edir.

Bəli, güclü Azərbaycan, onun iqtisadi potensialı həm də bizə dost və tərəfdaş ölkələr üçün rifah və inkişaf amilidir. Bunun ən bariz misalı Azərbaycanın neft strategiyasının praktik nəticələrində özünü göstərir. Təkcə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tranzitinə görə, qonşu Gürcüstan ildə 50-60 milyon dollar gəlir götürür. Eyni zamanda, bu iqtisadi potensialının birinci xidmət ünvanı, təbii ki, Azərbaycan dövləti, Azərbaycan xalqı, onun rifahıdır. Bunun təminatı isə Azərbaycanda bərqərar olmuş sabitlikdən, xalqın yüksək etimadını əməli fəaliyyəti ilə doğruldan hakimiyyətdən və onun liderindən asılıdır. Məhz bu zəruri şərtlərin dolğun özünütəsdiqi nəticəsində Azərbaycan 2005-ci ildə, bütün bədxahların cəhdlərinə baxmayaraq, özünün sabit inkişaf və dövlətçilik kursunu qoruyub saxladı, onu daha əzmli etdi. Bu il, eyni zamanda, şəxsən prezident İlham Əliyev üçün, onun siyasi liderliyi mühüm sınaq dövrü idi və dövlət başçısı xalqın etimad və dəstəyi ilə həmin sınaqdan zəfərlə çıxdı. Düzdür, hakim komandada bu sınaqdan sınıq çıxanlar, dövlət başçısına, onun etibarına xəyanət edənlər də oldu, amma nəticə etibarilə bu hadisələr İlham Əliyev iqtidarını zəiflətmədi, əksinə, daha da möhkəmlətdi. Və yaşanan gərgin siyasi proseslərə, mürəkkəb seçki marafonuna, müxtəlif məqsədli görünən və görünməyən təzyiqlərə rəğmən Azərbaycan hakimiyyəti İlham Əliyev liderliyində 2005-ci ildən güclənərək, ölkənin qarşısında

duran böyük vəzifələri həll etmək üçün daha da səfərbər olaraq çıxdı.

Qarşıda isə Azərbaycanı daha sürətli inkişaf mərhələsi gözləyirdi. Təsadüfi deyil ki, 2005-ci ildə mürəkkəb siyasi proseslərə rəğmən 26 faiz iqtisadi artım əldə edən Azərbaycan növbəti, 2006-cı ildə daha yüksək göstəriciyə – 35 faizlik iqtisadi yüksəlişə nail oldu. 2007-ci ilin iqtisadi inkişaf göstəriciləri, eləcə də növbəti illər üçün nikbin proqnozlar bu yüksəliş tempinin hələ uzun müddət saxlanılacağını göstərir. Azərbaycan sürətli iqtisadi inkişaf tempi ilə postsovet məkanındakı ölkələri ən azı üç dəfə üstələyir. İlham Əliyev prezident seçilərkən yaxın beş ildə Azərbaycanın ümumi daxili məhsulunun 2 dəfə artırılacağını bəyan etmişdi və bu real şərtlər daxilində yüksək bir hədəf idi. Lakin Azərbaycanın ötən müddətdə nail olduğu iqtisadi yüksəliş artıq bu hədəfi arxada qoyub, İlham Əliyevin prezidentliyin dörd ilində ölkənin ümumi daxili məhsulu 2,5 dəfə artıb. Bu müddətdə Azərbaycanın dövlət büdcəsi 6 dəfədən çox (2003-cü ildəki 1,2 milyard dollardan 2007-ci ildə 7,5 milyard dollara) artıb. Azərbaycanın yaxın 20 ildə neftdən əldə edəcəyi gəlir hətta ən ehtiyatlı hesablamalara görə (neftin dünya bazarında qiyməti 1 barrel üçün 45 dollar götürülməklə) 140-150 milyard dollar arasında gözlənilir. Gerçəkdə isə neft qiymətlərindəki hazırkı artım tempi nəzərə alınsa, bu rəqəm 250, hətta 300 milyard, yəni ildə orta hesabla 15 milyard dollar ola bilər. Bir neçə il öncəyədək Azərbaycanın bu iqtisadi göstəricilərə nail olacağına yalnız nəzəri təhlillərdə rast gəlmək olardı. İndi isə bu artıq reallıqdır.

Əlbəttə, heç iddia etmir ki, Azərbaycanın nail olduğu iqtisadi uğurlar ölkədə tam sosial rifahı təmin edib, bütün problemləri yoluna qoyub. Ölkədə hələ də yoxsul, sosial qayğı və problemləri olan insanlar var. Bunu ölkə başçısı da çıxışlarında daima etiraf edir. Lakin önəmli olanı bu problemlərin həlli üçün dövlət

rəhbərliyinin ardıcıl və effektiv fəaliyyətidir. Eyni zamanda, prezident dəfələrlə bəyan edib ki, Azərbaycanın iqtisadi yüksəlişi ilə siyasi islahatların, demokratikləşmə prosesinin vahid kontekstdə aparılması, onların bir-birini tamamlaması hakimiyyətin strateji kursudur və ona dönmədən əməl ediləcək. Çünki bu, Azərbaycanın hansısa kənar amillərin təsiri altında deyil, müstəqil şəkildə seçdiyi bir yoldur: «Azərbaycanda əsas infrastruktur layihələri 2007-2008-ci illərdə başa çatmalıdır. Hüquqi dövlət quruculuğu, demokratikləşmə prosesləri daha da sürətlə aparılmalıdır. Vətəndaş cəmiyyətinin, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik.

Ölkəmizin gələcək inkişafını mən çox açıq və parlaq görürəm. Azərbaycan hansı ölkəyə çevriləcək, beş ildən, on ildən, iyirmi ildən sonra Azərbaycanın mövqeləri necə olacaq, Azərbaycanın iqtisadi potensialı necə olacaq, insanların həyat səviyyəsi necə olacaq - bütün bunlar bizi düşündürür. Hamımız istəyirik ki, ölkəmiz müasir, zəngin, qüdrətli dövlətə çevrilsin. Azərbaycanda insanlar yaxşı yaşasınlar, iqtisadiyyatımız güclü olsun, siyasi imicimiz güclü olsun, bölgədə gedən proseslərə təsir imkanlarımız daha da artsın. Biz bunu istəyirik. Amma istəmək və bunu etmək başqa-başqa məsələlərdir. Bunu etmək üçün, arzularımızı həyata keçirmək üçün bizim imkanlarımız var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq - bu, bizdən asılıdır. Azad cəmiyyət, hüquqi dövlət, qanunun alilliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və

Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi - bu, bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir. Bütün istiqamət üzrə bizim proqramımız var. Biz bilirik ki, nə istəyirik, haraya gedirik və bunun nəticəsi nə olacaqdır. Nəticədə güclü ölkə, güclü Azərbaycan olacaq» (210).

«Narıncı dalğa qırıldı, dayandı və öldü. Keçmiş sovet məkanında nəinki rəngli inqilabların süni dalğası dayandı, həmçinin qırılaraq geriyə doğru hərəkət etməyə başladı. Aşkar resetsiya vardır. Müəllimlərindən daha davamlı olmağa çalışan inqilabçılar absurd, tupik həddə çatdılar və beləliklə narıncı ideologiyaya qarşı xalqlarında uzun müddətli immunitet yaratmış oldular». Bu fikri isə Rusiya prezidentinin xarici ölkələrlə beynəlxalq regional və mədəni əlaqələr idarəsinin rəisi Modest Kolerov Azərbaycanda baş verən hadisələrdən iki il sonra O2TV kanalının 25 yanvar tarixində efirə gedən proqramında bildirmişdi. Lakin o nədənsə narıncı dalğanın qarşısının harada alındığını və bu təhlükəli prosesləri dayandıran siyasi xadimin kim olduğunu söyləməyi unutmuşdu. Bəlkə də soruşmamışdılar. Ancaq hamının etiraf etdiyi həqiqət bundan ibarət idi ki, keçmiş Sovetlər İttifaqı məkanını uzun müddət gərginlikdə saxlayan "narıncı irtica" dalğasının qarşısı Azərbaycanda alınmışdı və Kolerovun dediyi "ölüm" hadisəsi Bakı şəhərində baş vermişdi. Dövlətlərə və xalqlara dəhşətli faciələr yaşadan **narıncı fəlakəti müdrik və qətiyyətli addımları ilə dayandıran isə böyük dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev idi.**

RƏSMİ MATERİALLAR

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİLLI TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN BİR QRUP ƏMƏKDAŞINA YÜKSƏK DÖVLƏT MÜKAFATLARININ TƏQDİM ETMƏ MƏRASİMİNDƏ GİRİŞ NİTQİ

Hörmətli Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları!

Hörmətli zabitlər!

Bir neçə gün bundan əvvəl Milli Təhlükəsizlik Nazirliyi tərəfindən keçirilmiş xüsusi əməliyyat nəticəsində böyük cinayətkar dəstə ifşa olundu, dəstənin üzvləri həbs olundular. Bu barədə ictimaiyyətə də məlumat verilmişdir. Artıq bu barədə kifayət qədər məlumat var. Onu qeyd etmək istəyirəm ki, bu, Azərbaycanda son illər ərzində baş vermiş ən böyük cinayətlərdən biri idi. Milli Təhlükəsizlik Nazirliyi tərəfindən aparılmış əməliyyat ən uğurlu, ən böyük əməliyyat idi. Böyük cinayətlər törətmiş, müxtəlif cinayətlərdə əli olmuş bu insanlar uzun illər Azərbaycanda cəzasız yaşayıblar. Azərbaycan ictimaiyyəti bütün bu hadisələrlə bağlı, cinayətlərlə, qətllərlə bağlı çox böyük narahatlıq hissi keçirirdi. Bu, bizim ümumi işimizə böyük zərbə idi.

Azərbaycanda son illər ərzində yaranmış ictimai-siyasi sabitlik, əmin-amanlıq bizim hamımız üçün çox mühümdür və ölkəmizin uğurlu inkişafı üçün başlıca şərtdir.

Bu cür amansız, qəddar cinayətlər əlbəttə, cəmiyyətdə hökm sürən sabitliyə mənfi təsir göstərir. Böyük peşəkarlıqla keçirilmiş əməliyyat bir daha onu göstərdi ki, Azərbaycan dövləti öz vətəndaşlarını qorumağa qadirdir. Azərbaycan dövləti öz gücünü göstərdi və bir daha hamı, o cümlədən cinayətkarlar onu gördülər ki, biz hər bir cinayətə qarşı, hər bir cinayətkar dəstəyə qarşı amansız mübarizə aparacağıq.

Deyə bilərəm ki, bu cinayətlə bağlı aparılmış bütün əməliyyat tədbirləri yüksək səviyyədə keçirilmişdir. Həm

araşdırma mərhələsində, həm istintaq mərhələsində, həm də əməliyyatın keçirilməsi zamanı yüksək peşəkarlıq nümayiş etdirilmişdir. Nəticədə həm girov saxlanılan şəxs sağ-salamat azad edildi, eyni zamanda cinayətkar dəstənin üzvləri də həbs olundular. Bundan sonra uzun illər açılmamış qalmış bir neçə cinayətin də üstü açıldı. Deyə bilərəm ki, bu istiqamətdə bütün işlər yüksək peşəkarlıqla görülmüşdür və nəticədə Azərbaycan ictimaiyyəti, Azərbaycan xalqı bir daha gördü ki, cinayətkarlığa qarşı mübarizədə bizim qarşımızda heç nə və heç kim dura bilməz.

Mən buna görə sizə öz şəxsi minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycanın Prezidenti kimi, Silahlı Qüvvələrin Ali baş komandanı kimi mən bu əməliyyatda iştirak etmiş bütün şəxslərə öz adımdan və bütün Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Mən şübhə etmirəm ki, milli təhlükəsizlik orqanlarının əməkdaşları bundan sonra da vətənə ləyaqətlə xidmət edəcək və xalqımızın, dövlətimizin təhlükəsizliyinin təmin olunması işində fəal iştirak edəcəklər.

Ümumiyyətlə, milli təhlükəsizlik orqanlarının Azərbaycanda çox böyük funksiyaları vardır. Ölkəmizin keçid dövrünü yaşadığını, Azərbaycanın gənc müstəqil dövlət olduğunu və hər bir gənc dövlət kimi Azərbaycanın da çoxlu problemləri olduğunu, ölkəmizin coğrafi-siyasi vəziyyətini, təbii ehtiyatlarını və ərazimizdən keçən neft-qaz kəmərlərini, nəhəng enerji layihələrinin Azərbaycanda həyata keçirilməsini nəzərə alsaq görərik ki, müxtəlif dairələrin diqqəti Azərbaycana yönəlmişdir. Biz buna hazır olmalıyıq. Yeni zəmanənin çağırışlarına hazır olmalıyıq və bu baxımdan, Milli Təhlükəsizlik Nazirliyinin müstəsna əhəmiyyəti və funksiyası var. Mən çox şadam ki, bu funksiya uğurla icra edilir və bu gün nazirlik ən yüksək peşəkarlıq səviyyəsi nümayiş etdirir.

Bir ilə yaxındır ki, nazirlikdə kadr dəyişiklikləri baş vermişdir. Mənim tərəfimdən Eldar Mahmudov yeni nazir təyin

edilmişdir və bu müddət ərzində görülən işlər onu göstərdi ki, bu, çox düzgün seçim idi. Baxmayaraq ki, Eldar Mahmudov milli təhlükəsizlik orqanlarında o vaxta qədər işləməmişdi, ancaq mən onu tanıyırdım. Bilirdim ki, peşəkar insandır, vətənə, dövlətə sədaqətli insandır və şübhə etmirdim ki, qısa müddət ərzində nazirlikdə yeni şərait, yeni ab-hava yaradacaq və bizim milli təhlükəsizliyimiz üçün lazımlı tədbirlər görüləcəkdir. Həyat da onu göstərdi.

Onu da demək istəyirəm ki, «Qara kəmər» əməliyyatı ilə bağlı, bu cinayətkar dəstə ilə bağlı məlumatlar keçmişdə də var idi. İndi görülən bu işlər, aparılan istintaq bunu bir daha göstərir. Sizə deyə bilərəm ki, hələ 2001-ci ildə Baş prokuror tərəfindən milli təhlükəsizlik naziri Namiq Abbasova bu barədə yazılı surətdə məlumat verilmişdi. Cinayətkar dəstənin başında duran şəxs haqqında məlumat verilmişdi. Başqa işlər haqqında da məlumat verilmişdi ki, onların ətrafında əməliyyat tədbirləri aparılsın və müəyyən şübhələr araşdırılsın. Çox təəssüf edirəm ki, o vaxt buna çox laqeyd yanaşıldı. Demək olar ki, heç bir tədbir görülmədi və nəticədə biz dörd ili itirdik.

Mən çıxışlarımın birində demişdim ki, bu son adam oğurluğu hadisəsi baş verəndən sonra bu araşdırmanı Milli Təhlükəsizlik Nazirliyinə tapşırdım. Baxmayaraq ki, bu, sizin birbaşa funksiyanız deyildir. Amma Azərbaycanın ümumi işində, ölkədə sabitliyin, asayişin qorunması işində, Azərbaycanda milli təhlükəsizliyin qorunması işində korporativ maraqlar ola bilməz. Bütün hüquq mühafizə orqanları bu işdə bir-birinə kömək etməli, birgə işləməlidir. Əgər o vaxt Milli Təhlükəsizlik Nazirliyində bu məsələyə ciddi yanaşılsa, ola bilsin ki, bir çox cinayətin qarşısı alınardı.

Bir sözlə, mən o vaxt da, Eldar Mahmudovu vəzifəyə təyin edəndə də bilirdim ki, bu, düzgün seçimdir. Mən çox şadam ki, bu gün Azərbaycan xalqı da, Azərbaycan ictimaiyyəti də bunu gördü və bildi. Hesab edirəm ki, gələcəkdə nazirliyin üzərinə

düşən bütün vəzifələri uğurla icra edəcək, Azərbaycanın gələcəyi üçün, gələcək inkişafı üçün, Azərbaycan vətəndaşlarının təhlükəsizlik şəraitində yaşaması üçün əlindən gələni edəcəkdir.

Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Milli Təhlükəsizlik Nazirliyinə xüsusi münasibəti var idi. Onun ömrünün böyük hissəsi bu nazirlikdə keçmişdir. Ən kiçik vəzifədən general vəzifəsinə yüksəlmişdi. Sonrakı fəaliyyətində - artıq Azərbaycana birinci katib vəzifəsinə seçiləndən sonra, Prezident vəzifəsinə seçiləndən sonra da o, daim bu orqana öz diqqətini əsirgəməyibdir. Bu orqanın əhəmiyyətini çox gözəl dərk edirdi və onun işini çox gözəl bilirdi.

Bu diqqət bu gün də göstərilir. Mən öz tərəfimdən çalışıram və çalışacağam ki, bütün lazımi şərait yaradılsın, nazirliyin uğurlu fəaliyyəti üçün bütün məsələlər öz həllini tapsın. Bundan sonra da bunu edəcəyəm. Onu da demək istəyirəm ki, Milli Təhlükəsizlik Nazirliyi, bu orqan mənim üçün də çox əziz və doğmadır. Şübhə etmirəm ki, biz hamımız birlikdə Azərbaycanın gələcək inkişafı üçün böyük işlər görəcəyik.

Nazirliyin maddi-texniki bazası möhkəmlənməlidir. Artıq bu istiqamətdə müəyyən işlər görülübdür, daha da böyük işlər görüləcəkdir. Nazirlik ən müasir texnika ilə təchiz olunmalıdır ki, Azərbaycana ola biləcək istənilən təhlükənin qarşısı tezliklə alına bilsin.

Yenə də demək istəyirəm ki, ölkəmiz indi öz müstəqil tarixinin çox vacib illərini yaşayır. Ölkədə gedən proseslər, Azərbaycanın uğurlu inkişafı, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurla tikilməsi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikilməsi, - əlbəttə, biz hamımız bunu bilirik, - Azərbaycan üçün çox gözəl şərait yaradacaqdır. Xalqımız, dövlətimiz daha da inkişaf edəcəkdir. Yeni imkanlar yaranacaqdır. Bizim maddi vəziyyətimiz yaxşılaşacaqdır. O da sirr deyil ki, Azərbaycana düşmənçilik mövqeyində dayanan dairələr də az deyildir. İlk növbədə, bu, erməni lobbisidir. Ermənistanın dünyadakı

havadarlarıdır ki, Azərbaycana qarşı çox çirkin kampaniya aparırlar.

Onu da demək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə dair və ümumiyyətlə, Ermənistan-Azərbaycan məsələsinə dair Milli Təhlükəsizlik Nazirliyi tərəfindən demək olar, son vaxta qədər gözə görünən işlər aparılmamışdır. Mən Eldar Mahmudovu vəzifəyə təyin edəndə ona bu barədə də tapşırıqalar verdim. O, araşdırma apardı və gördü ki, nazirlikdə bu istiqamət ümumiyyətlə çox zəif səviyyədə idi. Sirr deyil ki, Azərbaycan üçün, bizim gələcəyimiz üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli prioritet məsələdir. Biz bunu sülh yolu ilə etmək istəyirik. Amma bütün başqa imkanlardan - siyasi, diplomatik və s. imkanlardan istifadə edib bu məsələni ədalətli həll etmək istəyirik. Hesab edirəm ki, bu gün bu istiqamətdə də çox vacib addımlar atılır.

Ancaq yenə də o fikrə qayıdıram ki, bizə qarşı dünyada mütəşəkkil bir qurum mübarizə aparır. Keçmiş sovet respublikaları arasında bəlkə də yeganə ölkəyik ki, bizə qarşı məqsədyönlü mübarizə aparılır və bu mübarizə çoxşaxəlidir.

Bilirik ki, erməni lobbisi dünyada çox güclü mövqelərə sahibdir. Onların çox böyük maliyyə imkanları var. Məhz bu maddi imkanlardan istifadə edərək, müxtəlif siyasətçiləri də istiqamətləndirirlər. Biz bunların hamısını bilirik. Bəzi xarici kütləvi informasiya vasitələrində Azərbaycana qarşı kampaniya da məhz erməni lobbisi tərəfindən təşkil olunur və istiqamətləndirilir. Nəyə görə? Dünyada Azərbaycanın imicinə xələl gətirmək, Azərbaycanı mənfi şəkildə təqdim etmək üçün. Biz bunların hamısını bilirik və bununla mübarizə aparırıq. Amma onu da bilməliyik ki, bu lobbi həm iqtisadi, həm də siyasi cəhətdən böyük təsirə malikdir. Lakin mən şübhə etmirəm ki, bütün bunlara baxmayaraq Azərbaycanın haqq işi, Azərbaycanın siyasəti və görülmüş bütün işlər, atılmış addımlar bizim bu məsələyə yanaşmamız Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsinin ədalətli şəkildə həllinə gətirib çıxaracaqdır. Mən hesab edirəm ki, bu istiqamətdə görülən bütün işlər və atılan addımlar öz səmərəsini verəcəkdir. Milli təhlükəsizlik orqanlarının da bu istiqamətdə gördüyü və görəcəyi işlər böyük əhəmiyyət kəsb edir.

Əziz zabitlər!

Bir daha demək istəyirəm ki, sizin fəaliyyətinizdən çox şey asılıdır. Azərbaycanın gözəl gələcəyi var. Azərbaycan inamla addımlayır, öz siyasətini müstəqil şəkildə aparır. Azərbaycan xalqı naminə, Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi naminə ümumi işimizə Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları da böyük töhfə verirlər. Nazirlikdə çalışan insanlar peşəkar, Vətənə sadiq, dövlətçiliyimizə sadiq insanlardır. Mən çox şadam ki, nazirlikdə görülən işlər nəticəsində böyük uğurlar qazanıldı, ölkəmiz üçün çox vacib məsələlər öz həllini tapdı. Quldur dəstəsi, cinayətkar dəstə, uzun illər cəmiyyətimizi qorxuda saxlayan bu dəstə zərərsizləşdirildi. Bu, sizin əməyinizdir, sizin qələbənizdir, bizim hamımızın qələbəsidir.

Mən bu gün nazirliyin əməkdaşlarını mükafatlandırmaq üçün bir neçə Sərəncam imzalamışam. Onları sizin diqqətinizə çatdırmaq istəyirəm: Milli təhlükəsizlik naziri Eldar Mahmudova general-leytenant hərbi rütbəsi verilməsi haqqında Sərəncam imzaladım.

Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəisi Hilal Əsədova general-mayor hərbi rütbəsi verilibdir və Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında Sərəncam imzalanıbdır. Sərəncamda deyilir: "Son dövrlərdə böyük ictimai əks-səda doğurmuş, cəmiyyətdə ciddi narahatlığa səbəb olmuş, əmin-amanlığın və ictimai asayişin pozulmasına yönəlmiş qəsdən adamöldürmə, adam oğurluğu və digər xüsusilə ağır cinayətlərin açılmasında, həmin cinayətləri törətmiş şəxslərin ifşa edilməsində və xüsusi əməliyyat nəticəsində mütəşəkkil cinayətkar dəstəni

zərərsizləşdirərək tutulmasında, girov götürülmüş şəxsin azad olunmasında yüksək peşəkarlıq, cəsarət və igidlik göstərdiklərinə görə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşı təltif edilsin".

Demək istəyirəm ki, quldur dəstəsi tərəfindən törədilmiş ağır cinayətlər üzə çıxdı. Açılan bir cinayət keçmişdə törədilmiş cinayətlərin açılmasına gətirib çıxardı və uzun illər açılmamış qalan qətl hadisələrinin də üstü açıldı. O da çox mühümdür ki, öldürülən insanların qanı yerdə qalmadı.

Mən indi istəyirəm təltif mərasiminə başlayaq.

Azərbaycan Prezidenti İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşına "Azərbaycan bayrağı" ordenini, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə"medallarını təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

- Hörmətli zabitlər!

Sizi bir daha təbrik edirəm. Eyni zamanda, qarşıdan gələn Novruz bayramı və peşə gününüz münasibətilə sizi ürəkdən təbrik edirəm. Mən şübhə etmirəm ki, bundan sonra da siz və milli təhlükəsizlik orqanlarının bütün əməkdaşları doğma vətənimizə sədaqətlə xidmət edəcəksiniz. Azərbaycanın milli təhlükəsizliyini daha da möhkəmləndirəcəksiniz, Azərbaycana yönəlmiş təhlükələrin qarşısını alacaqsınız və ölkəmizin gələcək inkişafı üçün əlinizdən gələni edəcəksiniz. Ölkəmizi daha da inkişaf etdirmək, Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmaq, ölkədə gedən demokratikləşmə proseslərini sürətləndirmək bizim hamımızın vəzifəsidir. Bir sözlə, bizim məqsədimiz Azərbaycanı müasir, qüdrətli dövlətə çevirməkdir.

Görülən bütün işlər, atılan bütün addımlar məhz o istiqamətə yönəlibdir. Son müddət ərzində görülən işlər deməyə əsas verir ki, qarşıya qoyduğumuz bütün məqsədlərə çatırıq, öz fəaliyyətimizi nəzərdə tutulmuş proqram çərçivəsində həyata keçiririk. İstər xarici siyasətdə, istərsə də daxildə gedən proseslərin inkişafı bunu göstərir. Görürük ki, ölkəmiz günü-gündən güclənir, regionda Azərbaycanın mövqeləri daha da möhkəmlənir.

Azərbaycan öz xarici siyasətini uğurla aparır. Bizim siyasətimiz yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarının qorunmasına xidmət edir. Biz istəyirik ki, bütün qonşularımızla mehriban münasibətləri möhkəmləndirək. Avro - atlantik strukturlarına Azərbaycanı daha da sürətlə inteqrasiya edək. Mən hesab edirəm ki, bütün istiqamətlərdə uğurlar var. Ən önəmlisi ondadır ki, Azərbaycan düşünülmüş, məqsədyönlü

siyasət aparır. Bizim siyasətimiz vahid konsepsiya çərçivəsində aparılır və bu da uğurun qazanılmasına şərait yaradır.

Azərbaycanın Avropa İttifaqı ilə inteqrasiya prosesi çox geniş vüsət alıbdır. Azərbaycan Avropa İttifaqının yeni qonşuluq siyasətinə daxil edilibdir və bu, ölkəmizin qarşısında yeni imkanlar, yeni üfüqlər açır. Biz istəyirik ki, Azərbaycan müasir, demokratik, qüdrətli dövlətə çevrilsin. Bunu etmək üçün bütün imkanlar var, o cümlədən xalqın dəstəyi də var. Bu da hər bir islahatın, hər bir siyasətin aparılması üçün başlıca şərtdir.

Daxildə gedən proseslər də müsbət istiqamətdə inkişaf edir. Bizim iqtisadi nailiyyətlərimiz də onu göstərir. Regional inkişaf proqramı həyata keçirilir və bu proqram çərçivəsində artıq on minlərlə, yüz minlərlə, hardasa 200 minə qədər yeni iş yeri açılıbdır. Yəni bu onu göstərir ki, görülən hər bir tədbir, atılan hər bir addım düz istiqamətdə atılır. Ölkədə ictimai-siyasi sabitliyin qorunması, möhkəmlənməsi də məhz bu məqsədi daşıyır ki, ölkə dinc şəraitdə inkişaf etsin. Biz bilirik ki, yalnız və yalnız əmin-amanlıq, sülh şəraitində ölkələr inkişaf edə bilər. Orada ki, xaos var, anarxiya, hərc-mərclik, inamsızlıq var, o ölkələr heç vaxt uğur qazana bilməz.

Azərbaycanın təcrübəsi onu göstərir ki, biz düz yoldayıq. Bu yolun, siyasətin əsasını 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyev qoymuşdur. O, xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra ölkəni çətin vəziyyətdən xilas etdi, Azərbaycanı parçalanmadan xilas etdi. Həmin dövrdə ölkədə gedən proseslər bizim hamımızın xatirindədir. Ümumiyyətlə, ölkənin gələcəyi şübhə altında idi. Yalnız və yalnız Heydər Əliyevin nüfuzu, siyasi biliyi, təcrübəsi, müdrikliyi, xalqa sədaqəti, cəsarəti imkan verdi ki, ölkə o çətin, ağır vəziyyətdən çıxsın və bu gün Azərbaycan bölgədə qabaqcıl mövqedədir.

Heydər Əliyevin təməlini qoyduğu və on il ərzində apardığı siyasət bu gün bizə imkan verir ki, siyasətimizi müstəqil şəkildə aparaq. Bəzi başqa qonşu ölkələr kimi biz kimdənsə asılı deyilik.

Biz siyasətimizi yalnız və yalnız Azərbaycanın milli maraqlarının qorunması istiqamətində aparırıq. Bu maraqlar isə bizi istəyən, bizimlə əməkdaşlıq edən ölkələrin də marağına uyğundur. Amma ilk yerdə duran bizim öz maraqlarımızdır. Maraqlarımızın qorunması da hər bir vətəndaş üçün başlıca vəzifə olmalıdır.

Bütövlükdə Azərbaycanın milli maraqlarının qorunmasında Milli Təhlükəsizlik Nazirliyinin çox mühüm və əhəmiyyətli funksiyası vardır. Bu, sizin üzərinizə böyük məsuliyyət qoyur, vəzifələr qoyur. Azərbaycanın uğurlu inkişafı üçün, məqsədlərimizə nail olmaq üçün Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyəti çox önəmlidir.

Bir daha demək istəyirəm ki, bu fəaliyyətdən çox razıyam. Mən çox sevinirəm ki, Milli Təhlükəsizlik Nazirliyi qarşıda duran bütün vəzifələri ləyaqətlə icra edir və "Qara kəmər" şərti adı ilə keçirilmiş son əməliyyat bunu göstərdi. Göstərdi ki, bizimlə zarafat etmək olmaz. Göstərdi ki, dövlətlə dövlətçilik etmək olmaz. Bütün qüvvələr onu görməlidir. Cinayətkar dəstələr, Azərbaycanın gələcəyini istəməyən, Azərbaycana zərbə vurmaq istəyən həm xarici, həm daxili qüvvələr bunu görməlidir ki, burada bu niyyətlər baş tutmayacaqdır.

Ona görə yenə də deyirəm, bu əməliyyatın bütün mərhələlərinin uğurla aparılması böyük ictimai-siyasi məna daşıyır. Söhbət təkcə bu dəstənin ifşa olunmasından getmir. Halbuki, bu da çox önəmli məsələdir, Azərbaycanda on il ərzində cəmiyyətimizi hədə-qorxuda saxlayan o quldur dəstəsi indi ifşa olunubdur. Söhbət daha geniş mənada gedir. Biz göstərdik ki, öz maraqlarımızı, öz vətəndaşlarımızın təhlükəsizliyini qorumağa qadirik. Bunu qısa müddət ərzində edirik. Ona görə hesab edirəm ki, bu hadisə və əməliyyat Azərbaycanda cəmiyyətin ictimai şüuruna da çox güclü təsir etdi və bunun gələcəkdə çox böyük əhəmiyyəti olacaqdır.

Sizi bir daha ürəkdən təbrik edirəm. Sizə uğurlar, cansağlığı arzulayıram. Arzu edirəm ki, siz həmişə Azərbaycanın bayrağını belə yüksək tutasınız. Sağ olun.

ELDAR MAHMUDOV: Möhtərəm cənab Prezident, cənab Ali baş komandan, Sizə şəxsi heyət adından dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olasınız ki, Sizin bütün tapşırıqlar eyni şəkildə, bundan daha da yüksək peşəkar səviyyədə yerinə yetiriləcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin təltif olunmuş əməkdaşları ilə Prezident sarayının qarşısında xatirə şəkli çəkdirdi.

Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Demokratik seçkilər sabit vətəndaş cəmiyyətinin və hər bir dövlətin mütərəqqi inkişafının əsasını təşkil edir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası bu sahədə əsas prioritetləri müəyyən etmişdir. Onları rəhbər tutaraq Azərbaycanda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərin hüquqi bazası yaradılmışdır. 1997-ci ildən başlayaraq Azərbaycan rəhbərliyinin siyasi iradəsinə uyğun olaraq, müasir standartlara cavab verən seçki qanunvericiliyinin təsis edilməsi məqsədi ilə Azərbaycan Hökuməti ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə yaxından əməkdaşlıq etmişdir. Avropa Şurasının üzvü olduqdan sonra Azərbaycanın bu əməkdaşlıq çərçivəsi daha da genişləndirilmiş və bu prosesə Avropa Şurasının Venesiya Komissiyası da cəlb edilmişdir. Səmərəli əməkdaşlıq nəticəsində seçki qanunvericiliyinin unifikasiyası məqsədi ilə 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsi qəbul edilmişdir. Bu Məcəllə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Venesiya Komissiyasının və ATƏT-in DTİHB-nin Yekun rəyində bildirilmişdir ki, Seçki Məcəlləsi seçkilərin və referendumun keçirilməsi üçün əksər məsələlərdə beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun olan hərtərəfli çərçivələr nəzərdə tutur.

1995-ci ildən bəri keçirilmiş seçkilərin hər biri əvvəlki ilə müqayisədə seçkilərin beynəlxalq standartlara çatdırılması yolunda irəliyə atılmış bir addım idi və seçkilərə dair beynəlxalq

təşkilatların verdikləri rəylərin müqayisəli təhlili bunu sübut edir. Lakin təəssüflər olsun ki, seçkilər sahəsində ciddi tərəqqinin əldə edilməsinə baxmayaraq, bir sıra nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Azərbaycan rəhbərliyinin 10 illik fəaliyyəti, müasir demokratik standartlara cavab verən seçkilərin keçirilməsinə yönəlmiş siyasi iradəsi və həmin iradənin təzahürü olan seçkilər praktikasının ildən-ilə təkmilləşdirilməsi onu sübut edir ki, seçkilər zamanı baş verən qanun pozuntularının səbəbləri Azərbaycan rəhbərliyinin siyasi iradəsindən kənardır. Onların səbəblərini bəzi məmurların və seçki komissiyalarının üzvlərinin qeyri-peşəkarlığında və bir çox hallarda məsuliyyətsizliyində və ümumilikdə «postsovet mentalitetində» axtarmaq lazımdır.

2005-ci ilin noyabrında keçirilməsi nəzərdə tutulan parlament seçkilərinə hazırlıq dövründə və həmin seçkilərin keçirilməsi zamanı bu sahədə baş verə bilən əyintilərin və qanun pozuntularının qarşısını almaq, Milli Məclisə seçkiləri Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəalarına tam uyğun keçirmək, bu sahədə icra hakimiyyəti orqanlarının üzərlərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Mərkəzi Seçki Komissiyasına tövsiyə edilsin ki, seçki rəsmilərinin o cümlədən, paytaxtdan kənarda işləyəcək seçki rəsmilərinin təlim kurslarından keçməsi məqsədi ilə müvafiq proqramlar hazırlasın və bu sahədə bütün siyasi qüvvələrlə və beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlıq etsin.

2. Müəyyən edilsin ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, digər dövlət məmurları seçki prosesinə qanuna zidd olaraq müdaxilə edərlərsə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər.

3. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində seçkilərdən sonra siyasi

mənsubiyyətə görə vətəndaşların təqib olunmasına yol verməsinlər və bu cür faktlar aşkar olunduqda, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, belə hərəkətlər etmiş şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunmaları üçün zəruri tədbirlər görsünlər. İzah edilsin ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, İnzibati Xətalar Məcəlləsinin və digər qanunların tələblərinin Azərbaycan Respublikasının vətəndaşları tərəfindən pozulmasına görə onların məsuliyyətə cəlb edilməsi halları siyasi mənsubiyyətə görə təqib kimi qiymətləndirilə bilməz.

4. Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə tapşırılsın, İctimai Televiziya və Radio Yayımları Şirkətinə, özəl televiziya və radio yayımları şirkətlərinə tövsiyə edilsin ki, deputatlığa namizədlərin bərabər əsaslarla təbliğ olunmasını təmin edən proqramlar hazırlasınlar və siyasi platformaların müzakirəsi məqsədi ilə müvafiq forumlar təşkil etsinlər.

5. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində ixtisaslaşmış ictimai rəyçilər tərəfindən aparılacaq *exit poll* prosesinin aparılmasına lazımi şərait yaratsınlar, həmin prosesin gedişinə qanuna zidd olaraq müdaxilə etməsinlər.

6. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində deputatlığa bütün namizədlər üçün kütləvi informasiya vasitələrindən bərabər qaydada istifadə etmələrini və onlar üçün bərabər təbliğat imkanlarının yaradılmasını təmin etsinlər.

7. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində paralel səsvermənin nəticələrinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsinə dair zəruri tədbirlər

görsünlər və müvafiq seçki rəsmilərinə zəruri yardım göstərsinlər.

8. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri ərəfəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası vətəndaşlarının toplaşmaq azadlığının, seçki kampaniyası zamanı və seçkilərdən sonra ictimai sabitliyin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq lazımi tədbirlər görsünlər.

9. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və aşağı seçki komissiyalarına tövsiyə edilsin ki, hər bir seçiciyə vəsiqənin çatdırılmasını təmin etsinlər, seçici siyahılarının dəqiq və dürüst tərtib edilməsi üçün Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq lazımi tədbirlər görsünlər.

10. Yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində dəqiq seçici siyahılarının tərtib edilməsi və həmin siyahıların seçkilərə ən azı 65 gün qalmış seçki məntəqələrində açıq nümayiş etdirilməsi üçün zəruri tədbirlər görsünlər.

11. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, iqtidaryönlü, mərkəzçi və müxalif siyasi qrupların seçkilərlə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi və peşəkarlığın, təşkilati işlərin yaxşılaşdırılmasına yönəlmiş beynəlxalq donorların texniki yardımından istifadə ilə məşğul olacaq yaranmış kontakt qrupunun toplantısının keçirilməsinə kömək göstərsin.

İlham ƏLİYEV.

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2005-ci il.

№ 806.

«Azərbaycan» qəzetində dərc edilmişdir (12 may 2005-ci il, № 107)

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci il noyabrın 6-da keçiriləcək seçkilərə hazırlıq yekun mərhələyə daxil olmuşdur. Seçkilərə hazırlıq dövründə seçki komissiyalarının və icra hakimiyyəti orqanlarının gərgin işi nəticəsində zəruri təşkilati-hüquqi tədbirlər görülmüş və təşviqat işlərinin qurulmasında xeyli nailiyyətlər əldə olunmuşdur.

Deputatlığa namizədlərin qeydiyyatı azad və mütəşəkkil şəkildə həyata keçirilmiş, onların qarşısında heç bir süni maneələr yaradılmamış və qeydiyyat zamanı subyektiv faktorların təsiri minimuma endirilmişdir. Seçki komissiyaları müasir avadanlıqla təchiz edilmiş və bu proses hələ də davam etməkdədir. 2000-dən artıq deputatlığa namizədin qeydə alınması, onların seçicilərlə çoxsaylı görüşləri, seçkiqabağı təşviqatın sərbəst surətdə və bərabər əsaslarla həyata keçirilməsi, televiziya və radio kanallarında debatların təşkili, əyani təşviqat vasitələrindən geniş istifadə olunması və sair hazırkı seçki kampaniyasını səciyyələndirən əsas xüsusiyyətlərdəndir.

Azərbaycanın bütün şəhər və rayonlarında vətəndaşların sərbəst toplaşmaq hüququnun həyata keçirilməsini təmin etmək məqsədi ilə müvafiq yerlər ayrılmışdır ki, bu da deputatlığa namizədlərin seçicilərlə görüşlərinin keçirilməsi üçün münasib şərait yaratmışdır. Təsisçiləri dövlət orqanları olan və ya dövlət büdcəsindən maliyyələşən teleradio təşkilatları seçki qanunvericiliyinə uyğun olaraq, 60-dan çox dairədə namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına

bərabər şəkildə pulsuz efir vaxtı ayırmışlar və bu efir vaxtından seçki təşviqatı üçün aktiv istifadə edilir. Qeyd etmək lazımdır ki, dövlət teleradio kanallarından bu məqsəd üçün ayrılan efir vaxtının həcmi əvvəlki seçkilərlə müqayisədə iki dəfə artıqdır. Dövlət və özəl teleradio təşkilatlarında ödənişli efir vaxtından geniş istifadə edilir. Seçki praktikasında ilk dəfə olaraq seçici vəsiqələrindən istifadə edilir və bu iş digər ölkələrin təcrübəsi də nəzərə alınmaqla təkmilləşdirilməlidir. Onu da qeyd etmək lazımdır ki, bu il Azərbaycan üzrə bütün seçicilərin siyahısı İnternetdə yerləşdirilmişdir.

Bununla yanaşı, bəzi problemlərin həll olunmaması, Seçki Məcəlləsinin bir sıra tələblərinin pozulması halları haqqında daxil olan məlumatlar narahatlıq doğurmaya bilməz. Vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsində, seçici vəsiqələrinin paylanmasında və seçici siyahılarının tərtib edilməsində yol verilən nöqsanlar haqqında, həmçinin bəzi icra hakimiyyəti orqanlarının seçki prosesinə qanunsuz müdaxiləsi, inzibati resurslardan istifadə olunması, ayrı-ayrı namizədlər tərəfindən seçkiqabağı təşviqat zamanı qanunla qadağan olunmuş üsullara əl atılması və sair faktlarına dair şikayətlər daxil olmaqdadır.

Seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliliyini artırmaq, Seçki Məcəlləsinin müddəalarının seçkilərə hazırlıq dövründə və səsvermə günü tam və şərtsiz həyata keçirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin ki, «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikası Qanunundan nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında keçirilən prezident,

Milli Məclis və bələdiyyə seçkilərini müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına tövsiyə edilsin ki:

2.1. seçici vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yaranmış problemləri nəzərə alaraq, seçicilərin səsvermə günü seçki bülletenlərini aldıqları zaman barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi qaydalarına dair müvafiq təlimatı qısa müddətdə hazırlayıb Mərkəzi Seçki Komissiyasının müzakirəsinə çıxarsın;

2.2. seçki komissiyalarına daxil olan seçki hüquqlarının pozulması haqqında şikayətlərə baxılma qaydalarına dair təlimatı qısa müddətdə hazırlayıb təsdiq etsin;

2.3. deputatlığa namizədlərin seçkiqabağı təşviqat kampaniyası zamanı yol verdikləri qanun pozuntularına dair qətiyyətli mövqe bildirsin, qanunla ona verilmiş inzibati tənbeh səlahiyyətindən tam və dönmədən istifadə etsin;

2.4. məntəqə seçki komissiyalarında seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, şəxsiyyəti təsdiq edən heç bir sənədi olmayan vətəndaşlara seçki gününədək şəxsiyyət vəsiqələrinin verilməsini təmin etsin.

4. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, «Azərenerji» Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binaların rabitə və elektrik enerjisi ilə fasiləsiz təmin olunmaları üçün zəruri tədbirlər görsünlər.

5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq siyasi partiyalara, siyasi partiyaların

bloklarına və deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə kütləvi tədbirlər və seçkiqabağı təşviqatın keçirilməsi üçün bütün zəruri şəraiti yaratsınlar.

6. Azərbaycan Respublikasının Baş Prokuroruna tövsiyə edilsin ki, seçki günü vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar Mərkəzi Seçki Komissiyasından daxil olan cinayət tərkibli olması ehtimal edilən məlumatları təcili araşdırsın və cinayət əməlləri törətməkdə təqsirli bilinən şəxslərin məsuliyyətə cəlb edilməsini təmin etsin.

7. Aidiyyəti dövlət orqanları «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 11 may tarixli sərəncamında nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar müvafiq hesabatları beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

8. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2005-ci il

№ 1062

«Azərbaycan» qəzetində dərc edilmişdir (26 oktyabr 2005-ci il, № 248)

Prezident sarayında qarşıdan gələn parlament seçkilərinə dair 25 oktyabr 2005-ci il tarixdə keçirilən müşavirədə

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Parlament seçkilərinə iki həftədən az vaxt qalır. Demək olar ki, indi seçki kampaniyasının son mərhələsi yaşanır. Elə etməliyik ki, bu kampaniyanın son mərhələsi də uğurlu, qanunauyğun şəkildə keçsin. Bütövlükdə deyə bilərəm ki, seçki kampaniyası uğurlu keçir. İlk növbədə, qeydiyyat məsələlərində heç bir problem olmamışdır. İki mindən artıq namizədin qeydə alınması özlüyündə onu göstərir ki, əhalidə seçkilərə inam çox yüksək səviyyədədir. Azərbaycanda ədalətli və şəffaf seçkilərin keçirilməsi bizim hamımızın marağındadır. Çox sevindirici haldır ki, iki mindən artıq insan öz gücünü sınamaq üçün bu seçkilərə qatılıbdır. Ondan sonrakı mərhələ də hesab edirəm ki, bütövlükdə uğurlu olmuşdur. Təbliğat-təşviqat kampaniyasında da heç bir problem müşahidə edilmirdi. Bütün namizədlərə eyni, bərabər şərait yaradılmışdır. Televiziya vasitəsilə hər bir namizəd öz seçicilərinə müraciət etmişdir. Heç bir ayrı-seçkiliyə yol verilməmişdir. Siyasi əqidəsindən, partiya mənsubiyyətindən asılı olmayaraq, bütün namizədlər həm pulsuz, həm də pullu efir vaxtından istifadə edə bilirlər. Bu günə qədər davam edən kampaniya onu göstərir ki, hər bir namizəd sərbəst, açıq şəkildə öz seçicilərinə müraciət edir. Hesab edirəm ki, bu, çox müsbət bir haldır. Biz hamımız görürük ki, Azərbaycan dövlət televiziyasında, İctimai Televiziyada və özəl kanallarda kampaniya çox açıq və şəffaf şəkildə keçirilir. Eyni zamanda, hər bir namizəd üçün yerlərdə görüşlərin keçirilməsi üçün də lazımi şərait yaradılmışdır. Bildiyimə görə, Azərbaycanın bütün

bölgələrində bu görüşlər keçirilir və buna heç bir maneçilik törədilmir.

Mən bu məsələyə dair yerli icra orqanlarına dəfələrlə öz göstərişlərimi vermişəm və demişəm ki, bütün namizədlərə bərabər şərait yaradılmalıdır. Heç bir ayrı-seçkilik qoyulmadan bütün namizədlər açıq havada, qapalı şəraitdə görüşlər keçirmək üçün eyni şəraitlə təmin olunmalıdırlar. Bütövlükdə deyə bilərəm ki, bu sahədə də çox müsbət mənzərə müşahidə olunur. Ayrı-ayrı şikayətlər istisna olmaq şərtilə, tam əksər hallarda bütün görüşlər azad, sərbəst şəkildə keçirilibdir. Bu, kampaniyanın bütövlükdə ədalətli keçməsinə dəlalət edir, bizim niyyətimizi bir daha ifadə edir. Bir də onu göstərir ki, bəyan edilmiş prinsiplər və niyyətlərimiz həyatda öz əksini tapır.

Mənim də məqsədim məhz budur.

Parlament seçkiləri Azərbaycanın demokratik inkişafında çox mühüm rol oynayır. Ümid edirəm ki, yeni formalaşacaq parlament Azərbaycanda qanunvericilik funksiyasını uğurla davam etdirəcək, yeni mütərəqqi qanunlar qəbul olunacaqdır. Azərbaycan artıq bir sıra beynəlxalq konvensiyalara qoşulubdur. Bu proses bundan sonra daha da sürətlə getməlidir.

Bildiyiniz kimi, Azərbaycan bir neçə ildir Avropa Şurasının üzvüdür və üzv qəbul edilərkən öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Beləliklə, Azərbaycanda demokratik proseslər daha da sürətlə gedir. Biz istəyirik ki, ölkəmiz daha da demokratik olsun, cəmiyyətimiz daha da azad olsun və dünyada mövcud olan ən mütərəqqi təcrübə Azərbaycanda öz əksini tapsın. Bu baxımdan parlament seçkilərinin ədalətli, şəffaf və azad şəkildə keçirilməsi bizim maraqlarımıza uyğun gəlir. Bu, bir tərəfdən bizim cəmiyyətimizin inkişafında mühüm rol oynayacaqdır. Digər tərəfdən, ümid edirəm ki, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası prosesinə də güclü təkan verəcəkdir.

Bildiyiniz kimi, artıq bir neçə aydır seçkilərlə bağlı müxtəlif fərziyyələr irəli sürülür, fikirlər səslənir. Cəmiyyətimizdə seçkilərə böyük maraq var. Bu da çox müsbət haldır. Eyni zamanda, ölkəmizin xaricində də seçkilərə böyük maraq var. Təsadüfi deyil ki, parlament seçkilərini müşahidə etmək üçün Azərbaycana 1500-ə yaxın xarici müşahidəçi gələcəkdir. Bu, analoqu olmayan bir rəqəmdir və 8 milyon əhalisi olan ölkədə 1500 xarici müşahidəçinin olması çox yüksək göstəricidir. Nəzərə alsaq ki, Azərbaycanda 4500-dən çox seçki məntəqəsi var, deyə bilərik ki, istənilən halda məntəqələrin böyük əksəriyyətində seçkilər müşahidə olunacaqdır. Eyni zamanda, minlərlə yerli müşahidəçi də bu seçkiləri izləyəcək və bildiyiniz kimi, bu müşahidəçilər müxtəlif siyasi partiyaları təmsil edirlər.

Mən bir daha demək istəyirəm ki, bütövlükdə, kampaniyanın gedişatından məmnunam. Hesab edirəm, qalan günlər ərzində də çalışmalıyıq ki, qarşıda duran bütün vəzifələr öz həllini tapsın.

Mayın 11-də mənim tərəfimdən Azərbaycanda seçki praktikasının təkmilləşdirilməsinə dair Sərəncam imzalanmışdır. Sərəncam cəmiyyətdə çox müsbət qarşılandı və o, normal, ədalətli seçkilərin keçirilməsinə şərait yaradır. Seçki Məcəlləsi ilə birlikdə Sərəncamın mövcudluğu bizim niyyətimizi daha da açıq şəkildə ortaya qoyur. Rayonlara etdiyim müxtəlif səfərlərdə yerli icra hakimiyyəti orqanları ilə görüşlərimdə, eyni zamanda əhali ilə bütün görüşlərimdə bu seçkilərin vacib olduğunu xüsusilə vurğulayır və tələb edirdim ki, yerli icra hakimiyyəti orqanları Sərəncamdan irəli gələn vəzifələrini yerinə yetirsinlər. Seçki prosesinə müdaxilə etməsinlər, heç bir namizədin tərəfini tutmasınlar, seçki kampaniyasında iştirak etməsinlər. Sadəcə olaraq, seçkilərin normal şəkildə keçirilməsi üçün öz vəzifə borclarını yerinə yetirsinlər.

Deyə bilərəm ki, bütövlükdə, həm Seçki Məcəlləsinin müddəaları, həm də Sərəncamda əks olunan məsələlər həyatda

öz əksini tapır və yerinə yetirilir. Bununla yanaşı, əlbəttə, müxtəlif problemlər də var. Biz dərhal həmin problemlərin aradan qaldırılması üçün tədbirlər görürük və görməliyik. Bu da təbiidir. Çünki Azərbaycan keçid dövrünü yaşayır. Azərbaycanda demokratik cəmiyyətin formalaşması prosesi sürətlə gedir. Bu, çox müsbət istiqamətdə inkişaf edən meyildir. Ancaq şübhəsiz ki, bir gündə, yaxud da bir neçə ayda bu sahədə köklü dəyişikliklərə nail olmaq üçün çox ciddi işlər görülməlidir və görülür. Bu seçki kampaniyası keçmiş seçki kampaniyalarından fərqlənir və hesab edirəm ki, indiki seçkilərin nəticələri də Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir.

Eyni zamanda, müəyyən problemlər də var. Seçki kampaniyası ərzində müəyyən məsələlər ortaya çıxır. Biz gərək hər bir məsələyə operativ reaksiya verək və onun həlli üçün yollar axtaraq. Biz heç bir məsələyə ehkam kimi yanaşmamalıyıq. Fikirləşməliyik ki, seçkilərin ədalətli keçirilməsi üçün əlavə nə edilməlidir. Mən hesab edirəm ki, Seçki Məcəlləsinin mövcudluğu, mənim Sərəncamım artıq bu sahədə kifayət qədər normal şərait yaradır. Bildiyiniz kimi, seçkiləri müşahidə edən ATƏT-in missiyası da təxminən eyni mövqedən çıxış edir. Onların bəyanatı olmuşdur ki, əgər mövcud Seçki Məcəlləsi və Prezidentin Sərəncamı icra olunarsa, Azərbaycanda demokratik seçkilərin keçirilməsi mümkündür. Eyni zamanda, mövcud olan problemləri biz gərək həll edək. Onların aradan qaldırılması üçün müvafiq göstərişlər veriləcək və qərarlar qəbul ediləcəkdir.

İlk növbədə, seçici vəsiqələrinin seçicilərə paylanılması prosesi bizi qane edə bilməz. Çünki məndə olan məlumata görə, - yəqin ki, sizdə də bu məlumat var, - bir neçə hallarda vətəndaşlara seçici vəsiqəsi paylanılmayıb, yaxud da elə hallar var ki, bir seçiciyə bir neçə vəsiqə göndərilibdir. Elə hallar var ki, ümumiyyətlə, seçici vəsiqəsi göndərilməyibdir. Ümumiyyətlə, seçici vəsiqəsinin tətbiq olunması beynəlxalq təşkilatlar

tərəfindən irəli sürülmüş bir təklif idi, tövsiyə idi. Bu, seçki prosesinin şəffaflığını təmin etməli idi və bütövlükdə, çox müsbət, təqdirəlayiq bir addımdır. Ancaq əfsuslar olsun ki, praktikada biz bunu tam şəkildə təmin edə bilmədik. Ona görə seçkilər günü bu, müəyyən problemlər yarada bilər. Biz gərək imkan verməyək ki, bu problemlər yaransın.

Belə olan halda, hesab edirəm ki, müxtəlif başqa variantlara da biz fikir verməliyik və bu məsələdə yarana biləcək problemin aradan qaldırılması üçün konkret addımlar atmalıyıq. Hesab edirəm ki, müvəqqəti bir hal kimi və istisna hal kimi, səsvermə günü seçki bülleteni aldıqları zaman barmaqlarının gözəgörünməyən mürəkkəblə işarələnməsinin mümkünlüyü məsələsinə baxmalıyıq.

Bu təklif müxtəlif beynəlxalq təşkilatlar tərəfindən də irəli sürülmüşdür. Düzdür, biz hesab edirdik ki, buna böyük ehtiyac yoxdur. Çünki seçici vəsiqələrinin mövcudluğu artıq bu məsələni aradan qaldırırdı. Amma bir halda ki, seçici vəsiqələrinin paylanmasında biz problemlərlə üzləşdik, mən hesab edirəm, bu məsələyə baxmaq olar ki, seçkilərin şəffaf keçirilməsi heç bir şübhə doğurmasın. Onsuz da biz bilirik ki, Azərbaycanın siyasi spektrinin bir hissəsi seçkilərin nəticələrini tanımaq fikrində deyildir. Biz bunu mətbuatdan da eşidirik, müşahidə edirik və görürük ki, istənilən halda daim seçkiləri uduzan qüvvələr bu dəfə də yəqin seçkilərin nəticələrini tanımayacaqlar və müxtəlif bəhanələrlə bizi ittiham etməyə çalışacaqlar. Bu hallar keçmişdə də olub və hadisələrin inkişafı onu göstərir ki, indiki seçkilərdə də bu, istisna olunmur. Ümid edirəm ki, bizim üçün yeni olan bu praktika, yəni barmaqların mürəkkəblə işarələnməsi əsassız ittihamları aradan götürəcəkdir. Ona görə hesab edirəm ki, bu məsələ gərək müzakirə olunsun, buna baxılsın.

Eyni zamanda, şəxsiyyət vəsiqələrinin paylanılmasında da müəyyən problemlər var. Biz bu məsələ ilə ciddi məşğul olmuşuq və həmişə bizə söz verilmişdi ki, şəxsiyyət vəsiqələri vaxtında

paylanılacaqdır. Ədalət naminə deməliyəm ki, doğrudan da son aylar ərzində bu istiqamətdə çox gərgin iş gedirdi. Demək olar ki, şəxsiyyət vəsiqələrinin tam əksəriyyəti paylanılıbdır. Amma eyni zamanda onu da bilirik ki, elə vətəndaşlar var, onların şəxsiyyət vəsiqələri yoxdur. Belə olan halda biz gərək bu vəziyyətdən çıxış yolu arayaq, baxaq. İndi bəlkə Mərkəzi Seçki Komissiyası bu məsələyə baxmalıdır. Bəlkə biz seçki günü köhnə pasportlarla səsverməyə icazə verək. Amma əlbəttə, hələ vaxta var və son bir neçə gün ərzində əgər şəxsiyyət vəsiqələri 100 faiz paylanmazsa, onda bu alternativ varianta da baxmaq olar.

Yerli icra hakimiyyəti orqanları seçki komissiyalarının yerləşdiyi binaların və otaqların səsverməyə hazır olub-olmadığını yerlərdə yoxlamalıdırlar. Eyni zamanda, səsvermə günü seçki bülletenlərinin, dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binaların mühafizəsi gücləndirilməlidir. Dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binaların rabitə və elektrik enerjisi ilə fasiləsiz təmin olunması üçün zəruri tədbirlər görülməlidir. Bu, "Azərenerji" Səhmdar Cəmiyyətinə, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə aid olan məsələlərdir. Elə etməliyik ki, nə rabitə ilə, nə də elektrik enerjisi ilə bağlı heç bir problem olmasın.

Bir daha demək istəyirəm ki, bəzi hallarda yerli icra hakimiyyəti orqanları tərəfindən yersiz və lazımsız müdaxilələr olmuşdur. Deyə bilərəm ki, onlar istisna hal kimi müşahidə edilmişdir və tam əksəriyyət hallarda belə olmayıbdır. Amma yenə də mənim yerlərdəki nümayəndələrimdən tələb edirəm ki, son günlər ərzində heç bir qanunsuz müdaxilə olmasın.

Bəzi məlumatlar gəlir ki, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri hansısa namizədlərə daha da məhrəm münasibət göstərirlər. Məlumatlar var ki, bəzi icra hakimiyyəti başçıları namizədlərlə birlikdə gedib tədbirlərdə iştirak edirlər. Bunlar yolverilməz hallardır. Mən bütün icra hakimiyyəti başçılarına, belə hallara rəvac verənlərə xəbərdarlıq edirəm, bunları

yığışdırın. Birincisi, mənim Sərəncamım var, ikincisi, bir neçə ay bundan əvvəl seçki kampaniyası başlanan gün mən sizi yığmışdım, öz göstərişlərimi vermişdim və demişdim ki, kənarda durun, qarışmayın.

Azərbaycan xalqı müdrik xalqdır. Özü bilir, kimi seçmək lazımdır. Kimi istəyir, onu da seçsin. Bəzi hallarda bilirəm ki, yerli icra hakimiyyəti başçılarının sevimli namizədləri var. İstəyirlər ki, özlərinə yaxın adamlara kömək etsinlər. Bu, keçmişdə də olubdur. Bilirəm, siz də bilirsiniz, keçmişdə də həmişə yerli icra hakimiyyəti başçıları çalışırdılar ki, öz rayonlarından seçilən deputatlar onlara yaxın olsunlar, onların sözü ilə oturub-dursunlar və onların işinə qarışmasınlar. Bəzi hallarda yerlərdə seçilmiş deputatla icra hakimiyyətinin başçısı arasında ixtilaflar da, münaqişələr də yaranırdı. Ola bilər ki, kimsə xoşuna gəlir. Xoşuna gəlirsə, işdən sonra o adamlarla gedib görüşə bilərsiniz. Amma bir daha deyirəm, heç kimə icazə verməyəcəyəm ki, seçkidə öz adamlarını keçirsin, hansısa səbəblərə görə burada bizim işimizi pozsun. Heç kimə bu icazə verilməyəcəkdir. Kim bunu edəcəksə, ciddi şəkildə cəzalandırılacaqdır.

Mən artıq qeyd etdim ki, seçkilərin Azərbaycanın normal inkişafı üçün çox böyük əhəmiyyəti var. Hansısa namizədə görə nə üçün biz özümüzü pis vəziyyətə salmalıyıq? Nə üçün? Ona görə bu məsələyə ciddi yanaşın. İndi hərə öz payını götürsün. Əgər kimsə bu işlərlə məşğuldursa, bu əməlləri yığışdırsın.

Yenə də deyirəm, bu hallar istisna xarakteri daşıyır. Amma tamamilə aradan qaldırılmalıdır. Seçki hüquqlarının pozulması ilə bağlı Mərkəzi Seçki Komissiyasından Baş Prokurorluğa daxil olan, cinayət tərkibli olması ehtimal edilən məlumatlar prokurorluq orqanları tərəfindən hərtərəfli araşdırılmalıdır. Lazım olarsa, cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi barədə əsaslandırılmış qərar qəbul olunmalıdır.

Eyni zamanda, bu seçkilərdə daha bir yenilik var, o da exit-poldur. Bu da bizim üçün yeni bir üsuldur. Mənim Sərəncamımda exit-polun keçirilməsi haqqında açıq-aydın göstərilibdir. Siz də çalışmalısınız ki, əgər lazım olarsa, exit-polu keçirən qurumlara kömək edəsiniz. Əgər lazım olmazsa, ümumiyyətlə, bu məsələyə qarışmamalısınız. Əgər sizdən xahiş olunarsa ki, kömək edin, onu edin. Olmayacaqsa, qarışmayın. Bu, bizim üçün yeni bir üsuldur. İnkişaf etmiş ölkələrdə bu üsuldan çox geniş istifadə olunur. Azərbaycanda belə bir üsul ilk dəfə tətbiq ediləcəkdir.

Düzdür, prezident seçkiləri günü bəzi yerli təşkilatlar buna bənzər bir rəy sorğusu keçirmişlər. Ancaq bu dəfə exit-polu xarici, beynəlxalq təşkilatlar keçirəcək, yəqin yerli təşkilatlar da keçirmək istəyəcəkdir. Ona görə, heç bir maneçilik törədilməməlidir.

Nəhayət, hesab edirəm, Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir ki, qeyri-hökumət təşkilatları, ictimai birliklər və fondlar haqqında Azərbaycan Respublikası Qanunundan nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının seçkiləri müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin. Bu məsələ də bəzi beynəlxalq təşkilatlar tərəfindən qaldırılıbdır. Hesab edirəm ki, Milli Məclis bu məsələyə də baxa bilər. Yəni, bir sözlə, biz hər şeyi etməliyik ki, heç kim zərrə qədər şübhə etməsin ki, bu seçkilər ədalətli və şəffaf keçiriləcək və Azərbaycan dövlətinin, hökumətinin, Prezidentinin niyyəti məhz bundan ibarətdir. Ona görə nə lazımdırsa onu da etməliyik. Ancaq eyni zamanda, hər şey qanun çərçivəsində olmalıdır. Heç kimə imkan verilməməlidir ki, qanunu pozsun, heç kimə hansısa xüsusi imtiyazlar yaradılmamalıdır. Bütün namizədlər, siyasi partiyalar və bloklar qanun çərçivəsində hərəkət etməlidirlər.

Azərbaycanda sərbəst toplaşmaq azadlığı təmin olunur. Azərbaycanın bütün bölgələrində, rayonlarında bu baxımdan heç bir problem yaradılmır və sərbəst toplaşmaq azadlığı təmin edilibdir. Ancaq Bakıda son müddət ərzində müxalifət tərəfindən süni problemlər yaradılıbdır. Onların da qarşısı alınıbdır. O hərəkətlərin də mənşəyi bəllidir. Çünki seçki kampaniyası başlanan gündən bütün siyasi qüvvələr, partiyalar Qələbə meydanında öz mitinqlərini keçirirdilər. Həm müxalifət partiyaları, həm də Yeni Azərbaycan Partiyası. Yeni Azərbaycan Partiyasının sədri kimi mən şəxsən Qələbə meydanında partiyamızın mitinqində iştirak etmişdim.

Xatırlayırsınızsa, 2003-cü ilin prezident seçkiləri ərəfəsində bütün seçki təbliğatı Qələbə meydanında keçirilirdi. O vaxt heç kimdə sual doğmurdu ki, bu meydan yararsızdır, yaxud başqa meydan lazımdır. 2005-ci ilin seçki kampaniyası başlanan gündən müxalifət də, iqtidar da və başqa partiyalar Qələbə meydanında çox sərbəst, azad şəkildə, asayiş qorunmaq şərtilə öz mitinqlərini keçirirdilər və heç bir sual da yaranmırdı. Nə üçün birdən-birə onların fikri dəyişdi? Biz bunun səbəbini bilirik. Səbəb ondan ibarətdir ki, bəri başdan bilirdilər, şəhər rəhbərliyi Cəfər Cabbarlı meydanında mitinqin keçirilməsinə imkan verməyəcəkdir. Beləliklə, süni şəkildə qarşıdurma yaranacaqdır. Müxalifət də hesab edirdi ki, bu qarşıdurma nəticəsində onlar hansısa üstünlük əldə edəcəklər, yaxud da zorakılıqla qanunu poza biləcəklər. Süni şəkildə bu qarşıdurmaya gedirdilər.

Ancaq Azərbaycanda qanun hamı üçün eynidir. Bütün qanunsuz hərəkətlərin qarşısı çox ciddi şəkildə alınıbdır və gələcəkdə də alınacaqdır. Kim sərbəst toplaşmaq istəyirsə, mitinq keçirmək istəyirsə, buyursun, getsin müəyyən yerlərdə, meydanlarda o mitinqləri keçirsin.

Onu da qeyd etməliyəm ki, şəhər rəhbərliyi xoş niyyət addımı kimi, müxalifətə beş meydan təklif edibdir. Onların hamısı ərazi baxımından Cəfər Cabbarlı meydanından qat-qat

böyükdür. Ona görə qanunsuz hərəkətlərə heç kim imkan verməyəcəkdir. Hesab edirəm ki, artıq müxalifət də bunu başa düşübdür. Bu gün mənə dedilər ki, onlar növbəti qanunsuz mitinqə getməyəcəklər. Hesab edirəm, müsbət haldır ki, müxalifət də təkamül yolu ilə inkişaf edir. Artıq başa düşüb ki, bizimlə bu dildə danışmaq olmaz. Biz heç bir qanunsuz hərəkətə yol verməyəcəyik.

Bir daha demək istəyirəm ki, seçkilərin normal keçirilməsi üçün hər cür şərait var. Biz əlimizdən gələni etməyə çalışmışıq ki, hər bir namizəd sərbəst fəaliyyət göstərsin, kampaniyasını aparsın və Azərbaycanda seçki praktikası təkmilləşdirilsin. Ümid edirəm, görülən tədbirlər imkan verəcək ki, noyabrın 6-da Azərbaycanda ədalətli seçkilər keçirilsin. Bu seçkilər keçiriləcəkdir. Azərbaycan xalqının iradəsi bu seçkilərdə əks olunacaqdır. Beləliklə, Azərbaycanın hərtərəfli, demokratik inkişafı üçün yeni imkanlar yaranacaqdır.

Sizə bir daha göstəriş verirəm ki, mənim bütün tövsiyələrimi yerlərdə icra edəsiniz, heç bir qanun pozuntularına yol verməyəsiniz. Harada narahatedici hallar varsa, harada qanun pozulursa, dərhal operativ qaydada ya özünüz tədbirlər görün, ya da ki, bizi məlumatlandırın. Bu qədər. Sağ olun.

NAZİRLƏR KABİNETİNİN 3 NOYABR 2005-ci İL TARİXLİ İCLASINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

Nazirlər Kabinetinin bugünkü toplantısı üçüncü rübün və bütövlükdə doqquz ayın yekunlarına həsr olunur. Yekunlar onu göstərir ki, ilin əvvəlindən iqtisadiyyatda müsbət meyillər daha da güclənmişdir və qarşıda duran bütün vəzifələr real nəticələrdə öz əksini tapır. Ümumi daxili məhsul təxminən 22 faiz, sənaye istehsalı 28 faiz artmış, inflyasiya 12 faiz olmuşdur. İnflyasiyanın artımı bizi ən çox narahat edən məsələdir. Ona görə də görülən tədbirlərin nəticəsində inflyasiyanın səviyyəsi aşağı düşməyə başladı. Ümid edirəm ki, ilin sonuna qədər bu daha da düşəcək və gələn il inflyasiyanın normal çərçivədə saxlanması təmin olunmalıdır.

Bu müddət ərzində orta əmək haqqı 22 faiz, əhalinin pul gəlirləri 21 faiz artmışdır. Yəni bu onu göstərir ki, əhalinin real gəlirləri artmışdır, özü də çox böyük sürətlə.

Makroiqtisadi göstəricilər hər bir ölkənin iqtisadiyyatının vəziyyətini müəyyən edən amillərdir. Əlbəttə ki, makroiqtisadi göstəricilərin bu səviyyəsi ölkədə gedən real proseslərə güclü təsir göstərir. Bizim vəzifəmiz məhz bundan ibarətdir ki, uğurlu iqtisadi inkişafımız Azərbaycanın hər bir vətəndaşının, hər bir ailənin həyatında öz əksini tapsın.

Ümumiyyətlə, əgər biz başqa ölkələrin iqtisadi inkişafına nəzər salsaq görərik ki, Azərbaycan iqtisadi inkişaf sürətinin artımına görə lider dövlətdir. Bunu həm biz deyirik, həm də ən mötəbər maliyyə qurumları bunu etiraf edirlər.

Dünyada başqa bir ölkə yoxdur ki, onun iqtisadiyyatı 9 ayda 22 faiz artsın. Gələn illərdə bu artım daha sürətlə gedəcəkdir.

Artıq gələn ilin büdcəsi müzakirə olunubdur, büdcə xərcləri 4 milyard dollara çatacaqdır. 2005-ci ildə bizim büdcəmiz 2,2 milyard dollar, 2004-cü ildə 1,5 milyard dollar, 2003-cü ildə 1 milyard dollar təşkil etmişdir. Üç il ərzində büdcə xərclərimiz 3 dəfə artıbdır. Hansı ölkədə iqtisadiyyat və ümumiyyətlə real işlər belə sürətlə irəliləyir. Əlbəttə bu, bir tərəfdən onu göstərir ki, Azərbaycanda 1990-cı illərin ortalarında başlanmış iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Digər tərəfdən, iqtisadi islahatların davam etdirilməsi bu gün real nəticələrə gətirib çıxarıbdır.

Büdcə xərcləri təxminən 70 faiz artmışdır. Əlbəttə ki, büdcəmizin artması iqtisadiyyatımızın bütün sahələrinə, sosial məsələlərin həllinə də kömək göstərəcəkdir. Biz bu məsələyə çox böyük diqqət yetiririk. Bildiyiniz kimi, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı hələ də kifayət qədər yüksəkdir. Bu şəraitdə yaşayan insanların sayı ildən-ilə azalır. İlin əvvəlində 49 faizdən 40 faizə düşmüşdür, yəqin ki, ilin sonuna qədər bu rəqəm daha da aşağı olacaqdır. Amma Azərbaycan kimi ölkədə bütövlükdə yoxsul, işsiz adam olmamalıdır. Regional proqramların icrası bunu təmin edəcəkdir. 2005-ci ilin əvvəlindən ölkədə 133 min yeni iş yeri açılıbdır və bütövlükdə son iki il ərzində açılan yeni iş yerlərinin sayı 311 minə bərabərdir. Bu, həm də onu göstərir ki, əgər iki ildə 311 min iş yeri açılıbdırsa, bizim bəyan etdiyimiz proqram, yəni 5 il ərzində 600 min iş yerinin açılması, yerinə yetiriləcəkdir. Yeni iş yerlərinin açılması, əlbəttə, həm sosial məna daşıyır, həm də bunun iqtisadi mənası çox böyükdür. Hər bir yeni iş yerinin açılması yeni müəssisənin, fabrikin, zavodun açılması deməkdir. Bütün sahələrdə uğurlu inkişaf var. Sənaye istehsalı artır, sosial məsələlərə daha çox diqqət göstərilir, kənd təsərrüfatının inkişafı

üçün lazımi addımlar atılmışdır. "Aqrolizinq"in yaranması bu istiqamətdə atılmış çox mühüm addımdır. Artıq "Aqrolizinq" xətti ilə Azərbaycana böyük həcmdə kənd təsərrüfatı texnikası gətirilir, gübrələr gətiriləcəkdir. Sahibkarlara və fermerlərə ayrılmış kreditlərlə yanaşı, bu, kənd təsərrüfatının inkişafını çox sürətlə təmin edəcəkdir.

Bildiyimiz kimi, sahibkarlığın inkişafına da böyük diqqət göstərilir. Çünkü Azərbaycan bazar iqtisadiyyatı prinsiplərinə sadiq olan bir ölkədir. Azərbaycanda ümumi daxili məhsulun tam əksəriyyəti özəl sektorun fəaliyyəti hesabına formalaşır. Dövlət və hökumət sahibkarlığın inkişafı üçün əlindən gələni edir. Bir tərəfdən, güzəştli şərtlərlə verilən kreditlərin həcmi artır, gələn il bu kreditlərin həcmi təxminən 100 milyon dollar təşkil edəcəkdir. Digər tərəfdən, sahibkarlara dövlət tərəfindən, şəxsən Prezident tərəfindən verilən dəstək, əlbəttə ki, onların işini yüngülləşdirir. Qanunsuz yoxlamaların və digər xoşagəlməz halların da azalması müşahidə olunur.

Hər bir ölkənin iqtisadi inkişafı üçün infrastrukturun möhkəmlənməsi çox önəmli məsələdir. Azərbaycanda bu istiqamətdə də böyük işlər aparılır, yeni avtomobil yolları, o cümlədən kənd yolları salınır, elektrik enerjisi ilə təchizat xeyli yaxşılaşıbdır. Mənim bölgələrə çoxsaylı səfərlərim bunu bir daha göstərir. Hər yerdə mən mütləq bu məsələlərlə maraqlanıram və eşidirəm ki, ilin əvvəlindən bu günə qədər rayonlarda, kəndlərdə, demək olar ki, elektrik enerjisində problem yoxdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, qış mövsümündə də bu problem yaranmasın. Bu istiqamətdə böyük addımlar atılıb, təxirəsalınmaz tədbirlər görülübdür. Artıq yeni kiçikhəcmli elektrik stansiyalarının quraşdırılmasına başlanmışdır və gələn ilin sonuna qədər 50-dən çox stansiya tikiləcəkdir. Beləliklə, digər başqa stansiyaların tikintisi ilə bərabər, Azərbaycanda elektrik enerjisinə olan tələbat tamamilə ödəniləcəkdir.

Özümüzün qaz hasilatımız artır, eyni zamanda "Çıraq" və "Azəri" yataqlarından çıxarılan səmt qazının həcmi də artır. İdxal da artır və bu məsələ də öz həllini tapmalıdır. "Azəristiliktəchizat" Səhmdar Cəmiyyətinin yaradılmasının başlıca məqsədi ondan ibarət olmuşdur ki, Bakıda və Azərbaycanın digər böyük şəhərlərində istilik sistemi bərpa edilsin. Hamımız bilirik kİ, uzun illərdir bu sistemdə vəziyyət ürəkaçan deyildir. Bir çox yerlərdə istilik sistemi tamamilə ləğv edilibdir və bəzi hallarda sakinlər qızdırıcı batareyaları da kəsib atıblar. İndi biz bunların hamısını bərpa edirik. "Azəristiliktəchizat"ın yaradılmasında məqsəd budur. Artıq ilk vəsaitlər ayrılıbdır. Gələn il daha da böyük həcm ayrılacaqdır. Qarşıya məqsəd qoyulubdur ki, gələn ilin sonuna qədər Bakı şəhərinin bütün hündürmərtəbəli evlərinin istilik sistemi bərpa edilsin. Ondan sonra digər şəhərlərin istilik sistemi bərpa olunmalıdır. Belə texnologiyalar var, biz bunların hamısını bilirik, vəsait də ayrılacaqdır.

Azərbaycanın uğurlu neft strategiyası da icra olunur. Heydər Əliyevin təşəbbüsü ilə inşasına başlanmış və onun adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurlu tikintisi bizim böyük nailiyyətimizdir. Bu, tarixi əhəmiyyətli bir layihədir və son illər ərzində görülmüş işlər bu əfsanəni reallığa, gerçəkliyə çevirdi. Bir neçə aydan sonra biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsini qeyd edəcəyik. Artıq kəmər işə düşməmiş, Azərbaycan böyük həcmdə neft gəlirləri əldə edir. İndi Neft Fondunda 1 milyard dollardan çox vəsait var. Valyuta ehtiyatımız da bu qədərdir. Gələn illərdə bu vəsait artacaqdır. Çox rəmzi xarakter daşıyan budur ki, neft hasilatından əldə edilmiş gəlirlər, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətindən əldə edilən gəlirlər su kəmərinin çəkilişinə qoyulur. Bildiyiniz kimi, şimal-qərb zonasından Bakıya yeni su kəməri çəkiləcək, bu məsələ bir müddət bundan əvvəl geniş müzakirə olundu.

İlkin işlər görülməyə başladı və ümid edirəm ki, iki il ərzində Bakının su problemi tamamilə aradan qaldırılacaqdır. Bu, real işlərin nəticəsidir. Heydər Əliyevin neft strategiyasının, onun tərəfindən Azərbaycanda başlanmış və bütün istiqamətlərdə uğurla davam edən inkişafın nəticəsidir. Neft kəməri həm iqtisadiyyatımızı gücləndirəcək, həm də sosial problemlərin həllinə kömək göstərəcəkdir. Artıq mən qeyd etdim, sosial məsələlərin həlli bizim üçün başlıca vəzifədir. Minimum əmək haqqının bir neçə dəfə artırılması bizim niyyətimizi ifadə edir. Minimum əmək haqqı oktyabrın 1-dən 150 min manata gəlib çatıbdır. Ancaq, əlbəttə ki, bu bizi tam qane edə bilməz. Çünkü 150 min manat o pul deyil ki, insanlar bununla normal yaşaya bilsinlər. Bunları biz bilirik. Biz gələcəkdə də minimum əmək haqqının artırılmasına baxacağıq, bunu edəcəyik.

Ancaq, əlbəttə ki, bu məsələyə baxanda mütləq makroiqtisadi sabitlik məsələlərinə də baxılmalıdır. Əmək haqlarının kəskin şəkildə artımı inflyasiyaya gətirib çıxara bilir, əslində gətirib çıxarmışdır. Azərbaycanda inflyasiya heç vaxt 2-3 faizdən çox olmamışdı. Son illər ərzində inflyasiya gəldi çıxdı 15 faizə. İndi biz bunu endirdik 12 faizə. Daha da endirəcəyik. Bunun ən başlıca səbəblərindən biri də odur ki, Azərbaycanda əmək haqları çox sürətlə artır. Biz bunu edirik və etməliyik. Çünki Azərbaycan vətəndaşları yaxşı yaşamalıdırlar. Amma bütün başqa amillər də nəzərə alınmalıdır. Tələbələrin təqaüdləri 2,5 dəfə artırılıb, digər sosial ödəmələr artırılıbdır. 2006-cı ildən başlayaraq yeni pensiya sistemi tətbiq olunmağa başlayacaqdır. Bu, çox mütərəqqi sistemdir və əlbəttə ki, bu sahədə də islahatların aparılması zəruridir.

Ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkün soydaşlarımızın problemlərinin həlli üçün lazımi addımlar atılır. Bildiyiniz kimi, Prezident seçkiləri ərəfəsində mənim tərəfimdən bəyan edilmişdir ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Bu istiqamətdə böyük işlər görülüb, yəqin bu gün

bu barədə məlumat veriləcəkdir. Qaçqınların, köçkünlərin müvəqqəti olaraq normal şəraitlə təmin edilməsi bizim hamımızın vəzifəsi və borcudur.

Büdcə artdıqca, əlbəttə, milli ordunun xərcləri də artır. Biz müharibə şəratində yaşayan ölkəyik və şübhəsiz ki, bu sahəyə diqqət daha yüksək olmalıdır. Bu artım bəzi dairələri, xüsusilə xarici dairələri narahat edir. Çünki hərbi xərclərimiz 2004-cü ildə 170 milyon dollar, 2005-ci ildə 300 milyon dollar olub, 2006-cı ildə isə 600 milyon dollar təşkil edəcəkdir. Amma buna biz ümumi kontekstdə baxmalıyıq. Əgər ümumi büdcəmiz təxminən iki dəfə artırsa, əlbəttə, digər bütün xərclər də iki dəfə artmalıdır. Əgər bizim büdcəmiz 5-6 milyard dollara çatacaqsa, əlbəttə ki, ordunun xərcləri də və başqa xərclər də proporsional qaydada artırılacaqdır. Bu, heç kimi narahat etməməlidir. Bu, bizim suveren haqqımızdır. Biz öz müdafiə potensialımızı gücləndiririk. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini sülh yol ilə həll etmək istəyirik və bütün siyasətimiz bunu ifadə edir.

Əgər Azərbaycan 10 ildən artıqdır ki, sülh danışıqlarına sadiqdirsə, danışıqlar aparırsa, bu, onu göstərir ki, sülh danışıqlarına üstünlük veririk. Amma bununla yanaşı, ordu potensialının gücləndirilməsi çox vacibdir. Biz bunu edirik, bundan sonra da edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün lazımlı danışıqlar aparılır. Əfsuslar olsun ki, danışıqların hələ ki, nəticəsi yoxdur, ancaq danışıqlar müsbət istiqamətdə inkişaf edir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Başqa variantlar, ümumiyyətlə, müzakirə olunmur.

Bir sözlə, bir daha demək istəyirəm ki, bütün sahələrdə, istiqamətlərdə bizim siyasətimiz öz nəticələrini verməkdədir. Problemlər də var və az deyildir. Bunları bilirik, həll etməyə

çalışırıq. Bugünkü toplantı bizə görülən işlər haqqında məlumat əldə etmək üçün imkan yaradacaqdır. Eyni zamanda, mövcud problemlərin aradan qaldırılması üçün hansı addımlar atılmalıdır, onu da biz müzakirə edəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

- Verilən məlumatlar bir daha onu göstərir ki, Azərbaycan iqtisadiyyatı, bütövlükdə ölkəmiz çox sürətlə inkişaf edir. Nəzərdə tutulmuş bütün proqramlar, planlar həyatda öz əksini tapır. Azərbaycanda neft sektorunun, qeyri-neft sektorunun inkişafı yeni imkanlar yaradır. Sahibkarlığa və sahibkarlara verilən dəstək, əlbəttə, sahibkarların işinə kömək edir. Həm iqtisadi, həm maliyyə cəhətdən, həm də mənəvi dəstək çox vacibdir. Qeyri-neft sektorunun inkişafı, aqrar sahənin inkişafı, yeni sənaye istiqamətlərinin möhkəmlənməsi ölkəmizin gələcəyinə xidmət edəcək amillərdir ki, ölkəmiz neft amilindən asılı olmasın və möhkəm, davamlı iqtisadi inkişafa nail ola bilsin. Əlbəttə, belə olan halda sosial məsələlər də öz həllini daha da sürətlə tapır və bu istiqamətdə böyük işlər görülübdür. Artıq əmək haqları, pensiyalar, təqaüdlər haqqında məlumat verildi. Eyni zamanda, məktəblər tikilir, xəstəxanalar tikilməyə başlanmışdır. Bu proses gələcəkdə geniş vüsət alacaqdır.

Biz neft gəlirlərindən çox səmərəli, şəffaf şəkildə istifadə etməliyik və edirik. Neft gəlirlərinin həm toplanması prosesi şəffafdır, həm də xərclənməsi də şəffafdır. Bütün sosial infrastrukturun qısa müddət ərzində yaranması və yeniləşməsi prioritet məsələ olmalıdır. Görülən işlər artıq göstərir ki, biz düz yoldayıq. Mövcud olan problemlər də operativ qaydada həll olunur. Bu ilin əvvəlində bizi ən çox narahat edən inflyasiyanın sürətlə qalxması məsələsi də operativ qaydada həll olundu. İnflyasiyanın qarşısı alındı.

Mən xatırlayıram, o vaxt da demişdim ki, məqsəd ondan ibarət deyil ki, biz inflyasiyanı dayandıraq. Məqsəd ondan ibarətdir ki, inflyasiyanın səviyyəsini aşağı salaq. Artıq son

ayların təcrübəsi göstərir ki, biz buna nail ola bildik. İnflyasiya 15 faizdən 12 faizə endi. Bu gün Elman Rüstəmov məlumat verdi və Statistika Komitəsinin sədri də bunu təsdiqləyir, ilin sonuna qədər çalışmalıyıq və ümid edirəm, nail olacağıq ki, inflyasiya 10 faizdən aşağı olsun. Antiinflyasiya tədbirlərinin görülməsi, ümumiyyətlə, hökumətin səmərəli işləməsindən xəbər verir. Bu onu göstərir ki, istənilən problem operativ qaydada həll olunur.

Biz uğurlarımızdan danışırıq və haqlı olaraq, qürur hissi ilə danışırıq. Çünki görülən işlər nəticəsində belə iqtisadi artım sürəti, həqiqətən, dünyada heç bir yerdə müşahidə olunmur. Analoqu olmayan inkişafdır. Amma biz eyni zamanda problemləri də bilməliyik, onları təhlil etməliyik, açmalıyıq və həll etməliyik. Biz problemləri gizlətməməliyik. Necə deyərlər, elə bir təsəvvür yaratmamalıyıq ki, hər şey yaxşıdır. Hər şey yaxşı istiqamətdə, çox sürətlə inkişaf edir. Bəlkə gözlədiyimizdən də sürətlə inkişaf edir. Ancaq problemlər də həll olunmalıdır. Bizim vəzifəmiz bundan ibarətdir. Xalq bizdən bunu istəyir. Biz də bunu təmin etməliyik və edirik.

2006-cı il imkan verəcək ki, bütün sahələrdə inkişaf daha da sürətlə getsin. Ümumi daxili məhsulun artımı 30 faizə çatacaqdır. Əlbəttə, bunun böyük hissəsi neftin hasilatının artırılmasına görə baş verəcəkdir. Ancaq, əgər ümumi daxili məhsulun strukturuna baxsaq görərik ki, bunda qeyri-neft sektorunun xüsusi çəkisi kifayət qədər böyükdür. Bizim məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bununla yanaşı, iş yerlərinin açılması prosesi daha da sürətlə gedəcək, iqtisadi artım davam edəcəkdir. Bütün bunlar bizim planlarımızda var.

Regional inkişaf proqramı uğurla icra edilir. Mən dünən Bakı kəndləri və qəsəbələrinin problemləri ilə məşğul idim. Ümid edirəm ki, yaxın zamanlarda Bakı kəndlərinin inkişafına dair yeni proqram qəbul ediləcəkdir. Xüsusi sosial-iqtisadi proqramın qəbul edilməsi zəruridir. Çünki Bakı kəndlərində mövcud olan

problemlər rayonlarda mövcud olan problemlərdən heç nə ilə fərqlənmir, bəlkə daha da çətindir. Belə olan halda, ümid edirəm ki, 2006-cı ilin bütün tapşırıqlarının yerinə yetirilməsi heç bir problem yaratmaz.

Mən bütövlükdə hökumətin işindən razıyam. Hesab edirəm ki, bu ilin doqquz ayı ərzində çox səmərəli işləmişik, qarşıda duran bütün vəzifələri həll etmişik, Azərbaycanın davamlı iqtisadi inkişafına nail olmuşuq. İndi gərək biz bu sürəti saxlayaq və ölkəmizi uğurla inkişaf etdirək.

İqtisadi inkişaf, artım və makroiqtisadi sabitlik hər bir ailənin gündəlik həyatında öz əksini tapmalıdır və tapır. Biz bu rəqəmləri gətirərkən, deyərkən, əlbəttə, müqayisələr də aparırıq. Görürük ki, başqa ölkələrdə vəziyyət necədir, orda iqtisadi artım nə qədərdir. Əhalinin pul gəlirləri ilə inflyasiyanın artımı arasında o qədər də böyük fərq yoxdur. Bu isə o deməkdir ki, inflyasiya bütün gəlirləri, əgər belə demək mümkündürsə, aradan götürür, yeyir. Azərbaycanda isə bu fərq kifayət qədər böyükdür və daha da böyük olmalıdır. Hər şey müqayisədə ölçülür. Ancaq eyni zamanda, biz öz işimizi Azərbaycan xalqının rifah halının yaxşılaşması üçün edirik. Biz bu işləri hansısa bir rekord əldə etmək üçün yox, yəni populizm naminə yox, hansısa bir şüar naminə yox, real işlər naminə edirik və hər bir ailə bunu hiss etməlidir. Maaş artmalıdır, təqaüd artmalıdır, iş yeri açılmalıdır. Yeni imkanlar yaranmalıdır.

Mən şübhə etmirəm ki, əldə edilmiş bu dinamika gələcəkdə inkişafımıza daha güclü təkan verəcəkdir. Çünki bu vaxta qədər sahibkarlara verilmiş kreditlərin, "Aqrolizinq"in yaranmasının, kreditlərin verilməsinin davam etdirilməsinin bəhrəsini iki-üç ildən sonra görəcəyik. Bu gün biz iki, üç il əvvəl görülmüş işlərin bəhrəsini görürük. Bu, təbii prosesdir.

İndi Azərbaycanda məktəb tikintisi geniş vüsət alıbdır. Bu, təhsil deməkdir, savad deməkdir, bilik, inkişaf deməkdir. İndi xəstəxanaların tikintisinə başlamışıq. Biz buna Dövlət Neft

Şirkətinin xətti ilə başlamışıq. Hesab edirəm ki, biz bunu Səhiyyə Nazirliyinin xətti ilə də davam etdirməliyik. Səhiyyə Nazirliyinə tapşırıq verilib ki, geniş proqram hazırlansın. Azərbaycanda səhiyyə ocaqlarının tikintisi, bərpası və müasir avadanlıqla təmin olunması məsələləri həll edilməlidir. Bizim iqtisadi imkanlarımız artdıqca, ilk növbədə, bu məsələlərə diqqət göstərilməlidir.

Qaçqınların yeni evlərə, qəsəbələrə köçürülməsi prosesi də davam edir. Yəqin ki, Ağdam rayonu ərazisində tikilən şəhərciklər bu yaxınlarda istifadəyə veriləcəkdir. Ondan sonra yerdə qalan çadır şəhərcikləri ləğv ediləcəkdir. Bununla bərabər, göstəriş verilibdir və vəsait ayrılıbdır ki, yataqxanalarda təmir aparılsın və beləliklə, biz çətin vəziyyətdə yaşayan insanların həyatını yüngülləşdirək.

Bütün bu uğurlara Azərbaycanın hər bir vətəndaşı sevinir. Əlbəttə, Prezident kimi mən də sevinirəm. Çünki bu, görülən işlərin nəticəsidir. Bu bir də onu göstərir ki, verilən bütün vədlər həyatda öz əksini tapır. Çox sevinirəm ki, bütün verdiyim vədlər və bəyanatlar real işə əsaslanır, real işə söykənir. Amma bu uğurları istəməyən, bu işləri gözü götürməyən qüvvələr də var. İlk növbədə, Azərbaycanda hakimiyyət iddiasında olan qüvvələr var. Əgər müxalifətin bir neçə il bundan əvvəlki çıxışlarına diqqət yetirsəniz görərsiniz, o vaxt deyirdilər ki, xalq səfalət içindədir, hamı acından ölür. Biz indi bunları eşitmirik. Halbuki bu, o vaxt da yalan idi. Amma indi bu yoxdur. Deyirdilər ki, bizə iş, çörək lazımdır. İndi bu şüarlar da yoxdur. İşi biz verdik. 311 min iş yerini iki il ərzində biz yaratmışıq. Orta aylıq əmək haqqının 140 dollara çatmasını biz təmin etmişik. Büdcənin 4 milyard manata çatmasını da biz təmin etmişik. Yəni onların deyə biləcəyi bir şey qalmadı. Onlar nə deyirlərsə, biz onu əvvəldən demişik və üstəlik etmişik. Çünki bir var demək, bir də var həll etmək. Onların nəyə qadir olduğunu Azərbaycan xalqı 1992-ci ildə çox yaxşı gördü. Bir il ərzində ölkəni dağıtdılar. Küçədən keçən adamlar gəldilər hökumət başçısı oldular, nazir

kresloları tutdular və ancaq ölkəni talamaqla, resurslarını oğurlamaqla, satmaqla, trolleybus naqillərini kəsib xaricə satmaqla məşğul idilər. Onların hakimiyyəti, qabiliyyəti bu idi.

Deməyə çox söz olar. Amma bunu həll etmək lazımdır. Biz bunu həm bəyan edirik, həm də həyata keçiririk. Bizim işlərimiz proqram çərçivəsində həllini tapır. Vahid konsepsiya, iqtisadi inkişaf konsepsiyamız hərtərəflidir. Regionların sosial-iqtisadi inkişafı proqramı və Azərbaycanda sosial-iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi məsələləri, digər layihələr, təhsilə, səhiyyəyə, ordu quruculuğuna, sənayenin inkişafına, neft sektoruna, idmana - haraya baxsaq görərik ki, bütün istiqamətlərdə inkişaf var. Bunu görməmək mümkün deyil, bunu danmaq mümkün deyildir. Bu, reallıqdır, bizim həyatımızdır, bizim gerçəkliyimizdir, nailiyyətimizdir. Belə olan halda, əlbəttə, hakimiyyət iddiasında olan qüvvələr bundan narahat olurlar. İşlər yaxşılığa doğru getdikcə onların manevr müstəvisi daralır. İndi lap daralıbdır, əgər məcazi mənada desək, artıq onlar orada ayaq üstə dura bilmirlər.

Ona görə bu işlərə əngəl törətmək, bizim işimizi korlamaq, Azərbaycanda qarşıdurmaya gətirib çıxarmaq, vəziyyətin sabitliyini pozmaq əfsuslar olsun ki, indi onların, necə deyərlər, iş üslubuna çevrilibdir, onların siyasətidir. Amma onlar buna da nail ola bilməyəcəklər. Mən indi onların bəzi hərəkətlərinə qiymət vermək istəmirəm. Amma bəzi gülməli məqamlar da var. Məsələn, onlar bir neçə ay bundan əvvəl buraya narıncı köynəklər gətirmişdilər, böyük pul ödəmişdilər. Amma ağılları çatmadı ki, artıq noyabr ayıdır, bu köynəklər indi heç kimə lazım deyil. İndi onlar köynəklərlə hara çıxacaqlar?! Yəni bu xırda məsələ onu göstərir ki, görün, onların ağlı necə kasıbdır.

Azərbaycan öz dövlətçiliyini möhkəmləndirir. Azərbaycanda gedən siyasi proseslər, demokratik proseslər, mənim tərəfimdən imzalanmış müvafiq fərmanlar, sərəncamlar, seçki praktikasının təkmilləşdirilməsinə dair görülən işlər bizim

niyyətimizi açıq şəkildə göstərir. Siyasi proseslər, demokratikləşmə prosesləri, ölkəmizin sosial-iqtisadi inkişafı - bunlar hamısı vahid bir inkişaf prosesinin tərkib hissələridir. Birini o birindən ayırmaq mümkün deyildir. Əgər biz diqqətimizi ancaq iqtisadi məsələlərə yönəltsək, siyasi proseslər kənarda qalsa, demokratikləşmə getməsə, ölkədə siyasi islahatlar getməsə, uğur qazana bilmərik. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, əgər iqtisadiyyat inkişaf etməsə, onda demokratikləşmə prosesi də təhlükə altına düşər. Çünki kasıb ölkədə, çoxlu sosial problemləri olan olkədə insanlar demokratiya, siyasi proseslər haqqında düşünmürlər. İnsanları ancaq gündəlik məsələlər düşündürür. Ona görə paralel şəkildə, hərtərəfli inkişaf Azərbaycanı yaxın zamanlarda çox güclü dövlətə çevirəcəkdir.

Ancaq bu qüvvələrlə, yəni bizim uğurumuza sevinməyən, Azərbaycanın uğurlarına sevinməyən insanlar xoşbəxt adamlar deyil. Çünki bu, bizim vətənimizdir, Azərbaycandır, Azərbaycanın hər bir vətəndaşı öz ölkəsini sevməlidir. Azərbaycanın hər bir vətəndaşı vətənpərvər olmalı, öz əməyi ilə ümumi işimizə töhfə verməlidir. Müxalifət nümayəndələri bundan məhrumdurlar. Onlar bizim uğurlarımızı, ölkəmizin irəliləyişini görüb sevinmirlər, əksinə, məyus olurlar. Bu, onların faciəsidir və hər vəchlə çalışırlar ki, bizim gördüyümüz işlərə əngəllər törətsinlər, hansısa süni maneələr yaratsınlar. Amma buna nail ola bilmirlər və bilməyəcəklər.

Ancaq son zamanlar əldə edilmiş məlumatlara görə, bu işlərə bəzi keçmiş hökumət üzvləri də qoşulmuşdur. Bildiyiniz kimi, hökumətin iki üzvü - Fərhad Əliyev və Əli İnsanov, habelə başqa yüksək vəzifəli şəxslər qanunsuz yollarla, korrupsiya və rüşvətxorluq yolu ilə əldə edilmiş pulları müxalifətin kütləvi iğtişaşlarının törədilməsinə xərcləyirdilər.

İndi istintaq gedir, hüquq mühafizə orqanları bu məsələyə dair məlumat verirlər və kifayət qədər məlumat var. Tutulan

adamların ifadələri, bu işlərdə onlarla əlbir olan insanların ifadələri artıq kifayət qədər məlumat verir ki, burada nə qədər çirkin əməllər görülürdü. Şəxsən məndə şübhə yoxdur ki, artıq bəlli olan bütün məqamlar həqiqəti əks etdirir. Bizdə olan məlumatlar, şahidlərin ifadələri və saxlanılan adamların ifadələri, mənə olan müraciətləri bunu göstərir.

Əlbəttə, işin hüquqi tərəfini hüquq mühafizə orqanları, istintaq və məhkəmə müəyyən edəcəkdir. Mən buna toxunmaq istəmirəm, istintaqın işinə də qarışmaq istəmirəm. Azərbaycanda hüquqi dövlət qurulur, bizdə qanunun aliliyi mövcuddur və buna hörmətlə yanaşmalıyıq.

Biz gərək işin mənəvi tərəfinə öz münasibətimizi bildirək. Düzdür, bu adamlar haqqında danışanda mənəviyyat sözünü işlətmək bəlkə o qədər də düzgün deyildir. Çünki onların fəaliyyəti, hərəkətləri mənəvi eybəcərlikdir. Bu insanların mənəvi düşgünlüyüdür. Uzun illər, on il ərzində bizim aramızda olan, bizimlə bərabər işləyən adamlar bizə arxadan zərbə vururlar. Özü də kiminlə birləşdilər? Beynəlxalq mafiyanın rəhbərlərindən biri, Azərbaycanda korrupsiyanın təməlini qoyan, dünyada korrupsioner və oğru kimi tanınan Rəsul Quliyevlə birləşiblər! Qanunsuz yolla, oğurluq və korrupsiya yolu ilə qazanılmış çirkli pullarını onun sifarişi ilə onun əlaltılarına verməklə Azərbaycanda kütləvi iğtişaş törətmək istəmişlər. Nə üçün? Azərbaycanda gedən proseslər, Azərbaycanın uğurlu inkişafı, Azərbaycan xalqının normal yaşaması kimin gözünü deşir? Azərbaycan dövlətinin, dövlətçiliyinin, Azərbaycan xalqının düşmənlərinin! Onların arzusu nə idi? O boyda vəzifə sahibi idilər. On ildən artıq və on ilə yaxın hökumətin ən mühüm vəzifələrində yer tuturdular. Onlar hökumətə gələndə nə vəziyyətdə idilər, sonra nə vəziyyətə düşdülər? Əli İnsanov. Sonra nə oldu? İndi bunu hamı bilir. Yaxud da Fərhad Əliyev. Ən çox inhisarçılıqdan danışan, amma ən böyük inhisarçı, ən böyük korrupsioner, ən böyük rüşvətxor idi, onun nazirliyində

bir dənə də arayış pulsuz verilmirdi. Amma görünür, bu imtiyazlar, bu şərait, bu vəzifə, bu var-dövlət onları bu işlərə sövq etdi. Bundan da böyük iddiada imişlər. Yəqin ki, bundan da böyük vəzifə istəmişlər. Bundan böyük vəzifə nə ola bilər?! Nazir vəzifəsindən böyük nə ola bilər?!

İndi görün, nələr baş verə bilərdi? Bir tərəfdən korrupsioner məmurlar Əli İnsanov, Fərhad Əliyev və başqa məmurlar hərəsi öz iddiasında, ikinci tərəfdən, xaricdən gəlmək istəyən mafioz Rəsul Quliyev prezidentlik iddiasında, digər tərəfdən, bizim bu köhnəlmiş, naftalin qoxusu gələn müxalifət - İsa Qəmbərov, Əli Kərimov. Burada nə olacaqdı? Əgər onların planları həyata keçsəydi, Azərbaycanda yenidən vətəndaş müharibəsi başlanacaqdı. Çünki onların planlarını həyata keçirmək üçün Rəsul Quliyevin buraya gəlişi lazım idi.

Onlar hesab edirdilər ki, Rəsul Quliyevin gəlişi ilə onu qarşılamağa kimsə gələcəkdi, bəzi adamlar bunlara qoşulacaqdı. Artıq bu onu göstərir ki, hökumət üzvləri və başqa yüksək vəzifəli məmurlarla danışıqlar aparılırdı. Fərhad Əliyevin 100 min avronu Fikrət Yusifova verməsi faktdır. Bunu həm Fikrət Yusifov təsdiqləyir, həm də o pulu ona çatdıran və başqaları təsdiqləyir. Bu, axırıncı pul deyil, bundan başqa da pul verilmişdir. Əli İnsanovun 200 min dolları Rəsul Quliyevin gəlişinə deyil, burada insanlara, küçədə gəzənlərə pul verməklə onları iğtişaşlara təhrik etməyə xərclənirdi. Son qanunsuz mitinqin reportajı göstərdi ki, mitinqin bir iştirakçısı polisə deyir ki, məni vur. Nəyə görə vur? Çünki vurulanda ona 400 dollar pul verirlər. Bu pul haradan gəlir? Bizim aramızda oturanlardan! Ona görə istintaq hər şeyi aydınlaşdıracaqdır.

Yenə də deyirəm, Azərbaycan çox böyük fəlakətlə üz-üzə qalmışdı. Çünki əgər onların planları həyata keçsəydi, Azərbaycan yenə də anarxiya, böhran, xaos, qanunsuz silahlı birləşmələr, qanunsuz hərəkətlər və hakimiyyət davası dövrünə sürüklənərdi. Biz bunun qarşısını aldıq. Biz bütün bu xoşagəlməz

halların qarşısını qətiyyətlə, cəsarətlə, qanun çərçivəsində aldıq. Hərə öz payını aldı. Onlar harada idilər və haraya düşdülər! Bu, hamı üçün dərs olmalıdır.

Mən bir neçə ay bundan əvvəl Nazirlər Kabinetinin toplantısında demişdim, kim siyasətlə məşğul olmaq istəyir, getsin məşğul olsun. Amma burada oturmasın. Çıxsın getsin. Getsin, siyasətlə məşğul olsun, görüm necə məşğul olacaqdır. Eşitmədilər. Bəlkə hesab edirdilər ki, mən bunu elə-belə, söz naminə deyirəm. Mən sözü bir dəfə deyirəm. İkinci dəfə hərəkət edirəm.

Mən son zamanlar bu məsələ ilə bağlı gedən prosesləri müşahidə edirəm. Əlbəttə, bu, bizim hamımızı düşünməyə vadar edir. Hamımız bilməliyik, kim kimdir. Gərək burada şəffaflıq olsun, aşkarlıq olsun. Tutaq ki, kimsə başqa yol tutmaq istəyir, tutsun. Gəlsin, kişi kimi desin ki, mən bununla razı deyiləm, mən bunun əleyhinəyəm, mən bu mövqedəyəm. Mən də bunu qəbul edərəm. Mən açıq mübarizənin tərəfdarıyam. Bu, həmişə belə olubdur.

Mənim atam Heydər Əliyev də açıq mübarizə aparmışdır. O vaxt sovet sisteminin əleyhinə gedəndə bunu bəyan etmişdi. Bunu gizli yolla, altdan-altdan etməmişdi. Açıq etdi, partiyadan çıxdı, partiya biletini atdı, sovet rəhbərliyini və Qorbaçovu pisləndi, Sovet İttifaqı Kommunist Partiyasını ifşa etdi və çıxıb getdi. Budur, hamımızın gözünün qabağında olan məsələlər. Ondan sonrakı dövrdə, Azərbaycanda Vəzirov, Mütəllibov kimi adamların dövründə mübarizə aparırdı. Ondan sonra Xalq Cəbhəsi dövründə Yeni Azərbaycan Partiyasını yaratdı. Müxalifətdə idi, kişi kimi. Belə olmalıdır!

Mən mübarizəyə qoşulanda da eyni məramla qoşuldum. 2003-cü ildə prezident seçkilərində iştirak etdim. Necə deyərlər, alnım açıq, üzüm ağ. Prezident seçkilərində mübarizə apardım, qələbə qazandım. Bu gün də mübarizəni aparıram, sabah da aparacağam, bütün dövrlərdə aparacağam. Çünki mən haqlıyam

və mənim siyasətim xalq tərəfindən dəstəklənir. Yaxşı, bəs bunlar - Fərhad Əliyev, Əli İnsanov mənim yanımda olanda yaltaqlanırdılar, yalan sözlər deyirdilər: ay, biz Sizi belə dəstəkləyirik, ay, Siz belə adamsınız. Fərhad Əliyev mənim kabinetimdə Qurana əl basırdı. Son aylar ərzində onunla bir neçə ciddi söhbətim olmuşdu. Mən düzgün yolda olmadığını ona deyirdim. Ona şans verirdim ki, öz hərəkətlərində düzəliş etsin. Gəlirdi, mənim otağımda əlini Qurana basırdı. Belə hərəkətlər insanda ikrah hissi doğurur.

Əli İnsanov öz müraciətində yazıb ki, onun hərəkətləri bağışlanılmazdır, nifrətə layiqdir. Onu düz deyir. Onların hərəkətləri nifrətə layiqdir. Mən bu hərəkətlərdən iyrənirəm. Ona görə mən istədim ki, öz mövqeyimi bildirim, siz də bunu biləsiniz. Adam mübarizəni kişi kimi aparar. Qalib də gələr, məğlub da olar, amma öz mənliyini saxlayar. Çünki bilirsiniz, iqtidar bu gün var, sabah da ola bilər, ondan sonra da ola bilər, ondan sonra olmaya da bilər. Amma insanda insani keyfiyyətlər həmişə olmalıdır. O adamlar bizim üzümüzə necə baxırlar? Əgər onlarda vicdan varsa. Mən indi buna şübhə edirəm.

Mən bir daha demək istəyirəm ki, belə halların qarşısı qətiyyətlə alınıbdır. İndi istintaq gedir. İstintaq hər şeyi üzə çıxaracaq, hər şey aydın olacaq və hər kəs törətdiyi əməllərə görə xalq qarşısında və ədalət qarşısında cavab verəcəkdir.

Bir daha deyirəm ki, kim siyasətlə məşğul olmaq istəyir, kim bu yolu tutmaq istəyir, bax, bu gün, indi dursun, desin. Qapılar açıqdır. Yox əgər belə deyilsə, onda hamı öz işi ilə məşğul olsun. Hamıya böyük vəzifə verilibdir, nazir, komitə rəhbəri, başqa vəzifələr. Siz Prezident qarşısında məsuliyyət daşıyırsınız. Məni xalq seçib, mən xalq qarşısında məsuliyyət daşıyıram, siz Prezident qarşısında məsuliyyət daşıyırsınız. Sizi nə isə qane etmir, razı deyilsiniz, başqa yanaşma var, siyasət sizi qane etmir, münasibət sizi qane etmir - gəlin, deyin, heç bir problem yoxdur. Mən bu münasibətlərin tərəfdarıyam. Amma burada oturub

müxalifətlə əlbir olmaq, onlara pul vermək ki, o pulla gəlsinlər Prezidenti devirsinlər və ondan sonra nə olacaq Allah bilir. Buna imkan verilməyəcəkdir.

Hamı bilməlidir ki, Azərbaycanda belə konspirativ qaydada, gizli yolla artıq heç nə etmək mümkün deyildir. Bizim qətiyyətli addımlarımız var. Təkcə Azərbaycanda deyil, başqa ölkələrdə də nə baş verir, onu da bilirik. Son hadisələr onu göstərdi. Başqa ölkələrdəki o gizli sövdələşmələr bizə bəlli olur. Hamı bunu bilməlidir ki, Azərbaycanda ciddi tədbirlər görülür, dövlətçiliyimiz möhkəmlənir. Azərbaycan güclü dövlətdir, bizimlə ultimatum dilində danışmaq istəyənlər, müxalifət indi nə oldu? Narıncı köynəklərlə bizə hücum edənlər indi haradadırlar? Rəsul Quliyev, o oğru, mafioz haradadır? Azərbaycana gəlsin, cavab versin! Qorxur, o birilər də qorxurlar və qorxacaqlar. Çünki hünərləri çatmır. Bu, belədir.

Qarşıdan parlament seçkiləri gəlir. Parlament seçkilərinin ədalətli keçirilməsi üçün nə lazımdırsa, onu da elədik. Müvafiq sərəncamlar verilibdir, indi parlament seçkilərinin normal keçirilməsi üçün bütün şərait var. Mən bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Son zamanlar bütün icra hakimiyyəti başçılarını yığmışdım, göstərişlər verdim. Seçkilərə artıq 2-3 gün qalır. Ümid edirəm ki, seçkilər çox normal şəkildə keçiriləcək, Azərbaycan xalqının iradəsi seçkilərdə öz əksini tapacaqdır.

Seçkilərdən sonra Azərbaycanın hərtərəfli inkişafı üçün yeni imkanlar, yeni üfüqlər açılacaqdır. Ölkəmiz Avropa strukturlarına daha da sürətlə inteqrasiya edəcəkdir. Azərbaycanda həm iqtisadi addım, eyni zamanda siyasi proseslərin sürətlə inkişaf etməsi, şübhəsiz ki, müşahidə olunacaqdır.

Mən ümid edirəm ki, bütün nəzərdə tutulmuş proqramlar, planlar gələcəkdə də öz həllini tapacaqdır. Bütün vəzifəli şəxslərdən - nazirlərdən, məmurlardan tələb edirəm ki, hərə öz yerində öz vəzifə borcunu vicdanla, ləyaqətlə yerinə yetirsin və

bizim ümumi işimizə öz töhfəsini versin. Bununla da mən Nazirlər Kabinetinin toplantısını bağlı elan edirəm.

Sizi qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik edirəm.

Sağ olun.

ÜÇÜNCÜ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Hörmətli millət vəkilləri!

Bu gün üçüncü çağırış Milli Məclis öz işinə başlayır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm.

Dünən Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini təsdiq etdi. Beləliklə, Milli Məclisə seçilmiş deputatlar öz fəaliyyətinə başlayırlar. Bütövlükdə, parlament seçkilərinin Azərbaycanın demokratik inkişafında çox mühüm rolu vardır. Seçkilər şəffaf, ədalətli şəkildə keçirilib və bizə imkan verəcək ki, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycanda siyasi proseslər daha da sürətlə aparılsın, ölkədə demokratik islahatlar davam etdirilsin və bütövlükdə Azərbaycan demokratik dövlətə çevrilsin.

Mən bu gün bu kürsüdən ikinci çağırış Milli Məclisin fəaliyyətinə toxunmaq istərdim. 2000-ci ildə seçilmiş Milli Məclis və onun millət vəkilləri çox böyük işlər görmüşlər, səmərəli işləmişlər. Son 5 il ərzində Azərbaycanda çoxlu qanunlar qəbul edilmişdir ki, bu da ölkəmizin hərtərəfli inkişafı üçün gözəl qanunvericilik bazasını yaratdı. Hesab edirəm ki, qəbul olunmuş qanunlar ölkəmizin inkişafında bundan sonra da mühüm rol oynayacaq və bütövlükdə, Azərbaycanda çox geniş qanunvericilik bazası yaradılacaqdır.

İnkişaf etmiş ölkələrdə, parlamentarizmin böyük ənənələri olan ölkələrdə qanunvericilik bazası da çox genişdir. Ancaq

Azərbaycanda vəziyyət fərqli idi. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayanda bizim qanunlarımız yox idi. Konstitusiyamız 1995-ci ildə qəbul edilmişdir və ondan sonra qanunvericilik prosesi geniş vüsət almışdır. Azərbaycanda yeni qanunların qəbul edilməsi məsələsi çox böyük əhəmiyyət kəsb edirdi. Çünki hər bir ölkənin həyatında əsas rolu qanunlar oynayır. Biz Azərbaycanda hüquqi dövlət qururuq və ona görə qanunun aliliyi hər şeydən üstün olmalıdır. Bu baxımdan ikinci çağırış Milli Məclisin fəaliyyəti çox müsbət olmuşdur. Milli Məclisin komissiyaları çox səmərəli işləmişdir. Parlamentin rəhbərliyi, spiker Murtuz Ələsgərov və onun müavinləri çox böyük işlər görmüşlər. Mən buna görə onlara öz minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, son 5 il ərzində Azərbaycan müxtəlif beynəlxalq konvensiyalara da qoşuldu. Bu, bizim dünya birliyinə, Avropa strukturlarına inteqrasiya siyasətimizin tərkib hissəsidir. Son 5 il ərzində Azərbaycanda qəbul edilmiş yeni mütərəqqi qanunlar ölkəmizin demokratik inkişafına güclü təkan verdi və biz bu gün bunun bəhrəsini görürük.

Bu gün isə üçüncü çağırış Milli Məclis öz işinə başlayır. Mən ümid edirəm ki, Azərbaycanda yaranmaqda olan müasir parlamentarizmin ənənələrini siz davam etdirəcəksiniz.

2005-ci ilin parlament seçkiləri ölkə həyatında çox mühüm bir proses və hadisə idi. Bir neçə ay ərzində Azərbaycanda parlament seçkilərinə hazırlıq dövrü ərzində, ölkədə gedən siyasi proseslər daha da sürətlənmiş, ölkə demokratik inkişaf baxımından daha da möhkəmlənmişdir. Parlament seçkilərinin şəffaf və ədalətli keçirilməsi üçün hər şey edilmişdir və nəticə etibarilə açıq, ədalətli, şəffaf şəkildə parlament seçkiləri keçirilmiş və yeni deputatlar mandat əldə etmişlər. Bu ərəfədə həm müvafiq sərəncamlar imzalandı, həm də seçki kampaniyasının aparılmasında çoxlu yeniliklər oldu. Sərbəst

toplaşma azadlığı təmin edilmişdi və bəzi istisnalar olmaq şərtilə, Azərbaycanın bütün yerlərində namizədlər seçicilərlə əlaqə saxlamışlar, öz görüşlərini keçirmişlər. Bəzi hallarda isə qəsdən törədilmiş hadisələr nəticəsində buna imkan olmadı.

2000 namizədin qeydiyyatdan keçməsi də özlüyündə parlament seçkilərinə əhali tərəfindən böyük inamın təzahürü idi. Çünki əgər belə olmasaydı, bu inam olmasaydı, heç vaxt 2000 adam bu yarışa girməzdi. Media qurumları seçki kampaniyasında çox fəal iştirak etmişlər. Bu da yenilikdir. Deyə bilərəm ki, hətta biz bu baxımdan inkişaf etmiş ölkələri geridə qoyduq. Çünki inkişaf etmiş ölkələrdə, Avropa ölkələrində özəl telekanallar seçki kampaniyasında iştirak etmirlər. Onlar yalnız reklam vaxtından istifadə edib bu və ya digər namizədlərə öz efir vaxtını verirlər. Azərbaycanda isə bütün özəl kanallar bu parlament təşviqatında fəal rol oynamışlar. Başqa yeniliklər də oldu. İlk dəfə Azərbaycanda exit-poll keçirildi. Ondan sonra barmaqların mürəkkəblə işarələnməsi məsələsi öz həllini tapdı.

Bir sözlə, bütün tədbirlər görüldü ki, Azərbaycanda şəffaf seçkilər keçirilsin, seçki saxtakarlığına imkan olmasın, əgər hansısa hallarda bu saxtakarlıq olarsa, onu gizlətmək mümkünsüz olsun. Nəticələr də bunu təsdiq etdi. O dairələrdə ki, qanun pozuntuları olub, qanunsuz müdaxilələr, yaxud saxtakarlıq olub, bildiyiniz kimi, orada nəticələr ya dəyişdirilib, ya da ləğv edilibdir. Nəticələr 10 dairədə ləğv edilib, 2 dairədə son nəticələr dəyişdirilibdir. Bütövlükdə, 12 dairədə seçkilərin keçirilməsində problemlər yaranmışdır. Məhz bizim tərəfimizdən qəbul edilmiş Sərəncamlar, verilmiş göstərişlər, atılmış addımlar imkan yaratdı ki, bu qanun pozuntularının aşkarlanması mümkün olsun. Bütövlükdə, seçki kampaniyası çox uğurlu keçdi. Hesab edirəm ki, hər bir namizəd sərbəst şəkildə öz platformasını, fikirlərini seçicilərə çatdıra bilmişdir.

Seçkilərin nəticələri Azərbaycanda hökm sürən ab-havanın təzahürüdür. Mən şəxsən şübhə etmirdim ki, seçkilərdə Azərbaycan dövlətçiliyinə xidmət edən, Azərbaycanı istəyən, sevən vətənpərvər insanlar, öz biliyi, fəaliyyəti ilə hörmət qazanmış insanlar üstünlük əldə edəcəklər. Çünki Azərbaycan xalqı müdrik xalqdır. Azərbaycan xalqı öz seçimini edibdir. Bu gün xalqla iqtidar arasında olan bu birlik, bu inam bir daha onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Parlament seçkiləri bunu bir daha təsdiqlədi. Mən çox sevinirəm ki, parlamentdə təmsil olunan deputatlar açıq, ədalətli mübarizədə qələbə qazandılar və əlbəttə, bu, parlamentin legitimliyinə də öz böyük töhfəsini vermiş oldu.

Bildiyiniz kimi, Azərbaycanda parlament seçkiləri böyük maraq doğurmuşdur. Müxtəlif xarici təşkilatlar buraya çoxlu müşahidəçi göndərmişdi. Bir neçə ölkənin nümayəndələri parlament seçkilərini yaxından izləmişlər. Bu da təbiidir. Çünki Azərbaycan Avropa, Avratlantik strukturlarına sürətlə inteqrasiya edir. Azərbaycanda bütün meyarlar gərək yüksək səviyyəyə cavab versin. Belə olan halda əlbəttə, parlament seçkilərinin ədalətli, şəffaf keçirilməsi həm bizim maraqlarımıza cavab verirdi, həm də bizimlə əməkdaşlıq edən beynəlxalq təşkilatların, tərəfdaşlarımızın marağında idi.

Bildiyiniz kimi, müxtəlif beynəlxalq təşkilatlar və onların müşahidəçiləri burada işləmişlər və rəylər təqdim etmişlər. Bu rəylər öyrənilir, təhlil edilir, harada ki, ədalətli irad varsa, o irad təbii ki, qəbul edilir və bu iradlardan nəticə çıxarılır. Harada ki, ədalətsiz yanaşma, yaxud irad varsa, hansısa səhv məlumatın əsasında yaranmış yanlış fikir varsa, əlbəttə, biz bunu qəbul edə bilmərik. Harada ki, qərəzli irad varsa, biz bunu bütövlükdə rədd edirik. Çünki biz ədalətin tərəfdarıyıq. Parlament seçkilərinin şəffaf, ədalətli keçirilməsi üçün hər şey edilibdir. Biz

öz niyyətimizi açıq şəkildə ortaya qoyduq və axıra, sona qədər sübut etdik ki, biz sadiqiq.

Amma o da faktdır ki, Azərbaycan son illər ərzində çox sürətlə inkişaf edən bir ölkədir. Azərbaycanın regionda və dünyada önəmi artmaqdadır. Bizim siyasi çəkimiz artmaqdadır. İqtisadi potensialımız güclənir, bizim coğrafi, coğrafi-siyasi önəmimiz sürətlə artır. Təbii sərvətlərlə zəngin olan, çox mühüm yerdə yerləşən, dünyəvi ölkəyə, Avropa, Avratlantik strukturlarına inteqrasiya yolu seçmiş ölkəyə, əlbəttə, böyük maraq var və bəzi hallarda müxtəlif siyasi hadisələr bəzi dairələr tərəfindən başqa məqsədlər üçün də istifadə olunur. Heç kəs üçün sirr deyil, belə hallar olmuşdur, biz də onun şahidiyik ki, seçkilərə mənfi yanaşan bəzi dairələr bunu siyasi motivlərlə etmişlər. Bu, bir növ siyasi təzyiqin əlaməti idi. Biz bunu hamımız bilirik və gərək buna da hazır olaq. Bu, var, sabah da olacaqdır. Biz buna hazır olmalıyıq. Mən də buna hazıram.

Yenə də deyirəm ki, biz əməkdaşlığın tərəfdarıyıq. Biz qarşılıqlı hörmət və ehtiram əsasında, bərabərlik əsasında qurulmuş münasibətlərin tərəfdarıyıq. Biz öz siyasətimizi, o cümlədən xarici siyasətimizi açıq və aydın bəyan etmişik. İki il bundan əvvəl Prezident vəzifəsinə seçilən zaman mən bu siyasəti bəyan etdim və indi bu siyasət davam etdirilir. Təbii ki, Azərbaycan kimi cəlbedici ölkə, belə cazibədar ölkə bütün bu sadaladığım amilləri nəzərə almaq şərtilə, şübhəsiz ki, müxtəlif maraqların toqquşması yerinə çevrilə bilər. Biz buna imkan verməməliyik. Mən dəfələrlə bunu demişəm. Azərbaycan rəqabət yox, qarşıdurma yox, əməkdaşlıq məkanına çevrilməlidir. İlk növbədə, Azərbaycanın milli maraqları təmin olunmalıdır. Mən Azərbaycanın milli maraqlarının təmin olunmasında əlimdən gələni əsirgəmirəm. Biz hamımız, o cümlədən deputat korpusu bu məqsədə qulluq etməliyik. Ən əsası Azərbaycanın milli maraqları, Azərbaycan xalqının inkişafı, Azərbaycan

dövlətçiliyinin möhkəmlənməsidir. Onsuz da biz bu gün bölgədə liderlik mövqelərinə sahibik. Bu gün Azərbaycanın iştirakı olmadan, razılığı olmadan, siyasi iradəsi olmadan bölgədə heç bir - nə siyasi, nə iqtisadi, nə də başqa layihə reallaşdırıla, yaxud hadisə baş verə bilməz. Getdikcə bizim çəkimiz, önəmimiz artacaqdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınmasından sonra, Azərbaycandan keçən müxtəlif enerji və nəqliyyat dəhlizləri fəaliyyətə başlayandan sonra bizim önəmimiz qat-qat artacaqdır. Azərbaycan artıq regional müstəvidən çıxıb dünya miqyasında çox önəmli rol oynayan ölkəyə çevriləcək və çevrilməlidir. Bizim məqsədimiz məhz bundan ibarətdir. Bütün görülən tədbirlər, atılan addımlar, iqtisadi, siyasi islahatlar, Azərbaycanın hərtərəfli inkişafı, demokratiyanın inkişafı məhz bu məqsədi daşıyır.

Mən tam əminəm ki, əgər biz Azərbaycanda güclü iqtisadi və siyasi potensial yaratmaq istəyiriksə, Azərbaycanda həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə aparılmalıdır. Biz bilirik, bəzi ölkələrdə belə fikir var ki, öncə gərək iqtisadiyyat möhkəmlənsin, güclü iqtisadi baza formalaşsın, ondan sonra demokratikləşmə poroseslərinə daha da böyük təkan verilə bilər, yaxud bu istiqamətdə hansısa daha da cəsarətli addımlar atıla bilər. Mən bu fikrə şərik deyiləm. Mən düşünürəm ki, bu iki proses paralel şəkildə getməlidir. Əgər Azərbaycanda demokratiya tam şəkildə bərqərar olmasa, azad cəmiyyət yaranmasa, bizim iqtisadi uğurumuzun heç bir əhəmiyyəti olmayacaqdır. Əgər ictimai nəzarət yoxdursa, əgər azadlıq yoxdursa və ölkə demokratik deyilsə, uğurlarımız nə qədər olursa-olsun, bizim təbii sərvətlərimiz olsun, yaxud neft kəmərlərimiz olsun, büdcəmiz artsın - bunun heç bir əhəmiyyəti olmayacaqdır.

Biz bəzi neft hasil edən ölkələrin təcrübəsini öyrənmişik və görürük ki, harada uğur var, harada vəziyyət yaxşı deyildir. Bunu görmək, müqayisə etmək və işləri bu istiqamətdə aparmaq lazımdır. Mənim siyasətim bundan ibarətdir və bu günə qədər atılmış bütün addımlar məhz bu məqsədi daşıyır: güclü iqtisadiyyat yaratmaq, iqtisadi potensialı möhkəmləndirmək, cəsarətli iqtisadi islahatlar aparmaq və eyni zamanda, Azərbaycanda demokratik prosesləri sürətləndirmək.

Bu istiqamətdə parlament seçkilərinin çox böyük əhəmiyyəti vardır. Əlbəttə, başqa addımlar da atılır. Parlament seçkiləri ərəfəsində görülmüş işlər, yeni Seçki Məcəlləsinə edilmiş dəyişikliklər və başqa yeniliklər artıq bir səviyyə yaratdı. Bundan sonra Azərbaycan artıq bu səviyyədən aşağı enməyəcəkdir. Bundan sonra daha böyük addımlarla irəliləyəcək, daha mütəşəkkil qaydada seçkilər keçiriləcəkdir və əminəm ki, bu seçkilərdə bizi narahat edən qanun pozuntuları aradan qaldırılacaqdır.

İndiki seçkilərdə Prezidentin göstərişlərinə əməl etməyən insanlar cəzalandırıldı və bu proses davam edəcəkdir. Hamı bilməlidir ki, əgər mən bəyan edirəmsə, - bunu bir dəfə, iki dəfə yox, rayonlarda olduğum zaman bütün görüşlərdə, burada keçirdiyim toplantılarda vurğulamışdım, - gərək heç kəs müdaxilə etməsin, yerli icra orqanları seçki prosesinə müdaxilə etməsinlər. Seçkilər şəffaf keçirilməlidir. Heç bir namizədə problem yaradılmamalıdır. Hamı eyni, bərabər hüquqa malik olmalıdır. Amma məni eşitməyən, göstərişlərimə əməl etməyən məmurları mən cəzalandırdım. Artıq bəziləri həbs olunub, bəziləri işdən çıxarılıb və bu proses davam edəcəkdir.

Bu seçkilərə media tərəfindən böyük diqqət göstərilmişdir. Yəqin bu da təbiidir. Xüsusilə xarici telekanallar və qəzetlər, digər informasiya agentlikləri bu seçkilərə böyük maraq göstərirdilər. Yəqin siz də o yazıları, məlumatları izləmisiniz.

Seçkilərə hələ bir neçə ay qalmış müxtəlif fərziyyələr irəli sürülürdü ki, görəsən, Azərbaycanda növbəti inqilab olacaq, yoxsa yox. Bəziləri yazırdılar ki, olacaq, bəziləri yazırdılar ki, olmayacaqdır. Mən bu barədə öz fikrimi dəfələrlə, hələ bir neçə ay bundan əvvəl, seçki kampaniyası başlayan gün ifadə etmişəm. Bu gün həyat göstərir ki, mən haqlıyam. Çünki inqilabı, yaxud da çevrilişi şərtləndirən amillər var.

Ümumiyyətlə, bu hadisəyə inqilabmı, çevrilişmi demək də, əlbəttə, hər bir insanın, yaxud təşkilatın yanaşmasından asılıdır. Əgər buna müsbət hal kimi baxırlarsa, deyirlər ki, bu, inqilabdır. Əgər bunu qəbul etmirlərsə, deyirlər ki, bu, çevrilişdir. Başqa ölkələrdə, postsovet ölkələrində baş vermiş hadisələrə qiyməti yəqin ki, o ölkələrdə yaşayan xalqlar verəcəklər. Ona görə mən bu məsələyə toxunmaq istəməzdim. Amma Azərbaycana gəldikdə, əlbəttə ki, burada çevriliş etmək üçün müəyyən amillər lazım idi və onlar da Azərbaycanda yoxdur.

İlk növbədə, Azərbaycanda iqtidarla xalq arasında uçurum olmalıydı. Bizdə əksinə, xalqla iqtidar arasında birlik var, inam var. Biz bunu gündəlik fəaliyyətimizlə daha da möhkəmləndiririk. Digər tərəfdən, çevriliş etmək üçün güclü müxalifət lazımdır və cəsarətli müxalifət lideri lazımdır. Azərbaycanda nə o var, nə də bu. Bundan başqa, bunu etmək üçün təkcə müxalifətin güclü olması kifayət etməz. Ciddi ictimai bir fikir də olmalıdır. İctimai, yaxud da sosial sifariş olmalıdır. Bu, Azərbaycanda bütövlükdə yoxdur və mövcud deyildir. Azərbaycan ictimaiyyəti bunu dəstəkləmir. Parlament seçkiləri, onun nəticələri və seçkilərdən sonra baş vermiş hadisələr bunu bir daha təsdiqləyir. Əksinə, Azərbaycanda vətəndaş cəmiyyəti formalaşır. Azərbaycanda sözün əsil mənasında vətəndaş həmrəyliyi mövcuddur. Mən deyə bilmərəm ki, Azərbaycanda siyasi həmrəylik var. Yox. Əfsuslar olsun, biz hələ o səviyyəyə çatmamışıq, gərək siyasi mədəniyyət o səviyyəyə çatsın ki, siyasi

partiyalar, yaxud siyasi mübarizə aparan tərəflər bu mübarizəni sivil qaydada aparsınlar. Ancaq Azərbaycanda vətəndaş həmrəyliyi var. Azərbaycan iqtidarının apardığı siyasət xalq tərəfindən bəyənilir və dəstəklənir. Ona görə Azərbaycanda çevrilişi təmin edəcək heç bir amil yox idi. Ancaq buna baxmayaraq biz bilirik ki, media mənsubları bəzi hallarda sensasiya axtarışındadırlar. Bilirəm, buraya gəlmiş çoxlu xarici jurnalistlər bir az məyus oldular ki, Azərbaycanda bu hadisəni görmədilər. Ancaq mən dedim, onlara deyin ki, üzr istəyirik, əgər bu hadisələri görmək istəyirlərsə, getsinlər bunu öz ölkələrində görsünlər. Bu, kimin üçünsə, tutaq ki, bir sensasiyadır, yaxud hadisədir, bizim üçün isə bu, bizim həyatımızdır, müqəddəratımızdır. Azərbaycanda hökm sürən sabitlik, ictimai-siyasi asayiş çox möhkəm qorunur və saxlanılır.

Bilirəm ki, seçkilərdən sonra müxalifətin bəzi mitinq cəhdləri də böyük maraq doğururdu və bəzi jurnalistlər artıq başlıqları da hazırlamışdılar ki, sabah öz qəzetlərində, yaxud telekanallarında çevriliş haqqında məlumat verəcəklər. Ancaq Azərbaycan xalqı bir daha göstərdi ki, o, kimin tərəfindədir və seçkilər bunu bir daha sübut etdi. Bəziləri, müxtəlif ictimai əsaslarla fəaliyyət göstərən təşkilatlar hesab edirdilər ki, bu seçkilərdən sonra Azərbaycan iqtidarı və onun Prezidenti zəifləyəcək və belə olan halda, Azərbaycanda hansısa işləri görmək daha da asan olacaqdır. İqtidar yaralı, zəif olacaq və bunun nəticəsində burada müəyyən maraqlar təmin ediləcəkdir. Amma həyat göstərdi ki, Azərbaycan iqtidarı bu seçkilərdən sonra daha da möhkəmləndi.

Bir də bilirsiniz ki, on ay ərzində iqtisadiyyatı 23 faiz artan ölkələrdə, adətən, çevrilişlər baş vermir. Bizim uğurlu iqtisadi, sosial siyasətimiz xalq tərəfindən bəyənilir və dəstəklənir. Azərbaycanda yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşübdür. Keçən il təxminən 9 faiz aşağı düşübdür. Artıq mənə

verilmiş ilkin məlumatlara görə, bu il də kəskin şəkildə aşağı düşəcəkdir. 300 mindən artıq yeni iş yerlərinin yaradılması, iqtisadi islahatlar, sənaye istehsalının 30 faiz artması heç bir ölkədə yoxdur. On ayda ümumi daxili məhsulun 23 faiz artması heç bir ölkədə yoxdur. Maaşlar qalxır, tələbələrin təqaüdləri qalxdı, müxtəlif kateqoriyalı insanların maaşları qalxır. Bu proses davam edəcəkdir. Bizim büdcəmiz 67 faiz artıb, 4 milyard dollara gəlib çatıbdır. İki il bundan əvvəl 1 milyard dollar səviyyəsində idi. İnvestisiya xərclərimiz artır, geniş abadlıq, quruculuq işləri aparılır. Rayonlar abadlaşır, ən ucqar kəndlərə yollar salınır, su, neft kəmərləri çəkilir, elektrik stansiyaları, məktəblər, xəstəxanalar tikilir. Bunu görməmək mümkün deyildir. Bunu biz də görürük, insanlar da görürlər.

Mənim məqsədim ondan ibarətdir ki, bu gözəl makroiqtisadi göstəriciləri biz insanların gündəlik həyatının normasına çevirək. Çünki adi vətəndaşı ümumi daxili məhsul və onun yüksəlməsi o qədər də maraqlandırmır. Bəlkə də bilmir bu nədir. Onu real həyatı, güzəranı maraqlandırır. Biz bunu təmin etməliyik. Ancaq bunu mərkəzdən etmək mümkün deyildir. Biz bütün qərarları burada qəbul edirik. Maliyyə nizam-intizamını möhkəmləndiririk. Büdcə gəlirlərini artırırıq. Azərbaycanda iqtisadi islahatların aparılması üçün lazımi qərarlar qəbul edirik. Ancaq əgər yerlərdə rüşvətxor məmurlar buna imkan yaratmırsa, onda bizim heç bir planımız, proqramımız həyatda öz əksini tapa bilməz. Ona görə mənim tərəfimdən son müddət ərzində bir çox rayonlarda icra hakimiyyətinin başçıları dəyişdirildi və indi onların, mənim təyin etdiyim insanların tam əksəriyyəti yaxşı işləyir.

Yenə də parlamentdə bu demokratik inkişaf prosesinə, ictimai nəzarət məsələsinə qayıdıram. İctimai nəzarət olmalıdır, o cümlədən parlament tərəfindən ki, büdcə xərclərindən necə istifadə olunur. 4 milyard dollar son həddi deyildir. Biz bilirik ki,

bu, gələcəkdə 5 milyard dollara çatacaq, ondan sonra daha böyük olacaqdır. Xərclər artdıqca, nəzarət də güclənməlidir. Bu, mütləq və mütləq olmalıdır. Çünki hər bir vətəndaş bunu öz gündəlik həyatında hiss etməlidir. Mən şübhə etmirəm ki, qarşıda qoyulmuş bütün vəzifələr uğurla icra ediləcəkdir. Son iki ilin təcrübəsi bunu əyani şəkildə göstərir. Nəyi demişiksə, onu da etmişik. Bilirdik ki, nəyi edə bilməyəcəyik, onu deməmişik. Onu sonra deyəcəyik. Nə vaxt ki, buna zəmin yaranacaqdır. Heç vaxt, heç bir populist vədlə çıxış etməmişik. Bəzi müxalifət nümayəndələrindən fərqli olaraq, deməmişik ki, biz hər bir vətəndaşa 200 dollar pul verəcəyik. Çünki biz öz insanlarımıza, vətəndaşlarımıza hörmətlə yanaşırıq.

Biz bilirik ki, Azərbaycan xalqının çox böyük intellektual potensialı var. Azərbaycan xalqı dünyada gedən prosesləri çox yaxşı bilir. Əgər onlara deyirlərsə ki, hər bir vətəndaşa 200 dollar pul veriləcək, sadəcə onlar bunu təhqir kimi qəbul edirlər ki, görün, Azərbaycan xalqı haqqında nə fikirdədirlər? Əgər onlar hakimiyyətə gəlsələr, Azərbaycan xalqı ilə necə rəftar edəcəklər? Biz bunu 1990-cı illərin əvvəllərində görmüşük. Azərbaycan xalqı da bunu görübdür, yaxşı xatırlayır və Azərbaycanı bərbad vəziyyətə salan, bu ölkəni talayan, Azərbaycanda vətəndaş müharibəsini başlayan, Azərbaycanı uçuruma sürükləyən qüvvələrə Azərbaycan siyasətində heç vaxt yer olmayacaqdır. Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcəkdir.

Bir-iki kəlmə də xarici siyasət haqqında demək istəyirəm. Çünki parlamentin funksiyası həm də parlamentlərarası əlaqələri möhkəmləndirməkdən ibarətdir. Artıq bizim müxtəlif beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlığımız var. Mən hesab edirəm ki, parlament bu məsələyə böyük diqqət göstərməlidir. Mən də, yəqin siz də xarici səfərlərdə bunun şahidi oluruq ki, Azərbaycan haqqında məlumat kifayət qədər deyildir. Azərbaycan həqiqətləri barədə dünya ictimaiyyətinin o qədər də xəbəri

yoxdur. Ona görə hər bir nümayəndə heyətinin səfəri həm də bu məqsədi daşımalıdır. Təsadüfi deyil ki, son iki il ərzində bir sıra xarici ölkələrdə Azərbaycanın səfirlikləri açılıbdır. Bu, o məqsədi daşıyır. Yəni, bir tərəfdən, diplomatiyamız daha fəal, çevik olsun, digər tərəfdən, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdırılsın. Ona görə parlamentin də bu istiqamətdə böyük addımları olmalıdır. Bütövlükdə, parlamentin bu sahədə fəaliyyəti təqdirəlayiqdir və daha da güclənməlidir.

Azərbaycanın xarici siyasəti dəyişməz olaraq qalır. Biz öz siyasətimizi ilk növbədə, Azərbaycan xalqının maraqları üzərində qururuq və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Biz bütün dostlarımızla, tərəfdaşlarımızla yaxşı münasibətlərin olmasını istəyirik. Mən çox məmnunam ki, qonşularımızla münasibətlərimiz çox yüksək səviyyədədir və gündən-günə güclənir. Bu, çox vacibdir. Çünki biz burada, bu bölgədə yaşayırıq. Qonşularımızın arasında yaşayırıq. Əlbəttə, qonşularla yaxşı münasibətlərin qurulması ölkədə və bölgədə sabitliyin, əməkdaşlığın əsaslarını möhkəmləndirir. Digər tərəfdən, Azərbaycan regional müstəvidə çox fəal iştirak edir və mübaliğəsiz demək olar ki, artıq regionda lider dövlətə çevrilib və öz mövqelərini möhkəmləndiribdir.

Bizim Avratlantik strukturları ilə əməkdaşlığımız çox səmərəlidir və müsbətdir. Bu istiqamətə böyük diqqət göstərilir və xarici siyasətimizin bu istiqaməti növbəti illərdə daha da güclənməlidir. Avropa İttifaqı ilə əlaqələr yüksək səviyyədədir. Azərbaycan beş ildir Avropa Şurasının üzvüdür və Avropa Şurası ilə artıq çox gözəl əməkdaşlıq edir. Onu da demək istəyirəm ki, bunu indi yeni seçilmiş deputatlar da bilsinlər. Avropa Şurası yalnız Azərbaycan üzrə məruzəçilərdən ibarət deyildir. Bunu da bilin.

Avropa Şurası o təşkilatdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edibdir. Bax, o qətnamədə Ermənistanı işğalçı dövlət kimi ifşa edibdir. İlk dəfə olaraq yazılmışdır ki, Ermənistan! Yazılmamışdır ki, hansısa erməni qüvvələri, yaxud ermənilər. Yazılmışdır ki, Avropa Şurasının bir ölkəsi Avropa Şurasının digər ölkəsinə qarşı təcavüz edibdir. Bu təcavüz nəticəsində 20 faiz torpaq işğal altına düşüb, 1 milyondan artıq qaçqın-köçkün yaranıbdır. Ona görə biz bu istiqaməti gərək yaxından təqib edək və Avropa Şurası ilə əməkdaşlığımızı daha da möhkəmləndirək.

İslam Konfransı Təşkilatı ilə bizim çox gözəl əməkdaşlığımız var. İslam Konfransı Təşkilatı o təşkilatdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair öz qərarlarını dəfələrlə ortaya qoymuşdur. Bütövlükdə, islam dünyası ilə bizim münasibətlərimiz daha da fəal olmalıdır. İslam həmrəyliyi prinsipləri daha da geniş tətbiq olunmalıdır. Şübhəsiz ki, bu təşkilatla bizim əməkdaşlığımız prioritet xarakter daşıyır.

Azərbaycan MDB çərçivəsində fəaliyyət göstərir və öz fəaliyyətini davam etdirəcəkdir. Mən MDB-nin zirvə görüşlərində iştirak edirəm. O görüşlər də imkanlar yaradır ki, MDB ölkələrinin dövlət başçıları ilə ikitərəfli formatda müzakirələr aparılsın. Nüfuzu artmaqda olan GUAM təşkilatında Azərbaycan fəal rol oynayır. Hamımız yaxşı bilirik ki, GUAM-ın yaranmasında Azərbaycanın və onun lideri Heydər Əliyevin ən böyük rolu olmuşdur. Bu gün bu təşkilat, necə deyərlər, yeni bir müstəviyə qədəm qoyur. Təşkilatın yeni perspektivləri açılır və əlbəttə, Azərbaycanın bu təşkilatda iştirakı təşkilatın daha da güclənməsinə xidmət göstərir.

Əlbəttə, bizim üçün ən ağrılı, ən problemli olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bildiyiniz kimi, danışıqlar aparılır. Prezidentlər, xarici işlər nazirləri görüşürlər. Müsbət hal ondan ibarətdir ki, artıq

danışıqlar Praqa prosesi çərçivəsində aparılır. Praqa prosesi də hamımız bilirik ki, mərhələli həll deməkdir. Bu, həmişə bizim mövqeyimiz olubdur. Həmişə demişik ki, Dağlıq Qarabağ problemi yalnız mərhələli həll əsasında öz həllini tapa bilər. Bu gün bu istiqamətdə işlər aparılır. Müxtəlif variantlar müzakirə olunur.

Deyə bilərəm ki, Minsk qrupunun fəaliyyəti son zamanlar daha da gözəgörünən olubdur. Bu da təqdirəlayiq bir haldır. Minsk qrupunun fəaliyyəti onu göstərir ki, həqiqətən, indi Minsk qrupunun və onun həmsədrlərinin marağı var ki, bu məsələ öz həllini tapsın. Ancaq istəyirəm, indi burada öz mövqeyimi bir daha bildirim. Bunu həm Minsk qrupuna, həm də Ermənistan rəhbərliyinə, bu məsələ ilə məşğul olan bütün başqa tərəflərə demişəm, bu gün də deyirəm. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Başqa heç bir variant müzakirə olunmur. Başqa heç bir variant nəzərdən keçirilmir. Bu, bizim prinsipial mövqeyimizdir.

Mən bunu çox müsbət hal kimi qiymətləndirirəm ki, artıq bu tezis münaqişənin həlli ilə məşğul olan tərəflərdə də öz çəkisini artırır. Bu, bizim prinsipial mövqeyimizdir. Bu, o həddir ki, bu həddən o tərəfə biz heç vaxt, heç bir güzəştə gedə bilmərik. Bəzi hallarda deyirlər ki, qarşılıqlı güzəştlər olmalıdır. Mən sual verirəm, bizim nəyimiz var ki, onu ermənilərə güzəştə gedək? Bizim torpaqlarımız işğal altındadır, bizim soydaşlarımız qaçqın-köçkün şəraitində yaşayırlar. Bizim Ermənistana məxsus nəyimiz var ki, onlara qaytaraq? Ona görə qarşılıqlı güzəştlər deyəndə, gərək bilək, biz nəyi nəzərdə tuturuq. Azərbaycan tərəfindən indiki şəraitdə, Azərbaycanın gücləndiyi bir dövrdə, hərbi büdcəmiz 600 milyon dollar səviyyəsinə qalxdığı bir dövrdə, - bu da son həddi deyil, - bölgədə liderlik mövqelərini

möhkəmləndirdiyi bir dövrdə on ildən artıq danışıqların aparılması da böyük güzəştdir. Bunu hamı bilməlidir.

Bizim səbrimiz tükənməz deyildir. Biz öz sülh siyasətimizi bəyan etmişik. Bizim bu danışıqlarda qalmağımız da onu göstərir ki, məsələni sülh yolu ilə həll etmək istəyirik. Bu gün bir daha deyirəm, hələ ki sülh prosesinin potensialı tükənməyibdir. Ona görə gərək biz bundan istifadə edək. Amma nə vaxta qədər?! On ildən artıqdır atəşkəs rejimində yaşayırıq. On ildən artıqdır danışıqlar gedir və heç bir nəticə yoxdur. İndi biz diplomatik uğurlardan danışsaq, onun hələlik heç bir əhəmiyyəti yoxdur. Baxmayaraq ki, Birləşmiş Millətlər Təşkilatı artıq bu məsələ ilə bağlı ciddi məşğul olur və gündəliyə məsələ salınıbdır. ATƏT-in faktaraşdırıcı missiyası bizim xahişimizlə və təkidimizlə bölgəyə, işğal olunmuş torpaqlara öz nümayəndələrini göndərmişdir. Orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Avropa Şurası tərəfindən çox müsbət qətnamə qəbul edilmişdir. Bütün bunlar bizim diplomatik uğurlarımızdır. Ancaq əgər məsələ öz həllini tapmırsa, bunların heç bir əhəmiyyəti yoxdur. Biz çalışırıq və çalışacağıq ki, bütün imkanlardan istifadə edib məsələni sülh yolu ilə həll edək. Ancaq eyni zamanda, biz güclü olmalıyıq. Güclü olan dövlət hər şeyə qadirdir. Biz iqtisadi potensialımızı gücləndirməliyik, büdcəmizi artırmalıyıq, siyasi çəkimizi artırmalıyıq və Azərbaycan güclü dövlət olandan sonra istənilən məsələni asanlıqla həll edə bilər.

Əziz dostlar!

Hörmətli deputatlar!

Mən sizin vaxtınızı çox almaq istəmirəm. Düzdür, mən bura üçün bir az darıxmışam. İki ildir ki, buradan ayrılmışam. Amma onu da bilirsiniz ki, mənim həyatımın səkkiz ili deputat kimi bu binada keçibdir. Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir. Burada əyləşənlərin bir çoxu ilə biz birlikdə işləmişik, çalışmışıq və bu gün də işləyirik.

Baxmayaraq ki, mən artıq başqa vəzifədəyəm, amma bizim əlaqələrimiz davam edir. Biz bir məqsədə qulluq edirik. Amalımız da, məramımız da birdir - ölkəmizi möhkəmləndirmək, gücləndirmək, Azərbaycan xalqının rihaf halını yaxşılaşdırmaq, güclü, zəngin dövlət yaratmaqdır.

Mən bu gün bu kürsüdən çıxış edərkən, əlbəttə, o illəri də xatırlayıram, öz fəaliyyətimi xatırlayıram. Bir daha deyə bilərəm ki, müstəqil Azərbaycan Respublikasının millət vəkili, Milli Məclisin deputatı olmaq böyük şərəfdir və böyük məsuliyyətdir. Mən sizə arzu edirəm ki, bu şərəfli missiyanızı uğurla icra edəsiniz, səmərəli işləyəsiniz və doğma vətənimizin çiçəklənməsi üçün öz töhfənizi verəsiniz. Sağ olun, sizə uğurlar arzulayıram.

BİBLİOQRAFİYA

1 Bax: AzərTAc, 12 mart 2005-ci il

2 Bax: «Международный исторический ъурнал», 2000, №7, Москва

3 Bax: «Exo» qəzeti, 14 yanvar 2005-ci il

4 Bax: «Бархатные революции в странах Восточной Европы в 1989 году. С.Г. Кара-Мурза, «Революции на экспорт», Москва, 2006

5 Bax: AzərTAc, 2 dekabr 2005-ci il

6 Bax: «Azərbaycan» qəzeti, 5 mart 2001-ci il

7 Bax: «Bizim Əsr» qəzeti, 19 aprel 2002-ci il

8 Bax: www.panarmenian.net saytı, 29 yanvar 2003-cü il

9 Bax: «Azərbaycan» qəzeti, 9 aprel 2003-cü il

10 Bax: «Azərbaycan» qəzeti, 18 iyul 2003-cü il

11 Bax: «Azadlıq» qəzeti, 1-3 mart 2003-cü il

12 Bax: «Azərbaycanda 2003-cü ilin prezident seçkiləri: namizədlər, reallıqlar, perspektivlər», «İzvestiya» qəzeti, 27 mart 2003-cü il

13 Bax: AzərTAc, 29 may 2003-cü il

14 Bax: AzərTAc, 9 iyun 2003-cü il

15 Bax: AzərTAc, 6 avqust 2003-cü il

16 Bax: AzərTAc, 29 avqust 2003-cü il

17 Bax: «Yeni Müsavat» qəzeti, 9 avqust 2003-cü il

18 Bax: «Yeni Müsavat» qəzeti, 8 avqust 2003-cü il

19 Bax: «Yeni Müsavat» qəzeti, 30 sentyabr 2003-cü il

20 Bax: AzərTAc, 4 oktyabr 2004-cü il

21 Bax: «Bizim Əsr» qəzeti, 16 aprel 2003-cü il

22 Bax: «Yeni Müsavat» qəzeti, 5 noyabr 2003-cü il

23 Bax: «Yeni Müsavat» qəzeti, 6 noyabr 2003-cü il

24 Bax: «Yeni Müsavat» qəzeti, 9 noyabr 2003-cü il

25 Bax: «Yeni Müsavat» qəzeti, 24 noyabr 2003-cü il

26 Bax: AzərTAc, 24 noyabr 2003-cü il

27 Bax: «Yeni Müsavat» qəzeti, 10 noyabr 2003-cü il

28 Bax: «Yeni Müsavat» qəzeti, 18 dekabr 2003-cü il

29 Bax: AzərTAc, 8 avqust 2003-cü il

30 Bax: Abutalıb Səmədov, «Prezident İlham Əliyev», I cild, Bakı-2007, səh. 286

31 Bax: «Yeni Müsavat» qəzeti, 18 dekabr 2003-cü il

32 Bax: AzərTAc, 1 noyabr 2003-cü il

33 Bax: AzərTAc, 6 oktyabr 2003-cü il

34 Bax: «Yeni Azərbaycan qəzeti, 4 dekabr 2003-cü il

35 Bax: AzərTAc, 6 noyabr 2003-cü il

36 Bax: «Bizim Əsr» qəzeti, 13 mart 2004-cü il

37 Bax: AzərTAc, 10 fevral 2004-cü il

38 Bax: AzərTAc, 9 iyul 2004-cü il

39 Bax: AzərTAc, 5 mart 2004-cü il

40 Bax: AzərTAc, 11 mart 2004-cü il

41 Bax: AzərTAc, 20 yanvar 2004-cü il

42 Bax: AzərTAc, 12 sentyabr 2004-cü il

43 Bax: AzərTAc, 31 oktyabr 2003-cü il

44 Bax: «Yeni Müsavat» qəzeti, 21-22 iyun 2004-cü il

45 Bax: «Yeni Müsavat» qəzeti, 2-3 iyul 2004-cü il

46 Bax: AzərTAc, 4 oktyabr 2004-cü il

47 Bax: AzərTAc, 11 mart 2004-cü il

48 Bax: AzərTAc, 29 aprel 2004-cü il

49 Bax: AzərTAc, 2 sentyabr 2004-cü il

50 Bax: AzərTAc, 15 oktyabr 2004-cü il

51 Bax: «Yeni Müsavat» qəzeti, 27 avqust 2004-cü il

52 Bax: AzərTAc, 7 dekabr 2004-cü il

53 Bax: «Yeni Müsavat» qəzeti, 9 iyun 2004-cü il

54 Bax: «Azadlıq» qəzeti, 5 noyabr 2004-cü il

55 Bax: «Bizim Əsr» qəzeti, 12 oktyabr 2004-cü il

56 Bax: «Yeni Müsavat» qəzeti, 25 oktyabr 2004

57 Bax: «Yeni Müsavat» qəzeti, 23 noyabr 2004-cü il

58 Bax: «Bizim Əsr» qəzeti, 27 noyabr 2004-cü il

59 Bax: «Səs» qəzeti, 16 dekabr 2004-cü il

60 Bax: «525-ci qəzet», 5 mart 2005-ci il

61 Bax: «Yeni Müsavat» qəzeti, 15 mart 2005-ci il

62 Bax: «525-ci qəzet», 26 mart 2005-ci il

63 Bax: «Yeni Müsavat» qəzeti, 25 mart 2005-ci il

64 Bax: «Səs» qəzeti, 1 dekabr 2004-cü il

65 Bax: AzərTAc, 17 dekabr 2004-cü il

66 Bax: «Yeni Müsavat» qəzeti, 12 fevral 2005-ci il

67 Bax: «Exo» qəzeti, 5 fevral 2005-ci il

68 Bax: «Yeni Müsavat» qəzeti, 25 fevral 2005-ci il

69 Bax: «Yeni Müsavat» qəzeti, 19 yanvar 2005-ci il

70 Bax: «Nezavisimaya qazeta», 14 fevral 2005-ci il)

71 Bax: «Azadlıq» qəzeti, 29 yanvar 2005-ci il

72 Bax: AzərTAc, 11 fevral 2005-ci il

73 Bax: «Nezavisimaya qazeta», 14 fevral 2005-ci il

74 Bax: AzərTAc, 4 mart 2005-ci il

75 Bax: AzərTAc, 4 mart 2005-ci il

76 Bax: Yenə orada

77 Bax: Yenə orada

78 Bax: «Yeni Müsavat» qəzeti, 7 mart 2005-ci il

79 Bax: «Yeni Müsavat», 8 mart 2005-ci il

80 Bax: AzərTAc, 4 mart 2005-ci il

81 Bax: AzərTAc, 12 mart 2005-ci il

82 Bax: «525-ci qəzet», 9 aprel 2005-ci il

83 Bax: «Hürriyyət» qəzeti, 11-18 aprel 2005-ci il

84 Bax: AzərTAc, 12 mart 2005-ci il

85 Bax: AzərTAc. 22 mart 2005-ci il

86 Bax: «Yeni Müsavat» qəzeti, 26 mart 2005-ci il

87 Bax: «Yeni Müsavat» qəzeti, 30 mart 2005-ci il

88 Bax: «Yeni Müsavat» qəzeti, 23 mart 2005-ci il

89 Bax: «Yeni Müsavat» qəzeti, 14 aprel 2005-ci il

90 Bax: AzərTAc, 26 mart 2005-ci il

91 Bax: Abutalıb Səmədov, «Prezident İlham Əliyev», I cild, Bakı-2007, səh. 152

92 Bax: «Yeni Müsavat» qəzeti, 30 mart 2005-ci il

93 Bax: «Yeni Müsavat» qəzeti, 22 aprel 2005-ci il

94 Bax: «Hürriyyət» qəzeti, 18-25 aprel 2005-ci il

95 Bax: «Yeni Müsavat» qəzeti, 22 aprel 2005-ci il

96 Bax: «525-ci qəzet», 11 may 2005-ci il

97 Bax: «525-ci qəzet», 19 may 2005-ci il

98 Bax: «Azərbaycan» qəzeti 28 may 2005-ci il

99 Bax: «Xalq qəzeti», 25 may 2005-ci il

100 Bax: «Yeni Müsavat» qəzeti, 11 aprel 2005-ci il

101 Bax: «Azadlıq» qəzeti, 20 aprel 2005-ci il

102 Bax: «Hürriyyət» qəzeti, 2-8 may 2005-ci il

103 Bax: «Azadlıq» qəzeti. 11 may 2005-ci il

104 Bax: «Hürriyyət» qəzeti, 20-26 iyun 2005-ci il

105 Bax: «Xalq qəzeti», 26 aprel 2005-ci il

106 Bax: AzərTAc, 4 may 2005-ci il

107 Bax: «Xalq qəzeti», 28 may 2005-ci il

108 Bax: AzərTAc, 7 iyun 2005-ci il

109 Bax: AzərTAc, 28 iyun 2005-ci il

110 Bax: «Hürriyyət» qəzeti, 18-25 aprel 2005-ci il

111 Bax: «Zerkalo» qəzeti, 23 aprel 2005-ci il

112 Bax: «Hürriyyət» qəzeti, 5-11 iyul 2005-ci il

113 Bax: AzərTAc, 28 iyun 2005-ci il

114 Bax: «Azadlıq» qəzeti, 9 iyul 2005-ci il

115 Bax: «525-ci qəzet», 16 iyul 2005-ci il

116 Bax: AzərTAc, 23 avqust 2005-ci il

117 Bax: Yenə orada

118 Bax: «Xalq qəzeti», 8 iyul 2005-ci il

119 Bax: «525-ci qəzet», 12 avqust 2005-ci il

120 Bax: «Hürriyyət» qəzeti, 16-22 may 2005-ci il

121 Bax: «Hürriyyət» qəzeti, 1-7 avqust 2005-ci il

122 Bax: AzərTAc, 20 avqust 2005-ci il

123 Bax: «Yeni Müsavat» qəzeti, 1 avqust 2005-ci il

124 Bax: «Yeni Müsavat» qəzeti, 7 avqust 2005-ci il

125 Bax: AzərTAc, 4 avqust 2005-ci il

126 Bax: «Azərbaycan» qəzeti, 23 noyabr 2005-ci il

127 Bax: «Xalq qəzeti», 21 avqust 2005-ci il

128 «Azərbaycan» qəzeti, 11 sentyabr 2005-ci il

129 Bax: «Yeni Müsavat» qəzeti, 24 avqust 2005-ci il

130 Bax: «Hürriyyət» qəzeti, 12-18 sentyabr 2005-ci il

131 Bax: «Yeni Müsavat» qəzeti, 24 avqust 2005-ci il

132 Bax: «Hürriyyət» qəzeti, 8-14 avqust 2005-ci il

133 Bax: AzərTAc, 3 noyabr 2005-ci il

134 Bax: «Yeni Müsavat» qəzeti, 28 avqust 2005-ci il

135 Bax: «Yeni Müsavat» qəzeti, 9 sentyabr 2005-ci il

136 Bax: «Azərbaycan» qəzeti, 11 sentyabr 2005-ci il

137 Bax: AzərTAc, 6 oktyabr 2005-ci il

138 Bax: «Yeni Müsavat» qəzeti 23 sentyabr 2005-ci il

139 Bax: «Azadlıq» qəzeti, 20 oktyabr 2005-ci il
140 Bax: AzərTAc, 19 oktyabr 2005-ci il
141 Bax: APA, 27 sentyabr 2005-ci il
142 Bax: «Yeni Müsavat» qəzeti, 18 dekabr 2003-cü il
143 Bax: AzərTAc, 3 noyabr 2005-ci il
144 Bax: AzərTAc, 3 oktyabr 2005-ci il
145 Bax: AzərTAc, 20 oktyabr 2005-ci il
146 Bax: «Zerkalo» qəzeti, 9 iyul 2005-ci il
147 Bax: «Zerkalo» qəzeti, 23 sentyabr 2005-ci il
148 Bax: AzərTAc, 20 avqust 2005-ci il
149 Bax: «Hürriyyət» qəzeti, 3-9 oktyabr 2005-ci il
150 Bax: «Yeni Müsavat» qəzeti, 13 oktyabr 2005-ci il
151 Bax: «Yeni Müsavat» qəzeti, 28 avqust 2005-ci il
152 Bax: APA, 9 iyul 2005-ci il
153 Bax: «Zerkalo» qəzeti, 9 iyul 2005-ci il
154 Bax: «Nezavisimaya qazeta», 12 oktyabr 2005-ci il
155 Bax: «Yeni Müsavat» qəzeti, 16 oktyabr 2005-ci il
156 Bax: «Yeni Müsavat» qəzeti, 17 oktyabr 2005-ci il
157 Bax: AzərTAc, 17 oktyabr 2005-ci il
158 Bax: «Hürriyyət» qəzeti, 17-23 oktyabr 2005-ci il
159 Bax: AzərTAc, 17 otyabr 2005-ci il
160 Bax: AzərTAc, 18 oktyabr 2005-ci il
161 Bax: «Nezavisimaya qazeta», 20 oktyabr 2005-ci il
162 Bax: AzərTAc, 19 oktyabr 2005-ci il
163 Bax: AzərTAc, 20 oktyabr 2005-ci il
164 Bax: AzərTAc, 21 oktyabr 2005-ci il
165 Bax: «Xalq qəzeti», 7 oktyabr 2005-ci il
166 Bax: AzərTAc, 19 oktyabr 2005-ci il
167 Bax: AzərTAc, 1 noyabr 2005-ci il

168 Bax: «525-ci qəzet, 12 aprel 2007-ci il
169 Bax: «Yeni Müsavat» qəzeti, 31 oktyabr 2005-ci il
170 Bax: AzərTAc, 19 oktyabr 2005-ci il
171 Bax: AzərTAc, 3 noyabr 2005-ci il
172 Bax: Yenə orada.
173 Bax: AzərTAc, 27 oktyabr 2005-ci il
174 Bax: AzərTAc, 25 oktyabr 2005-ci il
175 Bax: Yenə orada.
176 Bax: AzərTAc, 20 oktyabr 2005-ci il
177 Bax: AzərTAc, 29 oktyabr 2005-ci il
178 Bax: AzərTAc, 28 oktyabr 2005-ci il
179 Bax: AzərTAc, 3 noyabr 2005-ci il
180 Bax: AzərTAc, 8 noyabr 2005-ci il
181 Bax: «Hürriyyət» qəzeti, 7-13 noyabr 2005-ci il
182 Bax: AzərTAc, 8 noyabr 2005-ci il
183 Bax: AzərTAc, 7 noyabr 2005-ci il
184 Bax: «Trend», 10 noyabr 2005-ci il
185 Bax: AzərTAc, 9 noyabr 2005-ci il
186 Bax: AzərTAc, 10 noyabr 2005-ci il
187 Bax: AzərTAc, 11 noyabr 2005-ci il
188 Bax: AzərTAc, 12 noyabr 2005-ci il
189 Bax: AzərTAc, 11 noyabr 2005-ci il
190 Bax: AzərTAc, 11 noyabr 2005-ci il
191 Bax: AzərTAc, 11 noyabr 2005-ci il
192 Bax: APA, 23 noyabr 2005-ci il
193 Bax: «Hürriyyət» qəzeti, 21-27 noyabr 2005-ci il
194 Bax: AzərTAc, 19 noyabr 2005-ci il
195 Bax: APA, 2 dekabr 2005-ci il
196 Bax: «Hürriyyət», 28 noyabr-4 dekabr 2005-ci il

197 Bax: AzərTAc, 2 dekabr 2005-ci il

198 Bax: Yenə orada

199 Bax: Yenə orada

200 Bax: Yenə orada

201 Bax: AzərTAc, 16 noyabr 2005-ci il

202 Bax: Yenə orada.

203 Bax: «Ekspress» qəzeti, 29 noyabr 2005-ci il

204 Bax: AzərTAc, 11 noyabr 2005-ci il

205 Bax: AzərTAc, 7 fevral 2006-cı il

206 Bax: AzərTAc, 31 yanvar 2006-cı il

207 Bax: Yenə orada.

208 Bax: «Yeni Müsavat», 16 yanvar 2006-cı il

209 Bax: AzərTAc, 24 sentyabr 2007-ci il

210 Bax: AzərTAc, 2 oktyabr 2006-cı il

MÜNDƏRİCAT

1 Şərqi Avropada məxməri inqilablar.....9

2 Azərbaycan müxalifətinin «inqilab» xəyalları.....29

3 Gürcüstanda «qızılgül inqilabı»: səbəb və nəticələr.....53

4 Azərbaycan yeni inkişaf yolunda.....77

5 Ukraynada «narıncı» inqilab: Azərbaycan müxalifəti «toy generalı» rolunda.....107

6 Qırğızıstanda daş-kəsəkli «zanbaq» çevrilişi – «məxməri» ideyanın iflası.....129

7 Müxalifətdə «inqilab» həyəcanı və «böyük-kiçik» davası.....147

8 Kriminal üzərindən siyasət - «üçlər»in bədnam seçki taktikası....165

9 Prezident İlham Əliyev opponentlərini ləyaqətli mübarizəyə dəvət edir.....181

10 Azərbaycan lideri azad və şəffaf seçkilərə təminat verir: «Məni heç nə qorxutmur, çünki xalqın dəstəyinə arxalanıram».197

11 «Narıncı» koalisiya sponsor axtarışında: erməni puluna «inqilab» sifarişi.....223

12 Köhnədəbli siyasi mazoxizm: radikal müxalifət seçki mübarizəsini qarşıdurma müstəvisinə keçirir.....245

13 «Birləşmiş» müxalifətin oktyabr iflası.....271

14 Hakimiyyətdə böyük təmizlik və satqın məmurların ifşası.....297

15 Prezident İlham Əliyev parlament seçkilərini böyük zəfərlə başa vurdu.....315

16 «Narıncı» komediyanın sonu.....327

17 Azərbaycanda inqilab niyə baş vermədi?.....349

18 Rəsmi materiallar.....385

19 Biblioqrafiya.....450

Çapa imzalanmışdır: 01.10.2007
Kağız formatı: 60x84 1/8. Həcmi: 58
Sifariş: 167. Tiraj: 500.

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05
mətbəəsində çap olunmuşdur



Abutalıb Səmədov

1961-ci il fevralın 19-da Tovuz şəhərində doğulub.
Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib.
Hüquqşünasdır.
İkinci çağırış Milli Məclisin üzvü olmuşdur.
Azərbaycan Respublikası Müəllif Hüquqları Ageqntliyinin sədridir.
Ulu Öndər Heydər Əliyevə həsr olunmuş "Azərbaycanın qurtuluş tarixi" (4 cilddə), "Böyük Xilaskar, "Həqiqət - necə varsa. Azərbaycan-1993" (2 cilddə), "Böyük siyasətin təntənəsi" kitablarının müəllifidir.